Azərbaycan dövləti möhkəm əsaslar üzərində qurulubdur. Biz son 15 il ərzində milli dəyərlərimizlə bağlı çox ciddi siyasət aparırıq. Bizim milli dəyərlərimiz, ənənəvi dəyərlər bizim üçün əsasdır. Çox şadam ki, bu gün gənc nəsil milli ruhda tərbiyə olunur və milli ləyaqət hissləri güclənir, müstəqillik ən böyük sərvət kimi cəmiyyət tərəfindən qəbul edilir və dəstəklənir.

İLHAM ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

ISSN 2309-1347

Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası

DÖVLƏT İDARƏÇİLİYİ:

NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ

2018
2 (62)

DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI
BAKI – 2018

Demokratik cəmiyyətdə dövlət idarəçiliyinin, yerli özünüidarəetmənin nəzəriyyəsi və təcrübəsi üzrə tədqiqatlar

REDAKSİYA ŞURASI: ***Ramiz Mehdiyev*** *(sədr)*

Əli Həsənov, Novruz Məmmədov, Zeynal Nağdəliyev, Əli Əhmədov, Akif Əlizadə, Urxan Ələkbərov

REDAKSİYA HEYƏTİ: ***Urxan Ələkbərov***
(redaktor)

Əlikram Abdullayev
(redaktor müavini)

Elman Nəsirov
(məsul katib)

Əli Nuriyev, Ədalət Muradov, Mehdi Abdullayev, Sevil Məmmədova, Fəxrəddin Nağıyev, Gülnarə Qurbanova, Etibar Nəcəfov, Elçin Əhmədov, Ziyafət Həbibova, Rəcəb Rəhimli, Firdovsiyyə Əhmədova,

Elmi-nəzəri jurnal 2003-cü ildən nəşr olunur. İldə dörd dəfə çıxır.

Jurnal AAK-ın ictimai elmlər şöbəsinin ekspert şurası tərəfindən rəsmi qeydiyyatdan keçirilmiş və elmi nəşrlər siyahısına daxil edilmişdir.

Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə.
Elmi-nəzəri jurnal. 2018, №2(62).
Bakı, Dövlət İdarəçilik Akademiyasının (DİA) nəşri, 2018, 336s.

© Dövlət İdarəçilik Akademiyası, 2018

ISSN 2309-1347

**The Academy of Public Administration
under the President of the Republic of Azerbaijan**

PUBLIC ADMINISTRATION:
THEORY AND PRACTICE

2018
2 (62)

ACADEMY OF PUBLIC ADMINISTRATION

BAKU – 2018

Research Dedicated to the Theory and Practice of Public Administration and Application of Decentralized Governance in Democratic Society

EDITORIAL COUNCIL: ***Ramiz Mehdiyev*** *(chairman)*

Ali Hasanov, Novruz Mammadov, Zeynal Naghdaliyev, Ali Ahmadov, Akif Alizadeh, Urkhan Alakbarov

EDITORIAL BOARD: ***Urkhan Alakbarov***
(editor-in-chief)

Alikram Abdullayev
(deputy editor)

Elman Nasirov
(executive secretary)

Ali Nuriyev, Adalat Muradov, Mehdi Abdullayev, Sevil Mammadova, Faxraddin Naghiyev, Gulnara Qurbanova, Etibar Najafov, Elchin Ahmadov, Ziyafet Habibova, Rajab Rahimli, Firdovsiyya Ahmadova

Journal of Public Administration: theory and practice is published since 2003. Quarterly.

The journal is officially registered at the Expert Council of the Department of Social Sciences of Supreme Attestation Commission (SAC) and is included in the register of national scientific publications.

Public Administration: theory and practice
Scientific and theoretical journal. 2018, №2(62)
Baku, Publication of Academy of Public Administration (APA), 2018, 336p.

© Academy of Public Administration, 2018

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FƏALİYYƏTİNİN QISA XRONİKASI

Aprel – may – iyun 2018-ci il

Aprel

2 aprel

- Belarus Respublikasının Baş nazirinin müavini, hökumətlərarası komissiyanın həmsədri Vladimir Semaşkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

3 aprel

- Türkiyə Respublikasının ədliyyə naziri Əbdülhəmid Gülün başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Ekvador Respublikasının xarici işlər naziri xanım Maria Fernanda Espinosa Qarsesi qəbul etmişdir.
- Misir Ərəb Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyi münasibətilə Prezident Əbdülfəttah əs-Sisini təbrik etmişdir.

4 aprel

- Fələstin Dövlətinin xarici işlər naziri Riad Malkini qəbul etmişdir.
- İordaniya Haşimilər Krallığının informasiya və kommunikasiya üzrə dövlət naziri Mohammad əl-Momanini qəbul etmişdir.
- Dünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvilini qəbul etmişdir.
- Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər üzrə dövlət naziri Ənvər Qarqaşın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Hindistan Respublikasının xarici işlər naziri xanım Suşma Svaracın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

5 aprel

- Bakı Konqres Mərkəzində "Davamlı inkişaf naminə beynəlxalq sülh və təhlükəsizliyin təşviq edilməsi" mövzusunda Qoşulmama Hərəkatının nazirlər konfransının açılış mərasimində iştirak etmiş və nitq söyləmişdir.
- Serbiya Respublikası Baş nazirinin birinci müavini və xarici işlər naziri İvitsa Daçiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Nepal Federativ Demokratik Respublikasının xarici işlər naziri Pradip Kumar Qyavalinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Venesuela Bolivar Respublikasının xarici işlər üzrə xalq hakimiyyəti naziri Xorxe Arreasa Monserratın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Koreya Xalq Demokratik Respublikasının xarici işlər naziri Ri Yon-honun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- BMT Baş Assambleyasının 72-ci sessiyasının sədri Miroslav Layçakı qəbul etmişdir.
- Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana müsahibə vermişdir.

6 aprel

- Bakı Ekspo Mərkəzində "AITF-2018" XVII Azərbaycan Beynəlxalq turizm və səyahətlər və "HOREX Caucasus-2018" XII Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar sərgiləri ilə tanış olmuşdur.
- Müqəddəs Pasxa bayramı münasibətilə Azərbaycanın pravoslav xristian icmasını təbrik etmişdir.

8 aprel

- Tkibuli bölgəsində yerləşən kömür mədənində baş vermiş uçqun nəticəsində insan tələfatı və yaralananlar ilə əlaqədar Gürcüstanın Prezidenti Giorgi Marqvelaşviliyə başsağlığı vermişdir.

9 aprel

- Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasına sədrlik etmişdir. İclasda giriş və yekun nitqi söyləmişdir.
- Ölkəsində keçirilmiş parlament seçkilərində başçılıq etdiyi koalisiyanın qazandığı qələbə münasibətilə Macarıstanın Baş naziri Viktor Orbanı təbrik etmişdir.

10 aprel

- Kosta-Rika Respublikasının Prezidenti vəzifəsinə seçilməsi münasibətilə Prezident Karlos Alvarado Kesadanı təbrik etmişdir.

11 aprel

- Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 6 saylı seçki məntəqəsində səs vermişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ona telefonla zəng edərək, Prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik etmiş, Azərbaycan xalqının rifahı naminə Prezidentlik fəaliyyətində ona yeni uğurlar arzulamışdır.

12 aprel

- Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) baş katibi Rəşid Əlimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- MDB-dən seçkilərdə müşahidəçilər missiyasının rəhbəri, MDB İcraiyyə Komitəsinin sədri-icraçı katibi Sergey Lebedevi qəbul etmişdir.

- Mərkəzçi Demokratlar İnternasionalının vitse-prezidenti Mario Davidi qəbul etmişdir.
- Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun həmsədri (AKP) Necdet Ünüvarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Avropa Parlamentində Avropa Mühafizəkarlar və Reformistlər Qrupunun Azərbaycanda seçki müşahidə missiyasının rəhbəri Kozma Zlotovskini qəbul etmişdir.
- Avstraliya Parlamentinin nümayəndələr palatasının deputatı, Avstraliya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun üzvü Stiv Georganasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Yasamal rayonunda Hacı Cavad məscidinin yeni binasının açılışında iştirak etmişdir.
- Heydər Əliyev Mərkəzinin qarşısındakı parkda aprelin 11-də Azərbaycanda keçirilən Prezident seçkilərində Cənab İlham Əliyevin inamlı qələbə qazanması münasibətilə təşkil olunan möhtəşəm konsert proqramında iştirak və çıxış etmişdir.
- Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko telefonla zəng edərək, onu Azərbaycanda keçirilən Prezident seçkilərində böyük səs çoxluğu ilə inamlı qələbə qazanması münasibətilə təbrik etmiş, ona xalqımızın rifahı və Azərbaycanın inkişafı naminə Prezidentlik fəaliyyətində uğurlar arzulamışdır.
- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev telefonla zəng edərək, onu Prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə təbrik etmiş, ona xalqımızın rifahı və Azərbaycanın inkişafı naminə Prezidentlik fəaliyyətində uğurlar arzulamışdır.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin telefonla zəng edərək, onu seçkilərində inamlı qələbə qazanması münasibətilə təbrik etmiş, ona Azərbaycan xalqının firavanlığı və ölkəmizin inkişafı naminə Prezidentlik fəaliyyətində uğurlar arzulamışdır.
- Macarıstanın Baş naziri Viktor Orban telefonla zəng edərək, onu Prezident seçkilərində qələbəsi münasibətilə təbrik etmiş, ona Azərbaycan xalqının rifahı naminə Prezidentlik fəaliyyətində uğurlar arzulamışdır.
- Ukrayna Prezidenti Petro Poroşenko telefonla zəng edərək, onu Prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik etmiş, ona Azərbaycanın tərəqqisi və rifahı naminə Prezidentlik fəaliyyətində uğurlar arzulamışdır.
- Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa telefonla zəng edərək, onu Prezident seçkilərində qələbə qazanması münasibətilə təbrik etmiş, ona Azərbaycan xalqının və dövlətinin rifahı naminə Prezidentlik fəaliyyətində uğurlar arzulamışdır.
- Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırım telefonla zəng edərək, ona Prezident seçkilərində inamlı qələbə qazanması ilə əlaqədar təbriklərini çatdırmış və Azərbaycan xalqının firavanlığı naminə Prezidentlik fəaliyyətində uğurlar arzulamışdır.

13 aprel

- Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani telefonla zəng edərək, onu Prezident seçkilərində qələbə qazanması münasibətilə təbrik etmiş, ona Azərbaycanın inkişafı naminə Prezidentlik fəaliyyətində uğurlar arzulamışdır.

16 aprel

- Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevi yubileyi münasibətilə təbrik etmiş, onu Azərbaycan Respublikasında dövlətçiliyin möhkəmləndirilməsində səmərəli fəaliyyətinə və elmin inkişafında böyük xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə İsrail Dövlətinin Prezidenti Reuven Rivlini təbrik etmişdir.

18 aprel

- Milli Məclisdə keçirilən andiçmə mərasimində iştirak etmiş və nitqi söyləmişdir.
- Andiçmə mərasimindən sonra ailə üzvləri ilə birlikdə Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət etmiş, Ulu Öndərin məzarı önünə əklil qoymuş və onun ruhu qarşısında baş əymişdir.
- Sonra ailə üzvləri ilə birlikdə görkəmli oftalmoloqalim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət etmiş və üzərinə gül dəstələri qoymuşdur.
- Daha sonra tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin məzarlarının üstünə də gül dəstələri düzmüşdür.
- Ailə üzvləri ilə birlikdə xalqımızın müqəddəs and yeri olan Şəhidlər xiyabanını ziyarət edərək, Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla yad etmiş, "Əbədi məşəl" abidəsinin önünə əklil qoymuşdur.
- Ailə üzvləri ilə birlikdə paytaxt Bakının mənzərəsini seyr etmişdir.
- Ailə üzvləri ilə birlikdə Dövlət Bayrağı Meydanında olmuşdur.
- Bakıda keçirilən İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Gənclər və İdman Nazirləri Konfransının dördüncü sessiyasında iştirak edən gənclər və idman nazirləri ilə görüşmüş və görüşdə çıxış etmişdir.
- Sonra İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumu İdarə Heyətinin qərarına əsasən, İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun yaranması və inkişa-

fındakı təşəbbüs və roluna, İslam Əməkdaşlıq Təşkilatı gəncliyinin inkişafına yönəlmiş fəaliyyətlərə və quruma üzv ölkələr arasında həmrəyliyin gücləndirilməsinə verdiyi daimi və müstəsna dəstəyə görə ona İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun "Gənclərin hamisi" ilk Fəxri Nişanı və xatirə hədiyyəsi təqdim olunmuşdur.

- Türkiyə Respublikasının gənclik və idman naziri Osman Aşkın Bakı və Bilal Ərdoğanı qəbul etmişdir.
- Beynəlxalq Atom Enerjisi Agentliyinin baş direktoru Yukio Amanonu qəbul etmişdir.
- Koreya Respublikasının Beynəlxalq Sərgilər Bürosunda nümayəndəsi, səfir Cai-Çul Çoyun başçılıq etdiyi Beynəlxalq Sərgilər Bürosunun nümayəndə heyətini qəbul etmişdir.
- İslam Əməkdaşlıq Təşkilatı gənclər və idman nazirlərinin IV konfransının iştirakçılarını təbrik etmişdir.

19 aprel

- Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, müdafiə nazirinin birinci müavini Valeri Gerasimovu qəbul etmişdir.
- NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı Körtis Skaparottinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Həyat yoldaşı xanım Barbara Buşun vəfatı ilə əlaqədar Amerika Birləşmiş Ştatlarının 41-ci Prezidenti Corc Herbert Uoker Buşa başsağlığı vermişdir.

20 aprel

- "İçərişəhər" stansiyasına gələrək Bakı Metropoliteninin qatar parkının yenilənməsi məqsədilə paytaxta gətirilən yeni qatarlarda yaradılan şəraitlə tanış olmuşdur.
- Kuba Respublikası Dövlət Şurasının Sədri vəzifəsinə seçilməsi münasibətilə Kuba Respublikası Dövlət Şurasının Sədri Migel Dias-Kanel Bermudesi təbrik etmişdir.

21 aprel

- Uzun illər dövlət qulluğunda yüksək vəzifələrdə səmərəli fəaliyyət göstərdiyinə, xüsusilə də Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həm sovetlər dövründə, həm də müstəqillik illərində Azərbaycanın inkişafı yolunda əzmlə çalışdığına görə sabiq Baş nazir Artur Rasi-zadəyə təşəkkürünü bildirmişdir.

23 aprel

- Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Oreşkini qəbul etmişdir.
- Kabil şəhərində törədilmiş güclü partlayış nəticəsində çoxsaylı insan tələfatı və yaralananlar ilə əlaqədar Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaniyə başsağlığı vermişdir.

24 aprel

- Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkini qəbul etmişdir.
- Türkiyə Respublikasına rəsmi səfərə gəlmişdir.
- Türkiyə Respublikasına rəsmi səfəri çərçivəsində Ankaradakı Heydər Əliyev Parkında Ulu Öndərin abidəsini ziyarət etmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birgə şam etmişdir.
- Niderland Krallığının milli bayramı - Kral günü münasibətilə Kral əlahəzrət Villem-Aleksandrı təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Azadlıq Günü münasibətilə Cənubi Afrika Respublikasının Prezidenti Matamela Siril Ramafozini təbrik etmişdir.
- Syerra-Leone Respublikasının Prezidenti vəzifəsinə seçilməsi və ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident Culius Maada Bionu təbrik etmişdir.

25 aprel

- Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəyə - Anıtqəbirə gələrək, böyük Atatürkün məzarını ehtiramla ziyarət etmişdir. Mustafa Kamal Atatürkün məzarı önünə əklil qoymuş, Türk dünyasının böyük oğlunun əziz xatirəsi yad etmişdir.
- Türkiyə Böyük Millət Məclisinin sədri İsmayıl Qəhrəman ilə görüşmüşdür.
- Türkiyə Respublikası Prezidentinin Sarayında - Külliyedə rəsmi qarşılanma mərasimindən sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olmuşdur.
- Təkbətək görüş başa çatdıqdan sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə keçirilən Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclasında iştirak və çıxış etmişdir.
- Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclası başa çatdıqdan sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə sənədlərin imzalanması mərasimində iştirak etmiş, "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yeddinci iclasının Protokolu"nu imzalamışdır.
- Sənədlərin imzalanması mərasimindən sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın adından onun şərəfinə verilmiş rəsmi naharda iştirak etmişdir.
- Türkiyə Respublikasına rəsmi səfəri başa çatmışdır.
- "XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımları" mövzusunda beşinci beynəlxalq elmi konfransın iştirakçılarını təbrik etmişdir.

26 aprel

- Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Meyin dəvəti ilə bu ölkəyə səfəri başlamışdır.
- Londonda BP şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşmüşdür.

- Londonda Böyük Britaniya parlamentinin İcmalar Palatasının üzvü, Azərbaycan ilə dostluq qrupunun sədri Bob Bləkmən, Lordlar Palatasının üzvü, Azərbaycanın Leyborist dostları qrupunun sədri Lord Devid Evans və İcmalar Palatasının üzvü, Şimali İrlandiya üzrə dövlət nazirinin müavini Devid Morris ilə birgə görüşü olmuşdur.
- Londonda Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Avropa və Amerika məsələləri üzrə dövlət naziri Alan Dunkan ilə görüşmüşdür.
- Londonda Böyük Britaniyanın ticarət və ixracın təşviqi üzrə dövlət naziri, hökumətlərarası komissiyanın həmsədri Baronessa Rona Feyrhed ilə görüşmüşdür.
- Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Mey ilə görüşü olmuşdur.

27 aprel

- Avropa Parlamentinin Azərbaycan üzrə daimi məruzəçisi xanım Norika Nikolaini qəbul etmişdir.
- Monteneqronun Prezidenti vəzifəsinə seçilməsi münasibətilə Prezident Milo Cukanoviçi təbrik etmişdir.

29 aprel

- Formula 1 üzrə dünya çempionatının dördüncü mərhələsinin - Azərbaycan Qran-Prisinin əsas yarışına baxmışdır.
- Əvvəlcə yarışın paytaxtın Azadlıq meydanındakı idarəetmə mərkəzində yaradılan şəraitlə tanış olmuşdur.
- Sonra "Fox Sport" televiziya kanalına müsahibə vermişdir.
- Daha sonra qaliblərin mükafatlandırılması mərasimində iştirak etmiş və Qran-Prinin qalibi Luis Hamiltona kuboku təqdim etmişdir.
- Dünya Güləş Birliyinin prezidenti Nenad Laloviçi qəbul etmişdir.

30 aprel

- Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində yeni inşa edilmiş "Tufan" tipli sərhəd gözətçi gəmisi ilə tanış olmuşdur.
- Polşa Respublikasının milli bayramı – Konstitusiya günü münasibətilə Prezident Andjey Dudanı təbrik etmişdir.

May

4 may

- Xaçmaz rayonuna səfərə gəlmişdir.
- Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Xaçmaz şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstəsi qoymuşdur.
- Xaçmaza səfəri çərçivəsində Çarxı-Qalağan-Hacılar-Xanlıqoba-Sayad-Məmmədxanlı avtomobil yolunun yenidənqurma və bərpadan sonra açılışını etmişdir.
- "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Xaçmaz filialının açılışında iştirak etmişdir.
- Sonra müəssisənin kollektivi ilə görüşmüş, görüşdə çıxış etmişdir.
- Xaçmaz şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi mərasimində və "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Xaçmaz idarəsinin inzibati binasının açılışında iştirak etmişdir.
- Xaçmaza səfəri çərçivəsində Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 24-48 kilometrlik hissəsini təşkil edən Xaçmaz-Xudat avtomobil yolunun açılışını etmişdir.
- Xızı rayonuna səfərə gəlmişdir.
- Əvvəlcə Xızı şəhərinin mərkəzindəki Heydər Əliyev Parkında Ümummilli Liderin abidəsini ziyarət etmiş, önünə gül dəstəsi qoymuşdur.
- "Xızı şəhərində və Altıağac qəsəbəsində içməli su təchizatı sistemlərinin yenidən qurulması və kanalizasiya şəbəkəsinin yaradılması" layihəsinin yekunlaşması ilə bağlı keçirilən mərasimdə iştirak etmişdir.
- Əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüş, görüşdə çıxış etmişdir.
- Xızı rayonuna səfəri çərçivəsində başlanğıcını Giləzi-Xızı yolunun 34-cü kilometrliyindən götürən və əsaslı şəkildə yenidən qurulan Fındığan kəndinədək olan yolun açılışını etmişdir.

7 may

- Avropa İttifaqı–Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin sədri, Avropa Mühafizəkarlar və İslahatçılar Qrupunun üzvü, Böyük Britaniyadan olan deputat Sayyad Kərimin başçılıq etdiyi Avropa İttifaqı–Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir.
- Bakı Olimpiya Stadionundan Heydər Əliyev prospektinə keçid və müxtəlif səviyyəli yol qovşağının açılışında iştirak etmişdir.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edərək, onu Rusiya Federasiyasının Prezidenti vəzifəsinin icrasına başlaması münasibətilə təbrik etmiş, ona Rusiya xalqının firavanlığı naminə fəaliyyətində yeni uğurlar arzulamışdır. Eyni zamanda, Rusiya Prezidentinə qarşıdan gələn 9 May - Qələbə günü münasibətilə də təbriklərini çatdırmışdır.

9 may

- İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 73-cü ildönümü münasibətilə Bakıda keçirilən təntənəli mərasimdə iştirak etmişdir.
- İkinci Dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərmiş xalqımızın rəşadətli oğlu, tank qoşunları general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun qəbirüstü abidəsi önünə əklil qo-

yaraq cəsur sərkərdənin xatirəsini ehtiramla yad etmişdir.
- Sonra iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ailə üzvləri və yaxın qohumları ilə görüşmüş, onları Qələbə günü münasibətilə təbrik etmişdir.
- Beynəlxalq Limanlar Assosiasiyasının prezidenti Santiaqo Qarsia Milanı qəbul etmişdir.
- "DP World" şirkətinin prezidenti Sultan Əhməd bin Sulaimi qəbul etmişdir.

10 may
- Müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə ailə üzvləri, Ulu Öndərin doğmaları və yaxınları ilə birlikdə Fəxri xiyabana gəlmiş, Ulu Öndərin məzarı önünə əklil qoymuş və onun xatirəsini ehtiramla anmışdır.
- Sonra ailə üzvləri ilə birlikdə Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoymuşdur.
- Daha sonra görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzmüşdür.
- Ailə üzvləri ilə birlikdə Qala-Türkan magistral avtomobil yolunun ətrafında salınan yaşıllıq sahəsində Ulu Öndər Heydər Əliyevin doğum gününə həsr olunan ağacəkmə aksiyasında iştirak etmişdir.
- Heydər Əliyev Mərkəzində Ümummilli Lider Heydər Əliyevin 95-illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmiş və nitq söyləmişdir.

11 may
- Bakının Səbail rayonunda "Dinamo" otelinin açılış mərasimində iştirak etmişdir.
- Sonra otelin kollektivi ilə görüşmüş, görüşdə çıxış etmişdir.

14 may
- Paytaxtın Qaradağ rayonunun Ələt qəsəbəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin açılışında iştirak etmişdir.
- Kompleksklə tanışlıqdan sonra limanın əməkdaşları və inşaat şirkətlərinin nümayəndələri ilə görüşmüş, görüşdə çıxış etmişdir.
- Malayziyanın Baş naziri kimi fəaliyyətə başlaması münasibətilə Baş nazir Mahathir Məhəmmədi təbrik etmişdir.
- Norveç Krallığının milli bayramı – Konstitusiya Günü münasibətilə Norveç Kralı Əlahəzrət V Haraldı təbrik etmişdir.

15 may
- Bakıda Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin yeni binasının açılışı mərasimində iştirak etmişdir.
- Niderland Krallığı Senatının sabiq sədri, Avropa Şurası Parlament Assambleyasının sabiq prezidenti, Niderland-Azərbaycan Dostluq Qrupunun sədri Rene Van der Lindeni qəbul etmişdir.

16 may
- Bakı Ekspo Mərkəzində XXIV Azərbaycan Beynəlxalq Qida Sənayesi "World Food Azerbaijan 2018" və XII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı "Caspian Agro 2018" sərgiləri ilə tanış olmuşdur.
- Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir.
- Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində "Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin birinci mərhələsinin açılışında iştirak etmişdir.
- Sonra rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.
- Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət etmiş, önünə gül dəstəsi qoymuşdur.
- Naxçıvan Müəllimlər İnstitutunun yeni binasının açılışında iştirak etmişdir.
- Bina ilə tanışlıqdan sonra ali təhsil ocağının kollektivi və şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşmüş, görüşdə çıxış etmişdir.
- Naxçıvan şəhər Təmizləyici Qurğular Kompleksinin açılışında iştirak etmişdir.
- Naxçıvan şəhər Qaraxanbəyli inzibati ərazi dairəsində 480 şagird yerlik 6 saylı tam orta məktəbin açılışında iştirak etmişdir.
- Dövlət Sərhəd Xidmətinin Naxçıvan şəhər Qaraçuq ərazi dairəsində Əmiraslan Əliyev adına Sərhəd Dəstəsində yaradılan şəraitlə tanış olmuşdur.
- Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Əlahiddə Ümumqoşun Ordusunun "N" saylı hərbi hissəsindəki Təlim-Tədris Mərkəzində yaradılan şəraitlə tanış olmuşdur.
- Sonra Əlahiddə Ümumqoşun Ordusunun "N" saylı hərbi hissəsinin yeni hərbi xəstəxanasının açılışını etmişdir.
- Daha sonra silahlanmaya yeni qəbul edilən hərbi texnika ilə tanış olmuşdur.
- Naxçıvan Muxtar Respublikasına səfəri başa çatmışdır.

17 may
- Kamerun Respublikasının milli bayramı münasibətilə Prezident Pol Biyanı təbrik etmişdir.

18 may
- Bakıda Yeni Azərbaycan Partiyasının yeni inzibati binasının açılışında iştirak etmişdir.

19 may
- Ölkəsində baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı Kuba Respublikası Dövlət Şurasının və Nazirlər Şurasının Sədri Migel Dias-Kanel Bermudesə başsağlığı vermişdir.

21 may
- Beynəlxalq Əmək Təşkilatının baş direktoru Qay Rayderin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

- Rəsmi qarşılanma mərasimindən sonra Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç ilə təkbətək görüşü olmuşdur.
- Təkbətək görüş başa çatandan sonra Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç ilə hər iki tərəfin nümayəndə heyətlərinin də iştirak etdiyi geniş tərkibdə görüşü olmuşdur.
- Geniş tərkibdə görüş başa çatandan sonra Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç ilə sənədlərin imzalanması mərasimində iştirak etmiş, "Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planı"nı imzalamışdır.
- Sənədlərin imzalanması mərasimindən sonra Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Onun adından ölkəmizdə rəsmi səfərdə olan Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçin şərəfinə verilmiş rəsmi ziyafətdə iştirak etmişdir.

22 may

- Bakının Suraxanı rayonunda "ATEF Şirkətlər Qrupu"nun yüksəkgərginlikli avadanlıqlar zavodunun açılışında iştirak etmişdir.
- "Qafqazda dövlətlərarası münasibətlər: 100 il əvvəl və müasir dövr" beynəlxalq konfransının iştirakçılarını təbrik etmişdir.
- İordaniya Haşimilər Krallığının milli bayramı - Müstəqillik Günü münasibətilə Kral Əlahəzrət II Abdullah ibn Al Hüseyni təbrik etmişdir.

23 may

- Ölkəsinin milli bayramı – Müstəqillik Günü və Gürcüstan dövlətçiliyinin bərpasının 100 illiyi münasibətilə Gürcüstanın Prezidenti Giorgi Marqvelaşvilini təbrik etmişdir.

24 may

- Bakı şəhərinin Qaradağ rayonunun Lökbatan qəsəbəsinin şimal-şərqində Lökbatan-Qobu yolunun 3 kilometr şərq hissəsində məcburi köçkünlər üçün salınmış "Qobu Park" yaşayış kompleksinin açılışında iştirak etmişdir.
- Sonra 22 yerlik "Şirin Bala" uşaq bağçasında yaradılan şəraitlə də tanış olmuşdur.
- Daha sonra yaşayış kompleksində tikilmiş 624 şagird yerlik tam orta məktəbdəki şəraitlə tanış olmuşdur.
- Məktəblə tanışlıqdan sonra məcburi köçkünlərlə görüşmüş, görüşdə çıxış etmişdir.
- Qaradağ rayonunda yenidən qurulan Lökbatan-Qobu avtomobil yolunun açılışında iştirak etmişdir.

25 may

- Efiopiya Federativ Demokratik Respublikasının milli bayramı münasibətilə Prezident Mulatu Teşomeni təbrik etmişdir.

26 may

- ADA Universitetində keçirilən məzun günündə iştirak çıxış etmişdir.
- Sonra məzunların bir qrupuna diplomları təqdim etmişdir.

27 may

- Fransa Respublikasının Avropa və xarici işlər naziri Jan-İv Lö Drianı qəbul etmişdir.

28 may

- Milli bayram - Respublika Günü münasibətilə paytaxtın İstiqlaliyyət küçəsində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət etmiş, abidə önünə əklil qoymuşdur.
- Heydər Əliyev Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə keçirilən rəsmi qəbulda iştirak etmiş və nitq söyləmişdir.
- Bakı Kristal Zalında keçirilən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilən təntənəli konsertdə olmuşdur.
- Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonu qəbul etmişdir.

29 may

- ABŞ Dövlət katibinin köməkçisinin enerji məsələləri üzrə müavini Sandra Oudkirkin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Qaz İxrac Edən Ölkələr Forumunun baş katibi Yuri Sentyurini qəbul etmişdir.
- "Microsoft" şirkətinin Mərkəzi və Şərqi Avropa üzrə prezidenti Filip Roqu qəbul etmişdir.
- Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimində iştirak etmiş və nitq söyləmişdir.
- Bakı Ekspo Mərkəzində XXV yubiley Beynəlxalq "Xəzər Neft və Qaz-2018" sərgisi ilə tanış olmuşdur.
- Sonra sərgi və konfransın xatirə kitabını imzalamışdır.
- Daha sonra "Xəzər Neft və Qaz" sərgi-konfransının 25 illiyi münasibətilə Azərbaycanın nailiyyətlərinin təbliğində və xarici ölkələrlə əməkdaşlığının möhkəmləndirilməsində xidmətlərinə görə "ITE Group Plc" şirkətinin baş məsləhətçisi Endryu Vuda və "ITE Group Plc" şirkətinin regional direktoru Strahan Edvard Corc Dankana "Dostluq" ordenini təqdim etmişdir.
- XXV Beynəlxalq "Xəzər Neft və Qaz" sərgi və konfransının iştirakçılarını təbrik etmişdir.
- Azərbaycan Qadınlarının V Forumunun iştirakçılarını təbrik etmişdir.

30 may

- Ölkəsinin milli bayramı – Respublika Günü münasibətilə İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanı təbrik etmişdir.

31 may

- Müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul etmişdir.
- ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini xanım Bricet Brinki qəbul etmişdir.
- Avropa Komissiyasının büdcə məsələləri və insan resursları üzrə komissarı Günter Ottingerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

İyun

3 iyun

- Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibi Vladimir Kuvşinovu qəbul etmişdir.

4 iyun

- İran İslam Respublikası Prezidenti Aparatının rəhbəri Mahmud Vaezini qəbul etmişdir.
- İsveç Krallığının milli bayramı münasibətilə Kral Əlahəzrət XVI Karl Qustavı təbrik etmişdir.

5 iyun

- Goranboy rayonuna səfəri çərçivəsində Dəliməmmədli-Quşçular-Fəxralı-Qurbanzadə-Alpout avtomobil yolunun açılışında iştirak etmişdir.
- Goranboy rayonunda "Region Agropark"ın açılışında iştirak etmişdir.
- Sonra aqroparkın kollektivi ilə görüşmüş, görüşdə çıxış etmişdir.
- Goranboy rayonunda Dəliməmmədli-Muzdurlar-Qırıqlı avtomobil yolunun yenidənqurma və bərpadan sonra açılışını etmişdir.
- Goranboy şəhərində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət etmişdir, Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoymuşdur.
- Goranboy rayonunda hər biri 40 meqavolt amper gücündə olan iki transformatorun quraşdırıldığı 110/35/10 kilovoltluq 2x40 MVA gücündə "Dəliməmmədli" yarımstansiyasının açılışında iştirak etmişdir.
- Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsinin İpək yolu ilə kəsişmə qurğusunun və ondan sonrakı 4,95 kilometrlik hissəsinin açılışında iştirak etmişdir.
- Goranboyda Bayraq Muzeyinin açılışında iştirak etmişdir.
- Naftalan şəhərinə səfərə gəlmişdir.
- Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naftalan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- Naftalan Şəhər Mərkəzi Xəstəxanasının açılışında iştirak etmişdir.
- Xəstəxana binası ilə tanışlıqdan sonra səhiyyə müəssisəsinin kollektivi ilə ilə görüşmüş, görüşdə çıxış etmişdir.
- Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsi üçün inşa edilmiş hərbi şəhərcikdə yaradılan şəraitlə tanış olmuşdur.

6 iyun

- Beynəlxalq Velosipedçilər İttifaqının prezidenti David Lappartyeni qəbul etmişdir.
- Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında verdiyi iftar mərasimində iştirak etmiş və mərasimdə nitq söyləmişdir.
- Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı – Təvəllüd Günü münasibətilə Kraliça Ülyahəzrət II Elizabeti təbrik etmişdir.

7 iyun

- Bakı Metropoliteninin "Sahil" stansiyasının əsaslı təmir və yenidənqurmadan sonra açılışında iştirak etmişdir.

8 iyun

- Qambiya Respublikasının xarici işlər naziri Ousainu Darboenin başçılıq etdiyi, Qambiyanın əmək və infrastruktur naziri Bai Lamin Jobenin daxil olduğu nümayəndə heyətini qəbul etmişdir.
- Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının prezidenti, Avropa Parlamentinin Beynəlxalq Ticarət Komitəsinin vitse-prezidenti, Avropa Parlamentinin üzvü Yan Zahradili qəbul etmişdir.
- Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının Bakı sammitinin iştirakçılarını təbrik etmişdir.
- Rusiya Federasiyasının dövlət bayramı - Rusiya Günü münasibətilə Prezident Vladimir Putini təbrik etmişdir.
- Filippin Respublikasının milli bayramı - Müstəqillik günü münasibətilə Prezident Rodriqo Roa Duterteni təbrik etmişdir.

10 iyun

- Peru Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mariya Milaqros Kastanyon Seoanenin etimadnaməsini qəbul etmişdir.
- Bolqarıstan Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nikolay Yankovun etimadnaməsini qəbul etmişdir.
- Rusiya Federasiyasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovun etimadnaməsini qəbul etmişdir.

11 iyun

- Müdafiə Nazirliyinin Raket Qoşunlarının "N" saylı hərbi hissəsinin açılışında iştirak etmişdir.

12 iyun

- TANAP layihəsinin açılış mərasimində iştirak etmək üçün Türkiyə Respublikasına səfərə gəlmişdir.
- Türkiyənin Əskişəhər şəhərində Ukrayna Prezidenti Petro Poroşenko ilə görüşmüşdür.
- Əskişəhər şəhərində BP şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşmüşdür.
- Əskişəhərdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olmuşdur.
- Türkiyənin Əskişəhər şəhərində TANAP - Trans-Anadolu qaz kəmərinin istifadəyə verilməsi münasibətilə keçirilən təntənəli mərasimdə iştirak və çıxış etmişdir.

• Rusiya Federasiyasına işgüzar səfərə getmişdir.

13 iyun

• Moskvada Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşü olmuşdur.

• Müqəddəs Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik etmişdir.

14 iyun

• Moskvadakı "Lujniki" stadionunda futbol üzrə növbəti dünya çempionatının təntənəli açılış mərasimində iştirak etmişdir.

20 iyun

• Ölkəsinin milli bayramı münasibətilə Lüksemburqun Böyük Hersoqu Əlahəzrət Anrini təbrik etmişdir.

22 iyun

• Asiya İnkişaf Bankının (AİB) İcraçı Direktorlar Şurasının üzvü Kşatrapati Şivajinin başçılığı ilə bankın Direktorlar Şurasının üzvlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir.

• Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Mozambik Respublikasının Prezidenti Filipe Jasinto Nyusini təbrik etmişdir.

• Ölkəsinin milli bayramı – Dövlətçilik Günü münasibətilə Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçi təbrik etmişdir.

• Ölkəsinin milli bayramı – Dövlətçilik Günü münasibətilə Sloveniya Respublikasının Prezidenti Borut Pahoru təbrik etmişdir.

• Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Cibuti Respublikasının Prezidenti İsmail Ömər Qellehi təbrik etmişdir.

23 iyun

• Əlcəzair Xalq Demokratik Respublikasının ədliyyə naziri Tayeb Louhun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

24 iyun

• Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədri Vyaçeslav Volodinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

• Belarus Respublikasının Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zası qəbul etmişdir.

• Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edərək, onu seçkilərdə əldə etdiyi inamlı qələbə münasibətilə təbrik etmişdir.

25 iyun

• Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Zübair Mahmud Hayatı qəbul etmişdir.

26 iyun

• Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə Bakının Azadlıq meydanında keçirilən təntənəli hərbi paradda olmuş və paradda nitq söyləmişdir.

• Paraddan sonra Prezident İlham Əliyev Azərbaycan Ordusunun yaranmasının 100 illiyi münasibətilə və Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, qarşılarında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə dövlətimizin başçısının iyunun 25-də imzaladığı Sərəncamla 1-ci dərəcəli "Rəşadət" ordeni ilə təltif olunmuş general-polkovnik Zakir Həsənova, general-polkovnik Nəcməddin Sadıkova və general-leytenant Kərəm Mustafayevə həmin ordenləri təqdim etmişdir.

• Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Hulusi Akarı və Türkiyənin müdafiə naziri Nurettin Caniklini qəbul etmişdir.

• İran İslam Respublikasının mədəniyyət və islami irşad naziri Seyid Abbas Salehinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

27 iyun

• ABŞ dövlət katibinin Cənubi və Mərkəzi Asiya məsələləri üzrə köməkçisinin birinci müavini xanım Alis Uelsi qəbul etmişdir.

28 iyun

• Ölkəsinin milli bayramı - Kanada Günü münasibətilə Kanadanın General-Qubernatoru xanım Jüli Peyeti təbrik etmişdir.

• Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Burundi Respublikasının Prezidenti Pyer Nkurunzizanı təbrik etmişdir.

29 iyun

Azərbaycan polisinin yaranmasının 100 illik yubileyi münasibətilə Azərbaycan Respublikası polis orqanlarının şəxsi heyətini təbrik etmişdir.

30 iyun

• Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonu təbrik etmişdir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RƏSMİ QƏBULLARI

Belarus Respublikası Baş nazirinin müavini Vladimir Semaşkonun qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Belarus Respublikasının Baş nazirinin müavini, hökumətlərarası komissiyanın həmsədri Vladimir Semaşkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

İki dövlət arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyinin qeyd olunduğu görüşdə əlaqələrimizin daha da möhkəmləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi.

Söhbət zamanı əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsinin vacibliyi vurğulandı, ölkələrimiz arasında ticarət dövriyyəsinin daha da artırılmasının zəruriliyi qeyd edildi.

Belarusun Baş nazirinin müavini Gəncə traktor zavodunda 10 mininci traktorun yığılmasının əlamətdar bir hadisə olduğunu vurğulayaraq, Azərbaycan ilə Belarusun bu birgə məhsulunun üçüncü ölkələrə ixrac edilməsi imkanlarının araşdırılmasının önəmini qeyd etdi.

Dövlətimizin başçısı, öz növbəsində, bunu əlamətdar hadisə kimi qiymətləndirərək, regionlara səfəri zamanı fermerlərin Azərbaycan-Belarus birgə məhsulu olan traktorların keyfiyyətindən razılıq etdiklərini vurğuladı və bu məhsulun ixracı üçün yaxşı imkanların olduğunu dedi.

Türkiyə Respublikasının ədliyyə naziri Əbdülhəmid Gülün başçılıq etdiyi nümayəndə heyətinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Türkiyə Respublikasının ədliyyə naziri Əbdülhəmid Gülün başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Nazir Əbdülhəmid Gül Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyinin vurğulandığı görüşdə hüquq mühafizə orqanları, o cümlədən Ədliyyə nazirlikləri arasında sıx əməkdaşlığın ikitərəfli əlaqələrimizin daha da genişləndirilməsi işinə töhfə verdiyi bildirildi.

Söhbət zamanı Azərbaycan ilə Türkiyə arasında bütün səviyyələrdə qarşılıqlı səfərlərin önəminə toxunularaq bildirildi ki, Türkiyə Respublikasının ədliyyə naziri Əbdülhəmid Gülün Azərbaycana bu səfəri də ölkələrimiz arasında əməkdaşlığın möhkəmləndirilməsi işinə xidmət edəcək.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirən Azərbaycan Prezidenti İlham Əliyev onun da salamlarını Türkiyənin dövlət başçısına çatdırmağı xahiş etdi.

Ekvador Respublikasının xarici işlər naziri xanım Maria Fernanda Espinosa Qarsesin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Ekvador Respublikasının xarici işlər naziri xanım Maria Fernanda Espinosa Qarsesi qəbul edib.

Ekvador Respublikasının Prezidenti Lenin Morenonun salamlarını Prezident İlham Əliyevə çatdıran nazir Bakıda keçirilən Qoşulmama Hərəkatı çərçivəsində nazirlər konfransında iştirakından məmnunluğunu ifadə etdi. Qonaq Azərbaycanın misli görünməmiş dərəcədə inkişafa nail olduğunu qeyd edərək, ölkəmizin beynəlxalq aləmdə çox mühüm bir mövqeyə malik olmasının önəmini vurğuladı. O qeyd etdi ki, Ekvador Azərbaycan ilə ikitərəfli münasibətləri möhkəmləndirməkdə maraqlıdır. İqtisadi əməkdaşlıqdan danışan Maria Fernanda Espinosa Qarses Ekvadorun da neft ixrac edən ölkə olduğunu vurğulayaraq bir çox sahələrdə əməkdaşlığımızın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi.

Dövlətimizin başçısı Ekvador Respublikasının xarici işlər naziri Maria Fernanda Espinosa Qarsesin Qoşulmama Hərəkatı çərçivəsində nazirlər konfransında iştirakının önəmini qeyd edərək, bu səfərin əlaqələrimizin perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi. Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığa toxunan Prezident İlham Əliyev BMT Təhlükəsizlik Şurasına üzvlüyə səsvermə zamanı Ekvadorun ölkəmizə göstərdiyi dəstəyi yüksək qiymətləndirdi. Dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğunu bildirdi və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımızın möhkəmləndirilməsinin vacibliyini qeyd etdi.

Söhbət zamanı iki ölkə arasında qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulandı, ticarət, sərmayə qoyuluşu və digər sahələrdə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi ətrafında fikir mübadiləsi aparıldı.

Ekvador Respublikasının Prezidenti Lenin Morenonun salamlarına görə minnətdarlığını bildirən Azərbaycan Prezidenti İlham Əliyev onun da salamlarını Ekvadorun dövlət başçısına çatdırmağı xahiş etdi.

Fələstin Dövlətinin xarici işlər naziri Riad Malkinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Fələstin Dövlətinin xarici işlər naziri Riad Malkini qəbul edib.

Nazir Riad Malki Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasın salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Riad Malki İstanbulda keçirilən İslam Əməkdaşlıq Təşkilatının Qüds məsələsinə dair fövqəladə Zirvə toplantısında Azərbaycan Prezidentinin iştirakının çox əhəmiyyətli olduğunu qeyd etdi və bu tədbirdə göstərilən dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Qonaq Bakıda keçirilən Qoşulmama Hərəkatı nazirlər konfransının önəmini vurğuladı və bu tədbirdə iştirakından məmnunluğunu ifadə etdi.

Dövlətimizin başçısı Fələstinin xarici işlər naziri Riad Malkinin Bakıda keçirilən tədbirdə iştirakının önəmini qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın hər zaman Fələstin Dövlətinin və Fələstin xalqının yanında olduğunu vurğuladı, İstanbulda keçirilən Zirvə toplantısında ölkəmizin iştirakını bu həmrəyliyin nümayişi kimi dəyərləndirdi.

Fələstin Dövlətinin başçısı Mahmud Abbasın salamlarına görə minnətdarlığını bildirən Prezident İlham Əliyev onun da salamlarını Fələstin Prezidentinə çatdırmağı xahiş etdi.

İordaniya Haşimilər Krallığının informasiya və kommunikasiya üzrə dövlət naziri Mohammad əl-Momaninin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də İordaniya Haşimilər Krallığının informasiya və kommunikasiya üzrə dövlət naziri Mohammad əl-Momanini qəbul edib.

Nazir Mohammad əl-Momani İordaniya Kralı II Abdullah ibn Al Hüseynin Prezident İlham Əliyevə və Azərbaycan xalqına salamlarını və ən xoş arzularını çatdırdı. Qonaq qeyd etdi ki, ölkəsi Prezident İlham Əliyevin liderliyinə, Azərbaycana və Azərbaycan xalqına dərin rəğbət hissi ilə yanaşır. İordaniyada ölkəmizin əldə etdiyi uğurların maraqla izlənildiyini deyən Mohammad əl-Momani Azərbaycanın mühüm beynəlxalq tədbirlərə ev sahibliyi edən bir nümunə ölkə olduğunu bildirdi.

İordaniya Kralı ilə Azərbaycan Prezidenti arasında olan şəxsi dostluq əlaqələrinin ikitərəfli münasibətlərimizdə böyük rolunu qeyd edən Mohammad əl-Momani İordaniya Kralı tərəfindən Azərbaycanla həm siyasi, həm də iqtisadi sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı göstərişlər verildiyini dedi. Azərbaycanın Qoşulmama Hərəkatı nazirlər konfransına ev sahibliyini yüksək qiymətləndirən İordaniya Haşimilər Krallığının informasiya və kommunikasiya üzrə dövlət naziri Mohammad əl-Momani bu tədbirə dəvətə görə minnətdarlığını ifadə etdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev İordaniya Kralı II Abdullah ibn Al Hüseynlə şəxsi dostluq əlaqələrinin iki ölkə arasında münasibətlərin inkişafına töhfə verdiyini vurğuladı. İordaniyanın Azərbaycana dost ölkə olduğunu bildirən dövlətimizin başçısı ölkələrimiz arasında siyasi sahədə yaxşı münasibətlərin olduğunu qeyd etdi, iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi, o cümlədən ticarət dövriyyəsinin artırılması və investisiya imkanlarından istifadə edilməsinin vacibliyini vurğuladı. Azərbaycanın mühüm beynəlxalq tədbirlərin keçirildiyi bir məkana çevrildiyini məmnunluqla qeyd edən Prezident İlham Əliyev Qoşulmama Hərəkatı nazirlər konfransının əhəmiyyətinə toxundu və Azərbaycanın bu konfransa qarşıdan gələn sədrliyi illərində ölkələrimizi maraqlandıran məsələlərlə bağlı uğurlu əməkdaşlıq həyata keçiriləcəyinə ümidvar olduğunu bildirdi.

İordaniya Kralı II Abdullah ibn Al Hüseynin salamlarına görə minnətdarlığını bildirən Azərbaycan Prezidenti İlham Əliyev onun da salamlarını İordaniya Kralına çatdırmağı xahiş etdi.

Dünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvilinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Dünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvilini qəbul edib.

Prezident İlham Əliyev Zurab Pololikaşvilini Dünya Turizm Təşkilatının baş katibi vəzifəsinə seçilməsi münasibətilə təbrik etdi və ona işində uğurlar arzuladı. Dövlətimizin başçısı Azərbaycanın Dünya Turizm Təşkilatı ilə ənənəvi uğurlu əməkdaşlıq həyata keçirdiyini vurğulayaraq Zurab Pololikaşvilinin ölkəmizə səfərinin əlaqələrin daha da möhkəmləndirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Azərbaycan Prezidenti ilə görüşündən qürur hissi keçirdiyini deyən Dünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvili rəhbərlik etdiyi qurumun və özünün

fəaliyyətinə Azərbaycanın verdiyi dəstəyə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı Azərbaycanda son illər turizmin sürətlə inkişaf etdiyi, ölkəmizə gələn xarici qonaqların sayının durmadan artdığı məmnunluqla qeyd olundu, Bakıda və regionlarda turizmin inkişafı üçün yüksək səviyyədə infrastrukturun yaradılması istiqamətində genişmiqyaslı işlərin həyata keçirildiyi vurğulandı, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər üzrə dövlət naziri Ənvər Qarqaşın başçılıq etdiyi nümayəndə heyətinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər üzrə dövlət naziri Ənvər Qarqaşın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlət naziri Ənvər Qarqaş Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə bin Zayed Al Nəhyanın salamlarını dövlətimizin başçısına çatdırdı. Bakıda keçirilən Qoşulmama Hərəkatı nazirlər konfransının önəminə toxunan Ənvər Qarqaş dövlətimizin başçısı ilə bundan əvvəl keçirilən görüşü məmnunluqla xatırladı. Ölkələrimiz arasında əlaqələrə toxunan Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər üzrə dövlət naziri Azərbaycanda turistlər üçün viza rejiminin sadələşdirilməsini yüksək qiymətləndirərək, bunun ölkəsindən xeyli sayda turistlərin Azərbaycana gəlməsi işinə böyük təkan verdiyini vurğuladı.

Dövlətimizin başçısı Bakıda keçirilən Qoşulmama Hərəkatı nazirlər konfransında Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər üzrə dövlət naziri Ənvər Qarqaşın iştirakının önəmini qeyd etdi. Prezident İlham Əliyev ölkələrimiz arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini bildirdi, BƏƏ-dən Azərbaycana gələn turistlərin sayının ildən-ilə artmasını məmnunluqla vurğuladı. Dövlətimizin başçısı Azərbaycanda turizmin inkişafı sahəsində görülən işlərə toxunaraq, viza rejiminin daha da sadələşdirilməsi istiqamətində əlavə addımların atılmasının nəzərdə tutulduğunu dedi və BƏƏ-dən gələn turistlərin təkcə Bakıya deyil, regionlara da səfər etmələrinin önəmini qeyd etdi.

Görüş zamanı iki ölkə arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Şeyx Xəlifə bin Zayed Al Nəhyanın salamlarına görə minnətdarlığını bildirən Azərbaycan Prezidenti İlham Əliyev onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə çatdırmağı xahiş etdi.

Hindistan Respublikasının xarici işlər naziri xanım Suşma Svaracın başçılıq etdiyi nümayəndə heyətinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Hindistan Respublikasının xarici işlər naziri xanım Suşma Svaracın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Hindistan Respublikasının xarici işlər naziri Suşma Svaracın Qoşulmama Hərəkatı nazirlər konfransında iştirakının əhəmiyyətinə toxunan Dövlətimizin başçısı bu səfərin, eyni zamanda, ikitərəfli münasibətlərimizin perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi.

Bakıda keçirilən Qoşulmama Hərəkatı çərçivəsində nazirlər konfransının əhəmiyyətinə toxunan Suşma Svarac Hindistanın bu təşkilatın təsisçi üzvü olduğunu vurğuladı və tədbirdə iştirakından məmnunluğunu ifadə etdi. Ölkələrimiz arasında tarixi əlaqələrin mövcud olduğunu deyən Suşma Svarac bu gün də ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirdi və ticarət dövriyyəsinin böyük həcmdə artmasını əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi. O, ölkəsində genişmiqyaslı iqtisadi islahatların həyata keçirildiyini qeyd edərək bu sahədə Hindistanın böyük potensiala malik olduğunu dedi. Nazir ölkəsinin Bakı-Tbilisi-Ceyhan layihəsində iştirakının önəmini vurğuladı və eyni zamanda, digər sahələrdə də əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu bildirdi. Hindistanlı nazir ölkəsinin Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən "Şimal-Cənub" və "Cənub-Qərb" beynəlxalq nəqliyyat dəhlizi layihələrində əməkdaşlıq etməkdə maraqlı olduğunu vurğuladı.

Öz növbəsində, ticarət dövriyyəsinin artmasından məmnunluğunu ifadə edən dövlətimizin başçısı ölkələrimizin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, sərmayə qoyuluşu, ticarət, nəqliyyat, turizm sahələrində əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsinin zəruriliyini qeyd etdi. Bakı-Tbilisi-Ceyhan qlobal layihəsində Hindistanın iştirakından məmnunluğunu bildirən Prezident İlham Əliyev gələcəkdə Hindistanın digər şirkətlərinin Azərbaycan iqtisadiyyatında investor kimi iştirak edəcəyinə ümidvar olduğunu bildirdi.

Şanxay Əməkdaşlıq Təşkilatının baş katibi Rəşid Əlimovun rəhbərlik etdiyi nümayəndə heyətinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) baş katibi Rəşid Əlimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Şanxay Əməkdaşlıq Təşkilatının baş katibi Rəşid Əlimov Azərbaycan xalqının güclü dəstəyi ilə seçkilərdə qazandığı inamlı qələbə münasibətilə dövlətimizin başçısını səmimi qəlbdən təbrik etdi və seçkiləri müşahidə etmək üçün dəvətə görə minnətdarlığını bildirdi. Təmsil etdiyi təşkilatın önəminə toxunan Rəşid Əlimov bildirdi ki, bu gün Şanxay Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin əhalisinin ümumi sayı 3 milyarddan çoxdur, ərazisi isə Avrasiya qitəsinin təxminən 3,2 hissəsini təşkil edir və təşkilatın dialoq üzrə tərəfdaş ölkə olan Azərbaycanla uğurlu əməkdaşlıq həyata keçirilir. Qonaq onu da xüsusi qeyd etdi ki, təşkilatın tarixində ilk dəfə olaraq dialoq üzrə tərəfdaş ölkədə müşahidə missiyası fəaliyyət göstərir. Bunu Şanxay Əməkdaşlıq Təşkilatı ilə Azərbaycan arasında inkişaf edən xüsusi əməkdaşlığın bariz göstəricisi kimi dəyərləndirən Rəşid Əlimov bu əlaqələri alqışladıqlarını qeyd etdi. Rəhbərlik etdiyi müşahidə missiyasının tərkibinə təşkilatın bütün üzv dövlətlərinin nümayəndələrinin daxil olduğunu vurğulayan qonaq missiyanın bir həftə ərzində ölkəmizdə fəaliyyət göstərdiyini bildirdi. O, müşahidə missiyasının sərbəst şəkildə ölkəmizin müxtəlif regionlarında ümumi seçki məntəqələrinin təqribən 7 faizində müşahidələr apardıqlarını, seçki məntəqələrində işlərin yüksək səviyyədə, Azərbaycan qanunvericiliyinə uyğun şəkildə təşkil edildiyinin şahidi olduqlarını dedi. Qonaq seçki məntəqələrində istənilən hər hansı bir sənədlə tanış olmaq imkanı əldə etdiklərini və seçki proseslərinin açıq və şəffaf şəkildə olduğunu müşahidə etdiklərini bildirdi. Seçki komissiyalarının üzvlərinin böyük peşəkarlıq nümayiş etdirdiyini vurğulayan Şanxay Əməkdaşlıq Təşkilatının baş katibi Rəşid Əlimov məntəqələrdə əhalinin bütün təbəqələrinə yüksək diqqət göstərildiyini dedi. O, digər seçki missiyaları nümayəndələrinin də hər hansı bir seçki məntəqəsində ciddi qanun pozuntusunun qeydə alınmadığını söylədiklərini də vurğuladı. Şanxay Əməkdaşlıq Təşkilatının baş katibi Rəşid Əlimov 400-ə yaxın məntəqədə müşahidə aparan missiya adından bildirdi ki, ölkəmizdə prezident seçkiləri tam açıq, demokratik, şəffaf şəkildə keçirilmişdir. Bir daha inamlı qələbə münasibətilə Prezident İlham Əliyevi təbrik edən Rəşid Əlimov dedi: "Sizə və dost Azərbaycan xalqına uğurlar və firavanlıq arzulayırıq. Azərbaycan inkişaf edir, şəxsən Siz hər bir Azərbaycan vətəndaşının rifahı naminə qayğı göstərirsiniz. Seçicilərlə apardığımız söhbətlər bir daha göstərdi ki, insanlar gələcəyi Sizinlə görürlər".

Xoş sözlərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə fəal əməkdaşlıq həyata keçirdiyini məmnunluqla vurğuladı. Ölkəmizlə təşkilatın bütün üzv dövlətləri arasında konstruktiv, dostluq münasibətlərinin mövcud olduğunu və bu münasibətlərin tarixi keçmişə əsaslandığını, ümumi tarixə və maraqlara söykəndiyini dedi. Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatına beynəlxalq aləmdə çox mühüm rol oynayan bir təşkilat kimi baxdığını qeyd edən Prezident İlham Əliyev bu təşkilatın bütün dünyada sabitliyin bərqərar olması işinə fəal töhfə verdiyini vurğuladı. Dövlətimizin başçısı Şanxay Əməkdaşlıq Təşkilatının müşahidə missiyasının ilk dəfə olaraq Azərbaycanda həyata keçirməsinin önəmini qeyd etdi və bunu təşkilatın ölkəmizlə olan münasibətlərinin, eyni zamanda, əlaqələrimizin yaxşı perspektivlərinin göstəricisi kimi dəyərləndirdi. Dövlətimizin başçısı Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələri gücləndirmək əzmində olduğunu və bu təşkilatın bir sıra layihələrində iştirak etməyə maraq göstərdiyini dedi. Prezident İlham Əliyev qeyd etdi ki, bu qurumun üzv dövlətləri ilə uğurlu ikitərəfli münasibətlər ümumi əməkdaşlıq platformasının yaranması işinə xidmət edir və bu ölkələrlə əməkdaşlıq əlaqələri Azərbaycanın xarici siyasətinin prioritetlərindən birini təşkil edir.

Seçkilərin keçirilməsinə verilən yüksək qiymətə görə minnətdarlığını bildirən dövlətimizin başçısı ölkəmizin bu seçkilərin maksimum dərəcədə şəffaf, demokratik və Azərbaycan xalqının iradəsinin tam ifadə olunması şəklində keçirilməsi üçün böyük hazırlıq işlərinin görüldüyünü dedi. Dövlətimizin başçısı seçki kampaniyasının azad, konstruktiv şəkildə keçirildiyini vurğulayaraq, bunu Azərbaycan cəmiyyətində hökm sürən siyasi mədəniyyətin təzahürü kimi dəyərləndirdi və qeyd etdi ki, bütün kampaniya dövründə namizədlər üçün ən əlverişli şərait yaradılmışdı. Prezident İlham Əliyev seçkilərin nəticələrinin Azərbaycan xalqının son illər ölkədə həyata keçirilən işlərə verdiyi qiymətin ifadəsi olduğunu bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, bütün bunlar Azərbaycanın müstəqil dövləti kimi gələcəkdə daha da möhkəmlənməsi və inkişaf etməsi işinə öz töhfəsini verir.

MDB İcraiyyə Komitəsinin sədri-icra katibi Sergey Lebedevin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də MDB-dən seçkilərdə müşahidəçilər missiyasının rəhbəri, MDB İcraiyyə Komitəsinin sədri-icraçı katibi Sergey Lebedevi qəbul edib.

Sergey Lebedev seçkilərdə inamlı qələbə qazanması münasibətilə dövlətimizin başçısına təbriklərini çatdıraraq dedi: "Bu seçkilərin nəticələri Sizə Azərbaycan xalqının nə dərəcədə hörmət bəslədiyinin təzahürüdür. MDB İcraiyyə Komitəsinin sədri kimi əlavə etmək istərdim ki, Siz bütün Müstəqil Dövlətlər Birliyi məkanında böyük nüfuza maliksiniz". Sergey Lebedev dövlətimizin başçısına MDB-nin fəaliyyətinə verdiyi dəstəyə görə minnətdarlığını bildirdi və İlham Əliyevin növbəti prezidentlik fəaliyyəti dövründə də Azərbay-

canın bu təşkilatla fəal əməkdaşlıq həyata keçirəcəyinə əminliyini ifadə etdi. Rəhbərlik etdiyi missiyaya 8 dövlətdən 221 müşahidəçinin daxil olduğunu vurğulayan qonaq nümayəndə heyəti adından Azərbaycan xalqına və ölkəmizə firavanlıq və uğurlu inkişaf arzuladı.

Xoş sözlərə və təbrikə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev xeyli sayda müşahidəçinin daxil olduğu MDB müşahidəçilər missiyasının fəaliyyətinin önəmini qeyd etdi. MDB ilə əlaqələrə toxunan dövlətimizin başçısı ölkəmizin bu əməkdaşlığa böyük önəm verdiyini bildirərək qeyd etdi ki, Azərbaycan tərəfi hər zaman bu təşkilatın daha da möhkəmləndirilməsi istiqamətində səylərin gücləndirilməsini vacib hesab edir. Prezident İlham Əliyev Sergey Lebedevin MDB-nin beynəlxalq nüfuzunun artması və inteqrasiya proseslərinin gücləndirilməsi istiqamətində fəaliyyətini yüksək qiymətləndirdi.

Azərbaycanın MDB-nin fəal üzvü olduğunu vurğulayan dövlətimizin başçısı bildirdi ki, ölkəmiz bundan sonra da bu təşkilat çərçivəsində təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsi ilə bağlı əməkdaşlığın daha da gücləndirilməsi istiqamətində səylərini əsirgəməyəcək.

Mərkəzçi Demokratlar İnternasionalının vitse-prezidenti Mario Davidin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Mərkəzçi Demokratlar İnternasionalının vitse-prezidenti Mario Davidi qəbul edib.

Azərbaycanda keçirilən prezident seçkilərində müşahidəçi kimi iştiraklarından məmnun qaldıqlarını deyən Mario David dünən bir neçə seçki məntəqəsində səsvermə prosesini izlədiklərini bildirərək seçkilərin yaxşı təşkil olunduğunu, seçicilərin səsvermədə fəal iştirak etdiklərini vurğuladı.

Prezident İlham Əliyev ölkəmizdə seçkilərin azad, demokratik və şəffaf şəraitdə keçirilməsi üçün hər cür şəraitin yaradıldığını qeyd etdi.

Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun həmsədri Necdet Ünüvarın başçılıq etdiyi nümayəndə heyətinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun həmsədri (AKP) Necdet Ünüvarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

İnamlı qələbə münasibətilə Prezident İlham Əliyevi təbrik edən Necdet Ünüvar böyük müşahidəçi heyəti ilə ölkəmizə gəldiyini və ayrı-ayrı seçki məntəqələrində müşahidələr apardıqlarını, xalqın seçkilərə böyük maraq göstərdiyini və səsvermə zamanı heç bir qanun pozuntusu ilə rastlaşmadıqlarını qeyd etdi.

Prezident İlham Əliyev seçkilər başa çatdıqdan sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefon danışığını və Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırımın ona ünvanlandığı təbrik məktubunu məmnunluqla xatırladı.

Dövlətimizin başçısı seçkilərin maksimum şəffaf keçirilməsi və Azərbaycan xalqının iradəsini əks etdirməsi üçün bütün səylərin göstərildiyini dedi. Seçkilərdə iştirak edən insanların sayının kifayət qədər yüksək olduğunu vurğulayan Prezident İlham Əliyev qeyd etdi ki, bu, ölkəmizi bundan sonra da inamla irəli aparmaq üçün bizə əlavə güc verir. Dövlətimizin başçısı Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini ifadə etdi.

Avropa Mühafizəkarlar və Reformistlər Qrupunun Azərbaycanda seçki müşahidə missiyasının rəhbəri Kozma Zlotovskinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Avropa Parlamentində Avropa Mühafizəkarlar və Reformistlər Qrupunun Azərbaycanda seçki müşahidə missiyasının rəhbəri Kozma Zlotovskini qəbul edib.

Seçkilərdə qazandığı qələbə münasibətilə Prezident İlham Əliyevi təbrik edən Avropa Mühafizəkarlar və Reformistlər Qrupunun Azərbaycanda seçki müşahidə missiyasının rəhbəri Kozma Zlotovski müxtəlif seçki məntəqələrində olduqlarını və seçkilərin yüksək səviyyədə təşkil edildiyini vurğuladı.

Dövlətimizin başçısı seçkilərin beynəlxalq standartlara uyğun keçirilməsi və müşahidəçilərin azad surətdə müşahidə aparmaları üçün bütün şəraitin yaradıldığını qeyd etdi.

Avstraliya İttifaqı parlamentinin nümayəndə heyətinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Avstraliya Parlamentinin nümayəndələr palatasının deputatı, Avstraliya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun üzvü Stiv Georganasın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Avstraliya İttifaqı Parlamentinin nümayəndə heyətinin üzvləri Azərbaycana səfərlərindən məmnunluqlarını ifadə edərək seçki məntəqələri bağlandıqdan dərhal sonra keçirdikləri brifinq zamanı bütün seçki prosesinin şəffaf şəkildə keçdiyini, seçki məntəqələrində

seçici fəallığının və səsvermənin demokratik şəraitdə aparıldığının şahidi olduqlarını bildirdilər.

Dövlətimizin başçısı ölkəmizdə seçkilərin qanunvericiliyə uyğun, açıq və şəffaf şəkildə keçirilməsi, bununla da əhalinin iradəsini sərbəst ifadə etməsi üçün hər cür şərait yaradıldığını bildirdi. Prezident İlham Əliyev seçicilərin səsvermədə çox fəal şəkildə iştirak etdiklərini məmnunluqla qeyd etdi, eyni zamanda, seçkilərin Azərbaycanın üzv olduğu Avropa Şurası qarşısında götürdüyü öhdəliklərə tam uyğun şəkildə keçirildiyini vurğuladı.

Türkiyə Respublikasının gənclik və idman nazirinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də Türkiyə Respublikasının gənclik və idman naziri Osman Aşkın Bakı və Bilal Ərdoğanı qəbul edib.

Nazir Osman Aşkın Bak və Bilal Ərdoğan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Baş nazir Binəli Yıldırımın salamlarını dövlətimizin başçısına çatdırdılar. Qonaqlar Prezident İlham Əliyevi prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə bir daha təbrik etdilər və bu qələbənin Türkiyədə böyük qürur hissi ilə qarşılandığını bildirdilər.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, ölkələrimizin gənclər siyasəti və idman sahəsində əməkdaşlığının möhkəmləndirildiyi qeyd olundu, Bakıda keçirilən İslam Əməkdaşlıq Təşkilatı Gənclər və İdman Nazirləri Konfransının 4-cü sessiyasının İslam ölkələri arasında əməkdaşlığın və həmrəyliyin genişləndirilməsi işinə xidmət edəcəyi bildirildi.

Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Baş nazir Binəli Yıldırımın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

Beynəlxalq Atom Enerjisi Agentliyinin baş direktoru Yukio Amanonun qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də Beynəlxalq Atom Enerjisi Agentliyinin baş direktoru Yukio Amanonu qəbul edib.

Dövlətimizin başçısını prezident seçkilərində qələbə qazanması münasibətilə təbrik edən Yukio Amano Prezident İlham Əliyev ilə inauqurasiya mərasimi günündə görüşməsinin əlamətdar hadisə olduğunu dedi. Azərbaycanın Beynəlxalq Atom Enerjisi Agentliyi üçün çox mühüm tərəfdaş olduğunu qeyd edən Yukio Amano ölkəmizlə yüksək səviyyəli əməkdaşlıq həyata keçirildiyini, bir sıra mühüm layihələr üzrə birgə iş aparıldığını vurğuladı.

Təbrikə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Yukio Amanonun ölkəmizə səfərinin önəmini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycan ilə Beynəlxalq Atom Enerjisi Agentliyi arasında yaxşı tərəfdaşlıq əlaqələrinin mövcud olmasından və bir sıra birgə layihələr üzərində işlərin aparılmasından məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev ölkəmizlə Beynəlxalq Atom Enerjisi Agentliyi arasında əməkdaşlığın gələcəkdə də inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi.

Koreya Respublikasının Beynəlxalq Sərgilər Bürosunun nümayəndə heyətinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də Koreya Respublikasının Beynəlxalq Sərgilər Bürosunda nümayəndəsi, səfir Cai-Çul Çoyun başçılıq etdiyi Beynəlxalq Sərgilər Bürosunun nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinin adından çıxış edən Cai-Çul Çoy dövlətimizin başçısını ölkəmizdə keçirilən prezident seçkilərində qələbəsi və inauqurasiya mərasimi münasibətilə təbrik etdi.

Cai-Çul Çoy qeyd etdi ki, Azərbaycan kimi gözəl bir ölkəni tanımaq şansı əldə etmələrindən və burada gedən dinamik proseslərin şahidi olmalarından məmnunluq hissi keçirirlər. Cai-Çul Çoy bildirdi ki, nümayəndə heyətinin səfərinin əsas məqsədi Azərbaycanda mövcud olan şəraiti və imkanları araşdırmaqdır. Qonaq səfər zamanı ölkəmizdə bir sıra səmərəli görüşlər keçirdiklərini, bu müddət ərzində apardıqları müşahidələr nəticəsində müsbət mövqedə olduqlarını vurğuladı.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.

Azərbaycanın gənc müstəqil dövlət olduğunu deyən dövlətimizin başçısı qısa müddət ərzində siyasi, iqtisadi və sosial sahələrdə genişmiqyaslı islahatlar həyata keçirildiyini, ölkəmizin artıq uğurlu inkişaf, eləcə də siyasi, iqtisadi və dövlət quruculuğu sahələrində sürətli transformasiya nümayiş etdirməyə nail olduğunu bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, bu illər ərzində görülən işlər göstərir ki, gənc bir dövlət çox uğurla müstəqil yaşaya və çoxlu sayda beynəlxalq tədbirlər təşkil edə bilər. Dövlətimizin başçısı Bakının artıq siyasi, mədəni və idman sahələrində bir çox mühüm beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etdiyini vurğuladı. Prezident İlham Əliyev nümayəndə heyətinin Azərbaycana səfərinin ölkəmizlə və burada əldə olunan nailiyyətlərlə yaxından tanış olmaq üçün yaxşı fürsət yaratdığını dedi, səfərin uğurlu keçəcəyinə ümidvar olduğunu bildirdi.

Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, müdafiə nazirinin birinci müavini Valeri Gerasimovu qəbul edib.

Valeri Gerasimov İlham Əliyevi prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik etdi və bu seçkiləri xalqın dövlətimizin başçısına olan böyük etimadının göstəricisi kimi qiymətləndirdi.

Azərbaycan Respublikasının Prezidenti təbriklərə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı hərbi və hərbi-texniki sahələrdə Azərbaycan-Rusiya uğurlu əlaqələri müzakirə edildi, gələcək qarşılıqlı faydalı əməkdaşlıq haqqında fikir mübadiləsi aparıldı.

Valeri Gerasimov NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı ilə görüşünə ölkəmizin ev sahibliyi ilə əlaqədar dövlətimizin başçısına minnətdarlıq etdi.

Azərbaycan Prezidenti bu görüşün Bakıda keçirilməsini ölkəmizə olan inamın göstəricisi kimi dəyərləndirdi və görüşün beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.

NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı Körtis Skaparottinin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı Körtis Skaparottinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Körtis Skaparotti İlham Əliyevi prezident seçkilərində qələbəsi münasibətilə təbrik etdi.

Azərbaycan Prezidenti təbrikə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı NATO-Azərbaycan əməkdaşlığının uğurlu inkişafı müzakirə edildi.

Keçən ilin noyabrında NATO qərargahına səfər etdiyini vurğulayan dövlətimizin başçısı qeyd etdi ki, səfər zamanı NATO-nun baş katibi ilə aparılan fikir mübadiləsi, Şimali Atlantika Şurasının iclasındakı çıxışı və oradakı müzakirələr bir daha Azərbaycan ilə NATO arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu göstərdi.

NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı Körtis Skaparotti öz tərəfindən NATO-Azərbaycan əməkdaşlığından çox razı olduğunu məmnunluqla bildirərək Azərbaycanın bu təşkilat üçün çox önəmli tərəfdaş ölkə olduğunu qeyd etdi. O, xüsusən Əfqanıstandakı sülhməramlı əməliyyatlarda Azərbaycanın rolunu yüksək qiymətləndirərək bu əməliyyatlar üçün ölkəmizin tranzit və nəqliyyat imkanlarından istifadə edilməsinin önəmini vurğuladı.

Körtis Skaparotti Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə görüşünə ölkəmizin ev sahibliyi etdiyi üçün Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Azərbaycan Prezidenti ümidvar olduğunu bildirdi ki, bu görüş beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi işinə xidmət edəcək.

Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Oreşkinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Oreşkini qəbul edib.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyi qeyd olundu.

Ötən il, eləcə də bu ilin ilk rübünün nəticələrinə əsasən ticarət dövriyyəsinin artmasını iqtisadi əlaqələrimizin genişlənməsinin yaxşı göstəricisi kimi dəyərləndirən Prezident İlham Əliyev bunun ümumilikdə ikitərəfli münasibətlərimizin inkişafının yaxşı göstəricisi olduğunu vurğuladı. Dövlətimizin başçısı ölkələrimizin birgə səmərəli fəaliyyəti nəticəsində iqtisadi əlaqələrin möhkəmləndiyini, eləcə də ayrı-ayrı müəssisələr arasında əməkdaşlığın gücləndiyini dedi. Prezident İlham Əliyev iqtisadi əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminliyini ifadə etdi.

Maksim Oreşkin bir daha prezident seçkilərində inamlı qələbəsi münasibətilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin təbriklərini dövlətimizin başçısına çatdırdı. O qeyd etdi ki, seçkilərin nəticələri Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi və iqtisadi kursa xalq tərəfindən verilən möhkəm dəstəyin təzahürüdür və Azərbaycanda hökm sürən sabitlik böyük önəm daşıyır. Rusiyalı qonaq qeyd etdi ki, hətta Bakıya son gəlişindən keçən bir neçə ay ərzində iqtisadi əməkdaşlıq istiqamətində irəliyə doğru bir sıra ciddi addımlar atılıb. Maksim Oreşkin azərbaycanlı həmkarları ilə birgə məhsuldar fəaliyyətin həyata keçirildiyini məmnunluqla vurğuladı.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi, investisiya, kənd təsərrüfatı, turizm və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Rusiyanın Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkini qəbul edib.

Söhbət zamanı Azərbaycan-Rusiya strateji tərəfdaşlıq münasibətlərinin uğurla inkişaf etdiyi qeyd olundu, əlaqələrimizin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı. Qeyd edildi ki, bütün sahələrdə olduğu kimi, təhlükəsizlik sahəsində də əməkdaşlıq uğurla davam edir.

Görüşdə regional təhlükəsizlik məsələləri də müzakirə olundu.

Sergey Narışkin Rusiya Prezidenti Vladimir Putinin salamlarını dövlətimizin başçısına çatdırdı. O, İlham Əliyevi prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə təbrik etdi, bunu Azərbaycan xalqının böyük etimadı kimi dəyərləndirərək seçkilərin nəticələrini həm də Azərbaycan xalqının qələbəsi kimi qiymətləndirdi.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev həm Azərbaycanda, həm də Rusiyada keçirilən son prezident seçkilərinə toxunaraq qeyd etdi ki, bütün bunlar Rusiya və Azərbaycan rəhbərliyi tərəfindən həyata keçirilən siyasətə xalqlarımızın verdiyi dəstəyin nümayişidir.

Prezident Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirən Azərbaycan Prezidenti İlham Əliyev onun da salamlarını Rusiyanın dövlət başçısına çatdırmağı xahiş etdi.

Avropa Parlamentinin Azərbaycan üzrə daimi məruzəçisi xanım Norika Nikolainin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Avropa Parlamentinin Azərbaycan üzrə daimi məruzəçisi xanım Norika Nikolaini qəbul edib.

Görüşdə Azərbaycan ilə Avropa Parlamenti arasında əlaqələr müzakirə olundu.

Dünya Güləş Birliyinin prezidenti Nenad Laloviçin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Dünya Güləş Birliyinin prezidenti Nenad Laloviçi qəbul edib.

Dünya Güləş Birliyinin prezidenti Nenad Laloviç dövlətimizin başçısını prezident seçkilərində qələbəsi münasibətilə təbrik etdi. Nenad Laloviç Bakıda Formula 1 yarışlarının yüksək səviyyədə təşkil edildiyini vurğuladı. O, məmnunluq hissi ilə qeyd etdi ki, Azərbaycan güləş idman növündə dünyanın ən aparıcı ölkələri sırasındadır.

Azərbaycanın mötəbər beynəlxalq idman yarışlarının təşkil olunduğu məkana çevrildiyini qeyd edən Nenad Laloviç 2015-ci ildə birinci Avropa Oyunlarının ölkəmizdə çox gözəl təşkilinin dünya idman ictimaiyyəti tərəfindən böyük maraqla izlənildiyini dedi. Azərbaycan güləşçilərinin əldə etdiyi uğurlara toxunan qonaq ABŞ-da sərbəst güləş üzrə dünya kuboku yarışlarında Azərbaycan yığma komandasının ikinci yer tutmasının önəmini qeyd etdi.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev Azərbaycanda idmanın inkişafının sağlam gənc nəslin və perspektivli idmançıların yetişməsi baxımından böyük önəm daşıdığını bildirdi, Azərbaycan idmançılarının müxtəlif sahələrdə, o cümlədən güləş idman növündə böyük uğurlar qazandığını məmnunluqla qeyd etdi.

Nenad Laloviç müxtəlif illərdə güləş idman növündə xidmətlərinə görə və birlik tərəfindən seçilmiş fəxri insanlar üçün təyin olunmuş Dünya Güləş Birliyinin ən ali mükafatı "Qızıl Ordeni" dövlətimizin başçısına təqdim etdi.

Dövlətimizin başçısı mükafata görə minnətdarlığını bildirdi.

Beynəlxalq Limanlar Assosiasiyasının prezidentinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 9-da Beynəlxalq Limanlar Assosiasiyasının prezidenti Santiaqo Qarsia Milanı qəbul edib.

Santiaqo Qarsia Mila Beynəlxalq Limanlar Assosiasiyasının Bakıda keçirilən illik konfransında iştirakından böyük məmnunluq hissi keçirdiyini qeyd edərək tədbirdə 65 ölkədən 400-dən artıq nümayəndənin iştirakının böyük önəm daşıdığını vurğuladı. O bildirdi ki, bu nümayəndələr Beynəlxalq Limanlar Assosiasiyasına üzv olan və dünyanın dəniz yük daşımalarının təxminən 70 faizini əhatə edən limanları təmsil edirlər.

Tədbirin Azərbaycanda yüksək səviyyədə təşkil olunduğunu vurğulayan Santiaqo Qarsia Mila paytaxtımızda gördükləri inkişaf proseslərinin onlarda böyük təəssürat yaratdığını məmnunluqla qeyd etdi. Bakının artıq beynəlxalq ticarət qovşağına çevrildiyini deyən qonaq böyük İpək yolu, "Bir kəmər, bir yol" layihələrində Azərbaycanın önəmli rol oynayacağına ümidvar olduğunu bildirdi. Santiaqo Qarsia Mila Beynəlxalq Limanlar Assosiasiyasının illik konfransının Bakıda keçirilməsinin əlamətdar hadisə olduğunu və tədbirin gələn il Çində təşkil ediləcəyini dedi.

Prezident İlham Əliyev Beynəlxalq Limanlar Assosiasiyasının Bakıda keçirilən illik konfransının önəminə toxunaraq xeyli sayda ölkənin nümayəndələrinin burada iştirakından məmnunluğunu ifadə etdi. Tədbirin keçirilməsi üçün Bakını seçdiklərinə görə minnətdarlığını bildirən dövlətimizin başçısı ölkəmizdə digər sahələr kimi, nəqliyyat sektorunda da böyük uğurların əldə olunduğunu məmnunluq hissi ilə qeyd edərək Azərbaycanın artıq beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevrildiyini dedi. Ölkəmizin coğrafi mövqeyinin bu işdə rolunu qeyd edən Prezident İlham Əliyev bunun həm də Azərbaycanda müasir nəqliyyat infrastrukturuna qoyulan böyük həcmdə investisiyanın nəticəsi olduğunu bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, bu, özünü təkcə Ələtdəki Yeni Bakı Limanında deyil, müasir dəmir və avtomobil yolları, eləcə də hava limanlarının inşasında da göstərir. Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi layihələrinə toxunan dövlətimizin başçısı həmin layihələrin icrası nəticəsində bu istiqamətdə Azərbaycan ərazisindən mühüm beynəlxalq daşımaların həyata keçiriləcəyini qeyd etdi.

Nəqliyyat infrastrukturunun bu gün Azərbaycanda çox yüksək səviyyədə olduğunu bildirən Prezident İlham Əliyev Yeni Bakı Limanının birinci fazasının tam şəkildə yaxın zamanlarda başa çatacağını dedi və bütün bunları Azərbaycanın nəqliyyat sahəsində beynəlxalq əməkdaşlığa verdiyi töhfə kimi dəyərləndirdi.

"DP World" şirkətinin prezidentinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 9-da "DP World" şirkətinin prezidenti Sultan Əhməd bin Sulaimi qəbul edib.

Sultan Əhməd bin Sulaim Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş nazir və Dubayın hökmdarı Şeyx Məhəmməd bin Raşid Al Məktumun salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Beynəlxalq Limanlar Assosiasiyasının Bakıda keçirilən illik konfransında iştirakından məmnunluğunu ifadə edən Sultan Əhməd bin Sulaim bu tədbirin yüksək səviyyədə təşkil olunduğunu və beynəlxalq əməkdaşlıq işinə mühüm töhfə verdiyini vurğuladı. O, hər dəfə Azərbaycana səfəri zamanı ölkəmizdə böyük inkişaf proseslərinin şahidi olduğunu, Bakıda xarici turistlərin sayının sürətlə artdığını müşahidə etdiklərini dedi.

Prezident İlham Əliyev Beynəlxalq Limanlar Assosiasiyasının illik konfransının Bakıda keçirilməsinin önəmini qeyd etdi və bunu beynəlxalq nəqliyyat daşımalarında ölkəmizin rolunun artmasının göstəricisi kimi dəyərləndirdi. Dövlətimizin başçısı nəqliyyat infrastrukturu sahəsində Azərbaycanın son illər böyük uğurlar qazandığını dedi. Prezident İlham Əliyev digər sahələrdə olduğu kimi, ölkəmizdə turizmin inkişaf etdirilməsi sahəsində də ardıcıl addımların atıldığını, Azərbaycana müxtəlif ölkələrdən, o cümlədən Birləşmiş Ərəb Əmirliklərindən gələn qonaqların sayının durmadan artdığını qeyd etdi.

Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş nazir və Dubayın hökmdarı Şeyx Məhəmməd bin Raşid Al Məktumun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Şeyx Məhəmməd bin Raşid Al Məktuma çatdırmağı xahiş etdi.

Söhbət zamanı Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirildi.

Niderland Krallığı Senatının sabiq sədrinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Niderland Krallığı Senatının sabiq sədri, Avropa Şurası Parlament Assambleyasının sabiq prezidenti, Niderland-Azərbaycan Dostluq Qrupunun sədri Rene Van der Lindeni qəbul edib.

Rene Van der Linden dövlətimizin başçısına prezident seçkilərində qələbəsi münasibətilə və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar təbriklərini çatdırdı.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.

Rene Van der Linden ADA Universiteti ilə birgə hazırlanmış və Azərbaycanın regionlarının inkişafı, investisiya qoyuluşu, kənd təsərrüfatı, energetika, təcrübə mübadiləsi, turizm sahələrində əməkdaşlığı nəzərdə tutan master planın həyata keçirilməsi ilə bağlı gedən işlərdən danışdı.

Prezident İlham Əliyev görülən işlərin önəmini vurğulayaraq əməkdaşlığımızın bundan sonra da genişlənəcəyinə ümidvar olduğunu bildirdi.

Beynəlxalq Əmək Təşkilatının baş direktorunun rəhbərlik etdiyi nümayəndə heyətinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Beynəlxalq Əmək Təşkilatının baş direktoru Qay Rayderin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Beynəlxalq Əmək Təşkilatının baş direktorunun Azərbaycana ilk dəfədir səfər etdiyini deyən Qay Rayder bu səfəri həyata keçirməyindən dərin məmnunluq hissi duyduğunu vurğuladı. Dövlətimizin başçısını

yenidən Prezident seçilməsi münasibətilə təbrik edən Qay Rayder Prezident İlham Əliyevin inauqurasiya mərasimindəki çıxışını diqqətlə izlədiyini qeyd edərək, orada əmək və sosial məsələlərlə bağlı söylənilən fikirlərin çox böyük maraq doğurduğunu bildirdi. O qeyd etdi ki, Prezident İlham Əliyevin əhalinin rifah halının daha da yaxşılaşdırılması, sosial müdafiəsinin təmin edilməsi, iş yerlərinin yaradılması ilə bağlı söylədiyi fikirlər mühüm əhəmiyyət daşıyır. Qay Rayder rəhbərlik etdiyi təşkilatın Azərbaycanla uğurlu əməkdaşlıq həyata keçirdiyini vurğulayaraq, bu səfərin əlaqələrimizin möhkəmlənməsi işinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.

Təbrikə və xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Bakıda keçirilən "Dayanıqlı İnkişaf Məqsədlərinə doğru davamlı inkişafın və layiqli əməyin təbliği" mövzusunda beynəlxalq konfransın əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı son illər ərzində Azərbaycan iqtisadiyyatının inkişafı, o cümlədən əhalinin əmək və sosial təminatı istiqamətində mühüm işlər görüldüyünü, xüsusilə işsizliyin sürətlə azaldılması ilə bağlı böyük uğurların əldə edildiyini dedi. Prezident İlham Əliyev Azərbaycanda ənənəvi olan və sürətli iqtisadi inkişaf nəticəsində baş verən demoqrafik artımla əlaqədar ölkə qarşısında gələcəkdə yeni iş yerlərinin yaradılması kimi mühüm vəzifənin durduğunu bildirdi və bu istiqamətdə müvafiq tədbirlərin həyata keçirildiyini vurğuladı. Dövlətimizin başçısı Beynəlxalq Əmək Təşkilatı ilə Azərbaycan arasında əməkdaşlığın önəminə toxunaraq bu əməkdaşlığın uğurla davam etdiriləcəyinə əminliyini ifadə etdi.

Fransanın Avropa və xarici işlər nazirinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Fransa Respublikasının Avropa və xarici işlər naziri Jan-İv Lö Drianı qəbul edib.

Görüşdə Azərbaycan ilə Fransa arasında dostluq əlaqələrinin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, fransız şirkətlərinin ölkəmizdə uzun illər səmərəli fəaliyyət göstərdikləri, Azərbaycanda nəqliyyat, kosmik sənaye, infrastruktur, kənd təsərrüfatı və digər sahələrdə bir çox layihələri uğurla icra etdikləri qeyd olundu. Fransız şirkətlərinin Azərbaycanda fəaliyyətlərindən razılıq hissi keçirdikləri diqqətə çatdırıldı.

Söhbət zamanı energetika sahəsində əməkdaşlıq məsələləri də müzakirə edildi. Cənub Qaz Dəhlizinin icrasının önəmi qeyd olundu, SOCAR-la TOTAL şirkəti arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı. Humanitar sahədə əməkdaşlıq məsələlərinə də toxunularaq Bakıda fransız liseyinin fəaliyyətinin bu sahədə əməkdaşlığın möhkəmləndirilməsi işinə töhfə verdiyi qeyd olundu.

Fransanın Avropa və xarici işlər naziri Jan-İv Lö Drian Fransız-Azərbaycan universitetinin yaradılmasına görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyini diqqətə çatdırdı. Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycanın mövqeyi bu münaqişənin tezliklə beynəlxalq hüquq və norma prinsipləri əsasında ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllindən ibarətdir.

Səmimi şəkildə keçən görüşdə Azərbaycan ilə Fransa arasında gələcək çoxşaxəli əməkdaşlığın müxtəlif aspektləri müzakirə edildi.

Böyük Britaniyanın Baş nazirinin Azərbaycan üzrə ticarət elçisinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonu qəbul edib.

Dövlətimizin başçısı Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi və 25-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisində iştirak etmək üçün Azərbaycana səfər etdiyinə görə Baronessa Emma Nikolsona minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına son səfərini məmnunluqla xatırladı.

Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, BP və SOCAR şirkətləri arasında uzun illər səmərəli əməkdaşlığın həyata keçirildiyi qeyd edildi.

Baronessa Emma Nikolson Bakıda keçirilən Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi və 25-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin önəminə toxunaraq bu tədbirlərin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə üst-üstə düşməsinin rəmzi xarakter daşıdığını vurğuladı. Baronessa Emma Nikolson bu tədbirləri əlamətdar hadisələr kimi dəyərləndirərək bu münasibətlə dövlətimizin başçısına təbriklərini çatdırdı.

ABŞ Dövlət katibinin köməkçisinin enerji məsələləri üzrə müavininin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da ABŞ Dövlət katibinin köməkçisinin enerji məsələləri üzrə müavini Sandra Oudkirkin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı ABŞ Dövlət katibinin köməkçisinin enerji məsələləri üzrə müavini Sandra Oudkirkin Cənub Qaz Dəhlizinin rəsmi açılışında və XXV Beynəlxalq Neft və Qaz Sərgisində iştirak etdiyinə görə minnətdarlığını bildirdi. Amerika Birləşmiş Ştatlarının bu tədbirlərdə belə yüksək səviyyədə təmsil olunmasından məmnunluğunu ifadə edən Prezident İlham Əliyev qlobal enerji layihələrinin reallaşdırılmasında ABŞ hökumətinin dəstəyini yüksək qiymətləndirdi və ölkələrimizin uzun illər həyata keçirdiyi tərəfdaşlıq əlaqələrinin çox yaxşı nəticələr verdiyini dedi. Dövlətimizin başçısı Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimini ölkələrimiz arasında uğurlu əməkdaşlığın yaxşı göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə göndərdiyi məktuba görə təşəkkürünü bildirdi və ABŞ Prezidentinin həmin məktubda əməkdaşlığımızın mühüm istiqamətlərindən olan enerji sahəsində əlaqələrin inkişafı barədə ifadə etdiyi fikirlərin münasibətlərimizin yüksək səviyyəsinin nümunəsi olduğunu vurğuladı.

Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasiminə dəvətə görə minnətdarlığını bildirən ABŞ Dövlət katibinin köməkçisinin enerji məsələləri üzrə müavini Sandra Oudkirk ölkələrimiz arasında energetika sahəsində möhkəm əsaslara söykənən əlaqələrin həyata keçirildiyini və bu əlaqələrin regionda əməkdaşlığın genişləndirilməsi, həm də, eyni zamanda, Avropanın enerji təchizatının şaxələndirilməsi işinə verdiyi töhfəni yüksək qiymətləndirdi.

Görüşdə Azərbaycan Respublikası ilə ABŞ arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, enerji, təhlükəsizlik sahələrində uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin bundan sonra genişlənəcəyinə əminlik ifadə olundu.

Qaz İxrac Edən Ölkələr Forumunun baş katibinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Qaz İxrac Edən Ölkələr Forumunun baş katibi Yuri Sentyurini qəbul edib.

Dövlətimizin başçısı Qaz İxrac Edən Ölkələr Forumunun baş katibi Yuri Sentyurinə Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimində iştirakına görə minnətdarlığını bildirdi.

Qaz İxrac Edən Ölkələr Forumunun baş katibi Yuri Sentyurin Cənub Qaz Dəhlizinin rəsmi açılışının əhəmiyyətini qeyd etdi və bu tədbirə dəvətə görə minnətdarlığını bildirdi. O, Bakıya bu səfəri zamanı inanılmaz inkişafın şahidi olduğunu qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Qaz İxrac Edən Ölkələr Forumu arasında uğurlu əməkdaşlıq həyata keçirildiyini vurğuladı.

Yuri Sentyurin Azərbaycanın Qaz İxrac Edən Ölkələr Forumuna müşahidəçi qismində qoşulmasından keçən dövr ərzində ölkəmizin təşkilatın fəaliyyətinin gücləndirilməsinə öz töhfəsini verdiyini xüsusi qeyd etdi.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

"Microsoft" şirkətinin Mərkəzi və Şərqi Avropa üzrə vitse-prezidentinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da "Microsoft" şirkətinin Mərkəzi və Şərqi Avropa üzrə vitse-prezidenti Filip Roqu qəbul edib.

Görüşdə Azərbaycan ilə "Microsoft" şirkəti arasında səmərəli əməkdaşlığın aparıldığı bildirildi, bu təşkilatın Azərbaycanda həyata keçirdiyi bir sıra layihələrin önəmi qeyd olundu.

Filip Roq təmsil etdiyi şirkətin fəaliyyəti ilə bağlı məlumat verdi.

Dövlətimizin başçısı Azərbaycanda İKT sahəsinin qeyri-neft sektorunun prioritet istiqamətlərindən biri olduğunu vurğulayaraq, ölkəmizdə bununla bağlı görülən işlərdən danışdı.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Müsəlman ölkələrinin Azərbaycandakı səfirlərinin və diplomatik nümayəndəliklərinin rəhbərlərinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul edib.

Dövlət başçısı görüşdə çıxış edib.

Prezident İlham Əliyevin çıxışı

– Hörmətli səfirlər, sizi salamlayıram.

Müqəddəs Ramazan ayında bizim görüşlərimiz ənənəvi xarakter daşıyır. Mən fürsətdən istifadə edərək, xahiş edirəm ki, mənim salamlarımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız.

Təmsil etdiyiniz ölkələrlə bizim ölkəmizin çox sıx dostluq əlaqələri vardır. Mənim ölkələrinizə səfərlərim, sizin ölkələrinizin dövlət və hökumət başçılarının Azərbaycana səfərləri bunun əyani sübutudur. Bildiyiniz kimi, biz beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq edirik, bir-birimizi dəstəkləyirik. Xüsusilə BMT-dəki əməkdaşlığı mən qeyd etmək istərdim. İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığımız çox uğurludur. Biz digər beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlıq edirik, bir-birimizi daim dəstəkləyirik.

Bizim dost ölkələrimiz, müsəlman ölkələri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli

ilə bağlı Azərbaycanın haqlı mövqeyini dəstəkləyirlər. Bu dəstəyə görə mən sizə minnətdaram. Bildiyiniz kimi, bütün aparıcı beynəlxalq təşkilatlar bu münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasını tələb edən qərar və qətnamələr qəbul etmişlər. BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib. BMT-nin Baş Assambleyası, ATƏT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, ECO və digər təşkilatlar da oxşar qərar və qətnamələr qəbul ediblər. Bu qərar və qətnamələr münaqişənin həlli üçün hüquqi zəmin yaradır. Bu qərar və qətnamələrin qəbul edilməsində həmin təşkilatlardakı müsəlman ölkələri iştirak edirlər, münaqişənin həllinə dəstək verirlər.

Bildiyiniz kimi, uzun illərdir ki, beynəlxalq birlik tərəfindən tanınan Azərbaycanın tarixi, əzəli torpaqları erməni işğalı altındadır. Bu işğal nəticəsində 1 milyondan artıq azərbaycanlı doğma torpaqda qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Bizim şəhərlərimiz, kəndlərimiz ermənilər tərəfindən dağıdılıb. Muzeylərimiz talan edilib. Tarixi, dini abidələrimiz, məscidlərimiz ermənilər tərəfindən dağıdılıb. Bu, misli görünməmiş vandallıqdır. Xalqımıza qarşı ermənilər Xocalı soyqırımı törədiblər. Ondan çox ölkə bu soyqırımını rəsmi qaydada qəbul edib.

Münaqişənin tezliklə həlli bölgəyə sabitlik, sülh gətirəcək. Münaqişənin tezliklə həlli üçün, ilk növbədə, Ermənistan öz işğalçı qüvvələrini işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarmalıdır və dünyanın ən ali qurumu olan BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etməlidir. Bu məsələ ilə bağlı ədalətli mövqeyinizə görə ölkələrinizə və sizə bir daha minnətdaram.

Azərbaycan da öz növbəsində beynəlxalq təşkilatlarda bütün müsəlman ölkələrinin maraqlarını dəstəkləyən qərar və qətnamələrə dəstək verir, onların bir çoxunun təşəbbüskarı olmuşdur. İslam Əməkdaşlıq Təşkilatı haqlı olaraq Azərbaycan dövlətinin bu istiqamətdəki fəaliyyətini yüksək qiymətləndirir. Dəfələrlə bəyan etmişdir ki, Azərbaycan İslam həmrəyliyi məsələlərində çox önəmli rol oynayır. Bizim üçün İslam həmrəyliyini möhkəmləndirmək xarici siyasətimizin əsas prioritet məsələlərindən biridir. Biz İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüyük. Bildiyiniz kimi, keçən il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunmuşdur. Ölkələrinizin iştirakı ilə Bakıda mötəbər IV İslam Həmrəylik Oyunları keçirilmişdir. Bu Oyunlar sadəcə olaraq idman yarışı deyil, eyni zamanda, İslam dünyasının birliyini nümayiş etdirib və biz çalışmalıyıq ki, İslam aləminin birliyini tam təmin edək.

Bu il Azərbaycanın qədim şəhəri olan Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı elan edilmişdir. İkinci dəfədir ki, Azərbaycan şəhəri bu şərəfli ada layiq görülür. Birinci dəfə Bakı şəhəri bu ada layiq görülmüşdür. Bu, bizi çox sevindirir. Bu, onu göstərir ki, bütün müsəlman dünyası Naxçıvanı qədim Azərbaycan diyarı, müsəlman diyarı kimi tanıyır. Naxçıvanda yerləşən, bütün müsəlman ictimaiyyəti üçün önəmli olan abidələrimiz dünya əhəmiyyətli abidələrdir.

Bildiyiniz kimi, Azərbaycan İslam mədəniyyətinin dünyada təqdim edilməsində də mühüm rol oynayır. Bir çox Avropa ölkələrində keçirdiyimiz sərgilər, təqdimatlar, digər mədəni tədbirlər İslam mədəniyyətini təbliğ edir, İslam dəyərlərini təcəssüm etdirir. Biz bu siyasəti bundan sonra da davam etdirəcəyik.

Mən bir daha sizi salamlayıram və sizə uğurlar, cansağlığı, xalqlarınıza xoşbəxtlik arzulayıram.

* * *

Sonra Fələstin Dövlətinin Azərbaycan Respublikasındakı səfiri Nasir Əbdül Kərim Əbdül Rəhim çıxış etdi.

Sonda xatirə şəkli çəkdirildi.

ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavininin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Bricet Brinki qəbul edib.

Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika, təhlükəsizlik sahələrində uğurla inkişaf etdiyi qeyd olundu.

Söhbət zamanı Cənub Qaz Dəhlizinin rəsmi açılışının əhəmiyyəti vurğulanaraq, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında getdikcə artan rolu xüsusi qeyd edildi. Prezident İlham Əliyev ABŞ Prezidenti Donald Trampın Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi və Cənub Qaz Dəhlizinin rəsmi açılışı münasibətilə göndərdiyi məktublarda ikitərəfli münasibətlərimizlə bağlı ifadə etdiyi fikirlərə görə minnətdarlığını bildirdi və bunun əlaqələrimizin yüksək səviyyədə olmasını nümayiş etdirdiyini vurğuladı.

Dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı qeyd etdi ki, Azərbaycanın mövqeyi bu münaqişənin tezliklə, beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllindən ibarətdir.

Söhbət zamanı Azərbaycanın beynəlxalq terrorizmlə mübarizəyə töhfəsi, o cümlədən Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirakı yüksək qiymətləndirildi, energetika sahəsində əlaqələr, regional əməkdaşlıq və demokratiyanın inkişafı ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Avropa Komissiyasının nümayəndə heyətinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Avropa Komissiyasının büdcə məsələləri və insan resursları üzrə komissarı Günter Ottingerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlət başçısı Günter Ottinger ilə bundan əvvəl Bakıda və müxtəlif beynəlxalq tədbirlərdə görüşlərini məmnunluqla xatırladı.

Prezident İlham Əliyev Cənub Qaz Dəhlizinin rəsmi açılışının önəmini vurğulayaraq, bunun ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi baxımından böyük əhəmiyyət daşıdığını qeyd etdi və Cənub Qaz Dəhlizinin reallaşmasında Avropa İttifaqının dəstəyini və Günter Ottingerin verdiyi töhfəni yüksək qiymətləndirdi.

Günter Ottinger Avropa Komissiyasının prezidenti Jan-Klod Yunkerin salamlarını dövlətimizin başçısına çatdırdı. Eyni zamanda, dövlətimizin başçısına yeni prezidentlik dövründə fəaliyyətində uğurlar arzuladı və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi və Cənub Qaz Dəhlizinin rəsmi açılışı münasibətilə təbriklərini çatdırdı. Günter Ottinger bundan əvvəl Prezident İlham Əliyevlə keçirdiyi səmərəli görüşlərini məmnunluq hissi ilə xatırladı. Cənub Qaz Dəhlizinin açılışının əhəmiyyətinə toxunan Günter Ottinger bunu çox mühüm hadisə kimi dəyərləndirdi və bu dəhlizin Azərbaycanın və regionun Avropa ilə birləşdirilməsi baxımından önəmini qeyd etdi. Bildirdi ki, Cənub Qaz Dəhlizi qlobal əhəmiyyət daşıyır və bu dəhlizin reallaşması, öz növbəsində, Azərbaycanda və regionda nəqliyyat, kənd təsərrüfatı, İKT və turizm sahələrinin inkişafına təkan verəcək. Günter Ottinger əminliklə vurğuladı ki, təmsil etdiyi qurum Azərbaycanın bundan sonra da Avropa İttifaqını dünyanın digər regionları ilə əlaqələndirəcək qlobal və regional layihələrini dəstəkləyəcək.

Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında tərəfdaşlığa dair yeni sazişlə bağlı danışıqların yaxın zamanlarda uğurla başa çatacağına və siyasi, iqtisadi, humanitar, mədəni və bütün digər sahələrdə əməkdaşlığı əhatə edəcəyinə ümidvarlıq ifadə olundu, Cənub Qaz Dəhlizinin reallaşmasında Avropa İttifaqı ilə səmərəli əməkdaşlığın həyata keçirildiyi qeyd edildi, enerji, investisiya, nəqliyyat dəhlizlərinin yaradılması və inkişafı, ticarət dövriyyəsinin artırılması ilə bağlı məsələlər ətrafında ətraflı fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev Jan-Klod Yunkerin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Avropa Komissiyasının prezidentinə çatdırmağı xahiş etdi.

Avropa Komissiyasının nümayəndə heyətinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Avropa Komissiyasının büdcə məsələləri və insan resursları üzrə komissarı Günter Ottingerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlət başçısı Günter Ottinger ilə bundan əvvəl Bakıda və müxtəlif beynəlxalq tədbirlərdə görüşlərini məmnunluqla xatırladı.

Prezident İlham Əliyev Cənub Qaz Dəhlizinin rəsmi açılışının önəmini vurğulayaraq, bunun ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi baxımından böyük əhəmiyyət daşıdığını qeyd etdi və Cənub Qaz Dəhlizinin reallaşmasında Avropa İttifaqının dəstəyini və Günter Ottingerin verdiyi töhfəni yüksək qiymətləndirdi.

Günter Ottinger Avropa Komissiyasının prezidenti Jan-Klod Yunkerin salamlarını dövlətimizin başçısına çatdırdı. Eyni zamanda, dövlətimizin başçısına yeni prezidentlik dövründə fəaliyyətində uğurlar arzuladı və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi və Cənub Qaz Dəhlizinin rəsmi açılışı münasibətilə təbriklərini çatdırdı. Günter Ottinger bundan əvvəl Prezident İlham Əliyevlə keçirdiyi səmərəli görüşlərini məmnunluq hissi ilə xatırladı. Cənub Qaz Dəhlizinin açılışının əhəmiyyətinə toxunan Günter Ottinger bunu çox mühüm hadisə kimi dəyərləndirdi və bu dəhlizin Azərbaycanın və regionun Avropa ilə birləşdirilməsi baxımından önəmini qeyd etdi. Bildirdi ki, Cənub Qaz Dəhlizi qlobal əhəmiyyət daşıyır və bu dəhlizin reallaşması, öz növbəsində, Azərbaycanda və regionda nəqliyyat, kənd təsərrüfatı, İKT və turizm sahələrinin inkişafına təkan verəcək. Günter Ottinger əminliklə vurğuladı ki, təmsil etdiyi qurum Azərbaycanın bundan sonra da Avropa İttifaqını dünyanın digər regionları ilə əlaqələndirəcək qlobal və regional layihələrini dəstəkləyəcək.

Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında tərəfdaşlığa dair yeni sazişlə bağlı danışıqların yaxın zamanlarda uğurla başa çatacağına və siyasi, iqtisadi, humanitar, mədəni və bütün digər sahələrdə əməkdaşlığı əhatə edəcəyinə ümidvarlıq ifadə olundu, Cənub Qaz Dəhlizinin reallaşmasında Avropa İttifaqı ilə səmərəli əməkdaşlığın həyata keçirildiyi qeyd edildi, enerji, investisiya, nəqliyyat dəhlizlərinin yaradılması və inkişafı, ticarət dövriyyəsinin artırılması ilə bağlı məsələlər ətrafında ətraflı fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev Jan-Klod Yunkerin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Avropa Komissiyasının prezidentinə çatdırmağı xahiş etdi.

Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibi Vladimir Kuvşinovu qəbul edib.

Dövlətimizin başçısı sabah Bakıda keçiriləcək Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasının yaradılmasının 10 illiyi ilə bağlı tədbirin və Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibinin bu tədbirdə iştirakının önəmini qeyd etdi. Prezident İlham Əliyev Azərbaycan ilə Beynəlxalq Mülki Müdafiə Təşkilatı arasında uğurlu əməkdaşlığın bundan sonra da davam edəcəyinə əminliyini ifadə etdi.

Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibi Vladimir Kuvşinov sabah Bakıda keçiriləcək Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasının yaradılmasının 10 illiyi ilə əlaqədar tədbirdə iştirakından məmnunluğunu ifadə edərək, eyni zamanda, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi ilə rəhbərlik etdiyi qurum arasında imzalanacaq informasiya mübadiləsi reqlamentinin əməkdaşlığın möhkəmləndirilməsi baxımından əhəmiyyətini qeyd etdi. Vladimir Kuvşinov bildirdi ki, Azərbaycan Beynəlxalq Mülki Müdafiə Təşkilatının fəal üzvlərindən biridir və ölkəmiz bu təşkilatın strateji inkişafla bağlı fəaliyyətinə öz töhfəsini verir.

Söhbət zamanı Azərbaycanda mülki müdafiə sahəsində həyata keçirilən işlərdən danışıldı, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Beynəlxalq Velosipedçilər İttifaqının prezidentinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Beynəlxalq Velosipedçilər İttifaqının prezidenti David Lappartyeni qəbul edib.

David Lappartyen velosiped idmanının "BMX Racing" növü üzrə dünya çempionatında iştirak etmək üçün Azərbaycana gəlməsindən məmnunluğunu ifadə etdi. O, bu tədbirin mühüm beynəlxalq idman yarışı olduğunu vurğulayaraq 43 ölkədən 1500-dən artıq idmançının iştirak etdiyini bildirdi. Azərbaycanda beynəlxalq idman tədbirlərinin uğurla keçirildiyini deyən David Lappartyen Bakıda birinci Avropa Oyunlarının açılışının gözəl təşkil olunduğunu və orada iştirakını məmnunluqla xatırladı.

Dövlətimizin başçısı Bakıda keçirilən velosiped idmanının "BMX Racing" növü üzrə dünya çempionatının önəminə toxunaraq Beynəlxalq Velosipedçilər İttifaqının prezidenti David Lappartyenə Azərbaycanda velosiped idman növünün inkişafına verdiyi dəstəyə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, velosiped idmanının "BMX Racing" növü üzrə dünya çempionatının Azərbaycanda keçirilməsi ölkəmizdə bu idman növünə marağın artmasına və ümumilikdə idmanın inkişafına təkan verir.

Söhbət zamanı Azərbaycanda idmanın sürətli inkişafı, ölkəmizdə müxtəlif idman növləri üzrə ən müasir infrastrukturun yaradıldığı məmnunluqla qeyd olundu, Azərbaycanda keçirilən mühüm idman tədbirlərinin idman sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə töhfə verdiyi vurğulandı.

Qambiya Respublikasının xarici işlər naziri Ousainu Darboenin başçılıq etdiyi, Qambiyanın əmək və infrastruktur naziri Bai Lamin Jobenin daxil olduğu nümayəndə heyətinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 8-də Qambiya Respublikasının xarici işlər naziri Ousainu Darboenin başçılıq etdiyi, Qambiyanın əmək və infrastruktur naziri Bai Lamin Jobenin daxil olduğu nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan ilə Qambiya arasında dostluq əlaqələrinin mövcud olduğunu vurğulayaraq ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı və BMT-də uğurlu əməkdaşlıq həyata keçirdiyini və bir-birini daim dəstəklədiyini məmnunluqla qeyd etdi. Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın ədalətli mövqeyinin Qambiya tərəfindən beynəlxalq platformada dəstəklənməsinə görə təşəkkürünü bildirdi.

Xarici işlər naziri Ousainu Darboe Qambiya Prezidenti Adama Barrounun salamlarını dövlətimizin başçısına çatdırdı. O qeyd etdi ki, Prezident Adama Barrou Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın böyük inkişafa nail olduğunu və bölgədə əməkdaşlığa, iqtisadi inkişafa, sülhün və təhlükəsizliyin təmin olunması işinə mühüm töhfə verdiyini bildirib. Nazir Ousainu Darboe Azərbaycan ilə Qambiyanın Qoşulmama Hərəkatında fəal iştirakını qeyd edərək ölkələrimizin İslam Əməkdaşlıq Təşkilatında, BMT-də bir-birini qarşılıqlı surətdə dəstəklədiyini vurğuladı. Ousainu Darboe daha sonra qeyd etdi ki, onun ölkəsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın haqlı mövqeyini dəstəkləyir və diqqətə çatdırdı ki, Qambiya Prezidenti Azərbaycan torpaqla-

rının Ermənistan tərəfindən işğal edilməsini qətiyyətlə pisləyir.

Prezident İlham Əliyev Qambiya Prezidenti Adama Barrounun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qambiya dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Söhbət zamanı Azərbaycan ilə Qambiya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə əməkdaşlığın perspektivlərinin müəyyənləşdirilməsinin vacibliyi qeyd edildi.

Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının prezidenti, Avropa Parlamentinin Beynəlxalq Ticarət Komitəsinin vitse-prezidenti, Avropa Parlamentinin üzvünün qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 8-də Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının prezidenti, Avropa Parlamentinin Beynəlxalq Ticarət Komitəsinin vitse-prezidenti, Avropa Parlamentinin üzvü Yan Zahradili qəbul edib.

Yan Zahradilin sabah ölkəmizdə keçiriləcək Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının Bakı sammitində iştirakından məmnunluğunu bildirən dövlətimizin başçısı bu önəmli beynəlxalq forumun Azərbaycan paytaxtında təşkil olunmasını yüksək qiymətlənirdi.

Azərbaycana həm Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının prezidenti, həm Avropa Parlamentinin Beynəlxalq Ticarət Komitəsinin vitse-prezidenti, həm də Avropa Parlamentinin üzvü qismində səfər etdiyini deyən Yan Zahradil bildirdi ki, rəhbərlik etdiyi alyans Azərbaycanla uğurlu əməkdaşlıq həyata keçirir. Çexiya-Azərbaycan ikitərəfli münasibətlərinə toxunan qonaq bu münasibətlərin uğurla inkişaf etdiyini bildirdi, ölkələrimizin strateji tərəfdaşlıq səviyyəsində əməkdaşlığının önəmini vurğuladı. Yan Zahradil Avropa ilə Azərbaycan arasında əlaqələrin inkişafına töhfə verməsindən məmnunluğunu ifadə etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Avropa Komissiyası arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edərək ölkəmizlə Avropa İttifaqına üzv olan 9 ölkə, o cümlədən Çexiya ilə strateji tərəfdaşlıq haqqında saziş və bəyannamələrin qəbul edilməsi və imzalanmasının önəmini vurğuladı. Prezident İlham Əliyev sabah Bakıda keçiriləcək tədbirin paytaxtımıza gələn çoxsaylı qonaqların Azərbaycanla daha yaxından tanış olması üçün yaxşı imkan yaradacağına əminliyini ifadə etdi.

Bolqarıstan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirinin etimadnaməsinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 10-da Bolqarıstan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nikolay Yankovun etimadnaməsini qəbul edib.

Səfir Nikolay Yankov fəxri qarovul dəstəsinin qarşısından keçdi. Nikolay Yankov etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirərək, yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini vurğuladı, Bolqarıstan Prezidenti və Baş nazirlərinin Bakıya, özünün Bolqarıstana səfərlərini məmnunluqla xatırladı. Prezident İlham Əliyev Nikolay Yankovun səfirlik fəaliyyətinin əməkdaşlığımızın genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.

Səfir Nikolay Yankov Bolqarıstan Prezidenti Rumen Radevin salamlarını Prezident İlham Əliyevə çatdırdı və dövlətimizin başçısını yenidən prezident seçilməsi, eyni zamanda, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar təbrik etdi. Səfir ölkələrimizin rəhbərliyi arasında dostluq əlaqələrinin mövcud olduğunu bildirərək, bunun ikitərəfli münasibətlərin inkişafında rolunu xüsusi qeyd etdi.

Cənub Qaz Dəhlizi layihəsinə toxunan Nikolay Yankov bu layihənin icrasının Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi, eyni zamanda, Bolqarıstanın qaz təchizatının şaxələndirilməsi baxımından böyük önəm daşıdığını vurğulayaq, ölkəsinin gələcəkdə bu layihədə tranzit rolu oynaya biləcəyini dedi. O, Bolqarıstanın bu mühüm layihənin reallaşmasına siyasi sadiqliyini bir daha ifadə etdi.

Prezident İlham Əliyev bu yaxınlarda Bakıda Cənub Qaz Dəhlizinin rəsmi açılışının önəmini qeyd edərək, yaxın günlərdə TANAP-ın da işə salınacağını vurğuladı, Cənub Qaz Dəhlizi layihəsinin uğurla həyata keçirildiyini bildirdi. Dövlətimizin başçısı Bolqarıstanın bu layihənin mühüm tərkib hissəsi olduğunu və gələcəkdə digər ölkələrə Azərbaycan qazının çatdırılması üçün tranzit rolu oynaya biləcəyini dedi.

Prezident İlham Əliyev Bolqarıstan Prezidenti Rumen Radevin salamlarına görə minnətdarlığını bildirdi,

onun da salamlarını Bolqarıstan Prezidentinə çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətləri, o cümlədən iqtisadiyyat, turizm, investisiya qoyuluşu, kənd təsərrüfatı sahələrinin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Peru Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirinin etimadnaməsinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 10-da Peru Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mariya Milaqros Kastanyon Seoanenin etimadnaməsini qəbul edib.

Səfir Mariya Milaqros Kastanyon Seoane fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Mariya Milaqros Kastanyon Seoane etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Səfir Mariya Milaqros Kastanyon Seoane Peru Respublikasının Prezidenti Martin Viskarranın salamlarını dövlətimizin başçısına çatdırdı. O, səfirlik fəaliyyəti dövründə ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini vurğuladı. Mariya Milaqros Kastanyon Seoane Azərbaycan ilə Peru arasında mümkün əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsinin vacibliyini qeyd edərək, bu baxımdan kənd təsərrüfatı sahəsində yaxşı potensialın olduğunu dedi.

Prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin inkişaf etdirilməsi üçün istiqamətlərin müəyyən edilməsinin zəruri olduğunu vurğulayaraq, bir neçə sahədə, o cümlədən kənd təsərrüfatı sahəsində əlaqələrin genişləndirilməsinin mümkünlüyünü bildirdi, bu sahənin Azərbaycanın inkişafında prioritet sahələrdən biri olduğunu qeyd etdi.

Dövlətimizin başçısı Peru Respublikasının Prezidenti Martin Viskarranın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Peru Prezidentinə çatdırmağı xahiş etdi.

Rusiya Federasiyasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirinin etimadnaməsinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 10-da Rusiya Federasiyasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovun etimadnaməsini qəbul edib.

Səfir Mixail Boçarnikov fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Mixail Boçarnikov etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika, hərbi-texniki, humanitar və bütün digər sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev ölkələrimiz arasında mövcud olan bu münasibətləri strateji tərəfdaşlıq əlaqələri kimi dəyərləndirdiyini vurğuladı. Münasibətlərimizin zəngin tarixə malik olduğunu deyən Prezident İlham Əliyev bu əlaqələrin gələcəkdə də uğurla və dinamik şəkildə inkişaf edəcəyinə əminliyini bildirdi.

Səfir Mixail Boçarnikov Rusiya Prezidenti Vladimir Putinin ona səfirlik fəaliyyəti dövründə Azərbaycan ilə əlaqələri daha da möhkəmləndirmək istiqamətində səylər göstərmək barədə tapşırıqlar verdiyini bildirdi. O qeyd etdi ki, Rusiya-Azərbaycan ikitərəfli münasibətləri bütün sahələrdə uğurla inkişaf edir. Azərbaycanda bütün sahələrdə gedən inkişaf proseslərinin Rusiyada maraqla izlənildiyini deyən Mixail Boçarnikov Bakıda olduğu bir neçə gün ərzində paytaxtda aparılan abadlıq işlərinin onda dərin təəssürat yaratdığını vurğuladı.

Söhbət zamanı Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Asiya İnkişaf Bankının İcraçı Direktorlar Şurasının üzvünün qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Asiya İnkişaf Bankının (AİB) İcraçı Direktorlar Şurasının üzvü Kşatrapati Şivajinin başçılığı ilə bankın Direktorlar Şurasının üzvlərindən ibarət nümayəndə heyətini qəbul edib.

Dövlət başçısı 2015-ci ildə Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 48-ci İllik Toplantısının ölkəmizdə uğurla keçirildiyini və böyük önəm daşıdığını məmnunluqla qeyd etdi. Prezident İlham Əliyev Azərbaycan ilə Asiya İnkişaf Bankı arasında səmərəli əməkdaşlığın

həyata keçirildiyini vurğulayaraq bankın ölkəmizdə müxtəlif infrastruktur layihələrinin maliyyələşdirilməsində yaxından iştirakını yüksək qiymətləndirdi. Dövlətimizin başçısı ölkəmizin iqtisadi sahədə əldə etdiyi uğurlardan danışdı. Qeyd etdi ki, Azərbaycan "İnklüziv inkişaf indeksi"ndə 2018-ci ildə inkişaf etməkdə olan ölkələr arasında 3-cü, MDB ölkələri arasında isə 1-ci yerdədir. Prezident İlham Əliyev Davos İqtisadi Forumunun rəqabətqabiliyyətlilik hesabatı üzrə isə Azərbaycanın dünyada 35-ci, MDB ölkələri üzrə 1-ci yerdə olduğunu vurğuladı.

Ölkəmizin tranzit imkanlarına toxunan dövlətimizin başçısı nəqliyyat sektorunda irimiqyaslı layihələrin həyata keçirilməsi nəticəsində Azərbaycanın tranzit potensialının daha da artdığını, dəmir yollarının modernləşdirilməsi istiqamətində mühüm işlərin görüldüyünü vurğulayaraq Bakı-Tbilisi-Qars dəmir yolunun və Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının əhəmiyyətini qeyd etdi.

Asiya İnkişaf Bankının İcraçı Direktorlar Şurasının üzvü Kşatrapati Şivajin dövlətimizin başçısını prezident seçkilərində qələbə qazanması münasibətilə təbik etdi. O, Azərbaycan ilə Asiya İnkişaf Bankı arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini qeyd edərək Cənub Qaz Dəhlizinin reallaşmasını bu əməkdaşlığın yaxşı nümunəsi kimi dəyərləndirdi və bu dəhlizin çox mühüm layihə olduğunu vurğuladı. Qeyd etdi ki, dünyada həyata keçirilən bir çox layihələrdə əvvəlcədən nəzərdə tutulmuş maliyyələşmənin həcmi sonradan artdığı halda, Cənub Qaz Dəhlizinin icrasının gedişində isə əksinə, işlər səmərəli aparıldığından hətta əvvəlcədən nəzərdə tutulduğundan da az vəsait sərf olunub.

Kşatrapati Şivajin bildirdi ki, Azərbaycana səfərlərinin məqsədlərindən biri də ölkənin inkişaf ehtiyacları ilə daha yaxından tanış olmaq, bankın fəaliyyətinin səmərəliliyini daha da artırmaq üçün strateji istiqamətləri müəyyən etməkdən ibarətdir. O, dünyada gedən maliyyə-iqtisadi çətinliklərə baxmayaraq, Azərbaycanda makroiqtisadi və maliyyə sabitliyinin təmin olunmasını, ölkədə qazanılan iqtisadi uğurları və həyata keçirilən islahatları yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev seçkilərdə qələbə qazanması münasibətilə təbriklərə görə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı "Cənub Qaz Dəhlizi" layihəsinin böyük hissəsinin icra olunduğunu vurğulayaraq, bu layihənin bütün Avrasiya uçun qlobal önəm daşıdığını dedi, "Cənub Qaz Dəhlizi" layihəsinə ilk dəstək verən beynəlxalq maliyyə qurumu kimi Asiya İnkişaf Bankının rolunu xüsusi qeyd etdi. Prezident İlham Əliyev, eyni zamanda, TANAP layihəsinin açılışının böyük əhəmiyyət daşıdığını dedi və bu layihənin Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verəcəyinə əminliyini ifadə etdi.

Prezident İlham Əliyev Azərbaycanda qeyri-neft sahəsində genişmiqyaslı işlərin həyata keçirildiyini və ölkəmizin qarşısında böyük planların durduğunu dedi və bu istiqamətdə Asiya İnkişaf Bankı ilə gələcəkdə də uğurlu əməkdaşlığın həyata keçiriləcəyinə ümidvar olduğunu bildirdi.

Söhbət zamanı məşğulluq strategiyası ilə bağlı məsələlər müzakirə edildi.

Görüşdə, həmçinin bankın 2019-2023-cü illər üzrə strategiyası, Azərbaycan ilə Asiya İnkişaf Bankı arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Əlcəzair Xalq Demokratik Respublikasının ədliyyə nazirinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Əlcəzair Xalq Demokratik Respublikasının ədliyyə naziri Tayeb Louhun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Prezident İlham Əliyev Əlcəzairin ədliyyə naziri Tayeb Louhun Azərbaycanda çoxlu sayda məhsuldar görüşlər keçirməsindən məmnunluğunu ifadə etdi, nazirlər səviyyəsində qarşılıqlı səfərləri ədliyyə sahəsində əməkdaşlığın uğurlu inkişafının göstəricisi kimi dəyərləndirdi. Azərbaycanın Əlcəzair ilə ikitərəfli münasibətlərin genişləndirilməsində maraqlı olduğunu deyən dövlətimizin başçısı vurğuladı ki, siyasi əlaqələr çox yaxşı səviyyədədir, ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən BMT və İslam Əməkdaşlıq Təşkilatında uğurlu əməkdaşlıq həyata keçirir. Azərbaycanın İslam həmrəyliyi işinə verdiyi töhfəyə toxunan Prezident İlham Əliyev keçən il ölkəmizdə "İslam Həmrəyliyi İli"nin elan olunduğunu, Bakıda IV İslam Həmrəyliyi Oyunlarının keçirildiyini qeyd etdi. Dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin növbəti mərhələsində iqtisadi əməkdaşlıq məsələlərinə daha çox diqqət yetirilməsinin və ticarət dövriyyəsinin artırılmasının vacibliyini bildirdi. Prezident İlham Əliyev, eyni zamanda, qeyd etdi ki, humanitar sahədə də əməkdaşlığın genişləndirilməsi, o cümlədən insanlar arasında əlaqələr, turistlərin qarşılıqlı səfərləri böyük önəm daşıyır. Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin bundan sonra da uğurla inkişaf ediləcəyinə əminliyi ifadə etdi.

Ədliyyə naziri Tayeb Louh Əlcəzair Prezidenti Əbdüləziz Buteflikanın salamlarını və eyni zamanda, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibətilə təbriklərini dövlətimizin başçısına çatdırdı. O qeyd etdi ki, Əlcəzair Prezidenti dövləti-

mizin başçısına fəaliyyətində yeni-yeni uğurlar və Azərbaycan xalqına Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə davamlı inkişaf və tərəqqi arzulayır. Tayeb Louh bildirdi ki, Əlcəzair dövlətinin başçısı Azərbaycan ilə münasibətlərin inkişafına yüksək diqqət yetirir və bu istiqamətdə müvafiq tapşırıqlar verib. Nazir ölkələrimiz arasında tarixi əlaqələrin mövcud olduğunu və bu əlaqələrin getdikcə uğurla inkişaf etdiyini vurğuladı.

Dövlətimizin başçısı Əlcəzair Prezidenti Əbdüləziz Buteflikanın salamlarına və təbriklərinə görə minnətdarlığını bildirdi, onun da salamlarını Əlcəzair Prezidentinə çatdırmağı xahiş etdi.

Söhbət zamanı ölkələrimiz arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədrinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədri Vyaçeslav Volodinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədri Vyaçeslav Volodinin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin uğurlu və səmərəli keçəcəyinə və ölkələrimiz arasında dostluq münasibətlərinin daha da inkişaf etdirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi. Bu yaxınlarda Rusiya Federasiyasında Prezident Vladimir Putinlə görüşünü məmnunluqla xatırlayan Prezident İlham Əliyev iki ölkənin dövlət başçıları arasında görüşlərin mütəmadi olaraq keçirildiyini qeyd etdi və bu təmasların əlaqələrimizin bütün istiqamətlərdə irəliyə aparılması baxımından önəmini vurğuladı. Dövlətimizin başçısı qeyd etdi ki, ikitərəfli münasibətlərimiz geniş sahələri əhatə edir, möhkəm siyasi əlaqələr mövcuddur, iqtisadi, ticarət, nəqliyyat, energetika, humanitar və digər sahələrdə yaxşı dinamika müşahidə olunur. Prezident İlham Əliyev bildirdi ki, ölkələrimiz arasında münasibətlərin möhkəmlənməsində parlamentlərarası əməkdaşlıq da böyük önəm daşıyır. Dövlətimizin başçısı qeyd etdi ki, ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq edir və hər zaman beynəlxalq səviyyədə bir-birini qarşılıqlı surətdə dəstəkləyir. Bütün bunlar ölkələrimiz arasında etimada əsaslanan əlaqələrin yaxşı göstəricisidir. Prezident İlham Əliyev bir daha Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədri Vyaçeslav Volodinin başçılıq etdiyi nümayəndə heyətinin səfərinin ikitərəfli münasibətlərimizin inkişafına töhfə verəcəyinə əminliyini ifadə etdi.

Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədri Vyaçeslav Volodin dövlətimizin başçısını prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik etdi və bildirdi ki, bu seçkilərdə insanlar Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə, o cümlədən xarici siyasətə dəstək verdiklərini nümayiş etdiriblər. Vyaçeslav Volodin vurğuladı ki, Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında münasibətlər strateji tərəfdaşlıq əlaqələrinə əsaslanır və çox yüksək səviyyədədir. O qeyd etdi ki, dövlət başçılarının həyata keçirdiyi siyasət bu işdə xüsusi rol oynayır. Parlamentlərarası əməkdaşlıq məsələsinə toxunan Vyaçeslav Volodin bildirdi ki, bu sahədə də əlaqələrin uğurla inkişaf etməsi xalqlarımızın bir-birinə daha da yaxınlaşması işinə xidmət edir. Vyaçeslav Volodin ölkələrimiz arasında iqtisadi əməkdaşlığın genişləndiyini məmnunluqla vurğuladı və bildirdi ki, ticarət dövriyyəsinin 30 faiz artımı bunun çox yaxşı göstəricisidir. Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədri, eyni zamanda, turizm sahəsində əməkdaşlığın genişləndiyini qeyd edərək ötən il Rusiyadan Azərbaycana 850 mindən artıq turistin gəldiyini bildirdi və bu göstəricinin 18 faiz artdığını qeyd etdi. O, bildirdi ki, bu rəqəm Rusiya turistləri üçün ənənəvi olan bir çox ölkələrin göstəricisini artıq geridə qoyub.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Belarus Respublikasının Təhlükəsizlik Şurasının dövlət katibinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Belarus Respublikasının Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zası qəbul edib.

Dövlətimizin başçısı bu yaxınlarda Belarus Prezidenti Aleksandr Lukaşenko ilə Moskvada görüşdüyünü məmnunluqla xatırladı və söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldığını dedi. Prezident İlham Əliyev Azərbaycanla Belarus arasında ikitərəfli münasibətlərin çox yüksək səviyyədə olduğunu və tərəfdaşlıq əlaqələrinə söykəndiyini vurğulayaraq, əməkdaşlığımızın siyasi, iqtisadi, təhlükəsizlik və digər sahələrdə uğurla inkişaf etdiyini bildirdi.

Belarus Respublikasının Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zas prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə dövlətimizin başçısını

təbrik etdi və bunu xalqın dövlət başçısına verdiyi dəstəyin nümayişi kimi dəyərləndirdi. O, iki ölkə arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, Prezident İlham Əliyevə əlaqələrimizin inkişafına verdiyi töhfəyə görə minnətdarlığını bildirdi.

Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədrinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Zübair Mahmud Hayatı qəbul edib.

Prezident İlham Əliyev Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Zübair Mahmud Hayatın Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyinə həsr olunmuş hərbi paradda iştirak etmək üçün ölkəmizə gəlməsindən məmnunluğunu ifadə etdi və bunu ölkələrimiz arasında qardaşlıq və tərəfdaşlıq əlaqələrinin göstəricisi kimi dəyərləndirdi. Ölkələrimizin hər zaman bir-birini dəstəklədiyini deyən dövlətimizin başçısı Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğal edilməsi səbəbindən Pakistanın Ermənistanla diplomatik əlaqələr qurmamasını yüksək qiymətləndirdi və qeyd etdi ki, bu, xalqlarımız arasında qardaşlığı nümayiş etdirir və Azərbaycan xalqı bunu yüksək dəyərləndirir. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirən Prezident İlham Əliyev Pakistan rəhbərləri ilə görüşlərini məmnunluqla xatırladı. Prezident İlham Əliyev qeyd etdi ki, ölkələrimiz arasında sıx siyasi əlaqələr mövcuddur və eyni zamanda, müdafiə sahəsində də əməkdaşlıq uğurla inkişaf edir. Azərbaycan Pakistanla hərbi əməkdaşlığı daha da genişləndirmək və Pakistandan daha çox hərbi texnika almaqda maraqlıdır. Ölkələrimizin birgə hərbi təlimləri də bu məqsədə xidmət edir.

Xoş sözlərə görə minnətdarlığını bildirən Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Zübair Mahmud Hayat Pakistan hökumətinin, xalqının və Silahlı Qüvvələrinin ən xoş arzularını Prezident İlham Əliyevə və xalqımıza çatdırdı. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyinə həsr olunmuş hərbi paradda iştirak edəcəyindən məmnunluq hissi keçirdiyini deyən Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Zübair Mahmud Hayat tədbirin böyük əhəmiyyət daşıdığını vurğuladı və bu münasibətlə təbriklərini çatdırdı. Xalqlarımız arasında sıx əlaqələrin mövcud olduğunu deyən Zübair Mahmud Hayat bu əlaqələrin tarixi və mədəni köklərə əsaslandığını vurğuladı.

Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi və Türkiyənin müdafiə nazirinin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Hulusi Akarı və Türkiyənin müdafiə naziri Nurettin Caniklini qəbul edib.

Dövlətimizin başçısı Türkiyədə keçirilən seçkilər nəticəsində Rəcəb Tayyib Ərdoğanın qələbəsi ilə bağlı təbriklərini çatdıraraq qeyd etdi ki, bu, Türkiyə Prezidentinin rəhbərliyi ilə son illər görülmüş işlərə xalqın verdiyi qiymətin yüksək təzahürüdür. Dövlətimizin başçısı Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Hulusi Akarın, müdafiə naziri Nurettin Caniklinin və qardaş Türkiyə hərbçilərinin Azərbaycan Ordusunun yaradılmasının 100 illiyinə həsr olunmuş paradda iştirakından məmnunluğunu qeyd etdi. Prezident İlham Əliyev Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən müdafiə sahəsində bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini ifadə etdi.

Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Hulusi Akar və müdafiə naziri Nurettin Canikli Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdılar.

Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi və müdafiə naziri Azərbaycanda keçirilən prezident seçkilərində dövlətimizin başçısını qazandığı qələbə münasibətilə təbrik etdilər və Azərbaycan Ordusunun yaradılmasının 100 illiyinə həsr olunmuş paradda iştirak etmələrindən şərəf hissi duyduqlarını bildirdilər.

Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

ABŞ dövlət katibinin Cənubi və Mərkəzi Asiya məsələləri üzrə köməkçisinin birinci müavininin qəbulu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də ABŞ dövlət katibinin Cənubi və Mərkəzi Asiya məsələləri üzrə köməkçisinin birinci müavini xanım Alis Uelsi qəbul edib.

Xanım Alis Uels Əfqanıstan üzrə Beynəlxalq Təmas Qrupunun toplantısına Azərbaycanın ev sahibliyi etməsi ilə bağlı minnətdarlığını bildirdi və bu tədbirin böyük önəm daşıdığını dedi.

Dövlətimizin başçısı xanım Alis Uelsin bu tədbirdə iştirak etməsindən məmnunluğunu bildirdi.

Xanım Alis Uels bu yaxınlarda qeyd olunmuş Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyi və "Şahdəniz-2" layihəsinin rəsmi açılışı kimi çox tarixi tədbirlərdən az keçmiş Azərbaycana səfər etməsindən məmnunluğunu vurğuladı. O, bu mühüm hadisələrlə bağlı ABŞ Prezidenti Donald Trampın Azərbaycan Respublikası Prezidentinə təbrik məktubları göndərdiyini xatırlayaraq bu münasibətlə öz təbriklərini də çatdırdı.

Dövlətimizin başçısı Amerika Prezidenti Donald Trampın bu iki mühüm hadisə ilə bağlı göndərdiyi məktublara və orada ölkəmiz və ikitərəfli münasibətlərimizlə əlaqədar ifadə etdiyi xoş fikirlərə görə minnətdarlığını bildirdi, bunun əlaqələrimizin strateji önəmini bir daha nümayiş etdirdiyini dedi və qeyd etdi ki, Azərbaycan tərəfi ABŞ Prezidentinin ölkəmizə olan münasibətini yüksək qiymətləndirir. Eyni zamanda, Prezident İlham Əliyev Azərbaycanın həyata keçirdiyi nəhəng enerji layihələrinin reallaşmasına ABŞ hökumətinin verdiyi dəstəyin böyük önəm daşıdığını vurğuladı və bildirdi ki, Azərbaycan hər zaman müxtəlif enerji layihələri, o cümlədən böyük əhəmiyyət daşıyan "Cənub Qaz Dəhlizi" layihəsinin reallaşmasında bu dəstəyi hiss edib.

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan Əfqanıstan hökumətinə birbaşa və beynəlxalq səylər çərçivəsində dəstək göstərir və eyni zamanda, NATO-nun Əfqanıstandakı Qətiyyətli Dəstək missiyasına öz töhfəsini verir və bu missiyada Azərbaycan hərbçilərinin sayı artırılıb. Azərbaycan gələcəkdə də öz hərbçilərinin sayını artırmağa hazırdır. Prezident İlham Əliyev daha sonra qeyd etdi ki, xüsusilə Bakı-Tbilisi-Qars dəmir yolu xətti işə düşdükdən sonra Azərbaycan Əfqanıstana böyük önəm daşıyan logistik dəstəyi təmin edir. Prezident İlham Əliyev bütün bunların Əfqanıstan hökuməti tərəfindən yüksək qiymətləndirildiyini dedi.

Azərbaycan Prezidenti qeyd etdi ki, Əfqanıstan üzrə Beynəlxalq Təmas Qrupunun toplantısı bunu bir daha nümayiş etdirəcək və Əfqanıstanda vəziyyətin sabitləşdirilməsi işinə böyük töhfə verəcək.

Xanım Alis Uels Azərbaycan Prezidenti ilə görüşün Əfqanıstana dair məsələlər ətrafında fikir mübadiləsi aparmaq üçün yaxşı imkan yaratdığını dedi. O, Azərbaycanın Əfqanıstana və bu ölkənin xalqına davamlı dəstəyini və eləcə də Əfqanıstandakı Qətiyyətli Dəstək missiyasında Azərbaycan hərbçilərinin sayının artırılmasının ABŞ tərəfindən yüksək qiymətləndirildiyini bildirdi.

Söhbət zamanı Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin siyasi, iqtisadi, enerji və təhlükəsizlik sahələrində uğurla inkişaf etdiyi qeyd olundu, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə edildi.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏFƏRLƏRİ

Türkiyə Respublikasına rəsmi səfər

Aprelin 25-də Türkiyə Respublikası Prezidentinin Sarayında - Külliyedə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub., Azərbaycan Prezidenti İlham Əliyev süvari dəstəsinin müşayiəti ilə Türkiyə Prezidentinin Sarayına gəldi.

Sarayın qarşısındakı meydanda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Prezident İlham Əliyevin şərəfinə toplardan yaylım atəşinin müşayiəti ilə Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Prezident İlham Əliyev fəxri qarovul dəstəsini salamladı.

Türkiyənin rəsmi şəxsləri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Rəcəb Tayyib Ərdoğana təqdim edildi.

Sonra Azərbaycan və Türkiyə prezidentləri rəsmi foto çəkdirdilər.

Aprelin 25-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü olub.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi. Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə rəsmi səfərinin əlaqələrimizin inkişafı baxımından əhəmiyyəti qeyd olundu. Münasibətlərimizin siyasi, iqtisadi, energetika və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Əməkdaşlığın bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu. Ölkələrimizin birlikdə həyata keçirdikləri qlobal əhəmiyyətli layihələrin əhəmiyyəti xüsusi qeyd edildi.

Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

Aprelin 25-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclası keçirilib.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, dövlət başçıları iclasda çıxış ediblər.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın çıxışı

-Əziz qardaşım, dəyərli nümayəndə heyətinin üzvləri.

Əvvəlcə, əziz qardaşım cənab İlham Əliyevə və dəyərli nümayəndə heyətinin üzvlərinə bir daha ölkəmizə "Xoş gəlmisiniz!" deyirəm. Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclasının ölkələrimiz və bölgəmiz üçün xeyirli olmasını arzu edirəm.

Cənab İlham Əliyevi prezident seçkilərindən sonrakı ilk rəsmi xarici səfərində Ankarada qonaq etməkdən məmnunluq hissi keçirirəm. Cənab İlham Əliyevi yenidən Prezident seçilməsi münasibətilə təbrik edirəm. Mən də, inşallah, prezident seçildikdən sonra ilk xarici səfərimi Azərbaycana edəcəyəm. Bunun bir ənənə halı alması da münasibətlərimizin müstəsnalığını açıq şəkildə ortaya qoyur. Zati-alinizin seçkilərdə qazandığı 86 faiz səs Azərbaycan xalqının Sizə olan etibarını nümayiş etdirdi. Bu etibar şübhəsiz ki, əsassız deyil. Prezident olduğunuz ötən 15 ildə Azərbaycanın keçdiyi inkişaf yolu möhtəşəmdir. Qarşıdakı illərdə də Azərbaycanın uzaqgörən liderliyinizlə müstəqilliyindən bəri qət etdiyi yolu dəfələrlə artıracağına olan inamım tamdır.

Dəyərli nümayəndə heyətinin üzvləri, bir az əvvəl qardaşım Prezident İlham Əliyevlə keçirdiyimiz təkbətək görüşdə ikitərəfli münasibətlərimizin önəmini qeyd edərək, bundan sonra atılacaq addımlar haqqında fikir mübadiləsi apardıq. Eyni şəkildə nazirlərimiz də bir-biri ilə görüşərək öz planlarını müzakirə etdilər.

Aramızdakı qardaşlıq əlaqələrini real layihələrlə daha da gücləndirmək əzmindəyik. Ötən il açılışını etdiyimiz Bakı-Tbilisi-Qars dəmir yolu xətti bu mənada çox önəmlidir. Bu dəmir yolu xəttinin funksional və davamlı istifadəsi ilə bağlı gördüyümüz işlər davam edir. Bu işləri tez bir zamanda bitirməliyik. Dünyanın ən mühüm nəqliyyat dəhlizlərindən biri olan bu dəmir yolu xəttinin daha da məhsuldar işləməsi üçün əlimizdən gələni etməliyik. Transanadolu təbii qaz boru kəməri - TANAP prioritet layihələrimizdən biridir. Enerji sahəsindəki əməkdaşlığımızın zirvəsi olan bu layihənin açılışı, inşallah, bu ilin iyun ayında olacaq. Məlumdur ki, iyunun 24-də ölkəmizdə prezident seçkiləri keçiriləcək. Ona görə, əgər açılışı iyunun əvvəllərində etsək, bu, həm Türkiyəyə, həm də dünyaya səs salacaq. Digər irihəcmli layihə olan Cənub Qaz Dəhlizi ölkələrimizlə yanaşı, bölgəmizə və Avropaya da rifah gətirəcək və enerji təhlükəsizliyinə çox böyük töhfə verəcək. Digər tərəfdən, "Star" neft emalı zavodunun da tikintisi tamamlanacaq. Beləliklə, Azərbaycan Türkiyəyə ən böyük sərmayə yatıran ölkə olacaq. Buna görə də şəxsən öz adımdan və xalqım adından Sizə təşəkkür edirəm. Məlum olduğu kimi, Türkiyənin Azərbaycanda lap əvvəldən neft sektorunda ən böyük investor olması təsadüfi deyil. Ancaq bunları qəti şəkildə kafi hesab etmirik və bu əməkdaşlığı daha da genişləndirmək üçün əlimizdən gələni edirik.

Bir neçə il əvvəl qarşıya qoyduğumuz ticarət

hədəflərinə hələ ki, çata bilməmişik. Bunda qarşılıqlı münasibətlərimizdən asılı olmayaraq, dünyada baş verən qlobal iqtisadi hadisələrin də rolu var. Güzəştli ticarət sazişinin tezliklə imzalanması ticarətimizin bərabər rəqabət şərtləri çərçivəsində aparılması üçün çox böyük önəmə malikdir. Bu gün güzəştli ticarət sazişinin imzalanması ilə bağlı Anlaşma Memorandumunun imzalanacağından məmnunluq duyuruq.

Dəyərli qardaşım, dostluq və qardaşlıq əlaqələrimiz yalnız bu günün məhsulu deyil. Biz tariximiz, soyumuz, mədəniyyətimiz bir olan iki dövlətik. Qafqaz İslam Ordusu bundan yüz il əvvəl qardaşlarını zülmdən xilas etmək üçün Azərbaycana gedərkən bu düşüncə ilə hərəkət edib. Qafqaz İslam Ordusunun 1918-ci ildə apardığı və Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında da rol oynayan mübarizəsi bugünkü Azərbaycanın müstəqilliyinin təməllərinin atılmasına da töhfə verib. Azərbaycanın müstəqilliyinin yüzüncü ildönümünü qeyd etdiyimiz bu il ərzində Qafqaz İslam Ordusu şəhidlərinin də xatirəsini layiqli şəkildə yad etmək üçün müxtəlif tədbirlər keçirməyi planlaşdırırıq.

Biz Türkiyədə hər zaman "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" deyərək hərəkət edirik və dar gündə də, yaxşı gündə də qardaşlarımızın yanındayıq. Azərbaycanda da bu vəziyyət eynidir. Bu baxımdan FETÖ, PKK, PYD, YPG, İŞİD terror qruplaşmaları ilə mübarizəmizdə heç vaxt dəstəyini əsirgəməyən Azərbaycan xalqına xüsusilə təşəkkür edirəm. Türkiyə Silahlı Qüvvələrinin Afrində keçirdiyi "Zeytun budağı" əməliyyatını həm Azərbaycan hökuməti, həm də Azərbaycan xalqı öz mübarizəsi hesab edib. Orada canını qurban verən şəhidlərimiz üçün duyduğunuz üzüntünü, qazandığımız uğurlara görə də keçirdiyiniz sevinc hisslərini də təqdir edirik. Biz də Azərbaycanın illərdir qanayan yarası olan Qarabağ problemini həmişə öz problemimiz, orada yaşanan faciələri öz faciəmiz hesab edirik. Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı çərçivəsində təcili həlli ən böyük arzumuzdur. ATƏT-in Minsk qrupu çərçivəsində aparılan müzakirələr prosesini dəstəkləyirik. Ancaq bu prosesin 25 ildir münaqişənin həllində heç bir nəticə verməməsi və beynəlxalq təşkilatların müvafiq qərarlarının icra olunmaması yolverilməz haldır. Bu məsələdə Azərbaycana göstərdiyimiz dəstək bundan sonra da eyni qətiyyətlə davam edəcək.

Dəyərli qardaşım, Sizi və nümayəndə heyətinizi vəzifəyə yenidən seçildikdən sonra ilk rəsmi xarici səfərinizdə Türkiyədə qəbul etməkdən duyduğum məmnunluq hissini bir daha vurğulamaq istəyirəm.

Cənab Prezident, çıxış etmək üçün sözü Sizə verirəm, buyurun.

Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

- Çox sağ olun, əziz qardaşım.

Hörmətli Prezident, əziz dostlar.

İlk növbədə, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirirəm.

Mən yenidən qardaş ölkədə olmağımdan çox məmnunam. Siz də qeyd etdiyiniz kimi, prezident seçkilərindən sonra bu, mənim ilk xarici səfərimdir. Seçkilərdə qazandığım qələbə münasibətilə məni ilk təbrik edən də əziz qardaşım Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan olmuşdur. Bu təbrik bir daha onu göstərir ki, Türkiyə və Azərbaycan bir-birinə ən yaxın olan ölkələrdir, müttəfiqlərdir.

İki həftə bundan əvvəl seçkilər keçirildi. Bir həftə bundan əvvəl andiçmə mərasimi keçirildi. İki gün əvvəl hökumət tam formalaşdı və dünən mən artıq Ankarada idim. Dünən əziz qardaşımla görüşümüz olmuşdur. Biz bir çox məsələləri müzakirə etdik. Bu gün də geniş tərkibdə bu müzakirələri davam etdiririk.

Biz hər zaman bir-birimizin yanında olmuşuq. Bu gün də belədir, sabah da belə olacaq. Türkiyə hər zaman Azərbaycanın haqlı mövqeyini dəstəkləmiş və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həlli işində həmişə bizim yanımızda olmuşdur. Biz də öz növbəmizdə bütün məsələlərdə Türkiyənin yanındayıq. Hörmətli Prezidentin də qeyd etdiyi kimi, terrora qarşı mübarizədə, "Zeytun budağı" əməliyyatının aparılmasında həmişə Azərbaycan dövləti və xalqı birmənalı şəkildə Türkiyənin yanında olub. Bu, bizim qardaşlıq borcumuzdur. Bu qarşılıqlı dəstək və bu qədər güclü iş birliyi ölkələrimizi gücləndirir və bölgədə yeni vəziyyət yaradır. Bu gün Türkiyə-Azərbaycan əlaqələri ikitərəfli formatdan çıxıb, artıq regional məna daşıyır və dünya miqyasında gedən proseslərə də çox uğurla təsir göstərir. Bütün beynəlxalq təşkilatlarda biz daim birbirimizi dəstəkləyirik və bu, bundan sonra da davam edəcək.

Əlbəttə, bizi birləşdirən tarix, mədəniyyət, etnik köklər, dindir. Eyni zamanda, bu gün bizi birləşdirən ortaq maraqlardır. Hörmətli Prezidentin qeyd etdiyi kimi, birgə həyata keçirdiyimiz layihələr artıq bizi gücləndirir və dünyada yeni vəziyyət yaradır.

Biz yaxın gələcəkdə TANAP-ın açılışını qeyd edəcəyik. Xatırlayıram ki, dörd il bundan öncə TANAP layihəsinin imzalanması mərasimi İstanbulda keçirilmişdir. Biz bu tarixi layihəni başa çatdırırıq. Bakı-Tbilisi-Qars dəmir yolu artıq fəaliyyətdədir. Bundan sonra biz çalışacağıq ki, yüklərin daşınması daha böyük həcmlə ölçülsün. Nəqliyyat və energetika sahəsində bizim iş birliyimiz bölgədə yeni vəziyyət yaradır.

Qarşılıqlı sərmayə qoyuluşu bizi sevindirir. Həm Türkiyə Azərbaycana, həm də Azərbaycan Türkiyəyə böyük sərmayələr qoyur və bu, bir daha bizim dostluğumuzu, qardaşlığımızı əks etdirir.

Mədəniyyət sahəsində, təhsil sahəsində gözəl əməkdaşlıq var. Müdafiə sənayesi sahəsində, müdafiə sahəsində əməkdaşlıq dərinləşir, birgə təlimlər keçirilir. Biz hörmətli Prezident ilə bugünkü görüşdə bu məsələyə də xüsusi diqqət yetirdik və qərara gəldik ki, həm ikitərəfli, həm də çoxtərəfli təlimlərdə birlikdə iştirak edək.

Biz Türkiyənin müdafiə sənayesinin məhsullarından bəhrələnirik. Türkiyə çox inkişaf etmiş müdafiə

sənayesi yaratmışdır. Azərbaycan öz hərbi gücünü, o cümlədən Türkiyədən alınan silahlar hesabına artırır.

Bir sözlə, bizim əlaqələrimiz bütün sahələri əhatə edir və gündən-günə daha da güclənir. Əminəm ki, budəfəki səfərim və Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının iclası bizim əlaqələrimizə yeni nəfəs, yeni təkan verəcək. Qonaqpərvərliyə və hörmətə görə bir daha Sizə minnətdaram.

Aprelin 25-də Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclası başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə sənədlərin imzalanması mərasimi olub.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yeddinci iclasının Protokolu"nu imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında ətraf mühitin qorunması sahəsində əməkdaşlığa dair Sazişin tətbiqi ilə bağlı ikiillik (2018-2019) İş Proqramı"nı Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim və Türkiyənin ətraf mühit və şəhərsalma nazirinin müavini Mehmet Ceylan imzaladılar.

"Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Türkiyə Respublikasının Nəqliyyat, Dənizçilik və Rabitə Nazirliyi arasında elektron imza sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə və Türkiyənin nəqliyyat, dənizçilik və rabitə naziri Əhməd Arslan imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında preferensial ticarət sazişi üzrə müzakirələrə dair Anlaşma Memorandumu"nu Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Mədəniyyət mərkəzlərinin təsis olunması, iş mexanizmi və fəaliyyətləri haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında şəxsi heyətin mübadiləsinə dair Protokol"u Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov və Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Hulusi Akar imzaladılar.

Aprelin 25-də sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış ediblər.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bəyanatı

- Əziz qardaşım, cənab İlham Əliyev.

Hörmətli nümayəndə heyətlərinin üzvləri, dəyərli mətbuat nümayəndələri.

Bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyevi Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclası münasibətilə Ankarada qəbul etməkdən böyük məmnunluq hissi duyuram.

Dəyərli qardaşıma və nümayəndə heyətinə şəxsən öz adımdan və xalqım adımdan "Xoş gəldiniz!" deyirəm.

Bildiyiniz kimi, cənab İlham Əliyev aprelin 11-də keçirilmiş və böyük səs çoxluğu ilə qələbə qazandığı prezident seçkilərindən sonra ilk səfərini Türkiyəyə edir. Bu rəsmi səfər münasibətilə xalqım adından xüsusi minnətdarlığımı bildirmək istəyirəm.

İlk növbədə, bu uğur münasibətilə hörmətli Prezident İlham Əliyevi təbrik edirəm. İnşallah, əziz qardaşımın siyasi liderliyi ilə "Can Azərbaycan" inkişaf etməyə, güclənməyə, bölgənin sabitlik zirvəsi kimi parlamağa davam edəcək.

İnşallah, Türkiyə olaraq bu müddətdə Prezident İlham Əliyevlə birlikdə çiyin-çiyinə hər sahədə - siyasi, hərbi, iqtisadi, ticari, mədəni sahələrdə birgə fəaliyyət göstərməyə və gələcəyi qurmağa davam edəcəyik. Bu məsələdə mövqeyimiz qətidir.

Xatırladığınız kimi, mən də Prezident seçildikdən sonra ilk xarici səfərimi Azərbaycana etmişdim. Bunun ənənə halı alması aramızdakı qardaşlıq əlaqələrinin ən gözəl, ən konkret nümunəsidir. İnşallah, iyunun 24-dən sonra mən də ilk xarici səfərimi Azərbaycana etmək niyyətindəyəm.

Dəyərli mətbuat nümayəndələri, bu gün cənab İlham Əliyevlə həqiqətən səmimi müzakirələr apardıq. Əvvəlcə təkbətək, sonra isə nümayəndə heyətlərinin iştirakı ilə görüşlərimiz oldu. Nümayəndə heyətlərinin iştirakı ilə görüşdə nazirlərimiz apardıqları təkbətək görüşlər barədə bizə məlumat verdilər. Həm iclasın əvvəlində, həm də sonunda biz liderlər öz fikirlərimizi bildirdik.

Ötən il oktyabrın 30-da - Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VI iclasından əvvəl Azərbaycanın paytaxtında Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin açılışını etdik. Dünyanın ən mühüm nəqliyyat dəhlizlərindən biri olan bu xəttin səmərəli şəkildə istifadəsi istiqamətində işlərimiz davam edir. İnşallah, bu fəaliyyətimizi çox qısa müddətdə başa çatdıracağıq. Gələcək üçün yeni layihələrimiz var, onları da həyata keçirəcəyik. Təbii ki, bunlardan ən mühümü iqtisadi sahədə milli valyutaya keçməyimiz olacaq.

Bununla yanaşı, yenə də birlikdə həyata keçirməyi nəzərdə tutduğumuz layihələr var ki, bunlar çox əhəmiyyətlidir. Təbii ki, hazırda önümüzdəki ən böyük layihə məlumdur. Yaxın vaxtlarda Transanadolu təbii qaz kəməri - TANAP-ın açılışını edəcəyik. Bu açılış mərasimi, inşallah, iyunun əvvəllərində olacaq. Bu, seçkiöncəsi həm xalqımıza, həm də bütün dünyaya bizim ən yaxşı müjdəmiz olacaq.

Cənub Qaz Dəhlizinin mühüm tərkib hissəsi olan TANAP layihəsi yalnız Türkiyə ilə Azərbaycan arasında təbii qaz mübadiləsini nəzərdə tutmur, eyni zamanda, bütün Avropanın enerji təhlükəsizliyinə töhfə verəcək. Digər tərəfdən, hazırda İzmirin Əliağa rayonunda inşası davam edən "Star" neft emalı zavodunun tikintisi də yaxın vaxtlarda başa çatacaq. İnşallah, onun da açılışını sentyabr-oktyabr aylarında yenə qardaşımla birgə edəcəyik. Beləliklə, Azərbaycan Türkiyədə ən böyük investora çevrilir. Beləliklə, Türkiyədə bir nömrəli sərmayəçi Azərbaycan olacaq. İqtisadi və ticari əlaqələrimizin daha da inkişaf etdirilməsi prioritet hədəfimizdir. Burada ən mühüm məqsəd müdafiə sənayesi sahəsində birlikdə atacağımız addımlar olacaq.

Təbii ki, bu gün əslində önəmli bir addım atdıq. Preferensial ticarət sazişi üzrə müzakirələrə dair Anlaşma Memorandumunun imzalanmasından böyük məmnunluq duyduğumu xüsusi vurğulamaq istəyirəm. İnanıram ki, memorandumu qısa müddətdə həyata keçirəcəyik. İkitərəfli əlaqələrimizlə yanaşı, Azərbaycanla birlikdə Gürcüstan, Türkmənistan, İran və Pakistanla yaratdığımız üçtərəfli əməkdaşlıq formatı da çox mühüm əhəmiyyət kəsb edir.

Bu formatlar ölkələrimiz və regionumuz üçün faydalı olacaq layihələrin davam və inkişaf etdirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Dəyərli mətbuat nümayəndələri, 2018-ci il mayın 28-də 1918-ci ildə müstəqilliyini elan etmiş Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi qeyd olunacaq. Bu yubiley münasibətilə bütün Azərbaycan xalqını indidən təbrik etmək istəyirəm. Eyni zamanda, bu müstəqilliyin möhkəmlənməsində və Azərbaycanın sərhədlərinin müəyyənləşməsində töhfəsi olan Qafqaz İslam Ordusu da 100 il əvvəl yaradılıb. 2018-ci ildə Qafqaz İslam Ordusunun qəhrəman şəhidlərinin xatirəsini də layiqincə anmaq üçün ölkələrimiz lazımi hazırlıq işləri görür. "Bir millət, iki dövlət" kəlamı boş yerdən yaranmayıb. Bu kəlama görə Heydər Əliyevi rəhmətlə anırıq. Bu ifadənin altında əziz şəhidlərimizin qanları ilə yazdıqları imza var. Çanaqqala dastanında Bakının qurtuluşunda məhz bu qardaşlıq ruhuna şahid oluruq. Ölkələrimiz arasında əməkdaşlıq və həmrəylik bu gün də eyni anlayışla davam edir. Biz ortaq mövqeyimizi Dağlıq Qarabağ məsələsində də, Afrində də bütün dünyaya eyni ilə göstərmişik. 2016-cı il 15 iyun xain dövlət çevrilişi cəhdindən dərhal sonra bizə dəstək verən ilk liderlərdən biri dəyərli qardaşım İlham Əliyev olub.

Azərbaycan bu gün başda "FETÖ" olmaqla, terror təşkilatları ilə mübarizəmizdə bizə ən çox dəstək verən ölkədir. Türkiyə Silahlı Qüvvələrinin "Zeytun budağı" əməliyyatı zamanı da istər Azərbaycan hökuməti, istərsə də Azərbaycan xalqı hər zaman bizim yanımızda oldu. Biz də Dağlıq Qarabağ məsələsini lap əvvəllərdən öz problemimiz olaraq qəbul etdik. Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında, BMT Təhlükəsizlik Şurasının qətnamələri çərçivəsində təcili həlli ən böyük arzumuzdur. Bu məsələdə Azərbaycana verdiyimiz dəstəyi bundan sonra da qətiyyətlə davam etdirəcəyik. Hərbi və müdafiə sənayesi sahələrindəki əməkdaşlığımızı da gücləndirməkdə qərarlıyıq.

Dəyərli qonaqlar, Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclası həm aramızdakı əlaqələrimizin müzakirə edilməsi, həm də mühüm qərarların verilməsi baxımından son dərəcə faydalı oldu. Bir az əvvəl imzalanan sənədlər bunun təsdiqidir. Burada müzakirə etdiyimiz bütün məsələləri həyata keçirməyə çalışacağıq və strateji münasibətlərimizi daha da genişləndirmək üçün bütün imkanlarımızdan istifadə edəcəyik.

Bu düşüncələrlə qardaşım cənab İlham Əliyevə və nümayəndə heyətinə bir daha "Türkiyəyə xoş gəldiniz!" deyirəm. Buradan bütün azərbaycanlı qardaşlarımı ən səmimi duyğularla salamlayıram.

Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

- Əziz qardaşım, hörmətli cənab Prezident.

Hörmətli xanımlar və cənablar.

İlk növbədə, əziz qardaşım, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdaram. Siz qeyd etdiyiniz kimi, prezident seçkilərindən sonra mən ilk səfərimi qardaş ölkəyə etmişəm. Bu, təbiidir. Siz də qeyd etdiyiniz kimi, bu, bir ənənədir. Bu ənənə onu göstərir ki, bu gün Türkiyə və Azərbaycan dünya çapında bir-birinə ən yaxın olan ölkələrdir, ən yaxın müttəfiqlərdir.

Məni prezident seçkilərində qazandığım qələbə münasibətilə ilk təbrik edən lider əziz qardaşım olmuşdur. Bir həftə bundan əvvəl Bakıda andiçmə məra-simi keçirildi, iki gün bundan öncə hökumətin formalaşması başa çatdı və dünən mən artıq Ankarada idim. Dünən əziz qardaşımla görüşləri başladıq, bu gün davam etdik. Bugünkü mərasim, dünən və bu gün aparılan müzakirələr bir daha onu göstərir ki, Türkiyə ilə Azərbaycanın birliyi, qardaşlığı, dostluğu möhkəmdir və onun çox böyük gələcəyi vardır.

İlk növbədə, əziz qardaşımı və bütün qardaş türk xalqını əldə edilmiş uğurlar münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Əziz qardaşımın liderliyi sayəsində Türkiyə böyük və şərəfli yol keçmişdir. Biz – Azərbaycanda Türkiyəni sevən insanlar qardaş ölkədə inkişaf proseslərini çox böyük sevinclə qarşılayırıq. Prezident Rəcəb Tayyib Ərdoğanın dövründə Türkiyənin iqtisadi, siyasi, sosial inkişafı bizi ürəkdən sevindirir. Türkiyə bu gün dünya çapında bir gücdür və getdikcə bu güc daha da böyüyür, dostlar sevinir, istəməyənlərin isə kefi pozulur. Biz Azərbaycanda böyük sevinc hissi ilə Türkiyənin inkişafını görürük. Əminəm ki, Türkiyə bundan sonra da yalnız və yalnız uğurlar, qələbələr yolu ilə gedəcəkdir. Fürsətdən istifadə edərək, əziz qardaşımı seçkilərdən sonra ilk səfərini Azərbaycana etməyə dəvət edirəm ki, bu ənənə bundan sonra da yaşasın.

Biz bütün məsələlərdə bir yerdəyik. Mən qeyd etdiyim kimi, bu gün dünya çapında ikinci belə ölkələr tapılmaz ki, bir-birinə bu qədər yaxın olsun. Həm etnik köklər, mədəniyyət, tarix və həm də ortaq maraqlar baxımından da biz daim bir yerdəyik.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsinin həllində Türkiyə qədər bizə dəstək verən ikinci ölkə olmamışdır. Türkiyə hər zaman bizimlə bərabərdir, bütün beynəlxalq təşkilatlarda Azərbaycanın haqlı mövqeyini müdafiə edir. Bu dəstək və həmrəylik bizə əlavə güc verir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsiplərinə uyğun, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında ədalətli həllini tapmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir.

Azərbaycan da öz növbəsində bütün beynəlxalq təşkilatlarda Türkiyəni daim dəstəkləyir, Türkiyənin terrorla mücadilə yolunda hər zaman həmrəylik göstərmişdir, hər zaman Türkiyənin yanında olduğunu ifadə etmişdir. "Zeytun budağı" əməliyyatının uğurla keçirilməsi ilə bağlı bütün qardaş türk xalqını təbrik edirəm. Azərbaycan xalqı bu məsələdə də hər zaman həmrəylik göstərmişdir. Bu, bizim ümumi məsələmizdir.

Bu gün Türkiyə və Azərbaycan bizim bölgəmizdə birgə səylərlə çox böyük layihələr gerçəkləşdirir. Əziz qardaşımın dediyi kimi, Bakı-Tbilisi-Qars, TANAP tarixi layihələrdir. Bizim iradəmiz, bizim təşəbbüsümüz və birliyimiz bu layihələri həyata keçirdi. Bu gün biz Avrasiyanın enerji və nəqliyyat xəritəsini yenidən tərtib edirik. Bu layihələr bizim gücümüzü artırır, regional işbirliyini möhkəmləndirir və bölgədə sabitliyi təmin edir. Yəni, bizim birgə həyata keçirdiyimiz təşəbbüslər və layihələr, sadəcə olaraq, iqtisadi məna daşımır, bunların çox böyük siyasi mənası var. Bu layihələr təhlükəsizliyi, sabitliyi möhkəmləndirən layihələrdir. Əminəm ki, bundan sonra da birgə həyata keçirəcəyimiz layihələr uğurla başa çatacaq.

Biz qarşılıqlı sərmayə qoyuluşunu da artırırıq. Bu günə qədər Azərbaycan Türkiyə iqtisadiyyatına təqribən 14 milyard dollar, Türkiyə isə Azərbaycan iqtisadiyyatına 12 milyard dollardan çox sərmayə qoymuşdur. Ancaq qardaş ölkələrə bu qədər yatırım qoyula bilər. Yaxın gələcəkdə TANAP-ın, "Star" neft emalı zavodunun açılışı, əlbəttə ki, bizim imkanlarımızı daha da artıracaq. Onu da qeyd etməliyəm ki, Azərbaycan sərmayəsi hesabına Ege bölgəsinin ən böyük limanı olan "Petlim" limanı inşa edilibdir. Bu, Türkiyənin üçüncü böyük limanıdır. Biz bu gün güzəştli ticarət anlaşmasının imzalanmasına yaxınlaşdıq. Ümid edirəm ki, yaxın gələcəkdə bu anlaşma imzalanacaq və beləliklə, ticarət dövriyyəsi daha da artacaqdır.

Müdafiə sahəsində birgə hərbi təlimlər həyata keçirilir. Türkiyənin çox inkişaf etmiş müdafiə sənayesi vardır və biz ordumuzun ehtiyacını, o cümlədən Türkiyədə istehsal olunan hərbi məhsullar hesabına təmin edirik. Bu gün aparılan danışıqlarda qərara gəldik ki, bundan sonra da bu istiqamətdə addımlar atılacaq. Biz görürük ki, Türkiyənin çox inkişaf etmiş müdafiə sənayesi var və istehsal olunan məhsullar ən yüksək standartlara uyğundur.

Biz bütün sahələrdə - mədəniyyət, təhsil, incəsənət, humanitar sahələrdə daim birlikdəyik. Bizi birləşdirən qədim tarix var, bizi birləşdirən yaxın tarix var. Bu ilin may ayında birinci Azərbaycan Cümhuriyyətinin 100 illiyini qeyd edəcəyik. Ondan sonra biz Qafqaz İslam Ordusunun Azərbaycan Xalq Cümhuriyyətinin Ordusu ilə birlikdə Bakını erməni quldur dəstələrindən azad etməsini birlikdə qeyd edəcəyik. Bu, şanlı tariximizdir. Bu tarix göstərir ki, biz hər zaman bir yerdə olmuşuq, bu gün də bir yerdəyik. Əminəm ki, hər zaman bir yerdə olacağıq.

Əziz qardaşım, böyük diqqətə və qonaqpərvərliyə görə Sizə bir daha minnətdaram, qardaş türk xalqına daim rifah və tərəqqi arzulayıram. Sağ olun.

Aprelin 25-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəyə - Anıtqəbirə gəldi.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, dövlətimizin başçısı böyük Atatürkün məzarını ehtiramla ziyarət etdi.

Prezident İlham Əliyev Mustafa Kamal Atatürkün məzarı önünə əklil qoydu.

Türk dünyasının böyük oğlunun əziz xatirəsi yad edildi.

Sonra xatirə şəkilləri çəkdirildi.

Dövlətimizin başçısı Xatirə kitabına ürək sözlərini yazdı.

Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin sədri İsmayıl Qəhrəman ilə görüşüb.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Türkiyə Böyük Millət Məclisinin sədri İsmayıl Qəhrəman Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Görüşdə İsmayıl Qəhrəman Prezident İlham Əliyevin Türkiyəyə rəsmi səfərindən məmnunluğunu bildirdi. Türkiyə parlamentinin sədri dövlətimizin başçısının prezident seçkilərində parlaq qələbə qazanması münasibətilə təbriklərini çatdıraraq dedi: "Sizin böyük səs çoxluğu ilə qalib gəlməyiniz bizi şərəfləndirdi. Prezident İlham Əliyev təkcə öz ölkəsi üçün deyil, bölgə və dünya üçün də mühüm şəxsiyyətdir".

Prezident İlham Əliyev səmimi təbriklərə görə Türkiyə Böyük Millət Məclisinin sədrinə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı bu səfərin əlaqələrimizin inkişafında yeni mərhələ olacağına əminliyini vurğuladı.

Görüşdə ikitərəfli münasibətlərimizin uğurlu inkişafından məmnunluq ifadə edildi, parlamentlərarası əməkdaşlığın əlaqələrimizin genişlənməsinə töhfə verdiyi qeyd olundu.

Söhbət zamanı Azərbaycanın və Türkiyənin regionda əməkdaşlığa və təhlükəsizliyə verdiyi töhfənin, ölkələrimizin birlikdə qlobal əhəmiyyətli böyük strateji layihələr həyata keçirməsinin əhəmiyyəti qeyd olundu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına rəsmi səfəri aprelin 25-də başa çatıb.

Azərbaycanın və Türkiyənin dövlət bayraqlarının dalğalandığı Ankaranın "Esenboğa" hava limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısını Türkiyənin Baş nazirinin müavini Fikri İşık və digər yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.

Fəxri qarovul dəstəsinin rəisi Prezident İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı fəxri qarovul dəstəsini salamladı.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına səfər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apelin 26-da Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Meyin dəvəti ilə bu ölkəyə səfəri başlayıb.

Aprelin 26-da Prezident İlham Əliyev Londonda BP şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşüb.

Görüşdə "Şahdəniz" layihəsi üzrə görülən işlər, həmçinin bu ilin iyununda TANAP layihəsinin açılışı ilə bağlı fikir mübadiləsi aparıldı. "Şəfəq-Asiman" strukturu üzrə imzalanmış hasilatın pay bölgüsü sazişi əsasında görülən işlərin intensivləşdirilməsinin əhəmiyyəti qeyd edildi.

Söhbət zamanı Azərbaycan ilə BP şirkəti arasında uzun illərdir davam edən əməkdaşlığın hazırkı səviyyəsindən məmnunluq ifadə olundu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Londonda Böyük Britaniya parlamentinin İcmalar Palatasının üzvü, Azərbaycan ilə dostluq qrupunun sədri Bob Bləkmən, Lordlar Palatasının üzvü, Azərbaycanın Leyborist dostları qrupunun sədri Lord Devid Evans və İcmalar Palatasının üzvü, Şimali İrlandiya üzrə dövlət nazirinin müavini Devid Morris ilə birgə görüşü olub.

Görüşdə Britaniya parlamentinin üzvləri dövlətimizin başçısını prezident seçkilərində qazandığı qələbə münasibətilə təbrik etdilər. Lord Devid Evans və Devid Morris ölkəmizdə səsvermə prosesini müşahidə etdiklərini və seçkilərin yüksək səviyyədə təşkil olunduğunu dedilər.

Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı seçkilər zamanı səsvermənin azad, şəffaf və demokratik keçirilməsi üçün hər cür şəraitin yaradıldığını dedi.

Görüşdə Azərbaycanda davamlı inkişafın təmin edildiyi qeyd olundu. Britaniya parlamentinin hər iki palatasında fəaliyyət göstərən Azərbaycanla dostluq qrupları ilə əməkdaşlıq məsələləri müzakirə olundu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Avropa və Amerika məsələləri üzrə dövlət naziri Alan Dunkan ilə görüşüb.

Görüşdə Alan Dunkan dövlətimizin başçısını yenidən Prezident seçilməsi münasibətilə təbrik etdi və ona fəaliyyətində uğurlar arzuladı. Qeyd etdi ki, Prezident İlham Əliyevin yenidən Prezident seçilməsi Azərbaycanın sürətli inkişafının davamlı olmasını təmin edəcək.

Söhbət zamanı ikitərəfli və regional əməkdaşlıq, qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olundu.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesi barədə fikir mübadiləsi aparıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Londonda Böyük Britaniyanın ticarət və ixracın təşviqi üzrə dövlət naziri, hökumətlərarası komissiyanın həmsədri Baronessa Rona Feyrhed ilə görüşüb.

Görüşdə Baronessa Rona Feyrhed Prezident İlham Əliyevi seçkilərdə qazandığı qələbə münasibətilə təbrik etdi. O, Bakıya səfərini məmnunluqla xatırladı.

Söhbət zamanı ikitərəfli münasibətlərin inkişafı, xüsusilə investisiya, biznes əlaqələri, kənd təsərrüfatı sahələrində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyevin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Mey ilə görüşü olub.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Mey Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Mey prezident seçkilərində qələbəsi münasibətilə İlham Əliyevi təbrik etdi. O, Prezident İlham Əliyevlə görüşməkdən məmnunluğunu ifadə edərək bildirdi ki, Azərbaycan Prezidentinin bu səfəri iqtisadi və ticarət, enerji, təhlükəsizlik məsələlərinin müzakirəsi üçün yaxşı imkan yaradacaq. Böyük Britaniyanın Baş naziri SOCAR ilə BP şirkəti arasında imzalanacaq sazişin əməkdaşlığın genişləndirilməsi baxımından önəmini vurğuladı. Tereza Mey Azərbaycanın Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirakına və verdiyi dəstəyə görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirərək qeyd etdi ki, Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlərin gündəliyi çox genişdir və ölkələrimiz müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, enerji, ticarət, sərmayə qoyuluşu sahələrində fəal əməkdaşlıq həyata keçirir. Dövlətimizin başçısı bildirdi ki, hazırda ticarət əlaqələrinin genişləndirilməsi və şaxələndirilməsi istiqamətində fəal iş aparılır və bunun üçün böyük potensial var. Böyük Britaniyanın bir çox şirkətləri Azərbaycanda uzun illərdir ki, fəaliyyət göstərir, SOCAR-BP əməkdaşlığı strateji xarakter daşıyır.

İkitərəfli münasibətlərimizin tərəfdaşlıq əlaqələrinə əsaslandığını deyən dövlətimizin başçısı onun Böyük Britaniyaya səfərinin əməkdaşlığımızın genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.

Söhbət zamanı regional inkişaf və təhlükəsizlik məsələləri də müzakirə olundu.

Sonra Prezident İlham Əliyevin və Baş nazir Tereza Meyin iştirakı ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR, "BP Exploration (Azerbaijan) Limited" şirkəti və SOCAR-ın Ortaq Neft Şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda D230 perspektiv blokunun birgə kəşfiyyatı və işlənilməsi üzrə hasilatın pay bölgüsü haqqında saziş imzalandı.

Sənədi SOCAR-ın prezidenti Rövnəq Abdullayev və BP şirkətinin baş icraçı direktoru Robert Dadli imzaladılar.

Xaçmaz rayonuna səfər

Prezident İlham Əliyev mayın 4-də Xaçmaz rayonuna səfərə gəlib.

Dövlət başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Xaçmaz şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev Prezident İlham Əliyevə abidənin ucaldığı Heydər Əliyev parkında və bütövlükdə rayonda görülən işlər barədə məlumat verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Xaçmaza səfəri çərçivəsində Çarxı-Qalağan-Hacılar-Xanlıqoba-Sayad-Məmmədxanlı avtomobil yolunun yenidənqurma və bərpadan sonra açılışını edib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosialyönümlü siyasətin tərkib hissələrindən biri də müasir yol infrastrukturunun yaradılmasıdır. Son 15 ildə bu sahədə çox mühüm uğurlar əldə olunub və bu istiqamətdə layihələrin icrası davam etməkdədir. Yol infrastrukturunun yenilənməsi ilə bağlı görülən işlər həm ölkə əhəmiyyətli yolları, həm də kənd yollarını əhatə edir.

Son dövrlərdə rəmzi "40 yol" layihəsi çərçivəsində Xaçmazda Çarxı-Qalağan-Hacılar-Xanlıqoba- Sayad-Məmmədxanlı avtomobil yolunda da mühüm işlər həyata keçirilib. Ümumi uzunluğu 29 kilometr olan bu yolun müasir səviyyədə tikilməsi sübut edir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə regionların inkişafı ilə bağlı qəbul edilən Dövlət proqramlarına uyğun olaraq yolların müasirləşdirilməsi istiqamətində görülən işlərin həcmi ildən-ilə artmaqdadır. Bu tədbirlərin icrası, ilk növbədə, əhalinin rahatlığını təmin edir, onların mənzil başına təhlükəsiz çatmalarına imkan yaradır. Bundan başqa, yolların bu cür müasir səviyyəyə çatdırılması, təkcə yol üzərində olan rayonların deyil, ümumilikdə, həmin regionun sosial-iqtisadi inkişafına töhfə verir, turizm axınının davamlı olmasını təmin edir və yolboyu yerləşən yaşayış məntəqələrində sakinlərə əlavə iqtisadi imkanlar açır.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, 8 min nəfər əhalinin yaşadığı 8 məntəqəni birləşdirən, dördüncü texniki dərəcəli bu yolun hərəkət hissəsinin eni 6 metr, 2 hərəkət zolağının hər birinin eni 3 metr, hər iki tərəfdə çiyinlərinin eni 2 metr, ümumi torpaq yatağının eni isə 10 metrdir. İki laydan ibarət asfalt-beton örtüyün salınmasına 50,1 min ton asfalt-beton qarışığı sərf edilib. Yol boyunca 84 poqonmetr müxtəlif diametrli suötürücü borular tikilib, 145 yol nişanı və göstərici lövhə quraşdırılıb, 87 min metr uzunluğunda yol cizgi xətləri çəkilib. Avtomobil yolunun yenidən qurulması Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "8 saylı Xüsusi Təyinatlı Yol İstismarı" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən həyata keçirilib.

Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də "Azərxalça" Açıq Səhmdar Cəmiy-yətinin Xaçmaz filialının açılışında iştirak edib.

Dövlətimizin başçısı müəssisənin rəmzi açılışını bildirən lenti kəsdi.

Azərbaycanda xalça toxuculuğu tətbiqi sənət növünün ən qədim sahələrindən biri hesab edilir. Ölkə ərazisində aparılan arxeoloji qazıntılar və yazılı mənbələrə görə, Azərbaycanda xalça toxuculuğu tunc dövründə, yəni, 5 min il bundan əvvəl meydana gəlib. Azərbaycan xalçası boyalarının tükənməz zənginliyi, naxışlarının təkrarredilməz qovuşuğu, yaradıcılıq təxəyyülünün gücü və yüksək sənətkarlığı ilə fərqlənir.

Xalçalarımız dünyanın ən məşhur muzeylərini bəzəyir. Xalçaçılıq böyük mədəniyyətə və qədim tarixi ənənələrə malik xalqlara məxsus sənətdir. Quba-Şirvan, Gəncə-Qazax, Qarabağ, Təbriz xalçaçılıq məktəbləri bütün dünyada məşhurdur. Bu zonalarda toxunan xalçalar ilmələrinin sıxlığına, rəng çalarlarına, üz ipliyinin xovuna, toxunuşuna və ornamentlərinə görə seçilir. Hazırda Azərbaycan xalça sənəti özünün əsil dirçəliş dövrünü yaşayır.

Prezident İlham Əliyevin həmin sahənin inkişafı ilə bağlı qəbul etdiyi qərarlar bu baxımdan xüsusilə əhəmiyyətlidir. Azərbaycan Prezidentinin Sərəncamı ilə "Azərxalça" ASC-nin yaradılması dövlət tərəfindən bu istiqamətdə görülən işlərin məntiqi davamıdır. İlkin mərhələdə "Azərxalça" ASC-nin Füzuli, Ağdam, Tovuz, Ağstafa, Qazax, Şəmkir, Quba, İsmayıllı və Qəbələ rayonlarında filiallarının yaradılması nəzərdə tutulmuşdu. 2016-2017-ci illərdə adı çəkilən bu rayonlarda binaların tikintisi başa çatdırılıb, filiallar fəaliyyətə başlayıb, Sumqayıt Kimya Sənaye Parkında yunəyriciboyaq fabrikinin təməli qoyulub. Dövlətimizin başçısının sərəncamlarına uyğun olaraq Bakı və Naxçıvan şəhərlərində, Abşeron, Lənkəran, Biləsuvar, Kürdəmir,

Qobustan və Şabran rayonlarında xalça istehsalı emalatxanalarının yaradılması davam edir. Növbəti filial Xaçmazda istifadəyə verilib.

"Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Vidadi Muradov dövlətimizin başçısına burada görülən işlərlə bağlı ətraflı məlumat verdi. Bildirildi ki, ümumi sahəsi 1252,9 kvadratmetr olan filialın binası 0,37 hektar sahədə yerləşir. Burada 150 nəfər toxucu, 12 nəfər inzibati-təsərrüfat işçisi fəaliyyət göstərəcək. Bina toxuculuq emalatxanası, rəssam otağı, anbar, yeməkxana, tibb otağı, xalça-satış salonu və sair bölmələrdən ibarətdir. Emalatxanada müxtəlif ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunacaq. Əsasən, Quba, Qusar, Xaçmaz, Siyəzən, Şabran rayonlarının kəndlərində toxunan tarixi və orijinal Şirvan çeşniləri əsasında xalçaların toxunmasına üstünlük veriləcək. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikanın ayrı-ayrı bölgələrindən toplanılan qədim xalçalar əsasında "Azərxalça"nın rəssamları tərəfindən hazırlanıb.

Emalatxana zəruri xammal və ləvazimatlarla – müxtəlif rəngli yun iplərlə, həvə, qayçı, bıçaq kimi alətlərlə təmin edilib. Toxucular Xaçmaz rayonunun ayrı-ayrı kəndlərinin sakinləridir. Onlar bir neçə ay ərzində "Azərxalça"nın hazırlıq-tədris kurslarında iştirak edib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər. Tədris-hazırlıq kursları filial fəaliyyətə başladıqdan sonra da öz işini davam etdirəcək və bu kursların məzunları "Azərxalça" ASC-nin sertifikatını alacaqlar. Xalça-satış salonunda "Azərxalça" ASC-də toxunmuş xalça və xalça məmulatlarının sərgilənməsi və satışı həyata keçiriləcək.

Sonra Prezident İlham Əliyev müəssisənin kollektivi ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

– Bu gün Xaçmaz rayonunda çox əlamətdar bir gündür, xalça fabriki açılır. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Çox gözəl hadisədir. Son iki il ərzində artıq dördüncü xalça fabriki açılır və bu proses davam etdiriləcək. Biz xalçaçılıq sənətini yaşatmalıyıq, yaşadacağıq və belə fabriklərin açılması ölkəmizin ümumi inkişafını göstərir. Burada 100-dən çox iş yeri açılıbdır, gələcəkdə 150 iş yeri yaradılacaq, bunun üçün hər cür şərait vardır. Çox şadam ki, qadınlar üçün iş yerləri yaradılır. Ümumiyyətlə, Azərbaycanda iş yerlərinin yaradılması istiqamətində böyük işlər görülüb. Amma çox sevindirici hal ondan ibarətdir ki, qadınlar da fəal işə cəlb olunurlar. Xalçaçılıq elə sənətdir ki, bunu qadınlar yaşadırlar.

İki il əvvəl mənim sərəncamımla "Azərxalça" Səhmdar Cəmiyyəti yaradılmışdır və qarşıya vəzifə qoyulmuşdu ki, bu təşkilat xalçaçılıq sənətini yaşatsın, inkişaf etdirsin və ölkəmizin müxtəlif yerlərində 30 xalça fabriki açılsın. Bu fabrik sayca dördüncüdür və gələn ilin sonuna qədər artıq 30 fabrik işə düşəcək, minlərlə iş yeri yaradılacaqdır.

Xalçaçılıq bizim milli sənətimizdir, milli sərvətimizdir. Azərbaycan xalqı bu sənəti əsrlər boyu yaşadır. Bizim xalçalarımız dünyanın aparıcı muzeylərində sərgilənir. Bakıda gözəl Xalça Muzeyi tikilib istifadəyə verilmişdir. Yəni, biz xalçaçılığı yaşatmaqla Azərbaycan xalqının nə qədər istedadlı olmasını dünyaya bir daha göstəririk. Eyni zamanda, gənc nəsil də, qızlar da bu sənətə cəlb olunurlar. Beləliklə, tam əminlik var ki, Azərbaycan dünyada xalçaçılığın inkişafında öz sözünü gələcəkdə də deyəcəkdir. İş yerlərinin yaradılması çox önəmli məsələdir. Qeyd etdiyim kimi, bu fabriklərin fəaliyyətə başlaması nəticəsində minlərlə iş yeri yaradılacaq.

"Azərxalça"nın qarşısında bir vəzifə də qoyulub ki, xalçanın istehsalında istifadə edilən bütün xammal yerli xammal olsun. Bu məqsədlə indi ölkəmizin müxtəlif yerlərində yun tədarükü mərkəzləri yaradılır. Baramaçılıq sürətlə inkişaf etdirilir ki, ipək xalçalar da toxunsun. Sumqayıt şəhərində yunəyirici-boyaq fabriki inşa edilir. Yəqin ki, gələn il istifadəyə veriləcəkdir. Beləliklə, bundan sonra xaricdən xammalın gətirilməsinə heç bir ehtiyac qalmayacaq. Yüz faiz yerli məhsul olaraq Azərbaycan xalçası dünyaya təqdim ediləcək.

Digər mühüm məsələ ondan ibarətdir ki, Azərbaycan xalçası çox yüksək keyfiyyətə malikdir və onun satış qiyməti də yüksəkdir. Beləliklə, həm ölkə daxilində, həm də xaricdə satılan xalçalar Azərbaycan iqtisadiyyatına töhfə verəcək, ölkəmizə valyuta gələcək və qeyri-neft sektorumuz da inkişaf edəcək.

Bax görürsünüz, xalçaçılıq sənətinin inkişafı və "Azərxalça"nın uğurlu fəaliyyəti nəticəsində biz bir neçə məqsədə çatmış oluruq. İş yerləri, yerli istehsal, xammalın təşkili və ölkəmizin dünyada təbliği baxımından xalçaçılığın çox böyük önəmi var. Təsadüfi deyil ki, müxtəlif ölkələrdə keçirilən sərgilərdə, təqdimatlarda mütləq Azərbaycan xalçası təqdim edilir.

Şadam ki, bu gözəl müəssisə Xaçmaz şəhərində yaradılır. Xaçmazın inkişafına böyük diqqət göstərilir. Bu gün biz Xaçmaz şəhərində içməli su layihəsinin açılışını qeyd edəcəyik. Bu da çox böyük sosial layihədir. Digər sosial məsələlər də öz həllini tapır. Son illər ərzində 40-a yaxın məktəb tikilib və ya təmir edilmişdir, mərkəzi rayon xəstəxanası əsaslı təmir olunmuşdur. Mən onun açılışında iştirak etmişəm. Olimpiya İdman Kompleksinin açılışında da iştirak etmişəm. Ümumiyyətlə, bu səfər mənim Prezident kimi Xaçmaza sayca 8-ci səfərimdir və bütün səfərlər zamanı gözəl müəssisələrin, obyektlərin açılışları olmuşdur.

Onu da qeyd etməliyəm ki, Xaçmazda digər infrastruktur layihələri icra edilir, qazlaşdırma artıq 80 faizdən çoxdur, yeni yollar salınır. Bu gün həm kənd yolu, həm də Xaçmaz-Xudat yolu açılacaqdır. Mənə verilən məlumata görə, son illərdə 7 yol layihəsi icra edilib və əhalinin 70 faizi artıq yeni yollarla əhatə olunub. Bu proses gələn illərdə də davam etdiriləcəkdir. Elektrik enerjisi ilə heç bir problem yoxdur və Xaçmaz rayonunda qazlaşdırma 100 faizə çatmalıdır. Qarşıya belə vəzifə qoyulub, yaxın gələcəkdə biz buna da nail olacağıq.

Bildiyiniz kimi, ölkəmizdə kənd təsərrüfatına böyük diqqət göstərilir, 40-dan çox aqropark yaradılır.

Birinci aqropark mənim iştirakımla Xaçmaz rayonunda açılmışdır. Yalama aqroparkı indi uğurla fəaliyyət göstərir. Orada da çoxlu iş yerləri yaradılır. Əlbəttə ki, Xaçmaz rayonunun turizm potensialı çox böyükdür və zəngindir. Buraya həm ölkəmizin müxtəlif yerlərindən, həm də xarici ölkələrdən gələn turistlərin sayı artır, bir çox istirahət mərkəzləri vardır. Onların sayı da artmalıdır ki, Xaçmaz rayonunun inkişafı daha da sürətlə getsin.

Beləliklə, sənaye istehsalının, kənd təsərrüfatının, turizmin inkişafı və əlbəttə ki, Xaçmaz şəhərinin abadlaşdırılması çox sevindirici hallardır. Xaçmaz indi muzeylər, parklar şəhəridir. Burada gözəl abadlıq işləri görülür ki, vətəndaşlar daha da yaxşı yaşasınlar, inkişaf daha da sürətlə getsin və ölkəmiz həmişə ən yüksək zirvədə olsun. Əlbəttə, bu işlərdə sizin əməyiniz də çox önəmlidir. Sizi bir daha ürəkdən təbrik edirəm.

Müəssisənin işçisi Zahirə BEYDULLAYEVA dedi:

– Cənab Prezidentimiz, Sizə "xoş gəlmisiniz" deyirəm. Sizi yenidən Prezident seçilməyiniz münasibətilə təbrik edirik. Allah Sizə cansağlığı versin, ömrünüz uzun olsun. Siz bizim ömürlük Prezidentimizsiniz.

Filialın direktoru Sevda XƏLİLOVA dedi:

– Cənab Prezident, xoş gəlmisiniz, Sizi xaçmazlılar adından salamlayıram. Yeni açılmış müəssisəmizə, bizim üçün yaradılan iş yerlərinə görə Sizə bütün xalçaçılarımız adından dərin minnətdarlığımı bildirirəm. Sizin yüksək diqqət və qayğınız sayəsində hazırda müəssisəmizdə 100-dən çox qadın çalışır. Rayonumuz da Sizin sayənizdə çox gözəlləşir, abadlaşır. Çox sağ olun, cənab Prezident, Sizə təşəkkür edirik, minnətdarlığımızı bildiririk.

Dövlətimizin başçısı burada toxunan Quba qrupuna aid ilk hazır xalçanı kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Xaçmaz şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi mərasimində və "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Xaçmaz idarəsinin inzibati binasının açılışında iştirak edib.

Əhalinin içməli su ilə təminatını yaxşılaşdırmaq məqsədilə ölkədə həyata keçirilən kompleks tədbirlər nəticəsində regionlarda içməli su təchizatı və kanalizasiya infrastrukturu müasir tələblərə uyğun olaraq yenidən qurulur, sakinlərin keyfiyyətli və fasiləsiz içməli su təminatı sahəsində mühüm nailiyyətlər əldə edilib. Respublikamızın mühüm aqrar-sənaye və turizm potensialına malik rayonlarından sayılan Xaçmazda əhalinin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılması məqsədilə kompleks tədbirlər həyata keçirilib. Prezident İlham Əliyevin təsdiqlədiyi regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində 2012-ci ildə başlanmış "Xaçmaz şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi"nin icrası başa çatıb.

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov dövlətimizin başçısına "Xaçmaz şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi barədə məlumat verdi.

Bildirildi ki, Azərbaycan Hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi tərəfindən maliyyələşən "Xaçmaz şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi 2030-cu ilə perspektiv inkişaf nəzərə alınmaqla Xaçmaz şəhərində 47 min nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Rayonun 5 kəndi də daxil olmaqla, layihədən 58 min nəfər faydalanacaq.

Xaçmaz şəhərini, həmçinin ətraf kəndləri keyfiyyətli və dayanıqlı içməli su ilə təmin etmək üçün şəhərin mövcud su mənbəyi olan Uçqun bulağı seçilib. Bu su mənbəyində aparılan laboratoriya analizləri suyun keyfiyyətinin mövcud standartlara uyğunluğunu təsdiqləyib. Araşdırma zamanı məlum olub ki, mənbənin məhsuldarlığı da optimal səviyyədədir. Suqəbuledici qurğularda əsaslı yenidənqurma işləri aparılaraq mənbənin məhsuldarlığı saniyədə 229 litrə və ya sutkada 19,8 min kubmetrə çatdırılıb, hər birinin həcmi 3 min kubmetr olan 2 anbar inşa olunub və su mənbəyindən götürülən suyun anbar kompleksinə nəqli məqsədilə 1,9 kilometr magistral su xətti çəkilib. Anbarlarda toplanan su ehtiyatının həcminə, eləcə də suyun bulanıqlıq səviyyəsinə SCADA sistemi vasitəsilə onlayn rejimdə nəzarət edilir.

Layihə çərçivəsində Xaçmaz şəhərində 148 kilometr içməli su şəbəkəsinin, şəhərin relyef baxımından ən yüksək hissəsində yeni salınmış yaşayış massivinin dayanıqlı su təminatı məqsədilə nasos stansiyasının, 136 kilometr kanalizasiya şəbəkəsinin və şəbəkə üzərində 10 min 390 baxış quyusunun inşası, hər evin və obyektin kanalizasiya şəbəkəsinə qoşulması təmin edilib. Eyni zamanda, tullantı suların təmizləyici qurğuya ötürülməsi məqsədilə 1,2 kilometr uzunluğunda əsas daşıyıcı kollektor tikilib.

Layihənin icrası zamanı yeni yaradılmış infrastruktur mənbədən tutmuş sonuncu istifadəçiyə qədər "Azərsu" ASC-nin Coğrafi İnformasiya Sisteminə işlənilib və bu məlumatlar rəqəmsal xəritədə öz əksini tapıb. Coğrafi İnformasiya Sisteminin bir elementi olan Bina-kimlik layihəsi isə abonent haqqında bütün məlumatların xəritə üzərindən alınmasına və çeşidli təhlillərin aparılmasına imkan verir. Buraya abonentin yaşadığı ünvan, əlaqə vasitələri, istifadə etdiyi suyun həcmi, ödənişləri və təhlil üçün lazım olan digər informasiyalar daxildir. Bina-kimlik layihəsi baş vermiş qəza yerinə vaxtında müdaxilə etmək imkanı yaradır ki, bu da istismar prosesini asanlaşdırmaqla su itkilərinin minimuma endirilməsinə gətirib çıxarır. Eyni zamanda, yaranacaq fasilələr barədə abonentləri əvvəlcədən məlumatlandırmaq imkanları yaradır.

Hazırda sutkalıq məhsuldarlığı 20 min kubmetr olan tullantı sutəmizləyici qurğunun tikintisi üzrə tender prosesi yekunlaşmaq üzrədir. Qurğuda Xaçmaz şəhəri ilə yanaşı, Quba, Qusar şəhərlərinin, həmçinin Şahdağ Qış-Yay Turizm Kompleksinin də tullantı suları təmizlənib kənarlaşdırılacaq.

Layihə çərçivəsində Regional Sukanal İdarəsi üçün müasir tipli inzibati bina inşa olunub. Yeni layihənin icrasınadək Xaçmaz şəhərində 1950-1970-ci illərdə

yaradılmış su təchizatı infrastrukturundan istifadə olunurdu. Şəhər əhalisinin yalnız 40 faizi mərkəzləşmiş qaydada içməli su ilə təmin edilirdi, kanalizasiya şəbəkəsi istismara yararsız vəziyyətə düşmüşdü.

Dövlətimizin başçısına məlumat verildi ki, Azərbaycan Hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin birgə maliyyələşdirdiyi "Kiçik şəhərlərdə Su Təchizatı və Kanalizasiya Layihəsi" Xaçmaz şəhəri ilə yanaşı, Qusar, Naftalan, Qobustan və Xızı şəhərlərinin də içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulmasını əhatə edir. Artıq bu şəhərlərdə su və kanalizasiya şəbəkələrinin tikintisi yekunlaşıb. Layihənin sonuncu mərhələsində tullantı sutəmizləyici qurğuların inşası həyata keçiriləcək.

Ümumilikdə 50 şəhər və rayon mərkəzində içməli su təchizatı və kanalizasiya layihələri icra olunur. Bu şəhərlərin 25-də su və kanalizasiya şəbəkələrinin, 10-da isə su şəbəkəsinin inşası yekunlaşdırılıb. Bu ilin sonuna qədər daha bir neçə şəhərdə işlərin başa çatdırılması nəzərdə tutulub.

Sonra Prezident İlham Əliyev Xaçmaz şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Xaçmaza səfəri çərçivəsində Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 24-48 kilometrlik hissəsini təşkil edən Xaçmaz-Xudat avtomobil yolunun açılışını edib.

Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən ölkə əhəmiyyətli yollarla yanaşı, yeni kənd yollarının inşası, mövcudlarının isə müasir səviyyəyə çatdırılması sahəsində mühüm layihələrin icrası uğurla davam edir. Onlardan biri də Xaçmaz-Xudat avtomobil yoludur. Bu yolun yenidən qurulması ilə bağlı həyata keçirilən layihə sübut edir ki, ölkəmizdə avtomobil yollarının tikintisi və yenidən qurulması davamlı xarakter alıb. Bu tədbirlər vətəndaşların həyat şəraitinin yaxşılaşdırılması ilə yanaşı, Azərbaycan iqtisadiyyatının inkişaf səviyyəsini göstərir. Kənd və qəsəbələri birləşdirən yolların müasir səviyyədə yenidən qurulması, ümumilikdə, həmin bölgənin turizm potensialının möhkəmləndirilməsi işinə də xidmət göstərir. Yolların yenidən qurulması yerləşdikləri ərazilərdə yük və sərnişin daşımasını xeyli yaxşılaşdırır, yetişdirilən məhsulların rahat şəkildə yaxın-uzaq bazarlara daşınmasına imkan yaradır. Bu da kənd təsərrüfatının inkişafına müsbət təsir etməklə yolboyu yaşayan əhalinin sosial rifahının yüksəlməsinə imkan verir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov yeni yolun texniki göstəriciləri barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, birinci və üçüncü texniki dərəcəli yolun uzunluğu 24 kilometrdir. 2-4 hərəkət zolağına malik yolun hərəkət hissəsinin eni 7-15 metrdir. Hər iki tərəfdən çiyinlərin eni 2,5 metr, torpaq yatağının eni 19 metrdir. Yolun tikintisi zamanı genişmiqyaslı torpaq işləri görülüb, 2 laydan ibarət 13 santimetr qalınlığında asfalt-beton örtüyü döşənib. Yolboyu asfalt-beton qarışığından səkilər tikilib, geniş ərazidə beton səki daşları düzülüb. Yolda lazım olan bütün infrastruktur yaradılıb, xeyli sayda yol nişanları və göstərici lövhələr quraşdırılıb, yol cizgi xətləri çəkilib.

Xaçmaz-Xudat avtomobil yolunun yenidən qurulması 54 min nəfər əhalisi olan 59 yaşayış məntəqəsini birləşdirən yük və sərnişin daşımasını xeyli yaxşılaşdırmağa, bölgədə turizmin inkişafına imkan verməklə yanaşı, Yalama sərhəd keçid məntəqəsi ilə rahat nəqliyyat əlaqəsini də yaratmış olur. Bu da həmin yolun həm də beynəlxalq əhəmiyyətinin bir göstəricisidir.

Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

Xızı rayonuna səfər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Xızı rayonuna səfərə gəlib.

Dövlət başçısı əvvəlcə Xızı şəhərinin mərkəzindəki Heydər Əliyev Parkında Ümummilli Liderin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov parkda görülən işlər, həmçinin rayonda həyata keçirilən abadlıq və quruculuq tədbirləri barədə Prezident İlham Əliyevə məlumat verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də "Xızı şəhərində və Altıağac qəsəbəsində içməli su təchizatı sistemlərinin yenidən qurulması və kanalizasiya şəbəkəsinin yaradılması" layihəsinin yekunlaşması ilə bağlı keçirilən mərasimdə iştirak edib.

Azərbaycan Prezidenti əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

– Bu gün Xızı rayonunda çox əlamətdar bir gündür. Biz Xızı şəhərinə içməli suyun verilməsini qeyd edirik. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Eyni zamanda, Altıağac qəsəbəsinin su problemi də həll olunub. Çox gözəl layihələrdir. Bu layihələr bir daha onu göstərir ki, bizim sosial siyasətimiz gözəl nəticələr verir və sosialyönümlü addımlar bundan sonra da atılacaqdır.

Xızı şəhərində içməli su problemi həmişə insanları narahat edirdi. Artıq bu məsələ öz həllini tapıbdır. Xızıda içməli su layihəsinin başa çatması ilə biz demək olar ki, şimal zonasının bütün şəhərlərinin içməli su problemini həll etmiş oluruq. Əvvəlki dövrlərdə Qusar, Quba, Şabran, Siyəzən şəhərlərinin, bu gün isə biz Xaçmaz şəhərinin içməli su layihəsinin açılışını qeyd etdik. Yəni, şimal zonasının şəhərlərinin içməli su ilə bağlı problemləri öz həllini tapıbdır. Bu

gözəl hadisə münasibətilə sizi bir daha təbrik etmək istəyirəm.

Ümumiyyətlə, bildirmək istəyirəm ki, ölkəmizdə bütün sosial layihələr uğurla icra edilir. Heç bir sosial layihədə heç bir yubanma yoxdur. Hətta bizim üçün o qədər də asan olmayan, əvvəlki böhranlı illərdə də sosial layihələr tam miqyasda icra edilmişdir, Xızıda da həmçinin. Mənim əvvəlki gəlişimdə burada mərkəzi rayon xəstəxanası açılmışdır, gözəl, müasir binadır. Rayonda 10-na yaxın məktəb tikilmişdir, infrastrukturla bağlı olan digər layihələr icra edilir, qazlaşdırma 90 faizdən çoxdur. Demək olar ki, artıq bütün yaşayış məntəqələri qazla təmin olunub. Əminəm ki, gələcək dövrdə Xızıda qazlaşdırma 100 faizə çatacaq. Elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur. Əksinə, indi Xızı rayonu bizim ümumi enerji sistemimizi böyük həcmdə elektrik enerjisi ilə təmin edəcək. Yeni Yaşma Külək Elektrik Stansiyası artıq fəaliyyətə başlayır, yoldan keçəndə də bunu görmək mümkündür. Kənd yolları salınır. Bu gün bir yolun açılışını qeyd edəcəyik. Mənə verilən məlumata görə, kənd yollarının 50 faizi yenidən qurulub və ya əsaslı təmir olunub.

Bir sözlə, Xızı rayonunun sosial-iqtisadi inkişafı uğurla gedir. Ümid edirəm ki, gələcək illərdə kənd təsərrüfatı sürətlə inkişaf edəcək. Çünki Taxtakörpü su anbarının tikintisi və Samur-Abşeron suvarma sisteminin yenidən qurulması nəticəsində bütövlükdə bu bölgədə 30 min hektar torpaq sahəsi su ilə təmin ediləcəkdir. Bunun 12 min hektarı Xızı rayonunun payına düşür - 9 min hektar yeni suvarılan sahələr olacaq, 3 min hektar isə su verilmiş, ancaq kifayət qədər olmamış sahələrdir. Son məlumata görə, bu 9 min hektar yeni suvarılacaq torpaqlardan 3 min hektarı artıq suvarma suyu ilə təmin edilib. Əlbəttə, biz gözləyirik ki, Xızı rayonunda kənd təsərrüfatı sürətlə inkişaf etsin. İndi yol ilə gələndə gördüm ki, müasir suvarma sistemləri də qurulur, sahələr pivot suvarma üsulu ilə suvarılır. Beləliklə, həm məhsuldarlıq artacaq, həm də yeni sahələrin dövriyyəyə cəlb edilməsi nəticəsində yeni iş yerləri yaradılacaq. Buna görə mən Xızı rayonunun gələcək inkişafını çox müsbət görürəm, böyük nikbinliklə baxıram. Rayonun inkişafı üçün bütün lazımi tədbirlər görülüb. Yollar, elektrik enerjisi, qaz xətləri, indi içməli su, xəstəxana. Bildiyiniz kimi, bir neçə ildir ki, ölkəmizdə kütləvi müayinədən keçmə kampaniyası aparılır, hər il 5 milyondan çox insan dövlət hesabına müayinədən keçir və belə gözəl xəstəxanalarda bunu etmək mümkün olur.

Ölkəmizin ümumi sosial-iqtisadi inkişafı da çox müsbətdir. Üç ayın göstəriciləri bizi çox sevindirir. İndi bir neçə gündən sonra dörd ayın yekunları da veriləcək. Əminəm ki, biz dinamikanı nəinki saxlayacağıq, həm də artıracağıq. Ölkə qarşısında duran bütün vəzifələr uğurla icra edilir. Sosial məsələlərin həllinə gəldikdə, bu günə qədər bir çox sosialyönümlü layihələr həyata keçirilibdir. Bu layihələrin həyata keçirilməsi davam etdiriləcək, eyni zamanda, bütün sosial sahədə tam şəffaflıq yaradılmalıdır. Bu, yeni dövrün tələbidir. Əvvəlki dövrlərdə də mən qarşıya bu vəzifəni qoymuşam və bu gün bir daha çox ciddi tapşırıq verirəm ki, sosial sahədə maksimum şəffaflıq təmin edilməlidir. Əminəm ki, ediləcək və sosial ədalət tam bərqərar olmalıdır.

Azərbaycan dövləti möhkəm əsaslar üzərində qurulub. Biz iqtisadiyyatımızı bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf etdiririk. Ancaq bununla bərabər, sosial məsələlərin həllinə çox böyük diqqət göstəririk. Bunun nəticəsində ölkəmiz uğurla inkişaf edir. Bunun nəticəsində ölkəmizdə sabitlik, əmin-amanlıq hökm sürür, xalq-iqtidar birliyi gündən-günə möhkəmlənir. Bu gün Azərbaycan inkişaf, sabitlik, xalq-iqtidar birliyi baxımından dünya miqyasında nümunəvi ölkəyə çevrilibdir.

İndi dünyada, bölgədə, qonşuluqda baş verən hadisələri izləyərkən bir daha görürük ki, sosial sahədə pozuntular, bu sahəyə diqqətin göstərilməməsi və xoşagəlməz halların kütləvi xarakter alması böyük çətinliklərə, problemlərə, toqquşmalara gətirib çıxarır. Bizim siyasətimiz həmişə birmənalı olub: güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah. Bax, bu prinsiplərin vəhdəti bu gün Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində biz uğurla inkişaf edirik. Bu gün Azərbaycanda ictimai-siyasi proseslər müsbət istiqamətdə gedir, iqtisadi inkişaf tam təmin edilir və bir çox sosial layihələr icra olunur. Vəzifə isə çox sadədir, onu biz bir neçə il əvvəl qarşımıza qoymuşuq ki, insanları narahat edən bir dənə də problem qalmasın. Məktəblərin, xəstəxanaların, sosial obyektlərin tikintisi, insanların maddi vəziyyətinin yaxşılaşdırılması və infrastrukturla bağlı olan layihələr. Hər bir yerdə, hər bir rayonda və hər bir kənddə bu məsələlərə xüsusi diqqət göstərilir. Əldə edilmiş nəticələr və bu ilin gözəl göstəriciləri tam deməyə əsas verir ki, biz bu düzgün yolla gedəcəyik və bu günə qədər həllini tapmayan məsələlər də yaxın gələcəkdə öz həllini tapacaq. Bu gözəl hadisə münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm.

Rayon ictimaiyyəti adından Prezident İlham Əliyevə minnətdarlığını bildirən Könül FEYZİYEVA dedi:

– Bugünkü tədbir Xızı sakinləri üçün böyük əhəmiyyət kəsb edir. Bu, tarixi bir hadisədir. Kimin ağlına gələ bilərdi ki, Xızımızda mərkəzləşdirilmiş su və kanalizasiya sistemi yaradılacaq. İllərlə həsrətində olduğumuz içməli su veriləcək. Sakinlərimiz içməli su baxımından çox əziyyət çəkiblər. Onlar uzaq məsafələr qət edərək su daşımaq məcburiyyətində olublar. Artıq Xızı və dörd yaşayış məntəqəmiz içməli su ilə 24 saat müddətində təmin edilibdir. Bu da Sizin diqqətinizin və qayğınızın sayəsində mümkün olub.

Ümumiyyətlə, Sizin rəhbərliyinizlə həyata keçirilən bütün layihələr xalqımıza uğur, rifah gətirir. Mən bir Xızı sakini və xızılı həkim kimi deyə bilərəm ki, suyun insan həyatında rolu əvəzolunmazdır. Belə layihələriniz Sizə və Sizinlə bərabər çalışan çox hörmətli Mehriban xanıma sevgimizi daha da artırır. Bu il keçirilən prezident seçkilərində xalqımız böyük sevgi ilə, coşqu ilə iştirak etdi, onlar Sizə səs verdi, öz Prezidentimizi seçdik. Xalqımız Sizə səs verməklə öz rifahına,

təhlükəsizliyinə, xoş günlərinə səs vermiş oldu. Sizi bir daha bu münasibətlə ürəkdən təbrik edir, işlərinizdə müvəffəqiyyətlər arzulayırıq. Azərbaycanın uğurlarında Sizinlə bərabər çiyin-çiyinə çalışan sevimlimiz Mehriban xanıma da salamlarımızı çatdırmağı xahiş edirik. Tanrı Sizi və ailə üzvlərinizi qorusun.

Sonra "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov dövlətimizin başçısına layihə barədə məlumat verdi.

Azərbaycan Hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi tərəfindən birgə maliyyələşdirilən Xızı şəhəri və Altıağac qəsəbəsinin içməli su təchizatı sistemlərinin yenidən qurulması və ilk dəfə olaraq kanalizasiya şəbəkəsinin yaradılması layihəsi 2030-cu ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla Xızı şəhərində 3300, Altıağac qəsəbəsində isə 1500 nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Rayonun 3 kəndi də daxil olmaqla layihədən cəmi 6,3 min nəfər faydalanacaq. Xızı rayonunda yüksək məhsuldarlığa malik su mənbələri olmadığından yaşayış məntəqələrinin su təchizatının müxtəlif mənbələr hesabına təmin olunması layihələndirilib. Layihəyə əsasən Xızı şəhərinin və Altıağac qəsəbəsinin əsas su mənbəyi sayılan Dahardibidə məhsuldarlığı gündə 864 kubmetr, Qarsda məhsuldarlığı gündə 430 kubmetr, Şəfada məhsuldarlığı gündə 240 kubmetr və Yeddibulaqda məhsuldarlığı gündə 40 kubmetr olan sugötürücü qurğular inşa olunub. Ümumi tutumu 1400 kubmetr olan 4 anbar tikilib, mənbələrdən götürülən suyun anbar kompleksinə nəqli məqsədilə, ümumilikdə, 18 kilometr magistral su xətti çəkilib. Layihə çərçivəsində Xızı şəhərində və Altıağac qəsəbəsində 52,4 kilometr içməli su və 32,4 kilometr kanalizasiya şəbəkələrinin, həmçinin şəbəkə üzərində 1513 baxış quyusunun inşası başa çatdırılıb, hər bir evin və obyektin kanalizasiya şəbəkəsinə qoşulması təmin edilib.

Layihənin icrası zamanı yeni yaradılmış infrastruktur, mənbədən tutmuş sonuncu istifadəçiyə qədər "Azərsu" ASC-nin Coğrafi İnformasiya Sisteminə işlənilib və bu məlumatlar rəqəmsal xəritədə öz əksini tapıb. Coğrafi İnformasiya Sisteminin bir elementi olan Binakimlik layihəsi isə abonent haqqında bütün məlumatların xəritə üzərindən alınmasına və çeşidli təhlillərin aparılmasına imkan verir. Buraya abonentin yaşadığı ünvan, əlaqə vasitələri, istifadə etdiyi suyun həcmi, ödənişləri və təhlil üçün lazım olan digər informasiyalar daxildir. Layihə baş vermiş qəza yerinə vaxtında müdaxilə etmək imkanı yaradır ki, bu da istismar prosesini asanlaşdırmaqla su itkilərinin minimuma endirilməsinə gətirib çıxarır. Eyni zamanda, baş verə biləcək fasilələr barədə abonentləri əvvəlcədən məlumatlandırmaq imkanları yaradır.

Hazırda Xızı şəhərində məhsuldarlığı sutkada 1500 kubmetr, Altıağac qəsəbəsində isə məhsuldarlığı sutkada 350 kubmetr olan tullantı sutəmizləyici qurğuların tikintisi üzrə tender prosesi yekunlaşmaq üzrədir. Yeni layihənin icrasına qədər Xızı şəhərində 1985-1991-ci illərdə yaradılmış su təchizatı sistemləri istismar edilirdi. Şəhərdə mövcud 29 kilometr su şəbəkəsi istismara yararsız vəziyyətə düşdüyündən su təchizatı normal həyata keçirilmirdi. Altıağac qəsəbəsində 1980-ci illərin əvvəllərində yaradılmış içməli su təchizatı sistemi də istismar tələblərinə cavab vermirdi. Qəsəbə sakinlərinin 60 faizi mərkəzləşdirilmiş qaydada içməli su ilə təchiz edilirdi. Xızı şəhərində və Altıağac qəsəbələrində kanalizasiya sistemləri isə, ümumiyyətlə, mövcud olmayıb.

Sonra Prezident İlham Əliyev Xızı şəhərinə və Altıağac qəsəbəsinə içməli suyun verilməsini bildirən düyməni basdı.

Layihə çərçivəsində Xızı Sukanal İdarəsi üçün müasir tipli inzibati bina inşa olunub. Binanın foyesində Ulu Öndərin büstü qoyulub. Burada müştəri xidmətləri və istehsalat şöbəsi fəaliyyət göstərəcək. Binada, həmçinin texnoloq, mühəndis, mühasibat otaqları, arxiv, anbar da yaradılıb. Binadakı iclas zalında qurumun fəaliyyəti ilə bağlı müxtəlif toplantılar keçirmək mümkündür.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Xızı rayonuna səfəri çərçivəsində başlanğıcını Giləzi-Xızı yolunun 34-cü kilometrliyindən götürən və əsaslı şəkildə yenidən qurulan Fındığan kəndinədək olan yolun açılışını edib.

Son illərdə Azərbaycanda əsas magistral yollarla yanaşı, kənd yollarının salınması, mövcudlarının isə müasir səviyyədə yenidən qurulması ilə bağlı layihələr geniş vüsət alıb. Bu layihələr Xızı rayonunu da əhatə edib. Giləzi-Xızı avtomagistralını Fındığan kəndi ilə birləşdirən yol da son illərdə kənd yollarının əsaslı şəkildə yenidən qurulması istiqamətində həyata keçirilən layihələrin ardıcıl xarakter aldığını nümayiş etdirir. Belə yollar rayonlarımızda turizmin inkişafı baxımından da mühüm əhəmiyyətə malikdir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov əsaslı şəkildə yenidən qurulan yolun texniki göstəriciləri barədə dövlətimizin başçısına məlumat verdi. Bu yolun tikintisi Prezident İlham Əliyevin 2018-ci ilin fevralında imzaladığı Sərəncama əsasən həyata keçirilib. 600 nəfər əhalinin yaşadığı Fındığan kəndini Giləzi-Xızı avtomagistralının 34-cü kilometrliyi ilə birləşdirən yolun ümumi uzunluğu 5 kilometrdir. Yol 4-cü texniki dərəcəyə aiddir. Hərəkət hissəsinin eni 6 metr olan yol ikizolaqlıdır. Yolun yenidən qurulması zamanı genişmiqyaslı torpaq və asfalt-beton işləri görülüb. Yol boyunca 226 metr müxtəlif diametrli suötürücü borular tikilib, zəruri yerlərdə yol nişanları və göstərici lövhələr quraşdırılıb, cizgi xətləri çəkilib. Bu yolun istifadəyə verilməsi Fındığan kənd sakinlərinin Giləzi-Xızı avtomobil yoluna və Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomagistralına çıxışını təmin edir. Bu yolun yenidən qurulması bir daha sübut edir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşının maraqları dayanır.

Sonra dövlətimizin başçısına tikintisi başa çatmış Xızı-Altıağac avtomobil yolunda görülmüş işlər barədə

məlumat verildi. Qeyd olundu ki, uzunluğu 20,8 kilometr olan üçüncü dərəcəli bu yol hər birinin eni 3,5 metr olmaqla 2 hərəkət zolağından ibarətdir. Yolboyu 1 körpü keçidi təmir olunub, müxtəlif diametrli 48 ədəd su ötürücü boru, 14 kilometrə yaxın açıq və qapalı su ötürücü kanal tikilib. Xızı-Altıağac avtomobil yolunun istifadəyə verilməsi nəticəsində sakinlərin gediş-gəlişində, xüsusən də payız-qış mövsümündə yaranan çətinliklər tamamilə aradan qalxıb. Bu yol rayonda dörd min nəfər əhalinin yaşadığı 11 məntəqəni birləşdirir.

Daha sonra Prezident İlham Əliyevə Bakı-Quba Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 56-cı kilometrliyindən ayrılan Yeni Yaşma kənd yolunda aparılmış əsaslı təmir işləri barədə məlumat verildi. Bu avtomobil yolu uzun illər əsaslı təmir olunmadan istismar edildiyindən tamamilə yararsız hala düşmüşdü. Nəqliyyat vasitələrinin normal hərəkəti üçün çətinliklər yarandığından, yolun əsaslı təmir olunmasına zərurət yaranmışdır. Uzunluğu 6 kilometr olan bu yol dövlətimizin başçısının tapşırığı ilə əssaslı şəkildə təmir edilib, bütün infrastruktur müasir tələblər səviyyəsində qurulub. Bu yol 2200 nəfər əhalinin yaşadığı Yeni Yaşma kəndini Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yoluna birləşdirməklə yük və sərnişin daşınmasını xeyli yaxşılaşdırmağa imkan verəcək.

Dövlətimizin başçısı Fındığan kənd yolunun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

Naxçıvan Muxtar Respublikasına səfər

Prezident İlham Əliyev mayın 16-da Naxçıvan Muxtar Respublikasına səfərə gəlib.

Naxçıvan Beynəlxalq Hava Limanında dövlətimizin başçısını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov qarşıladı.

Hava limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısı Naxçıvan Muxtar Respublikası hökumətinin üzvləri ilə görüşdü.

Prezident İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlətimizin başçısına abidənin ətrafında aparılan abadlıq və yenidənqurma tədbirləri barədə məlumat verdi.

Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində "Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin birinci mərhələsinin açılışında iştirak edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlətimizin başçısına layihə ilə bağlı görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, layihə üzrə tikinti işlərinin icrasına 2012-ci ildən başlanılıb. Layihəyə əsasən Şərur şəhərinə, Mahmudkənd kəndinə və Zeyvə kəndinin bir hissəsinə su şəbəkəsi, Şərur şəhərinə kanalizasiya şəbəkəsi çəkilib və ev birləşmələri aparılıb. Layihənin birinci mərhələsi ötən ilin dekabrında başa çatıb. Layihəyə əsasən Arpaçay subölücüsündə gölün dibindən 6 metr dərinlikdə qalereya tikilib. Qalereyanın su sərfi saniyədə 1150 litr təşkil edir. Buradan su anbarlarına qədər diametri 900 millimetr olan plastik boru ilə 1500 metr xətt çəkilib. Xətt üzərində bir ədəd suboşaldıcı inşa olunub. Qalereyadan gələn su dezinfeksiya olunaraq su anbarlarına yığılır və öz axını ilə əhaliyə fasiləsiz ötürülür. Layihə çərçivəsində hər birinin tutumu 10 min kubmetr olan iki ədəd və tutumu 7 min 500 kubmetr olan bir ədəd, cəmi tutumu 27 min 500 kubmetr olan su anbarları tikilib. Su anbarlarından Şərur şəhərinədək 9,5 kilometr uzunluğunda xəttin tikintisi aparılıb.

Layihə ərazisində diametri 560 millimetrdən 63 millimetrə qədər plastik borularla 59,4 kilometr içməli su xətti çəkilib, 2500 ev su şəbəkəsinə qoşularaq sayğac quraşdırılıb. Su şəbəkəsi üzərində 7 yanğın hidrantı tikilib. Yerin relyefindən asılı olaraq mənzillərə su 2-5 bar arasında təzyiqlə verilir. Şərur şəhərində diametri 400 millimetrdən 200 millimetrə qədər olan borularla 19 kilometrdən çox daxili kanalizasiya şəbəkəsi çəkilib və 1500 ədəd ev kanalizasiya xəttinə qoşulub. Kanalizasiya sularının kənarlaşdırılması üçün diametri 400 millimetrdən 600 millimetrə qədər plastik borularla 7,3 kilometr uzunluğunda ana xəttin inşası aparılıb.

Bununla da Şərur şəhərində, Mahmudkənd kəndində və Zeyvə kəndinin bir hissəsində 13 min 500 nəfər Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su ilə davamlı olaraq 24 saat təmin ediləcək.

Sonra dövlətimizin başçısı "Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin birinci mərhələsinin açılışını bildirən düyməni basdı.

Sonra rayon ictimaiyyətinin nümayəndələri ilə görüşən Prezident İlham ƏLİYEV dedi:

– Bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm. Şərur şəhərinin içməli su problemi öz həllini tapıbdır. Gözəl, əlamətdar hadisədir. Mənə verilən məlumata görə, bir neçə kənd də indi içməli su ilə təmin olunur. Bu, çox vacib sosial layihədir. Naxçıvanın hər bir şəhərində içməli su-kanalizasiya layihələri icra edilir. Artıq Şərur Naxçıvan, Culfa, Şahbuz şəhərlərindən sonra dördüncü şəhərdir ki, bu məsələ öz həllini tam tapıbdır.

Siz yaxşı bilirsiniz ki, əvvəlki dövrlərdə içməli su məsələsi həmişə çox ciddi problem kimi insanları narahat edirdi. Ancaq bu gün Şərur şəhərinə tam təmiz, Dünya Səhiyyə Təşkilatının standartlarına tam uyğun içməli su verilibdir. Digər şəhərlərdə layihələr icra edilir və icra ediləcək. Yaxın gələcəkdə Naxçıvanın bütün şəhərlərinin içməli su-kanalizasiya layihələri tam başa çatacaq. Bu, ölkəmizin gücünü, qüdrətini, bizim sosial

siyasətimizi göstərir. Həmişə demişəm, bu gün də demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Onun problemlərinin, qayğılarının, bütün sosial məsələlərin həlli üçün bizdə çox güclü iradə, imkanlar var və görülən işlər bizim siyasətimizi əks etdirir.

Naxçıvan Muxtar Respublikasında sosial sahənin inkişafı üçün çox böyük işlər görülübdür, xəstəxanalar, məktəblər tikilibdir, içməli su və digər infrastruktur layihələri icra edilir. Əlbəttə ki, bu məsələlər insanların rahat yaşaması üçün əsas şərtdir. İçməli su insan sağlamlığı üçün əsas məsələdir və biz bu məsələni ölkə üzrə hər bir yerdə həll edirik. Azərbaycanın hər bir yerində içməli su-kanalizasiya layihələri icra edilir və qarşıya vəzifə qoyulubdur ki, bütün şəhərlərin su şəbəkəsi, kanalizasiya xətləri yenidən qurulsun. İşlərin böyük əksəriyyəti demək olar ki, öz həllini tapıbdır. O cümlədən Naxçıvan Muxtar Respublikasında da bu işlərə böyük diqqət göstərilir və beləliklə, bu önəmli sosial məsələ öz həllini tapmış olur.

Sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm, sizə yeni uğurlar arzulayıram.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV dedi:

- Möhtərəm Prezident, rayon ictimaiyyəti adından Sizə minnətdarlığımızı bildiririk ki, bu cür əhəmiyyətli məsələyə diqqət yetirirsiniz. Artıq muxtar respublika əhalisinin demək olar ki, 50 faizdən çox Dünya Səhiyyə Təşkilatının normalarından da yüksəksəviyyəli su alır. Sağ olun.

Prezident İlham ƏLİYEV: Çox gözəl.

Sonda xatirə şəkli çəkdirildi.

Prezident İlham Əliyev Naxçıvan Müəllimlər İnstitutunun yeni binasının açılışında iştirak edib.

Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Azərbaycanda ali təhsilin inkişafı da diqqətdə saxlanılır. Prezident İlham Əliyev ali təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirir. Ölkədə mövcud olan ali məktəblərin sırası genişləndirilir. Bu sırada Naxçıvan Müəllimlər İnstitutu da mühüm yer tutur. Belə ki, 2003-cü il avqustun 26-da Naxçıvan Müəllimlər İnstitutu kimi fəaliyyətə başlayan bu təhsil ocağı ötən dövrdə öz fəaliyyətini genişləndirib, ali təhsilli kadrların hazırlanması sahəsində bir sıra nailiyyətlər əldə edib. Ötən dövrdə institut ixtisaslı müəllim kadrları ilə də təmin olunub, lazımi tədris şəraiti yaradılıb, maddi-texniki baza gücləndirilib, yeni ixtisaslar açılıb. Bütün bunlar Azərbaycan ali təhsilinin yeni inkişaf mərhələsinin göstəriciləridir. Dövlətimizin başçısının Azərbaycanın ali təhsil müəssisələrinin dünyanın inkişaf etmiş ali təhsil məkanına inteqrasiyasının təmin olunması ilə bağlı tədbirləri bu sahədə yeni keyfiyyət dəyişikliyinin əldə olunmasına şərait yaradıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlətimizin başçısına məlumat verdi ki, altı mərtəbədən ibarət olan bu ali təhsil ocağında ümumilikdə 23 auditoriya var. Binada 4 kompüter otağı, 16 elektron lövhəli auditoriya, kitabxana və oxu, eləcə də elektron oxu zalları, rəngkarlıq və heykəltəraşlıq emalatxanaları var. Təsviri incəsənət, coğrafiya, musiqi, hərbi, tibb, Azərbaycan dili, ali riyaziyyat və informatika otaqları tələbələrin biliklərinin artırılması üçün bütün zəruri inventarla təchiz edilib. Binada psixologiya laboratoriyası, müəllim və tələbələr üçün bufet də yaradılıb. Tələbələrin ixtiyarına verilən idman zalında müasir qurğular quraşdırılıb. Binada 132 və 20 yerlik iclas zalları da var. Bu zallarda təhsil müəssisəsinin həyatında baş verən əlamətdar hadisələrlə bağlı müxtəlif tədbirlər keçirmək mümkündür.

Naxçıvan Müəllimlər İnstitutunun yeni binasında yaradılan şərait bir daha sübut edir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə təhsil sahəsinin inkişafı istiqamətində atılan addımların nəticəsində muxtar respublikada da böyük işlər görülüb. Bütün bunlar Azərbaycanda insan kapitalının inkişafı istiqamətində dövlətimizin həyata keçirdiyi siyasətin məntiqi nəticəsidir.

Bina ilə tanışlıqdan sonra Prezident İlham Əliyev Naxçıvan ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

- İlk növbədə, sizi Müəllimlər İnstitutunun yeni binasının açılışı münasibətilə təbrik etmək istəyirəm. Gözəl binadır, çox gözəl şərait yaradılıb. Memarlıq baxımından da Naxçıvan şəhərini daha da gözəlləşdirir. Bu binanın tikilməsi onu göstərir ki, Naxçıvan uğurla, sürətlə inkişaf edir. Son illər ərzində muxtar respublikada böyük abadlıq-quruculuq işləri görülmüşdür. Naxçıvan Muxtar Respublikası bütün iqtisadi göstəricilərinə görə çox sürətlə inkişaf edən respublikadır. Son 15 il ərzində respublikanın ümumi daxili məhsulu on dəfəyə yaxın artıbdır. Bu, məncə, dünya miqyasında rekord göstəricidir. Bütün uğurlar münasibətilə Naxçıvan Muxtar Respublikasının rəhbərliyini, bütün sakinlərini ürəkdən təbrik etmək istəyirəm.

Naxçıvan şəhəri, bütün şəhərlər abadlaşır, gözəlləşir, çox böyük quruculuq, yaşıllaşdırma işləri aparılır. Yol boyunca vaxtilə əkilmiş ağaclar indi böyüyüb, çox gözəl mənzərə yaradır. Binalar təmir olunur, yeni gözəl binalar tikilir. Bir sözlə, Naxçıvanın uğurlu inkişafı hər bir Azərbaycan vətəndaşının istəyinə bağlı olan məsələdir. Çünki Naxçıvan bizim tarixi diyarımızdır, qədim Azərbaycan torpağıdır, tarixi yerdir. Burada yerləşən tarixi abidələr Azərbaycan xalqının istedadını göstərir. Onu göstərir ki, Azərbaycan xalqı əsrlər boyu bu diyarda yaşayıb-yaratmışdır.

Naxçıvan strateji yerdə yerləşir, ölkəmizin təhlükəsizliyi, inkişafı üçün xüsusi rol oynayır. Naxçıvanın uğurlu inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər sovet dövründə də daim Naxçıvana böyük diqqət göstərmişdir və o vaxt respublikanın inkişafı üçün çox böyük işlər görülmüşdür. 1990-cı illərin əvvəllərində - Naxçıvan üçün ən ağır illərdə Ulu Öndər naxçıvanlılarla birlikdə burada çox ağır şəraitdə Naxçıvanı böyük bəlalardan qurtara bilmişdir. Biz hamımız o illəri yaxşı xatırlayırıq, bilirik ki, bizim mənfur

düşmənlərimizin niyyəti, eyni zamanda, Naxçıvanı da işğal etməkdən ibarət idi. Naxçıvana qarşı onlar silahlı hücumlar təşkil edirdilər. Ancaq naxçıvanlılar Ulu Öndərin ətrafında sıx birləşərək düşmənə layiqli cavab verib onları yerinə oturtmuşlar.

O illərdə Naxçıvan üçün və ümumiyyətlə Azərbaycan üçün həlledici məsələlər öz həllini tapmışdır. Ulu Öndərin rəhbərliyi ilə Naxçıvan o ağır illərdən şərəflə çıxa bilmişdir. Ölkəmizin müstəqilliyi işində Naxçıvanın çox böyük rolu olmuşdur. Məhz o illərdə ulu öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin bayrağını Naxçıvanda rəsmi bayraq kimi təsdiq etdi və Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırılmışdı ki, bu bayraq dövlət bayrağı kimi qəbul edilsin. Ancaq o vaxt Azərbaycan rəhbərliyi buna imkan vermədi.

O vaxt Naxçıvan "Naxçıvan Muxtar Sovet Sosialist Respublikası" adlanırdı və Ulu Öndərin təklifi ilə bu addan sovet, sosialist sözləri çıxarıldı. Bu, sovet dövründə baş vermişdir. Sovet İttifaqının saxlanmasına dair referendum Naxçıvanda keçirilmədi. Bütün bu işlər böyük cəsarət tələb edirdi. Bütün bu işlər onu göstərirdi ki, Ulu Öndər həmişə müstəqillik arzuları ilə yaşayırdı. Azərbaycanın dövlət müstəqilliyinin təmin edilməsində Ulu Öndərin və naxçıvanlıların çox böyük rolu vardır.

Ondan sonrakı dövrdə də Ulu Öndər Azərbaycan Prezidenti kimi həmişə Naxçıvana diqqət, qayğı göstərirdi. Naxçıvana tez-tez səfərlər edirdi. Bu yaxınlarda Ulu Öndərin 95 illiyinə həsr edilmiş təntənəli mərasimdə çıxış edərkən, o cümlədən onun Naxçıvan dövrü haqqında söz açmışdım. Bildirmişdim ki, Heydər Əliyev siyasəti bu gün də Azərbaycanda yaşayır, davam edir, əbədi yaşamalıdır və yaşayacaqdır.

Biz bu siyasətin gözəl nəticələrini ölkəmizin hər bir yerində görürük, o cümlədən Naxçıvan Muxtar Respublikasında. Bir daha demək istəyirəm ki, burada aparılan işlər çox yüksək qiymətə layiqdir, çox böyük zəhmət, çox böyük məhəbbət tələb edir. Görürəm ki, bütün işlər böyük məhəbbətlə, böyük zövqlə görülür ki, insanlar üçün yaxşı şərait yaradılsın, Naxçıvan Muxtar Respublikası bundan sonra da uğurla inkişaf etsin.

Mən də Ulu Öndərin siyasi xəttinə sadiq qalaraq bütün sahələrdə, o cümlədən Naxçıvana qayğı, diqqət məsələlərində o yolu davam etdirirəm. Bu səfər mənim Prezident kimi Naxçıvana sayca 14-cü səfərimdir. Prezident kimi ilk dəfə Naxçıvana düz 14 il bundan əvvəl – 2004-cü ilin may ayında gəlmişdim. Bu 14 il ərzində Naxçıvanda gedən işləri daim diqqətdə saxlamışam və respublikanın uğurlu inkişafı üçün nə lazımdırsa biz onu da edirik.

İlk növbədə, Naxçıvanın təhlükəsizliyi məsələləri ilə bağlı çox böyük işlər görülüb. Siz burada düşmənlə üz-üzə yaşayırsınız, yaradırsınız. Əlbəttə ki, ilk növbədə, Naxçıvan Muxtar Respublikasının uğurlu inkişafı üçün təhlükəsizlik tədbirləri ön planda və prioritet məsələ olmalıdır. Biz bunu belə də qəbul edirik. Naxçıvanın hərbi potensialının gücləndirilməsində böyük işlər görülüb. Azərbaycan Silahlı Qüvvələrinin tərkib hissəsi olan Naxçıvan Ordusu ən müasir silahlar, texnika ilə təchiz edilmişdir. Biz son illər ərzində Azərbaycan Ordusunu böyük dərəcədə gücləndirə bilmişik. Alınan müasir texnikanın demək olar ki, bütün növləri, yaxud da ki, əksər növləri Naxçıvana göndərilir. Naxçıvanın coğrafi yerləşməsinə, relyefinə uyğun şəkildə bütün müasir texnikalar göndərilir. Bu gün Naxçıvan Ordusu böyük qüvvəyə malikdir və düşmənin istənilən təxribatının qarşısını ala bilər və eyni zamanda, uğurlu əks-hücum əməliyyatı keçirə bilər. Naxçıvanda yerləşdirilmiş müasir silahlar, o cümlədən uzaqmənzilli raketlər düşmənin istənilən hərbi hədəfini məhv edə bilər. Yəni, təhlükəsizlik məsələləri tam təmin olunub. Bu məsələ daim diqqət mərkəzindədir.

Əlbəttə, bu, imkan verir ki, Naxçıvan uğurla, sürətlə inkişaf etsin. Burada böyük infrastruktur layihələri icra edilibdir. On ildən çoxdur ki, Naxçıvan Muxtar Respublikasının qazlaşdırılması ilə bağlı məsələlər öz həllini tapıb. Qazlaşdırma 100 faiz təmin edilibdir. Biz hələ Azərbaycanın ümumi qazlaşdırılmasını təqribən 93-94 faiz səviyyəsində təmin edə bilmişik, bu ilin sonuna qədər 95 faizə çatacaq. Ancaq Naxçıvan Muxtar Respublikasında artıq on ildən çoxdur ki, qazlaşdırma 100 faiz təmin edilibdir.

Elektrik enerjisi ilə bağlı məsələlər öz həllini tapıb. Mənim yadımdadır, 1990-cı illərin əvvəllərində atamın yanına gələrkən qaranlıq içində yaşayırdıq, biz özümüzü şam işığı ilə təmin edirdik. Ulu öndər Heydər Əliyev iş kabinetində neft lampasının işığında işləyirdi. Yəni, biz o günləri yaxşı xatırlayırıq. Bu gün elektrik enerjisi ilə bağlı bütün problemlər həll olunub. Son illərdə 8 elektrik stansiyası tikilib. Hazırda tikilməkdə olan 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyası işə düşəndən sonra Naxçıvan Muxtar Respublikası öz enerji tələbatının 100 faizini bərpaolunan enerji hesabına təmin edəcək. Bu, dünya miqyasında bəlkə də yeganə belə bir hal olacaqdır.

Bu gün Naxçıvan elektrik enerjisini ixrac edə bilər. Şadam ki, o cümlədən günəş elektrik stansiyası tikilib, su elektrik stansiyaları tikilir və Naxçıvanın artan sənaye potensialını təmin edəcək güclü elektrik təsərrüfatı yaradılır. Naxçıvanın əhalisi artır, sənaye istehsalı bundan sonra da artacaq. Ona görə bu məsələyə biz daim diqqət göstərməliyik.

İçməli su layihələri uğurla icra edilir. Bu gün biz Şərur şəhərinin içməli su layihəsini rəsmi olaraq açdıq. Ondan əvvəl Naxçıvan, Şahbuz, Culfa şəhərlərinin içməli su layihələri başa çatıb. Digər şəhərlərdə işlər gedir və bütün şəhərlərin içməli su-kanalizasiya problemləri həll olunacaqdır.

Avtomobil yolları salınır. Hazırda Culfa-Ordubad avtomobil yolu salınır və bu yol şəhərlərarası yollar arasında sonuncu layihədir. Bundan əvvəl bütün digər şəhərlərarası yollar – Naxçıvan-Sədərək, Naxçıvan-Şahbuz, Naxçıvan-Culfa yolları tam təmir olunub, salınıb və istifadəyə verilib.

Yəni, bütün bu infrastruktur artıq Naxçıvanın güclü potensialını təmin edir. Sosial məsələlərin həlli, tikilən xəstəxanalar, məktəblər, Olimpiya mərkəzləri, mədəniyyət ocaqları - son illər ərzində görülən bütün bu işlər,

əlbəttə ki, respublikanın potensialını artırır. Naxçıvan şəhər xəstəxanası, doğum mərkəzi, müalicə-diaqnostika mərkəzi, bütün şəhərlərin mərkəzi rayon xəstəxanaları tikilib. Yəni, böyük quruculuq işləri aparılır.

Əlbəttə, iqtisadiyyatın real sektorunun inkişafına da böyük diqqət göstərilir. Sənaye müəssisələri yaradılır, ixrac imkanları artır, kənd təsərrüfatı uğurla inkişaf edir. Naxçıvan özünü taxılla təmin edir. Qəbul edilmiş son qərarlar kənd təsərrüfatının inkişafına daha da böyük təkan verəcək. Bitkiçiliklə bağlı pivot suvarma sistemlərinin quraşdırılması nəzərdə tutulur. Heyvandarlıqla bağlı süni mayalanma mərkəzi yaradılır ki, potensial daha da böyük olsun.

Bildiyiniz kimi, Azərbaycan hazırda Şimal-Cənub Nəqliyyat Dəhlizinin yaradılması ilə ciddi məşğuldur. Azərbaycan ərazisində bu layihə ilə bağlı bütün işlər görülüb. Biz bu layihənin tam başa çatması üçün böyük maliyyə vəsaiti ayırmışıq. Ümid edirəm ki, gələcək üç il ərzində bu layihə tam istifadəyə veriləcəkdir. Hər halda planımız bundan ibarətdir. Belə olan halda Naxçıvan dəmir yolu ilə Azərbaycanın əsas hissəsi ilə birləşəcək və beləliklə, blokadadan, mühasirədən canını qurtaracaqdır.

Yəni, bu mühüm işlərin görülməsi bir daha onu göstərir ki, Naxçıvanın çox böyük potensialı var. Bir daha demək istəyirəm ki, burada görülən işlər çox böyük qiymətə layiqdir.

Onu da bildirmək istəyirəm ki, bu il Naxçıvan bütün İslam dünyasında artıq özünü göstərəcək. Çünki bu il Naxçıvan "İslam Mədəniyyətinin Paytaxtı" kimi şərəfli adı daşıyır. Bir neçə il bundan əvvəl Bakı bu ada layiq görülmüşdür və biz o vaxt ISESCO-ya müraciət etmişdik ki, biz istəyirik ikinci Azərbaycan şəhəri – məhz Naxçıvan şəhəri bu ada layiq görülsün. Çünki Naxçıvan buna layiqdir. Bilirəm ki, bu gözəl hadisə ilə bağlı təntənəli tədbirlər keçiriləcəkdir, çoxlu qonaqlar gələcəklər, bir daha görəcəklər ki, dünyada belə gözəl məkan var. Gözəl təbiəti, iqlimi, havası, mənzərəsi, binaları və ən önəmlisi, gözəl insanları olan gözəl məkan var - bu məkanın adı Naxçıvandır.

Sizi bir daha salamlayıram, bütün uğurlar münasibətilə təbrik edirəm, yeni uğurlar arzulayıram. Sağ olun.

İctimaiyyətin nümayəndələri adından çıxış edən Xəzər HÜSEYNOV dedi:

– Möhtərəm Prezident.

Ötən ilin əvvəlində Naxçıvan Muxtar Respublikasına səfəriniz zamanı qeyd etmişdiniz: "Ulu öndər Heydər Əliyev həmişə Naxçıvana diqqətlə yanaşırdı, problemlərin həlli üçün müvafiq göstərişlər verirdi və böyük qayğı göstərirdi. Mən də bu siyasəti davam etdirirəm".

2018-ci il aprelin 11-də keçirilmiş prezident seçkilərində qazandığı inamlı qələbə münasibətilə Prezident İlham Əliyevi Naxçıvan ictimaiyyəti adından təbrik edən Xəzər Hüseynov bildirdi ki, dövlətimizin başçısının ötən 15 il ərzində muxtar respublikaya 14 dəfə səfər etməsi, 135-dən çox obyektin açılışında iştirakı naxçıvanlıların quruculuq əzmini daha da artırıb. O qeyd etdi ki, hazırda Naxçıvan Muxtar Respublikası Ulu Öndərin arzuladığı kimi uğurlu və hərtərəfli sosial-iqtisadi inkişafını davam etdirir.

Xəzər Hüseynov doğma Azərbaycanımızın tərəqqisi naminə müəyyənləşdirilən dövlət siyasətinin həyata keçirilməsində naxçıvanlıların bundan sonra da fəal iştirak edəcəklərini vurğuladı, Naxçıvan Muxtar Respublikasının inkişafına hərtərəfli qayğısına görə Prezident İlham Əliyevə bir daha minnətdarlıqlarını çatdırdı.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Naxçıvan şəhər Təmizləyici Qurğular Kompleksinin açılışında iştirak edib.

Son illərdə ölkəmizin ərazisində yeni kollektor və xətlərin, tullantı sutəmizləyici qurğuların tikintisi, mövcud xətlərin yenidən qurulması, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində əhəmiyyətli addımlar atılıb. Prezident İlham Əliyevin imzaladığı regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının uğurlu icrası sayəsində bu sahədə də əhəmiyyətli nəticələr əldə olunub. Naxçıvan Muxtar Respublikasında da həyata keçirilən sosial siyasətin mərkəzində insan amili dayanır. Hər hansı sahə üzrə infrastruktur yaradılarkən, ilk növbədə, əhalinin rahat yaşayışının təminatı ön planda saxlanılır. Son illərdə Naxçıvan şəhər Təmizləyici Qurğular Kompleksinin yaradılması istiqamətində görülən işlər bunu deməyə əsas verir. Bu layihə bir tərəfdən ekoloji sahədə görülən tədbirləri əks etdirir, digər tərəfdən də yeni infrastruktur layihələrinin səmərəli istifadəsi üçün geniş imkanlar açır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlətimizin başçısına kompleks barədə məlumat verdi.

Bildirildi ki, kompleks giriş nasos stansiyasından, hovuzlardan, inzibati, transformator, kompressor binalarından, suvarma üçün nəzərdə tutulan su hovuzundan ibarətdir. Burada, həmçinin iri tullantı tutucu, qum və yağ tutma, membran tipli təmizləyici, palçıqqurutma, havatəmizləyici qurğular quraşdırılıb. Ümumilikdə, bu qurğunun fəaliyyəti 121 min istifadəçini əhatə edir. İcrasına 2014-cü ildə başlanılan layihə ötən ilin oktyabrında tamamlanıb. Qurğunun xidmət sahəsi Naxçıvan şəhəri, Qaraxanbəyli, Qaraçuq, Bulqan, Hacıniyyət, Tumbul, Babək rayonunun Şıxmahmud və Xəlilli kəndlərini əhatə edir. Bu qurğunun gücü gündə 32 min kubmetr və ya saniyədə 370 litrə bərabərdir. Kompleksdə bioloji fosfor təmizləmə hovuzu, oksigensiz hovuz, havalandırma hovuzu, suvarma su hovuzu inşa edilib. Buradakı hovuzların tutumu 25 min 650 kubmetrdir. Təmizləyici Qurğular Kompleksinin yerləşdiyi sahə 2,62 hektardır ki, bunun da 2 hektarı tullantıların saxlanması və qurudulması sahəsinə aiddir. Burada bioreaktor və membran tipli təmizləyici qurğu quraşdırılıb. Çirkab sutəmizləyici qurğu 3 mərhələli təmizləmə sistemindən ibarətdir. Kompeksdə təmizləmə prosesi fiziki, bioloji və membran təmizləmə üsulları ilə aparılır. Təmizlənmiş su isə ozonla dezinfeksiya olunaraq suvarma hovuzuna verilir. Layihənin icrası

nəticəsində 500 hektar torpağın suvarılması mümkün olacaq.

Prezident İlham Əliyev kompleksi işə saldı.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Naxçıvan şəhər Qaraxanbəyli inzibati ərazi dairəsində 480 şagird yerlik 6 saylı tam orta məktəbin açılışında iştirak edib.

Dövlətimizin başçısı məktəbin binasının rəmzi açılışını bildirən lenti kəsdi.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin "Neft Azərbaycanın milli sərvətidir" deyimi yeni yüzillikdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin tarixində başqa bir modeldə həqiqətə çevrildi. Azərbaycan Prezidentinin dünya ictimaiyyətinə ünvanladığı "Qara qızılı insan kapitalına çevirmək" mesajı 2003-cü ildən başlayaraq dövlət siyasətinin mühüm tərkib hissəsi oldu. Çünki müasir dünyada hər bir ölkənin gələcəyi təhsilin səviyyəsi ilə ölçülür.

Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da təhsildəki nailiyyətlər göz qabağındadır. Bu nailiyyətlər istər bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsində, istərsə də yeni təhsil müəssisələrinin inşasında özünü daha aydın göstərir. Təhsil sahəsi hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Azərbaycan da bu ölkələr sırasındadır. Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək istəyir. Bundan başqa, zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca amil seçib.

Prezident İlham Əliyev məktəbdə yaradılan şəraitlə tanış oldu.

Məktəbin binası üçmərtəbəlidir. Binada iki kompüter sinfi, 3 elektron lövhəli sinif, fizika, kimya və biologiya laboratoriyaları, 2 şahmat sinfi, hərbi kabinet, 24 ümumi sinif otağı, müəllimlər otağı və idman zalı var. Məktəbin həyətində qazanxana və bufet binası tikilib. Bir sözlə, burada şagirdlərin təlim-tərbiyəsi ilə məşğul olmaq üçün hərtərəfli imkanlar mövcuddur.

Son illərdə Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da yeni-yeni təhsil ocaqlarının yaradılması, mövcudlarının əsaslı şəkildə müasir səviyyədə yenidən qurulması dövlət səviyyəsində təhsil sahəsinə olan diqqətin təzahürüdür. Bütün bunlar gələcək nəslin bilikli, savadlı və intellektual səviyyəyə malik bir vətəndaş kimi yetişməsində mühüm rol oynayır. Ümumilikdə, son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda təhsilin, elmin inkişafına istiqamətlənən çox mühüm layihələr icra olunub. Təsadüfi deyil ki, son illərdə ölkə ərazisində 3 mindən çox məktəb tikilib, bir çox məktəb binaları üçün yeni korpuslar inşa olunub. Bununla da təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində əhəmiyyətli addımlar atılıb. Bütün bunlar isə Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da təhsilin keyfiyyətinə müsbət təsir göstərib.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev mayın 16-da Dövlət Sərhəd Xidmətinin Naxçıvan şəhər Qaraçuq ərazi dairəsində Əmiraslan Əliyev adına Sərhəd Dəstəsində yaradılan şəraitlə tanış olub.

Üçrəngli bayrağımızın Silahlı Qüvvələrdə ilk dəfə 1992-ci il avqustun 22-də Naxçıvan Sərhəd Dəstəsində qaldırılması, şimal və şimal-qərb sərhədlərimizdə ilkin zəruri infrastrukturların yaradılmasından tutmuş Dövlət Sərhəd Xidmətinin təşkilinə qədər bütün proseslər ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider Heydər Əliyevin Sərhəd Qoşunlarının formalaşdırılması istiqamətində verdiyi qərarların nəticəsində Azərbaycan öz sərhədlərini müstəqil qorumağa qadir olan ölkəyə çevrildi. Müstəqil dövlətimizin sərhədlərinin etibarlı qorunmasının yüksək səviyyədə təşkili sonrakı dövrdə də prioritet oldu. Ulu Öndərin siyasətini uğurla davam etdirən Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ordu quruculuğunun əsas istiqamətlərindən olan Sərhəd Qoşunlarını da dövlət qayğısı ilə əhatə etdi. Ali Baş Komandanın ölkəmizin sərhədçiləri ilə çoxsaylı görüşləri Dövlət Sərhəd Xidmətinin inkişafına, ölkəmizin sərhədlərinin mühafizəsinə göstərilən diqqət və qayğının əyani təzahürünə çevrildi. Təsadüfi deyil ki, son illərdə Dövlət Sərhəd Xidmətinin fəaliyyəti keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Xidmətin maddi-texniki bazasının gücləndirilməsi, yeni sərhəd dəstələri və zastavalarında müasir şəraitin yaradılması əlbəttə ki, Sərhəd Qoşunlarının inkişafına göstərilən qayğının bariz nümunəsidir.

Naxçıvan Əlahiddə Sərhəd Diviziyasının komandiri Asəf Quliyev Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Bildirildi ki, Əmiraslan Əliyev adına Sərhəd Dəstəsinin qərargah və yataqxana binası üç mərtəbədən ibarətdir. Binada rabitə, xidmət, silah, yataq otaqları, mətbəx, əsgər və zabit yeməkxanası yaradılıb. Binanın ikinci mərtəbəsində hərbçilər üçün 16 yerlik yataqxana, 48 yerlik əsgər yataqxanası və 4 yerlik zabit yataqxanası yerləşir. Burada ərzaq mağazası və əsgərlər üçün əlavə ləvazimatların satışı dükanı da hərbçilərə xidmət göstərəcək. Binada, həmçinin ikiotaqlı 4 mənzil də var.

Dövlətimizin başçısı ölkədə sərhəd xidmətinin təkmilləşdirilməsinə dair kompleks tədbirlərin həyata keçirilməsini və sərhəd dəstələrinin fəaliyyətinin ən müasir tələblər səviyyəsində qurulmasını daim diqqət mərkəzində saxlayır. Havada, suda və quruda sərhədlərin etibarlı şəkildə qorunmasını təşkil etmək üçün bütün zəruri tədbirlər görülür. Bu işlərlə yanaşı, sərhədçilərin mənzil-məişət, sosial məsələlərinin həllinə də daim diqqət göstərilir.

Zastavanın texniki binasında əsgərlər üçün müasir səviyyədə hamam və camaşırxana, ərzaq, əşya və silah anbarları, avtomobillərin saxlanması üçün qaraj da yaradılıb. Kinoloji xidmət üçün 7 yerlik və atların saxlanması üçün 12 yerlik tövlə binası tikilib. Ərazidə

genişmiqyaslı abadlıq-quruculuq işləri aparılıb, yaşıllıqlar salınıb. Burada hərbçilərin idmanla məşğul olmaları üçün hər cür şərait yaradılıb.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Əlahiddə Ümumqoşun Ordusunun "N" saylı hərbi hissəsində yaradılan şəraitlə tanış olub.

Ölkəmizdə yeni hərbi hissələrin yaradılması, mövcud hərbi hissələrdə infrastrukturun müasirləşdirilməsi istiqamətində mühüm işlər görülür. Bu baxımdan Naxçıvan Muxtar Respublikasında da böyük əhəmiyyətə malik layihələr icra olunub. Bu gün muxtar respublikanın müdafiə potensialı və gücü durmadan artır. Ümumilikdə, ölkəmizdə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində bu gün hərbi hissələrin komplektləşdirilmə faizi və keyfiyyəti yüksək səviyyədədir, əsas komanda-qərargah vəzifələrinin peşəkar, ali hərbi təhsili olan mənəvi, fiziki və psixoloji cəhətdən hazırlıqlı, döyüş təcrübəsi toplamış zabitlərlə təmin olunması ardıcıl şəkildə həyata keçirilir. Bununla yanaşı, birinci əməliyyat eşelonu birliklərində dayanıqlı müdafiənin təmin olunması istiqamətində əməli tədbirlər görülüb, müdafiə sistemi təkmilləşdirilib, qoşunların döyüş qabiliyyəti yüksək səviyyədə saxlanılıb. Ordunun döyüş qabiliyyətinin daha da artırılması, əməliyyat işləri üzrə hazırlığın gücləndirilməsi ilə bağlı birlik və birləşmələrin xeyli sayda komanda-qərargah təlimi keçirilib. Bu təlimlərə Silahlı Qüvvələrin müxtəlif qoşun birləşmələri cəlb olunub və həmin təlimlərdə ən müasir tələblərə cavab verən simulyator və kompüter şəbəkələrindən istifadə edilib. Son illərdə ordunun müasir silah və texnika ilə təchiz olunması istiqamətində də əməli tədbirlər görülüb. Dövlətimizin başçısının təşəbbüsü ilə 2005-ci ildən fəaliyyət göstərən Müdafiə Sənayesi Nazirliyinin yenidən qurulan müəssisələrində istehsal olunan silah və texnika hazırda ordumuzun maddi-texniki təchizatında aparıcı rol oynayır.

Azərbaycan Respublikası müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordusunun komandanı general-leytenant Kərəm Mustafayev dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Azərbaycan Prezidenti silahlanmaya yeni qəbul edilən hərbi texnika ilə tanış oldu.

Ali Baş komandana "ORBİTER-3B" pilotsuz uçuş aparatı təqdim edildi. Bildirildi ki, cəmi 28 kiloqram çəkisi olan bu aparatla 5500 metr maksimal hündürlükdə canlı yayımda gecə və gündüz şəraitində düşmən ərazisində havadan kəşfiyyat aparmaq, aşkar edilmiş hədəflərin koordinatlarını təyin etmək mümkündür. Sürəti saatda 93 kilometr olan aparatın maksimal uçuş məsafəsi 120 kilometr, uçuş müddəti isə 7 saatdır.

Qarnizonun arsenalına yeni qəbul olunmuş 60, 82 və 120 millimetrlik minaatanlar üçün simulyator dəsti döyüş mərmilərini sərf etmədən, komplektində olan pnevmatik mərmilərlə praktiki atəş tapşırıqlarının yerinə yetirilməsi üçün təyin olunub. Komplektə 20 pnevmatik mərmi və 100 partlayıcı maddə daxildir.

Ali Baş Komandana təqdim olunan 82 millimetrlik minaatan batareyası üçün rabitə və avtomatlaşdırılmış idarəetmə dəsti 5 kilometr dərinlikdə hədəfin aşkar edilməsi, hədəf haqqında məlumatların avtomatlaşdırılmış idarəetmə sistemi ilə atəş mövqeyinə ötürülməsi və atış üçün hesabatların aparılması, 120 millimetrlik minaatan və 122 millimetrlik "D-30" haubitsalı artilleriya batareyası üçün rabitə və avtomatlaşdırılmış idarəetmə dəsti isə 15-20 kilometr dərinlikdə hədəfin aşkar edilməsi, hədəf haqqında məlumatların avtomatlaşdırılmış idarəetmə sistemi ilə atəş mövqeyinə ötürülməsi və atış üçün qurğuların hesablanmasına təyin olunub.

"Su-25" hücum təyyarəsi gündüz və gecə, adi və mürəkkəb hava şəraitlərində yerüstü və hava hədəflərini məhv etmək və bilavasitə döyüş meydanında quru qoşunlarına dəstək vermək üçün yaradılıb. Saatda 1000 kilometrədək sürət yığan bu döyüş təyyarəsi 7 kilometrə qədər yüksəklikdə uça bilir.

Dövlətimizin başçısı "S-125-2 TM" zenit-raket kompleksinin nəqliyyat doldurucu maşınının da texniki-taktiki göstəriciləri ilə tanış oldu. Üzərində kran quraşdırılmış nəqliyyat doldurucu maşın idarəolunan zenit raketlərin konteynerdə və açıq vəziyyətdə daşınması, buraxıcı qurğuya doldurulub-boşaldılması üçün nəzərdə tutulub. Bu texnika ilə 4 ədəd raket daşımaq mümkündür.

Prezident İlham Əliyevə "SAND CAT" zirehli avtomobilinin taktiki-texniki göstəriciləri barədə də məlumat verildi. Bildirildi ki, bu zirehli yüngül avtomobil komanda heyətinin, silahlı bölmələrin, onlara aid avadanlığın və silah sistemlərinin daşınması, düşmənin canlı qüvvəsinin, zirehli texnikalarının və möhkəmləndirilmiş atəş mövqelərinin məhv edilməsi üçün təyin olunub. Avtomobil 12,7 millimetrlik pulemyot, 2 raketdən ibarət "Spiker-LR" tank əleyhinə idarə olunan kompleks və 120 millimetrlik minaatanla təchiz edilib.

152 millimetrlik "QİASİNT-B" topu düşmənin canlı qüvvəsini, atəş vasitələrini və marş zamanı döyüş texnikalarını, cəmləşmə rayonlarını, dayaq məntəqələrini məhv etmək və susdurmaq imkanlarına malikdir. Bu qurğunun maksimal atış məsafəsi aktiv-reaktiv mərmi ilə 35,5, adi mərmi ilə 28,6 kilometrdir.

Müasir döyüş maşınlarından sayılan "BTR-82A" zirehli transportyor döyüş meydanında fəaliyyət göstərən piyadanın mobilliyini, silahlanmasını və müdafiəsini yüksəltmək, düşmənin canlı qüvvəsini, tank əleyhinə vasitələrini və yüngül zirehli texnikalarını məhv etmək üçün nəzərdə tutulur. Döyüş maşınında 30 millimetrlik top və 7,62 millimetrlik pulemyot quraşdırılıb.

Burada nümayiş olunan "TOS-1A" ağır odatan yaylım atəş sistemi düşmənin taqım dayaq məntəqələrini, həmlə edən bölüklərini, artilleriya və minaatan batareyalarının atəş mövqelərini və marşda olan avtomobil kolonlarını məhv etmək iqtidarına malikdir. 220 millimetrlik sistemin 24 istiqamətləndiricisi var və maksimal atəş məsafəsi 6 min metrdir.

"XRİZANTEMA-S" özüyeriyən tank əleyhinə raket kompleksi dinamik örtüklə təchiz edilmiş tankları, piyadaların döyüş maşınlarını və digər yüngül zirehli hədəfləri, fortifikasiya qurğularını və uzunmüddətli atəş nöqtələrini, alçaqdan uçan təyyarə və vertolyotları məhv etmək imkanlarına malikdir. Batareya komandirinin idarəetmə maşını düşmənin güc və vasitələrinin aşkar edilməsi, taqım və heyətlər arasında hədəflərin bölüşdürülməsi üçün təyin olunub.

Bütün bunlar göstərir ki, 100 illiyini qeyd etməyə hazırlaşdığımız Azərbaycan Silahlı Qüvvələrinin bu gün dünyanın ən güclü 50 ordusu sırasında olması heç də təsadüfi deyil. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlər nəticəsində ordumuzun arsenalı dünyanın aparıcı ölkələrinin istehsalı olan silah-sursatla genişlənir və bu işdə Azərbaycanın milli müdafiə sənayesi kompleksinin imkanları mühüm rol oynayır.

Sonra Prezident İlham Əliyev Əlahiddə Ümumqoşun Ordusunun "N" saylı hərbi hissəsinin yeni hərbi xəstəxanasının açılışında iştirak etdi.

Dövlətimizin başçısı xəstəxana binasının rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, ən müasir tibbi avadanlıqla təchiz edilən üçmərtəbəli yeni xəstəxana binasında poliklinika-qəbul, terapiya, cərrahiyyə, anesteziologiya və reanimotologiya, təminat bölmələri və inzibati bölmə mövcuddur. Xəstəxananın poliklinika-qəbul bölməsində oftalmologiya, ginekologiya, lor, ultrasəs və elektroqrafiya kabinələri və laboratoriya fəaliyyət göstərəcək. Altmış çarpayılıq xəstəxana binasında şəxsi heyətə ilkin tibbi yardım göstərmək üçün sarğı, prosedur və təxirəsalınmaz yardım otaqları da yaradılıb. Burada şəxsi heyətin tibbi biliklərinin daha da artırılması məqsədilə hərbi tibbi hazırlıq üzrə məşğələlər keçmək üçün müasir tədris vəsaitləri ilə təmin edilən sinif və mühazirə zalı mövcuddur. Buradakı laboratoriya müasir avadanlıqla təchiz olunub. Bu isə laborator müayinələri operativ və yüksək dəqiqliklə yerinə yetirməyə imkan verir. Bir sözlə, xəstəxanada əsgər və zabitlərə yüksək səviyyədə tibbi xidmət göstərmək üçün hərtərəfli şərait yaradılıb. Bu tibb müəssisəsinin müasir avadanlıqla təchiz olunması Azərbaycanda ordu quruculuğu sahəsinin inkişafına göstərilən dövlət qayğısının əyani təzahürüdür. Bütün bunlar bir daha sübut edir ki, dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev əsgər və zabitlərin sağlamlığının qorunmasına, həmçinin sosial məsələlərinin həllinə xüsusi həssaslıqla yanaşır və bu istiqamətində mühüm işlər görür.

Yeni yaradılan hərbi hissədə əsgər yataqxanaları, əsgəri-məişət kompleksi, təlim-tədris mərkəzi, qərargah binası, xəstəxana inşa olunub, sıra meydanı, idman şəhərciyi salınıb.

Əlahiddə Ümumqoşun Ordusunun Təlim-Tədris Mərkəzində taktiki simulyasiya, trenajor, mədəni-kütləvi işin təşkili bölmələri, sənədli və tədris filmləri kinostudiyası, hərbi mətbəə yerləşir. Ümumi sahəsi 7500 kvadratmetr olan üçmərtəbəli binada, həmçinin zirehli texnika, raket-artilleriya sistemləri, rabitə, taktiki hazırlıq, qarovul hazırlığı, atəş hazırlığı, topoqrafiya, komandir hazırlığı və digər sinif otaqları, kitabxana, xarici dillər kabinəsi və 700 yerlik tədbirlər zalı vardır. Hərbi tədris proqramının keyfiyyətlə mənimsənilməsi, şəxsi heyətin peşəkarlığının və nəzəri biliklərinin artırılması üçün sinif otaqlarında lazımi şərait yaradılıb, kompüterlər quraşdırılıb, əyani vəsaitlər və məlumat stendləri qoyulub. Trenajor zalında tank, artilleriya və digər zirehli texnikaların idarə olunması, eləcə də texniki və atış sistemləri üzrə 18 trenajor quraşdırılıb. Trenajorlar vasitəsilə zirehli texnikaların idarə olunması və döyüş zamanı onlardan atəş açılması öyrədilir. Keçirilən təlimlərin sonunda qiymətləndirmənin aparılması isə şəxsi heyətin bilik səviyyəsini və peşəkarlığını müəyyən etməyə imkan verir. Simulyasiya mərkəzində artilleriya qurğularının taktiki-texniki xüsusiyyətləri, həmçinin atışın idarə olunması üzrə məşğələlərin praktik mənimsənilməsi üçün hər cür şərait yaradılıb, otaqlarda mərkəzdən idarə olunan və xüsusi proqram təminatına malik 100 kompüter və proyektor quraşdırılıb. Atəş hazırlığı otağında yaradılan virtual təlim meydançası döyüş sursatı sərf etmədən müxtəlif şəraitdə atəşin idarəolunmasını həyata keçirməyə imkan verir. Həmçinin burada atəş tapşırıqlarını təhlil etmək və qiymətləndirmək, atəş göstəricilərinin dəqiqliyini müqayisə etmək mümkündür. Mərkəzin kitabxanasında Azərbaycan və dünya ədəbiyyatı nümunələri, eləcə də ordumuzun keçdiyi tarixi inkişaf yolunu əks etdirən 16 mindən artıq kitab, qəzet və jurnal materialları toplanıb. Burada şəxsi heyətin gündəlik dövri mətbuatla tanış olmaq, hərbi və bədii ədəbiyyatları mütaliə etmək imkanı var. Hərbi sahəyə dövlətimizin göstərdiyi diqqətin nəticəsidir ki, bu gün Əlahiddə Ümumqoşun Ordusunda gənc əsgərlərin peşəkar döyüşçü kimi hazırlığı da daxil olmaqla, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, gizir və zabit hazırlığı kursları da təşkil edilir, zabit heyətinin təkmilləşdirilməsi kursu da uğurla icra olunur.

Goranboy rayonuna səfər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Naftalan şəhərinə səfərə gəlib.

Əvvəlcə dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin Naftalan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Rövşən İbrahimov dövlətimizin başçısına abidənin ətrafında aparılan abadlıq-quruculuq işləri barədə məlumat verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Goranboy rayonuna səfəri çərçivəsində

Dəliməmmədli-Quşçular-Fəxralı-Qurbanzadə-Alpout avtomobil yolunun açılışında iştirak edib.

Son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi inkişafın mühüm elementlərindən birini təşkil edən yol infrastrukturunun müasir səviyyədə yenidən qurulması istiqamətində tarixi layihələr icra olunub. Dövlətimizin başçısının tapşırıq və göstərişlərinə əsasən son illərdə kənd yollarının yenidən qurulması, mövcud yolların müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunub. Bu cür layihələrdən biri də Dəliməmmədli-Quşçular-Fəxralı-Qurbanzadə-Alpout avtomobil yoludur. Bu yolun inşasına Prezident İlham Əliyevin bu il aprelin 30-da imzaladığı Sərəncamla başlanılıb.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına yolun texniki göstəriciləri barədə məlumat verdi.

Bildirildi ki, 12 min nəfər əhalinin yaşadığı 5 məntəqəni birləşdirən Dəliməmmədli-Quşçular-Fəxralı-Qurbanzadə-Alpout avtomobil yolunun ümumi uzunluğu 14 kilometr, hərəkət hissəsinin eni isə 6 metrdir. Dördüncü texniki dərəcəli yol iki hərəkət zolaqlıdır. Layihə çərçivəsində 212 poqonmetr müxtəlif diametrli dəmir-beton suötürücü borular, yol nişanları və göstərici lövhələr quraşdırılıb, yol-cizgi xətləri çəkilib. Yolun inşası yüksək səviyyədə, qısa müddətə və bütün texniki göstəricilərə riayət olunmaqla aparılıb. Bu yol sakinlərin rahat gediş-gəlişini təmin edəcək, həmçinin Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolu vasitəsilə respublikamızın istənilən istiqamətinə hərəkət etməyə imkan verəcək. Avtomobil yolunun tikintisi əhatə etdiyi 5 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılması ilə yanaşı, bu bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında da mühüm rol oynayacaq.

Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

Prezident İlham Əliyev Goranboy rayonunda "Region Agropark"ın açılışında iştirak edib.

Son illərdə sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər, icra olunan dövlət proqramları ölkəmizin sosial-iqtisadi inkişafının dinamikliyini göstərən amillərdəndir. Bu gün Azərbaycanda sahibkarlar dövlət tərəfindən həm mənəvi, həm siyasi, həm də iqtisadi dəstək alır. Bölgələrdə yeni zavod, fabrik və digər istehsal müəssisələrinin fəaliyyətə başlaması işsizlik problemini aradan qaldırmaqla yanaşı, regionların malik olduğu potensialdan düzgün istifadə mexanizmlərini də üzə çıxarır. Bu gün, həmçinin güzəştli kreditlər hesabına maliyyələşdirilən, müasir texnologiyaların tətbiqinə əsaslanan layihələrdən olan və ölkə əhalisinin keyfiyyətli ərzaq məhsullarına tələbatının ödənilməsinə xidmət edən müasir aqroparkların yaradılması xüsusi əhəmiyyətə malikdir. Prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, aqrar sahədə intensiv texnologiyaların tətbiqi ilə bağlı tapşırığına uyğun olaraq artıq ölkəmizdə aqroparkların yaradılmasına başlanılıb. Aqroparklar aqrar sahədə sahibkarlığın inkişafını daha geniş şəkildə təşviq edərək sosial-iqtisadi inkişafın sürətləndirilməsində, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalında, ixrac potensialının və məşğulluğun artırılmasında xüsusi əhəmiyyət kəsb edir. Aqroparkların yaradılması ölkənin ixrac coğrafiyasının genişləndirilməsində, milli brendlərin yaradılmasında, kənd təsərrüfatı sahəsində əlaqələndirilmiş vahid sistemin, eləcə də istehsalçı-emalçı-istehlakçı münasibətlərinin formalaşmasında, aqrar sahədə ixtisaslı kadrların hazırlanmasında və yeni iş yerlərinin açılmasında əhəmiyyətli rol oynayacaq. Aqroparklarda kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, logistikası və satışı bütünlükdə bu zənciri özündə birləşdirməklə, kənd təsərrüfatı məhsullarının torpaqdan istehlakçının süfrəsinədək bütün mərhələləri özündə əks etdirir ki, bu da həmin məhsulların istehsalına çəkilən xərclərin, eləcə də maya dəyərinin aşağı düşməsinə və keyfiyyətin yüksəlməsinə imkan verir. Belə aqroparklardan biri də Goranboy rayonundakı "Region Agropark"dır.

İqtisadiyyat naziri Şahin Mustafayev, kənd təsərrüfatı naziri İnam Kərimov və aqroparkın direktoru Sənan Qədimov görülən işlərlə bağlı dövlətimizin başçısına ətraflı məlumat verdilər.

Bildirildi ki, regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində müxtəlif bölgələrdə ayrı-ayrı istehsal sahələri istifadəyə verilir, əhalinin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. "Region Agropark" da belə müəssisələrdən biridir. Ümumi dəyəri 30 milyon manat olan aqroparkın yaradılmasına 6 milyon manat dövlətin güzəştli krediti verilib. Belə ki, Goranboy rayonunda uzun müddət istifadəsiz qalmış və yararsız hala düşmüş 3500 hektar, Samux rayonunda isə 1200 hektar qış otlaq sahələrinin təyinatı Nazirlər Kabinetinin müvafiq sərəncamları ilə dəyişdirilərək əkin dövriyyəsinə cəlb edilib. Aqropark tərəfindən "Bozdağ massivi" ərazisində yerləşən, yararsız vəziyyətdə olan torpaq sahələrinin əkinə yararlı vəziyyətə gətirilməsi üçün ərazidə yarğanlar doldurulub, yüksək keyfiyyətli hamarlama işləri aparılıb, sahələr kol-kosdan təmizlənib, torpağın biohumus qatının bərpası məqsədilə böyük həcmdə kompos verilib. Torpağın tərkibinin öyrənilməsi məqsədilə nümunələr götürülərək Türkiyənin beynəlxalq akkreditasiya olunmuş "Laben" laboratoriyasına göndərilib və analizlərin nəticələrinə uyğun əkin planı hazırlanıb. İstehsal olunan məhsulların uzun müddət keyfiyyətli və itkisiz saxlanılması üçün hər birinin tutumu 3 min ton olan 18 min tonluq 6 taxıl anbarı kompleksi və saatda gücü 10 ton olan qurutma sistemi inşa olunub. Amerika və Türkiyədən alınan avadanlıqlarla təchiz olunmuş taxıl anbarı kompleksi tam avtomatlaşdırılmış qaydada fəaliyyət göstərir. Kompleks məhsulu qəbul edir, təmizləyir və qurudaraq saxlanılması üçün anbarlara ötürür. Aqroparkda işçilər, kənardan cəlb olunmuş mütəxəssis və qonaqlar üçün 72 yerlik ikimərtəbəli tam

infrastruktura malik müasir yataqxana və ikimərtəbəli ofis binası tikilib.

Diqqətə çatdırılıb ki, hazırda respublikanın 30 rayonu üzrə 191,8 min hektar ərazidə ümumi dəyəri 1,4 milyard manat olan 45 aqroparkın yaradılması işləri davam etdirilir. İndiyə qədər dövlət dəstəyi hesabına aqroparkların yaradılması üçün ümumilikdə 311,8 milyon manat, o cümlədən su, qaz, elektrik və yol çəkilişi, meliorativ tədbirlər və digər infrastruktur işlərinə 204,2 milyon manat dövlət əsaslı investisiya qoyulub. Ümumi dəyəri 400 milyon manatdan çox olan 15 aqroparkın yaradılmasına 110 milyon manatadək dövlətin güzəştli kreditləri ayrılıb və 14 aqropark üzrə dəyəri 565,5 milyon manat olan 24 layihəyə investisiya təşviqi sənədi verilib. Artıq Xaçmaz, Şəmkir, Cəlilabad və Goranboyda yaradılan aqroparklarda birinci mərhələ üzrə işlər başa çatdırılıb.

Qeyd edək ki, həyata keçirilən bu layihənin ikinci mərhələsi çərçivəsində ərazilərin hazırlanması məqsədilə mövcud iri yarğanlar torpaqla doldurulacaq, ərazi kol-kosdan təmizlənəcək, əkinə hazırlıq işləri aparılacaq, 2700 hektar sahədə Amerika istehsalı olan 31 müasir pivot suvarma sistemi qurulacaq və meyvə bağlarının sahəsi 200 hektara çatdırılacaq. Bundan başqa, aqroparkda gündəlik istehsal gücü 120 ton olan bitki yağları istehsalı fabriki, ümumi tutumu 2 min ton olan soyuducu anbar kompleksi, 10 hektar sahədə müasir istixana kompleksi yaradılacaq. Aqroparkda hazırda 100 nəfər daimi işlə təmin edilib. Burada bitkilərin davamlı və keyfiyyətli su təminatının həyata keçirilməsi məqsədilə ilkin olaraq 2000 hektar sahədə Amerika istehsalı olan və məsafədən idarəetmə mexanizminə malik 24 müasir suvarma sistemi qurulub. Uzun müddət əkin aparılmadığına görə ərazidə dərin və çarpaz reperlənmə işləri aparılıb, torpaq müxtəlif üzvi və qeyri-üzvi gübrələrlə zənginləşdirilib. Bərpa olunmuş torpaq sahəsində cari ildə 823 hektarda taxıl, 93 hektarda yonca, 320 hektarda şəkər çuğunduru, 192 hektarda pambıq, 64 hektarda kartof əkilib. 80 hektar ərazidə damcı suvarma sistemləri qurulmaqla zeytun, badam və digər meyvə bağları salınıb. Aqroparka məxsus torpaq sahələrinin Bozdağ ərazisində əmələ gələn sel sularından mühafizəsi məqsədilə 15,5 kilometr uzunluğunda seltutucu kanal inşa olunub.

Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə bildirdi ki, aqroparkda zəruri infrastrukturun yaradılması məqsədilə qoyulmuş 35 milyon manat dövlət əsaslı investisiya hesabına ərazini öz axını ilə suvarma suyu ilə təmin etmək üçün Şəmkir-Samux-Goranboy magistral suvarma kanalı üzərində baş suqəbuledici qurğu, nəqledici boru kəməri, sututumu 100 min kubmetr olan dəmir-beton üzlüklü hovuz, sututumu 300 min kubmetr olan torpaq əsaslı hovuz inşa olunub. Bundan əlavə, 35/10 kV-lıq yarımstansiya da inşa edilib, Lək yarımstansiyasından 14 kilometr uzunluğunda yüksək gərginlikli elektrik xətti, Qazıməmməd-Qazax magistral qaz kəmə-rinin "Ağasıbəyli" Qazpaylayıcı Stansiyasından 12 kilometrlik qaz xətti çəkilib və Fəxralı kəndindən əraziyə 9,4 kilometr uzunluğunda yeni asfalt yol salınıb.

Sonra Azərbaycan Prezidenti aqroparkın kollektivi ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

– Goranboy aqroparkının açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm. Çox gözəl hadisədir. Goranboy rayonunun iqtisadi potensialının möhkəmlənməsində bu aqroparkın çox böyük rolu olacaq. Dövlət öz dəstəyini növbəti dəfə göstərmişdir. Bildiyiniz kimi, Azərbaycanda aqroparkların yaradılması dövlət xətti ilə həyata keçirilir. Dövlət özəl sektora daim diqqət və dəstək göstərir. Vaxtilə istifadəsiz qalmış bu ərazidə dövlət xətti ilə böyük infrastruktur layihələri icra edilmişdir. Yollar, qaz, elektrik və su xətləri çəkildi, suvarma işləri görüldü, dövlət xətti ilə ən müasir texnika alındı. Bu texnikanın bir hissəsi burada nümayiş etdirilir. Bu, dünyanın ən aparıcı şirkətinin texnikasıdır. Dövlət xətti ilə 40-dan çox texnika gətirilmiş və bu aqroparka lizinqə verilmişdir.

Dövlət tərəfindən bu aqroparkın yaradılmasına 35 milyon manat vəsait ayrılmışdır. Bildiyiniz kimi, bu aqroparkın ərazisi 4700 hektardır və bu torpaqlardan istifadə olunmurdu. İndi isə burada gözəl işlər görülüb, özəl sektor öz tərəfindən vəsait qoyubdur. Mənə verilən məlumata görə, özəl investisiyaların həcmi 30 milyon manatdır. Beləliklə, biz görürük ki, dövlət-özəl sektor partnyorluğu gözəl nəticələrə gətirib çıxarır. Böyük investisiyalar qoyulur və bu investisiyaların böyük səmərəsi olacaqdır. Burada yüzlərlə iş yeri yaradılır, yerli istehsal təşkil olunur. Burada bir çox kənd təsərrüfatı məhsulları yetişdiriləcək və əminəm ki, ölkə bazarına, xarici bazarlara çıxarılacaqdır.

Bütövlükdə bu gün Azərbaycanda aqroparkların yaradılması geniş vüsət almışdır. Nəzərdə tutulan 45 aqroparkdan 4-ü artıq istifadəyə verilib: Yalama, Şəmkir, Cəlilabad və bu gün Goranboy rayonunda. Mən dördünün də açılışında şəxsən iştirak etmişəm. Bu, bir daha onu göstərir ki, dövlət bu məsələlərə çox böyük diqqət göstərir və dəstək verir. Bu 45 aqroparkın yaradılmasına 1,4 milyard manat sərmayə qoyulacaq, onun bir hissəsi qoyulubdur. Bu aqroparkların ərazisi 191 min hektara bərabərdir. Bax, bu qədər torpaq istifadəsiz qalmışdı. İndi isə tezliklə bu 45 aqroparkın yaradılması nəticəsində kənd təsərrüfatı məhsullarımızın istehsalı böyük dərəcədə artacaq. Beləliklə, ölkə qarşısında duran əsas vəzifələrdən biri - ərzaq təhlükəsizliyi məsələsi öz həllini tapacaq və biz idxaldan asılılığımızı daha da azaldacağıq.

Mənə məlumat verilib ki, məhsuldarlıq da çox yüksəkdir. Arpada hektardan məhsuldarlıq 50 sentnerdir, hesab edirəm ki, buğda da ən azı bu qədər olmalıdır. Yəni, burada ən müasir texnologiyalar tətbiq olunur, o cümlədən müasir suvarma texnologiyaları, pivot suvarma sistemləri quraşdırılır. Bu sistemlərin tətbiqi Azərbaycanda geniş vüsət alacaq. Bu məqsədlə artıq bu sistemlərin istehsalı ölkəmizdə təşkil edilibdir ki, xaricdən asılılıq azalsın və xaricə valyuta getməsin.

Beləliklə, aqroparkların yaradılması və fəaliyyəti nəticəsində ərzaq təhlükəsizliyi məsələləri öz həllini tapacaq, işsizliyin azaldılması ilə bağlı əlavə addımlar atılacaq, yerli istehsal inkişaf edəcək, ixrac imkanlarımız genişlənəcək. Çünki burada yetişdiriləcək məhsullar ixracyönümlü məhsullardır. Ölkəmizdə kənd təsərrüfatı ilə bağlı siyasətimiz uğurla icra ediləcəkdir. Kənd təsərrüfatına böyük diqqət göstərilir. Azərbaycanda kənd təsərrüfatı prioritet sahələrdən biridir. Bundan sonra biz bu siyasəti ancaq ən müasir texnologiyalar və elmi əsaslar üzərində aparacağıq.

Bu aqroparkın yaradılması məni çox sevindirir. Çünki bu gün biz siyasətimizin real nəticələrini görürük. Bu, bir daha göstərir ki, biz düşünülmüş siyasət aparırıq. İstər sənaye, istər kənd təsərrüfatı istehsalı, istərsə də infrastruktur layihələrinin icrası ilə bağlı işlər ən yüksək səviyyədədir. Bu yaxınlarda Davos Ümumdünya İqtisadi Forumu dünyada yol infrastrukturu ilə bağlı reytinqini açıqlamışdır. Bu reytinqə görə, Azərbaycan MDB məkanında yol infrastrukturu üzrə 1-ci, dünya miqyasında isə 36-cı yerdədir. Azərbaycanda nəinki yol infrastrukturu, bütün infrastruktur ən yüksək səviyyədədir, o cümlədən Goranboy rayonunda. Baxın, son illər ərzində nə qədər böyük işlər görülmüşdür. Goranboy rayonunda bir neçə yol layihəsi icra edilmişdir. Onlardan ikisi bu gün açılır. Bütövlükdə bu layihələrin icrası nəticəsində artıq rayon əhalisinin 60 faizi təmir edilmiş yollarla təmin edilir. Gələn il bir yol layihəsi icra ediləcək. O da 15 məntəqəni əhatə edəcək. Beləliklə, demək olar ki, Goranboy rayonunun əsas yol infrastrukturu tamamilə yenidən qurulacaqdır. Goranboy rayonunda elektrik xətləri çəkilib, elektrik təchizatı həll olunub, iki yarımstansiya inşa edilib, biz onlardan birini bu gün istifadəyə verəcəyik. Ev təsərrüfatlarının 95 faizi qazlaşdırılıb, içməli su təchizatı məsələsi hələ 4 il bundan əvvəl öz həllini tapıb. Mən sonuncu dəfə burada olarkən biz içməli su layihəsini istifadəyə verdik. Suvarma ilə bağlı işlər yüksək səviyyədədir. Bax, bu aqroparkda 4700 hektar torpaq suvarma suyu ilə təmin ediləcəkdir. Şəmkirçay su anbarının tikilməsi nəticəsində yaranmış o süni gölün potensialından istifadə edirik. Goranboy rayonunda əlavə 8 min hektar, eyni zamanda, Samux rayonunda bir neçə min hektar torpaq su ilə təmin ediləcəkdir. Yəni, Goranboy rayonunun timsalında görülən işlərin mahiyyəti və əhəmiyyəti budur. İnfrastruktur layihələri, sosial infrastrukturla bağlı layihələr demək olar ki, tam icra edilib. Goranboy rayonunda 40-dan çox məktəb təmir edilib və tikilibdir. Hazırda 130 çarpayılıq mərkəzi rayon xəstəxanasının tikintisi gedir, bu ilin sonuna qədər istifadəyə verilməlidir. Xalça fabriki tikilir, yenə də bu ilin sonuna qədər istifadəyə verilməlidir. Yəni, bütün bu işlər onu göstərir ki, ölkəmiz uğurla, inamla inkişaf edir. Bütün regionlar inkişaf edir. Regionların kompleks inkişaf konsepsiyası həyatda öz əksini tapır. İş yerləri, yerli istehsal yaradılır. Bir daha deyirəm ki, dünyanın bir nömrəli şirkətinin texnikası bu gün Goranboydadır, ölkəmizin hər bir yerindədir. Biz son illər ərzində kənd təsərrüfatı üçün minlərlə texnika almışıq və yenə də alacağıq. Bir daha demək istəyirəm ki, bu aqroparkın yaradılması bizim uğurlu siyasətimizin təzahürüdür, onun göstəricisidir. Mən bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm, sizə uğurlar arzulayıram. Sağ olun.

"Region Agropark"ın direktoru Sənan QƏDİMOV çıxış edərək dedi:

– Möhtərəm cənab Prezident, icazə verin, kollektivimiz adından Sizi salamlayım, xoş gəlmisiniz. Təqdimatına toplaşdığımız bu aqropark Sizin birbaşa dəstəyiniz, təşəbbüsünüz əsasında yaradılmışdır. Bozdağ massivində yerləşən bu torpaqlar uzun müddət istifadəsiz qalan yararsız torpaqlar idi. Burada heç zaman suvarma olmamışdır. Lakin Sizin birbaşa sərəncamınız və göstərişiniz əsasında bu ərazini – aqroparkı suvarma suyu ilə təmin etmək məqsədilə su xətləri çəkilmiş, iri tutuma malik su anbarları inşa edilmişdir. Bundan başqa, dövlətimizin investisiya dəstəyi ilə mühüm işlər icra olunmuş, yol, qaz, işıq xətləri çəkilmişdir. Aqroparkların yaradılması ideyası birbaşa Sizin təşəbbüsünüzlə, göstərişinizlə yerinə yetirilmişdir. Biz də 2 min hektar sahədə 24 ədəd müasir pivot suvarma sistemi quraşdırmışıq. İkinci mərhələdə isə 2700 hektar sahədə 31 pivot suvarma sisteminin quraşdırılması üçün layihə hazırlamışıq. Bundan əlavə, aqroparkın əməkdaşları, kənar mütəxəssislər və qonaqlarımız üçün 72 yerlik, tam infrastrukturla təmin edilmiş yataqxana tipli yaşayış kompleksi də yaradılmışdır.

Cənab Prezident, buğda biçininə başlamaq üçün Sizin xeyir-dua verməyinizi xahiş edirik.

Görüşdən sonra dövlətimizin başçısı aqroparkda ilk buğda biçini prosesini izlədi.

Qeyd edək ki, aqroparkın texnika ilə təchizatına xüsusi diqqət yetirilib. Belə ki, "Aqrolizinq" ASC-dən uzunmüddətli lizinq əsasında Amerika istehsalı olan 20 adda 41 "John Deere" və Türkiyə istehsalı olan müxtəlif kənd təsərrüfatı təyinatlı texnika və aqreqatlar alınaraq istehsal prosesinə cəlb edilib.

Xatırladaq ki, innovativ texnologiyaların tətbiqinə, yüksək məhsuldarlığın əldə olunmasına, ərzaq bolluğunun və yeni iş yerlərinin yaradılmasına imkan verən bu cür aqroparklar istehsal ediləcək məhsulların geniş çeşidi ilə diqqət çəkir və konkret olaraq bu aqroparkda ilkin hesablamalara görə ildə 600 milyon manatdan çox kənd təsərrüfatı məhsullarının istehsalı planlaşdırılır.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Goranboy rayonunda Dəliməmmədli-Muzdurlar-Qırıqlı avtomobil yolunun yenidənqurma və bərpadan sonra açılışını edib.

Regionların inkişafı Dövlət proqramlarına uyğun olaraq, son illərdə yol infrastrukturunun inkişafı istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər kənd yollarının yenidən qurulmasını da geniş əhatə edir. Avtomobil yollarının tikintisi və yenidən qurulması işlərinin həcminin ildən-ilə artması Azərbaycanda icra olunan sosial layihələrin davamlı xarakter aldığını aydın nümayiş etdirir. Hazırda respublikanın yol infrastruk-

turunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı irimiqyaslı layihələr uğurla icra olunur. Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə uyğun olaraq bu gün əsas diqqət kənd və qəsəbələri birləşdirən, həmçinin yaşayış məntəqələrinin daxili yollarının təmirinə və yenidən qurulmasına yönəldilib. Bu tədbirlər bir neçə mühüm məqamı özündə ehtiva edir. Belə layihələrdən biri də Dəliməmmədli-Muzdurlar-Qırıqlı avtomobil yolunun əsaslı şəkildə yenidən qurulmasıdır.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına yolun texniki göstəriciləri barədə məlumat verdi. Bildirildi ki, uzunluğu 20 kilometr olan yolun hərəkət hissəsinin eni 6 metr təşkil edir. Dördüncü texniki dərəcəli yol iki hərəkət zolağından ibarətdir. Hərəkət zolağının eni isə 3 metrə bərabərdir.

Dəliməmmədli-Muzdurlar-Qırıqlı avtomobil yolunun inşası Prezident İlham Əliyevin 2017-ci ildə imzaladığı Sərəncama əsasən aparılıb. Yolun yenidən qurulması işləri 2018-ci ilin may ayında yekunlaşıb. İnşaat işləri zamanı bütün texniki tələblərə tam riayət olunub. Layihə çərçivəsində 300 poqonmetr müxtəlif diametrli dəmir-beton suötürücü borular, zəruri yerlərdə minə yaxın yol nişanı və göstərici lövhə quraşdırılıb, 50 kilometr uzunluğunda yol cizgi xətləri çəkilib. Bu yol 15 min nəfər əhalinin yaşadığı 15 məntəqəni birləşdirir. Avtomobil yolunun tikintisi əhatə etdiyi yaşayış məntəqələrinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında mühüm rol oynayacaq. Bundan başqa, bu yolun inşası bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında mühüm rol oynayacaq.

Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Goranboy rayonunda hər biri 40 meqavolt amper gücündə olan iki transformatorun quraşdırıldığı 110/35/10 kilovoltluq 2x40 MVA gücündə "Dəliməmmədli" yarımstansiyasının açılışında iştirak edib.

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev dövlətimizin başçısına yarımstansiya barədə məlumat verdi. Bildirildi ki, bu yarımstansiyanın genişləndirilərək əsaslı şəkildə yenidən qurulması rayonun keyfiyyətli, dayanıqlı və fasiləsiz elektrik təchizatını tam formalaşdırmağa imkan verir. "Dəliməmmədli" yarımstansiyası vasitəsilə Dəliməmmədli şəhərinin və ətraf 21 yaşayış məntəqəsinin, o cümlədən 35 kilovoltluq "Azad" hava xətti üzərində olan 35/10 kilovoltluq "Azad" və 35/10 kilovoltluq "Alıuşağı" yarımstansiyalarının elektrik enerjisi ilə təchizatı həyata keçirilir. Yarımstansiyadakı 110 kilovoltluq açıq paylayıcı qurğu müasir tipli 7 eleqaz açarla təchiz edilib. Bununla yanaşı, yarımstansiyada 8 çıxış fideri olan 35 kilovoltluq müasir tipli qapalı paylayıcı qurğu, 33 çıxış fideri olan 4 giriş, 2 bölmədən ibarət 10 kilovoltluq müasir tipli qapalı paylayıcı qurğu quraşdırılıb. Yarımstansiya müasir standartlara cavab verən elektron tipli rele mühafizəsi və avtomatıka sistemləri ilə təchiz edilib və SCADA dispetçer sisteminə qoşulub. "Dəliməmmədli" yarımstansiyasında qısa qapanmaları məhdudlaşdırmaq üçün hər iki 40 MVA transformatorun 10 kilovoltluq tərəfində hər biri 2500 amperlik 6 reaktor qurğusu əlavə olunub. Yarımstansiya 110 kilovoltluq ikidövrəli "Gəncə-1" və 110 kilovoltluq "Gəncə-2" hava xətlərindən ikidövrəli budaqlanma yolu ilə qidalanaraq 35 kilovoltluq 2 hava xəttini enerji ilə təmin edir. Bundan başqa, 35 kilovoltluq "Kürəkçay" və "Azad", 10 kilovoltluq "Ağamalıoğlu", "Nizami", "Fəxralı", "Göynüyən", "Ferma", "Səmədabad", "Xoylu", "Baxçakürd", "Pambıq zavod", "IV Subartezian" və "Qazaxlar" hava xətləri də məhz "Dəliməmmədli" yarımstansiyasından çıxır. Bu yarımstansiyadan çıxan 10 kilovoltluq hava xətləri vasitəsilə 8 min abonentin elektrik enerjisi təchizatı təmin olunur.

Prezident İlham Əliyevə 40 meqavolt amper gücündə olan iki transformatorun quraşdırıldığı 110/35/10 kilovoltluq "Kürəkçay" yarımstansiyası barədə də məlumat verildi. Bildirildi ki, 1947-ci ildən istismarda olan bu yarımstansiya tamamilə yenidən qurulub. Goranboy şəhərindəki mühüm sosial və istehsalat obyektlərinin enerji ilə təminatını həyata keçirən "Kürəkçay" yarımstansiyasında 40 MVA gücündə iki transformator, 110 kilovoltluq 5 dəst müasir tipli eleqaz açar, müasir tipli İdarəetmə mərkəzi, 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular və 34 yuva quraşdırılıb. Ümumilikdə "Kürəkçay" yarımstansiyası vasitəsilə 20 min abonent - 100 mindən artıq əhali elektrik enerjisi ilə təchiz edilir.

Qeyd edək ki, ölkəmizin regionlarının elektrik təsərrüfatında silsilə və kompleks yenidənqurma tədbirlərinin ardıcıl icrası sakinlərin sosial məsələlərinin həlli istiqamətində görülən tədbirlərdən biridir. Bu tədbirlər, ilk növbədə, elektrik enerjisinə olan tələbatın ödənilməsinə, rayonların elektrik enerjisi ilə təchizatının əsaslı şəkildə yaxşılaşdırılmasına, elektrik şəbəkələrində yüklənmələrin azalmasına, texniki itkilərin minimuma endirilməsinə imkan yaradır. Hazırda bölgələrdəki energetika qurğuları həm müasir görünüşü, həm də texniki üstünlükləri ilə əvvəlkilərdən fərqlənir. Bu sahədə tətbiq olunan yeniliklər və energetika sahəsində həyata keçirilən layihələr bütövlükdə regionların sosial-iqtisadi inkişafına əsaslı töhfə verir. Aparılan yenidənqurma tədbirləri elektrik enerjisinə durmadan artan tələbatın qarşılanmasında da mühüm rol oynayır. Paylayıcı şəbəkələrin müasirləşdirilməsi gündən-günə sürətlənir və daha geniş ərazini əhatə edir. Ötən əsrin 60-cı illərindən istismarda olan və tamamilə yararsız vəziyyətə düşən elektrik təsərrüfatında hazırda, sözün əsl mənasında, inqilabi dəyişikliklər aparılır. Yeni qurğular təkcə rayon mərkəzləri və iri yaşayış məntəqələrinin deyil, eləcə də ətraf kəndlərin elektrik enerjisi ilə etibarlı təchizatında böyük rol oynayır. "Azərişıq" regionlarda sənaye və aqrar bölmənin, eləcə də turizmin köklü şəkildə inkişafı üçün nəzərdə tutulan tədbirlərin dolğun həyata keçirilməsinə hərtərəfli dəstək vermək üçün silsilə işlər görür.

İyunun 5-də Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsinin İpək yolu ilə kəsişmə qurğusunun və ondan sonrakı 4,95 kilometrlik hissəsinin açılışı olub.

Prezident İlham Əliyev açılışda iştirak edib.

Bu gün dünyada su ehtiyatlarının rolu və əhəmiyyəti getdikcə artır. Bu məsələ ərzaq təhlükəsizliyinin təmin edilməsində özünü daha qabarıq büruzə verir. Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə bu istiqamətdə çox mühüm layihələr icra olunub, böyük uğurlar qazanılıb. Bu gün Azərbaycanda bu sahədə mövcud problemləri həll etmək və qarşıda duran strateji məqsədə çatmaq üçün elmi əsaslara söykənən təhlil aparılaraq mühüm tədbirlər həyata keçirilir. Son illərdə ən böyük layihələrdən olan, strateji əhəmiyyəti və kapital qoyuluşu ilə seçilən Taxtakörpü və Şəmkirçay su anbarlarının tikintisi başa çatdırılıb. Bununla da minlərlə hektar torpaq sahəsinin suvarılmasına şərait yaranıb. Digər tərəfdən, bu, kənd təsərrüfatının inkişafına, yeni iş yerlərinin yaradılmasına imkan verib. Bütün bunlar sübut edir ki, ölkədə kənd təsərrüfatı istehsalının artırılmasında, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında böyük rolu olan mövcud meliorasiya və su təsərrüfatı fondlarının qorunub saxlanılması və onların istismarının yaxşılaşdırılması, bu sahənin müasir tələblər səviyyəsində daha da inkişaf etdirilməsi Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Məhz dövlətimizin başçısının diqqəti və qayğısı sayəsində bu cür mühüm strateji əhəmiyyət kəsb edən layihələr reallığa çevrilib. Şəmkirçay su anbarı və Şəmkir-Samux-Goranboy magistral suvarma kanalı kompleks layihəsi də bu baxımdan mühüm əhəmiyyətə malikdir.

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə dövlətimizin başçısına Şəmkirçay su anbarı və Şəmkir-Samux-Goranboy magistral suvarma kanalı kompleks layihəsi barədə məlumat verdi. Bildirildi ki, ötən əsrin 80-ci illərində inşa edilmiş bu suvarma kanalının birinci növbəsinin davamı olaraq uzunluğu 27,95 kilometr olan ikinci növbəsinin tikintisinə 2015-ci ildə başlanılıb. Bu kanalın tikintisi ilə su mənbəyi işğal zonasında qalmış Goranboy rayonunun 8293 hektarı yeni suvarılacaq torpaq olmaqla, ümumilikdə 26584 hektar torpaq sahəsi suvarma suyu ilə təmin ediləcək. Qeyd edək ki, Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsinin İpək yoluna qədər 8,55 kilometrlik birinci mərhələsinin tikintisi 2017-ci ildə başa çatdırılıb, Prezident İlham Əliyev Samux və Goranboy rayonlarının 941 hektarı yeni suvarılacaq torpaqlar olmaqla, 8938 hektar torpaq sahəsinə suvarma suyunun verilməsi mərasimində iştirak edib. Dövlətimizin başçısının həmin mərasimdə verdiyi tapşırıqların icrasına uyğun olaraq 2017-ci ildə Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsinin İpək yolu və ikinci dərəcəli avtomobil yolu ilə kəsişməsində keçid qurğularının, eləcə də kanalın tikintisi işləri davam etdirilib. Bu hissədə nəqliyyatın hərəkətinə maneçilik yaradılmaması üçün 450 metr uzunluğunda düzbucaqlı dəmirbeton suötürən qurğu, eləcə də uzunluğu 4,95 kilometr olan açıq dəmir-beton üzlüklü kanal inşa olunub. Bununla da, Goranboy rayonunda daha 8 min hektar sahəyə suvarma suyunun verilməsi təmin edilib.

Qeyd edək ki, Prezident İlham Əliyevin iştirakı ilə 2009-cu ildə Şəmkir su anbarının tikintisinin təməlqoyma və 2014-cü ildə açılış mərasimləri keçirilib. Su Elektrik Stansiyası ilə birlikdə Şəmkirçay su anbarının, ondan su götürən 60,5 kilometr uzunluğunda magistral kanalların istifadəyə verilməsi ilə Şəmkir, Samux, Göygöl və Goranboy rayonlarında 54 min hektar əkin sahələrinin su təminatının yaxşılaşdırılmasına, 17 min hektar yeni suvarılacaq torpaqların istifadəyə verilməsinə, ildə 56 milyon kilovat-saat elektrik enerjisinin istehsalına, Gəncə və Şəmkir şəhərlərinin, Samux rayonunun Nəbiağalı qəsəbəsinin əhalisinə ildə 50 milyon kubmetrə yaxın ekoloji təmiz içməli su verilməsinə imkan yaranıb.

Hazırda su anbarından Şəmkir şəhərinə içməli su verilir, Gəncə şəhərinə və Samux rayonunun Nəbiağalı qəsəbəsinə isə içməli su xətti hazır olduqdan sonra suyun verilməsi təmin ediləcək. Şəmkirçay su anbarı istifadəyə verildiyi vaxtdan bu il yanvarın 1-dək oraya yığılan 740 milyon kubmetr su hesabına Şəmkir, Samux, Göygöl və Goranboy rayonlarının 43 min hektara yaxın əkin sahələrinin su təminatı yaxşılaşdırılıb, Şəmkir, Goranboy və Göygöl rayonlarının 4940 hektar, eləcə də "Şəmkir Aqropark"ın 543 hektar yeni suvarılacaq sahələri suvarma suyu ilə təmin edilib.

Dövlətimizin başçısı qurğunu işə saldı.

Prezident İlham ƏLİYEV dedi:

– Uğurlar olsun. Bu gün biz belə gözəl layihəyə start veririk. Yaxşı iş görmüsünüz. Gözəl kanal çəkmisiniz. Kənd təsərrüfatının inkişafı üçün bunun çox böyük əhəmiyyəti var. Goranboy rayonunun gələcək inkişafı da kənd təsərrüfatı ilə bağlıdır. Ona görə, 8 min hektar əlavə torpağa su veriləcək. İndi mənə məruzə edildi ki, növbəti layihələr də var. Biz bu kanalı uzatmalıyıq. Goranboyda əlavə 10 min hektar, sonra daha 20 min hektar torpaqda suvarma işlərini təşkil edəcəyik. Ona görə, bu il, gələn il işlər çox olacaq. Hazır olun ki, belə gözəl işləri davam etdirək.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Goranboyda Bayraq Muzeyinin açılışında iştirak edib.

Dövlətimizin başçısı muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.

Bu gün, sözün əsl mənasında, xalqın və dövlətin maraqlarına uyğun hərtərəfli müstəqil siyasət həyata keçirən, sürətli və davamlı inkişaf yolu ilə uğurla addımlayan suveren Azərbaycanın üzərində əzəmətlə dalğalanan üçrəngli bayrağımız hər bir Azərbaycan vətəndaşının qəlbində qürur və fərəh hissi doğurur. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan üçrəngli, ay-ulduzlu bayrağımız bu gün müasir Azərbaycanın müstəqillik rəmzinə çevrilib. Dövlətimiz və xalqımız üçün bu tarixi məsələdə ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri olub. Məhz Ulu Öndərin xidmətləri sayəsində üçrəngli bayrağımız ilk dəfə Naxçıvan Muxtar Respublikasında dövlət bayrağı

kimi qəbul edilib. İndi Azərbaycan bayrağı dünyanın ən nüfuzlu beynəlxalq təşkilatları və mötəbər məclislərində qürurla dalğalanır.

Prezident İlham Əliyev dövlət atributlarımıza xüsusi ehtiramla yanaşır. Respublikamızın bölgələrində bayraq meydanlarının və muzeylərinin yaradılması bunun bariz nümunəsidir. Belə muzeylərin yaradılması dövlət atributlarına olan sonsuz sevgini nümayiş etdirməklə yanaşı, gənc nəslin Azərbaycan bayrağına hörmət ruhunda tərbiyə olunmasına mühüm töhfə verir.

Goranboy Bayraq Muzeyi Bayraq meydanının ərazisində yerləşir. Meydanda hündürlüyü 72 metr olan dövlət bayrağının postament hissəsi abadlaşdırılıb, ərazidə yaşıllaşdırma işləri aparılıb, işıq dirəkləri quraşdırılıb, fəvvarələr əsaslı təmir edilib. Bayraq Muzeyində sərgi zalı ilə yanaşı, inzibati və yardımçı otaqlar yaradılıb. Muzeyin sərgi zalında ümumilikdə 3 bölmə var. Burada Azərbaycan xanlıqlar dövrünün xəritəsi, orta əsrlərə aid döyüşçüləri əks etdirən manekenlər, orta əsr xanlıqlarının bayraqları, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar nümayiş olunur. Bundan başqa, muzeyin eksponatları arasında Azərbaycan Xalq Cümhuriyyəti dövrünə aid rəsmi sənədlər, Azərbaycan SSR dövründə və müstəqillik illərində qəbul olunmuş konstitusiyalar, habelə gerblər, bayraqlar, poçt markaları, orden və medallar sərgilənir.

Bu cür muzeylərin yaradılması Azərbaycan dövlətinin müstəqilliyini təcəssüm etdirən və hər bir vətəndaş üçün müqəddəs rəmzlərdən sayılan üçrəngli bayrağımıza olan hörmət və ehtiramın göstəricisidir. Belə muzeylərin yaradılmasi ilə bağlı icra olunan layihələrin bütün bölgələri əhatə etməsi isə yeniyetmə və gənclərimizdə yüksək vətənpərvərlik duyğuları aşılamaqla, üçrəngli bayrağımıza olan sevgini daha da artırır.

Prezident İlham Əliyev Naftalan Şəhər Mərkəzi Xəstəxanasının açılışında iştirak edib.

Dövlətimizin başçısı xəstəxana binasının rəmzi açılışını bildirən lenti kəsdi.

Səhiyyə naziri Oqtay Şirəliyev dövlətimizin başçısına bu tibb müəssisəsində yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, 60 çarpayılıq Naftalan Şəhər Mərkəzi Xəstəxanasının inşasına 2015-ci ildə başlanılıb və 2018-ci ilin mayında tikinti işləri başa çatdırılıb. Şəhər Mərkəzi Xəstəxanasının tikintisi Prezident İlham Əliyevin 2013-cü və 2018-ci illərdə imzaladığı sərəncamlara əsasən aparılıb. Xəstəxana 1,2 hektar ərazidə yerləşir. Tikintinin ümumi sahəsi 8 min kvadratmetrdən çoxdur. Xəstəxanada cərrahiyyə, doğum bloku, doğumdan sonrakı fizioloji və hamiləliyin patologiyası şöbələri yaradılıb. Bu müəssisənin laboratoriya şöbəsi ən müasir avadanlıqla təchiz olunub. Bu da laborator müayinələri yüksək keyfiyyət, dəqiqlik və qısa müddətə aparmağa imkan verir. Burada, eyni zamanda, şüa diaqnostika, qəbul, inzibati, poliklinika, reanimasiya, intensiv terapiya şöbələri fəaliyyət göstərəcək. Əməliyyat bloku da müasir tibbi avadanlıqla təmin edilib. Xəstəxananın bütün şöbələrində ən müasir tibb avadanlıqları quraşdırılıb.

Bu gün Azərbaycanda səhiyyənin inkişafına göstərilən dövlət qayğısının nəticəsidir ki, indi respublikamızın bütün bölgələrində müasir səviyyədə tibb ocaqları yaradılıb. Son illərdə səhiyyə sisteminin təkmilləşdirilməsi və inkişafı ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətində əsas yerlərdən birini tutur. Ən mühüm məqamlardan biri odur ki, Azərbaycan vətəndaşlarının hərtərəfli tibbi xidmətlə təmin edilməsi, onların müalicə və müayinə işinin yüksək səviyyədə təşkili, gələcəyimiz olan uşaqların sağlam yetişməsi istiqamətində icra edilən layihələr dövlətimizin başçısının daim diqqət mərkəzindədir. Dövlətimiz tərəfindən vətəndaşların məhz ölkəmizdə yüksək səviyyəli tibbi xidmətlərdən yararlanmaları ilə bağlı çox mühüm işlər görülür. Naftalan Şəhər Mərkəzi Xəstəxanası kimi müasir tibb müəssisəsinin istifadəyə verilməsi yalnız şəhər sakinlərinə deyil, eyni zamanda, regionun sakinlərinə hərtərəfli tibbi xidmət göstərməyə imkan verəcək. Bu cür layihələrin icrası zamanı səhiyyə müəssisələrinin dünyanın aparıcı şirkətlərinin müasir tibbi avadanlığı ilə təchiz edilməsi isə xüsusilə vacibdir. Xəstəxanada əsas korpus, keçid məntəqəsi, transformator yarımstansiyası, qazanxana və nasosxana binaları, oksigen stansiyası, dizel generator meydançası və stansiyası yaradılıb.

Xəstəxana binası ilə tanışlıqdan sonra Prezident İlham Əliyev səhiyyə müəssisəsinin kollektivi ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

– Sizi salamlayıram. Naftalan Şəhər Xəstəxanasının açılışı münasibətilə sizi təbrik edirəm. Çox gözəl xəstəxanadır. İndi xəstəxana ilə tanış oldum. Görürəm ki, bütün işlər yüksək səviyyədə təşkil edilib. Şadam ki, bu xəstəxana istifadəyə verilir. Bu xəstəxananın tikintisi mənim təşəbbüsümlə həyata keçirildi. Naftalan şəhərinin müasir tibb ocağı olmalı idi və şadam ki, biz buna nail olduq. Həm xarici görünüşü, həm də daxili tərtibatı gözəldir və əlbəttə ki, şərait də yaxşıdır. Bütün lazımi avadanlıqlar var, ən yüksək standartlar tətbiq olunur, ölkəmizin hər bir yerində belə gözəl xəstəxanalar tikilir. Burada yüksək tibbi xidmət göstərmək üçün bütün şərait yaradılıb. On iki şöbə var. Demək olar ki, bütün şöbələr fəaliyyət göstərəcək. Həm şəhər sakinlərinə, həm də Naftalana gələn qonaqlara yüksək xidmət göstəriləcəkdir.

Bu xəstəxananın tikintisi son illər ərzində səhiyyə sahəsinə ayrılan diqqətin və qoyulan vəsaitin təzahürüdür. Səhiyyə sisteminin möhkəmləndirilməsi sahəsində çox böyük işlər görülüb. Son 15 ildə 600-dan çox tibb müəssisəsi yaradılıb, yenidən tikilib və ya əsaslı təmir olunub. Biz demək olar ki, ölkəmizin hər bir yerində müasir tibb mərkəzlərinin yaradılmasına nail olduq.

Bu ilin Dövlət İnvestisiya Proqramında 6 şəhər xəstəxanasının açılışı nəzərdə tutulur. Onların sırasında birinci Naftalan xəstəxanasıdır. Ümid edirəm ki, ilin

sonuna qədər digər beş şəhərdə də xəstəxanaların açılışı təmin ediləcək. Beləliklə, Azərbaycanın bütün şəhərlərində ən müasir tibb mərkəzləri yaradılmış olur. Bu, bir neçə il bundan əvvəl qarşımıza qoyduğumuz məsələlərdən biri idi. Biz bu məqsədə çatmaq üçün ardıcıllıqla böyük işlər görürük.

Əlbəttə ki, bunlar böyük maliyyə vəsaiti tələb edən layihələrdir. Azərbaycan dövləti iqtisadi cəhətdən kifayət qədər güclüdür və gücümüz artır. Sosial məsələlər bizim siyasətimizin əsas prioritetidir. Ona görə imkanımız da, siyasi iradəmiz də, texniki imkanlarımız var. Bütün səhiyyə sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində böyük işlər görülübdür.

Azərbaycanda tibbi xidmətin səviyyəsi artır. Mənim təşəbbüsümlə bir neçə il ərzində artıq kütləvi müayinədənkeçmə proqramı həyata keçirilir. Mən əvvəlki illərdə bu məsələ ilə bağlı fikirlərimi dəfələrlə bildirmişdim, demişdim ki, hər bir vətəndaş ildə heç olmasa bir dəfə gərək tibbi müayinədən keçsin. İndi bunu etmək üçün hər bir rayonda bütün imkanlar var. Dövlət öz dəstəyini göstərərək bu işləri təşkil edir. Bu il keçən ildəki kimi, 5 milyondan çox Azərbaycan vətəndaşı bu imkandan istifadə edib. Müayinə zamanı vətəndaşlarda aşkar olunan xəstəliklər sonra ixtisaslaşmış mərkəzlərdə müalicə edilir.

İcbari tibbi sığorta sisteminin tətbiqinə başlanmışdır. Artıq iki şəhərdə bu sistem mövcuddur və biz bu sistemin üstünlüklərini görürük. Biz səhiyyə sistemimizi tədricən bu istiqamətdə inkişaf etdirəcəyik. Biz növbəti illərdə yeni şəhərləri bu sistemlə əhatə edəcəyik.

İnsan sağlamlığı ən vacib məsələlərdən biridir. Azərbaycanda insan sağlamlığını təmin etmək, sağlamlığı qorumaq, profilaktik tədbirlər görmək üçün kompleks işlər aparılır. Bundan sonra da bu işlərin görülməsi üçün yaxşı şərait var, o cümlədən Naftalan şəhərində. Xəstəxana, eyni zamanda, həkimlərin iş yeridir. Hesab edirəm ki, hər bir həkim, hər bir tibb işçisi üçün belə şəraitdə işləmək xüsusi zövq verir.

Naftalan şəhərinin ümumi inkişafı sürətlə gedir. Mən Prezident kimi Naftalan şəhərinə ilk dəfə olaraq on il bundan əvvəl gəlmişdim. O vaxt gördüyüm mənzərə, sözün düzü, məni çox narahat etdi, çox məyus etdi. Çünki şəhər çox ağır vəziyyətdə idi. Siz bunu yaxşı bilirsiniz. O vaxt infrastruktur layihələri ilə bağlı böyük problemlər var idi, elektrik enerjisi fasilələrlə verilirdi, təbii qaz, içməli su yox idi, yaşayış binaları bərbad, yollar dağılmış vəziyyətdə idi, sovet vaxtında tikilmiş sanatoriyalarda ağır vəziyyətdə məcburi köçkünlər yerləşmişdi. Vaxtilə Sovet İttifaqının turizm mərkəzlərindən biri olan Naftalan bu adı demək olar ki, itirmişdi. Nəinki başqa ölkələrdən, hətta Azərbaycanın heç bir yerindən buraya gələn yox idi. Ona görə mən dərhal kompleks tədbirlərin görülməsi üçün müvafiq tapşırıqlar verdim. Naftalanın hərtərəfli inkişaf planı hazırlandı və mən bu planı təsdiqlədim. Bu gün biz aparılan bu işlərin real nəticələrini görürük. İlk növbədə, biz ağır vəziyyətdə, yarıdağılmış sanatoriyalarda məskunlaşmış köçkünləri gərək yeni evlərə köçürəydik, bunu etdik. Bütün məcburi köçkünlər onlar üçün xüsusi tikilmiş, böyük maliyyə vəsaiti hesabına ərsəyə gələn yeni evlərə köçürüldü və Naftalan şəhərində köçkünlər problemi artıq həll olunub.

İnfrastruktur layihələri icra edilməyə başlandı. Elektrik enerjisi ilə təchizat təmin edildi. Bu gün bu məsələ ilə bağlı heç bir problem yoxdur. Təbii qaz indi Naftalanda yüz faiz təmin edilir. Əhalinin yüz faizi təbii qaza malikdir. Naftalanda içməli su layihəsi beş il bundan əvvəl mənim iştirakımla istismara verilmişdir. Yollar salındı, digər infrastruktur layihələri icra edildi, məktəblər əsaslı şəkildə təmir olundu. Yəni, Naftalanda infrastruktur layihələri ilə bağlı olan bütün məsələlər kompleks şəkildə öz həlli tapdı. O cümlədən şəhərin abadlaşdırılması işlərinə vəsait ayrıldı, parklar salındı, icra hakimiyyətinin yeni binası, Heydər Əliyev Mərkəzi tikildi və Naftalanın əvvəlki şöhrəti özünə qaytarıldı.

Bu, işin birinci mərhələsi idi. Bu layihələr həyata keçirilmədən hər hansı bir inkişafdan söhbət gedə bilməzdi. Bununla paralel olaraq, biz Naftalanı müasir turizm mərkəzinə çevirmək üçün konkret addımlar atmağa başlamışıq. Mənim iştirakımla 3 böyük sanatoriya, – indi onlar mehmanxana sayılırlar, - yenidən tikildi, əsaslı şəkildə təmir edildi və istifadəyə verildi. Birinci "Çinar" sanatoriyası, ondan sonra "Qaşaltı", ondan sonra isə "Qarabağ". Bu 3 sanatoriya-mehmanxanada mindən çox otaq var. Burada həm ən yüksək səviyyədə müalicə işləri aparılır, həm də ki, vətəndaşlar və qonaqlar istirahət edirlər. Yaxın gələcəkdə yeni mehmanxananın açılışı gözlənilir. Mənə indi bu barədə məlumat verildi. O qədər də böyük olmayan digər mərkəzlər, istirahət zonaları yaradılır. Beləliklə, Naftalan nəinki ölkəmizin, dünyanın nadir turizm mərkəzlərindən birinə çevrilir.

Mənə verilən məlumata görə, keçən il Naftalana 62 ölkədən 35 min qonaq gəlmişdir. Baxın, on il bundan əvvəl, ümumiyyətlə, gələn qonaqlardan söhbət belə getmirdi. Ancaq ötən il 35 min qonaq gəlib. Mən hesab edirəm ki, bu, hələ başlanğıcdır. Çünki məndə olan məlumata görə, sovet vaxtında Naftalana ildə 70 min qonaq gəlirdi. Hesab edirəm ki, bu gün Azərbaycanda turizmin çox sürətlə inkişaf etdiyini nəzərə alsaq, biz bu hədəfə çata bilərik. Turistlərin sayı 2016-cı ildə 22 faiz, 2017-ci ildə 20 faiz, bu ilin 5 ayında isə 10 faiz artıb. Azərbaycan indi dünya miqyasında gözəl turizm mərkəzi kimi tanınır. O cümlədən müalicəvi turizmin inkişafı üçün bizdə bütün imkanlar var, həm Naftalanda, həm digər şəhərlərdə. Belə şəraiti olan şəhərdə əlbəttə ki, qonaqların sayı artmalıdır.

Son 10 il ərzində Naftalanda görülən işlər ümumi inkişaf dinamikamızı göstərir. Onu göstərir ki, güclü siyasi iradə olan yerdə, düşünülmüş siyasət aparılan ölkədə uğurlar da, nəticələr də, qələbələr də olacaq, insanlar daha yaxşı yaşayacaqlar. Naftalanda iş yerlərinin yaradılması son illər ərzində çox sürətlə gedib. Burada yaşayan vətəndaşların böyük əksəriyyəti xidmət sektorunda işləyir, yaxşı məvacib alır və ölkəmizin inkişafına öz dəyərli töhfəsini verir. Əminəm ki, bundan

sonra Naftalanda işlər yaxşı gedəcək və şəhərin inkişafı uğurla davam etdiriləcək.

Sizi bir daha bu gözəl hadisə münasibətilə təbrik edirəm.

Naftalan Şəhər Mərkəzi Xəstəxanasının həkimi Tünzalə SƏFƏROVA çıxış edərək dedi :

– Möhtərəm cənab Prezident, Sizi səhiyyə işçiləri adından salamlayıram, Naftalana xoş gəlmisiniz. Bu gün bizim üçün çox əlamətdar bir gündür. Sizin tapşırığınızla şəhərimizdə inşa edilmiş bu yeni xəstəxana binasını istifadəyə verirsiniz. Ən müasir tibbi avadanlıqlarla təchiz olunmuş bu xəstəxana əhalimizin sağlamlığının qorunmasına və onların daha yaxşı tibbi xidmət almalarına böyük kömək göstərəcək. Bu gün elə bir bölgəmiz yoxdur ki, orada yeni-yeni səhiyyə obyektləri tikilməsin və ya istifadəyə verilməsin. Bu səhiyyə obyektlərinin tikilməsinə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Siz bütün siyasətinizlə ümumbəşəri dəyərlərə sadiq qaldığınızı bir daha nümayiş etdirirsiniz. Açılışında iştirak etdiyiniz bu yeni tibb müəssisəsi də vətəndaşlarımızın sağlamlığının qorunmasına və onların daha yaxşı tibbi xidmət almalarına böyük kömək göstərəcək. Sizin tapşırığınızla hər il icra etdiyimiz vətəndaşların ödənişsiz tibbi müayinəsi bu geniş səhiyyə ocağında daha yaxşı və mütəşəkkil şəkildə həyata keçiriləcək. Gördüyünüz bütün bu işlərə görə xalqımız məhz Sizə - öz Prezidentinə bir daha inanır və dərindən rəğbət bəsləyir. Bütün bu işlərə görə Sizə və Sizin ən yaxın silahdaşınız olan Mehriban xanıma dərin minnətdarlığımızı bildiririk. Fürsətdən istifadə edərək, salamlarımızı hörmətli Mehriban xanıma çatdırmağınızı xahiş edirik. Sağ olun, var olun. Allah Sizi və ailənizi qorusun.

Sonda xatirə şəkli çəkdirildi.

Türkiyə Respublikasına səfər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev TANAP layihəsinin açılış mərasimində iştirak etmək üçün iyunun 12-də Türkiyə Respublikasında səfərdə olub.

İyunun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Əskişəhər şəhərində Ukrayna Prezidenti Petro Poroşenko ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Ukrayna arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə inkişafından məmnunluq ifadə olundu, nəqliyyat sahəsində əməkdaşlığın yaxşı nəticələr verdiyi bildirildi.

Söhbət zamanı TANAP layihəsinin əhəmiyyəti vurğulandı, bu layihənin beynəlxalq əməkdaşlığa verdiyi töhfədən danışıldı.

Görüşdə ötən il iki ölkə arasında ticarət dövriyyəsinin 2,5 dəfə, Azərbaycandan Ukraynaya ixracın isə 8 dəfə artdığı bildirildi. Həmçinin Ukraynadan gələn və Azərbaycan ərazisindən keçən tranzit yüklərin həcminin 2 dəfə artdığı qeyd edildi.

Görüşdə energetika sahəsində əməkdaşlığın dərinləşdiyi vurğulandı, SOCAR-la əlaqələrin genişləndiyi və Ukraynada SOCAR-ın yanacaqdoldurma məntəqələrinin sayının artdığı qeyd edildi.

Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyunun 12-də Əskişəhərdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Azərbaycan ilə Türkiyənin birgə həyata keçirdiyi mühüm qlobal layihələrin, o cümlədən TANAP layihəsinin əhəmiyyəti vurğulandı.

Söhbət zamanı enerji sahəsində geniş əməkdaşlığın həyata keçirildiyi qeyd olundu. Dövlət başçıları əminliklərini bildirdilər ki, əlaqələrimiz bun-dan sonra da bütün sahələrdə daim möhkəmlənəcək və genişlənəcək.

Görüşdə ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

İyunun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Əskişəhər şəhərində BP şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşüb.

Görüşdə TANAP layihəsinin açılışının əhəmiyyəti vurğulandı, BP-SOCAR əməkdaşlığının uğurla həyata keçirildiyi qeyd edildi.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

İyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

TANAP qaz kəmərinin istifadəyə verilməsi mərasimi bu möhtəşəm layihə haqqında videoçarxın nümayişi ilə başladı.

Mərasimin əvvəlində SOCAR-ın prezidenti Rövnəq Abdullayev və Türkiyənin enerji və təbii sərvətlər naziri Berat Albayrak çıxış etdilər.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

– Əziz qardaşım, hörmətli Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan.

Hörmətli prezidentlər.

Xanımlar və cənablar.

İlk növbədə, qardaş Türkiyə torpağında yenidən olmağımdan məmnunluğumu ifadə etmək istərdim. Biz Azərbaycanda Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə əldə edilmiş uğurlara çox sevinirik. Prezident Ərdoğanın yorulmaz fəaliyyəti

nəticəsində Türkiyə dünya çapında böyük gücə çevrildi. Türkiyə o ölkədir ki, dünya gündəliyini müəyyən edir. Biz Azərbaycanda buna sevinirik. Türkiyənin gücü bizim gücümüzdür və bizim gücümüz birliyimizdədir. Biz uzun illərdir ki, bu birliyi nümayiş etdiririk. Bu gün dünyada bir-birinə bu qədər yaxın olan, bir-birini bu qədər dəstəkləyən ikinci ölkələr tapmaq çox çətindir. Türkiyə-Azərbaycan birliyi, qardaşlığı həm ölkələrimiz üçün, həm xalqlarımız üçün, bölgəmiz üçün, Avrasiya üçün önəmli amildir.

Bu gün TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür. TANAP Türkiyə ilə Azərbaycanın növbəti zəfəridir. TANAP tarixi layihədir. Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq. Bu tarix işbirliyi tarixidir, bu tarix sabitlik tarixidir. Enerji layihələrimiz bölgəmizə sabitlik gətirir. Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda görür, xalqlar fayda görür. TANAP kimi nəhəng layihənin həyata keçirilməsi Türkiyə-Azərbaycan liderlərinin birgə güclü siyasi iradəsi nəticəsində mümkün olmuşdur.

Bu, birgə həyata keçirdiyimiz birinci layihə deyil. Biz bundan əvvəl – 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılışını qeyd etdik. 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin açılışını birlikdə etdik. Keçən il Bakı-Tbilisi-Qars dəmir yolunun açılışını birlikdə etdik. Bütün bu açılış mərasimlərində əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla birlikdə iştirak etmişik. Bu gün bu tarixi gündə də biz birlikdəyik. Bu, onu göstərir ki, bizim təşəbbüsümüzlə irəli sürülən istənilən layihə həyatda öz əksini tapır. Çünki bunun arxasında düşünülmüş siyasət, güclü iradə və bizim qardaşlığımız dayanır.

Azərbaycan qazının Avropa qitəsinə böyük həcmdə ötürülməsi haqqında son illər ərzində bir çox müzakirələr aparılmış və bir çox tədbirlər keçirilmişdir. Ancaq əfsuslar olsun ki, onların heç bir nəticəsi olmamışdır. Belə olan halda Türkiyə və Azərbaycan qərara gəldilər ki, biz özümüz yeni bir layihəni irəli sürək və bunun adını da biz birlikdə qoyduq - TANAP. TANAP üzrə anlaşmanı 2012-ci ildə İstanbul şəhərində Rəcəb Tayyib Ərdoğan və mən imzaladıq. O gün həmin imzalanma mərasimində biz bugünkü günü görmək arzumuzu ifadə etdik və Allah bizə bunu nəsib etdi. Biz bu illər ərzində böyük işlər gördük. TANAP layihəsinin icrası həm texniki, həm maliyyə cəhətdən çox mürəkkəb bir işdir. Ancaq bunu biz çox böyük müvəffəqiyyətlə icra etdik. Bu gün TANAP-ın istismara verilməsi qonşu və dost ölkələr üçün gözəl imkanlar yaradır. TANAP yeddi ölkəni, bir çox şirkətləri birləşdirir. Cənub Qaz Dəhlizinin ayrılmaz hissəsi olan TANAP bu gün və gələcəkdə enerji təhlükəsizliyi məsələlərinin həlli üçün əvəzolunmaz infrastruktur layihəsidir. Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi iki həftə bundan öncə - mayın 29-da Bakıda təşkil edilmişdir. Cənub Qaz Dəhlizi dörd böyük layihədən ibarətdir. "Şahdəniz-2" qaz yatağının işlənilməsi, - o yatağın ehtiyatları 1,2 trilyon kubmetrdir, - Cənubi Qafqaz Kəməri, TANAP və TAP layihəsi. Bu dörd layihənin üçü artıq reallaşıb, başa çatıb. TAP da 72 faiz icra olunub. Əminəm ki, yaxın iki il ərzində TAP layihəsi də tamamlanacaq və beləliklə, Avropanın 40 milyard dollar sərmayə tələb edən ən böyük infrastruktur layihəsi olan "Cənub Qaz Dəhlizi" icra edilmiş olacaqdır. Bu tarixi nailiyyət bizə imkan verəcək ki, Azərbaycanın zəngin qaz ehtiyatları Türkiyə və Avropa bazarlarına qısa və təhlükəsiz yolla, şaxələndirilmiş formada çatdırılsın.

"Cənub Qaz Dəhlizi" enerji təhlükəsizliyi layihəsidir. Enerji təhlükəsizliyi isə hər bir ölkənin milli təhlükəsizliyi məsələsidir. Cənub Qaz Dəhlizinin önəmi məhz bundadır - enerji təhlükəsizliyi və enerji resurslarının şaxələndirilməsi. Cənub Qaz Dəhlizi vasitəsilə Azərbaycan qazı yeni yollarla Türkiyəyə və Avropa bazarlarına çıxarılacaqdır. "Cənub Qaz Dəhlizi" həm yeni yollar, həm də yeni mənbə layihəsidir. Bu, sözün əsl mənasında, enerji şaxələndirilməsi məsələsinə xidmət göstərir.

Bu böyük işlərin icrasında SOCAR, BOTAŞ və BP şirkətləri iştirak ediblər, onlar TANAP-ın səhmdarlarıdır. Mən onlara öz təşəkkürümü bildirmək istəyirəm. Bu işlərdə iştirak etmiş bütün şirkətlərə təşəkkürümü bildirmək istəyirəm ki, onlar bu böyük işi yüksək keyfiyyətlə və qısa müddət ərzində görə bildilər. Cənub Qaz Dəhlizi Avrasiyada yeni əməkdaşlıq, işbirliyi formatını təşkil edir. Əgər işimizin əvvəlində – 2000-ci illərin əvvəllərində Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli əməkdaşlıq formatı yaranmışdırsa, bu gün qeyd etdiyim kimi, yeddi ölkə bu layihədə iştirak edir. Daha üç ölkə bizim gələcək tərəfdaşlarımız kimi bu layihədə iştirak edəcək. Biz çalışmalıyıq ki, Azərbaycan qazının Avropa qitəsinə çatdırılması istiqamətində daha böyük işlər görək və bizim əhatə dairəmiz daha geniş olsun.

Bir daha demək istəyirəm ki, bu gün tarixi bir gündür. Bu günün mümkünlüyü ancaq və ancaq güclü siyasi iradə nəticəsində olmuşdur. Türkiyə-Azərbaycan birliyi, qardaşlığı olmasaydı, bu layihə kağız üzərində qala bilərdi. Əlbəttə, bir daha demək istəyirəm, Türkiyənin xarici sərmayə üçün çox gözəl ölkə kimi özünü təqdim etməsi imkan verdi ki, Türkiyəyə böyük yatırımlar qoyulsun. Son illər ərzində təkcə Azərbaycan tərəfindən Türkiyə iqtisadiyyatına 13 milyard dollardan çox sərmayə qoyulubdur, növbəti illərdə bu rəqəm 20 milyard dollara çatacaqdır.

Bu gözəl hadisə münasibətilə sizi, xalqlarımızı, bizim bütün dostlarımızı ürəkdən təbrik etmək istəyirəm, TANAP-a yaxşı yol arzulayıram. Sağ olun.

Daha sonra Şimali Kipr xalqının lideri Mustafa Akıncı, Serbiya Prezidenti Aleksandr Vuçic, Ukrayna Prezidenti Petro Poroşenko və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdilər.

Sonra TANAP kəmərinə qazın verilməsi mərasimi oldu.

Sonda birgə foto çəkdirildi.

Rusiya Federasiyasına işgüzar səfər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Rusiya Federasiyasına işgüzar səfərə gəlib.

İyunun 13-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olub.

Dövlət başçıları görüşdə çıxış ediblər.

Rusiya Prezidenti Vladimir PUTİN dövlətimizin başçısını salamlayaraq dedi:

-Hörmətli İlham Heydər oğlu, Sizi görməyimə çox şadam. Xoş gəlmisiniz.

Ümidvaram ki, Moskvada vaxtınızı səmərəli və maraqlı keçirəcəksiniz. Ona görə maraqlı keçirəcəksiniz ki, oyun gözəl olacaq. Ona görə səmərəli keçirəcəksiniz ki, çoxsaylı ölkələrdən çoxlu həmkarlarımız gəlib, hamı ilə söhbət etmək, görüşmək, kiminləsə tanış olmaq imkanı var. MDB üzrə ən yaxın həmkarlarımızla cari məsələlər barəsində informasiya mübadiləsi aparmaq da mümkün olacaq.

Bizim ikitərəfli münasibətlərimizə gəldikdə isə, avqustun 30-da Sizin Rusiyaya səfərinizin gedişində həmin münasibətləri hərtərəfli və dərindən müzakirə edəcək, bununla məşğul olacağıq. O vaxta qədər isə həmkarlarımız işləyəcək və Sizin Rusiyaya səfərinizi hazırlayacaqlar.

Lakin artıq indidən demək olar ki, bizim münasibətlərimiz inkişaf edir, özü də çox uğurla inkişaf edir. Ötən il ərzində bizdə əmtəə dövriyyəsinin artımı 34,4 faiz, bu ilin birinci rübü ərzində isə daha 19 faizə yaxın olub. Yəni, bu, çox yaxşı artım tempidir və biz bunu dəstəkləməliyik.

Siyasi məsələlərə gəlincə, burada da vəziyyət sabitdir. Parlamentlərin, ictimai təşkilatların xətti ilə daim əlaqə saxlanılır, humanitar əlaqələr inkişaf edir.

Sizi görməyimə çox şadam. Xoş gəlmisiniz!

Azərbaycan Prezidenti İlham ƏLİYEV dedi:

– Sağ olun, hörmətli Vladimir Vladimiroviç. İlk növbədə, Sizi ötən dövlət bayramınız - dünən qeyd olunmuş Rusiya Günü münasibətilə təbrik etmək istərdim. Futbol üzrə dünya çempionatına hazırlığın uğurla başa çatması münasibətilə də təbrik etmək istəyirəm. Bu, dünyanın əsas idman hadisəsidir. Əminəm ki, çempionatın özü də çox uğurla keçəcək, bütün qonaqlar razı qalacaqlar.

Bizim münasibətlərimizə gəldikdə, mən də onların inkişafından məmnun olduğumu bildirmək istərdim. Avqustun sonunda Rusiyaya səfərə dəvətinizə görə təşəkkür etmək istərdim. Lakin bu gün də bizim kifayət qədər geniş gündəliyimizdəki cari məsələlərə dair fikir mübadiləsi aparmaq üçün yaxşı imkan var.

Düşünürəm ki, bizim daimi xarakter daşıyan müntəzəm əlaqələrimiz münasibətlərimizə böyük təkan verir. Biz bunun yaxşı nəticələrini görürük. Bizim qarşılıqlı siyasi fəaliyyətimiz çox yüksək səviyyədədir. Biz etibarlı dostlar və tərəfdaşlar, strateji tərəfdaşlarıq. Siz qeyd etdiyiniz kimi, iqtisadi sahədə dinamika ötən il də, bu il də çox müsbətdir. İqtisadi əməkdaşlığın genişləndirilməsinə dair planlar var. Biz "Şimal-Cənub" layihəsinin həyata keçirilməsinin artıq konkret nəticələrini görürük. Artıq Azərbaycan vasitəsilə Rusiyadan yükdaşımalar artır, bu da bizim fəaliyyətimizin müsbət nəticəsidir. Hesab edirəm ki, bütün sahələrdə, humanitar sahədə bizim münasibətlərimiz, ümumiyyətlə, nümunəvidir. Belə ki, yaxşı dinamikaya, yaxşı nəticələrə nail olduğumuza görə şadam və gələcəyə, əlaqələrimizin möhkəmlənməsinə ümidlə baxırıq.

Dəvətinizə görə bir daha sağ olun.

İyunun 14-də Moskvadakı "Lujniki" stadionunda futbol üzrə növbəti dünya çempionatının təntənəli açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva mərasimdə iştirak ediblər.

Qeyd edək ki, iyirmiyə yaxın ölkənin dövlət və hökumət başçılarının da qatıldığı açılış mərasiminin proqramı zənginliyi və əvvəlki dünya çempionatlarının açılış mərasimlərinin proqramlarından fərqli formatı ilə əsaslı şəkildə seçildi. Budəfəki tədbir daha qısa vaxt ərzində və yığcam oldu, məşq ərəfəsində deyil, birbaşa Rusiya-Səudiyyə Ərəbistanı matçından əvvəl keçirildi.

Britaniyalı müğənni Robbi Uilyamsın və Vyana Operasının solisti, tanınmış opera müğənnisi Aida Qarifullinanın ifası mundialın açılış mərasiminə əlavə əzəmət qatdı.

Açılış mərasiminin prodüseri Rusiyanın Birinci kanalıdır. Bu əzəmətli şounun konsepsiyasının müəllifi isə rejissor Feliks Mixaylovdur. Bu işdə ona İlya Averbux da kömək göstərib. İkiqat dünya çempionu, braziliyalı futbolçu Ronaldo da açılış mərasiminə qatılıb.

Dünya çempionatına ev sahibliyi edən Rusiya Federasiyasının Prezidenti Vladimir Putin mərasimdə çıxış etdi.

Rusiya dövlətinin başçısı bütün qonaqları Moskvanın əfsanəvi "Lujniki" stadionunda salamlayaraq, dünyanın mehriban futbol ailəsini çempionatın açılışı münasibətilə təbrik etdi. Bu möhtəşəm idman hadisəsinin ilk dəfədir ki, Rusiyada keçirildiyini deyən Vladimir Putin ölkəsində bu idman növünə xüsusi sevginin bəslənildiyini də əlavə etdi. O, bu idman bayramını Rusiyada qəbul etmək üçün dünya çempionatına məsuliyyətlə hazırlaşdıqlarını bildirdi. "Harada yaşamağımızdan, hansı ənənələrə riayət etdiyimizdən asılı olmayaraq bizim hamımızı bu parlaq idman növü - futbola sevgi birləşdirir. Futbolun gücünün əsasını humanizm təşkil edir. Çünki bu, birlikdir", - deyən Rusiya Prezidenti bu birliyi gələcək nəsillər üçün qoruyub saxlamağın vacibliyini vurğuladı.

FIFA-nın prezidenti Canni İnfantino da çıxışında Rusiyada başlayan futbol üzrə dünya çempionatının idmanın bu növünün həvəskarlarına maraqlı anlar yaşadacağını söylədi.

Otuz iki ölkənin yığma komandalarının mübarizə apardığı budəfəki futbol üzrə dünya çempionatı iyunun 14-dən iyulun 15-dək davam edəcək. Çempionat Rusiyanın 11 şəhərinin 12 stadionunda keçiriləcək.

Xatırladaq ki, açılış mərasimini "Lujniki" stadionunda 80 min, televiziya ilə birbaşa yayımla isə təqribən 1 milyard nəfərə qədər tamaşaçı izləyib.

Rusiyada təşkil olunan futbol üzrə növbəti dünya çempionatı meydan sahiblərinin oyunu ilə başladı.

Açılış mərasimindən dərhal sonra "A" qrupunda mübarizə aparan Rusiya və Səudiyyə Ərəbistanının yığma komandalarının görüşü oldu.

FIFA dünya kubokunun ilk matçı olduğundan bütün diqqətlərin yönəldiyi qarşılaşma Bakı vaxtı ilə saat 19-da start götürdü.

Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Rusiya Prezidenti Vladimir Putin və digər dövlət və hökumət başçıları həmin görüşü izləyirlər.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQLƏRİ, ÇIXIŞLARI VƏ MÜSAHİBƏLƏRİ

Qoşulmama Hərəkatının nazirlər konfransının açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Təşəkkür edirəm cənab sədr.

Xanımlar və cənablar, hörmətli qonaqlar.

Mən Qoşulmama Hərəkatının nazirlər konfransının iştirakçılarını salamlayıram və bu mühüm tədbirə ev sahibliyi etməyimizə icazə verdiyinə görə təşkilata təşəkkürümü bildirmək istəyirəm.

Yarım əsrdən çoxdur ki, Qoşulmama Hərəkatı bəşəri dəyərlərin təbliği ilə məşğuldur. Dünyanın ən böyük təşkilatlarından olan Qoşulmama Hərəkatı dünyada sabitlik, sülh və təhlükəsizliyin bərqərar olmasında vacib rol oynayır. Qoşulmama Hərəkatı beynəlxalq hüququn normalarına, ərazi bütövlüyü prinsiplərinə, bütün üzvlərin suverenliyinə və müstəqilliyinə sadiqdir.

Azərbaycan Qoşulmama Hərəkatının nisbətən yeni üzvüdür. Biz bu ailəyə 2011-ci ildə qəbul olunduq, dərhal təşkilatın və onun üzvlərinin dəstəyini hiss etməyə başladıq. Bu dəstək Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsi proseduru zamanı nümayiş olundu. Bu 2011-ci ildə, ölkəmizin təşkilata qəbul olunduğu eyni ildə baş verdi və biz tərəfdaşlarımızın güclü dəstəyini hiss etdik. Bu, o qədər də asan məsələ deyildi, çünki bizim güclü rəqiblərimiz var idi və həmin rəqiblər təşkilatımıza üzv olmayan ölkələr idi. Seçilməyimiz üçün 16 raund tələb olundu və biz 155 dövlətin dəstəyi ilə qeyri-daimi üzv seçildik. Qoşulmama Hərəkatının və İslam Əməkdaşlıq Təşkilatının dəstəyi bizim ən mötəbər beynəlxalq quruma üzv seçilməyimizdə həlledici rol oynadı.

Bu, bir daha bizim gücümüzü nümayiş etdirir. Onu nümayiş etdirir ki, birlikdə olanda nailiyyətlərimiz çox ola bilər. Bu, üzv dövlətlər arasında həmrəyliyin təzahürüdür. Bu, eyni zamanda, təşkilatımızın imkanlarının göstəricisidir. BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmiş Azərbaycan iki il ərzində orada təşkilatımızın bütün üzvlərini təmsil etdi. Bəyan etdik ki, biz uzun illərdir bir çox hallarda pozulan ədalət və beynəlxalq hüququ müdafiə edəcəyik.

Azərbaycan beynəlxalq hüququn və ədalətin pozulmasının şahidi olub və bunu öz üzərində hiss edib. İyirmi beş ildən artıqdır ki, ölkəmizin ərazisinin bir hissəsi Ermənistanın işğalı altındadır. Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağ və onun ətrafındakı yeddi rayonumuz erməni işğalı altındadır. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal edilib. Bu işğal nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ermənistan tərəfindən bizim xalqa qarşı etnik təmizləmə siyasəti həyata keçirilib. Ermənistan azərbaycanlılara qarşı Xocalı soyqırımını törədib. Həmin soyqırımı dünyanın 10 dövləti tərəfindən tanınıb. Ümidvaram ki, üzv dövlətlər də bu məsələni müzakirə edəcək və insanlığa qarşı olan həmin cinayətlə bağlı mövqelərini bildirəcəklər. Xocalı soyqırımı nəticəsində 613 günahsız insan, o cümlədən 106 qadın və 63 uşaq vəhşicəsinə işgəncəyə məruz qalıb və qətlə yetirilib. Minlərlə insan yaralanıb və ya itkin düşüb. Bu, insanlığa qarşı olan bir cinayətdir.

Təəssüf ki, işğal bu günə qədər davam edir. Fürsətdən istifadə edərək, Qoşulmama Hərəkatının üzv dövlətlərinə, bu ailəyə təşəkkürümü bildirirəm ki, təşkilatımızın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi qətnamədə münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə dəstək ifadə edilib. Biz bu dəstəyə görə çox minnətdarıq. Digər təşkilatlar da oxşar qətnamələr qəbul ediblər.

BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul edib ki, orada Ermənistan qoşunlarının Azərbaycanın ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunur. Təəssüf ki, həmin qətnamələr həyata keçirilməyib, çünki icra mexanizmi mövcud deyil. İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, ATƏT və digər aparıcı təşkilatlar Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını tələb edən qətnamə və qərarlar qəbul ediblər, lakin onlar icra olunmayıb.

Təəssüflər olsun ki, beynəlxalq hüququn kobud şəkildə pozulması və ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımına baxmayaraq, bu ölkə sanksiyalara məruz qalmayıb. Münaqişənin əvvəlində Ermənistana qarşı sanksiyalar tətbiq edilsə idi, düşünürəm ki, münaqişə çoxdan öz həllini tapmış olardı. Yəni, biz münaqişənin beynəlxalq hüququn normaları, Azərbaycanın suverenliyi və sərhədlərinin toxunulmazlığı prinsipinə əsasən həllinin tərəfdarıyıq.

İşğal olunmuş ərazilər tamamilə viran edilib. ATƏT faktların toplanması məqsədilə oraya iki dəfə araşdırıcı missiya göndərib və onların hesabatlarına əsasən, bizim bütün tarixi abidələrimiz, məscidlərimiz, məzarlıqlarımız və muzeylərimiz erməni vandalları tərəfindən dağıdılıb. Bu, bizim mədəniyyətimizə qarşı olan cinayətdir. Azərbaycan ərazisinin işğalına son

qoyulmalıdır və yalnız ondan sonra regionda sülh bərqərar oluna bilər.

Ermənistan ölkədə ksenofobiya bəsləyir, bu, bir monoetnik dövlətdir. Orada heç bir başqa millət yaşamır və Ermənistan əhalisinin 99,9 faizi ermənilərdən ibarətdir. Bu ölkədə yaşayan azərbaycanlılar və digər millətlərin nümayəndələri orada etnik təmizləməyə məruz qalıblar.

Ermənistandan fərqli olaraq, Azərbaycan mədəniyyətlərarası, sivilizasiyalararası və dinlərarası dialoqun dünya səviyyəsində tanınmış mərkəzlərindəndir. Biz multikulturalizm mərkəzlərindən biriyik. Azərbaycanda multikulturalizm dövlət siyasətidir. 2016-cı il ölkəmizdə "Multikulturalizm İli" elan edilib. Biz multikultural dəyərləri, dinlərarası sülh və əməkdaşlığı təbliğ edən çoxsaylı beynəlxalq tədbirlər təşkil etmişik. BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumu, Dünya Dini Liderlərinin Forumu, Bakıda mütəmadi qaydada təşkil olunan Mədəniyyətlərarası Dialoq Forumu və təşkil etdiyimiz digər beynəlxalq tədbirlər multikulturalizmə öz töhfəsini verir.

Biz 10 il əvvəl "Bakı Prosesi"nin təşəbbüskarı olduq. Bizim təşəbbüsümüzə əsasən, İslam Əməkdaşlıq Təşkilatına və Avropa Şurasına üzv ölkələrin dövlət rəsmiləri Bakıya dəvət edildi. Azərbaycan hər iki təşkilata üzv olan nadir dövlətlərdəndir. Bu iki təşkilatın toplam olaraq yüzdən artıq üzvü var və bizim məqsədimiz onları bir araya gətirərək mədəniyyətlərarası dialoq, etnik və dini zəmində gərginliyin azalması, dünyada ksenofobiya hallarının ciddi şəkildə müzakirə olunması, habelə qarşılıqlı anlaşma üçün platformanın yaradılması idi.

Bizim təşəbbüsümüz bundan ibarət idi və o, BMT tərəfindən dəstəkləndi. Artıq "Bakı Prosesi" özünün onilliyini qeyd edir. Bu, misilsiz beynəlxalq platformadır ki, müsəlman dünyasını və Avropa dövlətlərini birləşdirir, bütün ölkələr üçün açıqdır və məqsəd müxtəlif dövlətlər, müxtəlif dinlər və etnik qrupların nümayəndələri arasında daha yaxşı anlaşma yaratmaqdır.

Azərbaycan özünün tarixi ilə qürur duyur. Müxtəlif dinlərin nümayəndələri ölkəmizdə əsrlər boyu sülh və ləyaqət şəraitində yaşayıblar. Bu gün bizim tarixi abidələrimiz həmin mədəni müxtəlifliyi özündə əks etdirir. Bizim gücümüz mədəni müxtəlifliyimizdədir. Multikulturalizmin alternativi yoxdur. Onun alternativi ayrı-seçkilik, ksenofobiya və islamofobiyadır. Hesab edirəm ki, bu məsələlər müzakirə edilməlidir və Azərbaycan bu dəyərlərin təşviqində öz vacib rolunu oynamaqda davam edəcəkdir.

Dövlətimiz nisbətən gəncdir. Biz 26 ildir ki, müstəqilik. Biz müstəqilliyimizi 1991-ci ildə bərpa etmişik.

Bu il biz müsəlman aləmində ilk demokratik respublika olan, Azərbaycan xalqının azadlıq və demokratiya arzusunun təzahürü olmuş Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini qeyd edəcəyik. Deyə bilərəm ki, 100 il əvvəl respublikada fərman qəbul olunaraq, qadınlara səs vermək hüququ verildi. Bu, 100 il əvvəl azadlıq səviyyəsini nümayiş etdirən mühüm addım oldu. Hazırda biz demokratiya, insan hüquqları dəyərlərinə, azadlıqlara sadiqik. Lakin müstəqil ölkə kimi, biz cəmi 26 ildir ki, mövcuduq. Bu illər də, xüsusən ilk vaxtlarda asan olmamışdır. Ölkəmizdə çətin problemlər, Ermənistanın işğalı, daxili çətinliklər, siyasi böhran, vətəndaş müharibəsi, iqtisadi tənəzzül müşahidə olunurdu. Bununla belə, bütün çətinliklərdən çıxa bildik və hazırda çox sürətli iqtisadi inkişafı nümayiş etdiririk. İqtisadi inkişaf müstəqilliyimizin əsasını təşkil edir. Aydın şəkildə anlayırıq ki, biz iqtisadi baxımdan güclü olmalıyıq, digər ölkələrdən və ya maliyyə mərkəzlərindən asılı olmalı deyilik. Yalnız bu halda biz müstəqil siyasət yürüdə bilərik və Azərbaycan bundan fərəhlənir. Buna görə, biz diqqətimizi iqtisadi gündəliyimizə yönəltmişik və güclü iqtisadiyyat yaratmışıq. Bu gün Azərbaycan özünü təmin edən ölkədir. Biz bir çox ölkələrə yardım göstəririk. Məlumat vermək istərdim ki, biz üzv dövlətlərdən olan tələbələrə universitetlərimizdə təhsil almaları üçün təqaüdlər ayırmaq qərarını qəbul etmişik.

Son 15 il ərzində iqtisadi inkişafımız çox sürətli olmuşdur. Ümumi daxili məhsul 3,2 dəfə artmışdır. Fikrimcə, bu, dünya rekordudur. Eyni zamanda, biz insan kapitalına böyük sərmayələr yatırmışıq. Azərbaycanda savadlılıq səviyyəsi 100 faizə yaxındır. Son 15 il ərzində biz 3100-dən artıq məktəb və 600-dən çox xəstəxana tikmişik, yaxud təmir etmişik. Əhalimizin demək olar ki, yarısı, yəni beş milyon vətəndaş hər il xəstəxanalarımızda ödənişsiz tibbi müayinədən keçir. Ömür uzunluğu artır. Buna görə xalqımızın sosial müdafiəsi siyasətimizin əsas istiqamətlərindən biridir. Mən dəfələrlə bəyan etmişəm ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşları, onların rifahı, sağlamlığı, təhlükəsizliyi dayanır. Biz insanlarımıza daha yaxşı şəraitlərin təmin edilməsi üçün əlimizdən gələni edirik. Bunun üçün biz güclü, şaxələndirilmiş iqtisadiyyata malik olmalıyıq.

Son 15 il ərzində Azərbaycanın əldə etdiyi nailiyyətlərdən biri yoxsulluğun və işsizliyin kəskin azalması olub. Yoxsulluq səviyyəsi 49 faizdən 5,4 faizə düşmüş, işsizlik 5 faiz səviyyəsindədir. Biz, həmçinin nəzərə almalıyıq ki, son 15 il ərzində Azərbaycan əhalisi 1,5 milyon nəfər artmışdır. Buna görə, yeni iş yerlərinin açılması bizim üçün daimi prosesdir. Əlbəttə, bunun üçün bizə maliyyə ehtiyatları, münbit sərmayə mühiti lazımdır. Son 15 il ərzində biz ölkəmizə 230 milyard dollardan artıq vəsaiti birbaşa sərmayə kimi cəlb edə bilmişik. İqtisadi nəticələrimiz dünyanın aparıcı maliyyə, o cümlədən iqtisadi təsisatlarının hesabatlarında

yer alır. Davos Dünya İqtisadi Forumu ölkələrin rəqabət qabiliyyəti baxımından Azərbaycanı 35-ci yerdə qərarlaşdırıb. İnklüziv inkişaf indeksinə görə, Azərbaycan inkişaf edən ölkələr sırasında üçüncü yerdədir.

Bir sözlə, Azərbaycan xalqının əldə etdiyi bütün nailiyyətlər bizim siyasətimiz sayəsində olmuşdur. Biz bunları hər hansı digər dəstək olmadan əldə etmişik. Diqqətimizi milli maraqlara aid olan, strateji əhəmiyyət daşıyan məsələlərə yönəldirik. Ötən 26 il ərzində göstərdik ki, inkişafa sadiqsinizsə, həqiqətən müstəqilsinizsə və insanların taleyi öz əllərindədirsə, bu halda, siz böyük nəticələr əldə edə bilərsiniz.

Azərbaycan humanitar nöqteyi-nəzərdən, həmçinin marşrutların yaradılması baxımından regional inkişafda mühüm rol oynayır. Ölkəmiz qitələrin birləşdirilməsində, qarşılıqlı surətdə faydalı əməkdaşlıq platformasının qurulmasında mühüm rola malikdir. Bildirmək istərdim ki, qitələr arasında dəmir yolu bağlantısının qurulmasında səylər göstəririk. Bu gün Şərq-Qərb dəmir yolu dəhlizi ölkəmizin və qonşularımızın səyləri sayəsində artıq istismar olunur. Biz bu layihələri qonşularımızla birgə həyata keçiririk, çünki marşrutları yaratdıqda, ilk öncə, sizin qonşularla, sonra isə region ölkələri ilə yaxşı münasibətləriniz olmalıdır. Buna görə Şərq-Qərb daşımalar dəhlizi artıq reallıqdır. Ötən ilin oktyabr ayında Bakıda bu dəhlizin açılışı oldu. Bu dəhliz vasitəsilə Asiyadan Avropaya və geriyə malların daşınmasına sərf olunan vaxt baxımından, ən azı iki həftəyə qənaət olunur. Bununla belə, bu, bizim göstərdiyimiz səylərin yalnız bir hissəsidir. Digər mühüm layihə Cənub-Şimal dəhlizidir. Region ölkələrinin səyləri sayəsində, həmçinin bu dəhliz də reallığa çevrilir. Azərbaycan bu dəhlizlərin yaradılmasına böyük sərmayələr yatırır və Şərq-Qərb, eləcə də Cənub-Şimal dəhlizlərinin fəal iştirakçısıdır. Beləliklə, biz açıq dənizə çıxışı, eləcə də beynəlxalq bazarlarla birbaşa əlaqəsi olmayan Azərbaycan kimi ölkəni Avrasiyanın daşımalar qovşağına çevirə bildik. Hazırda, biz digər layihə – Cənub-Qərb dəhlizi üzərində çalışırıq. Bunun sayəsində, Asiya ölkələri öz mallarını Cənubi və Mərkəzi Avropaya çatdıra biləcəklər.

Azərbaycan bir çox mühüm beynəlxalq tədbirləri təşkil edib. Onların sırasında, siyasi və iqtisadi forumları, müxtəlif konfransları qeyd etmək olar. Lakin mən iki tədbiri xüsusi qeyd etmək istərdim. Çünki bəhs etdiyim region üçün onların mədəniyyətlərarası dialoq, müxtəlif millətlərin, ölkələrin və dinlərin nümayəndələri arasında əməkdaşlıq və qarşılıqlı anlaşma baxımından çox böyük mənası var. 2015-ci ildə Azərbaycan ilk Avropa Oyunlarını Yay Olimpiya Oyunları səviyyəsində keçirdi. 2017-ci ildə isə biz IV İslam Həmrəyliyi Oyunlarını təşkil etdik. Beləliklə, iki il ərzində eyni şəhərdə biz Avropa dövlətlərinin, eləcə də İslam ölkələrinin oyunlarını keçirdik. Bu da dünyanın bütün xalqları arasında mədəniyyətlərarası dialoqa, qarşılıqlı anlaşmaya verilən töhfə idi.

Azərbaycan Qoşulmama Hərəkatının yeganə üzvüdür ki, "Ekspo 2025"ə öz namizədliyini irəli sürüb. Bu addımın özü göstərir ki, fikrimizcə, biz bu cür mühüm qlobal tədbiri keçirməyə qadirik. Müstəqilliyini cəmi 26 il öncə bərpa etmiş ölkə üçün, hesab edirəm ki, həmin tədbir qazandığımız nailiyyətləri və həqiqi olaraq, müstəqil olduğunuz təqdirdə əldə edilə biləcək nəticələri nümayiş etdirmək fürsəti olardı. Əgər siz heç bir tərəfdən asılı deyilsinizsə, siz bir çox nəticələri əldə edə bilərsiniz. Buna görə mən namizədliyimizə gəldikdə, üzv dövlətlərin dəstəyinə ümid edirəm və bu, həmrəylimizin növbəti təzahürü olacaqdır. Biz bir-birimizi dəstəkləməliyik. Qarşımızda demək olar ki, oxşar çağırışlar, problemlər dayanır. Keçmişimiz də, müəyyən dərəcədə, oxşardır. Hamımız öz həyatımızı, müstəqil həyat sürməyi arzulayırıq. Biz hamımız istəmirik ki, kimsə bizdən nə etməyi tələb etsin, işlərimizə müdaxilə etsin, bizə diktə etsin. Bunun üçün biz güclü olmalıyıq. Biz yalnız birlikdə olduqda güclü ola bilərik.

Mən bütün qonaqlarımıza bizimlə olduqlarına görə təşəkkürümü bildirmək istəyirəm və konfransın işinə uğurlar arzulayıram. Sağ olun.

Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi

Hər il olduğu kimi, bu il də aprel ayının birinci ongünlüyündə biz ilin birinci rübünün sosial-iqtisadi yekunlarını müzakirə edirik, gələcək planlar haqqında danışırıq. Mən ilin əvvəlində demişdim, əminəm ki, 2018-ci il də ölkəmiz üçün uğurlu il olacaq və birinci rübün yekunları bu sözləri təsdiqləyir. Azərbaycan bu müddət ərzində uğurla inkişaf etmişdir, qarşımızda duran bütün vəzifələr artıqlaması ilə yerinə yetirilir, ölkəmiz güclənir, hərtərəfli inkişaf edir. Əminəm, biz bu müsbət dinamikanı ilin sonuna qədər saxlayacağıq, bunu daha da artıracağıq ki, ölkəmiz 2018-ci ili də uğurla başa vursun.

Bu ilin birinci rübündə ölkəmizdə bir neçə mötəbər beynəlxalq tədbir keçirilmişdir. Bu tədbirlər ölkəmizin beynəlxalq nüfuzunu artırır, Azərbaycanı dünyaya müasir, inkişafda olan ölkə kimi təqdim edir. Mən bu tədbirlər arasında VI Bakı Qlobal Forumunu xüsusilə qeyd etmək istəyirəm. Bu Forum qısa müddət ərzində dünya miqyasında böyük hörmət qazanmış bir beynəlxalq platformadır. Dünyada keçirilən aparıcı forumlar

arasında Bakı Beynəlxalq Forumu qısa müddət ərzində öz layiqli yerini tuta bilmişdir. Bunu təsdiqləyən həm Forumda müzakirə olunan məsələlərdir, həm də gələn qonaqların siyahısıdır. Bu dəfə Forumda 50-dən çox ölkədən 47 fəaliyyətdə olan və sabiq dövlət və hökumət başçısı iştirak etmişdir. Yəni, bu, Forumun əhəmiyyətini göstərir. Dünya liderlərinin Foruma göndərdikləri məktublar, əlbəttə, göstərir ki, bu Forum doğrudan da böyük beynəlxalq tədbirdir. Birinci rübdə ölkəmizə 7 dövlət və hökumət başçısı səfər etmişdir. Bu səfərlər də ölkəmizin dost ölkələrlə ikitərəfli münasibətlərinin inkişafı üçün önəmli rol oynayır.

Bizim təşəbbüsümüzlə bu il ilk dəfə olaraq regional əməkdaşlıq çərçivəsində qonşularımızla dördtərəfli əməkdaşlıq formatına start verildi. Əlbəttə ki, regionda yaşanan problemlərin həlli, sabitliyin, təhlükəsizliyin, inkişafın təmin edilməsi üçün bu əməkdaşlıq formatı və digər əməkdaşlıq formatları böyük rol oynayır. Bu il ölkəmizdə Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin konfransı keçirilmişdir. Bu, çox önəmli beynəlxalq tədbirdir. Bildiyiniz kimi, Qoşulmama Hərəkatı dünyada BMT-dən sonra ikinci böyük təşkilatdır. Biz bu təşkilata 7 il bundan əvvəl üzv olmuşuq və qısa müddət ərzində təşkilatda böyük rəğbət və hörmət qazana bilmişik. Məhz bunun nəticəsidir ki, belə bir mötəbər beynəlxalq tədbir məhz ölkəmizdə keçirilir. Ondan da əlavə qeyd etmək istərdim ki, gələn ildən başlayaraq Azərbaycan dünyanın ikinci böyük təşkilatına sədrliyi öz üzərinə götürəcəkdir. Bu, 120 ölkənin Azərbaycana olan böyük hörmətinin, inamının təzahürüdür. Bu böyük təşkilat çərçivəsində Azərbaycan çox uğurlu fəaliyyət göstərir.

Qeyd etməliyəm ki, Qoşulmama Hərəkatı bizim təşəbbüsümüzlə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmasına dair önəmli qətnamə qəbul etmişdir. Bu dəfə də Bakıda keçirilmiş konfransda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqeyimiz, yəni, ədalətli mövqe bir daha təsdiqləndi.

Bütün bu beynəlxalq tədbirlər çərçivəsində və eyni zamanda, Azərbaycana edilən səfərlər, ikitərəfli formatda aparılan danışıqlar nəticəsində bizim beynəlxalq mövqelərimiz daha da möhkəmləndi. Deyə bilərəm ki, mən bütün görüşlərdə həmkarlarıma və görüşdüyüm şəxslərə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyini, münaqişə ilə bağlı həqiqətləri çatdırıram. Hər dəfə bildirirəm ki, Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır, işğalçı dövlət tərəfindən işğal edilib. Bu işğal nəticəsində bir milyondan artıq azərbaycanlı etnik təmizləməyə məruz qalmışdır, torpaqlarımız işğal altındadır, tarixi abidələrimiz, məscidlərimiz erməni vandalları tərəfindən dağıdılıbdır. Bildirirəm ki, bütün beynəlxalq təşkilatlar bu münaqişə ilə bağlı ədalətli, beynəlxalq hüquqa söykənən qərar və qətnamələr qəbul etmişlər və bu münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bu görüşlərin və ümumiyyətlə, bu istiqamətdəki fəaliyyətimizin nəticəsi ondan ibarətdir ki, bu gün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün hüquqi baza tam yaradılıb və heç bir dövlət qondarma "Dağlıq Qarabağ respublikası"nı tanımır və tanımayacaq. Kriminal xunta rejimi tərəfindən ötən il keçirilmiş dırnaqarası referendumu da heç kim tanımayıb. Bu, işğalçılara beynəlxalq aləm tərəfindən vurulan növbəti bir zərbədir. Bizim səylərimiz nəticəsində bu qondarma qurum regionun xəritəsində qara ləkə kimi tanınır və biz bundan sonra da bu istiqamətdə ardıcıl fəaliyyətimizi göstərməliyik. Beynəlxalq təşkilatlardakı fəaliyyətimiz çox önəmlidir. Düzdür, bunun praktiki nəticələri yoxdur, torpaqlarımız hələ də işğal altındadır. Biz torpaqlarımızın bir hissəsini hərbi yolla azad etdik, ancaq bununla bərabər münaqişənin həlli üçün hüquqi baza əsas şərtdir. Bu məsələdə Azərbaycan tam üstünlüyü əldə edib və növbəti illərdə beynəlxalq təşkilatlardakı fəaliyyətimiz daha da güclənəcək.

Onu da qeyd etməliyəm ki, bizim fəaliyyətimiz nəticəsində və eyni zamanda, Avropada baş qaldıran separatizmə qarşı yaranan yeni yanaşma nəticəsində Avropa İttifaqında münaqişələrlə bağlı Şərq Tərəfdaşlığı Proqramına üzv ölkələrin konfransında qəbul edilmiş qətnamə də ədaləti və beynəlxalq hüququ əks etdirir. Qətnamədə bu proqrama daxil olan ölkələrin ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı bir daha təsdiqləndi. Bununla bərabər, biz münaqişənin həlli ilə bağlı bütün başqa istiqamətlərdə ardıcıl siyasətimizi aparırıq və aparacağıq. İlk növbədə, siyasi yanaşmadan sonra hərbi amil əlbəttə ki, öz rolunu oynayır və oynayacaqdır. Ordu quruculuğu bu gün də bizim üçün prioritet məsələdir, sabah da prioritet məsələ olacaq. Biz son illər ərzində güclü hərbi potensial yarada bilmişik, o potensial ki, bu gün Azərbaycan Ordusunu dünya miqyasında güclü ordular sırasına daxil edibdir. Bunu beynəlxalq məsələ ilə məşğul olan bütün qurumlar və reytinqlər təsdiqləyir. Biz bundan sonra da ən müasir silah, sursat, texnika alacağıq ki, daim hərbi üstünlük təmin edilsin, necə ki, bu gün bu, təmin edilir.

Bu il Azərbaycan Ordusu genişmiqyaslı hərbi təlimlər keçirmişdir. Bu təlimlər bir daha bizim gücümüzü göstərdi, düşməni qorxuya saldı. Bilirik ki, bir neçə gün ərzində onlar panika içərisində idilər, səbirsizliklə gözləyirdilər ki, bu təlimlər başa çatsın. Yəni, bu, artıq reallıqdır, həqiqətdir. Hərbi amil münaqişənin ədalətli həlli üçün mühüm rol oynayır və biz bundan sonra da hərbi potensialımızı gücləndirəcəyik.

Bununla paralel olaraq bizim demək olar ki, bütün regional addımlarımız, təşəbbüslərimiz həm ölkəmizin maraqlarının təmin edilməsinə, Azərbaycan iqtisadiyyatının inkişafına, eyni zamanda, işğalçı dövlətin təcrid vəziyyətinə salınmasına hesablanıbdır. Bütün bu amillər artıq birləşib və öz səmərəsini verməkdədir. Ermənistan bu gün heç bir maraq doğurmayan ölkədir, heç bir investisiya qoyulmur. Müqayisə üçün deyə bilərəm ki, bu ilin birinci rübündə Azərbaycan iqtisadiyyatına 3,5 milyard dollar sərmayə qoyulubdur ki, bunun böyük əksəriyyəti xarici sərmayədir. Ermənistan iqtisadiyyatına isə keçən il ümumilikdə 200 milyon dollardan bir qədər çox vəsait qoyulmuşdur, onun da böyük payı xaricdə yaşayan diaspor təşkilatlarının üzərinə düşür. Yəni, bu, müqayisəedilməz vəziyyətdir və əlbəttə ki, biz bundan sonra da Ermənistanı bütün regional layihələrdən kənarda qoyacağıq. Bu gün Ermənistan bir dalana çevrilibdir. Biz onları siyasi dalana, iqtisadi, enerji, nəqliyyat dalanına çeviririk və bu siyasət davam etdiriləcək. Biz bunu gizlətmirik, açıq şəkildə bəyan edirik və biz haqlıyıq. Biz öz torpaqlarımızı istəyirik. Biz istəyirik ki, münaqişə tezliklə öz həllini tapsın, ölkəmizin ərazi bütövlüyü bərpa edilsin, soydaşlarımız öz doğma torpaqlarına qayıtsınlar. Bu, bizim üçün prioritet məsələdir. Bütün gücümüzü səfərbər etmişik ki, bu məsələnin həllinə nail olaq.

Əlbəttə, mən dəfələrlə demişəm, biz öz istəyimizə nail olmaq üçün daha da güclü olmalıyıq. Ermənistandan fərqli olaraq biz öz hesabımıza yaşayırıq, öz taleyimiz öz əlimizdədir. Əlbəttə, belə olan halda iqtisadi siyasət ön plana çıxır. Mən dəfələrlə demişəm ki, iqtisadi müstəqillik siyasi müstəqilliyin əsasıdır və bu istiqamətdə birinci rübün yekunları çox müsbətdir. Mən keçən ilin sonlarında demişdim ki, 2017-ci il sabitləşmə ili olubdur. Hətta 2017-ci ildə qeyri-neft sektorunun inkişafında çox müsbət nəticələr olmuşdur. Ancaq 2018-ci ilə gəldikdə, şübhəsiz qeyd edirdim ki, bu, uğurlu və sürətli inkişaf ili olacaqdır. Birinci rübün yekunları, sosial-iqtisadi göstəriciləri mənim sözlərimi təsdiqləyir. Beləliklə, birinci rübdə Azərbaycan iqtisadiyyatı 2,3 faiz artmışdır. Bu, çox gözəl göstəricidir və dünya miqyasında mövcud olan artımdan daha yüksək göstəricidir. Qeyri-neft sektorumuz isə təxminən 3 faiz artmışdır. Bu da iqtisadiyyatımızın şaxələndirilməsi istiqamətində aparılan siyasətin nəticəsidir.

Birinci rübdə sənaye istehsalı 2 faiz, qeyri-neft sənayesi isə təxminən 10 faiz artmışdır. Bu da ölkəmizdə son illər ərzində aparılan sənayeləşmə siyasətinin nəticəsidir. Qeyri-neft sənayemiz 10 faiz artıb və hesab edirəm ki, bu, rekord göstərici sayıla bilər. Kənd təsərrüfatı 4,2 faiz artıb. Bu artımın tərkibində biz daha çox bitkiçiliyin artımını görürük, 50 faizdən çox artmışdır. Bu da son illər ərzində ənənəvi və digər texniki məhsulların yetişdirilməsi ilə bağlıdır. Bu da çox müsbət göstəricidir.

Qeyd etdiyim kimi, ölkə iqtisadiyyatına 3,5 milyard dollar sərmayə qoyulubdur və bu sərmayənin böyük hissəsi xarici sərmayədir. Bu, onu göstərir ki, ölkəmiz xarici investorlar üçün çox cəlbedicidir.

Valyuta ehtiyatlarımız 2,2 milyard dollar artmışdır və hazırda 44,2 milyard dollara bərabərdir. Hesab edirəm, 3 ay ərzində 2 milyard dollardan çox artan valyuta ehtiyatlarımız bir tərəfdən onu göstərir ki, biz ehtiyatlarımızdan çox qənaətlə istifadə edirik, digər tərəfdən, bu, son illər ərzində apardığımız uğurlu neft siyasətinin nəticəsidir. Çünki bu vəsaitin tərkibində keçən il imzalanmış "Azəri-Çıraq-Günəşli" yatağının istismar müddətinin uzadılması ilə bağlı kontraktdan irəli gələn 450 milyon dollar bonus da vardır.

Bizim xarici ticarət dövriyyəmiz 31 faiz artmışdır. Bu da çox gözəl göstəricidir. İxrac isə 37 faiz artmışdır, daha doğrusu, qeyri-neft ixracı. Ümumi ixrac 24 faiz, qeyri-neft ixracı 37 faiz artmışdır. Bu da bizim siyasətimizin bariz nümunəsidir. Çünki ixracın şaxələndirilməsi iqtisadi sahədə əsas prioritet məsələdir ki, biz daha çox qeyri-neft sektorundan valyuta əldə edək və beləliklə, yerli istehsal güclənsin, yeni iş yerləri yaradılsın və ölkəmiz daha da sürətlə inkişaf etsin.

İş yerlərinin açılmasına gəldikdə, birinci rübdə 34 min yeni iş yeri yaradılmışdır ki, onlardan 31 mini daimi iş yeridir. Artıq biz 1 milyon 500 min iş yerinin yaradılmasına yaxınlaşırıq. Əgər biz birinci rübün rəqəmlərini də əlavə etsək, 2004-cü ildən bu günə qədər Azərbaycanda təxminən 1 milyon 500 min yeni daimi iş yeri yaradılmışdır.

Bu iqtisadi göstəricilərimiz əlbəttə ki, bizi çox sevindirir. Onu da əlavə etməliyəm ki, inflyasiya birinci rübdə cəmi 4 faiz olmuşdur. Bu barədə də mən ilin əvvəlində öz fikirlərimi bildirmişdim və qeyd etmişdim ki, əminəm, inflyasiya aşağı səviyyədə olacaq və əhalinin gəlirləri inflyasiyanı qabaqlayacaq. Belə də oldu. Əhalinin gəlirləri təxminən 10 faiz artmışdır, inflyasiya isə cəmi 4 faiz. Bax, budur bizim birinci rübdə əldə edilmiş əsas sosial-iqtisadi göstəricilərimiz. Hesab edirəm ki, hər bir ölkə bu göstəricilərlə fəxr edə bilər, o cümlədən biz. Bu, onu göstərir ki, biz düzgün yoldayıq. Azərbaycanın qarşısında heç bir iqtisadi və maliyyə çətinliyi yoxdur. Biz güclü iqtisadiyyat yaradaraq, eyni zamanda, sosial məsələlərin həllində addımlar atırıq. Əgər iqtisadi imkanlarımız olmasaydı, biz nəyin hesabına pensiyaları, maaşları qaldıra bilərdik, nəyin hesabına böyük investisiya qoya bilərdik, infrastruktur layihələrini nəyin hesabına həyata keçirə bilərdik?! İqtisadi güc və ondan əlavə bizim siyasətimiz bütün bu reallıqları yaradır.

Sosial məsələlərin həllinə gəldikdə, qeyd etməliyəm ki, birinci rübdə maaşlar və pensiyalar artırıldı. Bu məqsədlər üçün dövlət büdcəmizdən yüz milyonlarla manat vəsait ayrıldı. Bu addım bir daha onu göstərir ki,

siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. İmkan yarandıqca biz dərhal birinci addımı sosial istiqamətdə atdıq. İnsanların sosial müdafiəsinin təmin edilməsi üçün praktiki addımlar atmışıq.

O ki qaldı, sosial infrastrukturun yaradılmasına, birinci rübdə Dövlət İnvestisiya Proqramında nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapır. Yeni xəstəxanalar, məktəblər tikilir. İlin əvvəlindən mənim tərəfimdən bu məsələlərin həlli üçün bir çox sərəncamlar verilmişdir. Yeni idman obyektləri, yeni "ASAN xidmət" mərkəzləri tikilir. Yəni, bu gün Azərbaycanda tikinti sektorunda böyük canlanma var. Mənzil İnşaatı Dövlət Agentliyinin xətti ilə sosial evlərin tikintisində irəliləyiş var. Ümumiyyətlə, indi özəl sektora, tikinti sektoruna böyük vəsait qoyulur. Təkcə Bakı şəhərində təqribən 150-yə yaxın hündürmərtəbəli binanın tikintisi nəzərdə tutulur. Onların bir çoxunun tikintisi başlamışdır. Bu, əlbəttə ki, tikinti sektoruna, tikinti materialları sektoruna müsbət təsir göstərir və yeni iş yerləri yaradır. Qeyd etməliyəm ki, biz bu il dövlət sektorunda da əlavə iş yerləri yaratmaq fikrindəyik. Həm dövlət qurumlarında, həm rayon icra hakimiyyətləri nəzdində yaradılan yeni qurumlar insanları işə cəlb edir. İctimai işlərə və dövlət şirkətlərində çalışmaq üçün cəlb edilənlərin sayını biz nəzərə alsaq, bu il ancaq dövlət sektorunda təqribən 50 mindən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur. Bu addımı biz iki il bundan əvvəl atmağa başlamışıq, o dövrdə ki, dünya iqtisadi böhranı bizə müəyyən dərəcədə mənfi təsir göstərmişdir. Bəzi iş yerləri ixtisara düşürdü, bəzi özəl qurumlar işçiləri işdən azad edirdilər. Ona görə dövlət dərhal öz addımını atdı və biz on minlərlə ictimai iş yeri yaratmışıq və bu gün bu proses davam edir. Xüsusilə bölgələrdə olarkən mən daim ictimai işlərlə maraqlanıram. Bu, bölgələrdə işsizliyi aşağı səviyyədə saxlamaq üçün çox önəmli addımdır. Hər bir rayonda yüzlərlə insan ictimai işlərə cəlb olunur. Nəzərə alsaq ki, indi Azərbaycanda o qədər böyük quruculuq, təmir işləri aparılır - binaların təmiri, parkların salınması, o parklara xidmət məsələləri. Əsas məqsədimiz işsizliyi daim aşağı səviyyədə saxlamaqdır. Yəni, sosial məsələlərin həlli bilavasitə iqtisadi imkanlarımıza bağlıdır. Biz iqtisadi cəhətdən nə qədər güclü olsaq, sosial məsələlər də o qədər uğurla öz həllini tapacaqdır.

Birinci rübdə bütün infrastruktur layihələri uğurla icra edilib. Əlbəttə ki, biz Cənub Qaz Dəhlizinin yaradılması ilə bağlı çox önəmli addımlar atmışıq. Fevral ayında Bakıda 4-cü Məşvərət Şurası keçirilmişdir. Bu Məşvərət Şurasında aparılan müzakirələrin nəticəsində bəyanat qəbul edilmişdir. Bu sənəddə ölkəmizin liderliyi bir daha əksini tapır. Cənub Qaz Dəhlizinin reallaşmasına az vaxt qalıb. Biz bu istiqamətdə uğurla addımlayırıq. Bu il bu layihənin 3 önəmli hissəsi başa çatacaq - TANAP, Cənubi Qafqaz Kəməri və "Şahdəniz-2". Yəni, bu, tarixi nailiyyətimizdir və biz bu il bu istiqamətdə önəmli addımlar atmışıq.

Bu il nəqliyyat sektorunda əldə edilmiş razılaşmalar da, - onlar əslində əvvəlki illərdə görülmüş işlərin əsasında əldə edilibdir, - Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılmasına gətirib çıxaracaq. Onun çatışmayan hissəsinin tikintisinə təkan verildi. Bildiyiniz kimi, Azərbaycan öz ərazisində Şimal-Cənub nəqliyyat dəhlizi ilə bağlı bütün işləri tamamlayıb. Bundan sonra ancaq dəmir yolunun modernləşdirilməsi ilə bağlı işlər aparılacaq ki, sürət daha da artsın. Amma bizim bütün dəmir yolu infrastrukturu - şimal və cənub sərhədlərimizi birləşdirən dəmir yolu vardır. Vəsait qoyulub və indi biz bu məsələyə regional baxımdan ciddi diqqət göstəririk. Birinci rübdə bu istiqamətdə çox önəmli addımlar atılmışdır.

Ölkəmizdə ümumi inkişaf dinamikası çox müsbətdir. Ölkəmiz dünyada daha çox tanınır və turistlərin sayı getdikcə artır, birinci rübdə 12,5 faiz artmışdır. Əgər biz əvvəlki illəri də nəzərə alsaq görərik ki, bu dinamikada ardıcıllıq vardır. Bunun da bir çox səbəbləri var - Azərbaycanda hökm sürən sabitlik, təhlükəsizlik, xalqımızın qonaqpərvərliyi, tarixi abidələrimiz, infrastruktur, 6 beynəlxalq aeroport, yollar, otellər. Əlbəttə ki, ölkəmizdə keçirilən beynəlxalq tədbirlər Azərbaycanı dünyaya təqdim edir. Onların arasında Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, "Eurovision" müsabiqəsi və Formula 1 yarışları xüsusi rol oynayır. Çünki Formula 1 yarışlarının tamaşaçı auditoriyası yarım milyard insana bərabərdir. Bu yarışlar şəhərimizin mərkəzində keçirilir. Biz onu xüsusilə belə təşkil etmişik ki, şəhərimiz göstərilsin, bu yarışa baxan azarkeşlər təkcə o yarışı görməsinlər, şəhərimizin gözəlliyini, müasirliyini görsünlər və daha çox Azərbaycana turist kimi gəlsinlər.

Bir sözlə, birinci rübün yekunları müsbətdir. Əlbəttə ki, üç ay ərzində daha bir sıra önəmli məsələlər öz həllini tapıb. Bir giriş sözümdə onların hamısını əhatə etmək mümkün deyil. Sadəcə olaraq, mən əsas məsələlər ətrafında fikirlərimi xalqa bildirdim. Azərbaycan xalqı bilir ki, Nazirlər Kabinetinin müntəzəm olaraq keçirilən toplantıları həm praktiki məsələlərin həllinə xidmət edir, eyni zamanda, bu, görülən işlər haqqında xalqa verilən hesabatdır.

Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Azərbaycan Prezidenti İlham Əliyevin yekun nitqi

Mən əvvəlki çıxışlarda qeyd etdiyim kimi, 2017-ci il Azərbaycanda çox dərin iqtisadi islahatlar ili olmuşdur. Bu islahatlar bu il də davam etdirilir. Biz birinci rübdə əldə etdiyimiz göstəricilərlə fəxr edə bilərik. Bunlar doğrudan da Azərbaycanın uğurlu inkişafını əks etdirən göstəricilərdir. Ancaq biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik və islahatları davam etdirməliyik.

Bəzi hallarda sual yaranır ki, indi neftin qiyməti bir qədər sabitləşdi, bu islahatlar davam etdiriləcəkmi, yoxsa yox? Mütləq davam etdiriləcək. Neftin qiyməti bizim üçün əsas amil olmamalıdır və Azərbaycan iqtisadiyyatı elə bir səviyyəyə çatmalıdır ki, neftin istənilən qiyməti bizə böyük təsir etməsin, yalnız ehtiyatlarımızın artırılmasına xidmət göstərsin. Giriş sözümdə qeyd etdiyim kimi, bu ilin birinci rübündə biz 2,2 milyard dollar əlavə vəsait toplamışıq. Ona görə, bu il də iqtisadi islahatlar davam etdiriləcək. Nəinki iqtisadi və bütün digər sahələrdə islahatlar aparılacaqdır ki, ölkəmiz daha da güclənsin, müasirləşsin və Azərbaycanda dayanıqlı uzunmüddətli inkişaf təmin edilsin. Bu məqsədlərə nail olmaq üçün bir çox məsələlər gündəlikdədir. Onlardan biri biznes mühitinin yaxşılaşdırılması məsələsidir. Bu istiqamətdə son illər ərzində yaxşı nəticələr var və Dünya Bankı tərəfindən təqdim olunan "Doing Business" hesabatında Azərbaycan ardıcıl şəkildə öz mövqelərini gücləndirir, daha da yüksək pilləyə qalxır. Ancaq biz yenə də bu istiqamətdə səylərimizi davam etdirməliyik, xüsusilə bizi geriyə çəkən məsələlərdə daha da ciddi addımlar atmalıyıq və bunu edirik. "Doing Business" reytinqi dərin təhlil əsasında hazırlanır və bizim bu istiqamətdə əldə etdiyimiz uğurlar və nöqsanlar ciddi təhlil edilir.

Ona görə, biznes mühitinin yaxşılaşdırılması istiqamətində bundan sonra da addımlar atılacaqdır. Son vaxtlar vergi sistemində aparılan ciddi islahatlar, sağlamlaşdırma prosesi, bildiyimə görə, artıq biznes dairələri tərəfindən də müsbət qarşılanır və bu istiqamətdə əlavə addımlar atılacaq. Mən əvvəlki çıxışlarda da dəfələrlə demişəm ki, biz dünyada mövcud olan ən müsbət, ən şəffaf praktikanı Azərbaycanda tətbiq etməliyik və bizim bütün maliyyə sistemimiz tam şəffaf mexanizm kimi işləməlidir.

Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyi istiqamətində son illər atılan addımlar böyük təqdirə layiqdir. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm ki, Davos İqtisadi Forumunun hesablamalarında rəqabətqabiliyyətliliyə görə 35-ci yerə yüksəlməyimiz tarixi nailiyyətdir. Biz bu gün dünyanın 35 ən rəqabətqabiliyyətli ölkəsindən biriyik və haqlı olaraq bununla fəxr edirik. Ancaq onu da bilməliyik ki, Davos reytinqlərinə digər ölkələr də çox böyük diqqətlə yanaşırlar. Bildiyimə görə, bir çox ölkələr çalışırlar ki, öz vəziyyətlərini daha da yaxşılaşdırsınlar. Ona görə, bu gözəl rəqəm bizi ancaq növbəti addımların atılmasına sövq etməlidir.

Azərbaycan inkişafda olan ölkələr arasında inklüziv inkişaf baxımından üçüncü yerdədir. Hesab edirəm ki, bu, tarixi nailiyyətdir. Bir çox böyük iqtisadi imkanları olan ölkələrdən biz öndəyik, baxmayaraq ki, müstəqil ölkə kimi cəmi 26 ildir yaşayırıq. Ona görə, bu aparıcı beynəlxalq qurumlar tərəfindən tərtib edilmiş bu reytinqlər bizim uğurlu siyasətimizi əks etdirir. Ancaq biz, yenə də deyirəm, əldə edilmiş nəticələrlə kifayətlənə bilmərik. Biz daim və daim inkişaf etməliyik. Biz sahibkarlığın inkişafı üçün də əlavə addımlar atmalıyıq.

Bu kompleks tədbirlər apardığımız siyasətin nəticəsidir. Bu il sahibkarlara dövlət tərəfindən güzəştli şərtlərlə 170 milyon manat vəsait ayrılır. Bu vəsait vaxtilə verilmiş və qaytarılan kreditlər hesabına ayrılır. Yəni bu, bir daha bizim siyasətimizin uğurlu olduğunu göstərir ki, vaxtilə verilmiş 2 milyard manatdan çox kreditlər indi qayıdır və yeni kreditlərin verilməsinə xidmət göstərir.

Dövlətin dəstəyi ilə yaradılan müəssisələr həm iş yerlərinin açılmasına xidmət edir, həm yerli istehsalı gücləndirir. Bir daha demək istəyirəm ki, biz sahibkarlığın inkişafına kompleks şəkildə yanaşırıq. İnstitusional islahatlar aparılır və aparılacaq, sahibkarlara maliyyə resursları, metodik tövsiyələr verilir, dövlət tərəfindən kənd təsərrüfatı texnikası alınır, subsidiyalar verilir, meliorativ tədbirlərə böyük vəsait xərclənir ki, kənd təsərrüfatı üçün daha yaxşı imkanlar yaradılsın.

Yol infrastrukturu, digər infrastruktur, elektrik enerjisi, içməli su, qaz xətləri – görülən bütün bu işlər vətəndaşlara və eyni zamanda, sahibkarlara xidmət göstərir. Ona görə, növbəti illərdə qeyri-neft sektorunun inkişafı iqtisadi siyasət istiqamətində əsas prioritet olacaqdır və bu istiqamətdə qəbul edilmiş qərarlar öz gözəl nəticəsini verir. Mən onların arasında xüsusilə investisiya təşviqi mexanizmini qeyd etmək istərdim. Biz bu mexanizmin tətbiqinə bu yaxınlarda start vermişik və qısa müddət ərzində çox gözəl nəticələr əldə edilibdir. Təkcə bu ilin birinci rübündə 28 investisiya təşviqi sənədi və bu günə qədər cəmi 257 investisiya təşviqi sənədi verilmişdir, 229 sahibkar bu imkanlardan faydalanıb. Bu layihələrə qoyulacaq və artıq qoyulmaqda olan sərmayənin həcmi 2,3 milyard manatdır. Baxın, əgər biz investisiya təşviqi mexanizmini işə salmasaydıq, bu vəsait ölkə iqtisadiyyatına qoyulmayacaqdı. Bu vəsait qoyulur, bu, böyük vəsaitdir və ilkin

hesablamalara görə, təkcə bu proqram çərçivəsində 17 min yeni daimi iş yeri yaradılacaqdır. Görün nə qədər əlavə məhsul istehsal ediləcək və bu məhsul rəqabətqabiliyyətli məhsul olacaqdır. Çünki bütün bu məsələlərə dövlət qurumları çox diqqətlə yanaşırlar. Əminəm ki, bu məhsulun böyük hissəsi ixracyönümlü məhsul olacaqdır. Ona görə, bax, bir istiqamətdə aparılan islahat görün nə qədər böyük xeyir verir. Ona görə, mən deyəndə ki, islahatlar dərinləşməlidir, bu, sadəcə olaraq, söz deyil, bunun arxasında çox ciddi proqramlar dayanır. İnvestisiya təşviqi, ixracın təşviqi mexanizmləri artıq işə düşüb və sahibkarlar bundan da faydalanırlar. Biz dünyada mövcud olan ən mütərəqqi praktikanı Azərbaycana gətirməliyik, sınaqdan keçirməliyik və tətbiq etməliyik.

Sevindirici hal ondan ibarətdir ki, Azərbaycanda sənaye istehsalı artır. Son bir-iki il ərzində neftin qiymətinin və hasilatın müəyyən dərəcədə düşməsi nəticəsində sənaye istehsalı Azərbaycanda azalırdı. Qeyri-neft sənayesi az da olsa artırdı, amma ümumiyyətlə, sənaye istehsalı azalırdı. Artıq bu ildən başlayaraq dönüş yarandı, sənaye istehsalı qeyd etdiyim kimi, 2 faiz artmışdır, qeyri-neft sənayesi isə 9,9 faiz, yəni, təxminən 10 faiz. Çox gözəl göstəricidir, bir daha demək istəyirəm ki, bizim siyasətimizi əks etdirir, görülən işlərin nəticəsidir. Sənayeləşmə siyasəti Azərbaycanda bundan sonra da davam etdiriləcək.

Hesab edirəm ki, sənaye zonalarının, sənaye parklarının yaradılması artıq gözəl nəticələr veribdir. Bizim bir neçə sənaye zonamız artıq fəaliyyətə başlayıb. Sumqayıt Kimya Sənaye Parkı, Neftçala, Mingəçevir sənaye zonaları artıq fəaliyyətdədir. Keçən ilin sonunda Sumqayıtda 4 müəssisə açılıb, 3 müəssisənin təməli qoyulub. Bu il bizim sənaye inkişafımızı böyük dərəcədə gücləndirəcək iki nəhəng zavod işə düşəcəkdir – "SOCAR Polymer" və azot gübrələri zavodları. Bu zavodların tikintisinə, ümumiyyətlə, 2 milyard dollara yaxın vəsait qoyulub. Hazırda Sumqayıt Kimya Sənaye Parkında 17 rezident var. Ümumiyyətlə, oraya qoyulacaq investisiyaların həcmi 2,8 milyard dollardır. Baxın, əgər biz vaxtilə Sumqayıt Kimya Sənaye Parkını yaratmasaydıq, bu vəsaitlər də qoyulmayacaqdı - 2,8 milyard dollar və investisiya təşviqi sənədində 2,3 milyard manat. Bax, bu vəsaitlər sahibkarların əlində qalacaqdı, yaxud da ki, indi bu vəsaitin əlbəttə, böyük hissəsi kredit resurslarıdır, o götürülməyəcəkdi, investisiya qoyulmayacaqdı və sənaye inkişafı da mümkün olmayacaqdı.

Biz indi bir çox bölgələrdə oxşar zonalar yaradırıq. Mən onların arasında Mingəçevir Yüngül Sənaye Parkını xüsusi qeyd etmək istəyirəm. Mingəçevir şəhəri böyüyür və əhali artır. Mingəçevirdə iş yerləri ilə bağlı problemlər mövcud idi, bu gün də bu problemlər var. Bu şəhərin ətrafında kənd təsərrüfatı sahələri yoxdur. Ona görə, Mingəçevir ancaq sənaye və turizm şəhəri kimi inkişaf etməlidir. Bu istiqamətdə çox önəmli addımlar atılıbdır - infrastrukturla, yollarla, içməli su ilə və digər məsələlərlə, o cümlədən yeni iş yerlərinin yaradılması ilə bağlı. Bu il Mingəçevir Yüngül Sənaye Parkında 2 böyük müəssisə, iplik fabrikləri açılıbdır. Bu iplik fabrikləri bu günə qədər Azərbaycanda yaradılmış iplik fabriklərinin yarısını təşkil edir. Burada iyirmi min ton iplik istehsal ediləcək, onun böyük hissəsi ixrac olunacaq. Ən azı 700-750 nəfər işlə təmin ediləcəkdir. Yəni, Mingəçevir Yüngül Sənaye Parkı artıq fəaliyyət göstərir və biz növbəti aylarda yeni müəssisələrin yaradılması ilə bağlı təkliflər gözləyirik.

Bu il sənayemizin inkişafının təzahürü olan Neftçala Sənaye Məhəlləsində biz bu yaxınlarda avtomobil zavodunun açılışını qeyd etmişik. Neftçala Sənaye Məhəlləsinin açılışı keçən il mənim iştirakımla qeyd edildi və bu il 10 min avtomobil istehsal edən zavodun açılışı olmuşdur. Bu zavodda 300-dən çox insan işlə təmin ediləcək, həm daxili bazar, həm də xarici bazar üçün rəqabətqabiliyyətli avtomobillər istehsal olunacaq. Əlbəttə ki, dövlət qurumları, - mən bunu əvvəlki çıxışlarda da demişəm, - yerli avtomobillərə üstünlük verməlidirlər. Dövlət qurumları bu məsələyə çox ciddi nəzarət etməlidirlər.

Bizim statistikamıza görə, bu ilin birinci rübündə idxal olunan avtomobillərin sayı kəskin artmışdır. Bu, əlbəttə, iqtisadi canlanmanın təzahürüdür, onu göstərir ki, vətəndaşlarda indi əlavə maliyyə imkanları yaranıbdır, kəskin artıbdır. Bu, özlüyündə müsbət göstəricidir, ancaq bu, o deməkdir ki, valyutamızın xaricə köçürülməsi də kəskin artıbdır. Ona görə, Azərbaycanda istehsal olunan avtomobillər ən azı dövlət qurumları tərəfindən alınmalıdır. Əminəm, vətəndaşlar da görəcəklər ki, bu avtomobillər yüksək standartlara cavab verir və qiymət də xaricdən gətirilən avtomobillərlə müqayisədə daha münasibdir.

Bu il, bu yaxınlarda Gəncə avtomobil zavodunda onmininci traktor istehsal edilibdir. Bu da bizim müştərək əməkdaşlığımızın təzahürüdür. Biz indi fermerləri "Gəncə-Belarus" traktoru ilə təmin edirik. Bu traktorlara çox böyük maraq var. Mən bölgələrdə, tarlalarda olarkən maraqlanıram və bütün fermerlər bu traktorları çox yüksək qiymətləndirirlər. Əgər vaxtilə bu zavod yaradılmasaydı, bu traktorları istehsal etməsəydi, həmin texnikanın hamısını biz xaricdən alası olacaqdıq və nə qədər pul xərcləyəcəkdik. İndi isə biz həm ixrac edirik, həm də üçüncü ölkələrdə "Gəncə-Belarus" traktorlarının istehsalına başlayırıq. Bax, bu nəticələr deməyə əsas verir ki, yaranmaqda olan Hacıqabul, Masallı və Sabirabad sənaye zonalarının fəaliyyəti də uğurlu olacaq.

Kənd təsərrüfatı ilə bağlı mən giriş sözümdə dedim, artım 4,2 faizdir, yaxşı göstəricidir, xüsusilə bitkiçilikdə.

Bunun böyük hissəsi pambığın istehsalı ilə bağlıdır. Biz növbəti illərdə əlbəttə ki, ərzaq təhlükəsizliyi məsələlərinə daha böyük diqqət yetirməliyik, xüsusilə taxılçılığa və heyvandarlığa. Biz ənənəvi texniki məhsulların inkişafı ilə bağlı çox ciddi addımlar atmışıq və bir çox müşavirələr keçirilibdir. Taxılçılıq, heyvandarlıq ərzaq təhlükəsizliyini təmin edən əsas sahələrdir. Bilirəm ki, dövlətin dəstəyi ilə və özəl qurumların fəaliyyəti nəticəsində buğda əkini genişlənir, yeni əkin sahələri dövriyyəyə çıxarılır, suvarma işləri təmin edilir. Bu sahəyə çox ciddi diqqət göstərilməlidir ki, biz özümüzü əsas ərzaq məhsulları ilə tam təmin edə bilək. Biz indi ət, süd məhsulları ilə özümüzü təqribən 80-90 faiz səviyyəsində təmin edirik, amma buğda ilə təminat sahəsində bu rəqəm daha aşağıdır. Ona görə, növbəti illərdə bu sahəyə və eyni zamanda, quş ətinin istehsalına daha böyük diqqət yetirilməli və investisiyalar qoyulmalıdır.

Ümid edirəm və əminəm ki, yaradılmaqda olan 45 aqropark bizim ixrac potensialımızı böyük dərəcədə artıracaq. Bu aqroparkların 28-i bitkiçilik, 17-si isə heyvandarlıq kompleksidir. Bu, həm ərzaq təhlükəsizliyinin təmin edilməsinə xidmət göstərəcək, eyni zamanda, ixrac imkanlarımızı genişləndirəcək. Biz mütləq yeni ixrac bazarlarına üz tutmalıyıq. İndi bu istiqamətdə işlər gedir, müxtəlif ölkələrə ixrac missiyaları ezam edilir. Daha da fəal olmalıyıq və daha ciddi nəticələr olmalıdır ki, kontraktlar imzalansın və bizim məhsulumuz növbəti, yəni, yeni bazarlara çıxa bilsin. Təbii ki, ənənəvi bazarlarda yerimizin möhkəmləndirilməsi istiqamətində addımlar atılır. Hazırda Azərbaycanda 400 hektarda, ondan da çox sahədə yeni istixana kompleksləri yaradılır. Onların bir hissəsi artıq fəaliyyətə başlayıb. Bu istixanaların əsas bazarı xarici bazarlardır. Çünki biz özümüzü tərəvəzlə artıqlaması ilə təmin edirik.

Kənd təsərrüfatı texnikasının alınması prosesi bundan sonra da davam etdiriləcəkdir. Bu il bu məqsədlər üçün 160 milyon manat nəzərdə tutulur, ən azı 5 min texnika gətirilməlidir. Keçən il 10 min texnika gətirilmişdir, amma bu proses davam etməlidir. Çünki bizim hələ köhnədən qalan texnikamız kifayət qədər çoxdur, sıradan çıxan var. Biz texnika parkımızı tam müasirləşdirməliyik. Biz dünyanın aparıcı istehsalçılarının texnikasını gətirməliyik. Əslində, bunu edirik.

İndi təhlil aparmaq üçün bizdə daha geniş imkanlar var. Çünki "Azexport" portalına daxil olan sifarişlər, əslində, marketinq üçün çox əhəmiyyətli bir vasitədir. Əvvəllər marketinqi xarici bazarlarda aparmaq üçün bizim belə imkanımız yox idi. Bu işlər daha çox kortəbii görülürdü. Amma "Azexport" portalının əhəmiyyəti ondadır ki, həm yerli istehsalçılar öz məhsulları barədə məlumatları bu saytda yerləşdirirlər, həm də xaricdən sifarişlər gəlir. Təhlil apararkən görürük, bəzən elə sifarişlər gəlir ki, biz o sifarişləri tam yerinə yetirə bilmirik. Bu, dövlət qurumlarına və sahibkarlara yol göstərir ki, həmin sahələr inkişaf etməlidir. Əlbəttə, çox istərdim ki, kənd təsərrüfatı məhsullarının emalı sənayesi daha sürətlə inkişaf etsin. Mövcud inkişaf bizi qane edə bilməz. Düzdür, son vaxtlar bir çox konserv və şirə istehsalı zavodları işə düşüb. Əlbəttə, bu, bizim potensialımızı əks etdirmir. Ancaq 400 hektarda yaradılacaq istixanaların məhsulu, onun bir hissəsi, yaxşı olar ki, böyük hissəsi Azərbaycanda emal olunsun və ixrac edilsin. Bizim indi kənd təsərrüfatı məhsulları arasında ən çox gəlir gətirən pomidor ixracıdır. Ancaq əgər burada yeni emal müəssisələri yaranarsa, biz hazır məhsul ixrac edərik və hazır məhsula, deyə bilərəm ki, daha böyük tələbat və daha az rəqabət var. Ona görə hesab edirəm ki, biz kənd təsərrüfatı emalı sahəsində səylərimizi gücləndirməliyik. Biz son vaxtlar daha çox istehsala üstünlük verirdik və kreditlər verilirdi. Bu ildən başlayaraq, çox ciddi konkret plan tərtib edilməlidir – hansı bölgələrdə, hansı emal müəssisələri, konserv, şirə zavodları açılsın.

Biz ixracyönümlü kənd təsərrüfatı sahələri üzrə işlərimizi bundan sonra da davam etdirəcəyik. Mən bir müddət bundan əvvəl tapşırıq vermişdim ki, üzümçülüklə, şərabçılıqla bağlı olan məsələlər ciddi təhlil edilsin. Çünki mövcud vəziyyət bizi heç cür qane edə bilməz. İndi ilkin məlumat ondan ibarətdir ki, bizim kifayət qədər emal gücümüz, yəni, şərab zavodlarımız var, amma onların bir çoxu çox zəif işləyir. Yəni, istehsal gücünün 20-30 faizi səviyyəsində işləyir. Bilmirəm, vaxtilə sahibkarlar bu zavodları nəyə görə tikiblər, bəlkə pulları çox idi, bilmirdilər ki, pulları haraya yatırsınlar - tikiblər, amma səmərəsiz istifadə edirlər. Bu, heç bir məntiqə sığmayan məsələdir. Ona görə, bizim indi vəzifəmiz ondan ibarətdir ki, bu şərab zavodlarını sahibkarlar düzgün şəkildə idarə etsinlər. Üzüm istehsalı bizdə artır, yeni üzüm bağları salınır və mən bunu alqışlayıram. Şərabın ixracı da artır və burada da dövlət öz rolunu oynayır. İxrac missiyaları, sərgilərdə iştirakımız bunu mümkün edir. Ancaq üzümçülük, şərabçılıqla bağlı növbəti xüsusi addımlar atılmalıdır. Vaxtilə biz dövlət proqramı qəbul etmişik. Mən deyə bilmərəm ki, bu proqram lazımi səviyyədə icra edilir. Ona yenidən baxmaq, təhlil aparmaq lazımdır ki, bu proqramın nəticəsində nə əldə etmişik? Yenə də deyirəm, yeni üzüm bağları salınır, şərab istehsalı artır, xarici bazarlara çıxır, amma bu, bizim çox gözəl ixrac məhsulumuz olmalıdır.

Son illərdə pambıqçılıqla bağlı görülən işlər bu sahənin bərpasına, dirçəlməsinə gətirib çıxarmışdır. Bir neçə dəfə zona müşavirələri keçirilmişdir və burada əsas məsələ işsizliyin aradan qaldırılmasıdır. Pambıqçılıqda 200 minə yaxın insan, yəni, bu günə qədər işsiz olan insan işlə təmin edilib. Biz satınalma qiymətini artıraraq

tarlalarda işləyənlərin rifah halını yaxşılaşdırırıq. Əlbəttə ki, əgər pambıqçılığa belə güclü təkan verilməsəydi, Mingəçevir Yüngül Sənaye Parkının yaradılmasına da ehtiyac qalmayacaqdı. Çünki indi xaricdən pambıq alıb burada emal etmək heç bir iqtisadi səmərəyə uyğun gəlmir. Ona görə, pambıqçılığın inkişafı, ilk növbədə, sosial məsələdir, sosial təşəbbüsdür və tədarükçü şirkətlər, fermerlər, yerli icra orqanlarının nümayəndələri bunu bilsinlər ki, pambıqçılıq həm də yerli istehsala təkan verir, ixracı artırır. Biz keçən il 207 min ton pambıq tədarük etmişik, 2015-ci ildə isə cəmi 35 min ton. Mən sonuncu müşavirədə də demişəm, pambıqçılıq bundan sonra da ancaq məhsuldarlığın artırılması hesabına inkişaf etməlidir.

Son vaxtlar bizim tövsiyəmizi nəzərə alaraq, sahibkarlar zeytunçuluğa böyük diqqət göstərirlər, yeni bağlar salınır və dövlət kömək göstərir, su xətləri çəkir. Bu da çox gözəl ixracyönümlü məhsulumuz olacaq. Dünya bazarlarında zeytun yağına çox böyük tələbat var. Dünyada cəmi bir neçə ölkə bu yağı istehsal edir. Azərbaycan da onların arasında yer tutmalıdır, həm daxili bazarı təmin etməlidir, həm ixrac etməlidir.

Meyvə bağları genişlənir. Çayçılıq, çəltikçilik, fındıqçılıq, baramaçılıq, sitrus meyvəçiliyi, tütünçülük və digər sahələri inkişaf etdirmək üçün bir neçə müşavirə keçirilmişdir. Mən bəzi rəqəmləri səsləndirmək istəyirəm vətəndaşlar bilsinlər ki, görülən işlər necə səmərə verir. Tütünçülük. 2015-ci ildə cəmi 1300 hektarda tütün əkilmişdisə, 2018-ci ildə bu, 3300 hektara çatacaq. Tütünü biz indi ixrac edirik. Bu, ixracyönümlü məhsuldur. Fermerlər yaxşı pul qazanırlar. İndi dövlət qurutma kameraları alır. Azərbaycanda tikilməkdə olan siqaret fabriki də bu tütünü alacaq, siqaret hazırlayacaq və ixrac edəcək, idxaldan asılılığı azaldacaq. Barama istehsalı. 2015-ci ildə 240 kiloqram barama tədarük olunmuşdusa, 2017-ci ildə bu rəqəm 240 tona qalxdı. Bu il biz təqribən 450-500 ton barama gözləyirik. İlk növbədə, bu da mənim üçün sosial layihədir. Çünki kümçülər indi az müddətdə - 30-40 gün ərzində böyük vəsait qazanırlar və Şəki ipək kombinatında yüzlərlə insan işlə təmin edilir. Əgər bu il biz 450-500 ton barama tədarük etsək, əminəm, Şəki ipək kombinatı, ola bilər ki, ilboyu fasiləsiz işləsin və xammal da kifayət qədər olacaq. Yüzlərlə insan Şəkidə işlə təmin edilir və bir çox rayonlarda pul qazanır.

1987-ci ildə heç bir əsas olmadan ovaxtkı sovet rəhbərliyi tərəfindən Heydər Əliyev bütün vəzifələrdən uzaqlaşdırıldı. Bunun heç bir əsası yox idi. Çünki onun peşəkarlığı, gördüyü işlərin nəticələri, əlbəttə ki, ona qarşı edilən ədalətsizliyə uyğun gəlmirdi. Ancaq o vaxt sovet rəhbərliyində olan adamlar, sovet dövlətinin rəhbəri ona qarşı çox mənfi münasibət göstərirdi. Heydər Əliyev çox prinsipial, sözünü deyən insan idi. O görürdü ki, ölkədə vəziyyət pisləşməyə doğru gedir. O görürdü ki, real islahat əvəzinə, boşboğazlıq, populizm hökm sürür. O görürdü ki, qəbul edilmiş qərarlar sovet dövlətinin zəifləməsinə xidmət göstərir. Eyni zamanda, 1985-ci ildən başlayaraq, Sovet İttifaqında milli münasibətlər sahəsində çox böyük pozuntulara yol verilmişdir. Sovet dövlətini vahid bir dövlət kimi saxlayan, ilk növbədə, milli münasibətlərin tənzimlənməsi idi. 1985-ci ilə qədər bu münasibətlər demək olar ki, sağlam zəmində qurulmuşdur. Bütün xalqlar rahat inkişaf edə, öz mədəniyyətini qoruya bilirdilər.

Ona görə bütün bu xoşagəlməz meyillərə qarşı Heydər Əliyev biganə qala bilməzdi, öz səsini ucaldırdı və əlbəttə ki, bu, sovet rəhbərliyinin xoşuna gəlmirdi. Heç bir əsas olmadan bütün vəzifələrdən uzaqlaşdırılandan sonra Azərbaycan böyük dayağı itirmiş oldu. Bizim mənfur qonşularımız dərhal bundan istifadə etdilər, onun istefasından iki həftə keçməmiş erməni

separatçıları və onların mərkəzdəki havadarları məsələ qaldırdılar ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilsin.

Yəni, Heydər Əliyev amili, güclü şəxsiyyətin dövlətin mərkəzində olması imkan vermirdi ki, belə separatçı meyillər baş qaldırsın. Baxmayaraq ki, 1969-cu ilə qədər belə meyillər var idi. Ancaq Heydər Əliyev Azərbaycana rəhbər vəzifəsinə gələndən sonra bütün bu meyillərin qarşısı alınmışdır.

O vaxtdan xalqımıza, respublikamıza qarşı çox böyük ədalətsizliklər edilmişdir. Bunun nəticəsində Azərbaycan böyük fəlakətlə üzləşmişdir. Tam əminliklə deyə bilərəm ki, əgər Heydər Əliyev o vaxt Azərbaycanda olsaydı, Azərbaycan rəhbəri kimi heç vaxt imkan verməzdi ki, separatçı meyillər baş qaldırsın və Dağlıq Qarabağ münaqişəsi başlasın. Çünki onun qətiyyəti, cəsarəti, nüfuzu heç vaxt imkan verməzdi ki, belə meyillər mövcud olsun. Ancaq ondan sonrakı rəhbərlər, əfsuslar olsun ki, zəiflik göstərmişlər, prinsipiallıq göstərməmişlər və onlar üçün öz şəxsi karyerası xalqın mənafeyindən qat-qat böyük əhəmiyyət kəsb edirdi.

1990-cı ilə qədər Heydər Əliyev pensiyaçı kimi yaşayırdı. Baxmayaraq ki, Heydər Əliyevə qarşı mərkəzdə təşkil edilmiş qarayaxma kampaniyaları aparılırdı, ancaq Azərbaycan xalqı ona olan hörmətini daim öz qəlbində yaşadırdı. 1990-cı ilin faciəvi günlərində Heydər Əliyev əsl lider kimi yenə də öz xalqının yanında yer tutdu, xalqa yol göstərdi. Mən o dəhşətli günləri yaxşı xatırlayıram, sovet hökuməti, sovet rəhbəri tərəfindən Azərbaycan xalqına qarşı böyük cinayət törədilmişdi. Qanlı Yanvar faciəsi böyük cinayətdir, öz xalqına qarşı böyük cinayətdir. Yüzdən çox günahsız insan vəhşicəsinə qətlə yetirilmişdir, yüzlərlə insan yaralanmışdır və itkin düşmüşdür. Heydər Əliyev dərhal bu ədalətsizliyə qarşı öz səsini ucaltdı. Yanvarın 21-də Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək, – mən də onun yanında idim, – orada sovet rəhbərliyini, bu vəhşi aktı pislədi və Azərbaycan xalqına öz həmrəyliyini ifadə etdi. Bu, böyük cəsarət tələb edən addım idi. Çünki o vaxt Heydər Əliyev sovet təbliğatında çox böyük təzyiqlərə, böyük kampaniyalara məruz qalırdı. Ancaq xalqın ona olan sevgisini bu çirkin əməllər söndürə bilməzdi. Əksinə, xalq görürdü ki, öz liderinə qarşı böyük ədalətsizlik törədilir və onun ətrafında daha da sıx birləşməyə cəhd göstərirdi. 1990-cı il yanvarın 21-də Heydər Əliyevin Moskvada daimi nümayəndəlikdə keçirilmiş mətbuat konfransındakı çıxışı dəfələrlə dərc edilib, televiziyada göstərilib. Yenə də deyirəm, bu, böyük cəsarət tələb edən addım idi. Bu addım bir daha göstərirdi ki, Azərbaycan xalqının problemləri, mənafeyi, dərdi onun üçün hər şeydən üstündür, hər şeydən əzizdir və ağır günlərdə o, mütləq öz xalqının yanında olmalı idi. Onu da qeyd etməliyəm ki, o vaxt sovet hakimiyyəti hələ möhkəm idi, Sovet İttifaqının dağılmasına hələ iki il vaxt qalırdı. Heç kimin ağlına gələ bilməzdi ki, nə vaxtsa sovet dövləti dağılacaq.

Ondan sonra Heydər Əliyev uzun illər xidmət etdiyi Kommunist Partiyasının sıralarından çıxdı. Çox ciddi bəyanat vermişdi və təbii ki, ona qarşı bundan sonra da təzyiqlər, təqiblər daha da geniş vüsət almışdı, hətta tam dəqiq məlumata görə, onun həbsi məsələsi də qoyulmuşdu. Moskvada qalmaq mümkün deyildi, onun bütün ailə üzvlərinə qarşı da çox ciddi addımlar atılmışdı. Bütün ailə üzvləri tutduqları vəzifələrdən, – vəzifələr o qədər də böyük vəzifələr deyildi, adi vəzifələr idi, - çıxarılmışdı. Demək olar ki, sovet hakimiyyətinin repressiya maşınının nəticələrini biz o vaxt görmüşük və hiss etmişik.

Heydər Əliyev doğma Vətənə üz tutur və Bakıya gəlir. Əfsuslar olsun ki, Bakıda da ona yaşamağa imkan vermədilər və Naxçıvana - doğulduğu yerə gedib orada yaşamağa məcbur olur və Azərbaycan xalqı onun ətrafında birləşməyə başlayır. Azərbaycan xalqı açıq-aydın görürdü ki, bu ağır vəziyyətdən xalqı ancaq Heydər Əliyev çıxara bilər, xalqı ancaq o xilas edə bilər. Naxçıvanlılar onun ətrafında sıx birləşərək Heydər Əliyevi Ali Məclisin Sədri vəzifəsinə seçdilər və o, Naxçıvanı işğaldan qorudu. Çünki o vaxt Ermənistan Naxçıvanı da işğal etmək istəyirdi. Ancaq Heydər Əliyev buna imkan vermədi. Orada böyük səfərbərlik işləri görülmüşdür, özünümüdafiə dəstələri yaradılmışdır və Naxçıvanın işğalına imkan verilməmişdir. Naxçıvanlılar da Heydər Əliyevi qorudular. Çünki o vaxt – 1992-ci ildə hakimiyyəti qanunsuz, dövlət çevrilişi nəticəsində zəbt etmiş AXC-Müsavat hakimiyyəti Heydər Əliyevə qarşı işlərə başlamışdı və Naxçıvanda da çevriliş etmək fikirləri var idi. Hətta o vaxt Daxili İşlər Nazirliyinin daxili qoşunlarının bir dəstəsini Naxçıvana desant göndərmək istəmişlər, naxçıvanlıları, Heydər Əliyevi hədələmişdilər, ancaq sonra bu çirkin əməllərdən əl çəkməli oldular. Çünki gördülər ki, onları çox ciddi müqavimət gözləyir və bu, avantüra onlara çox baha başa gələ bilər və yenə də, – sonra da bunu dəfələrlə göstərəcəklər, – qorxaqlıq göstərərək öz çirkin niyyətlərindən əl çəkməli oldular.

Naxçıvan dövrü çox yaddaqalan dövrdür. Mən o dövrü çox yaxşı xatırlayıram. Mən dəfələrlə Naxçıvana atamın yanına getmişəm, onunla bərabər olmuşam. Çox ağır vəziyyətdə Naxçıvanın qorunması, Naxçıvanın yaşaması üçün çox böyük işlər görülmüşdür. Müstəqilliyimiz üçün də çox böyük işlər görülmüşdür. Çünki uzun fasilədən – 1920-ci ildən sonra ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvanda Heydər Əliyevin təşəbbüsü ilə Ali Məclisin sessiyasında rəsmi dövlət bayrağı kimi təsdiq olundu. Bu, müstəqilliyə gedən yolun başlanğıcı idi.

Azərbaycanda vəziyyət getdikcə gərginləşirdi, torpaqlarımız erməni işğalı altına düşürdü. Ovaxtkı AXC-Müsavat hakimiyyəti xalqın ümidlərini doğrulda bilmədi, öz yarıtmaz, xəyanətkar siyasəti ilə Azərbaycan xalqına, Azərbaycan dövlətçiliyinə böyük zərbələr vurdu və demək olar ki, ölkəni idarəolunmaz vəziyyətə gətirdi. Xaos, anarxiya, talançılıq, özbaşınalıq, siyasi, iqtisadi, hərbi böhran hökm sürürdü, torpaqlarımız işğal altına düşürdü. Azərbaycanın ovaxtkı iqtidarı isə öz laxlayan hakimiyyətini qorumaq üçün cinayətlərə, vətəndaş müharibəsinə əl atmışdır. Biz o günləri, o illəri yaxşı xatırlayırıq. Öz hakimiyyətini saxlamaq üçün Gəncəni bombalamağa qərar vermişdi və Gəncənin dağılmış binalarının o mənzərəsi bu gün bizim gözümüzün qabağındadır. Azərbaycan xalqı o anti-milli hakimiyyətə yox demişdir, cəmi bir il ona dözə bilmişdir və öz lideri ətrafında birləşmişdir. Hələ 1992-ci ildə Azərbaycanın qabaqcıl ziyalıları, tanınmış insanlar, ictimai xadimlər Heydər Əliyevə müraciət edərək partiyanın yaradılması ilə bağlı təkliflər irəli sürmüşlər və 1992-ci ilin noyabrında Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirilmişdir. Bu da gənc dövlətin siyasi sisteminin yaradılması demək idi. Çünki o günə qədər Azərbaycanda siyasi sistem yox idi, siyasi münasibətlər, ümumiyyətlə, mövcud deyildi. 1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyev Bakıya gəlmişdir. Ovaxtkı AXC-Müsavat hakimiyyəti yenə də qorxaqlıq göstərərək kənara çəkilmiş, ölkə, demək olar ki, idarəolunmaz vəziyyətə düşmüşdü. O ağır, çətin vəziyyətdə xalq bu tarixi missiyanı Heydər Əliyevə həvalə etmişdir.

1993-cü ildən başlayaraq Azərbaycan bu günə qədər uğurlu inkişaf yolu ilə gedir. Baxmayaraq, 1994-cü və 1995-ci illərdə iki dəfə dövlət çevrilişinə cəhd göstərilmişdir, ancaq Azərbaycan xalqı imkan vermədi ki, cinayətkar ünsürlər hakimiyyəti bir daha qanunsuz zəbt etsinlər. Əlbəttə ki, Heydər Əliyevin nüfuzu, onun cəsarəti, onun siyasəti imkan vermədi ki, kimsə hakimiyyəti qanunsuz yollarla zəbt etsin.

Ondan sonra Azərbaycanda sabitlik dövrü başlamışdır və bu dövr bu gün də davam edir. Ölkəmiz üçün çox önəmli qərarlar qəbul edilmişdir, siyasi islahatlara start verilmişdir. Məhz o illərdə bizim inkişafımızla bağlı strateji seçimlər edilmişdir ki, Azərbaycan müasir, demokratik ölkə kimi inkişaf etməlidir. İqtisadi islahatlara start verilmiş, bazar iqtisadiyyatı prinsipləri əsas prinsiplər kimi tətbiq olunmağa başlamışdır. Azərbaycan beynəlxalq aləmlə münasibətləri qura bilmişdir və demək olar ki, müstəqilliyimizin ilk illərində mövcud olan beynəlxalq təcriddən də çıxa bilmişdir. Ölkəmiz üçün lazım olan beynəlxalq əlaqələr Azərbaycana investisiya cəlb edilməsinə gətirib çıxarmışdır. 1994-cü ildə "Əsrin kontraktı" imzalanmışdır. Bu kontraktın bizim tariximizdə, iqtisadi inkişafımızda müstəsna rolu vardır. 1995-ci ildə müstəqil dövlətin Konstitusiyası qəbul edilmişdir. Eyni zamanda, 20 Yanvar faciəsinə siyasi və hüquqi qiymət verilmişdir. Əfsuslar olsun ki, ondan əvvəlki hakimiyyət bu məsələyə biganə qalmışdır. Azərbaycan uğurla inkişaf etməyə başlamışdır. 1993-2003-cü illərdə ölkə qarşısında duran vəzifələr uğurla icra edilmişdir. Ordu quruculuğu işində böyük addımlar atılmışdır, uğurlu Horadiz əməliyyatı keçirilmişdir və torpaqlarımızın bir hissəsi işğalçılardan azad edilmişdir. Yəni, 10 il ərzində Azərbaycanda dövlət quruculuğu işində çox böyük addımlar atılmışdır və bu addımlar bu gün bizim uğurlu siyasətimizi şərtləndirir.

2003-cü ilin oktyabr ayında Heydər Əliyev xalqa müraciətində görülmüş işlərlə bağlı öz fikirlərini bildirmiş və əminliyini ifadə etmişdir ki, onun davamçıları onun yolu ilə gedərək, Azərbaycanı ondan sonra da uğurla idarə edə bilərlər.

2003-cü ildə Azərbaycan xalqı mənə böyük etimad göstərmişdir və o gündən bu günə qədər çalışıram ki, bu etimadı doğruldum. 2003-cü ildə prezident seçkiləri ərəfəsində söz vermişdim ki, əgər xalq etimad göstərərsə, Heydər Əliyev siyasəti Azərbaycanda davam etdiriləcəkdir. Fəxr edirəm ki, sözümə əməl etdim və son 15 il ərzində Azərbaycan Heydər Əliyevin qoyduğu yolla uğurla, inamla gedir. Azərbaycanda sabitlik tam təmin olunur, sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Biz indi görürük ki, dünyanın müxtəlif yerlərində vəziyyət gərginləşir, yeni münaqişələr, qanlı toqquşmalar, vətəndaş müharibələri, çevrilişlər baş verir. Ona görə baş verir ki, insanlar hakimiyyətdən narazıdırlar. Ona görə baş verir ki, hakimiyyət lazım olan səviyyədə, düzgün siyasət aparmır, insanları narahat edən problemləri həll etmir, iqtisadi inkişafı təmin edə bilmir, böyük pozuntulara yol verir. Azərbaycanda isə sabitliyin təminatçısı, onun qarantı Azərbaycan xalqıdır və xalq-iqtidar birliyidir. Bu gün Azərbaycan dünya miqyasında ən sabit və ən uğurla inkişaf edən ölkələrdən biridir.

Azərbaycan dövləti möhkəm əsaslar üzərində qurulubdur. Biz son 15 il ərzində milli dəyərlərimizlə bağlı çox ciddi siyasət aparırıq. Bizim milli dəyərlərimiz, ənənəvi dəyərlər bizim üçün əsasdır. Çox şadam ki, bu gün gənc nəsil milli ruhda tərbiyə olunur və milli ləyaqət hissləri güclənir, müstəqillik ən böyük sərvət kimi cəmiyyət tərəfindən qəbul edilir və dəstəklənir.

Azərbaycan dünya miqyasında dinlərarası, millətlərarası münasibətlərin tənzimlənməsində nümunəvi ölkəyə çevrilibdir. Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələri Azərbaycan səması altında bir ailə kimi, sülh, mehribanlıq, dostluq şəraitində yaşayırlar. Bu, bizim böyük sərvətimizdir və bu, bizim siyasətimizin böyük uğurudur.

Azərbaycan beynəlxalq aləmdə böyük nüfuza malik olan bir ölkədir. Bizim bir çox ölkələrlə bərabərhüquqlu,

gözəl, konstruktiv münasibətlərimiz vardır. Biz prinsipial mövqeyimizdən heç vaxt bir addım geri atmırıq. Tərəfdaşlarımızla qarşılıqlı maraqlar üzərində qurduğumuz münasibətlər, düzgün xarici siyasət bizə imkan verir ki, həm beynəlxalq arenada öz gücümüzü, təsir imkanlarımızı artıraq, eyni zamanda, daxili problemləri, xüsusilə iqtisadi inkişafla bağlı olan problemləri həll edək.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim prinsipial mövqeyimiz dəyişməz olaraq qalır. 2003-2018-ci illərdə – 15 il ərzində bir çox beynəlxalq təşkilatlar - BMT Baş Assambleyası, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı və digər təşkilatlar bu münaqişə ilə bağlı bizim mövqeyimizi, ədaləti əks etdirən qərar və qətnamələr qəbul etmişlər. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır, Azərbaycanın ərazi bütövlüyü tam bərpa olunmalıdır, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra edilməlidir. Bu qətnamələrdə açıq-aydın göstərilir ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxmalıdır. Münaqişənin digər həlli yolları yoxdur. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil, heç vaxt olmayıb və heç vaxt olmayacaqdır. Azərbaycan xalqı və dövləti heç vaxt imkan verməz ki, Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın. Əgər kimsə başqa cür fikirləşirsə, hesab edirəm ki, o, əbəs yerə illüziyalarla yaşayır. Azərbaycanın ərazi bütövlüyü tam şəkildə və qeyd-şərtsiz təmin edilməlidir. Bunu ədalət və beynəlxalq hüquq tələb edir. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bunu tarix deyir, mədəniyyət deyir, bunu beynəlxalq hüquq deyir. Dağlıq Qarabağda keçirilmiş son qondarma "referendum" heç bir ölkə, heç bir beynəlxalq təşkilat tərəfindən tanınmayıb. Bu, bir daha onu göstərir ki, beynəlxalq aləm, bütün ölkələr Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz öz prinsipial mövqeyimizi bundan sonra da gücləndirəcəyik. Azərbaycanın həm beynəlxalq müstəvidə, həm də regionda kifayət qədər imkanları var. Bizim iştirakımız olmadan bölgədə heç bir layihə icra edilə bilməz. Ermənistanda bu reallığı nə qədər tez başa düşsələr, münaqişə o qədər də tez həll edilər və bölgəmizdə sülh təmin olunar.

Biz, eyni zamanda, Xocalı soyqırımı ilə bağlı dünyada çox böyük işlər görürük. Ermənilər tərəfindən törədilmiş misli görünməmiş vəhşilik olan Xocalı soyqırımını son illər ərzində 10-dan çox ölkə soyqırımı kimi tanıyıb və bu proses davam etdiriləcəkdir.

Biz güclü ordu qurmuşuq. Orduların gücünü müəyyən edən aparıcı reytinq agentlikləri Azərbaycan Ordusunu 50 güclü ordu sırasında görürlər. Biz bunu bilirik və bizim hərbi gücümüz gündən-günə artır. İki il bundan əvvəl Azərbaycan Ordusu Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad etmişdir və o torpaqlarda – bizim doğma torpaqlarımızda bu gün Azərbaycan bayrağı dalğalanır. Əminəm ki, gün gələcək və Azərbaycan bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda, o cümlədən Şuşada və Xankəndidə qaldırılacaqdır.

Biz Ulu Öndərin yolu ilə gedərək güclü iqtisadiyyat qura bilmişik. Son 15 il ərzində iqtisadi inkişaf baxımından Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə olmamışdır. Bizim iqtisadiyyatımız üç dəfədən çox artmışdır. Aparıcı beynəlxalq təşkilatlar, Davos İqtisadi Forumu Azərbaycanı rəqabətqabiliyyətliliyinə görə dünyada 35-ci yerə layiq görübdür, inkişaf edən ölkələr arasında isə biz 3-cü yerdəyik. Bizim çox böyük iqtisadi resurslarımız var. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 5 dəfə böyükdür. Azərbaycanda yoxsulluqla, işsizliklə mübarizə gözəl nəticələr verir. Bu böyük sosial problemlərin həlli işində böyük uğurlar əldə edilibdir. Biz energetika, nəqliyyat sahələrində tarixi layihələr icra etmişik və onların icrası davam edir. Biz ölkə daxilində enerji təhlükəsizliyi ilə bağlı məsələləri tam şəkildə həll etdik. Gələcəkdə Azərbaycanın enerji resurslarının dünya bazarlarına çıxarılması ilə bağlı böyük layihələrin başa çatması gözlənilir.

Azərbaycan Avrasiyanın nəqliyyat mərkəzlərindən birinə çevrilibdir. Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri bizim böyük sərmayələrimizlə həyata keçirilir və bu istiqamətdə hələ də həllini tapmamış məsələlər mütləq öz həllini tapacaqdır.

Biz bütün istiqamətlərdə uğurla inkişaf edirik. Bizim inkişafımızın təməlində ulu öndər Heydər Əliyev siyasəti dayanır. Biz bu siyasətə sadiqik, biz tutduğumuz yoldan dönməyəcəyik, daim irəli gedəcəyik.

Azərbaycan xalqını bir daha əmin etmək istəyirəm ki, biz bundan sonra da həmişə inkişaf və tərəqqi yolu ilə gedəcəyik. Sağ olun.

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı istifadəyə verilir. Bu gözəl hadisə münasibətilə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Əminəm ki, yeni Bakı Limanı ölkəmizin nəqliyyat potensialının möhkəmləndirilməsində önəmli rol oynayacaqdır.

Mən bir neçə il bundan əvvəl limanın tikintisi ilə bağlı qərar qəbul etmişəm. Bilirdim, görürdüm ki, Azərbaycanın çox böyük nəqliyyat və tranzit potensialı olacaqdır, ölkəmiz sürətlə inkişaf edəcəkdir. Belə bir qərarın qəbul edilməsi bir daha göstərdi ki, bizim siyasətimiz uzaqgörən siyasətdir, düşünülmüş siyasətdir.

Tikinti işləri başlamışdı və biz bu tikinti işlərini mərhələlərə böldük. 2014-cü ildə bərə terminalı, bu ilin əvvəlində isə Ro-Ro terminalı istifadəyə verildi, bu gün isə liman tam fəaliyyətə hazırdır. On beş milyon ton

yükaşırma, o cümlədən 100 min konteyner yükaşırma qabiliyyəti olan liman bizim nəqliyyat infrastrukturumuzun möhkəmlənməsində əlbəttə ki, önəmli rol oynayacaqdır. Bundan sonrakı mərhələ yükaşırma qabiliyyətini 25 milyon tona çatdırmağa hesablanıb. Bax, burada yerlər də hazırdır. Bu gün təqdimatda, o cümlədən limanın genişləndirmə işləri ilə bağlı planlar da məruzə edilmişdir və konteynerlərin həcmi ildə 500 min ədədə hesablanıb.

Limanın inşasında yerli və xarici mütəxəssislər, işçilər iştirak ediblər. Mən gördükləri işlərə görə onlara minnətdarlığımı bildirmək istəyirəm. Limanın tikintisi ilə bağlı işlərə mən şəxsən nəzarət etmişəm. Şadam ki, bu gün burada ən yüksək standartlar tətbiq olunur, bütün avadanlıq, lazım olan texniki vasitələr, ən müasir kranlar alınıb quraşdırılıb. Beləliklə, biz Azərbaycanda çox güclü nəqliyyat-logistika mərkəzini yaratdıq.

Ələtin seçilməsi də təsadüfi deyildi. Çünki mövcud Bakı Dəniz Limanı bizim tələbatımıza artıq uyğun deyil, şəhərin mərkəzində yerləşir və artan yükləri qəbul etmək imkanları çox məhduddur. Ələt isə coğrafi baxımdan çox əlverişli bir yerdir və həm Qərb, həm Cənub istiqamətinə buradan açılan yollar, o cümlədən avtomobil, dəmir yolları əlbəttə ki, bu yerin seçilməsində əsas rol oynamışdır. Əlbəttə ki, Ələt qəsəbəsinin də inkişafı böyük dərəcədə burada yaradılan logistika və nəqliyyat infrastrukturu ilə bağlı olacaq. Əlavə etsək ki, biz yaxın gələcəkdə Ələt Azad İqtisadi Zonasının yaradılmasına başlayacağıq, deməyə tam əsas var ki, Bakı şəhərinin bu ərazisi gələcəkdə çox sürətlə inkişaf edəcək, çoxsaylı iş yerləri yaradılacaq. Beləliklə, Ələt ölkəmizin iqtisadi nəqliyyat potensialının inkişafında əlbəttə ki, önəmli yer tutacaqdır.

Bakı Beynəlxalq Dəniz Ticarət Limanının istifadəyə verilməsi deməyə əsas verir ki, biz nəqliyyat infrastrukturumuzla bağlı qarşımızda duran bütün vəzifələri icra etdik. Bu günə qədər bu istiqamətdə çox böyük işlər görülmüşdür. Xəzərdə bizim ən böyük donanmamız, 260-dan çox gəmimiz var. Mənə verilən məlumata görə, son bir neçə il ərzində əlavə 18 gəmi alınmışdır. Mənim təşəbbüsümlə Bakıda gəmiqayırma zavodu tikilmişdir. Biz bütün növ gəmiləri istehsal edə bilərik, istehsal edirik və beləliklə, xarici tərəfdaşlardan asılılığı aradan qaldırmışıq.

Son 15 il ərzində ölkəmizdə 15 min kilometr avtomobil yolu salınmışdır. Bizim bütün qonşu dövlətlərlə sərhədimizə qədər gedən yollar istifadəyə verilib, şəhərlərarası, kənd yolları, yəni, bu infrastruktur da yaradılıb. Bu illər ərzində 7 aeroport tikilibdir. Onlardan 6-sı beynəlxalq aeroportdur. Azərbaycanın ən müasir təyyarə parkı var. Heydər Əliyev Beynəlxalq Aeroportu bu yaxınlarda beşulduzlu statusu alıbdır. Məlumat üçün demək istərdim ki, dünyada cəmi 9 aeroportun beşulduzlu statusu var, onlardan biri Heydər Əliyev Aeroportudur.

Biz dəmir yolu infrastrukturumuzu müasirləşdiririk, mövcud dəmir yolu xətlərini təzələyirik, yeni dəmir yolu xətləri çəkilir ki, sürət artsın. Lokomotivlər, vaqonlar alınır. Bakı-Tbilisi-Qars dəmir yolu keçən ilin oktyabr ayında bax, bu ərazidə istifadəyə verilmişdir. Bu, tarixi layihə idi. Azərbaycan bu layihənin təşəbbüskarı idi və bu layihənin həyata keçirilməsi üçün böyük vəsait ayırmışdır. Biz Bakını Avropaya dəmir yolu xətti ilə birləşdirdik. Əslində Asiyanı Avropa ilə birləşdirən Azərbaycan olmuşdur. Bu nəqliyyat dəhlizi uzun illər bundan sonra bizə böyük gəlirlər gətirəcək, xalqımıza böyük fayda verəcəkdir. Bakı-Tbilisi-Qars dəmir yolu tarixi layihədir. Bu layihənin uğurla icra edilməsi nəticəsində Azərbaycan bu bölgədə öz mövqeyini daha da gücləndirəcəkdir.

Biz hazırda Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması ilə məşğuluq və öz ərazimizdə bütün lazımi işləri başa çatdırdıq. Beləliklə, həm Şimaldan Cənuba, həm Şərqdən Qərbə gedən yollar Azərbaycan ərazisindən keçir və keçəcəkdir. Şimal-Cənub nəqliyyat dəhlizinin tam başa çatması üçün biz əlavə vəsait ayırdıq və əminəm ki, yaxın bir neçə il ərzində bu dəmir yolu tam istifadəyə veriləcəkdir. Beləliklə, Avrasiya məkanında açıq dənizlərə çıxışı olmayan Azərbaycan nəqliyyat və logistika mərkəzinə çevriləcək. Artıq biz bunu görürük və biz bu funksiyanı artıq yerinə yetiririk.

Fikirləşmək olardı ki, biz artıq bununla işimizi başa çatmış hesab edə bilərik. Ancaq biz gələcəyə baxmalıyıq və baxırıq. Hazırda Cənub-Qərb nəqliyyat dəhlizinin işə salınması ilə məşğuluq. Bu da çox önəmli nəqliyyat dəhlizidir və mənə verilən məlumata görə, birinci sınaq qatarı artıq bu yolla hərəkət edib. Beləliklə, biz böyük nəqliyyat infrastrukturu yaratmaqla Azərbaycanın geosiyasi, geoiqtisadi önəmini qat-qat artırmış oluruq. Eyni zamanda, bu layihələr beynəlxalq əməkdaşlığı genişləndirir, gücləndirir. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərində iştirak edən ölkələrin sayına, onların gücünə baxsaq, görərik ki, bu, doğrudan da genişmiqyaslı beynəlxalq əməkdaşlıq formatıdır. Şərq-Qərb nəqliyyat dəhlizi Çin, Qazaxıstan, Azərbaycan, Gürcüstan, Türkiyə və ondan sonra Avropa ölkələrini birləşdirir. Şimal-Cənub nəqliyyat dəhlizi Pakistan, Hindistan, İran, Azərbaycan, Rusiya, Şimali Avropa ölkələrini birləşdirir. Cənub-Qərb dəhlizi isə daha geniş formatda ölkələri birləşdirir. Bütün bu layihələrdə iştirak edən ölkə Azərbaycandır. Biz bu layihələrin həyata keçirilməsi üçün çox böyük səylər qoyduq, çox böyük siyasi addımlar atıldı. Yəni, bu layihələrin həyata keçirilməsi üçün məqsədyönlü, düşünülmüş şəkildə işlədik, çalışdıq. Nəhayət, bunun nəticəsini görürük.

Bir daha demək istəyirəm ki, bu layihələrin həyata

keçirilməsi təkcə bizə iqtisadi mənfəət gətirməyəcək. Halbuki biz nəqliyyat potensialımızdan çox böyük səmərə ilə istifadə edərək, öz iqtisadi vəziyyətimizi daha da yaxşılaşdıracağıq. Bu layihələr Azərbaycanın geosiyasi önəmini böyük dərəcədə artırır. Azərbaycan Avrasiya məkanında regional əməkdaşlıq üçün əvəzolunmaz ölkə kimi öz fəaliyyətini davam etdirəcək. Onsuz da dünyada bizə böyük hörmət, rəğbət var. Azərbaycan çox etibarlı tərəfdaş, çox qabiliyyətli ölkə kimi tanınır. Bizim artan iqtisadi gücümüz imkan verir ki, belə tarixi layihələri icra edək. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi Azərbaycanın dövlət büdcəsi hesabına həyata keçirilən önəmli layihələrdən biridir və bu gün bizim tariximizdə yaddaqalan və önəmli gün kimi qalacaqdır.

Mən bu limanın tikintisində iştirak edən bütün yoldaşları bir daha salamlayıram, onlara təşəkkürümü bildirirəm. Sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram. Bu gözəl hadisə münasibətilə sizi və bütün Azərbaycan xalqını bir daha təbrik edirəm. Sağ olun.

"Qobu Park" yaşayış kompleksinin açılışında Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Əziz dostlar, mən sizi "Qobu Park" yaşayış kompleksinin açılışı münasibətilə ürəkdən təbrik edirəm. Bu gözəl hadisə bir daha onun göstərir ki, Azərbaycan vətəndaşı, ağır vəziyyətdə yaşayan soydaşlarımız, məcburi köçkünlər daim diqqət mərkəzindədirlər.

Bu kompleksin yaradılması Azərbaycan dövlətinin siyasətini göstərir, köçkünlərə olan qayğının təzahürüdür. Cəmi bir il ərzində bu gözəl yaşayış kompleksi yaradılıbdır. Düz bir il bundan əvvəl bu kompleksin təməli qoyulmuşdur. O vaxt Mehriban Əliyeva təməlqoyma mərasimində iştirak etmişdir. Cəmi bir il ərzində gözəl yaşayış kompleksi yaradılıb.

Bu gün açılışına toplaşdığımız kompleksin bütün infrastrukturu yaradılıb. Elektrik, su, qaz xətləri, bütün infrastruktur məsələləri həll olunub, yollar çəkilib, həm qəsəbədaxili, həm də magistral yola çıxış yolu salınıbdır. Doqquzmərtəbəli on bir yaşayış binası tikilib, gözəl şərait yaradılıb. Mən indi mənzillərlə tanış olmuşam. Mənzillərin ümumi sahəsi 73 min kvadratmetrdir. Gözəl məktəb - 624 şagird yerlik, uşaq bağçası - 220 nəfərlik, tibb məntəqəsi, poçt məntəqəsi, polis məntəqəsi, yəni, yaşamaq üçün bütün şərait yaradılıb və ən yüksək səviyyədə. Gözəl ictimai zonalar yaradılıb, ağaclar əkilib, parklar salınıb. Hesab edirəm ki, bu, köçkün şəhərciklərinin arasında öz gözəlliyi və şəraiti ilə seçilən mərkəzlərdən biridir.

Bu şəhərciyin özəlliyi ondan ibarətdir ki, onun tikintisində özəl sektor fəal iştirak edib, əslində, bunun təşəbbüskarı, icraçısı olub. Son vaxtlar sahibkarlar bir çox sosial layihələr icra edirlər. Mən bu məsələ ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişdim, demişdim ki, sahibkarların sosial məsuliyyəti artmalıdır. Sahibkarlara Azərbaycanda gözəl şərait yaradılıb. Azərbaycan sahibkarlıq üçün çox gözəl ölkədir. Gözəl investisiya iqlimi yaradılır. Sabitlik, əmin-amanlıq hökm sürür. Biznesin inkişafı bizim dövlət siyasətimizdir. Bizim ümumi daxili məhsulumuzun 80 faizi özəl sektorda formalaşır. Belə olan halda daim mən sahibkarlara müraciət edərək tövsiyə etmişdim ki, onlar sosial layihələrə daha böyük diqqət göstərsinlər. Bu, bu sahədə görülən işlər arasında ən genişmiqyaslı layihədir. Bu günə qədər sahibkarlar məktəb, uşaq bağçası tikintisi ilə fəal məşğul olmuşlar. Ancaq məcburi köçkünlər üçün bu ölçüdə, bu miqyasda yaşayış mərkəzinin yaradılması ilk dəfə baş verir.

Bu yaşayış kompleksinin maliyyələşməsində də sahibkarlar iştirak ediblər. Dövlət bu kompleksin yaradılmasına vəsait ayırmayıb. Buna görə bu işi görən "Paşa Holding" şirkətinə öz təşəkkürümü bildirmək istəyirəm. "Paşa Holding" Azərbaycanda böyük quruculuq işləri ilə məşğuldur, ölkə iqtisadiyyatının müxtəlif sahələrinə böyük investisiyalar qoyur, minlərlə iş yerinin yaradılmasına çalışıb və nail olub. Bu gün bu şirkətin sosial məsuliyyəti göz qabağındadır.

Hesab edirəm ki, bu gözəl təşəbbüs digər böyük şirkətlər üçün də nümunə olmalıdır. Əminəm ki, növbəti illərdə məcburi köçkünlər üçün tikiləcək yeni yaşayış şəhərciklərində, mərkəzlərində özəl sektor da fəal iştirak edəcək. Ancaq təbii ki, əsas məsələni, əsas işləri dövlət öz üzərinə götürüb. Son illərdə dövlət xətti ilə köçkünlər üçün yüzə yaxın şəhərcik salınmışdır, istifadəyə verilmişdir. Mən onların bir çoxunun açılışında şəxsən iştirak etmişəm.

Biz hər il minlərlə köçkünü evlərlə təmin edirik. Bu il 20 min köçkün yeni mənzillərlə, evlərlə təmin ediləcək. Bu yaşayış kompleksində 1026 mənzil var. Yəni, burada 1026 ailə yaşayacaq və yaxşı şəraitdə yaşayacaq.

Məcburi köçkünlərin problemlərinin həlli və yaşayış şəraitinin yaxşılaşdırılması, məşğulluğunun artırılması üzrə Dövlət Proqramı uğurla icra edilir. Qeyd etdiyim kimi, yüzə yaxın köçkün şəhərciyi salınıb. Bu məqsədlərə dövlət milyardlarla manat vəsait ayırıb. Qeyd etdiyim kimi, hər il minlərlə ailə evlərlə təmin olunur. Bu ilin sonuna qədər, ümumiyyətlə, son illər ərzində görülmüş işlər nəticəsində 285 min köçkün artıq evlərlə təmin olunacaq. Bu il onlardan təqribən 20 mini yeni evlərə köçəcəkdir.

Dövlət bu istiqamətdə öz siyasətini davam etdirir. Qeyd etdiyim kimi, özəl sektor da bu işlərə qoşulub. Bu da təbiidir. İmkanı olan şirkətlər ehtiyac içində yaşayanlar üçün gərək şərait yaratsınlar. Bu gözəl təşəbbüs əminəm ki, Azərbaycanda geniş vüsət alacaq. Dövlət isə öz tərəfindən bundan sonra da məcburi köçkünlərin problemlərinin həlli üçün çalışacaq. Həm bu il, həm gələn il sosial layihələr icra ediləcək. Biz, qeyd etdiyim kimi, bu işlərdə böyük uğurlara nail ola bilmişik. Salınan şəhərciklər arasında Cocuq Mərcanlı qəsəbəsinin bərpasını mən xüsusilə qeyd etmək istərdim. Keçən il o qəsəbənin yenidən qurulmasının açılışında iştirak etmişəm. Orada hazırda 150 ev, məktəb, uşaq bağçası, məscid tikilib. Ermənilər tərəfindən dağıdılmış Şuşa məscidinin bənzərini biz Cocuq Mərcanlıda inşa etdik.

Cocuq Mərcanlı kəndinin bərpası Azərbaycan xalqının əyilməz ruhunun göstəricisidir. Bu, bir daha göstərir ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Bu, bir daha onu göstərir ki, bütün məcburi köçkünlər bir arzu ilə – öz doğma torpaqlarına qayıtmaq arzusu ilə yaşayırlar. Əminəm ki, biz buna nail olacağıq. Cocuq Mərcanlı kəndinin yenidən qurulması Aprel döyüşlərinin nəticəsindən, bizim parlaq qələbəmizdən sonra mümkün olmuşdur. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının ərazilərinin bir hissəsi işğalçılardan təmizlənəndən sonra bu qəsəbənin bərpası mümkün olmuşdur. Azərbaycan Ordusu bir daha öz gücünü göstərdi. Azərbaycan xalqı bir daha göstərdi ki, heç vaxt işğalla barışmayacaq və nəyin bahasına olursa-olsun öz doğma torpaqlarına qayıdacaq, ölkəmizin ərazi bütövlüyünü bərpa edəcək. Bir daha demək istəyirəm ki, biz bu qəsəbənin timsalında köçkünlərin arzularını, niyyətlərini görürük. Cocuq Mərcanlıdan olan vətəndaşlar, uzun illər müxtəlif yerlərdə yaşamış insanlar imkan olan kimi dərhal öz kəndinə gəlməyə üstünlük verirlər. İndi orada həyat canlanır, şərait yaradılır, həm yaşamaq üçün, həm işləmək üçün bütün infrastruktur yaradılıb.

Bu, bir daha onu göstərir ki, biz bu gün dağılmış vəziyyətdə olan bütün şəhərlərimizi işğaldan azad edəndən sonra tezliklə bərpa edəcəyik. İşğal altında olan bütün ərazilərimizdəki tarixi abidələrimiz, məscidlərimiz, muzeylərimiz mənfur qonşular tərəfindən dağıdılıb, talan edilib. Bütün şəhərlərimiz dağıdılıb. Bu, misli görünməmiş vəhşilikdir. Dağıdılmış bu binaların, evlərin, məscidlərin görüntüləri erməni vəhşiliyinin yırtıcı xislətini göstərir. Ancaq biz torpaqlarımıza qayıdacağıq. Buna heç kimdə şübhə yoxdur, necə ki, Cocuq Mərcanlıya, Şıxarx qəsəbəsinə qayıtmışıq. Şıxarx qəsəbəsinin, işğaldan azad edilmiş torpaqlarda bu böyük qəsəbənin salınması bir daha onu göstərir ki, biz torpaqlarımızı işğalçılardan azad edəndən sonra o torpaqlara dərhal yeni həyat gəlir. Əminəm ki, Azərbaycan dövlətinin gücü, Azərbaycan xalqının iradəsi nəticəsində işğaldan sonra bütün şəhərlərimizi bərpa edəcəyik və o şəhərlərdə insanlar yaşayacaqlar, quracaqlar, ölkəmizin inkişafını təmin edəcəklər.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ən böyük ədalətsizlikdir. Bu işğal nəticəsində bizim vətəndaşlarımız məcburi köçkün həyatı yaşayırlar. Bütün beynəlxalq hüquq normalarını pozan Ermənistan vəhşilik törədib. Erməni faşizminin yırtıcı sifəti bu münaqişənin nəticələrində özünü büruzə verib. Ancaq Azərbaycan xalqı tam əmindir ki, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik, bunu etməliyik. Həm beynəlxalq hüquq, həm də haqq-ədalət bizim tərəfimizdədir. Tarixi həqiqət bizim tərəfimizdədir və güc bizim tərəfimizdədir. Bu gün dünya miqyasında güc amili ön plana çıxır və güclü ölkələr öz istəyinə nail ola bilirlər. Azərbaycan da güclü ölkədir. Güclü ordumuz, güclü iqtisadiyyatımız və düşünülmüş siyasətimiz var.

Bu yaşayış kompleksi sizin üçün müvəqqəti yaşayış yeridir. Lakin biz istəyirik ki, müvəqqəti də olsa, şərait yaxşı olsun. Ancaq işğaldan sonra biz belə gözəl şəhərcikləri bu gün işğal altında olan torpaqlarda mütləq yaradacağıq.

Sizi bu gözəl hadisə münasibətilə bir daha təbrik edirəm. Sizə cansağlığı, uğurlar arzulayıram.

ADA Universitetində keçirilən məzun günündə Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Əziz dostlar, bu gün ADA Universitetində məzun günüdür. Bu münasibətlə bütün məzunları ürəkdən təbrik edirəm, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıram.

Məzunlar üçün yeni dövr başlayır. Mən əminəm ki, universitetdə aldıqları biliklər onlara həyatda layiqli yer tutmaq üçün kömək edəcəkdir. ADA Universiteti Azərbaycanın aparıcı ali məktəblərindən biridir. Bu universitetdə təhsilin səviyyəsi çox yüksəkdir. Universitet həm ölkəmizdə, həm xaricdə böyük nüfuz qazanmışdır və bu gün burada səsləndi ki, universitetdə 41 ölkədən tələbələr oxuyur. Bu, özlüyündə bir göstəricidir. Onu göstərir ki, doğrudan da ADA qısa müddət ərzində çox yüksək nüfuz qazanaraq ölkəmizin aparıcı ali məktəblərindən birinə çevrilmişdir.

ADA-da təhsil alan tələbələr əminəm ki, gələcəkdə ölkəmizin həyatında fəal rol oynayacaqlar, ölkəmizin hərtərəfli inkişafına öz töhfələrini verəcəklər. Bir neçə il bundan əvvəl mənim təşəbbüsümlə Azərbaycan tələbələrinin xaricdə təhsil almaları üçün müvafiq proqramlar qəbul edildi, vəsait ayrıldı və bizim gənclərimiz dünyanın aparıcı ali məktəblərinə ezam olundular. Bu proqramların çox böyük faydası oldu, minlərlə Azərbaycan gənci xaricdə yüksək təhsil alaraq Vətənə qayıdıblar və bu gün ölkəmizin inkişafında fəal rol oynayırlar. Ancaq, əlbəttə, əsas vəzifəmiz ondan ibarət olmalıdır ki, Azərbaycanda təhsilin səviyyəsi artsın və beynəlxalq standartlara cavab versin. ADA Universitetinin yaradılması bu məqsədi güdürdü. Bu gün tam əminliklə demək olar ki, burada tələbələrə verilən biliklər, təhsil ən yüksək standartlara uyğundur. Mən ADA-nın bütün professor-müəllim heyətinə, universitetin rəhbərliyinə gördükləri işlərə görə minnətdarlığımı bildirmək və onlara gələcək fəaliyyətlərində yeni uğurlar arzulamaq istəyirəm.

Təhsil hər bir dövlətin gələcəyidir. Bu sözlər dəfələrlə müxtəlif kürsülərdən səsləndirilib. Yəqin ona görə ki, bu, həqiqətdir, bu, doğrudan da belədir. Əgər biz inkişaf etmiş ölkələrin tarixinə və bugünkü inkişaf dinamikasına nəzər salsaq görərik ki, əsas hərəkətverici qüvvə təhsildir, elmdir, texnologiyalardır, innovasiyalardır. Təbii resurslar yox, məhz biliklər. Ona görə biz də çalışırıq və bundan sonra da çalışmalıyıq ki, Azərbaycanda təhsilin səviyyəsi daha da qalxsın. Təhsilin səviyyəsi dünyanın ən yüksək standartlarına cavab versin. Əgər biz buna nail ola bilsək, - mən inanıram ki, buna nail olacağıq, - onda ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcəkdir. Bizim gənclərimiz bilikli, peşəkar və vətənpərvər olmalıdırlar. Bax, bu amillərin sintezi bizim ölkəmizin gələcək uğurlu inkişafını şərtləndirəcəkdir. Mən əminəm ki, bizim gənclərimiz məhz bu istiqamətdə öz fəaliyyətlərini davam etdirəcəklər. Mən bilirəm ki, bizim gənclərimizin mütləq əksəriyyəti dediyim meyarlara tam uyğundur.

Ölkəmizdə savadlılığın səviyyəsi təxminən 100 faizə yaxındır. Eyni zamanda, təhsillə bağlı olan islahatlar, yeniliklər əlbəttə ki, öz nəticəsini verəcək və verir. Buna müəyyən vaxt, zaman lazımdır. Ancaq biz düzgün yoldayıq və əminəm ki, ölkəmizin uğurlu inkişafını güclü kadr potensialı təmin edəcək. Əsas məqsəd bundan ibarətdir və biz ADA-nın timsalında, digər aparıcı ali məktəblərimizin timsalında bunu görürük. Azərbaycanda təhsil ölkəmizin dinamik inkişafı ilə addımlamalıdır. Təhsilə göstərilən diqqət bizim büdcə xərclərimizdə də özünü büruzə verir. Büdcə xərclərimizin əsas hissəsi təhsillə və müdafiə potensialımızla bağlıdır. Bu da təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq və müdafiə xərcləri əlbəttə ki, prioritet məsələ olmalıdır. Bu gün Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır. Ümid edirəm ki, təhsilimizin səviyyəsi də bu hədəfə yaxınlaşacaqdır.

Bildiyiniz kimi, ADA Azərbaycan Diplomatik Akademiyası kimi yaradılmışdır və bunun adında da bu, öz əksini tapır. Əlbəttə ki, burada bundan sonra digər fənlər üzrə tədris proqramları tərtib edildi, universitetin maddi-texniki bazası möhkəmləndirildi. Bakının bu gözəl guşəsində indi gözəl universitet şəhərciyi yaradılmışdır. Buraya gələrkən mənə yeni korpusların tikintisi ilə bağlı məlumat verildi. Mən çox şadam ki, şəhərimizdə belə müasir təhsil şəhərciyi vardır. Mən ADA-nın gələcək genişləndirmə proqramını da bəyənirəm. Azərbaycan dövləti, əlbəttə, bu məsələlərin həllinə diqqət yetirəcək və lazımi vəsait də ayrılacaq ki, bu işlər davam etdirilsin.

Ancaq nəzərə alsaq ki, ADA universitetinin əsas məqsədi xarici siyasətlə bağlı kadrlar hazırlamaqdır, mən xarici siyasətimizlə bağlı bir neçə fikrimi bildirmək istəyirəm. Azərbaycanın xarici siyasəti prinsipial siyasətdir və müstəqil siyasətdir. Hesab edirəm ki, buna görə biz beynəlxalq aləmdə böyük nüfuza malikik və bu gün Azərbaycan dünya miqyasında çox etibarlı tərəfdaş, ləyaqətli dövlət kimi tanınır. Bizimlə hesablaşırlar, bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin saylı getdikcə artır və bütün beynəlxalq arenalarda Azərbaycan öz milli maraqlarını müdafiə edir. Xarici siyasətimiz daxili siyasətimizin davamıdır və ölkəmizin beynəlxalq nüfuzunun artırılmasına və iqtisadi maraqlarımızın təmin edilməsi istiqamətinə hesablanan xarici siyasətdir.

Müstəqil siyasət aparmaq xüsusilə bizim bölgəmizdə və indiki şəraitdə o qədər də asan məsələ deyil. Ancaq bizim mövqeyimiz həmişə ondan ibarət olub ki, biz müstəqil siyasətimizlə xalqımızın maraqlarını təmin

etməliyik. Azərbaycan xalqının maraqları bizim üçün hər şeydən üstündür. Məhz buna görə hesab edirəm ki, biz böyük hörmətə nail ola bildik və bunun əyani təzahürü BMT Təhlükəsizlik Şurasına seçilməyimizdir. 155 ölkə Azərbaycana etimad göstərib bizi dünyanın ən mötəbər qurumu olan Təhlükəsizlik Şurasına üzv seçmişdir. Bu, bizim beynəlxalq nüfuzumuzun bariz nümunəsidir. O gündən artıq bir neçə il keçibdir. Mən tam əminəm ki, bu gün Azərbaycan beynəlxalq müstəvidə daha da möhkəm dayaqlara və hörmətə layiq bir ölkədir.

Xarici siyasətimizin əsas məsələsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Biz prinsipial mövqeyimizdən bir addım geri dönmürük və dönməyəcəyik. Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır, bizim tarixi torpağımızdır. Beynəlxalq hüququn normaları da bu ərazini Azərbaycanın ayrılmaz hissəsi kimi təsdiqləyir və bu məsələ ilə bağlı mötəbər beynəlxalq təşkilatların bir çox qərar və qətnamələri vardır. Onların arasında BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi və digər mötəbər beynəlxalq təşkilatların qərar və qətnamələri bizim mövqeyimizi daha da gücləndirir və münaqişənin həlli üçün hüquqi əsaslar yaradır. Son vaxtlar Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, ECO və digər təşkilatlar tərəfindən məsələ ilə bağlı qərarlar qəbul edilib. Bu məsələ ancaq və ancaq ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü qeyd-şərtsiz bərpa edilməlidir, BMT Təhlükəsizlik Şurasının qətna-mələri qeyd-şərtsiz və dərhal icra olunmalıdır.

Biz bu məsələ ilə bağlı bundan sonra da prinsipial siyasət aparacağıq. Ancaq bunu da yaxşı bilirik ki, bugünkü dünyada beynəlxalq hüquq heç də hər zaman işləmir. Son vaxtlar ümumiyyətlə işləmir. Bu, reallıqdır. Biz real dünyada yaşayırıq və əlbəttə ki, öz siyasətimizi dünyada mövcud olan real vəziyyətə uyğunlaşdırmalıyıq. Ona görə, əlbəttə, biz bundan sonra da həm iqtisadi sahədə, həm ordu quruculuğu sahəsində və digər sahələrdə öz gücümüzü artıraraq münaqişənin həllini yaxınlaşdırmalıyıq.

Bu gün dünyada güc amili ön plana çıxır. Biz bunu demək olar ki, hər gün görürük. Əlbəttə, biz bu istiqamətdə öz addımlarımızı atmışıq və atacağıq. Son illər ərzində ordu quruculuğuna ayırdığımız diqqət və qoyduğumuz vəsait bir daha göstərir ki, biz düzgün yoldayıq və bu yolu davam etdirəcəyik.

Azərbaycan regional əməkdaşlıq formatında çox fəal çalışır. Biz regional əməkdaşlıq formatlarının yaradılmasına çalışmışıq və demək olar ki, buna nail ola bilmişik. Bizim təşəbbüsümüzlə hazırda bölgədə dörd üç və dördtərəfli regional əməkdaşlıq formatı mövcuddur. Biz bu əməkdaşlıq formatlarının təşəbbüskarı olmuşuq. Onların çox praktiki mənası var. Bu əməkdaşlıq bu formatlarda iştirak edən bütün ölkələr üçün faydalıdır. Biz bu işi davam etdirəcəyik. Biz bu bölgədə yaşayırıq və əlbəttə, bölgədə sülhün, sabitliyin təmin edilməsi, o cümlədən beynəlxalq əməkdaşlıqdan asılıdır. İşğalçı Ermənistandan başqa bizim heç bir ölkə ilə heç bir problemimiz yoxdur. Əksinə, bizim bütün ölkələrlə əlaqələrimiz inkişaf edir. Bu əlaqələr bərabərhüquqlu əlaqələrdir, qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq əsasında formalaşan əlaqələrdir. Biz heç bir ölkənin daxili işinə heç vaxt qarışmamışıq və qarışmırıq. Əlbəttə ki, eyni yanaşmanı bütün ölkələrdən gözləyirik və bunu təmin edirik. Ona görə regional çərçivədə əməkdaşlıq əlbəttə ki, ikitərəfli əlaqələrin üzərində qurulubdur. Biz bu ikitərəfli əlaqələri çoxtərəfli əlaqələrə çevirə bilmişik.

Bu gün bizim təşəbbüsümüzlə həyata keçirilən nəhəng enerji və nəqliyyat layihələrinin uğurla icra edilməsi, o cümlədən regional vəziyyətdən də asılıdır. Biz bu vəziyyəti özümüz dəyişdiririk, müsbətə doğru dəyişdiririk. Bizim xarici siyasət konsepsiyamızda qarşılıqlı faydalı əməkdaşlıq xüsusi yer tutur. Biz hesab edirik ki, qonşu ölkələr, dost ölkələr bir-birinə kömək etməlidir, bir-birinin problemlərini qəbul etməlidir və birgə səylərlə problemlərin həlli işində çalışmalıdırlar.

Biz çox uğurlu enerji diplomatiyası aparırıq. Bizim nəhəng enerji layihələrimiz, o cümlədən böyük dərəcədə diplomatik səylər nəticəsində mümkün olmuşdur. Əlbəttə ki, burada bir neçə amil öz rolunu oynayır - həm iqtisadi baxımdan Azərbaycanda mövcud olan gözəl investisiya iqlimi, sabitlik, əmin-amanlıq, beynəlxalq əməkdaşlıq və həm də bizim diplomatik səylərimiz. Çünki biz enerji layihələrimizi ancaq qonşu və dost ölkələrlə birlikdə icra edə bilərik. Bizim açıq dənizlərə çıxışımız yoxdur. Ona görə istənilən enerji layihəsi beynəlxalq əməkdaşlıq tələb edir. Ona görə enerji diplomatiyamız da çox uğurlu olmuşdur və bu gün bunu bütün dünya etiraf edir. Biz nəinki regionun, Avrasiyanın enerji xəritəsini yenidən tərtib etmişik. Bir neçə gündən sonra rəsmi açılışı olacaq Cənub Qaz Dəhlizi bizim tarixi nailiyyətimizdir, tarixi qələbəmizdir.

Biz nəqliyyat diplomatiyasını uğurla icra edirik. Demək olar ki, enerji dəhlizlərinin marşrutu ilə inkişaf edən nəqliyyat marşrutları, o cümlədən çox ciddi diplomatik səylər nəticəsində mümkün olub. Biz Avrasiyanın nəqliyyat xəritəsini də yenidən tərtib etmişik və bu işlərdə uğurlar qazanmışıq. Deyə bilərəm ki, enerji, nəqliyyat diplomatiyası ilə bağlı bizim bütün təşəbbüslərimiz, bütün addımlarımız uğurlu olub və həm bizə, həm bizimlə bərabər işləyən ölkələrə böyük dividendlər gətirir və bizi bundan sonra da hələ böyük mənfəət gözləyir. Bu gün icra edilən layihələr ölkəmizin qüdrətini uzunmüddətli formatda təmin edəcək, ölkəmizin

dayanıqlı inkişafını təmin edəcək. Əlbəttə, bax, bu layihələrin icrasında diplomatik səylər böyük rol oynayır.

Əlbəttə, biz təbii resurslarımızdan səmərəli şəkildə istifadə edərək ölkəmizi inkişaf etdirdik, gücləndirdik. Bu gün Azərbaycan dünya miqyasında ən sabit ölkələrdən biridir. Azərbaycanda böyük quruculuq işləri aparılır. Mən bilirəm ki, ADA Universitetində biznes fənlərə, iqtisadi fənlərə böyük diqqət göstərilir. Hesab edirəm ki, biz bu sahədə də çox təsirli nailiyyətlərə imza atdıq. Bu gün Azərbaycan iqtisadiyyatı tam daxili resurslar üzərində qurulmuş iqtisadiyyatdır, heç bir xarici maliyyə institutundan, yaxud da ki, xarici ölkədən asılı olmayan iqtisadiyyatdır. Bizim xarici dövlət borcumuz ümumi daxili məhsulumuzun cəmi 20 faizini təşkil edir. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 4-5 dəfə böyükdür. Biz istənilən vaxtda bütün borcları ödəyə bilərik.

Biz gözəl sərmayə iqlimi yaradaraq ölkəmizə son 15 il ərzində 230 milyard dollar sərmayə cəlb edə bilmişik. Yoxsulluqla, işsizliklə bağlı atılan addımlar dünya birliyi tərəfindən yüksək qiymətləndirilir. Biz gənc müstəqil dövlətik. Ancaq biz rəqabətqabiliyyətliliyinə görə dünya miqyasında 35-ci yerdəyik. Biz dünya miqyasında inklüziv inkişaf indeksinə görə inkişafda olan ölkələr arasında üçüncü yerdəyik. Yəni, bütün bu rəqəmlər dediyim sözlərin əyani təsdiqidir.

Əminəm ki, bu gün ölkə qarşısında duran vəzifələr uğurla icra ediləcək. Çünki bizim güclü iqtisadi potensialımız, çox müsbət beynəlxalq nüfuzumuz var. Çox dinamik cəmiyyətimiz, fəal gənclərimiz, çox bilikli vətəndaşlarımız və güclü siyasi iradəmiz var. Əsas vəzifə ondan ibarətdir ki, ölkəmizin uzunmüddətli dayanıqlı inkişafı təmin edilsin. Bu isə bax, bu gün burada əyləşən və bizim başqa ali məktəblərdə bu gün eyni tədbiri keçirən gənclərdən asılıdır. Bir daha demək istəyirəm ki, gənclər bizim gələcəyimizdir. Gələcəkdə ölkəmizin taleyi, müstəqilliyi, xoşbəxtliyi gənclərdən asılı olacaq. Ona görə gənclər daim Vətən sevgisi ilə yaşamalıdırlar, peşəkar, bilikli, Vətənə bağlı olmalıdırlar. Əminəm ki, bizim gənclərimiz bu yüksək meyarlara daim cavab verəcəklər.

Əziz gənclər, mən bir daha sizi məzun günü münasibətilə təbrik etmək istəyirəm. Demək istəyirəm ki, sizin qarşınızda bütün imkanlar mövcuddur. Siz gözəl, qüdrətli ölkədə yaşayırsınız. Siz gözəl təhsil almısınız. Siz xarici dillər bilirsiniz. Əminəm ki, siz tam yetişmiş peşəkarlar kimi istənilən sahədə işləyə bilərsiniz. Mən sizə ancaq və ancaq uğurlar arzulamaq istəyirəm. Arzulamaq istəyirəm ki, siz bu gözəl şansı əldən verməyəsiniz, həyatda layiqli yer tutasınız və ölkəmizin inkişafına öz dəyərli töhfənizi verəsiniz. Bir daha təbrik edirəm və uğurlar arzulayıram. Sağ olun.

Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə təşkil olunan rəsmi qəbulda Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar.

Mən sizi və bütün Azərbaycan xalqını Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisədir. İlk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdır. Biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıbdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı azadlıqsevər, mütərəqqi xalqdır. Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə böyük hörmətlə yanaşır. Bir neçə il bundan əvvəl mənim Sərəncamımla Bakının mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmışdır. Xalq Cümhuriyyətinin qurucularının adları əbədiləşdirildi. Bu il isə Azərbaycanda "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunmuşdur və həm ölkəmizdə, həm də bir çox xarici ölkələrdə bu yubileyi qeyd edərək biz böyük tədbirlər keçirmişik, keçiririk və ilin sonuna qədər bu tədbirlər keçiriləcəkdir.

Bir daha demək istəyirəm ki, biz bu tarixi hadisə ilə haqlı olaraq fəxr edirik. Azərbaycan Xalq Cümhuriyyəti 23 ay ərzində fəaliyyət göstərmişdir. Ancaq bu müddət ərzində böyük işlər görə bilmişdir. Azərbaycanın dövlət bayrağı təsis edilmişdir, Azərbaycan vətəndaşlığı təsis edilmişdir, milli ordumuz yaradılmışdır. Gələn ay biz ordumuzun 100 illiyini qeyd edəcəyik. Azərbaycanın Milli Ordusu 1918-ci ilin sentyabrında Qafqaz İslam Ordusu ilə birlikdə Bakını erməni-bolşevik dəstələrindən, işğaldan azad etmişdir və bizim qədim tarixi şəhərimiz olan Bakını Azərbaycan xalqına qaytarmışdır. Xalq Cümhuriyyəti tərəfindən sərhəd dəstəsi yaradılmışdır. Gəncənin tarixi adı qaytarılmışdır. Qısa müddət ərzində 200-dən çox qanun qəbul edilmişdir. Əlbəttə ki, onların arasında qadınlara səsvermə hüququnun verilməsi qanunu xüsusi yer tutur. Bakı Dövlət Universiteti yaradılmışdır və bu, onu göstərir ki, Azərbaycan Xalq Cümhuriyyəti kadrların yetişdirilməsi işində, təhsilin inkişafında böyük işlər görmək əzmində idi. Azərbaycan dili - ana dili bütün təhsil müəssisələrində qəbul edilmişdir.

Bir sözlə, görülmüş işlər çox idi. Xalq Cümhuriyyətinin niyyəti ondan ibarət idi ki, güclü dövlət yaratsınlar və Azərbaycan xalqı azadlıq, əmin-amanlıq şəraitində yaşaya bilsin. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı, 23 aydan sonra respublika süqut etdi. Bu, bizim böyük faciəmizdir. Mən tam əminəm ki, əgər 1920-ci ildə müstəqillik əldən verilməsəydi, bu gün Azərbaycan dünyanın ən zəngin və ən inkişaf etmiş ölkələrinin sırasında ola bilərdi. Çünki bizim təbii ehtiyatlarımız, coğrafi yerləşməyimiz imkan verirdi ki, bu təbii resurslardan biz səmərəli şəkildə istifadə edək. XIX əsrin ikinci yarısında - XX əsrin əvvəllərində dünya neft hasilatının böyük hissəsi məhz Azərbaycanda, Bakıda təmin edilmişdir.

Əfsuslar olsun ki, biz müstəqilliyi itirdik. Bu, bir daha onu göstərir ki, müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətin işdir. 1918-ci ildə qaldırılmış bayraq 1920-ci ildə endirildi və onu bir də o tarixdən 70 il sonra Naxçıvanda, Naxçıvanın Ali Məclisinin sessiyasında ulu öndər Heydər Əliyev qaldırmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi Naxçıvan Ali Məclisinin sessiyasında qəbul edilmişdir.

XX əsrdə Azərbaycan iki dəfə müstəqilliyə qovuşmuşdur, ikinci dəfə 1991-ci ildə. Bu da tarixi şans idi və Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan ikinci dəfə müstəqil ölkə kimi yaşamağa başlamışdır. Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illəri ölkəmiz üçün faciəli, çox ağır illər kimi tarixdə qaldı. Əfsuslar olsun ki, Azərbaycan rəhbərliyində olan qüvvələr 1991-1993-cü illərdə ölkəmizi lazımi səviyyədə idarə edə bilməmişlər. Onların üzərinə düşən yüksək məsuliyyəti dərk etməmişlər və gənc müstəqil dövləti demək olar ki, idarəolunmaz vəziyyətə salmışdılar. 1991-1993-cü illərdə Azərbaycanda yaşanan xoşagəlməz hadisələr, hallar ölkəmizin müstəqilliyini sual altına qoymuşdur. Xüsusilə 1992-ci ildə AXC-Müsavat cütlüyünün dövlət çevrilişindən, hakimiyyətin güc yolu ilə zəbt edilməsindən sonra vəziyyət daha da ağırlaşdı. Ölkəmizdə xaos, anarxiya, özbaşınalıq hökm sürürdü. AXC-Müsavat hakimiyyəti talançılıqla məşğul idi. Torpaqlarımız işğal altına düşmüşdür və bununla bağlı çoxsaylı qaçqınlar-köçkünlər yaranmışdır. AXC-Müsavat hakimiyyəti qardaş qanı axıtdı, vətəndaş müharibəsinə start verdi və bu, xalqımızın böyük faciəsi idi.

Bir sözlə, o illər bizim tariximizdə qara ləkədir, rüsvayçılıq illəridir. Azərbaycan xalqı cəmi bir il o antimilli hakimiyyətə dözə bildi və bir ildən sonra o hakimiyyəti tarixin arxivinə göndərdi. Azərbaycan xalqı öz liderinə - Heydər Əliyevə müraciət etmişdir, onu hakimiyyətə dəvət etmişdir və nə qədər müdrik xalq olduğunu bir daha sübut etmişdir. Heydər Əliyevin hakimiyyətə dəvət edilməsinin bir çox səbəbləri var idi. İlk növbədə, onun Azərbaycanın rəhbəri kimi 1970-1980-ci illərin əvvəllərində gördüyü işlər, Azərbaycanın inkişafı, quruculuq və abadlıq işləri xalqın yaddaşında əziz xatirə kimi qalmışdır. Məhz onun rəhbərliyi ilə 1970-ci illərdə Azərbaycan sovet məkanında ən geridə qalmış yerdən ən qabaqcıl yerə yüksəlmişdir. Digər səbəblər ondan ibarətdir ki, Heydər Əliyev xalqımız üçün ən ağır məqamlarda daim xalqla birlikdə olmuşdur, böyük müdriklik, cəsarət göstərmişdir. Qanlı Yanvar faciəsindən dərhal sonra - 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək sovet hakimiyyətini, Kommunist Partiyasını törətdiyi cinayətə görə pisləmişdir, tənqid etmişdir, o qanlı faciəni qınamışdır, Azərbaycan xalqının ağrılarını bütün dünyaya çatdırmışdır. O vaxt AXC-Müsavat təşkilatı demək olar ki, qorxudan görünmürdü, gizlənmişdir, fərarilik etmişdir. Heydər Əliyev təkbaşına, özü də Sovet İttifaqının mərkəzində öz haqq səsini ucaltmış, xalqla həmrəyliyini göstərmiş və bu faciəni bütün dünyaya çatdırmışdır. Azərbaycan xalqı əlbəttə ki, bu tarixi yaxşı bilirdi. Naxçıvanda fəaliyyət göstərdiyi dövrdə Ulu Öndər Naxçıvanı erməni işğalından qoruya bilmişdir, o da çox çətin vəzifə idi. Naxçıvan düşmənin əhatəsində idi və orada özünümüdafiə qrupları təşkil edilmiş və düşmənə layiqli cavab verilmiş, düşmən yerinə oturdulmuşdur.

Qeyd etdiyim kimi, Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağını ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sessiyasında dövlət bayrağı kimi məhz Heydər Əliyev təsdiq etmişdir. Sovet İttifaqının saxlanmasına dair referendumun Naxçıvanda keçirilməsinə imkan verməmişdir, baxmayaraq ki, Azərbaycanın bütün başqa yerlərində bu referendum keçirilmişdir. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adını dəyişdirmiş və "Sovet Sosialist" sözlərini oradan çıxarmışdır. Yəni, əlbəttə, xalq yaxşı bilirdi ki, Heydər Əliyev güclü liderdir, Vətənə bağlı olan insandır və məhz belə bir insan Azərbaycana rəhbərlik etməlidir.

1993-cü il tariximizdə dönüş nöqtəsi olmuşdur. Əslində, bizim müstəqil tariximiz o ildən başlamışdır. Çünki 1991-1993-cü illərdə müstəqillik formal, şərti xarakter daşıyırdı. Azərbaycan demək olar ki, xaricdən idarə olunurdu. Biz hamımız bunu yaxşı bilirik. Ona görə Azərbaycan xalqı haqlı olaraq Heydər Əliyevi Azərbaycanın dövlət müstəqilliyinin banisi, Azərbaycan dövlətinin qurucusu kimi tanıyır və bu, tarixi həqiqətdir.

Bu çətin şəraitdə Heydər Əliyev Azərbaycanı o ağır vəziyyətdən çıxara bilmişdir, inkişaf yoluna qoya bilmişdir. 1993-cü ildən başlayaraq bu günə qədər Azərbaycan, sözün əsl mənasında, müstəqil həyat yaşayır. Dövlətçiliyin əsasları qoyuldu, müstəqil dövlətin Konstitusiyası qəbul edildi, milli ideologiyamız qəbul olundu, azərbaycançılıq məfkurəsi bu gün bizim ideoloji

əsaslarımızı təşkil edir. Siyasi islahatlar aparılmağa başlamışdır, demokratik inkişafla bağlı önəmli qərarlar, qanunlar qəbul edilmişdir. İqtisadi sahədə liberallaşma siyasəti aparılmağa başlamışdır və bazar iqtisadiyyatına keçid məhz Heydər Əliyevin təşəbbüsü ilə baş vermişdir.

Beynəlxalq təcridə son qoyulmuş, Azərbaycan dünyanın aparıcı ölkələri ilə konstruktiv münasibətlər qura bilmişdir. Qonşu dövlətlərlə münasibətlər normallaşdı. Çünki bu, bir absurd vəziyyət idi ki, 1993-cü ilə qədər Azərbaycan, demək olar, bütün qonşu dövlətlərlə çox gərgin münasibətlər şəraitində yaşayırdı. Qonşu dövlətlərlə, böyük dövlətlərlə münasibətlərin qurulması Heydər Əliyevin tarixi xidmətlərindən biridir. Ciddi iqtisadi islahatların nəticəsi olaraq Azərbaycana böyük sərmayə axını müşahidə edilməyə başlamışdır. "Əsrin kontraktı" imzalanmışdır ki, bu, iqtisadi müstəqilliyimizi şərtləndirən əsas amil olmuşdur. Hamımız yaxşı bilirik ki, iqtisadi müstəqillik olmadan siyasi müstəqillikdən söhbət gedə bilməz. Ordu quruculuğunda böyük addımlar atılmışdır. Azərbaycanda nizami ordu yaradıldı. Bir sözlə, 1993-cü ildən başlayaraq Azərbaycan inkişaf yolu ilə inamla gedir və bu gün bu inkişaf davam edir.

2003-cü ildən sonra Azərbaycanın dinamik inkişafı təmin edilmişdir. Biz güclü, qüdrətli dövlət qura bilmişik. Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan ölkədir. Bu gün dünya xəritəsində belə ölkələrin sayı o qədər də çox deyil. Xüsusilə biz ərazisi, əhalisi o qədər də böyük olmayan ölkələrə fikir versək görərik ki, müstəqil siyasət aparmaq iqtidarında olan ölkələr o qədər də çox deyil. Biz tam müstəqil siyasət aparırıq. Bizim siyasətimiz milli maraqlar üzərində qurulubdur. Azərbaycan xalqının maraqları bizim siyasətimizin mənbəyidir, onun əsasıdır. Kənardan bizim siyasətimizə təsir etmə imkanları sıfıra bərabərdir. Bunu yaxın tarix göstərib. İndi deyə bilərəm ki, belə cəhdlər də yoxdur. Ona görə ki, biz prinsipial siyasət aparırıq. Bu siyasət Azərbaycan xalqı tərəfindən dəstəklənir və müdafiə olunur. Xalq-iqtidar vəhdəti bizim uğurlarımızın əsas səbəbidir.

Azərbaycan bu gün beynəlxalq arenada öz mövqelərini gücləndirir, beynəlxalq aləmdə çox böyük nüfuza malik olan bir ölkədir. Bizimlə əməkdaşlıq edən ölkələrin sayı getdikcə artır. Biz dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına iki dəfə sədrlik etmişik. Gələn il biz BMT-dən sonra ikinci böyük təşkilata – Qoşulmama Hərəkatına sədrlik etməyə başlayacağıq. Biz bütün digər aparıcı beynəlxalq təşkilatlarla çox sıx əməkdaşlıq edirik. Bəzi təşkilatların üzvüyük, bəzi təşkilatlarla əməkdaşlıq çərçivəsində fəaliyyət göstəririk. Dünya birliyi Azərbaycana böyük hörmətlə, böyük rəğbətlə yanaşır. Bu gün dünyanın siyasi xəritəsində Azərbaycanın yeri çox möhkəmdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı son illər ərzində apardığımız işlər münaqişənin həlli üçün hüquqi bazanı daha da genişləndirmişdir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi və ATƏT-in qərarları, əlbəttə, bu hüquqi bazanın əsasını təşkil edir. Həmçinin 2003-cü ildən bu günə qədər digər beynəlxalq təşkilatlar oxşar qərar və qətnamələr qəbul etmişlər. Onların arasında Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, GUAM, ECO və digər təşkilatlar var. Bu, münaqişənin həlli üçün hüquqi bazanın yaradılması deməkdir. Biz münaqişənin həlli üçün iqtisadi zəmin də yaratmışıq, güclü ordu formalaşdırmışıq. Görülən kompleks tədbirlər nəticəsində Azərbaycan bu məsələ ilə bağlı siyasi və diplomatik üstünlüyü tam təmin edibdir. Məhz bunun nəticəsidir ki, nə qədər dünya ermənilyi çalışsa da, heç bir dövlət qanunsuz Dağlıq Qarabağ rejimini tanımayıb.

Biz yaxşı bilirik ki, bu gün beynəlxalq hüqquqn normaları bir çox hallarda pozulur, işləmir. Güc amili ön plana çıxır və bu, reallıqdır. Ona görə dünya birliyinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqeyimizi dəstəkləməsi böyük nailiyyətimizdir. Hesab edirəm ki, beynəlxalq hüqquqn normalarından başqa, burada güclü Azərbaycan amili dayanır. Biz güclü dövlət qura bilmişik. Bir daha demək istəyirəm ki, bizimlə əməkdaşlıq edən və etmək istəyən ölkələrin sayı artır. Bizə hörmət artır, bizim işimizə göstərilən rəğbət göz qabağındadır. Belə bir vəziyyətdə heç bir ölkə qanunsuz rejimlə heç bir əlaqə qura bilməz və biz buna heç vaxt imkan verməyəcəyik. Biz heç vaxt imkan verməyəcəyik ki, tarixi torpağımızda ikinci erməni dövləti yaradılsın. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin bir yolu var, o da Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyünün bərpasıdır.

Biz güclü ordu yaratmışıq. 1918-ci ildə Azərbaycan Ordusunun yaradılması haqqında qərar verilində yəqin ki, Azərbaycan Xalq Cümhuriyyətinin quruculları heç təsəvvür edə bilməzdilər ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında olacaq. Bizim ordumuzun həm maddi-texniki təchizatı, həm də döyüş qabiliyyəti ən yüksək səviyyədədir. Biz bunu döyüş meydanında sübut edə bilmişik. Azərbaycan Ordusu işğal altında olan torpaqların bir hissəsini iki il bundan əvvəl işğalçılardan azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi. Azad edilmiş o torpaqlara Azərbaycan vətəndaşları qayıtmışlar. O torpaqlara həyat qayıtmışdır və bunu Azərbaycan dövləti etdi, Azərbaycan Ordusu etdi.

Güclü ordu müstəqilliyimizin əsasıdır, təhlükəsizliyimizin qarantıdır. Azərbaycanda təhlükəsizlik tam təmin edilibdir. Azərbaycan bu gün müstəqil ölkə kimi dünya miqyasında ən sabit ölkələrdən biridir. Biz güclü

iqtisadiyyat yaratmışıq. Biz təbii resurslarımızdan çox böyük səmərə ilə istifadə etmişik və iqtisadi müstəqillik siyasi müstəqilliyimizin əsas amilidir. İqtisadi müstəqillik olmadan siyasi müstəqillikdən söhbət gedə bilməz. Güclü iqtisadi əsaslar gələcəkdə də imkan verəcək ki, Azərbaycan heç kimdən asılı olmayaraq uğurla inkişaf etsin.

Son 15 il ərzində iqtisadi inkişafımız dünya miqyasında rekord səviyyədədir - Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artmışdır və bu, dünya miqyasında analoqu olmayan inkişafdır. Biz böyük valyuta ehtiyatlarımızı yaratmışıq. Bizim valyuta ehtiyatlarımız ümumi daxili məhsulumuza bərabər səviyyədədir. Bizim xarici borcumuz o səviyyədədir ki, ehtiyatlarımız xarici borcumuzu 4-5 dəfə üstələyir. Yəni, əgər dünyanın iqtisadi xəritəsinə baxsaq görərik ki, belə göstəricilər çox nadir hallarda baş verir. Bunu biz özümüz yaratmışıq, heç bir yerdən kömək, yardım almadan, düşünülmüş siyasət, atılan düzgün addımlar nəticəsində. Bu gün Azərbaycan iqtisadi cəhətdən tam müstəqil dövlətdir, heç kimdən asılı deyil və məhz buna görə də inamla öz müstəqil siyasətini aparır.

Bizim iqtisadi uğurlarımız mötəbər beynəlxalq iqtisadi qurumlar tərəfindən də yüksək qiymətləndirilir. Rəqabətqabiliyyətliliyə görə Azərbaycan dünya miqyasında 35-ci yerdədir, inkişafda olan ölkələr arasında inkişafa görə üçüncü yerdədir. Bunu biz demirik, bunu dünyanın birinci iqtisadi forumu olan Davos İqtisadi Forumu deyir.

Yəni, bu güclü iqtisadiyyat imkan verir ki, biz Azərbaycanda istənilən sosial layihəni, infrastruktur layihələrini icra edək və edirik. Azərbaycan sosial dövlətdir. Sosial sahəyə ayrılan diqqət imkan verir ki, bir çox sosial problemlər öz həllini tapsın, o cümlədən sosial infrastrukturla bağlı olan layihələr. Son 15 il ərzində 3 mindən çox məktəb, 600-dən çox tibb ocağı, 40-dan çox Olimpiya mərkəzi tikilib. Bütün bunların təməlində həm bizim siyasətimiz, həm də iqtisadi gücümüz dayanır. Biz təbii resurslarımızı - nefti insan kapitalına çevirmişik. Bu istiqamətdə işlər davam edir və davam edəcəkdir. Biz ölkəmizin müstəqilliyini gücləndirən güclü infrastruktur yaratmışıq. O infrastruktur ki, bundan sonra onilliklər ərzində Azərbaycan xalqına xidmət edəcək. Demək olar ki, bütün əsas infrastruktur layihələrini sıfırdan yaratmışıq.

Biz dənizləri neft–qaz kəmərləri ilə birləşdirdik. Tarixdə ilk dəfə olaraq Xəzər dənizi Qara dənizlə, Aralıq dənizi ilə neft kəmərləri vasitəsilə birləşdi. Bizim təşəbbüsümüzlə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Supsa neft və qaz kəmərləri inşa edildi.

Enerji təhlükəsizliyi baxımından Azərbaycan nəinki regionda, dünya miqyasında önəmli ölkəyə çevrildi. Hazırda Cənub Qaz Dəhlizinin icrası ilə bağlı böyük işlər görülür və sabah Cənub Qaz Dəhlizinin rəsmi açılışı olacaqdır. Bu da böyük tarixi qələbəmizdir.

Biz nəqliyyat infrastrukturunu yaratmaqla qitələri birləşdirdik. Açıq dənizlərə çıxışı olmayan Azərbaycan bu gün dünyanın nəqliyyat mərkəzlərindən birinə çevrilir. Təşəbbüskarı olduğumuz Bakı-Tbilisi-Qars dəmir yolu, nəqliyyat infrastrukturu ilə bağlı digər layihələr, Xəzərin ən böyük limanı olan Ələt Limanının işə düşməsi, "Şimal-Cənub" nəqliyyat dəhlizinin yaradılması istiqamətində atılmış addımlar bir məqsədi güdür ki, Azərbaycanı dünyanın nəqliyyat mərkəzlərindən birinə çevirək. Bu istiqamətdə böyük işlər görüldü. Bu, müstəqilliyi gücləndirən amildir. Bu, qeyri-neft sektorunu inkişaf etdirən amildir. Biz bu məsələ ilə bağlı çox ciddi məşğuluq. Gec-tez bizim təbii resurslarımız tükənəcək. Baxmayaraq ki, "Azəri-Çıraq-Günəşli" kontraktının müddəti 2050-ci ilə qədər uzadıldı. Ən azı o vaxta qədər bu kontrakt qüvvədə olacaq. Mən tam əminəm ki, 2050-ci ildən sonra da kifayət qədər neft ehtiyatları "Azəri-Çıraq-Günəşli"də qalacaq.

O ki qaldı, bizim təbii qaz resurslarımıza, bu resurslar ən azı 100 il bundan sonra bizə və bizdən bu əməkdaşlıq nəticəsində faydalanan ölkələrə kifayət edəcəkdir. Amma buna baxmayaraq, biz yenə də qabağa baxmalıyıq. Biz ölkəmizin uzunmüddətli, dayanıqlı inkişaf strategiyasını təmin etməliyik. Bu məsələ ilə bağlı bizim çox aydın fikirlərimiz, baxışlarımız var.

Hesab edirəm ki, müstəqil dövlət kimi Azərbaycan humanitar sahədə tarixi nailiyyətlərə imza atdı. Bu gün Azərbaycan dünyada multikulturalizmin mərkəzlərindən biri kimi tanınır. O şəraitdə ki, bu yanaşmaya indi dünyada o qədər də isti münasibət göstərilmir. Ancaq buna baxmayaraq, biz öz yolumuzla gedirik. Tam əminik ki, biz düzgün yoldayıq. Çünki bizim nümunəmiz, bizim gördüyümüz işlər dinlərarası, millətlərarası dialoqun güclənməsinə gətirib çıxarır və nəticə etibarilə sabitliyə, təhlükəsizliyə xidmət göstərir.

Heç kim təsəvvür edə bilməzdi ki, Azərbaycan idman sahəsində dünyanın aparıcı ölkələrinin sırasında olacaqdır. Biz buna nail ola bilmişik. Sovet dövründə əgər bizim hansısa bir idmançımız Avropa, ya dünya çempionatında yüksək yer tuturdusa, biz bunu böyük bir tarixi hadisə kimi qəbul edirdik. Bu gün bizim idmançılarımız Avropa, dünya çempionatlarında, Olimpiya Oyunlarında yüzlərlə medal qazanmışlar. Son Olimpiya Oyunlarında medalların sayına görə Azərbaycan dünya miqyasında 14-cü yerdədir. Təsəvvür edin, 200-ə yaxın ölkənin iştirak etdiyi bu Oyunlarda 14-cü olmaq nə qədər böyük nailiyyətdir. Bu, nəyin nəticəsidir? Görülən işlərin, aparılan düzgün siyasətin, xalqımızın istedadının, xalqla iqtidar arasında birliyin nəticəsidir. Bu gün hansı sahəyə baxsan inkişaf var, tərəqqi var və gələcək dinamik inkişaf üçün aydın baxışlar var. Bu gün müstəqil Azərbaycan hər bir Azərbaycan vətəndaşı üçün qürur mənbəyidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının arzularını reallığa çevirdik. Biz elə bir

dövlət qurduq ki, əminəm, hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı bu dövlətlə fəxr edir. Mən tam əminəm ki, əgər Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları bugünkü Azərbaycanı görə bilsəydilər, onlar da ölkəmizlə fəxr edərdilər.

Azərbaycanın zəngin təbii resursları vardır və baxmayaraq ki, onların böyük hissəsi tükənib, ancaq yenə də var. Azərbaycan o diyardır ki, dünyada ilk dəfə sənaye üsulu ilə neft 1846-cı ildə məhz Azərbaycanda hasil edilmişdir. O hadisəni əks etdirən abidə də qoyulub. O vaxt dünya neftinin böyük hissəsini onilliklər ərzində Azərbaycan təmin edirdi. Ancaq Azərbaycan xalqı bu təbii resurslardan faydalana bilibmi? Yox. Baxın, biz hansı vəziyyətdə idik. Biz bu gün Xalq Cümhuriyyətinin 100 illiyini qeyd edirik. Baxın, o vaxta qədər və o vaxt bizim ölkəmiz hansı vəziyyətdə idi. Yoxsulluq, səfalət, savadsızlıq, tamamilə dağılmış tarixi şəhərlərimiz. Nəyə görə? Çünki Azərbaycan müstəqil deyildi. Sovet dövründə, İkinci Dünya müharibəsi zamanı Azərbaycan nefti olmasaydı, Sovet İttifaqı faşizm üzərində Qələbəni əldə edə bilməzdi. Bunu hamı bilməlidir. Biz Qələbəyə həlledici töhfə vermişik. O vaxt Azərbaycan xalqı, Azərbaycan zəhmətkeşləri, neftçiləri, Azərbaycan nefti ümumittifaq büdcəsinə xidmət göstərirdi. Heydər Əliyev 1969-cu ildə Azərbaycanda rəhbərliyə gəlməyənə qədər Azərbaycan bütün bu sərvətlərə baxmayaraq, Sovet İttifaqında ən axırıncı yerdə idi. Nəyə görə? Çünki müstəqil deyildik. Taleyimiz əlimizdə deyildi.

1970-ci illərdə Heydər Əliyevin yorulmaz səyləri nəticəsində Azərbaycan çox böyük dərəcədə inkişaf etmişdir. Ancaq yenə də müstəqil deyildi. Müstəqilliyin ilk illərində xalqımızın başına gələn bəlalar, işğal, vətəndaş müharibəsi, AXC-Müsavat cütlüyünün yarıtmaz fəaliyyəti demək olar ki, ölkəmizi məhv etmişdi. Ancaq biz dirçəldik. Nəyə görə? Məhz müstəqilliyə görə. Ona görə ki, bizim taleyimiz indi bizim əlimizdədir. Bizim gələcəyimiz etibarlı əllərdədir.

Bugünkü Azərbaycan bir daha göstərir ki, müstəqillik ən böyük sərvətimizdir. Bu, həqiqətən də belədir. Müstəqillik ən böyük sərvətimizdir, ən böyük nemətimizdir, ən böyük xoşbəxtliyimizdir. Azərbaycanın müstəqilliyi əbədidir.

Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar.

Əziz dostlar.

Bu gün ölkəmizin tarixində çox əlamətdar bir gündür, tarixi bir gündür. Bu gün Cənub Qaz Dəhlizinin rəsmi açılışı günüdür. Bu gün münasibətilə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Biz bu günü burada – Səngəçal terminalının ərazisində qeyd edirik. Səngəçal terminalı dünyanın ən böyük neft-qaz terminalıdır və məhz burada dörd il bundan əvvəl Cənub Qaz Dəhlizinin təməli qoyulmuşdur. Eyni zamanda, onu da qeyd etməliyəm ki, bu gün Bakı Ekspo Mərkəzində XXV Xəzər Neft-Qaz Sərgisi öz işinə başlayıb və sərgidə iştirak edən yoldaşlar bu gün bu mərasimdə də iştirak etmiş kimi sayıla bilərlər. Mən onları da salamlayıram. Bildirmək istəyirəm ki, 25 il ərzində ilk dəfədir ki, Xəzər Neft-Qaz Sərgisinin açılışı sərgi yerində yox, Səngəçal terminalında baş verir.

Xəzər Neft-Qaz Sərgisinin Azərbaycanın enerji siyasətinin reallaşmasında çox böyük rolu olmuşdur. İlk sərgi 1994-cü ildə keçirilmişdir. O vaxt Azərbaycan gənc müstəqil dövlət idi və riskli dövlət kimi sayılırdı. Bu sərginin Azərbaycana investisiya qoyuluşu üçün çox önəmli rolu olmuşdur. Ötən 25 il ərzində bu sərgi dünya miqyasında çox mötəbər sərgi kimi tanınır və sərgidə iştirak edən şirkətlərin, ölkələrin sayı getdikcə artmaqdadır.

Qeyd etdiyim kimi, 4 il bundan əvvəl bu ərazidə Cənub Qaz Dəhlizinin təməli qoyulub. O zaman mən tam əmin idim ki, bu layihə uğurla, vaxtında icra ediləcək, baxmayaraq ki, bu, çox nəhəng və texniki-iqtisadi cəhətdən çox mürəkkəb bir layihədir. Bu layihə geniş beynəlxalq əməkdaşlıq tələb edən bir layihə idi. İlk dəfə olaraq Azərbaycan belə genişmiqyaslı beynəlxalq iqtisadi və siyasi əməkdaşlığı tələb edən layihəyə start vermişdir, onun təşəbbüskarı olmuşdur. Cənub Qaz Dəhlizinin rəsmi açılışı onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə çatdıq və bu gün ölkəmizin həyatında neft-qaz sənayesinin inkişafında yeni dövr başlayır.

Dünən Azərbaycan xalqı Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini təntənəli şəkildə qeyd etmişdir. Bu da tarixi hadisə idi. Çünki ilk dəfə olaraq 1918-ci ildə müsəlman aləmində demokratik respublika yaradılmışdır. Biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı məhz Azərbaycan xalqı yaratmışdır. Dünən təntənəli mərasimdə çıxış edərkən bildirdim ki, əgər 1920-ci ildə müstəqillik əldən verilməsəydi və Azərbaycan Xalq Cümhuriyyəti süqut etməsəydi, bu gün Azərbaycan bəlkə də dünyanın ən inkişaf etmiş və ən zəngin ölkələrindən biri ola bilərdi. Çünki bizim təbii ehtiyatlarımız, zəngin neft ehtiyatlarımız çox böyük imkanlar açır. Ancaq Azərbaycan müstəqilliyini itirdi və ondan əvvəlki dövrdə Azərbaycan müstəqil olmadığı üçün

Azərbaycan xalqı öz təbii ehtiyatlarından bəhrələnə bilməmişdir.

Dünya neftinin tarixi Azərbaycandan başlayır. 1846-cı ildə dünya miqyasında ilk dəfə olaraq sənaye üsulu ilə neft məhz Azərbaycanda, Bakıda hasil edilmişdir. O tarixi anı əks etdirən abidə şəhərimizin mərkəzində bir neçə il bundan əvvəl ucaldılıb. O vaxt – XIX əsrin ikinci yarısında və XX əsrin əvvəlində Azərbaycan dünya neft hasilatının əksəriyyətini təmin edirdi. Ancaq Azərbaycan xalqı bundan bəhrələnə bilibmi?! Əlbəttə ki, yox. O illərin şəkillərinə, statistik məlumatlarına baxmaq kifayətdir ki, hər kəs görsün ki, xalq səfalət içərisində yaşayırdı, yoxsulluq hökm sürürdü, heç bir sənaye inkişafından söhbət getmirdi. Sadəcə olaraq, Azərbaycan resurs mənbəyi idi və Azərbaycandan çıxarılan "qara qızıl" Azərbaycan xalqının inkişafına xidmət etmirdi. Bizim neftimiz tükənirdi. Neftdən əldə edilən gəlir Azərbaycan xalqının rifahına yönəldilmirdi və eyni zamanda, biz Abşeron yarımadasında böyük ekoloji problemlərlə üzləşmişdik. Bu problemləri bu gün müstəqil dövlətimiz həll edir.

Bu gün müstəqil Azərbaycan və bizim uğurlu neft-qaz siyasətimiz göstərir ki, ancaq müstəqillik şəraitində, müstəqillik dövründə Azərbaycan xalqı öz təbii ehtiyatlarından istifadə edə bilər, ancaq müstəqillik dövründə Azərbaycan uğurla inkişaf edə bilər. Bu gün biz müstəqil dövlət kimi ayaqda möhkəm dayanmışıq, ölkə qarşısında duran bütün vəzifələri uğurla icra edirik, belə nəhəng layihələri tərəfdaşlarımızla birlikdə icra edirik və Avropanın enerji xəritəsini yenidən tərtib edirik.

Sovet İttifaqı dağılanda Azərbaycan 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa etdi. Ancaq müstəqilliyimizin ilk iki ili çox ağır keçmişdir. Ölkə demək olar ki, idarəolunmaz vəziyyətdə idi, xaos, anarxiya, böhran hökm sürürdü, neft sənayesi tamamilə tənəzzülə uğramışdı, vətəndaş müharibəsinə start verilmişdi. Yəni, ölkə çox böyük təhlükələrlə üzləşmişdi və müstəqilliyimizin ilk iki ili formal xarakter daşıyırdı. Çünki Azərbaycan müstəqil siyasət apara bilmirdi.

1993-cü ildə Azərbaycan xalqı Heydər Əliyevə müraciət edərək onu hakimiyyətə dəvət etdi, Prezident vəzifəsinə seçdi və ondan sonra Azərbaycanın uğurlu inkişaf dövrü başlamışdır. Biz əgər tarixə baxsaq görərik ki, məhz o vaxtdan bu günə qədər Azərbaycan inamla inkişaf edir, ölkə qarşısında duran bütün vəzifələr uğurla icra edilir və ölkə iqtisadiyyatının əsas hissəsini təşkil edən neft-qaz sektorumuz da inkişaf edir.

Qeyd etdiyim kimi, 1994-cü ildə birinci Xəzər Neft-Qaz Sərgisi təşkil edilmişdir. Azərbaycanın dünyada zəngin resurslara malik ölkə kimi tanıdılmasında bu sərginin çox böyük rolu olmuşdur. 1994-cü il sentyabrın 20-də "Əsrin kontraktı" imzalanmışdır. "Azəri-Çıraq-Günəşli" neft yataqları dünyanın ən böyük neft yataqlarından biridir və 24 il bundan əvvəl imzalanmış "Əsrin kontraktı"nın müddəti keçən il 2050-ci ilə qədər uzadıldı. Yəni, bu, özlüyündə onu göstərir ki, bu yataqda nə qədər böyük neft ehtiyatları var. "Əsrin kontraktı" Azərbaycana nəfəs verdi, ölkəmizin canlanmasına xidmət göstərdi. İlk dəfə olaraq Xəzər dənizi xarici şirkətlər üçün açıldı. Biz o xarici şirkətləri dəvət etdik və bu gün "Əsrin kontraktı"nın icrası çox uğurla gedir və bu kontraktın imzalanmasından sonra Azərbaycanın iri neft strategiyası icra olunmağa başlamışdır.

Mən o tarixi günləri yaxşı xatırlayıram. Çünki o vaxt mən Dövlət Neft Şirkətinin vitse-prezidenti kimi bu işlərlə bilavasitə məşğul idim. O vaxt Azərbaycanın neft strategiyası müəyyən olundu və bu gün biz bu strategiyanın, görülən işlərin bəhrəsini görürük.

1994-cü ildən sonra ikinci böyük kontrakt "Şahdəniz" qaz yatağı üzrə imzalanmışdır. Onu da qeyd etməliyəm ki, bu kontrakt 1996-cı il iyunun əvvəlində məhz Xəzər Neft-Qaz Sərgisinin keçirildiyi gündə imzalanmışdır. Beləliklə, Azərbaycan dünyaya özünü nəinki neft ölkəsi, həm də qaz ölkəsi kimi təqdim etdi. Onu da yaxşı xatırlayıram ki, o vaxt dünyada enerji təhlükəsizliyi məsələlərində qaz amili o qədər də ciddi rol oynamırdı. Hətta qaz yataqlarının işlənilməsi o qədər də böyük maraq doğurmurdu. Çünki mənfəət neft yataqları ilə müqayisədə daha aşağı idi. Ona görə bu layihəyə investorları cəlb etmək o qədər də asan məsələ deyildi. Ancaq bu gün, bu tarixi gündə Cənub Qaz Dəhlizinin açılışını qeyd edərkən biz görürük ki, bu, nə qədər vaxtında atılmış və müdrik addımdır. "Şahdəniz" qaz yatağı Cənub Qaz Dəhlizinin əsas resurs bazasıdır.

1997-ci ildə isə "Əsrin kontraktı"nın icrası nəticəsində "Çıraq" platformasından ilk neft çıxarılmışdır. Bu tarixi videokadrlar artıq göstərilir və doğrudan da tarixi bir gün idi. İlk dəfə olaraq xarici şirkətlər tərəfindən Xəzərdə yeni yataqdan neft hasil edilmişdir.

Azərbaycan açıq dənizlərə çıxışı olmayan bir ölkədir. Ona görə neft kəmərləri tikilməli idi və 1999-cu ildə artıq birinci neft kəməri – Bakı-Supsa kəməri istifadəyə verilmişdir. Yəni, bu, onu göstərir ki, biz bu böyük işləri nə qədər qısa müddət ərzində görmüşük. Bu işlər həm böyük maliyyə vəsaiti tələb edirdi, həm də texniki cəhətdən çox çətin layihələr idi. Onu da deməliyəm ki, 1999-cu ildə bizim hələ böyük vəsaitimiz də yox idi. Ondan sonra Bakı-Tbilisi-Ceyhan neft kəməri istifadəyə verildi. Ona görə bu layihələrin həyata keçirilməsi doğrudan da böyük səylər, böyük müdriklik tələb edirdi. Bakı-Supsa neft kəmərinin istifadəyə verilməsi ilə biz tarixdə ilk dəfə Xəzər dənizini Qara dənizlə neft kəməri ilə bağlamışıq.

Ondan sonra 2002-ci ildə artıq biz "Azəri-Çıraq" yatağından böyük neft gözləyərkən məhz burada - Səngəçal terminalının ərazisində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməlini qoyduq. Bu kəmər 2006-cı ildə istifadəyə verildi və bu gün Azərbaycan xalqına, bütün

dost ölkələrə xidmət edir. Bu gün Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə nəinki Azərbaycan nefti, eyni zamanda, digər ölkələrin nefti də nəql edilir. Xəzərin şərq sahilində digər ölkələr tərəfindən hasil edilən neft artıq bu kəmər vasitəsilə dünya bazarlarına çıxarılır. Azərbaycan bu gün, eyni zamanda, etibarlı tranzit ölkə kimi qonşu ölkələrə öz imkanlarını təqdim edir.

2007-ci ildə isə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi. Bu da çox önəmli layihədir. Bu layihə olmadan "Şahdəniz" yatağının işlənməsi mümkün deyildi. Beləliklə, ilk dəfə olaraq 2007-ci ildə Azərbaycan qazı Gürcüstana və Türkiyəyə nəql edilməyə başlamışdır. O günü də mən çox yaxşı xatırlayıram. Ceyhandakı mərasimi də yaxşı xatırlayıram. Bu gün buraya gələrkən bütün o tarixi anlar, o günlər bir daha mənim yaddaşımda oyandı və bir daha mən demək istəyirəm ki, doğrudan da bunlar tarixi nailiyyətlərdir.

"Şahdəniz" yatağının gələcək işlənilməsi ilə bağlı addımlar atılmağa başlanıldı. Əlbəttə, biz hamımız yaxşı bilirdik ki, böyük həcmdə Azərbaycan qazını dünya bazarlarına çıxarmaq üçün qaz kəməri lazımdır. Beləliklə, Cənub Qaz Dəhlizinin yaradılması ilə bağlı praktiki işlərə start verildi. Çox ciddi işlər, danışıqlar aparıldı və nəhayət, 2012-ci ildə Azərbaycan ilə Türkiyə arasında TANAP – Transanadolu qaz kəməri üzrə müqavilə imzalandı. Beləliklə, Cənub Qaz Dəhlizinin reallaşmasına güclü təkan verildi. TANAP layihəsi Cənub Qaz Dəhlizinin önəmli hissəsidir. Biz gələn ay TANAP layihəsinin istifadəyə verilməsini də qeyd edəcəyik. Qeyd etdiyim kimi, 2014-cü il sentyabrın 20-də, - o da çox rəmzi məna daşıyır, çünki "Əsrin kontraktı" 1994-cü il sentyabrın 20-də imzalanmışdır, - 20 ildən sonra Cənub Qaz Dəhlizinin təməli qoyulmuşdur. Bu gün biz bu layihənin rəsmi açılışını qeyd edirik və bu, doğrudan da böyük və tarixi hadisədir.

Cənub Qaz Dəhlizi nəhəng infrastruktur layihəsidir. Bu layihənin icra edilməsinə 40 milyard dollardan çox sərmayə qoyulubdur və qoyulur. Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir. Əminəm ki, bundan böyük həcmdə resurslarımız var. Gələcək kəşfiyyat və istismar işləri əminəm ki, bunu təsdiqləyəcək.

Bu layihələrin həyata keçirilməsi beynəlxalq əməkdaşlıq olmadan mümkün olmazdı. Mən, ilk növbədə, regional əməkdaşlıq haqqında danışmaq istərdim. Azərbaycan, Gürcüstan və Türkiyə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və digər önəmli layihələri, o cümlədən nəqliyyat sahəsində Bakı-Tbilisi-Qars layihəsini icra edərkən artıq çox güclü üçtərəfli regional əməkdaşlıq formatı yaratmışlar. Ona görə bu layihələrin icra edilməsində bu üç ölkənin birgə səyləri xüsusi yer tutur. Mən bu gün fürsətdən istifadə edərək həm Türkiyə, həm Gürcüstan rəhbərliyinə əməkdaşlığa görə təşəkkürümü bildirmək istəyirəm. Mən bu gün Amerika Birləşmiş Ştatlarının hökumətinə təşəkkürümü bildirmək istəyirəm. Çünki Amerika Birləşmiş Ştatları bütün layihələrimizdə bizə böyük dəstək olub, bizə kömək göstərib, həm siyasi dəstək, həm mənəvi dəstək. Əlbəttə, bu layihələr böyük resurslar tələb edir və maliyyə resurslarının böyük hissəsi banklar tərəfindən verilir. Amerika hökumətinin bu işdə çox böyük səyləri olub. Biz bu dəstəyi, o cümlədən Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və "Cənub Qaz Dəhlizi" layihələrinin reallaşmasında həmişə hiss etmişik və hiss edirik. Bu dəstək bu layihələrin icra edilməsində çox böyük rol oynamışdır.

Böyük Britaniya hökuməti də həmişə bizim yanımızda olub. Bildiyiniz kimi, BP şirkəti energetika sahəsində bizim əsas investorumuzdur. Böyük Britaniya hökuməti bu layihələrin reallaşmasında həmişə bizə dəstək göstərmişdir, biz bu dəstəyi bu gün də hiss edirik. Keçən ay Londonda Baş nazir xanım Mey ilə mənim iştirakımla BP ilə SOCAR arasında növbəti kontrakt imzalanmışdır. Bu, bizim strateji əlaqələrimizi bir daha əks etdirir.

Avropa İttifaqı bu layihənin icrasında çox önəmli rol oynamışdır. Hələ 2011-ci ildə Bakıda Avropa İttifaqı ilə Azərbaycan arasında Cənub Qaz Dəhlizi haqqında Birgə Bəyannamə imzalanmışdır. Bu illər ərzində biz daim Avropa İttifaqının dəstəyini hiss etmişik. Azərbaycanın və Avropa İttifaqının təşəbbüsü ilə son dörd il ərzində Bakıda hər il Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının iclasları keçirilir. 2015-ci ildən bu günə qədər Avropa İttifaqı bu toplantılarda ən yüksək səviyyədə təmsil olunur. Avropa İttifaqı ilə Azərbaycanın əməkdaşlıq formatında energetika sektoru təbii ki, çox böyük yer tutur.

Bu layihələrin həyata keçirilməsi maliyyə institutlarının maliyyəsi olmadan mümkün olmazdı. Mən bugünkü mərasimdə bizə dəstək olan beynəlxalq səviyyədə tanınmış banklara da öz təşəkkürümü bildirmək istəyirəm. Onlar da bizə inanır və öz maliyyə resurslarını ayırırlar. Onlar da əmindirlər, biz də əminik ki, Azərbaycan etibarlı tərəfdaş kimi bütün borcları vaxtında qaytarır və qaytaracaq.

Bir sözlə, geniş beynəlxalq əməkdaşlıq çərçivəsində həyata keçirilən bu layihə əminəm ki, gələcəkdə nəinki energetika sahəsində, bütün başqa sahələrdə Avropada və bizim bölgədə əməkdaşlığın dərinləşməsinə xidmət göstərəcək.

Cənub Qaz Dəhlizinin icrasında yeddi ölkə iştirak edir. Mən o ölkələrin adlarını bu gün çəkmək istərdim - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya. Bax, geniş beynəlxalq əməkdaşlıq yaradılıb.

Eyni zamanda, üç Balkan ölkəsi – Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro tərəfdaşlar kimi əminəm ki, növbəti mərhələdə bu layihəyə qoşulacaqlar.

Cənub Qaz Dəhlizinin qolları olmalıdır. Biz ixrac imkanlarımızı genişləndirmək istəyirik. Bilirik ki, Avropada da Azərbaycan qazına tələbat var. Biz də istəyirik daha çox qazı Avropaya sataq, çünki Avropa bazarı bizim üçün ən əlverişli bazardır.

Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi məsələlərinin həllinə də kömək göstərəcək. Bu gün enerji təhlükəsizliyi ilə bağlı məsələlər dünya gündəliyində çox ciddi dayanır və ölkələrin milli təhlükəsizliyi, o cümlədən enerji təhlükəsizliyindən böyük dərəcədə asılıdır.

Cənub Qaz Dəhlizi enerji resurslarının şaxələndirilməsi işində də çox önəmli layihədir və hesab edirəm ki, əvəzolunmaz layihədir. Bu layihədə biz həm mənbələrin, həm marşrutların şaxələndirilməsini görürük. Çünki ancaq bu təqdirdə biz tam mənada enerji resurslarının şaxələndirilməsi haqqında danışa bilərik. Sadəcə olaraq, yeni marşrutların açılması və eyni mənbədən qidalanması tam mənada enerji şaxələndirilməsi məsələsi deyil. Biz isə, sözün əsl mənasında, enerji şaxələndirilməsi layihəsini icra edirik. Azərbaycan qazı yeni mənbədir və Cənub Qaz Dəhlizi yeni enerji damarıdır, Avropanın enerji təhlükəsizliyini yenidən tərtib edən layihədir. Bu layihənin həyata keçirilməsində iştirak edən bütün tərəflərin maraqları təmin edilib. Bu da çox önəmlidir. Burada maraqlar balansı gözlənilib.

Hasilatçı ölkə Azərbaycan, tranzit ölkələr, o cümlədən Azərbaycan və başqa ölkələr və istehlakçı ölkələr, - hansılar ki, Azərbaycan qazını alternativ qaz kimi alacaqlar, - beləliklə, onlar üçün enerji təhlükəsizliyi məsələləri daha da dolğun şəkildə, tam şəkildə təmin ediləcək. Yəni, maraqlar balansı olmasaydı, bu layihə həyata keçirilə bilməzdi. Bizim enerji siyasətimizlə bağlı yanaşmamız məhz bundan ibarətdir. Biz qarşılıqlı faydalı əməkdaşlığı təmin etməliyik.

İştirak edən bütün tərəflər, şirkətlər, ölkələr öz mənfəətini götürməlidirlər - həm siyasi, həm təhlükəsizlik, həm iqtisadi. Şirkətlər öz mənfəətini götürməlidirlər və Azərbaycan resursların sahibi kimi, əlbəttə ki, öz mənfəətini götürür və götürəcək.

Çıxışımın sonunda bu layihələrin ölkəmiz üçün nə qədər böyük fayda gətirdiyini qeyd etmək istərdim. Bu gün Azərbaycan ayaqda möhkəm duran bir ölkədir, müstəqil ölkədir, müstəqil siyasət aparan ölkədir, güclü iqtisadiyyata malik olan bir ölkədir. Son 15 il ərzində Azərbaycan iqtisadiyyatı, ümumi daxili məhsul üç dəfədən çox artmışdır. Ölkə iqtisadiyyatına son 15 il ərzində 230 milyard dollardan çox sərmayə qoyulmuşdur.

Azərbaycanda xarici dövlət borcu çox aşağı səviyyədədir, ümumi daxili məhsulumuzun cəmi 20 faizini təşkil edir. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 4-5 dəfə çoxdur. Yəni, biz istənilən vaxtda bütün borcları rahatlıqla ödəyə bilərik. Azərbaycanda son 15 il ərzində yoxsulluq səviyyəsi təxminən 50 faizdən 5,4 faizə düşüb, işsizlik 5 faiz səviyyəsindədir. Bu, onu göstərir ki, qara qızıl, neft və qaz insan kapitalına çevrilib. Onu göstərir ki, bizim siyasətimiz ondan ibarət olmuşdur ki, biz neft-qaz əməliyyatlarından əldə olunan gəlirləri cəmiyyətdə bərabər, ədalətli şəkildə bölək və ölkə iqtisadiyyatının inkişafı üçün lazım olan layihələrə yönəldək. Dünya Davos İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını dünya miqyasında rəqabətqabiliyyətliliyinə görə 35-ci yerə layiq görüb. Bu, onu göstərir ki, biz iqtisadi şaxələndirmə siyasətini uğurla aparırıq. Neftdən əldə edilmiş gəlirlər iqtisadiyyatın qeyri-neft sektoruna yönəlib. Davos Forumunun hesablamalarına əsasən inkişafda olan ölkələr arasında inklüziv inkişaf indeksinə görə Azərbaycan üçüncü yerdədir. Bu işlərin təməlində bizim uğurlu neft-qaz siyasətimiz dayanır. Ancaq, eyni zamanda və böyük dərəcədə bu işlərin təməlində düşünülmüş siyasət dayanır. Bir çox ölkələr var ki, onların bizdən qat-qat böyük neft resursları, neft hasilatı var. Ancaq ölkələrin uğurlu inkişafını təbii resurslar həll etmir. Düşünülmüş siyasət, xalq-iqtidar birliyi, şəffaflıq, bütün azadlıqların təmin edilməsi, düzgün iqtisadi siyasət və regional əməkdaşlıq uğurlu inkişafın əsas amilləridir.

Bu gün bu tarixi gündə mən bu tarixi məqamları bir daha sizin və Azərbaycan xalqının diqqətinə çatdırmaq istərdim. Çünki bugünkü günün təməli məhz o illərdə qoyulub. Sadəcə olaraq, biz bütün bu işləri ardıcıllıqla görmüşük. Bu gün bizim ölkəmizin həyatında çox əlamətdar tarixi bir gündür. Bu gündə mən Cənub Qaz Dəhlizinə uzun və uğurlu ömür arzulayıram.

Sağ olun.

Müqəddəs Ramazan ayı münasibətilə keçirilən iftar mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Hörmətli şeyx həzrətləri.

Hörmətli din xadimləri.

Xanımlar və cənablar.

Hər il olduğu kimi, biz bu il də mübarək Ramazan ayında iftar məclisində görüşürük. Bu gözəl ənənə yaşayır və yaşamalıdır. Bu, Azərbaycanda dövlət-din əlaqələrinin nə qədər yüksək səviyyədə olmasından xəbər verir. Dövlət-din münasibətlərinin formalaşmasının təşəbbüskarı ulu öndər Heydər Əliyev olmuşdur. Bütün sahələrdə olduğu kimi, Ulu Öndər Azərbaycanın inkişaf konsepsiyasının müəllifidir. İnkişaf istiqamətlərini müəyyən edərkən o, çox böyük uzaqgörənlik göstərmişdir. Bu gün Azərbaycanın uğurlu inkişafı məhz bu konsepsiyanın icrası nəticəsində mümkün olmuşdur. O cümlədən dövlət-din münasibətlərinin qurulması, yaradılması işində Heydər Əliyevin böyük xidmətləri olmuşdur. O, hakimiyyətə gələnə qədər Azərbaycanda bu münasibətlər tənzimlənmirdi və böyük boşluq yaranmışdı. Biz keçən ay Ulu Öndərin anadan olmasının 95-ci ildönümünü qeyd edərkən, əziz xatirəsinə hörmətimizi ifadə edərkən onun xalq qarşısında gördüyü böyük xidmətlər haqqında danışmışıq, onun fəaliyyətini yada salmışıq. Bu gün də şeyx həzrətlərinin təşkil etdiyi iftar məclisində Ulu Öndərin dövlət-din münasibətlərinin tənzimlənməsində gördüyü işlər və oynadığı rol haqqında danışırıq və bu, təbiidir.

Şeyx həzrətlərinin bu məsələlərin uğurla həlli işində fəaliyyətini mən çox yüksək qiymətləndirirəm. Dövlət-din münasibətlərinin inkişafı şeyx həzrətlərinin böyük əməyi sayəsində mümkün olmuşdur və bu gün bu əlaqələr nümunəvidir. Şeyx həzrətləri nəinki Azərbaycanda, eyni zamanda, Qafqazda, postsovet məkanında, Avropada, ümumiyyətlə, dünyada çox böyük hörmətə malik olan bir din xadimidir. Şeyx həzrətlərinin uğurlu fəaliyyəti Azərbaycanı dünyada öz milli dəyərlərinə sadiq, eyni zamanda, çox açıq, çox tolerant, müasir dövlət kimi təqdim edir. Azərbaycanda dövlət-din münasibətlərinin bu yüksək səviyyədə olmasında şeyx həzrətlərinin çox böyük xidməti var. Mən bilirəm ki, keçən il Azərbaycanda "İslam Həmrəyliyi İli" qeyd olunan zaman şeyx həzrətləri bir çox ölkələrdə Azərbaycan həqiqətləri haqqında danışmış, çıxış etmiş, beynəlxalq konfranslarda iştirak etmiş və ölkəmizin reallıqlarını dünya ictimaiyyətinə çatdırmışdır.

Azərbaycanda bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Bugünkü iftar məclisimizdə səslənən fikirlər, ənənəvi dinlərin rəhbərlərinin çıxışları bir daha bunu göstərir. Azərbaycanda həm dövlət-din əlaqələri, həm dinlərarası əlaqələr nümunəvi xarakter daşıyır. Bilirəm ki, bu məsələlərlə bağlı Azərbaycan modeli bu gün artıq dünyada bir çox yerlərdə öyrənilir. Bu, bizim uğurlu inkişafımız üçün lazımdır. Bu, dövlət siyasətimizin təzahürüdür. Eyni zamanda, bu, cəmiyyətimizin vəziyyətini, cəmiyyətdə mövcud olan ab-havanı əks etdirir.

Azərbaycanda dinlərarası məsələlərlə bağlı çox ciddi düşünülmüş dövlət siyasəti aparılır və bu siyasət Azərbaycan xalqı tərəfindən dəstəklənir. Azərbaycanda bu münasibətlərin tənzimlənməsi ölkəmizin uğurlu inkişafını təmin edir. Azərbaycanda mövcud olan milli həmrəylik, vətəndaş birliyi, sabitlik məhz bu münasibətlərin əsasında qurulubdur. Azərbaycan xalqı öz milli dəyərlərinə sadiqdir və Azərbaycan dövləti milli dəyərlər üzərində qurulubdur. Eyni zamanda, Azərbaycan dünya miqyasında dinlərarası, millətlərarası münasibətlərin qurulmasında artıq nümunəvi ölkə kimi tanınır. Biz həm dünyaya Azərbaycandan çox ciddi və müsbət siqnal göndəririk, həm də ölkəmizin uğurlu inkişafı üçün bu münasibətlərin yüksək səviyyədə olması çox önəmlidir. Bizim amalımız birdir, bizim niyyətimiz birdir. Biz istəyirik ki, ölkəmiz daha da güclənsin, daha da sürətlə inkişaf etsin. İstəyirik ki, Azərbaycan xalqı daha yaxşı yaşasın, rifah, sülh, əmin-amanlıq şəraitində yaşasın. Nəinki bunu istəyirik, öz praktiki addımlarımızla bunu təmin edirik.

Bir neçə gün bundan əvvəl mən Azərbaycanda fəaliyyət göstərən müsəlman ölkələrinin səfirləri ilə görüşmüşəm. Ramazan ayında bu görüşlər ənənəvi xarakter daşıyır. Görüş zamanı müsəlman ölkələri ilə bizim əlaqələrimiz haqqında danışmışam. Bu əlaqələr yüksək səviyyədədir. Azərbaycan müsəlman aləmində çox böyük dəstəyə, çox böyük hörmətə malik olan bir ölkədir. Müsəlman ölkələri beynəlxalq təşkilatlarda Azərbaycanı daim dəstəkləyirlər və yaxşı bilirlər ki, Azərbaycan da öz növbəsində bütün beynəlxalq təşkilatlarda müsəlman ölkələrini dəstəkləyir. Azərbaycan dünyada İslam mədəniyyətinin təbliği işində çox fəal və uğurlu rol oynayır. Biz dünyanın müxtəlif ölkələrində İslam mədəniyyətinin təqdimatı ilə bağlı bir çox tədbirlər keçirmişik, keçiririk və keçirəcəyik. Sərgilər, mədəni proqramlar, təqdimatlar, konfranslar – bütün bu addımlar bir məqsədi güdür ki, dünyaya İslam mədəniyyətini, İslam dəyərlərini olduğu kimi təqdim edək, bəzi hallarda İslam dini ilə bağlı təhrif edilmiş və yanlış fikirlərə qarşı öz səsimizi ucaldaq və real həqiqətləri çatdıraq. Bilirəm ki, bu sahədə apardığımız fəaliyyət müsəlman aləmində çox böyük hörmətlə qarşılanır. Bizim bu fəaliyyətimiz bir daha onu göstərir ki, Azərbaycan həm İslam mədəniyyətinin təbliğinə, həm İslam ölkələri arasındakı həmrəylik meyillərinə çox güclü töhfə verir.

İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda dini məsələlərin həllinə çox yüksək qiymət verir. İslam

Əməkdaşlıq Təşkilatı ölkəmizi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı daim dəstəkləyir. Bir çox qətnamələr qəbul edilmişdir. Bu qətnamələrdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi həqiqətlər, real vəziyyət və ədalətli mövqe nümayiş etdirilir. Azərbaycanın haqq səsi dəstəklənir və bu dəstəyə görə biz İslam Əməkdaşlıq Təşkilatına minnətdarıq.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq norma və prinsiplər əsasında həll olunmalıdır. Dağlıq Qarabağ bizim tarixi torpağımızdır, biz bunu, bu həqiqətləri bütün dünyaya çatdırırıq. Bir çox elmi əsərlər, kitablar nəşr edilib, bir çox tədbirlər keçirilib. Biz tarixi həqiqətləri çatdırmalıyıq və çatdırırıq. Dağlıq Qarabağın tarixən Azərbaycan xalqına məxsus olması artıq heç kimdə şübhə doğurmur. Hüquqi nöqteyi-nəzərdən Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Heç bir ölkə Dağlıq Qarabağda mövcud olan kriminal, qondarma rejimi tanımır və əminəm ki, tanımayacaq. Bu amillər, həm tarixi faktlar, həm beynəlxalq hüququn normaları, beynəlxalq təşkilatların qərar və qətnamələri nəinki bizim mövqeyimizi gücləndirir, eyni zamanda, münaqişənin həli üçün əsas yaradır, hüquqi baza yaradır və biz yorulmaz fəaliyyət nəticəsində buna nail olmuşuq. Əminəm ki, biz ardıcıl siyasət aparmaqla istədiyimizə nail olacağıq, ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik. Buna mənim şübhəm yoxdur. Həm tarixi həqiqətlər, hüquqi baza, BMT Təhlükəsizlik Şurasının qətnamələri, digər təşkilatların qərar və qətnamələri, bizim iqtisadi gücümüz, hərbi gücümüz və bölgədə mövcud olan real vəziyyət bunu deməyə əsas verir.

Mənim illər ərzində dediyim sözləri indi erməni xalqı deyir. Mən dünyanın ən ali kürsüsündən - BMT kürsüsündən Ermənistanın əvvəlki kriminal rejimini ifşa etmişəm. Onları öz adları ilə çağırmışam. Onları Xocalı soyqırımında ittiham etmişəm, hərbi cinayətlərdə ittiham etmişəm. Ermənistanın əvvəlki hakimiyyətini qaniçən, kriminal, quldur rejim adlandırmışam. Bütün bunlar həqiqətdir. Mən həqiqəti demişəm, indi bu həqiqəti erməni xalqı deyir. Nəhayət, indi erməni xalqı anlayıb ki, onlara 20 il ərzində kriminal xunta rejimi rəhbərlik edib. O kriminal xunta rejimi ki, ancaq öz maraqlarını güdür, o rejim ki, onun yarıtmaz və cinayətkar fəaliyyəti nəticəsində Ermənistan bu acınacaqlı vəziyyətə düşüb. Mən dəfələrlə demişdim ki, Ermənistanda iqtisadi böhran, demoqrafik böhran yaşanır, ölkə boşalır, hər il on minlərlə insan o ölkəni həmişəlik tərk edir, Ermənistanda inkişaf üçün heç bir perspektiv yoxdur. Demişəm ki, Azərbaycan Ermənistanı dalana çevirib, iqtisadi, siyasi, nəqliyyat dalanına çevirib. Nəyə görə? Ona görə ki, Ermənistan torpaqlarımızı işğal edibdir. İndi bütün bunları erməni xalqı deyib və deyir. Bu, bir daha onu göstərir ki, bu münaqişədə Azərbaycan öz istədiyinə nail olacaq, həqiqəti, ədaləti bərpa edəcək. Ümid edirəm ki, Ermənistanın yeni rəhbərliyi əvvəlki hakimiyyətin səhvlərini təkrarlamayacaq və münaqişənin tezliklə həll olunması üçün ciddi işlər görəcək və imitasiya naminə yox, real danışıqlar prosesinə start veriləcək. Beləliklə, məsələ öz həllini tapa bilər və Qafqaza sülh gələ bilər. Biz bunu istəyirik, biz münaqişənin həllini tələb edirik, bizim buna haqqımız çatır. Ümid edirik ki, bu məsələ danışıqlar yolu ilə tezliklə öz həllini tapa bilər.

Azərbaycanda din dövlətdən ayrıdır. Ancaq dövlət dindarlara daim dəstək, dayaq olur. Bizim bütün tarixi məscidlərimiz dövlət tərəfindən əsaslı şəkildə bərpa edilibdir. Şeyx həzrətləri qeyd etdiyi kimi, indi Təzəpir məscidinin ətrafı təmizlənir. Onun ətrafı böyük bir ictimai zonaya çevriləcək, orada böyük park salınır. Çünki vaxtilə Təzəpir məscidinin ətrafındakı binalar onun əzəmətini gizlədirdi. İndi artıq məscidin bir hissəsi açılıb, böyük park salınır. Digər hissənin açılması gözlənilir və beləliklə, Azərbaycanda gözəl bir memarlıq ansamblı yaradılır.

Bibiheybət məscidi bizim qədim tarixi məscidimizdir. "İmamzadə" tarixi-dini kompleksi, Şamaxı Cümə məscidi, Əjdərbəy məscidi dövlət tərəfindən əsaslı şəkildə təmir edilib. Ölkəmizin ən böyük məscidi olan Heydər məscidi dövlət hesabına tikilib ki, bu, memarlığına görə bir əsərdir. Eyni zamanda, keçən il Cocuq Mərcanlıda Şuşa məscidinin bənzəri olan məscid tikilib. Uzun fasilədən sonra işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində azan səsi eşidilir. Şamaxı məscidi ilə eyni vaxtda inşa edilmiş, ən qədim məscidlərimizdən biri olan Şamaxı rayonunun Dəmirçi kəndindəki məscid keçən il əsaslı şəkildə təmir edilmişdir. Bu il Hacı Cavad məscidinin yeni binası tikildi və şeyx həzrətləri qeyd etdiyi kimi, prezident seçkilərindən sonra mənim getdiyim birinci yer məhz Hacı Cavad məscidinin yeni binasının açılışı olmuşdur və bu, təsadüfi deyil. Çünki mən oraya seçkilərdən əvvəl də, seçkilərdən bir ay sonra da gedə bilərdim. Məhz seçkilərdən sonra birinci tədbir - yenidən tikilmiş Hacı Cavab məscidinin açılışı hesab edirəm ki, böyük məna daşıyır. Hesab edirəm ki, dindarlar və bütün Azərbaycan vətəndaşları bunu çox gözəl başa düşürlər.

Eyni zamanda, XIX əsrdə inşa edilmiş və Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir olunmuş İmam Hüseyn məscidi də açılışa hazırdır. Yəni, bu istiqamətdə həm dövlət, - əlbəttə ki, əsas yükü dövlət öz üzərinə götürüb, - həm də ictimai qurumlar öz töhfəsini verirlər və bu, bizim borcumuzdur. Bizim tarixi abidələrimiz, dini abidələrimiz milli sərvətimizdir. Bütün başqa dinlərin məbədləri bizim üçün əzizdir, bizim sərvətimizdir. Azərbaycanda bütün dinlərin tarixi-dini abidələri qorunur, bərpa edilir, tikilir. Bu, bir daha onu göstərir ki, Azərbay-

canda dini siyasət çox düşünülmüş şəkildə aparılır və Azərbaycan xalqının maraqlarına cavab verir.

"İslam Həmrəyliyi İli" ərzində bir çox tədbirlər keçirilmişdir. Onların arasında əlbəttə ki, şeyx həzrətlərinin təşkil etdiyi tədbirləri mən xüsusilə qeyd etmək istərdim. Qeyd etdiyim kimi, xarici ölkələrdə bir çox önəmli konfranslar keçirilmişdir. Yekun tədbir keçən ilin sonunda – dekabr ayında Bakıda keçirilmiş böyük konfrans idi. Hesab edirəm ki, konfransa dünyanın aparıcı dini liderlərinin və dövlət xadimlərinin göndərdikləri təbriklər bu tədbirin önəmini qeyd etməklə yanaşı, eyni zamanda, Azərbaycana hörmətin təzahürü idi. Biz bunu belə qəbul edirik. Bu konfransı keçirərkən biz bir daha gördük ki, belə tədbirlərin keçirilməsinə nə qədər ehtiyac var. Çünki bu gün deyə bilərəm ki, Azərbaycan bu tədbirlərin dünya səviyyəsində, belə mötəbər səviyyədə keçirilməsi ilə ümumbəşəri dəyərlərə çox böyük töhfə verir. Mən hesab edirəm ki, bizim bu sahədəki nadir rolumuz böyük qiymətə layiqdir və yüksək qiymətləndirilir. Hesab edirəm ki, biz gələcəkdə bu istiqamətdə öz fəaliyyətimizi davam etdirməliyik.

Konfransdan sonra şeyx həzrətləri ilə söhbət əsnasında belə qərara gəldik ki, bu kimi tədbirlər Azərbaycanda ənənəvi olaraq keçirilməlidir. "İslam Həmrəyliyi İli" artıq başa çatıb. Ancaq biz elə etməliyik ki, bu məsələ daim diqqət mərkəzində olsun. Bunu etmək üçün xüsusi tədbirlər planı hazırlanıb və icra ediləcək. Yəni, bu gün Azərbaycanın bu sahədə apardığı işlərə dünyada yenə də böyük ehtiyac var.

Təsadüfi deyil ki, bizim təşəbbüsümüzlə on il bundan əvvəl başlanan "Bakı Prosesi" dünyada yeganə genişmiqyaslı əməkdaşlıq formatıdır. Bu on il ərzində buna oxşar təşəbbüs heç kim tərəfindən irəli sürülməmişdir. "Bakı Prosesi" sırf Azərbaycan təşəbbüsüdür. Bu il biz "Bakı Prosesi"nin on illiyini qeyd edəcəyik. Bu təşəbbüs BMT və digər mötəbər beynəlxalq təşkilatlar tərəfindən dəstəklənir. "Bakı Prosesi" artıq dünya gündəliyinin önəmli hissəsidir və bu illər ərzində görün biz Azərbaycanda nə qədər böyük tədbirlər keçirmişik - dünya dini liderlərinin zirvə görüşü, BMT Sivilizasiyalar Alyansının Qlobal Forumu, Bakı humanitar forumları, mədəniyyətlərarası dialoq forumları. Yəni, bütün bunları biz ona görə edirik ki, buna böyük ehtiyac var. Biz istəyirik ki, nəinki Azərbaycanda, dünyada dinlərarası münasibətlər yüksək səviyyədə tənzimlənsin.

2017-ci ildə fərdi sahibkarlar tərəfindən faktiki qiymətlərlə 935,2 min manatlıq sənaye məhsulu istehsal edilmişdir ki, bu da 2007-ci illə müqayisədə 3,1 dəfə çoxdur. 2017-ci ildə sənaye müəssisələrində çalışan 555 nəfər işçinin aylıq əmək haqqı 253,2 manat olmuşdursa, 2007-ci ildə bu sahədə çalışan 439 nəfər 109,6 manat orta aylıq əmək haqqı almışdır.

Rayonumuzda 2017-ci il ərzində daimi olmaqla 535 yeni iş yeri açılmışdır. Açılmış iş yerlərinin 4,7 faizi yeni yaradılmış müəssisə və təşkilatlarda, 21,5 faizi mövcud müəssisə və təşkilatlarda, 73,8 faizi isə fərdi sahibkarlıq subyektlərində yaradılmışdır. Ümumiyyətlə, son 15 ildə rayonda 8084 iş yeri açılmışdır.

2017-ci ildə avtomobil nəqliyyatı müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 1431 min ton və ya 2007-ci illə müqayisədə 80,5 faiz çox yük, 7140 min nəfər və ya 83,5 faiz çox sərnişin daşınmışdır. Yük daşınmasına görə Qax rayonunun Şəki-Zaqatala iqtisadi rayonunda payı 17 faiz, sərnişin daşınmasına görə 10,5 faiz təşkil etmişdir.

Respublikamızın bütün bölgələrində olduğu kimi, rayonumuzda da yol tikintisinə və təmirinə diqqət xeyli dərəcədə artırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Şəki-Qax-Zaqatala yolunun, Alatəmir-Marsan-Tasmalı-Zəyəm-Lələli yolunun Qorağan-Qax-Zaqatala yolunun tikintisi ilə əlaqədar müvafiq qurumlara vəsait ayrılmış və həmin yolların açılışında Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev cənabları iştirak etmişdir.

Bundan başqa 15-dən çox yaşayış məntəqəsinin əsas küçəsi əsaslı təmir olunmuşdur. Hazırda Qax-Qıpçaq-Ağyazı yolunun əsaslı təmiri həyata keçirilir. Eyni zamanda bələdiyyələr tərəfindən kənd daxili yolların cari təmiri işləri aparılmışdır.

Son illər əhalinin və digər kateqoriyadan olan abonentlərin elektrik enerjisi ilə təminatı sahəsində xeyli işlər görülmüşdür.

Belə ki, Qax Elektrik Şəbəkəsi tərəfindən təkcə son 2017-ci ildə 31 ədəd transformator yarımstansiyası cari, 24 ədəd transformator yarımstansiyası əsaslı təmir olunmuş, 13 ədəd yeni ayırıcı və 2977 ədəd sayğac quraşdırılmışdır. Qax şəhərində, Qaxbaş və İlisu kəndlərində 22 ədəd yeni transformator yarımstansiyası quraşdırılmış, 72,6 km uzunluğunda SİP kabel çəkilmiş, 0,4 kv-luq şəbəkənin qurulması üçün 1530 ədəd metal boru dayaq, 10 kv-luq xəttin çəkilişi üçün isə 409 ədəd dəmir-beton dayaq basdırılmış və 10,2 km uzunluğunda yeni xətt çəkilmişdir.

Yeni 110 kv-luq hava xəttinin çəkilişi üçün 78 ədəd dayaq basdırılmış, 13 km uzunluğunda yeni xətt çəkilmişdir. 35 kv-luq Qaxbaş hava xəttində 48 ədəd dayaq basdırılaraq 7,5 km uzunluğunda yeni xətt çəkilmişdir. Keçən il 35/10 kv-luq "İlisu" yarımstansiyasının tikintisi başa çatdırılmışdır.

Əhalinin təbii qazla təminatı son illər xeyli yaxşılaşdırılmışdır. Hazırda rayonun 17 yaşayış məntəqəsinə təbii qaz xətti çəkilmişdir. Həmin yaşayış məntəqələrində olan abonentlərin sayı (9823) rayon üzrə olan təsərrüfatların sayının (15598) 63 faizini təşkil edir. Hazırda rayonun kəndlərinin qazlaşdırılması işləri davam etdirilir.

Əhalinin içməli su və suvarma suyu ilə təminatı xeyli yaxşılaşdırılmışdır. Son 15 ildə rayonun kəndlərində 76 ədəd artezian və subartezian quyusu qazılmışdır. 1500 hektar əkinə yararlı torpaq sahəsinin suvarılmasını təşkil etmək üçün suötürücü stansiya tikilmişdir. Hazırda 6 kənddə sutəmizləyici qurğu quraşdırılaraq əhalinin istifadəsinə verilmişdir.

2018-ci ildə 6 ədəd subarteziyan quyusunun qazılması nəzərdə tutulmuşdur.

Möhtərəm Prezidentin rayona hər gəlişi iri miqyaslı bir layihənin reallaşmasına zəmin yaradır. 2011-ci ilin 16-17 noyabr tarixində Qaxa gəlişi zamanı İlham Əliyev Qax şəhərində, Qax İngiloy və Qaxbaş kəndlərində qurulan su-kanalizasiya sisteminin təməlini qoydu. 16 avqust 2013-cu il tarixdə isə rayona səfərində ölkə rəhbəri şəhərin su təchizatı və kanalizasiya sistemləri kompleksinin təntənəli açılışını etdi.

Ulu Öndər Heydər Əliyevin qurub yaratdığı, müstəqilliyə qovuşdurduğu Azərbaycanda Möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının rəhbərliyi ilə bütün sahələrin uğurla inkişaf etdirilməsi təhsil sahəsinin də inkişafını təmin etmişdir.

Ölkəmizdə təhsil sahəsinə dövlət qayğısı rayonumuzun timsalında aydın görünür.

Hazırda rayonda 53 ümumtəhsil məktəbi, o cümlədən 30 tam, 16 ümumi, 7 ibtidai məktəb, 2 məktəbdənkənar tərbiyə müəssisəsi: Uşaq Gənclər İdman Şahmat Məktəbi, Uşaq-Gənclər İnkişaf Mərkəzi fəaliyyət göstərir.

Məktəblərin 45-də təlim Azərbaycan, 6-da gürcü, 1-də rus, 1 məktəbdə isə Azərbaycan, rus və gürcü dillərində aparılır. Hazırda 4 kənddə modul tipli yeni məktəb binalarının tikintisi davam etdirilir.

Rayon şagirdlərinin 66,6 faizi (4709 nəfər) yeni inşa edilmiş və ya əsaslı təmir olunmuş məktəblərdə təhsil alır.

Rayonun məktəblərində təhsil alan 7057 nəfər şagirdin təlim-tərbiyəsi ilə 1231 nəfər müəllim məşğul olur. Məktəbdənkənar tərbiyə müəssisələrində 1144 nəfər şagird idman və yaradıcılıq dərnəklərinə cəlb edilmişdir.

Rayonun təhsil müəssisələrində ölkə Prezidentinin sərəncamı ilə təsdiq edilmiş "Ümumtəhsil müəssisələrinin İKT ilə təminatı" proqramının yerinə yetirilməsi sahəsində işlər davam etdirilir. Bu sahədə təminat qənaətbəxşdir. Belə ki, hər 13 şagirdə 1 ədəd kompyuter düşür. Proqrama uyğun olaraq rayonun 15 tam orta məktəbinin, eləcə də rayon təhsil şöbəsinin inzibati binasının, UGŞM və UGİM-nin internetə qoşulması üçün lokal şəbəkələr quraşdırılmışdır.

"2017-2018-ci dərs ilində dövlət ümumtəhsil məktəblərində məktəbə hazırlıq qruplarının təşkili barədə" Azərbaycan Respublikası Təhsil Nazirinin müvafiq əmrinə uyğun olaraq 18 məktəbində 344 uşaq məktəbə hazırlıq qruplarına cəlb edilmişdir. Rayon üzrə təşkil olunan 19 məktəbə hazırlıq qrupundan 17-i Azərbaycan, 2-si rus bölməsi üzrə fəaliyyət göstərir.

"Dövlət ümumtəhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əmək haqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 16.01.2015-ci il tarixli 994 nömrəli sərəncamına uyğun olaraq aparılan diaqnostik qiymətləndirmədə Azərbaycan bölməsi üzrə 1039, rus bölməsi üzrə 31, gürcü bölməsi üzrə 159 nəfər olmaqla, ümumilikdə 1229 nəfər müəllim iştirak etmişdir. Diaqnostik qiymətləndirmənin nəticələrinə görə rayon üzrə müəllimlərin topladığı orta bal 38,96 olmuşdur.

Son on beş ildə rayon məktəblilərindən 25 nəfər beynəlxalq müsabiqə qalibi olmuşdur.

Son 10 il ərzində rayonun məzunlarından 3442 nəfəri ali məktəbə qəbul üçün ərizə vermiş, onlardan 1519 nəfəri tələbə adını qazanmışdır. Həmin illərdə ali məktəbə qəbul imtahanı vermiş məzunlardan 128 nəfəri 600-dən çox bal toplamışdır. Məzunlardan 5 nəfər qızıl medala layiq görülmüşdür.

2005-2017-ci illərdə rayonun 10 nəfər müəllimi "Əməkdar müəllim" adına layiq görülmüş, 9 nəfər "Tərəqqi" medalı, 16 nəfər "Qabaqcıl təhsil işçisi" döş nişanı, 16 nəfəri Təhsil Nazirliyinin fəxri fərmanları ilə təltif olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə keçirilən "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsində rayonumuzun 4 məktəbi, "Ən yaxşı müəllim" nominasiyası üzrə keçirilən müsabiqədə 7 nəfər müəllimi qaliblər sırasında olmuşdur.

Respublikamızda bütün sahələrdə aparılan islahatlar kimi, səhiyyə sahəsində də məqsədyönlü işlər, həyata keçirilən layihələr və hazırlanmış Dövlət Proqramları insanların rifahının yüksəldilməsi, onların sağlamlığının qorunması, sağlam nəsil yetişdirilməsinə xidmət edir.

Rayonumuzda əhalinin sağlamlığı keşiyində 4 xəstəxana, 10 həkim və 26 tibb məntəqəsində çalışan 109 həkim, 393 orta tibb işçisi durur.

Rayonda hər 10000 nəfərə 19 həkim, 70 orta tibb işçisi düşür.

Xəstəxanalarda müalicə alan xəstələr Səhiyyə Nazirliyinin müvafiq əmrinə əsasən dərman vasitələri ilə pulsuz təmin olunurlar. Həmçinin imtiyazlı xəstələr daim həkim nəzarəti altında saxlanılır və onlara da dərman vasitələri pulsuz olaraq verilir.

Səhiyyə Nazirliyinin müvafiq əmrinə əsasən rayonun 10 həkim məntəqəsində ailə həkimləri fəaliyyət göstərir.

Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən artıq 5 ildir ki, respublikamızda olduğu kimi, rayonumuzda da əhalinin tibbi müayinəsi uğurla həyata keçirilir. Aparılan işlərin nəticəsində rayonda 18 yaşdan yuxarı 44211 nəfər əhalinin 40916-sı tibbi müayinədən keçirilmişdir.

Yoluxucu xəstəliklərin baş verməməsi və azaldılması istiqamətində müntəzəm olaraq profilaktik tədbirlər həyata keçirilir.

Rayonda səhiyyənin keyfiyyətinin yüksəldilməsi üçün ilbəil səhiyyə obyektlərinin mad-

di-texniki bazası möhkəmləndirilir, müəssisələr ən müasir tibbi avadanlıqla təmin edilir.

Rayonun mədəniyyət və incəsənət işçiləri Dövlətin qarşıya qoyduğu vəzifələrin təbliğində, sosial-mədəni həyatda, keçirilən tədbirlərdə iştirakları ilə fərqlənirlər. Rayonda 2 teatr - Qax Dövlət Kukla Teatrı, cənab Prezidentin 16 dekabr 2004-cü il Sərəncamı ilə Dövlət statusu verilmiş Əlibəyli Dövlət Gürcü Dram Teatrı fəaliyyət göstərir. Azərbaycan Respublikası Mədəniyyət və Turizm nazirinin əmri ilə 2015-ci ildə rayonumuz "Azərbaycanın Milli Mətbəx" paytaxtı elan edilmiş, müvafiq tədbirlər planı hazırlanmışdır. Plana əsasən Qum kəndində "Tut bayramı", İlisu kəndində "Qax mətbəxi-İlisu yeməkləri" adlı tədbirlər, İçəribazar Turizm Mədəniyyət Mərkəzində respublika əhəmiyyətli "Ulu Dad" festivalı, Nizami parkında "Bal bayramı" keçirilmişdir.

Həmin ildə "Azərbaycanın mədəni irsinin mühafizəsi, abidələrinin bərpası və istifadəsində xidmətlərinə görə" nominasiyasında rayonumuz "Milli İrs" mükafatına layiq görülmüşdür.

2014-cü ildə ölkə prezidenti İlham Əliyevin sərəncamı ilə "Azərbaycan kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramına" əsasən həmyerlimiz, Milli qəhrəman Cavanşir Rəhimova həsr olunmuş, "Cavanşir" filmi çəkilmiş və təqdimat keçirilmişdir.

Rayonda İlisu Dövlət Tarix Mədəniyyət Qoruğu, Rayon Tarix diyarşünaslıq muzeyi, İ.Da-ğıstanlının xatirə muzeyi, Rayon Dövlət Rəsm qalereyası turistlərin və qonaqların sevəsevə üz tutduğu məkanlardır.Rayonun mədəniyyət müəssisələrində "Arzu xalq kollektivi, İ.Dağıstanlı adına xalq teatrı, "Şvitkatso" gürcü xalq xoru fəaliyyət göstərir.

Möhtərəm Prezident İlham Əliyev cənablarının 16 avqust 2013-cü il tarixində rayonumuza səfəri zamanı açılışını etdiyi Heydər Əliyev Mərkəzində xalq tətbiqi sənət dərnəyi otağı, xoreoqrafiya, ingilis, yapon və rus dillərinin öyrədilməsi üçün otaqlar, internet kafe, elektron kitabxana və virtual otaq fəaliyyət göstərir.

Yeni ailə quran gənclərə ailə dəyərlərini aşılamaq məqsədilə mərkəzdə 2014-cü ilin aprel ayından başlayaraq nigah mərasimləri keçirilir.

Mərkəzdə həmçinin Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının tapşırığına uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinin yerlərdə vətəndaşların qəbulu ilə bağlı görüşləri, əlamətdar və tarixi günlərə həsr olunmuş tədbirlər, respublika səviyyəli seminar-treninqlər və maarifləndirici tədbirlərin keçirilməsi təmin olunur.

3 avqust 2017-ci il tarixli səfərində Prezident İlham Əliyev "Bayraq Muzeyi"nin açılışını etmiş, muzeylə tanışlıqdan sonra öz tövsiyələrini vermişdir.

Son 10 ildə rayonun 3 nəfər mədəniyyət işçisi "Əməkdar mədəniyyət işçisi" adına layiq görülmüşdür.

Qədim yaşayış məskəni olmuş rayonumuz tarixi məkanları və tarixi abidələri ilə də diqqəti cəlb edir. Rayondakı abidələr tarixilik baxımından ziyarətçilərin böyük marağına səbəb olur. Bunlardan 2-si dünya əhəmiyyətli, 18-i ölkə əhəmiyyətli, 48-i isə yerli əhəmiyyətli olmaqla, 48 memarlıq, 18 arxeoloji, 2 monumental-xatirə abidələri var.

Hər bir tarixi abidə özündə tarixin izlərini yaşatmaqdadır. Son illərdə həm respublika, həm rayon səviyyəsində onların bərpası, təmiri, qorunması lazımı səviyyədə aparılır.

Rayondakı gəzməli, görməli yerlərinin çoxalması, tarixi məkanlara diqqətin ayrılması, turistlərin rayonumuza marağını daha da artırmışdır. Şəhərin mərkəzində yerləşən "Qala qapısı və Qala divarları" memarlıq abidəsində aparılan restavrasiya işləri, burada yaradılan "İçəribazar Turizm Mədəniyyət Mərkəzi də" buna ən parlaq misaldır. Turizm Mədəniyyət Mərkəzində yerli əhalinin və turistlərin yaxşı istirahəti üçün gözəl şərait yaradılmışdır. Buradakı teatr səhnəsi artıq neçə illərdir ən mötəbər beynəlxalq festivallara ev sahibliyi edir, dünya şöhrətli musiqiçilər Qaxa, onun gözəlliyinə, inkişafına heyranlıqlarını bu səhnədən bəyan edirlər.

Məhz cənab Prezident İlham Əliyev də 16 Noyabr 2011-ci il səfərində bu gözəl guşəyə vurğunlğunu böyük coşqu ilə söylədi:" Hər dəfə Qaxda olanda, yenilikləri görəndə çox sevinirəm. Rayon inkişaf edir, gözəlləşir, belə gözəl memarlıq əsərləri yaradılır. Deyə biləröm ki, müasir Azərbaycanda belə gözəl guşələrin yaradılması yəqin ki, Qaxdan başlayır."

Qeyd etmək istərdim ki ,turizmin inkişafı istiqamətində ölkədə aparılan Dövlət siyasəti rayonumuzda bu sahənin inkişafına təkan vermişdir. Təsadüfi deyil ki, cənab Prezident ilk dəfə Qaxa 2006- cı ilin aprelin 12-də səfəri zamanı İlusuda "Uludağ " turizm və istirahət mərkəzi ilə tanış olmuş, Qaxla bağlı təəssüratlarını belə ifadə etmişdir " Hesab edirəm ki, xüsusilə bu bölgəyə aid olan prioritet istiqamətlərdən biri də turizmin inkişafı olmalıdır. Belə gözəl yerlər dünyanın heç birində yoxdur".

O vaxtdan artıq 12 il keçib. Bu gün rayonumuzda 12 turizm obyekti- mehmanxana, "Şəfa" istirahət və müalicə pansionatı, "İlisu" pansionatı, "Yaşıl Park", "Ulu", "İmproteks", "Uludağ","Səngər qala", "Berqs", "Kürmük", turizm-istirahət mərkəzləri, "Eden"Park hotel, "ElResort" beşulduzlu otel, onlarla ictimaiaşə obyektləri turistlərə xidmət işini həyata keçirir.

Zəngin fauna və florası ilə seçilən, yeraltı və yerüstü sərvətlərinə, mineral xammal ehtiyatlarına malik Qax rayonu mülayim və saf dağ havası, səfalı bulaqları, şələlələri, düzənlik və dağlıq meşələri ilə diqqəti cəlb edir. Qədim tarixə və mədəniyyətə malik rayonun hər güşəsi turistlər üçün əsl istirahət məkanıdır. Müalicəvi sular, təbii dərman bitkiləri min bir dərdin dərmanıdır. İlisuda "Ramramay", Ləkitdə "Damcılı" şəlalə, onlarla xırda şəlalələr, turistlərin sevimli istirahət yerləridir.

Rayonumuzda kənd yaşıl, müalicə, istirahət turizmi daha geniş yayılmışdır. Təbii resurslar, xammal mənbələrinin olması rayonda ekoturizmin inkişafına zəmin yaradır. İlisu Dövlət Təbiət Qoruğunun və onun nəzdində Qax Dövlət Yasaqlığının olması rayonda ekoturizmin inkişafı üçün böyük imkanlar açmışdır. Təbiətlə birbaşa ünsiyyət turistləri dəbdəbəli otellərdən, turizm obyektlərindən az maraqlandırmır.Turistlər sadə kənd evlərində qalmağı çox sevir, yerli əhali ilə ünsiyyət yaradaraq bölgənin adət-ənənələri, yaşam tərzi ilə yaxından tanış olurlar.

Turizm sənayesinin inkişafında, təbliğində internetin rolu danılmazdır. Rayonun elə turizm obyekti yoxdur ki, orada internet xidməti olmasın və turistlər bu xidmətdən çox rahat yararlanırlar. İstirahət zonalarında yerləşən hər bir kənd sürətli internet xətti ilə təchiz edilmişdir. Bu da turizminin inkişafına kömək göstərən amillərdəndir.

Rayonumuzun özünəməxsus mətbəxi də turistləri cəlb edir.

Cənab Prezidentin 17 noyabr 2011-ci il səfərində açılışını etdiyi İlisu-Sarıbaş yolunda Hamam çayı üzərində salınmış körpü rayonda turizmin daha da inkişaf etdirilməsində mühüm rol oynamaqdadır. Elə həmin səfərdə açılışı olmuş "El Resort" oteli bu gün ən çox turist qəbul edən məkandır.

Rayonumuzda idmanın və bədən tərbiyəsinin kütləviliyini təmin etmək üçün bir çox işlər görülmüşdür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rayonumuza 16 avqust 2013-cü il tarixində səfəri zamanı açılışını etdiyi Olimpiya İdman Kompleksindən və digər idman qurğularından səmərəli istifadə edən gənc idmançılarımız müxtəlif turnir və yarışlarda yüksək nəticələr qazanmışlar.

Gələcəyimiz olan gənclərə qayğı və diqqət daim rayon rəhbərliyinin qarşısında duran ən prioritet məsələlərdən biridir. Onların layiqli vətəndaş kimi yetişməsi, intellektual səviyyəsinin yüksəldilməsi, ideya-siyasi, hərbi-vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi istiqamətində aparılan məqsədyönlü tədbirlər öz gözəl nəticələrini verir. Məhz bunun nəticəsidir ki, siyasi tədbirlərdə, seçkilərdə və referendumda onların iştirakı çox yüksək səviyyədə olur. Hərbi çağırışdan yayınan gənclərimiz yoxdur.

Ölkə vətəndaşlarının həyat səviyyəsinin yüksəldilməsi, onların yaşayış tərzinin yaxşı-

laşdırılmasına diqqət və qayğı cənab Prezidentin apardığı uğurlu siyasətin əsas qayəsidir.

8 May 2012-ci il tarixində Şimal-qərb bölgəsində baş vermiş zəlzələnin vurduğu dağıntılarla bağlı tanışlığı çərçivəsində 09 May 2012-ci ildə rayonumuzda səfərdə olan möhtərəm Prezidentimiz rayonun Güllük kəndində zəlzələnin törətdiyi dağıntılarla tanış olmuş, vətəndaşların dağılmış evlərinə baş çəkmiş, onların nümayəndələri ilə görüşmüşdür. Vətəndaşlarla görüşü zamanı onlara təsginlik vermiş, dağılmış evlərin əvəzində daha yaxşı, geniş, yaraşıqlı evlərin tikiləcəyini bildirərək müvafiq qurumlara tapşırıqlar vermişdir.

Zəlzələdən dağılmış evlərin tikintisinin aparılması vəziyyəti ilə tanış olmaq üçün 09 sentyabr 2012-ci il tarixdə yenidən rayonumuza səfər edən Prezident İlham Əliyev yeni tikilmiş evlərin açılışında olmuş, Güllük kənd tam orta məktəbinin binasında aparılan əsaslı təmir və yenidənqurma işlərinin gedişi ilə tanış olmuşdur. Səfər çərçivəsində Güllük kəndinin bir qrup sakini ilə görüşərək, yeni evlərin tikintisinin, təmirinin davam etdiriləcəyini bildirmişdir.

Zəlzələ nəticəsində evlərə dəymiş zərər FHN-nin müvafiq komissiyası tərəfindən araşdırılmış, müvafiq rəylər verilmişdir. 3320 evə təmir, 904 evə bərpa- gücləndirmə, 589 evə qəzalı rəyi verilmişdir.

Bərpa-gücləndirmə rəyi verilən evlərin sahiblərinə 4134000 manat kompensasiya ayrılmış, qəzalı vəziyyətdə olan 550 ev tikilib istifadəyə verilmişdir.

Həmin səfərdən 1 il sonra 16 avqust 2013-cü ildə növbəti səfəri zamanı möhtərəm Prezident İlham Əliyev cənabları "El Resort" mehmanxanasının Konfrans Mərkəzinin, Heydər Əliyev Mərkəzinin, Olimpiya İdman Kompleksinin, yenidən qurulan Şəki-Qax-Zaqatala avtomobil yolunun Şəki-Qax hissəsinin, şəhərin su təchizatı və kanalizasiya sistemləri kompleksinin açılış-larını etmişdir.

Prezident İlham Əliyevin Qaxa son səfəri 03 avqust 2017 il tarixə təsadüf edir. Həmin səfərdə dövlət başçısı Alatəmir-Marsan-Turaclı-Zəyəm-Lələli avtomobil yolunun, Qorağan-Qax-Zaqatala avtomobil yolunun Qorağan-Qax hissəsinin, Bayraq Muzeyinin, Qax Elektrik yarım-stansiyasının, Qax şəhərində körpələr evi-uşaq bağçasının açılışlarında iştirak etmiş, tütün qəbulu məntəqəsində və Lələpaşa kəndində fındıqçılıq təsərrüfatında yaradılan şəraitlə tanış olmuşdur.

4 avqust 2017-ci il tarixdə barama, tütün və fındıq istehsalının inkişaf etdirilməsinə dair respublika müşavirəsini keçirmişdir. Müşavirədə bu sahələrdə mövcud vəziyyət müzakirə edilmiş, gələcəkdə görüləcək işlər müəyyənləşdirilmişdir.

Rayonumuzda Azərbaycanın Ermənistan silahlı Qüvvələri tərəfindən işğal olunmuş rayonlarından 276 ailə olmaqla 1066 nəfər məcburi köçkün məskunlaşmışdır.

Məskunlaşmış məcburi köçkün əhalinin əsas məşğuliyyəti heyvandarlıq və əkinçilikdir. Onların sosial şəraitinin yaxşılaşdırılması istiqamətində lazımi tədbirlər görülür. Ehtiyacı olan məcburi köçkünlərin müvəqqəti yaşayış sahələri ilə təmin olunması, məşğulluğunun artırılması, təhsil hüququnun təmin edilməsi, tibbi təminatı, mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində rayon icra hakimiyyəti tərəfindən daim köməklik göstərilir.

Məcburi köçkünlərə kənd təsərrüfatı məhsulları istehsalı üçün 540 hektar, o cümlədən 200 hektar əkinçilik üçün, 340 hektar isə örüş və otlaq kimi ayrılmışdır.

Məcburi köçkün ailələrində olan 83 nəfər uşaq məskunlaşdıqları ərazidə fəaliyyət göstərən məktəblərdə təhsil alır. Onlar pulsuz dərsliklərlə, digər məktəbli ləvazimatları ilə təmin olunurlar.

Məcburi köçkün ailələri rayon səhiyyə şöbəsi tərəfindən onlar dispanser qeydiyyatına götürülmüşlər və onların vaxtaşırı tibbi müayinədən keçirilməsi təmin edilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Qax rayon şöbəsi tərəfindən 43 nəfər qaçqın və məcburi köçkün sosial müavinət, 128 nəfər isə əmək pensiyaçısı kimi qeydiyyata alınmışdır. 3 nəfər tənha ahıl köçkünə evində sosial xidmət göstərilir.

Köçkün ailələrindən 29-u qaz, 28-i isə telefon xidmətindən pulsuz istifadə edir.

Rayonumuzda 10-dan çox millətin nümayəndəsi yaşayır. Onlara öz adət-ənənələrinin, dini təriqətlərinin həyata keçirilməsi üçün hər cür şərait yaradılmışdır.

13 Aprel 2006-cı ildə rayona ilk səfərində möhtərəm Prezident Qaxbaş kəndindəki "Georgi" kilsəsində olaraq, ictimaiyyətin nümayəndələri ilə görüşmüş, onların arzu və təkliflərini dinləmişdir.

Ayrı seçkiliyin olmaması səbəbindən hər bir millətin nümayəndəsi rayonda gedən böyük quruculuq işlərində yaxından iştirak edir, dövlətə və dövlətçiliyə sədaqət nümunəsi göstərir.

Hazırda rayonda 28 məscid və 2 kilsə fəaliyyət göstərir. Dini Qurumlarla iş üzrə Dövlət Komitəsində 11 Azərbaycan, 2 gürcü icması qeydiyyatdan keçmişdir.

Ayda iki dəfə çap olunan yerli "Şəlalə" qəzetində gürcü dilində ayrıca bölmə də fəaliyyət göstərir.

Rayonda nümunəvi tolerantlıq və dini dözümlülük şəraiti hökm sürür. Siyasi vəziyyət normaldır. Rayonda 8 siyasi partiyanın yerli təşkilatları və 15 Qeyri-hökumət təşkilatı fəaliyyət göstərir. Siyasi partiyalardan 4600 nəfərə yaxın üzvü olan Yeni Azərbaycan Partiyasının rayon təşkilatı rayonun siyasi və iqtisadi həyatında mühüm rol oynayır.

Rayonda bütün sahələr üzrə aparılan məqsədyönlü işin nəticəsi olaraq Qax daha da inkişaf edir, gözəlləşir, əhalinin rifah halı artır. Söz yox ki, bütün bunlara ölkə Prezidentinin apardığı uğurlu fəaliyyət nəticəsində nail olunmuşdur. Respublika Prezidentinin andiçmə mərasimində söylədiyi "Biz daha çevik və səmərəli siyasət aparmalıyıq. Hər bir sahə üzrə bizim konkret proqramlarımız, planlarımız var. Güclü siyasi iradə, böyük maliyyə resurslarımız var. Xalq iqtidar birliyi var. Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar. Biz bundan sonra da müstəqillik və qələbələr yolu ilə gedəcəyik" fikirləri hər bir Azərbaycanlı kimi Qax əhalisinin də gələcəyə inam hissini artırır və yeni nailiyyətlər əldə etməyə ruhlandırır.

Açar sözlər: *sosial-iqtisadi inkişaf, dövlət proqramları, aqropark, regionlar*

Musa Shakiliyev
The Head of the Executive Power of the Gakh Region

THE RESULT OF A SUCCESSFUL POLICY: GAKH REGION TOWARDS THE DEVELOPMENT

SUMMARY

The article analyzes the development of the Gakh region, the extensive infrastructure projects and the purposeful works which were carried out within last 15 years that are based on the development strategy of the country's President Ilham Aliyev. It is emphasized that the problem of socio-economic development of the regions can be regarded as the main priority of the President's Economic Policy. The author notes that the President has had seven historical visits to the region and provides detailed information about these visits. The author of the article also states that acoording to President Ilham Aliyev's assignments and recommendations that were given during every visit were the basis for the future development of the region.

Based on the President's orders, road construction and repair works were carried out in the region, various infrastructure facilities were built. New tourism facilities which were built and restoration works that were carried out in the ancient historical sites are also based on President's orders. The author notes that the damage caused by the earthquake in the region was solved by the President's order in a short period of time.

In accordance with the relevant decree of the President, the agropark site was founded in the district and current works are under way in the very area. It is reported that the President of the Republic of Azerbaijan, Ilham Aliyev signed an executive order to increase the cocoon production. Last year's national conference which was held during his visit identified set of tasks to be done in the future. The author of the article highlights that the current socio-economic development of the region has been possible thanks to the successful adoption of the regional policy andthree State Programs adopted by the President and the goals and objectives set out therein.

Key words: *Socioeconomic Development, State Programs, Agropark, Regions*

Муса Шекилиев
Глава Исполнительной Власти Гахского района

РЕЗУЛЬТАТ УСПЕШНОЙ ПОЛИТИКИ: ГАХСКИЙ РАЙОН НА ПУТИ РАЗВИТИЯ

РЕЗЮМЕ

В статье анализируются развитие Гахского района за последние пятнадцать лет, проводимые целенаправленные работы и воплощенные в жизнь обширные инфраструктурные проекты, являющиеся результатом успешно проводимой господином Президентом страны Ильхамом Алиевым стратегии развития регионов.

Подчеркивается, что проблема социально-экономического развития регионов может оцениваться как один из главных приоритетов экономической политики Президента. Автор дает подробную информацию о семи исторических визитах господина Президента Ильхама Алиева в Гахской район, сообщается, что все его поручения и рекомендации стали основой развития района. Именно по распоряжениям Президента в районе были проведены дорожно-строительные и ремонтно-восстанавительные работы, были построены различные инфраструктурные, новые туристические объекты, отреставрированы исторические места.

Автор также подчеркивает, что по поручению Президента за короткий срок был устранён ущерб, нанесенный во время землетрясения в регионе. Согласно соответствующему распоряжению Президента в районе создан Агропарк, на территории которого в настоящее время проводятся строительные и хозяйственные работы. Программное Итоговое выступление господина Президента на Республиканской Конференции, проведенной в районе в прошлом году, определило пути развития шёлководства, фундуководства и табаководства в регионе, в том числе и в Гахском районе.

Автор статьи особо подчеркивает, что достижение нынешнего социально-экономического развития района стало возможным благодаря региональной политике Президента страны Ильхама Алиева и успешной реализации трех Государственных Программ социально-экономического развития регионов.

Ключевые слова: *социально-экономическое развитие, государственные программы, агропарк, регионы*

DÖVLƏT İDARƏÇİLİYİ
PUBLIC ADMINISTRATION

QAFAR ƏLİYEV
Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvü,
Azərbaycan Respublikası Prezidenti Administrasiyası
İctimai-siyasi məsələlər şöbəsinin sektor müdiri,
siyasi elmlər üzrə fəlsəfə doktoru

MÜASİR AZƏRBAYCAN DÖVLƏTİNİN MEMARI, XİLASKARI VƏ QURUCUSU – HEYDƏR ƏLİYEV

XX əsrdə dünya tarixinə özünəməxsus parlaq səhifələr yazmış görkəmli dövlət xadimlərindən və nadir tarixi şəxsiyyətlərdən biri də Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyev olmuşdur. Adı qızıl hərflərlə tariximizə həkk olunmuş Heydər Əliyev dünya siyasətində böyük rol oynamış və silinməz izlər qoymuş, təkcə öz xalqının və dövlətinin yox, bütövlükdə dünya xalqlarının taleyinə həlledici təsir göstərmiş böyük şəxsiyyətlərdən biridir.

100 il bundan əvvəl -1918-ci il mayın 28-də Şərqdə-müsəlman aləmində və Türk dünyasında ilk dəfə olaraq Azərbaycan Demokratik Respublikası (ADR) quruldu və Azərbaycan xalqı öz azadlığına qovuşdu. Azərbaycan xalqı və dövləti daim ADR-in və onun qurucularının fəaliyyətinə böyük hörmətlə yanaşmışdır və hər il böyük təntənə ilə bu xidmətlər yad edilir. Azərbaycan Demokratik Respublikasının əfsuslar olsun ki, ömrü uzun olmadı və cəmi 23 aydan sonra süquta uğradı. Sonra 70 il ərzində Azərbaycan Sovet Respublikası kimi Sovetlər İttifaqı (SSRİ) adlanan dövlətin tərkibinə daxil edildi. Obyektiv tarixi-siyasi proseslərin nəticəsində 1991-ci ilin sonunda SSRİ dağıldı. 1991-92-ci illərdə ölkədə hökm sürən anarxiya, özbaşınalıq, daxili çəkişmələr, total böhran və Ermənistanın Azərbaycana etdiyi təcavüz siyasəti nəticəsində Azərbaycan yenidən parçalanmaq, məhv olmaq ərəfəsində idi. Lakin bu dəfə Azərbaycan dövlətini parçalanmaqdan, xalqımızı məhv olmaqdan xilas edən dünyaşöhrətli siyasətçi Heydər Əliyev yenidən siyasi səhnəyə qayıtdı. 1993-cü ilin iyunun 15-də Azərbaycan xalqının tələbi ilə Heydər Əliyevn siyasi hakimiyyətə qayıdışından sonra ölkədə vəziyyət sabitləşdi. 1993-2003-cü illər, sözün əsl mənasında, sabitlik və inkişaf illəri olmuşdur. Məhz o illər ərzində Azərbaycanda müasir, yeni, hüquqi, demokratik dövlətçiliyin möhkəm təməli qoyulmuş, ictimai-siyasi sabitlik təmin olunmuş, iqtisadi, siyasi islahatlar aparılaraq ölkəmiz dünya birliyinin layiqli üzvünə çevrilmişdir. Bütün bu uğurların əldə edilməsi XX əsrin böyük siyasi və dövlət xadimi olan Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində mümkün olmuşdur. Həmin siyasət Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bu gün də uğurla davam etdirilir.

Liderlər Lideri

XX əsrdə dünya siyasətində və siyasi tarixində özünəməxsus parlaq səhifələr yazmış görkəmli dövlət xadimlərindən, dünyaşöhrətli siyasətçilərdən və nadir tarixi şəxsiyyətlərdən biri də Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyev olmuşdur. Adı qızıl hərflərlə tariximizə həkk olunmuş Heydər Əliyev dünya tarixində böyük rol oynamış və silinməz izlər qoymuş, təkcə öz xalqının və dövlətinin yox, bütövlükdə dünya xalqlarının taleyinə həlledici təsir göstərmiş böyük şəxsiyyətlərdən biridir. ABŞ-da Corc Vaşinqton, Böyük Britaniyada Oliver Kromvel, Fransada Şarl De Qoll, Almaniyada Konrad Adenhauer,

Rusiyada Böyük Pyotr, Türkiyədə Mustafa Kamal Atatürk, İranda Əyətullah Xomeneyi və başqa siyasi liderlər öz dövlətlərinin tarixində hansı rolu oynamışsa, Heydər Əliyev də Azərbaycan üçün həmin rolu oynamışdır. Bu müdrik dövlət xadimi və dahi filosofun doğum günü – 10 may və yubileyləri hər il dünyanın hər bir yerində yüksək səviyyədə qeyd edilir, onun abidələri önünə gül dəstələri qoyulur, elmi-praktik konfranslar, seminarlar, digər müxtəlif növ ictimai-siyasi tədbirlər təşkil edilir.

Heydər Əliyev XX əsrin 70-80-ci illərində Azərbaycan Sovet Sosialist Respublikasının rəhbəri (1969-cü il 14 iyul-1982-ci il 13 dekabr) olmuş və daha sonra dünyanı idarə edən iki supergücdən biri - Sovet Sosialist Respublikaları İttifaqının - (SSRİ) dövlətinin rəhbərlərindən biri seçilmişdir. O, SSRİ-nin paytaxtı Moskva şəhərində dünya siyasətinin mərkəzi olan Kremldə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti Sədrinin Birinci Müavini olmuş, həmin ali dövlət və partiya orqanlarında ən yüksək vəzifələrə seçilən bir azərbaycanlı, türk və müsəlman olaraq həmin dövrlərdə xalqımızı şərəflə təmsil etmişdir. Eyni zamanda həmin vaxtlar o, dünyanı idarə edən siyasətçilər arasında öz parlaq zəkası, dərin bilik sahibi olması, zəngin təcrübəsi, qeyri-adi dərəcədə natiqlik məharəti, humanizmi, insanpərvərliyi, ədaləti və məftunedici görkəmi ilə seçilirdi. Heydər Əliyev həmin dövrdə dünya miqyaslı siyasət ulduzları arasında sanki, Dan ulduzu kimi şəfəq saçırdı.

Heydər Əliyev haqq-ədalət carçısı, möhkəm əqidəli, mübariz şəxsiyyət idi

Heydər Əliyevin bütün uğurlarının mənbəyində ilk növbədə onun əqidəsi, öz xalqına, dövlətinə və dövlətçiliyə sonsuz sədaqəti, tükənməz enerjisi və təşkilatçılıq bacarığı, haqq-ədaləti qorumaq və bu yolda dönmədən mübarizə aparmaq, haqqı nahaqqa verməmək, haqsız güclünün yox, haqlı zəiflərin hüququnu müdafiə etmək və s. kimi xarakterik xüsusiyyətləri dururdu. O, həmin ideyaları ardıcıl şəkildə SSRİ-də mühüm dövlət və partiya vəzifələri tutmaqla həyata keçirirdi və həmin vaxt hakim kommunist rejimi çərçivəsində də həmin ideyaları həyata keçirməyin mümkün olduğuna inanırdı. Lakin tarixi təsadüf nəticəsində 1985-ci ilin aprelində SSRİ-nin başına Mixail Sergeyeviç Qorbaçov kimi avantürist bir siyasətçi gəldi. Heydər Əliyev o vaxtkı Sovet rəhbərliyinin yeritdiyi sərişdəsiz, qərəzli, qeyri-peşəkar, ədalətsiz, ayrı-seçkilik, antimüsəlman və antitürk siyasətindən narazı qalaraq 1987-ci ilin oktyabrın 25-də tutduğu vəzifələrdən istefa verdi və siyasət okeanının alt qatına çəkilərək o vaxtkı hakimiyyətə qarşı müxalifət mövqeyi tutdu.

1990-cı ilin 20 Yanvarında Sovet ordusu tərəfindən Bakıda qırğın törədilərkən Moskvada ittifaq səviyyəli fəxri təqaüddə yaşayan Heydər Əliyev qan içində boğulan xalqının dar ayaqda olmasına dözə bilmədi. O, həmin qırğının sabahı öz övladları: yeganə oğlu - indiki Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə, qızı və nəvələri ilə birlikdə, Azərbaycan SSR-in Moskvada olan nümayəndəliyinə gələrək M.S.Qorbaçov başda olmaqla SSRİ rəhbərliyini və Əbdülrəhman Vəzirov başda olmaqla Azərbaycanın o vaxtkı rəhbərliyini Azərbaycan xalqının qanının tökülməsində birbaşa müqəssir olmaqda günahlandırdı. Bu hadisələrin gedişində, SSRİ dağılanda və Azərbaycanın müstəqilliyi uğrunda mübarizə başlayanda Heydər Əliyev müstəqil Azərbaycanda Günəş kimi yenidən doğdu. 1990-cı ilin iyun ayının 18-də doğma vətənə qayıdan Heydər Əliyev çox keçmədən o zaman respublikada başlanmış milli azadlıq hərakatının və siyasi - tarixi proseslərin önündə gedərək, həmin dövrdə dünyanın diqqətində olan Azərbaycanda 1993-cü ilin oktyabrında keçrilən prezident seçkilərində demokratik seçki yolu ilə, yenidən, 2-ci dəfə Azərbaycan dövlətinin rəhbəri - Azərbaycan Respublikasının Prezidenti seçildi.

Azərbaycanda yenidən hakimiyyətə qayıdan, prezident Heydər Əliyevin həyata keçirdiyi müdrik daxili və xarici siyasət nəticəsində qısa müddət ərzində ölkəmizdə vətəndaş müharibəsinin qarşısı alındı, milli-həmrəylik

və birlik yarandı, respublika müxtəlif hissələrə parçalanmaqdan, iqtisadi böhrandan, geriləmədən və tənəzzüldən xilas oldu. Onun müdrik siyasəti və ölməz ideyaları Azərbaycanı işığa boyadı, "Əsrin Müqaviləsi", "Bakı-Tbilisi-Ceyhan", "Bakı-Tbilisi-Ərzurum", "Bakı-Tbilisi-Qars" və s. kimi layihələr isə bütün dünyanı heyran etdi. Ona görə də, dünyanın bir çox dövlətlərində hazırda heç bir liderə və dövlət xadiminə qismət olmayan sayda məhz Heydər Əliyevin heykəlləri, büstləri qoyulmuş, onun adına küçələr, meydanlar və parklar verilmiş, haqqında cild-cild kitablar yazılmışdır.

Bu məqaləni yazarkən mən öz qarşıma ulu öndərimiz Heydər Əliyevin bir tarixi şəxsiyyət və siyasi lider kimi tərcümeyi-halını yazmaq, Azərbaycanda və dünya siyasətində oynadığı rolu və gördüyü mühüm əhəmiyyətli işləri sadalamaq, onun əsas xarakterik xüsusiyyətlərini və prinsiplərini qeyd etmək, bütün siyasi fəaliyyətinin elmi-nəzəri tərəflərini, rəhbərlik və idarəetmə fəlsəfəsinin ən mühüm cəhətlərini analitik təhlil etmək məqsədini qoymuşam. Ancaq belə bir çətin vəzifənin öhdəsindən gəlmək o qədər asan olmasa da, Heydər Əliyev şəxsiyyətinə olan sonsuz məhəbbət və sədaqətim məni cəsarətlə bu işin altına girməyə ruhlandırır.

Bir tarixi şəxsiyyət və dövlət xadimi olaraq Heydər Əliyev XX əsrin 70-ci illərindən bu günə kimi son 50-60 ildə Azərbaycanın şərəfli tarixini yaradan və yazan dövlət başçısı olub. Biz tarixçilərin, alimlərin, jurnalistlərin, digər qələm sahiblərinin vəzifəsi isə bu tarixi həqiqi, obyektiv, olduğu kimi yazmaqdan ibarətdir. Həmişə olduğu kimi, bu gün də ulu öndərin siyasi fəaliyyətinə kölgə salmaq üçün cəhdlər edilir, onun şəxsiyyətinə qarşı müxtəlif iftiralar atılır. Biz siyasətçilərin, siyasətşünasların, tarixçilərin, tarixi mövzuda yazan digər qələm sahiblərinin, bədii əsərlər yazanların üzərinə gələcək nəsillər qarşısında tarixi həqiqətləri obyektiv şəkildə və vicdanla qələmə almaq kimi böyük məsuliyyət düşür. Bu mənada, Heydər Əliyevin Azərbaycan tarixində və bütövlükdə dünya siyasətində oynadığı böyük rolu qələmə almaq şərəfli və olduqca məsuliyyətli bir məsələdir. Heydər Əliyev haqqında yazmaq həm ona görə şərəfli və məsuliyyətli bir məsələdir ki, bu, Azərbaycanın son 50 illik tarixini, siyasi, iqtisadi, mədəniyyət tarixini, bu tarixin şərəfli mübarizələrlə, quruculuq-abadlıq işləri, elm, təhsil sahəsində əldə edilmiş nailiyyətləri, möhtəşəm anlarını, qələbələri, uğurları və həmin dövrdə Azərbaycanda görülməli olan, lakin hansı səbəblərdənsə başa çatdırılması mümkün olmayan ən böyük vəzifələri yazmaq deməkdir. Eyni zamanda bu, həm də Azərbaycan xalqının müstəqillik uğrunda mübarizə tarixini, xalqımızın başına gətirilən faciələri, torpaqlarımızın erməni millətçiləri tərəfindən işğal olunması səbəblərini və ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdaraq Azərbaycan dövlətini və xalqını xilas etmək naminə mübarizələrdən keçən ömür yolunu yazmaq deməkdir.

Bir siyasi lider kimi Heydər Əliyev özünəməxsus, heç kəsə bənzəməyən şəxsiyyət olub

Heydər Əliyevin həyatı Azərbaycanın respublikaçılıq tarixinin (bu tarixi 1918-ci ildən götürsək) yarıdan çoxunu əhatə edir. Azərbaycanın son 50 illik tarixinin hər bir səhifəsi Heydər Əliyevin iştirakı ilə yaradılıb və yazılıb. Onun 1969-cu ilin 14 iyulunda Azərbaycan rəhbəri seçilməsindən vəfat etdiyi günədək göstərdiyi titanik fəaliyyət vətənimizin inkişafına, onun çiçəklənməsinə, dünya dövlətləri cərgəsində öz layiqli yerini tutmasına xidmət etmişdir. Həmin illər ərzində Heydər Əliyev Azərbaycanda birinci şəxs olub və dünya siyasətində ən məşhur şəxslərdən birinə çevrilib. Çox az dövlət xadimi, siyasətçi tapılar ki, bu qədər böyük müddətdə öz xalqına, millətinə ülvi məhəbbətlə, sevərək və sevilərək rəhbərlik edə bilsin.

Heydər Əliyevi təkcə Azərbaycan xalqı yox, bütün türk və müsəlman dünyası sevir və onunla fəxr edir. Fəqət, təkcə türk və müsəlman dünyasımı? Sovetlər Birliyi tərkibində olduğumuz dövrdə bütün SSRİ xalqları onun şəxsində öz gələcək dövlət başçısını və liderini görürdü. Amerika Birləşmiş Ştatlarında onu Corc Vaşinqtonla, Yaponiyada bu dövlətin

qurucusu olan Siyaqunla, Almaniyada Konrad Adenauerlə, Fransada Şarl De Qolla, Böyük Britaniyada Uinston Çörçillə müqayisə edirdilər. Kiminlə, hansı tarixi şəxsiyyətlə müqayisə olunmasından asılı olmayaraq, Heydər Əliyev bənzərsiz, heç kimlə müqayisə olunmaz tarixi şəxsiyyət olmuşdur. Bəs onun bənzərsizliyi nədədir?

Heydər Əliyev konkret olaraq bir siyasi sistemə sığmayan liderdir. O, Sovet İttifaqı dövründə marksizm-leninizm ideologiyasının təsiri altında böyüyüb, sovet sisteminin qanunqaydaları çərçivəsində işləyərək, bu ideyalara inanaraq və sədaqətlə xidmət edərək SSRİ-nin ən yüksək partiya və dövlət vəzifələrinə qədər yüksəldi. O, həmin sistemin müsbət cəhətlərindən Azərbaycan dövlətinin inkişafı, xalqımızın milli-mənəvi dəyərlərinin dünyada tanınması və təbliği naminə istifadə edə bildi. O, Azərbaycan xalqının milli xarakterini, xüsusiyyətlərini dünyaya açıb göstərərək xalqımızı keçmiş SSRİ məkanında mədəni, əməksevər, qonaqpərvər, dünya şöhrətli şair və yazıçılar, alimlər, bəstəkarlar, müğənnilər, dövlət xadimləri və başqa sahələrdə istedadlı şəxsiyyətlər yetirmiş, qədim tarixi, zəngin mədəni irsi: musiqisi, incəsənəti, ədəbiyyatı və s. olan bir xalq olduğunu sübut etmişdir. Heydər Əliyev Moskvada yüksək vəzifələr tutduğu zaman isə bütün SSRİ tərkibinə daxil olan respublikaların və xalqlarının inkişafı və tərəqqisi naminə yorulmadan çalışmışdır.

Lakin Heydər Əliyev Sovet ideologiyasının başında duran M.S.Qorbaçov başda olmaqla o vaxtkı rejimin əsirinə çevrilmədi. O, kommunist ideologiyasının hər bir müddəasını öz zəngin və əzəmətli təfəkkür süzgəcindən keçirir, onları praktikada yoxlayır, elmi-siyasi baxımdan düzgün olanları saxlayır, onların yaxşı cəhətlərini götürüb dövlət və xalq naminə istifadə edir, pis tərəflərini isə atırdı. Bəzi sovet liderləri kimi o, öz dilini, dinini, milli mənsubiyyətini unudan, milli-mənəvi dəyərlərdən uzaq düşən kosmopolit siyasətçilərdən və dövlət xadimlərindən biri olmadı. Ona görə ki, Heydər Əliyev bir siyasi lider və tarixi şəxsiyyət kimi milli-mənəvi köklərə və dəyərlərə bağlı olan, milli ideyalara və bəşəri dəyərlərə söykənərək öz siyasi təlimini yaradan, həmin ideologiya ilə milyonları öz ardınca apara bilən dühalardan idi.

Ona görə də, SSRİ-nin son rəhbəri M.S.Qorbaçovun və onun yaxın ətrafının yeritdiyi dağıdıcı, səriştəsiz, mücərrəd "yenidənqurma" siyasəti nəticəsində keçmiş SSRİ məkanında siyasi, iqtisadi və mənəvi böhran yarananda bu siyasətə qarşı ilk çıxanlardan biri məhz Heydər Əliyev oldu. 1985-ci ildən sonra Sovet rəhbərliyi tərəfindən antimüsəlman və ermənipərəst mövqe tutularaq Azərbaycan, Özbəkistan, Qazaxıstan və digər türk və müsəlman respublikalarına qarşı ədalətsiz qərarlar qəbul ediləndə də ilk olaraq məhz o, siyasi büro üzvü kimi öz etiraz səsini qaldırdı. Heydər Əliyev SSRİ-nin dağılması prosesinin başlanması nəticəsində tarixi zərurət yarananda, həmin siyasi təlim və ideyalardan vaxtında uzaqlaşa bildi. O vaxtkı Sov.İKP. MK və Siyasi Büro üzvlərini və rəhbər vəzifə tutmuş tarixi şəxsiyyətlərin hər birinin tərcümeyi-halını götürüb biz təhlil etsək, onların həmin siyasi sistemin və mövcud konkret tarixi dövrün qəhrəmanı, lideri olduğunun şahidi olarıq. Lenin,Stalin XX əsrin əvvəllərində inqilab edərək yeni dövlət quran inqilabçı liderlər idilər. N.S.Xruşşov, L.İ.Brejnev, Y.V.Andropov, M.S.Qorbaçov isə SSRİ-ni dinc dövrlərdə idarə edən rəhbərlər idi. Yalnız mənsub olduqları mövcud siyasi sistemin, ideologiyanın və şəraitin qəhrəmanı olan bu liderlərin bəziləri inqilabçı, bəziləri islahatçı-reformator, bəziləri konservator, bəziləri də diktator kimi tarixdə qaldılar. Amma Heydər Əliyevdə bu liderlərdən heç birinə bənzəmiyən xüsusiyyətlər var idi. Onun özünəməxsusluğu, bənzərsizliyi ondan ibarətdir ki, tarixi şəxsiyyət kimi, o, həm sovet dövrünün, həm də müasir dövrümüzün lideri və qəhrəmanı olub. Bunun sirri nədədir? Nədən Heydər Əliyevin baxışları bir ictimai-siyasi sistemə sığmırdı? Nədən iki müxtəlif ictimai-siyasi quruluşda, müxtəlif baxışların hökmran olduğu dövrdə o, eyni məharət və bacarıqla, sevgi və istəklə öz xalqına və dövlətinə rəhbərlik edib, eləcə də bütün dünya liderləri və xalqları tərəfindən

eyni dərəcədə qəbul olunub, sevilib və rəğbətlə qarşılanıb? Bunun əsas səbəbi bir siyasi lider kimi Heydər Əliyevi xarakterizə edən əsas xüsusiyyətlərdə özünü göstərir: Heydər Əliyev – dünyagörüşü baxımından azərbaycançılıq ideologiyasına, İslam dininə, milli-mənəvi dəyərlərə bağlı, inamlı, təmiz əxlaqlı, vicdanlı, demokratik düşüncəli bir tarixi şəxsiyyət; – sadə insanların hüquqlarının qorunması uğrunda barışmaz və ardıcıl mübarizə aparan demokrat; – dövrünün görkəmli maarifçi filosofu; realist, praqmatik, reformator, güclü dövlətçi, qanunçu, qeyri-adi təşkilatçılıq bacarığına, idarəçilik məharətinə malik bir dövlət rəhbəri; – dünyada sülh, demokratiya və haqq-ədalət, ümumbəşəri, multikulturalizm ideyalarının daşıyıcısı olan, onları yorulmadan təbliğ edən, başqa millətlərə və dinlərə qarşı həqiqi tolerant olan beynəlmiləlçi idi. Tarixçilər, jurnalistlər və politoloqlar Heydər Əliyevi bir siyasətçi, dövlət xadimi kimi xarakterizə edərkən onun özünəməxsus bir lider kimi əsas xüsusiyyətlərindən, əbədiyaşar, ölməz ideyalarının müsir dövrə tətbiqinin vacibliyindən, qurub-yaratmaq bacarığından, dövlətçilik və idarəetmə təcrübəsindən, elmi-nəzəri, fəlsəfi baxışlarından nə qədər bəhs etsələr də yenə azdır və bu mövzu daim aktual olaraq qalacaqdır.

Heydər Əliyev dahiliyinə, böyük ideya və təşkilatçılıq bacarığına görə, bütün dövrlərin liderləri hesab olunan Böyük Pyotr, Mustafa Kamal Atatürk, Corc Vaşinqton, Şarl de-Qoll və başqa dünya səviyyəli siyasətçilərlə bir sırada dayanır. Böyük Pyotr XVIII əsrin əvvəllərində Rusiyanın çarı olaraq Rusiyanı dünyanın lider dövlətlərindən birinə çevirdi. Ona görə də Böyük Pyotr ləqəbi qazandı və onun heykəlləri Rusiyanın hər bir güşəsində qoyulub. Mustafa Kamal Atatürk isə Birinci Dünya Müharibəsindən məğlub durumda çıxan, parçalanmaqda və öz dövlətçiliyini itirməkdə olan Türkiyəni xilas etdi və müasir Türkiyə Cumhuriyyətinin banisi kimi tarixə öz adını əbədi olaraq həkk elətdirdi. Eləcə də, Ruzvelt müasir Amerika Birləşmiş Ştatlarını, Şarl de Qoll müsir Fransanı, Uinston Çorçill müasir Böyük Britaniyanı İkinci Dünya Müharibəsindən qalib çıxaran və bacarıqla idarə edən dövlət xadimləri idilər. Heydər Əliyev isə dünyada 60 milyonluq bir xalqın yeganə dövləti olan müasir Azərbaycanın memarı, xilaskarı və qurucusudur.

Heydər Əliyev məktəbi

Bir çox görkəmli dövlət xadimləri, o cümlədən akademik Ramiz Mehdiyev, Əli Həsənov, Novruz Məmmədov, Hacıbala Abıtalıbov, Əli Əhmədov, Əli Əsədov, Fuad Ələsgərov, Dilarə Seyidzadə, Süleyman İsmayılov və başqaları, o cümlədən çoxsaylı alimlər, tarixçilər, filosoflar, jurnalistlər, politoloqlar və başqaları Heydər Əliyev ideyalarının və siyasi kursunun əsas müddəalarını, prinsip və xüsusiyyətlərini müxtəlif aspektdən işıqlandıran xeyli sayda sanballı əsərlər yazmışlar. Onlar Heydər Əliyev siyasi idarəetmə məktəbinin, iqtisadi idarəetmə məktəbinin, elmi-fəlsəfi məktəbinin əsas xüsusiyyətlərindən bəhs ediblər. Lakin bütöv halda Heydər Əliyev siyasi kursunu, onun siyasi fəaliyyətini elmi sistem halında təhlil edib, indiyə qədər yazılmış elmi məqalələri və kitabları öyrənən bir akademiyaya ehtiyac vardır.

Bəzi müxalifyönlü müəlliflər xalqı çaşdırmaq məqsədi ilə "Heydər Əliyev siyasi kursu"nun mahiyyətini məqsədyönlü və qərəzli şəkildə şər və böhtan atmaqla şərh edirlər. Tarixi şəxsiyyətlərə qiymət verən və bu haqda yazanların əsas vəzifəsi tarixi gerçəkliyi obyektiv şəkildə, hər şeyi öz adı ilə adlandıraraq, vicdanla yazmaqdan ibarətdir. Əgər Heydər Əliyev ömrünün 50 ildən çoxunu bu xalqın və dövlətin inkişafına həsr edibsə, Azərbaycanı qurub-yaratmağa sərf edibsə, Heydər Əliyevin fikirlərinə, onun ideyalarına, nəzəri-ideoloji baxışlarına hər hansı hücum xalqın tarixi keçmişinə hücum deməkdir. Heydər Əliyevin ideyaları "Heydər Əliyev- dövlət idarəçiliyi məktəbi" kimi tarix, siyasi tarix, fəlsəfə, hüquq və s. sahələr üzrə tariximizə qızıl hərflərlə həkk olunmalı, xüsusi fənn kimi bütün ali məktəblərdə tədris olunmalıdır.

Bəs nədir "Heydər Əliyev" siyasi kursu və dövlət idarəçiliyi məktəbi? Bu siyasi məktəbin

təməl ideyaları, əsas prinsip və xüsusiyyətləri nədən ibarətdir?

Bir dövlət xadimi kimi Heydər Əliyevin Azərbaycan dövlətinə istər sovet dövründə, istərsə də müstəqillik dövründə rəhbərlik etdiyi zaman söylədiyi fikirlər, müxtəlif yığıncaqlarda etdiyi nitqlər və məruzələr, verdiyi bəyanatlar "Heydər Əliyev siyasi kursu"nun əsas prinsip və xüsusiyyətlərini özündə əks etdirir. Bizim vəzifəmiz onları ardıcıl şəkildə oxumaqdan, sistemləşdirib vahid nəzəri sistem halında gələcək nəsillərə çatdırmaqdan ibarətdir. Heydər Əliyev tarixi hadisələrin fəal iştirakçısı kimi bunları vahid sistem halına gətirməyə vaxt və macal tapmadı. Əgər biz bu tarixi şəxsiyyətin yetirmələri və davamçıları olaraq dövlətimizin müstəqilliyinin əbədiliyi və xalqımızın xöşbəxt gələcəyi naminə həmin məktəbin əbədiyaşar olmasını istəyiriksə, bunu bizim özümüz etməliyik. Ona görə etməliyik ki, müstəqil Azərbaycanın qurulmasının və inkişaf etdirilməsinin elmi-nəzəri bazasının hansı prinsiplərə söykəndiyini gələcək nəsillər asanlıqla dərk edə bilsinlər.

Heydər Əliyevçilik – Müstəqil, azad və müasir Azərbaycan dövlətini qurmaq, inkişaf etdirmək və əbədi etmək üçün Azərbaycan xalqının milli mənəvi potensialından, onun tarixi təcrübəsindən qaynaqlanan, milli dövlətçilik ənənələrini real şəkildə dirçəldən və gerçəkləşdirən, ona əbədiyyət qazandıran, müasir və qabaqcıl dövlətlərin təcrübəsindən və bəşər sivilizasiyasının nailiyyətlərindən istifadə edərək demokratik islahatlar və təkamül yolu ilə Azərbaycan xalqını və dövlətini daim müasirləşdirən və yeniləşdirən, bütün dünya azərbaycanlılarını vahid bir ideya ətrafında birləşdirə bilən, sosial-ədalət və humanizm prinsiplərinə söykənərək dövlət daxilində ümummilli-mənəvi birliyə və sosial-iqtisadi rifaha doğru aparan, dünyanın bütün xalq və millətləri ilə sülh və əmin-amanlıq şəraitində yaşamağa önəm verən mükəmməl fəlsəfi-siyasi, milli-mənəvi və dövlət idarəçiliyinə aid zəngin və zəruri baxışlar sistemidir.

Bu siyasi idarəetmə məktəbinin əsas prinsip və xüsusiyyətləri ən azı aşağıdakılardan ibarətdir:

1 Milli dövlətçilik, qanunçuluq və demokratiya;

2. İslahatçılıq;

3. Azərbaycançılığa və milli-mənəvi dəyərlərə bağlılıq;

4. Sosial ədalət və humanizm;

5. Beynəlmiləlçilik və bəşərilik.

Birinci prinsip – Dövlətçilik haqqında danışarkən, ilk öncə, ümummilli lider Heydər Əliyevin belə bir fikrini yada salmaq istərdim:"Müstəqilliyi elan etmək hər bir xalq üçün, hər bir ölkə üçün tarixi hadisədir. Böyük xöşbəxtlikdir. Amma müstəqilliyi yaşatmaq və onu dönməz etmək, sarsılmaz etmək bundan da böyük vəzifədir, bundan da böyük xöşbəxtlikdir".

Azərbaycan xalqı bu gün o xöşbəxtliyi yaşayır. Lakin bu xöşbəxtlik xalqımıza eləbelə, asan başa gəlməyib. Azərbaycanın dövlət müstəqilliyi xalqımızın azadlıq uğrunda apardığı qanlı mübarizənin, əzmkarlığının, döyüşkənliyinin və son anda müdrik qərar qəbul edərək ümummilli lider Heydər Əliyevin hakimiyyətə dəvət etməsi sayəsində əldə edilib. 1993-cü ilin 15 iyununda Azərbaycan Respublikası parçalanmaq, məhv olmaq təhlükəsi ilə üz-üzə qaldığı zaman xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdarkən ulu öndər Heydər Əliyevin bəyan etdi: "Mən ömrümün bundan sonra qalan hissəsini də Azərbaycanın müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm".

Heydər Əliyevin hakimiyyətə qayıdışı nəticəsində qısa zaman kəsiyində 1988-92-ci illərdə ölkəmiz düşdüyü xaosdan, vətəndaş müharibəsi təhlükəsindən, parçalanmaqdan xilas oldu. Heydər Əliyevin qətiyyəti və dövlətçilik əzmi sayəsində 1993-cü ilin iyununda Gəncədə polkovnik Sürət Hüseynovun rəhbərliyi altında başlanmış qiyam dinc yolla, qardaş qanı axıdılmadan aradan qaldırıldı və ölkə vətəndaş müharibəsi təhlükəsindən xilas olundu. Onun cəsarəti və qətiyyəti sayəsində, 1993-cü ilin sentyabrında Lənkəranda Əlikram Hümbətovun rəhbərliyi altında başlanmış separatçı "Talış-Muğan Respublikası"nın varlı-

ğına son qoyuldu, Simalda bədnam "Sadval" separatçı hərəkatı darmadağın edildi və beləliklə də, ölkəmizin bir neçə yerə parçalanmasının qarşısı alındı. Məhz onun cəsarəti, qətiyyəti və müdrik idarəetmə təcrübəsi sayəsində, 1994-cü ilin oktyabrında yenə o vaxtkı baş nazir Sürət Hüseynovun rəhbərliyi altında planlaşdırılan dövlət çevrilişi cəhdinin, 1995-ci ilin martın 13-17 tarixlərində Rövşən və Mahir Cavadov qardaşlarının dövlətçilik əleyhinə başladıqları qiyam cəhdlərinin qarşısı məharətlə alındı. Bununla da Azərbaycanı müxtəlif hissələrə parçalamaq, onun ərazilərini işğal etmək, müstəqilliyinə son qoymaq, ölkəmizdə ictimai-siyasi sabitliyi pozmaq, hakimiyyəti ələ keçirmək istəyən daxili və xarici qüvvələrin bədnam niyyətləri puç oldu. Ulu öndər öz qətiyyəti, cəsarəti sayəsində, xalqın vətənpərvər, qeyrətli nümayəndələrinə; sadə insanlara, gənclərə, ziyalılara arxalanaraq müstəqilliyimizi xilas etdi. O demişdir: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

Ulu öndər daim öz çıxışlarında vurğulayırdı ki, "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir və sarsılmazdır". Bu, o deməkdir ki, bizim hər hansı dövlət, dövlətlər qrupu və ya beynəlxalq təşkilatlarla əməkdaşlıq etməyimiz Azərbaycanın süverenliyinə, dövlət müstəqilliyinə, onun ərazi bütövlüyünə xələl gətirməməlidir. Azərbaycan dövlətçiliyi qanunçuluğun möhkəmləndirilməsi və hüquqi demokratik islahatların həyata keçirilməsi yolu ilə möhkəmlənməli və tədrici demokratik islahatlar yolu ilə inkişaf etməlidir. Ulu öndərin söylədiyi bir fikir "Yaxşı hökumət o deyil ki, xalqını xoşbəxt görmək istəyir, yaxşı hökumət o hökumətdir ki, bunu hansı vasitələrlə etməyi bacarır."- fikri hakimiyyətin fəaliyyətində əsas tesis, şüar kimi götürülməlidir. Bu fikri analoji olaraq XX əsrdə Azərbaycana rəhbərlik etmiş dövlət xadimlərinə də şamil etmək olar. Yaxşı dövlət başçısı o şəxs deyil ki, Azərbaycanı müstəqil, azad, demokratik və xoşbəxt görmək istəyir. O şəxsiyyətdir ki, bu məqsədlərə hansı vasitələrlə çatmağı, onu reallığa çevirməyi bacarır.

Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasının xarici siyasətinin əsas vəzifəsini belə müəyyən etmişdir: "Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yürüdülməsidir. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Bunun üçün dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmalı və inkişaf etdirməliyik, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməliyik" (8).

Qanunçuluq prinsipi dövlətçiliklə sıx bağlıdır. Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gəldiyi ərəfədə Azərbaycanda tam xaos, anarxiya hökm sürürdü və qanunçuluq barədə danışmaq belə mümkün deyildi. Ulu öndərin hakimiyyətə qayıdışı nəticəsində ölkədə qanunsuz əlisilahlı dəstələr dərhal tərk-silah olundu. Əhalidə olan silah, döyüş bölgələrindən paytaxta hakimiyyət çevrilişi üçün gətirilmiş ağır texnika, mina atan, partlayıcı qurğular, əl qumbaraları və s. könüllü şəkildə dövlətə təhvil-təslim edildi. Bununla qa qanunsuz silahlı birləşmələrin və dəstələrin fəaliyyətinə son qoyuldu. Ölkədə möhkəm ictimai-siyasi sabitlik bərqərar oldu və real dövlət quruculuğu prosesi başlandı. 1995-ci il noyabrın 12-də keçirilən parlament seçkiləri, ümumxalq səsverməsi ilə qəbul olunan Yeni Konstitutisiya, 1994-cü il 9 avqust tarixli "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluq və hüquq qaydalarının möhkəmləndirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikasının Prezidentinin fərmanı, 1998-ci

il fevralın 10-da Azərbaycanda ölüm hökmünün ləğvi haqda fərman, 1998-ci ildə Azərbaycan Konstitutisiya Məhkəməsinin fəaliyyətə başlaması, 1998-ci il iyunun 18-də "Azərbaycanda insan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" və s. kimi tarixi əhəmiyyətli sənədlər məhz ümummilli lider Heydər Əliyevin zəkası və müdrik rəhbərliyi sayəsində qəbul edilmiş və bununla da ölkəmizdə hüquqi dövlət quruculuğunun mıhkəm bünövrəsi qoyulmuşdur.

Heydər Əliyev müasir Azərbaycan dövlətinin banisi, xilaskarı və qurucusudur. Ulu öndər həm Azərbaycan xalq hərəkatının, həm də Azərbaycan milli azadlıq hərəkatının həqiqi lideri olmuşdur. O, 70-ci illərdən başlayaraq Azərbaycanda həyata keçirdiyi tədbirlər nəticəsində, uzun illər ərzində nəfəs dərmədən, gecə-gündüz bilmədən çalışmaqla Azərbaycanı Sovetlər İttifaqının ən qabaqcıl, iri addımlarla irəliləyən, inkişaf etməkdə olan, özünü tam yaşatmağa qabil olan və bütün istiqamətlər üzrə çiçəklənən bir respublikasına çevirdi. O, uzunillik siyasi fəaliyyəti ilə Azərbaycanı qurub-yaratmaqla QURUCU LİDER, müstəqillik dövründə isə Azərbaycanı parçalanmaqdan və məhv olmaqdan xilas edən XİLASKAR LİDER kimi tariximizə düşmüşdür.

XX yüzillikdə Azərbaycana rəhbərlik etmiş şəxsiyyətləri bir-bir gözümüz önündən keçirsək görərik ki, onlardan heç biri Heydər Əliyev qədər Azərbaycan xalqına və dövlətçiliyinə uzun müddət ərzində bacarıq və səriştə ilə xidmət etməyə nail ola bilməyib.

Heydər Əliyevin bir siyasi lider kimi özünəməxsus xüsusiyyətlərindən biri də onun dinc dövrdə, seçkilər yolu ilə hakimiyyətə gəlib dövləti məharətlə idarə edən, lakin ekstremal şəraitlərdə və böhran dövründə öz xalqının qabağında gedə bilməyən keçmiş sovet liderlərdən fərqli bir lider olmasıdır. Belə ki, Heydər Əliyevin Azərbaycanı tərk edib Moskvaya SSRİ rəhbərliyinə-Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilməsindən və SSRİ Nazirlər Soveti Sədrinin Birinci Müavini vəzifəsinə təyin olunduqdan sonra da bir an belə olsa da, Azərbaycanla, öz doğma vətəni ilə əlaqəsini kəsmirdi. O vaxtlar Moskvada və SSRİ-nin başqa yerlərində tez-tez Azərbaycan mədəniyyət günləri keçirilir, mərkəzi telekanallarda, teatr səhnələrində Azərbaycanın ictimai-siyasi həyatı, "Koroğlu", "Arşın malalan", "O olmasın, bu olsun", "Min bir gecə" və s. kimi filmləri, opera, balet əsərləri, musiqisi nümayiş etdirilirdi.

Ulu öndər Heydər Əliyev SSRİ-yə başçılıq edə biləcək ən real və perspektivli rəhbərlərdən biri idi. Lakin Sovet rəhbərliyində təmsil olunan bəzi millətçi və şovinist əhval-ruhiyyəli siyasətçilər tərəfindən müsəlman və türk mənşəli olduğuna görə, ona qısqanclıq olunaraq layiq olduğu vəzifəyə seçilməyə imkan verilmədi. 1987-ci ilin oktyabrın 25-də Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək istəyən SSRİ rəhbəri M.S.Qorbaçov ilk öncə yolu üzərindən bu məqsədinə mane ola biləcək yeganə qüvvəni - Heydər Əliyevi hakimiyyətdən uzaqlaşdırdı. Bundan düz 40 gün sonra Dağlıq Qarabağ məsələsi ortaya atıldı və Azərbaycan torpaqlarının işğalına start verildi. Bununla əlaqədar olaraq, Azərbaycanda kortəbii xalq hərəkatı başlandı. Bu hərəkat başlayarkən Azərbaycan xalqının lideri Heydər Əliyev ümumittifaq əhəmiyyətli fəxri təqaüddə olsa da, Moskvada onun rəqibləri deyirdi ki, bütün bu xalq hərəkatının arxasında "Əliyevşina" durur. Ona görə də M.S.Qorbaçov öz yaxın ətrafının və Azərbaycanın yerli rəhbərləri olan Ə.Vəzirov, A.Mütəllibov, V.Hüseynov və başqalarının köməyi ilə var-gücünü "Əliyevçilik"lə mübarizəyə sərf edirdi. M.S.Qorbaçovun əsas məqsədi azad, müstəqil yaşamaq, öz torpaqlarını heç kəsə vermək istəməyən bir milləti susdurmaqdan, milli düşüncəli, vətənpərvər Heydər Əliyevçi kadrları vəzifədən kənarlaşdırmaqdan və Azərbaycanı kortəbii şəkildə Moskvanın iradəsinə tabe etməkdən, oyuncaq rejim qurmaqdan ibarət idi.

M.S.Qorbaçov başda olmaqla Sovet rəhbərliyi və onların Azərbaycandakı əlaltıları xalqımızın gözünü qorxutmaq və genişlən-

məkdə olan xalq hərəkatını yatırmaq məqsədi ilə 1990-cı ildə 20 Yanvar faciəsini törətdilər. 1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə isə erməni millətçiləri tərəfindən XX əsrin ən böyük və dəhşətli cinayətlərindən biri olan Xocalı soyqırımı törədildi. Lakin o vaxtkı Sovet rəhbərliyi və erməni millətçiləri torpaqlarımızın bir hissəsini işğal etsələr də, neçə-neçə digər faciələri törətsələr də, bir milyondan çox əhalimizi qaçqın və köçkün gününə salsalar da öz məqsədlərinə nail ola bilmədilər. Onlar Azərbaycan xalqının iradəsinə qalib gəlməyi sadəcə bacarmadılar. Bacarmadılar ona görə ki, Moskvanın planlarına qarşı çıxa biləcək güclü xalq hərəkatı və bu hərəkatın Heydər Əliyev tərəfindən vaxtilə müxtəlif peşə sahələrində yetişdirilmiş fəal iştirakçıları var idi. Lakin 1990-cı ilin iyununa qədərki dövrdə, Heydər Əliyev Moskvada yaşadığına görə, xalqın nəzərləri Moskvaya – Heydər Əliyevə dikilsə də, əli, səsi ona çatmırdı. 1990-cı ilin Yanvar hadisələri zamanı Heydər Əliyev Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək Sovet rəhbərliyini və onların Azərbaycanda müxtəlif vəzifələrdə olan yerli əlaltıları ilə birlikdə Azərbaycan xalqına qarşı faciə törətməsi haqqında bəyanat verdi və onları siyasi və hüquqi cəhətdən cinayət törətməkdə ittiham etdi. Daha sonra Heydər Əliyev Azərbaycana – anadan olduğu doğma Vətəninin ayrılmaz bir parçası olan Naxçıvana gəldi. Beləliklə, 1990-cı il iyunun 18-i Heydər Əliyevin Azərbaycana qayıtması, daha sonra Naxçıvana getməsi, Sovet İttifaqı Kommunist Partiyası üzvlüyündən bəyanatla çıxaraq orada Naxçıvan MR Ali Məclisinin və Azərbaycan Ali Sovetinin deputatı və 1991-ci ilin sentyabrın 3-də Naxçıvan Ali Məclisinin sədri seçilməsi ilə Azərbaycanda 1988-ci ildə başlanmış kortəbii xalq hərəkatı 1991-ci ildən başlayaraq ardıcıl, müntəzəm və planlı hərəkata çevrildi və milli azadlıq hərəkatı mərhələsinə qədəm qoydu. Heydər Əliyev Vətəni darda olan vaxt ölkəyə qayıtdı və o zaman yenicə vüsət alan xalq hərakatına qoşuldu. Artıq qısa müddət keçəndən sonra bu hərəkatın lideri Azərbaycan xalqının vətənpərvər oğlu və əvəzolunmaz siyasi xadim Heydər Əliyev idi. Ona görə ki, 1969-cu ilin iyulun 14-də hakimiyyətə gəldiyi ilk gündən başlayaraq Heydər Əliyev Azərbaycan xalqının etimad və inamını tam qazanmış, onun dərdinə və sevincinə hər an şərik olan əvəzolunmaz bir liderinə çevrilmişdi. Heydər Əliyev harada, hansı vəzifədə olubsa, xalqın ümid yeri, pənahı olub və milyonlarla insanın nəzərləri bir ümid çırağı kimi, bir haqq-ədalət carçısı kimi ona dikilib.

Heydər Əliyev ümumxalq məhəbbəti qazanmış liderdir

1982-ci ilin dekabrında Heydər Əliyev Moskvaya Siyasi Büro üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkilərkən, o vaxtkı Dzerjinski adına (indiki Şəhriyar adına mədəniyyət sarayı) sarayda yolasalma mərasimi keçirilirdi. Televiziya ilə birbaşa translyasiya edilən həmin yığıncaqda iştirak edən insanların həm sevinc, həm də kədərlə axıtdıqları göz yaşları bir-birinə qarışmışdı. İnsanlar sevincdən göz yaşını ona görə tökürdü ki, son 70 ildə ilk dəfə olaraq Azərbaycan oğlu belə yüksək vəzifəyə qalxırdı. İnsanları kədərləndirən isə onun doğma respublikanı tərk etməsi idi. Bu, ümumxalq məhəbbətinin bariz nümunəsi idi. Daha sonra 1987-ci ilin oktyabrında Heydər Əliyev Moskvada tutduğu vəzifələrdən azad edilərkən bu hadisəni bütün Azərbaycan xalqı böyük kədər, qəm-qüssə hissi ilə qarşıladı.

Sonra cəmi üç il ərzində (1987-90-cı illər) Heydər Əliyev dövlət vəzifəsində olmayıb. Azərbaycanın son problemlərinin əksəriyyətinin də bünövrəsi məhz həmin illərdə qoyuldu. Azərbaycan xalqının oğul və qızları həmin dövrdə köks ötürərək deyirdi: "Əgər Heydər Əliyev vəzifədə olsaydı, bizim başımıza bu müsibətlər gəlməzdi". Taleyin hökmü ilə 1990-cı ilin iyununda Naxçıvana gələn Heydər Əliyev tezliklə yenidən siyasi meydana qayıtdı. Azərbaycan Ali Sovetinin deputatı seçilən gündən Ali Sovetin sessiyalarında millət vəkili kimi Azərbaycanı milli müstəqilliyə aparan Konstitusiya sənədlərinin qəbul olunmasını təklif etdi. Xalqı "referendum" yolu ilə SSRİ tərkibində saxlamağa çalışan respublika rəhbərli-

yinin səsinə səs verməməyə çağırdı. Dağlıq Qarabağın faktiki olaraq Azərbaycandan qoparılıb Ermənistana birləşdirilməsi məqsədini qarşılarına qoyan ermənipərəst qüvvələrin planlarını alt-üst etdi. Naxçıvan Ali Məclisinin sessiyalarında isə bilavasitə onun rəhbərliyi ilə Azərbaycanın müstəqilliyinin əsasını qoyan çox mühüm əhəmiyyətli sənədlər qəbul edildi. Heydər Əliyevin oturduğu Naxçıvan Ali Məclisinin binası faktiki olaraq Azərbaycan milli azadlıq hərəkatının qərargahına çevrildi. Həmin vaxt Azərbaycanın paytaxtı Bakıda hakimiyyət uğrunda amansız mübarizə gedirdi, moskvapərəst A.Mütəllibov müstəqillik haqqında qətiyyən düşünmürdü. O, ölkəni faciələrlə, vətəndaş müharibəsi ilə üz-üzə qoyub Moskvaya qaçdı. Daha sonra Azərbaycanın müstəqilliyinə tərəfdar olan, lakin bu müstəqilliyi əldə etməyin və qoruyub-saxlamağın üsul və vasitələrini bilməyən, müstəqilliyə mane olmaq istəyən qüvvələrlə bacarmayan, hakimiyyət uğrunda mübarizə aparan öz yaxın ətrafının iddialarının qarşısında aciz qalan Azərbaycan Xalq Cəbhəsinin sədri, xalq hərəkatının liderlərindən biri olan Əbülfəz Elçibəy də Azərbaycanın müstəqilliyini təmin edə bilmədi. Sonda o da öz vəzifəsini qoyub anadan olduğu doğma Kələki kəndinə getməyə məcbur oldu.

Bu sözləri yazmaqda məqsədim ondan ibarətdir ki, bu gün Azərbaycanda "xalq hərəkatı", "milli azadlıq hərəkatı" ifadələrini tez-tez dillərində əzbər edən, özlərini isə bu hərəkatın fəal iştirakçıları və rəhbərləri hesab edən, SSRİ-nin guya onlar tərəfindən dağıdıldığını və Azərbaycanın müstəqillik qazanmasını öz adlarına çıxan bəzi müxalifət nümayəndələrinə onu xatırlatmaqdır ki, onların özlərini lider adlandırması ilə xalqın əsl lider kimi qəbul etdiyi və tanıdığı şəxsiyyət arasında böyük fərq var. 1988-ci ildə başlanan xalq hərakatının da, 1990-cı il 20 yanvardan etibarən başlanan milli azadlıq hərəkatının da əsl və həqiqi lideri, rəhbəri əvəzolunmaz ictimai-siyasi xadim olan Heydər Əliyev olmuşdur.

Heydər Əliyev bəzi dövlət başçıları və xalq hərəkatının iştirakçısı olan insanlar kimi millət, milli dövlət, müstəqillik, milli birlik, milli ləyaqət, milli ideologiya, milli dövlətçilik ifadələrini tez-tez işlətməklə özünə hörmət qazanmaq fikrində olmayıb. Əksinə dərin düşüncəyə söykənən müdrik fəaliyyəti ilə addım-addım, nəzərə çarpmadan Azərbaycanı milli müstəqilliyə doğru aparıb. SSRİ dağıldıqdan sonra isə yaranmış tarixi şəraiti nəzərə alaraq müstəqillik bayrağını məhz o özü ilk dəfə olaraq qaldırıb.

Heydər Əliyev öz çıxışlarında dəfələrlə vurğulamışdır ki, Azərbaycan Respublikasının müstəqilliyi tarixi bir hadisədir. Bu, Azərbaycan xalqının milli sərvəti, milli nailiyyətidir və bu müstəqilliyin əldə olunmasında hər hansı qrupun, hərəkatın, qüvvənin müstəsna xidmətləri olduğunu heç vəchlə qəbul etmək olmaz. Bu səmimi sözlərin doğruluğunu qəbul etməklə bərabər onu deməliyik ki, Azərbaycanın müstəqilliyinin qazanılması və qorunub-saxlanması uğrunda mübarizənin rəhbəri və bayraqdarı elə məhz Heydər Əliyevdir.

Son 100 illik tariximizdən çıxarmalı olduğumuz ən əsas ibrət dərsi odur ki, dəfələrlə müstəqillik qazansaq da, onu qoruyub saxlaya bilməmişik. Mən bir daha ulu ündər Heydər Əliyevin belə bir fikrini vurğulamaq istəyirəm ki, Azərbaycanın müstəqilliyinin qorunub-saxlanması onun əldə edilməsindən çox-çox çətindir. Heydər Əliyev həm müstəqilliyimizin qazanılmasında, həm onun qurulmasında, həm də onun qorunub-saxlanmasında və əbədi yaşamasında əvəzsiz rol oynamış dövlət xadimidir.

Heydər Əliyev müasir və müstəqil Azərbaycan dövlətinin banisidir. Milli dövlətə, Azərbaycan dövlətçiliyinə xidmət Heydər Əliyevin bütün siyasi fəaliyyətinin əsas prinsipini, mahiyyətini və mənasını təşkil edir.

İkinci prinsip olan islahatçılıq prinsipinə toxunarkən onu qeyd etmək istərdim ki, Heydər Əliyev bir dövlət başçısı kimi islahatçı, yenilikçi və reformator liderdir. İstər 1970-80-ci illər onun Azərbaycana rəhbərlik etdiyi dövrü, istər SSRİ rəhbərliyində olduğu 1982-87-ci illər dövrünü, istər Naxçıvan Ali Məclisinin sədri vəzifəsində işlədiyi 1990-93-cü illər

dövrünü, istərsə də 1993-cü ilin iyununda yenidən hakimiyyətə qayıtdığı dövrü götürüb təhlil etsək, görərik ki, bu dövrün hər birində Heydər Əliyevin bütün siyasi fəaliyyəti cəmiyyətin ayrı-ayrı sahələrinin yenidən qurulmasından, radikal islahatların aparılmasından ibarət olmuşdur. Bir təşkilatçı lider kimi o qarşıda duran məqsəd və vəzifələri çox aydın gördüyündən həmin məqsəd və vəzifələrə çatmaq üçün lazım olan üsul və vasitələri yaratmağı çox cəsarətlə girişir, lazımi addımlar atır, köhnə iş metodlarını dəyişdirir və yeni dövrün tələblərini təmin edə biləcək kadrları cəsarətlə irəli çəkirdi. Sadalanan dövrlərin heç birində Heydər Əliyev qarşısına qoyduğu məqsədləri yarımçıq qoymayıb, onların hamısını axıra çatdıra bilib.

Heydər Əliyev böyük bacarıqla Azərbaycan xalqının milli mənafelərini əsas götürərək və onun tarixi arzularını reallaşdıraraq əbədiyaşar müstəqil Azərbaycan dövlətinin bünövrəsini qoymuşdur. Onun memarı olduğu müasir Azərbaycan dövləti bir hüquqi demokratik dövlət kimi müasir dünyanın bütün sivil dövlətləri tərəfindən çox hörmətlə qəbul edilir.

Heydər Əliyev Azərbaycan xalqına xas olan mənəvi dəyərləri daim yüksək qiymətləndirmiş və onları bütün dünyaya tanıtmışdır. "Xalqımız nikbindir, başını heç vaxt aşağı tutmayıb, sınmayıb, əyilməyib, heç vaxt diz çökməyib", - deyən Heydər Əliyevin gücünün, qüdrətinin mənbəyi də məhz elə öz xalqı olub. Heydər Əliyev heç bir zaman öz xalqına kütlə və yaxud "obıvatel" kimi yanaşmayıb. Əksinə, o həmişə öz xalqının milli qürurunu uca tutub və "xalqımız qəhrəman xalqdır", – deyib. Ümummilli lider Heydər Əliyev dünya azərbaycanlılarının həmrəyliyi məsələsinə toxunaraq demişdir: ”Bizim vəzifəmiz, Azərbaycan dövlətinin vəzifəsi ondan ibarətdir ki, bütün ölkələrdə yaşayan azərbaycanlılara mümkün olan qayğını, diqqəti göstərsin, onların həyatı ilə maraqlansın və dövlətimizlə ayrı-ayrı ölkələrdə olan Azərbaycan icması arasında əlaqələri daha da inkişaf etdirsin. Azərbaycanın xaricində yaşayan azərbaycanlılar isə gərək, indi müstəqil Azərbaycan ilə daha da sıx əlaqələr qursunlar. Bunların hamısı dünyada olan bütün azərbaycanlıların birliyinin və həmrəyliyinin təmin olunması üçün əsas şərtlərdir” (1).

O, öz millətinə və xalqına inandığı kimi, Azərbaycan xalqı da məhz ona inanıb, ona etimad göstərib və bütün taleyini ona etibar edib. Heydər Əliyev isə hər zaman öz xalqının etimadını doğrultmuş bir siyasətçi idi. Biz hamımız, müəllimi Heydər Əliyev olan bir siyasi məktəbin tələbələri zaman-zaman Heydər Əliyevdən öyrənməli, onun bütün fəaliyyət prinsiplərini rəhbər tutmalıyıq.

İlham Əliyev Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısıdır

Bu gün müasir Azərbaycan dövlətçiliyini möhkəmləndirən, onu güclü edən iki mühüm əhəmiyyətli faktor var: Heydər Əliyev ideyaları və xalq-iqtidar birliyi. Əbədiyaşar Heydər Əliyev ideyaları və bu ideyaların və siyasi kursun ən layiqli davamçısı olan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında iqtidarla xalqın birliyi, həmrəyliyi ölkəmizdə möhkəm ictimai-siyasi sabitliyin qorunub saxlanmasının, milli həmrəyliyin və sosial-iqtisadi inkişafın təminatıdır. Azərbaycan Respublikasının Prezidenti cənab Ilham Əliyev 2017-ci il mayın 26-da “Buta” sarayında 28 May-Respublika günü münasibəti ilə keçirilən rəsmi qəbulda etdiyi nitqində demişdir: “Sabitliyin əsl mahiyyəti ondadır ki, xalq dövlət siyasətini dəstəkləsin, xalq vəziyyətlə razı olsun, xalq inkişafla qürur duysun. Biz, bax bu sabitliyi yaratmışıq və Azərbaycanda möhkəm sürən sabitliyin təməlində bu amillər dayanır: –xalq-iqtidar birliyi, bizim siyasətimiz və əldə edilmiş uğurlar. Ən yaxşı təbliğat vasitəsi real həyatdır. Bu gün Azərbaycan çoxşaxəli şəkildə inkişaf edir və bütün istiqamətlərdə böyük uğurlar qazanıb”. (Bax: “Xalq qəzeti”, 27 may 2017-ci il, №113, səh.2.).

Azərbaycan bu gün dünyada öz milli maraqlarını layiqincə müdafiə edə bilən, çox böyük hörmət və nüfuza malik olan ölkə kimi tanınır. Bu gün Azərbaycanın bütün beynəlxalq təşkilatlarla və dövlətlərlə çox yaxşı münasibətləri var. Xüsusilə İslam Əməkdaşlıq Təşki-

latı və ona üzv olan dövlətlər Azərbaycanın beynəlxalq arenada mənafelərini layiqincə müdafiə edirlər.

Son 20 il müddətində Azərbaycan iqtisadiyyatına 200 milyard dollardan artıq investisiya qoyulmuş, böyük infrastruktur layihələri həyata keçirilmişdir. Yeni-yeni yollar, körpülər, binalar, yaşayış massivləri, aeroportlar, limanlar tikilmiş, müasir Azərbaycanın siması tamamilə dəyişmişdir. Azərbaycanın valyuta ehtiyatları 2010-cu ildə 28 milyard ABŞ dollarından 2017-ci ilin ortalarına 40,6 milyard dollara, Ümum Daxili Məhsul 2010-cu ildə 40 milyard dollardan 60 milyard dollara, dövlət büdcəsi 2010-cu ildə 15 milyard dollardan 2014-cü ildə 25 milyard dollara çatmışdır. 2014-cü ildən sonra baş verən iqtisadi böhran nəticəsində bu rəqəmlərdə bir qədər azalma baş vermişdir. Azərbaycanda son 15 ildə 20-dən çox elektrik stansiyası tikilmişdir. 2004-cü ildən 2017-ci ilədək 11 min kilometr yeni yollar-həm magistral, həm də kənd yolları çəkilmişdir. Sosial siyasət sahəsində son illərdə 600-dən artıq xəstəxananın, 3.000-dən artıq orta məktəbin tikilməsi və ya təmir edilməsi nəticəsində əhaliyə göstərilən tibbi xidmətin, təhsilin səviyyəsi xeyli yüksəlmişdir. 2016-cı ildə 5 milyondan artıq Azərbaycan vətəndaşı pulsuz tibbi müayinədən keçmişdir. Məcburi köçkünlər üçün son illər ərzində 100-ə yaxın qəsəbə salınıb. 2017-ci ilin 1-ci altı ayı ərzində işsizlik və yoxsulluq şəraitində yaşayan 4,4 faiz əhaliyə və ya 442,8 min nəfərə aylıq və birdəfəlik sosial müavinətlər verilib. Bu gün ən qabaqcıl texnologiyaya, silahlara yüksək vətənpərvərlik ruhuna malik olan və istənilən vəzifəni layiqincə yerinə yetirməyə və işğal altında olan torpaqlarımızı Ermənistan silahlı birləşmələrinin təcavüzündən azad etməyə qadir olan güclü Azərbaycan ordusu var. 2016-cı ilin 3-5 Aprel döyüşləri ordumuzun real gücünü bütün dünyaya sübut etdi. Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə dünyada 37-ci yerdədir. Azərbaycan bu gün dünya miqyaslı böyük nəqliyyat və enerji layihələri, o cümlədən, "Cənub Qaz Dəhlizi", "Şahdəniz-2", "Trans-Anadolu Qaz Kəməri-TANAP", "Trans-Adriatik Kəməri-TAP", "Bakı-Tbilisi-Qars" Dəmiryolu xətti", Ələt Beynəlxalq Dəniz Limanı" və s. uğurla həyata keçirməkdədir.

Heydər Əliyev ideyalarının və siyasi kursunun davam etdirilməsinin zəruriliyini dərk edən Azərbaycan xalqı 2018-ci il aprelin 11-də keçirilən növbədənkənar prezident seçkilərində bir daha ulu öndərə olan sonsuz hörmət və məhəbbətini nümayiş etdirmişdir. Azərbaycanda dəqiqləşdirilmiş vahid seçici siyahısına əsasən, 5 milyon 192 min 43 səsvermə hüququ olan şəxs var. Seçici siyahısında 3.958.852 seçki bülletenindən 12.413-ü etibarsız hesab edilmişdir. Etibarlı hesab edilmiş 3.946.439 səs prezidentliyə namizədlər arasında adekvat və real obyektivliyi əks etdirməklə bölünmüş, YAP sədri İlham Heydər oğlu Əliyev 86,02% və ya 3.394.898 səs almış, bu nəticə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 17 aprel 2018-ci il tarixli qərarı ilə təsdiq olunmuşdur. Azərbaycan Respublikasının prezidentliyinə namizəd Əliyev İlham Heydər oğlu yenidən 7 il müddətinə Azərbaycan Respublikasının Prezidenti seçilmiş və 18 aprel 2018-ci ildə and içmişdir.

Bütün bu uğurların və qələbələrin təməlində ümummilli lider Heydər Əliyevin ölməz dövlətçilik və müstəqillik ideyaları dayanır. Müstəqillik bizim üçün ən böyük sərvətdir, biz bu müstəqilliyi qoruyuruq və daim göz bəbəyi kimi qoruyacağıq.

Ədəbiyyat:

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Çoxcildlik. Bakı: Azərnəşr, 1993-2003-cü illər.
2. Heydər Əliyev. Azərbaycançılıq - birliyimizin əsasıdır. 2001-ci il noyabrın 9-10-da keçirilmiş Dünya Azərbaycanlılarının I qurultayında və "Gülüstan" sarayındakı rəsmi qəbulda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi. Bakı: Azərbaycan nəşriyyatı, 2002, 34 s.
3. İlham Əliyev. İnkişaf məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Çoxcildlik. Bakı: Azərnəşr, 2003-2018-ci illər.
4. İlham Əliyev. Dünya Azərbaycanlılarının II qurultayında nitq // "Azərbaycan" qəzeti, 2006,17 mart, №58.
5. İlham Əliyev. Dünya Azərbaycanlılarının III qurultayında nitq // "Azərbaycan" qəzeti, 2011, 6 iyul, №144.
6. İlham Əliyev. Dünya Azərbaycanlılarının IV qurultayında nitq, "Azərbaycan" qəzeti, 2016, 4 iyun.
7. Mehdiyev R.Ə. Milli məfkürə, dövlətçilik, müstəqillik yolu ilə. Bakı: 2006, 622s.
8. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti,- Bakı: Azərbaycan nəşriyyatı, 2005, 752s.
9. Məmmədov N. Geosiyasətə giriş. İkicildlik kitab, I cild: "Geosiyasətin nəzəri əsasları", -Bakı, "Azərbaycan" nəşriyyatı, 2011, 576s.; II cild: "Müasir geosiyasi proseslər". -Bakı: "Azərbaycan" nəşriyyatı, 2011, 416s.
10. Qasımlı M. Heydər Əliyev-İstiqlala gedən yol (1969-1987-ci illər). Monoqrafiya. Bakı: BDU, 2006, 608s.
11. Dünya azərbaycanlıları. Bakı: "Azərbaycan" nəşriyyatı, 2006-cı il, səh. 21.
12. Əli Həsənov, Geosiyasət. Bakı: "Aypara-3" nəşriyyatı, 2010, səh. 443- 444.
13. "Xalq qəzeti", 20 may 2018-ci il, №113 (28789), səh.3.
14. "Xalq qəzeti", 27 may 2017-ci il, №113, s.2.

Açar sözlər: *ümummilli liderin xarakterik xüsusiyyətləri, bənzərsiz lider, milli dövlətçilik təlimi, azərbaycançılıq ideologiyası, Azərbaycan diasporu, Dünya Azərbaycanlıları*

Gafar Aliyev
Member of Political Council of New Azerbaijan Party,
The Administration of the President of the Republic of Azerbaijan,
Head of Sector at the Department of Public-Political Issues,
PhD in Political Science

ARCHITECT, SAVIOR AND FOUNDER OF MODERN AZERBAIJAN - HEYDAR ALIYEV

SUMMARY

The author of the article notes that the Azerbaijan Democratic Republic was established a hundred years ago, in 1918 for the first time in the Muslim East. Unfortunately, it existed for two years, then it was defeated and was part of the USSR for 70 years. In the first years of independence, the Republic faced with difficulties: anarchy, internal turmoil and economic crisis prevailed within the country. After the collapse of the Union, Azerbaijan regained its independence. Taking advantage of the ongoing situation, Armenia occupied 20% of the territory of Azerbaijan. On June

15, 1993, at the request of the people, the great politician Heydar Aliyev returned to power again. Thanks to his titanic activity, the independence of Azerbaijan was maintained, stability was ensured, and the development process began. The world famous politician Heydar Aliyev has invaluable merits in the formation and development of the ideology of Azerbaijanism, as in many other spheres of political life and state building. In the article, the author compares Heydar Aliyev, an outstanding political leader and statesman with the bright personalities of our time, and reveals the qualities that characterize the national leader.

Key words: *Characteristics of National Leader, Unique Leader, National Statehood Training, Ideology of Azerbaijanism, Azerbaijani Diaspora, World Azerbaijanis*

Гафар Алиев
Член Политического совета партии «Ени Азербайджан»,
заведующий сектором общественно-политического отдела
Администрации Президента Азербайджанской Республики,
доктор философии по политическим наукам

АРХИТЕКТОР, СПАСАТЕЛЬ И СОЗИДАТЕЛЬ СОВРЕМЕННОГО АЗЕРБАЙДЖАНА - ГЕЙДАР АЛИЕВ

РЕЗЮМЕ

Автор статьи отмечает, что сто лет тому назад, в 1918 году впервые на мусульманском Востоке была создана Азербайджанская Демократическая Республика. К сожалению, просуществовав два года, она потерпела поражение и в течение 70 лет находилась в составе СССР. После распада Союза Азербайджан восстановил свою независимость. В первые годы независимости из-за некомпетентности находящихся у власти республика столкнулась с трудностями: в стране царила анархия, внутренние передряги и углубляющийся экономический кризис. Воспользовавшись сложившейся ситуацией, Армения оккупировала 20% территории Азербайджана. 15 июня 1993 года по настоятельному требованию народа великий политик Гейдар Алиев вернулся вновь к власти. Благодаря его титанической деятельности независимость Азербайджана была сохранена, наступила стабильность, начался процесс развития.

В статье автор сравнивает Гейдара Алиева, выдающегося политического лидера и государственного деятеля с яркими личностями современности и раскрывает его качества, как общенационального лидера и политика мирового масштаба.

Ключевые слова: *характерные особенности общенационального лидера, несравненный лидер, учение национальной государственности, идеология азербайджанства, Азербайджанская диаспора, Азербайджанцы мира*

A R X E O L O G İ Y A
A R C H A E O L O G Y

ƏSƏDULLA CƏFƏROV
Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun "Daş dövrü" şöbəsinin müdiri, tarix elmləri doktoru, professor

QARABAĞ VƏ ONUN TARİXİNİ SAXTALAŞDIRMAQ CƏHDLƏRİ

Son 60 ildə Azərbaycan Respublikası ərazisində aparılan arxeoloji tədqiqat işləri nəticəsində ibtidai insanların meydana gəlməsi, inkişaf etməsi və formalaşması tarixini tədqiq etmək üçün elmi materiallar və maddi mədəniyyət nümunələri tapılmışdır. Aşkar olunmuş arxeoloji, paleontoloji və paleoantropoloji materiallar əsasında Azərbaycanın uzaq keçmişinin tarixi, insanlığın ilkin inkişaf mərhələləri və ulu sakinlərin maddi mədəniyyət qalıqlarının ayrı-ayrı xüsusiyyətləri öyrənilir.

Son illərdə aparılmış kompleks arxeoloji tədqiqatlar nəticəsində Azərbaycan ərazisində ibtidai insanların 2,5 milyon il bundan əvvəllərdən yaşamağa başlamaları sübuta yetirilmişdir. Halbuki 1953-cü ilə qədər respublikamızın ərazisində qədim insan düşərgələrinin olmadığı və burada ibtidai insanların yaşamadıqları göstərilirdi. Lakin Azərbaycan arxeoloqlarının apardıqları arxeoloji tədqiqatlar bu fikrin yanlış və əsassız olduğunu göstərdi, respublikamızın ərazisinin ibtidai insanın yarandığı və formalaşdığı ərazilərdən biri olduğu elmi materiallarla sübuta yetirildi. Eyni zamanda, Azərbaycanda qədim sivilizasiyanın özünəməxsus xüsusiyyətləri olduğu və bunun əsasında ölkəmizdə və Yaxın Şərq ərazisində ən qədim arxeoloji mədəniyyət müəyyən olunmasına şərait yarandı. Bu mədəniyyət Azıx paleolit düşərgəsinin VII-X təbəqələrinin maddi mədəniyyət qalıqları əsasında müəyyən olundu və tarixə Quruçay arxeoloji mədəniyyəti adı altında daxil oldu (şəkil 8).

Hazırda Azərbaycan Respublikası ərazisində aşkar olunmuş Azıx, Tağlar, Qobustan, Gəmiqaya və digər arxeoloji düşərgələr ən qədim tarixi abidələr hesab olunur.

Azərbaycan ərazisində aparılan kompleks elmi tədqiqatlar nəticəsində respublikamızın ərazisində nəinki ibtidai insanların yaşaması sübut olundu, eyni zamanda bu diyarda ən qədim sakinlərin uzun müddət məskən salıb formalaşması və Azərbaycanın türk dünyasının ən qədim sivilizasiya mərkəzlərindən biri olması elmi faktlarla təsdiq olunmuşdur. Bu baxımdan Qarabağ ərazisində paleolit dövrü üzrə aparılmış kompleks elmi tədqiqat işlərinin mühüm elmi əhəmiyyəti vardır.

Azərbaycanın Qarabağ ərazisində aparılan arxeoloji tədqiqatlar nəticəsində paleolit dövrünün ayrı-ayrı inkişaf mərhələlərinə aid qədim insan düşərgələri aşkar olunmuşdur. Həmin abidələrdə aparılan kompleks elmi tədqiqatlar zamanı respublikamızın ərazisində daş dövrünün ayrı-ayrı inkişaf mərhələlərini öyrənmək üçün zəngin maddi mədəniyyət nümunələri tapılmışdır.

Aparılan kompleks elmi tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, Azərbaycanın ən qədim sakinlərinin əmək alətlərini hazırlaması və onların sonrakı inkişafı üçün minilliklər lazım olmuşdur. Arxeoloji tədqiqatlar zamanı müəyyən edilmişdir ki, ibtidai insanlar qədim paleolit dövründə əsasən təbii karst mağaralarında, çay vadilərində, qaya sığınacaqlarda və yaşamaq üçün əlverişli olan yerlərdə məskən salıb yaşamışlar.

Azərbaycan Respublikası ərazisində paleolit dövrünə aid aparılan arxeoloji tədqiqat işləri nəticəsində daş dövrünün ayrı-ayrı

inkişaf mərhələlərinə aid zəngin abidələr Qarabağın Quruçay və Köndələnçay vadilərində M.M.Hüseynovun rəhbərliyi altında aparılan arxeoloji kəşfiyyat işləri zamanı çoxtəbəqəli Azıx və Tağlar paleolit düşərgələri qeydə alınmışdır (şəkil 1-3).

Aparılan elmi tədqiqatlar zamanı məlum olmuşdur ki, Qarabağın dağlıq ərazisində ən qədim zamanlardan təbii karst mağaraları əmələ gəlmişdir. Məhz buna görə də ibtidai sakinlər təbii karst mağaraları olan Azıx və Tağlar düşərgələrində məskunlaşmışlar.

Paleolit arxeoloji ekspedisiyasının Qarabağ ərazisində apardığı elmi tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, hələ çox qədim zamanlardan Quruçay və Köndələnçay vadilərində canlı həyatın inkişafı üçün əlverişli təbii coğrafi şərait olmuşdur. Ərazidə aparılan kompleks elmi tədqiqatlar nəticəsində məlum olmuşdur ki, hələ 2-3 milyon il bundan əvvəllər Quruçay vadisində mülayim iqlim şəraitində yaşayan çoxlu heyvanlar yaşamışdır. Eyni zamanda Quruçay vadisi, Azıx və Tağlar paleolit düşərgələri yerləşən ərazidən ibtidai insanlar əmək alətləri hazırlamaq üçün xammal mənbəyi kimi istifadə etmişlər. Quruçay vadisində və həmçinin Tuğ çökəkliyində kvars, kvarsit, bazalt, felzit, yaşma, çaxmaq və s. daşlar mövcud olmuşdur (şəkil 1).

Azıx paleolit düşərgəsinin VII-X təbəqələrində aparılan qazıntılar zamanı 300-dən artıq daş məmulatı və bir neçə ədəd ovlanmış heyvan sümükləri tapılmışdır. Ən aşağı təbəqələrin daş məmulatı içərisində həmçinin kobud əl çapacaqları, kubvari alətlər, kobud qaşovlar, vurma səthi yaxşı saxlanmış qəlpələr də qeydə alınmışdır. Azıx paleolit düşərgəsində təbəqələrin yerləşmə səviyyəsindən asılı olmayaraq VII-X təbəqələrin daş məmulatı eyni texniki üsulla hazırlanmışlar. Bu xüsusiyyətlər əmək alətlərinin ümumi görünüşündə, ərplə örtülməsindən asılı olmayaraq saxlanılma dərəcəsində, texniki və tipoloji əlamətlərində özünü göstərir.

Azıx paleolit düşərgəsinin VII-X təbəqələrinin daş məmulatı içərisində 3-4 kq ağırlığında olan kobud çapma alətləri diqqəti daha çox cəlb edir. Hələlik ölkəmizin və Qafqazın paleolit düşərgələrindən belə alətlər qeydə alınmamışdır. Təsvir olunan alətləri Azıx tipli kobud çapma alətlər adlandırmaq olar. Azıx paleolit düşərgəsinin VII-X təbəqələrindən aşkar olunmuş arxeoloji tapıntıların mühüm elmi əhəmiyyəti vardır. Aşağı təbəqələrin maddi mədəniyyət qalıqları ibtidai insanların Azıx düşərgəsində ilkin məskunlaşmalarını göstərir. İbtidai insanların həyatında mağaranın yaxınlığından axan Quruçayın mühüm əhəmiyyəti olmuşdur. Qədim Azıx düşərgəsinin sakinləri əmək alətləri hazırlamaq üçün təbii çay daşlarını Quruçaydan toplayıb mağaraya gətirmişlər. Eyni zamanda Azıx düşərgəsinin ulu sakinləri Quruçay dərəsində ovçuluq və yığıcılıqla məşğul olmuşlar. Quruçay vadisində ibtidai insanların yaşaması üçün zəruri olan bütün nemətlər mövcud olmuşdur.

Azıx düşərgəsinin VII-X təbəqələrindən tapılmış daş məmulatının özünəməxsus xüsusiyyətləri olması, digər paleolit abidələrindən belə alətlərin qeydə alınmaması və əmək alətlərinin texniki-tipoloji cəhətləri nəzərə alınıb, yeni aşkar olunmuş arxeoloji tapıntılara Quruçay mədəniyyəti adı verilmişdir. Aşağı təbəqələrin daş məmulatının elmi tədqiqi zamanı Quruçay mədəniyyətin bir inkişaf mərhələsi olması müəyyən edilmişdir. Aparılan elmi tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, mədəniyyətin ilkin mərhələsində əmək alətləri olduqca kobud və bəsid hazırlandığı halda, sonrakı inkişaf mərhələlərində isə onların hazırlanma texnikası təkmilləşmiş və yeni-yeni əmək alətləri hazırlanmağa başlanmışdır.

Son 50 ildə Azərbaycanın ən gözəl məskənlərindən biri Qarabağın Quruçay və Köndələnçay vadilərində və digər ərazilərində aparılan kompleks elmi tədqiqatlar zamanı arxeologiyanın ayrı-ayrı inkişaf dövrlərinə aid zəngin arxeoloji, paleontoloji və paleoantropoloji tapıntılar aşkar olunmuş və elmin son nailiyyətləri əsasında tədqiq edilmişdir. Məhz həmin elmi tapıntılar əsasında ibtidai insanın meydana gəlməsi, inkişaf etməsi və formalaşmasının ayrı-ayrı inkişaf mərhələlərini tədqiq etmək mümkün olmuşdur.

Şəkil 1. Qarabağ Tuğ çökəkliyi



Şəkil 2. Azıx düşərgəsinin giriş yolu



Şəkil 3. Azıx düşərgəsinin ümumi görünüşü. 1975-ci il



Şəkil 4. Azıx düşərgəsi. Stalaqnat dirək

Qarabağın dünya şöhrətli Azıx paleolit düşərgəsində aparılan kompleks arxeoloji tədqiqatlar zamanı daş dövrünün ayrı-ayrı inkişaf mərhələlərinə aid zəngin maddi mədəniyyət nümunələri tapılmışdır. Çoxtəbəqəli Azıx paleolit düşərgəsinin VII-X təbəqələrindən tapılmış daş məmulatının texniki-tipoloji tədqiqi zamanı bu vaxta qədər Qafqaz və Yaxın Şərqin paleolit abidələrindən qeydə alınmayan əmək alətləri tapılmışdır. Məhz VII-X təbəqələrindən tapılmış əmək alətlərinin özünəməxsus xüsusiyyətləri nəzərə alınaraq yeni tapıntılara quruçay arxeoloji mədəniyyəti adı verilmişdir. Aparılan kompleks elmi araşdırmalar zamanı quruçay arxeoloji mədəniyyətinin 2,5 milyon il bundan əvvəl başlayıb, 800 min il bundan qabaqlar qədim aşel mədəniyyəti ilə əvəz olunması elmi faktlarla sübuta yetirilmişdir.

2001-ci ildən başlayaraq Azərbaycanda paleolit problemləri üzrə aparılan elmi tədqiqat işləri beynəlxalq xarakter almışdır. Çünki ölkəmizin ərazisində qeydə alınmış paleolit düşərgələrində çöküntülər- arxeoloji təbəqələr tarixi ardıcıllıqla əmələ gəlmiş və arxeoloji dövrlərin biri digərini əvəz edir. Məhz bu da ibtidai insanların həyat tərzini, alət hazırlama texnikasını, alətlərin tipologiyasını, onların inkişaf xüsusiyyətlərini, daş dövrünün təbii coğrafi şəraitini, heyvanat aləmini və həmçinin ovçuluq təsərrüfatını tədqiq etmək üçün zəngin maddi mədəniyyət qalıqlarına malik olduqları üçün qeyd olunan problemlərin tədqiq edilməsinə zəmin yaratmışdır.

Məhz yuxarıda qeyd etdiklərimizə əsasən Azərbaycanın, Qafqaz və Avropa ölkələri ərazisində qeydə alınmış paleolit düşərgələrinin arxeoloji, paleontoloji və paleoantropoloji tapıntılarını arxeologiyanın son nailiyyət- ləri əsasında tədqiq etmək məqsədilə 2001-ci il iyulun 3-5-də Fransanın Totavel şəhərində keçirilən beynəlxalq elmi konfransda Azərbaycan, Fransa, İtaliya, İspaniya, Rusiya, Gürcüstan və Hollandiya alimlərinin birgə hazırladıqları İNTAS-2000 adlı elmi proqram qəbul olunmuşdur.



Şəkil 5. Azıx düşərgəsi.
Çöküntünün stratiqrafiyası



Şəkil 6. Azıx paleolit düşərgəsi
aşağı təbəqələrin
ümumi görünüşü (VI-X təbəqələr)

Şəkil 7. Əsədulla Cəfərov Avropa alimləri ilə birlikdə azıxantropun çənəsini tədqiq edirlər. Bakı, Tarix muzeyi 2002-ci il

Beynəlxalq INTAS-2000 proqramına uyğun olaraq son 50 ildə Azərbaycan, Fransa, İtaliya, İspaniya, Rusiya və Gürcüstan ərazilərində olan paleolit düşərgələrindən tapılmış maddi mədəniyyət qalıqları arxeologiya elminin müasir nailiyyətləri əsasında tədqiq olunmuş, paleolit dövründə yaşamış ibtidai insanların hazırladıqları əmək alətlərinin texniki-tipoloji xüsusiyyətləri, düşərgələrin xarakteri, stratiqrafiyası tədqiq olunmuş və neandertal tipli insanların inkişaf edib homo sapiens – yəni kamil insanlara çevrilməsinin elmi xüsusiyyətləri araşdırılmışdır. Eyni zamanda paleolit dövrü insanlarının həyat tərzi, mənəvi aləmi və ovçuluq təsərrüfatının əsas cəhətləri tədqiq olunmuşdur. Eyni zamanda Azərbaycan, Avropa və Qafqaz ərazilərində yaşamış neandertal tipli insanların oxşar və fərqli cəhətləri müəyyən olunmuş, Azərbaycanda yaşamış ibtidai insanların Avropada məskunlaşan ibtidai insanlarla əlaqələri və miqrasiya prosesləri tədqiq edilmişdir.

Beynəlxalq İNTAS-2000 proqramında Qarabağın dünya şöhrətli Azıx və Tağlar paleolit düşərgələrinin arxeoloji, paleontoloji və paleoantropoloji materialların tədqiq olunmasına xüsusi əhəmiyyət verilmişdir.

Beynəlxalq İNTAS-2000 proqramına uyğun olaraq Fransa, İtaliya, İspaniya, Rusiya, Gürcüstan və Hollandiya alimləri Ə.Q.Cəfərovun dəvəti əsasında 2002-ci il sentyabrın 7-dən oktyabrın 1-dək Bakıya gələrək Qarabağın Azıx və Tağlar paleolit düşərgələrinin maddi mədəniyyət qalıqları ilə tanış olmuşlar (şəkil 7).

Avropa alimlərindən Anri-dö Lümley, Mariya Antuanetta dö Lümley, D.Lordkipanidze, M.Nearadze, A.Vekua, V.Droniçev, L.Qolovanova, Ciakobini, Karbonelli və başqaları Azərbaycanda daş dövrü üzrə aparılan elmi tədqiqat işlərinə yüksək qiymət vermiş və respublikamızın paleolit abidələrindən tapılmış maddi mədəniyyət qalıqlarının ibtidai icma tarixinin ayır-ayrı inkişaf mərhələlərini tədqiq etməkdə mühüm elmi əhəmiyyətə malik olduğunu yekdilliklə qeyd etmişlər.

Aparılan elmi tədqiqatlar zamanı paleolit problemlərinə aid mühüm elmi yeniliklər əldə olunmuşdur.

Ə.Q.Cəfərovun 2001-2005-ci illərdə Avropa alimləri ilə birlikdə apardığı elmi tədqiqatlar çoxtəbəqəli Azıx paleolit düşərgəsində ibtidai insanların məskunlaşmağa başlamalarının tarixi 2,5 milyon ilə bərabər olması müəyyən olunmuşdur. Eyni zamanda Azıx paleolit düşərgəsinin VII-X təbəqələrinin arxeoloji tapıntıları əsasında qeydə alınmış Quruçay arxeoloji mədəniyyətinin Qafqaz və Yaxın Şərqdə ən qədim arxeoloji mədəniyyət olması müəyyən edilmişdir.

Aparılan beynəlxalq arxeoloji tədqiqatlar zamanı Tağlar paleolit düşərgəsindən tapılmış arxeoloji və paleontoloji materiallar mustye mədəniyyətinə aid ən qədim tapıntılar olması və neandertal tipli insanların inkişaf edib homo sapiens tipli kamil insanlara çevrilməsi elmi faktlarla sübuta yetirilmişdir. Eyni zamanda Azərbaycan ərazisində mustye mədəniyyətinin 120 il bundan əvvəl başlanması müəyyən edilmişdir.

Çoxtəbəqəli Tağlar paleolit düşərgəsi özünün maddi mədəniyyət qalıqlarına, stratiqrafiyasına və yaşayışın uzunmüddətli olmasına görə Qafqaz və Yaxın Şərq abidələri içərisində mühüm yer tutur. Tağlar düşərgəsindən tapılmış maddi mədəniyyət qalıqları əsasında düşərgə sakinlərinin əmək alətləri hazırlama texnikasını, tipologiyasını və yeni-yeni əmək alətlərinin meydana gəlmə xüsusiyyətlərini tədqiq etmək olar.



Şəkil 8. Azıx düşərgəsi. əmək alətləri. Quruçay mədəniyyəti. X təbəqə.



Şəkil 9. Azıx düşərgəsi. Əl çapacaqları. Qədim aşel mədəniyyəti. VI təbəqə



Şəkil 10. Azıx düşərgəsi. Əl çapacaqları. Orta aşel mədəniyyəti. V təbəqə



Şəkil 11. Azıxantropun alt çənəsi.



Şəkil 12. Qarabağ. Tağlar paleolit düşərgəsinin ümumi görünüşü

Çoxtəbəqəli Tağlar mustye düşərgəsində arxeoloji qazıntı işləri 2 mərhələdə aparılmışdır. Birinci mərhələ arxeoloji qazıntı işləri 1963-1967 və 1973-cü illərdə, ikinci mərhələ arxeoloji qazıntı işləri isə 1977-1982, 1984-1986-cı illərdə aparılmışdır. Düşərgədə birinci mərhələdə aparılan arxeoloji qazıntı işləri M.Hüseynov, 1973-cü ildə M.Hüseynov, Ə.Cəfərov, ikinci mərhələ arxeoloji qazıntı işləri isə Ə.Cəfərov tərəfindən 1977-1982, 1984 və 1986-cı illərdə aparılmışdır. Tağlarda aparılan arxeoloji qazıntılar nəticəsində mağaranın 72 m² sahəsi qazılıb tədqiq olunmuşdur (şəkil 12-13).

Tağlar düşərgəsində aparılan arxeoloji qazıntılar zamanı bir milyondan artıq sümük məmulatı aşkar olunmuşdur.

Çoxtəbəqəli Tağlar düşərgəsində aparılan qazıntılar zamanı 7 mindən artıq daş məmulatı tapılmışdır. Düşərgədə müəyyən edilmiş əmək alətləri içərisində əsas yeri levallua itiucluları, Mustye itiucluları, limas tipli alətlər, sadə bir ağızlı qaşovlar, konvergent qaşovlar təşkil edir.

Tağlar düşərgəsinin daş məmulatı içərisində yeni daş alətlər müəyyən olunmuşdur və həmin alətlərə Tağlar tipli əmək alətləri adı verilmişdir. Tağlar tipli əmək alətlərinin bir neçə işlək ağızları vardır. Maraqlıdır ki, Azıx paleolit düşərgəsinin III təbəqəsinin daş məmulatı içərisində də bir neçə ədəd Tağlar tipli əmək alətləri qeydə alınmışdır.

Tağlar düşərgəsində aparılan arxeoloji tədqiqatlar zamanı çoxlu ocaq layları aşkar olunmuşdur. Eyni zamanda sümük məmulatlarının əksəriyyəti ocaqda yandırılmışdır.

Yaxın Şərq və Qafqaz ərazisində Tağlar paleolit düşərgəsi yeganə abidədir ki, burada əmək alətlərinin uzunmüddətli inkişafını və yeni-yeni əmək alətlərinin meydana gəlmə xüsusiyyətlərini tədqiq etmək olur. Eyni zamanda Tağlar düşərgəsində aparılan tədqiqatlar respublikamızın ərazisində mustye mədəniyyətinin özünəməxsus xüsusiyyətləri olduğunu göstərir və bu dövrdə Tağlar arxeoloji mədəniyyətinin mövcud olmasını təsdiq edir.

Əgər Azıx paleolit düşərgəsində aparılan elmi tədqiqat işləri Azərbaycan ərazisində ibtidai insanların uzun müddət yaşadıqlarını göstərirdisə, Tağlar mustye düşərgəsindəki arxeoloji tədqiqatlar neandertal tipli adamların inkişaf edib müasir insanların ulu əcdadlarının bu ərazidə meydana çıxmasını sübuta yetirir.

Tağlar paleolit düşərgəsində aparılan kompleks arxeoloji tədqiqatlar respublikamızın ərazisində mustye mədəniyyətinin özünəməxsus cəhətləri olduğunu göstərməklə yanaşı bu



Şəkil 13. Tağlar düşərgəsi. Mustye mədəniyyəti. İtiuclular. IV (a) təbəqə

düşərgədə üst paleolit dövrünün ilkin inkişafını Azərbaycan ərazisində Tağlar düşərgəsinin ikinci təbəqəsindən başlandığını söyləməyə imkan vermişdir. Eyni zamanda, ikinci təbəqənin daş məmulatı əsasında mustye dövründən üst paleolit mədəniyyətinə keçidin xüsusiyyətlərini tədqiq edilir.

Qarabağ ərazisində aparılan arxeoloji tədqiqatlar zamanı qeydə alınmış Quruçay, aşel, mustye və üst paleolitə aid arxeoloji, paleontoloji və paleoantropoloji materialların ibtidai insanların meydana gəlməsi, formalaşması və inkişaf etməsi problemlərinin tədqiq olunmasında müstəsna elmi əhəmiyyəti vardır (şəkil 8-10). Həmin arxeoloji tapıntılar əsasında daş dövrünün ayrı-ayrı inkişaf mərhələlərini tədqiq etmək mümkün olmuşdur. Aparılmış kompleks elmi tədqiqatlar zamanı Azərbaycanın Qarabağ ərazisinin ən qədim sivilizasiya mərkəzlərindən biri olduğu elmi faktlarla sübuta yetirilmişdir. Qarabağın çox təbəqələri Azıx və Tağlar paleolit düşərgələri özünün stratiqrafiyası, arxeoloji, paleontoloji, paleoantropoloji tapıntılarına görə dünyanın ən zəngin qədim insan düşərgələri hesab olunurlar.

Yuxarıda qeyd olunan Qarabağın Azıx və Tağlar paleolit düşərgələrindən tapılmış zəngin arxeoloji materiallar bəşəriyyətin maddi və mənəvi sərvəti olub, ilk əmək alətlərinin hazırlanmasından, ilk ibtidai tikililərin yaranmasından, odun kəşf edilməsindən və ulu sakinlərin uzun təkamül inkişaf yolu keçib formalaşmasından xəbər verir. Lakin təəssüf ki, bu dövrün tarixini, maddi mədəniyyət qalıqlarının tarixini saxtalaşdırmağa cəhd edən bəzi üzdəniraq "müəlliflər" də vardır.

Azıx düşərgəsinin II ən böyük salonunda nəhəng stalaqnat dirək əhəngli suyun qarışığından təbii yolla təxminən 2-3 milyon il bundan əvvəl əmələ gəlmişdir (şəkil 4). Bütün təbii yolla əmələ gəlmiş karst mağaralarında belə dirəklərə və ayrı-ayrı stalaqnat daşlara rast gəlmək olur. Azıx düşərgəsinin ayrı-ayrı salonlarında belə dirəklər çoxdur. Arxeologiya və geologiyaya dair ədəbiyyatlarda mağaraların əmələ gəlmə xüsusiyyətləri şərh olunur və orada stalaqnat dirəklərin formalaşmasının təbii yolları ətraflı izah olunur. Lakin bəzi "alimlər", Azıx qədim insan düşərgəsində təbii yolla əmələ gələn stalaqnat dirəyin yanlış olaraq qadın heykəli olduğunu qeyd edirlər. Şaqen Mıkırtıçyan özünün "Dağlıq Qarabağın tarixi və memarlıq abidələri" adlı əsərində qeyd edir ki, guya Azıx mağarasında aşel dövrünə aid erməni qadınının heykəli var və onun hətta paltarı da müasir erməni qadınının paltarına bənzəyir (Yerevan, 1988). Bu heç bir elmi əsası olmayan cəfəngiyat fikir olmaqla bərabər tarixin əsassız olaraq saxtalaşdırılmasıdır. Belə bir fikir söyləməklə Şaqen Mıkırtıçyan erməni xalqının tarixini aşel dövründə axtarmağa can atır (700-450 min il bundan əvvəl). Lakin, həqiqətdə Azıx qədim insan düşərgəsində qadına bənzər heykəl yoxdur və bu dirək təbii yolla əmələ gəlmiş stalaqnat dirəkdən ibarətdir. İkinci isə aşel dövründə heç bir yerdə müasir insanın əcdadı yaşamamışdır. Bu dövrdə ancaq pitikantrop, sinantrop tipli ibtidai adamlar yaşamış, heç bir xalq və millət həmin dövrdə olmamışdır.

Maraqlıdır ki, yazıçı Sero Xanzadyan tarixi saxtalaşdırmaqda daha da irəli getmişdir. O.Ş.Mıkırtıçyanın kitabına rəy yazmışdır ("Avanqard" jurnalı, Yerevan, 1988, №5). Həmin rəyi S.Xanzadyan ikinci dəfə 1989-cu ilin aprelində Ermənistanda çıxan "Kommunist" qəzetində çap etdirmişdir. Rəydə deyilir ki, guya Azərbaycan alimlərinin Azıx mağarasında apardıqları tədqiqatlar göstərmişdir ki, düşərgənin II salonunda olan həqiqətən aşel dövründə yaşamış erməni qadınının geyiminə yaxındır. Lakin, Azərbaycan alimlərinin düşərgədə apardıqları arxeoloji tədqiqat işləri nəticəsində yazılmış əsərlərdə belə cəfəngiyat olmamışdır. Əgər onlar Azərbaycan alimlərinin əsərləri ilə tanış olsaydılar, bəlkə də belə yanlış və əsassız fikir söyləməzdilər. Çünki, Azərbaycan alimlərinin əsərlərində Azıx qədim insan düşərgəsinin maddi mədəniyyət qalıqlarının və o cümlədən mağaranın ikinci salonunda təbii yolla əmələ gələn stalaqnat dirəklər haqqında da məlumatlar vardır. Belə təbii dirəklər əhəngli suyun qarışığından əmələ gələrək, bütün

karst mağaralarında qeydə alınırlar. Bu cür elmi əsası olmayan yanlış məlumatları yazanlar dağların, qayaların, stalaqtit, stalaqmit və stalaqnat dirəklərin əmələgəlmə xüsusiyyətlərini ya bilmir və ya da bilərəkdən süni yolla tarixi saxtalaşdırmağa çalışırlar. Bu isə geniş xalq kütləsində əsl tarixi və təbii proseslərin qanunauyğun şəkildə formalaşma xüsusiyyətləri haqqında yanlış, elmi əsası olmayan fikirlərin əmələ gəlməsinə səbəb olur. Bu yolla tarixi saxtalaşdırmağa çalışanlar əvvəl-axır gülünc vəziyyətə düşmüş olurlar.

2003-cü ilin avqustunda ermənilərin www.arminfo.am/newsru, www.artsathtaet.com internet saytlarının bir neçəsində "Dağlıq Qarabağın Azıx mağarasında qazıntılar davam edir" sərlövhəli məlumatı verilmişdir. Həmin məlumat tamamilə saxta, cəfəng və elmdən uzaq fikirlərdən ibarətdir. Orada bildirilir ki, guya Azıx mağarasında paleontoloqlar qazıntı aparmışlar. Halbuki, arxeoloji düşərgələrdə yalnız arxeoloqlar qazıntı işləri aparır, paleontoloqlar isə yalnız qazıntı zamanı tapılmış heyvan sümüklərini tədqiq edirlər. Məlumatda 1968-ci ildə Məmmədəli Hüseynovun Azıx mağarasında tapdığı çənə sümüyünün yaşının 50-100 min il olduğu bildirilir. Bu da cəfəngiyatdır. Çünki, Azərbaycan alimləri onun 350-400 min il əvvəllərə aid olduğunu elmi əsaslarla sübuta yetirmiş və bu tarix beynəlxalq elmi konfranslarda öz təsdiqini çoxdan tapmışdır.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 2003-cü il 29 sentyabr tarixli Bəyanatına baxmayaraq 2002-2009-cu illərdə Azıx paleolit düşərgəsində Ermənistan hökumətinin dəstəyi ilə qanunsuz qazıntı işləri aparılmışdır və onun nəticələri 2009-cu ildə "İnsan təkamülü" jurnalında çap olunmuşdur (journal homepagi. www.elsvier.com/locate) jhevol. 2016-cı ildə "Azıx mağarası və Qafqaz dəhlizi" adlı məqalələr məcmuəsi çap olunmuşdur.

Bütün dünya alimlərinə məlumdur ki, Azıx paleolit düşərgəsində Azərbaycan alimlərinin rəhbərliyi altında kompleks arxeoloji tədqiqat işləri aparılmış və onların nəticələri dünyanın görkəmli alimləri tərəfindən yüksək qiymətləndirilmişdir (Hüseynov, 1985, Boriskovski, 1979, Lübin, 1998, Lümley, 1998, Cəfərov, 2004, 2008).

Azərbaycan alimlərinin Azıx paleolit düşərgəsində apardıqları uzunmüddətli arxeoloji qazıntılar nəticəsində oradakı mədəni təbəqələrin 80%-i tədqiq olunmuşdur. Ona görə də hazırda orada nəinki qazıntı, eyni zamanda kəşfiyyat işləri aparmaq bəşəriyyətə qarşı ən böyük cinayət kimi qiymətləndirilməlidir. Bəlkə 100 ildən sonra yeni elmi tədqiqat metodu meydana çıxa bilər, onda Azıx düşərgəsinin çöküntülərindən nümunə götürüb istifadə oluna bilər. Ona görə də hazırda orada qazıntı işləri aparmaq bəşər sivilizasiyasına qarşı ən böyük təxribat hesab olunmalıdır. İkincisi isə, Azıxda aparılan arxeoloji qazıntılar zamanı tapılmış 100 minlərlə maddi mədəniyyət qalıqları Bakıda saxlanılır və istənilən alim onlarla tanış ola bilər.

Erməni mafiyasına xidmət edənlər bu gün də nəinki Qarabağın, eyni zamanda Azıx paleolit düşərgəsinin də tarixini saxtalaşdırmaqda davam edirlər.

Zara Çıvorkyan 2006-cı il 18 aprel tarixli "Ermənistan yenilikləri" adlı jurnalda yazır ki, Ermənistan Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya institutunun arxeoloji ekspedisiyası 3 ildir ki, Qarabağın Arsax ərazisində arxeoloji tədqiqat işləri aparır. O, aparılan arxeoloji tədqiqatlar zamanı Qarabağın Şuşa, Ağdərə və digər ərazilərindən "erməni mədəniyyəti"nə aid abidələrin tapıldığını iddia edir. Zara Çıvorkyan eyni zamanda bildirir ki, guya Böyük Britaniya, İspaniya və digər ölkələrin "mütəxəssislər"i Azıx mağarasında arxeoloji qazıntılar zamanı yaşı 40 min ilə bərabər olan qədim insan çənəsi tapmışlar. Tamamilə yalan və əsassız bir məlumat və tarixin yenidən saxtalaşdırılması. 1968-ci ildə Azıx paleolit düşərgəsindən tapılmış qədim insana məxsus olan çənənin yaşı 400 min ilə bərabər olub, 30-35 yaşlı qadına məxsusdur.

2000-ci ildə Samvel Karapetyanın "Qarabağın dağlıq ərazisində erməni mədəniyyətinə aid abidələr" adlı kitabı Erevanda çap olunmuşdur. Ancaq kitabın adının əksinə olaraq Qarabağ ərazisində kənar Azərbaycan rayonlarının arxeoloji, memarlıq və digər abidələri kitabda çap olunmuş və tamamilə saxta məlumatlar verilmişdir. Ermənilərə aid olmayan abidələrin, guya onlara məxsus olması haqqında saxta fikirlər söylənilir.

2001-ci idə Amerika Birləşmiş Ştatları Kolumbiya Universitetinin Erməni mərkəzi tərəfindən professor Robert Hauzenin "Ermənistanın tarixi atlası" adlı 1139 səhifəlik kitabı çap olunmuşdur. Kitaba həmçinin 279 saxta xəritə əlavə olunmuşdur (Hauzen, 2001).

Kitab tamamilə Azərbaycan tarixinin saxtalaşdırılmasına həsr olunmuş və hətta 1958 və 1964-cü illərdə çap olunmuş üç cildlik Azərbaycan tarixi erməni tarixi kimi şərh olunmuşdur. Bununla yanaşı, qonşu İran və Türkiyənin də müəyyən əraziləri "tarixi Ermənistan" ərazisi olması iddia olunmuşdur. Həmçinin Qafqazın və Azərbaycanın ibtidai icma düşərgələrinin tarixi saxtalaşdıraraq qeyd olunur ki, SSRİ ərazisində Satanidar və Arzni ən qədim insan məskənləridir. Bu tamamilə yanlış və saxta bir xülyadır. Çünki keçmiş SSRİ-nin görkəmli paleolitşünas alimləri P.İ.Boriskovski, V.P.Lübun, İ.İ.Korobkov və başqaları Satanidar və Arznidən tapılmış daş məmulatını tədqiq edərək qeyd etmişlər ki, bu düşərgənin maddi mədəniyyət qalıqlarını orta aşel mədəniyyətinə aid etmək olar. Onların elmi tədqiqatlarına görə keçmiş SSRİ və Qafqaz ərazisində ən qədim paleolit düşərgəsi çoxtəbəqəli Azıx paleolit düşərgəsidir (Lübin, 1984, 1988, 2006).

Kitabda həmçinin Qafqaz Albaniyasına məxsus olan məbədlər və tarixi abidələrin ermənilərə məxsus olması iddia olunur (Hauzen, 2001).

Ümumiyyətlə, Robert Hauzenin tərtib etdiyi "Ermənistanın tarixi atlası" tamamilə saxta məlumatlardan ibarət olub, nəinki Azərbaycanın tarixini, eyni zamanda Qafqazın, İranın və Türkiyənin tarixini saxtalaşdırmağa yönəlmişdir.

Hazırda Qarabağ silsiləsinin cənub-şərq ətəklərində yuxarıda qeyd etdiyimiz paleolit düşərgələri ilə yanaşı neolit, eneolit və tunc dövrlərinin Qaraköpəktəpə, Günəştəpə, Meynətəpə, Tuğtəpə, Kültəpə kimi bir sıra nadir və çoxtəbəqəli yaşayış düşərgələri aşkar olunmuşdur. Bu bir daha göstərir ki, hələ ən qədim zamanlardan bu vaxta kimi qeyd olunan ərazidə insanların yaşaması üçün əlverişli təbii coğrafi şərait olmuşdur.

Son 50 ildə Azərbaycan alimlərinin Qarabağ ərazisində arxeoloji, etnoqrafik, epiqrafik, paleocoğrafi, paleoantoloji və paleoantropoloji elmi tədqiqatlar ən qədim zamanlardan – yəni Quruçay mədəniyyətindən başlamış Azərbaycan xalqının bu torpaqlarda yaşadığını, zəngin maddi və mənəvi mədəniyyət yaratdığını elmi əsaslarla sübuta yetirmiş və tarixi saxtalaşdırmağa cəhd edən erməni alimlərinin iddialarının tamamilə əsassız olduğunu göstərir.

Qarabağ ərazisində müəyyən olunmuş Quruçay, Aşel, Mustye, Üst paleolit, Mezolit, Neolit və Tunc dövrünün arxeoloji mədəniyyətləri bu diyarın qədim sivilizasiya mərkəzlərindən biri olduğunu söyləməyə əsas vermişdir. Ərazidən qeydə alınmış arxeoloji mədəniyyətlərdə varislik ənənələrinin olması müəyyən edilmişdir.

Ədəbiyyat:

1. Azərbaycan arxeologiyası. Daş dövrü. I cild. Bakı, 2008.
2. Ə.Q.Cəfərov. İnsanlığın səhəri. Bakı: Azərnəşr, 1994.
3. Ə.Q.Cəfərov. Qarabağın paleolit düşərgələri. Azərbaycan Arxeologiyası və Etnoqrafiyası jurnalı. Bakı, 2003, №2.
4. Ə.Q.Cəfərov. Azərbaycanın ilk sakinləri. Bakı: Elm, 2004.
5. Ə.Q.Cəfərov, C.S.İsmayılov. Qafqazın üst paleolit düzərgələri. Azərbaycan Arxeologiyası və Etnoqrafiyası jurnalı. Bakı, 2005, №1.
6. Ə.Q.Cəfərov. Qarabağın paleolit düşərgələri. Bakı, 2017.
7. M.M.Hüseynov, Ə.Q.Cəfərov. Paleolit arxeoloji ekspedisiyasının 1987-ci il hesabatı.
8. M.M.Mənsurov. Azərbaycanın üst paleolit dövrü problemlərinə dair. Arxeologiya və Etnoqrafiya institutunun 10 illiyinə həsr olunmuş elmi konfransın materialları. Bakı, 2003.
9. M.M.Hüseynov. Azərbaycan arxeologiyası. Bakı, 1975

Açar sözlər: *Azıx, Quruçay, Aşel əmək alətləri, paleolit, Qarabağ*

Asadulla Jafarov
Institute of Archeology and Ethnography
of Azerbaijan National Academy of Sciences,
Head of the "Stone Age Department",
PhD in Historical Sciences, Professor

KARABAKH AND ATTEMPTS OF FALSIFICATION OF ITS HISTORY

SUMMARY

The cases of falsification of the history of "Armenization" of the material cultural heritage of the Azerbaijani people-monuments of architecture, religion, examples of non-material culture patterns have a long history, dating back to the end of the 9th century.

This company is an integral part of the policy of Armenian nationalists and extremists on the annexation of Azerbaijani lands. In the same vein, it is necessary to consider the actions of the Armenian authorities in the occupied territory of Azerbaijan-in Karabakh, including the demolition of some monuments and the armenization of others under the guise of "scientific research".

Key words: *Azykh Cave, Guruchay, Acheulean Labor Instruments, Paleolit, Karabakh*

Асадулла Джафаров
Заведующий отделом "Каменный век"
Института Археологии и Этнографии
Национальной Академии Наук Азербайджана,
доктор исторических наук, профессор

КАРАБАХ И ПОПЫТКИ ФАЛЬСИФИКАЦИИ ЕГО ИСТОРИИ

РЕЗЮМЕ

Случаи фальсификации истории "арменизации" материального культурного наследия азербайджанского народа - памятников зодчества, религии, образцов нематериальной культуры имеют давнюю историю, восходя к концу XIX века. Эта компания представляет собой составную часть политики армянских националистов и экстремистов по аннексии азербайджанских земель. В этом русле необходимо рассматривать действия властей Армении на оккупированной территории Азербайджана - в Карабахе, в том числе снос одних исторических памятников и арменизацию других под видом «научных исследований».

Ключевые слова: *Азых, Гуручай, ашельские орудия труда, палеолит, Карабах*

BEYNƏLXALQ MÜNASİBƏTLƏR
INTERNATIONAL RELATIONS

RÖVŞƏN MƏMMƏDOV
filologiya elmləri doktoru

CƏNUBİ QAFQAZ REGİONU: ERMƏNİ TERRORUNUN DOĞURDUĞU REAL TƏHDİDLƏR VƏ TARİXİ HƏQİQƏTLƏR

Qlobal güclərin maraqla rının toqquşduğu Cənubi Qafqaz regionu zaman – zaman çoxsaylı qarşıdurmaların, siyasi və hərbi çəkişmələrin bir çox halda episentri kimi tanınıb. Əsrlərdir davam edən bu tendensiya yalnız tarixin müəyyən dönəmlərində, xüsusən də Sovet İttifaqının mövcud olduğu və regiona nəzarəti bilavasitə öz əlində saxladığı vaxtlarda nisbətən passiv fazaya keçsə də, bu bölgə daim diqqət mərkəzində olub. İttifaqın dağılması ilə beynəlxalq arenada qlobal güclərin balansı da pozuldu ki, belə olan halda yaşanan hadisələrin Cənubi Qafqaz regionuna təsiri qaçılmaz idi. Müasir dövrümüzdə isə durum olduqca həssasdır və status-kvo hər an dəyişə, artıq 30 ilə yaxındır ki, həllini gözləyən Dağlıq Qarabağ münaqişəsi kimi yeni müharibə ocaqları yarana, bölgə sözün əsil mənasında hərbi poliqona çevrilə bilər. Ən acınacaqlı isə odur ki, belə bir vəziyyətin yaranmasında maraqlı olan tərəflər, konkret dairələr var. Özü də bu dairələrin kim olduğunu, Qafqaz ssenarisinin kim və ya kimlər tərəfindən hazırlandığını aydınlaşdırmaq üçün yalnız yaxın və uzaq coğrafiyaya, yaxud okeanın o tayına nəzər salmağa ehtiyac yoxdur. Cənubi Qafqaz regionunda istər XIX, istərsə də XX əsrdə yaşananları, baş vermiş proseslərin obyektiv səbəbələrini araşdırmaqla toqquşmalara, siyasi, hərbi qarşıdurmalara maraqlı tərəfin, yaxud tərəflərin də məhz, bu coğrafiyada olduğunu əminliklə söyləmək olar. Düzdür, tarixin müəyyən gedişatlarında ssenari müəllifləri dəyişir, lakin icraçı və ya vasitəçi dəyişməz olaraq qalır. Söhbət, yarandığı ilk gündən öz siyasətini terror, təhdid, soyqırımlar və ərazi iddiaları üzərində quran, eyni zamanda beynəlxalq münasibətlər sisteminə dilənçilik diplomatiyası gətirən Ermənistandan gedir. Heç də təsadüfi deyil ki, bu köçəri tayfanın qeyd olunan keyfiyyətləri, başqa sözlə, erməni psixologiyası, onilliklər ərzində formalaşan hay xisləti konkret qüvvələrə, başqa sözlə, sifarişçilərə çox yaxşı məlumdur. Məlum olduğu üçün də ermənilər məhz, bu coğrafiyaya – Cənubi Qafqaza köçürülüb.

Böyük köç...

Cənubi Qafqaz regionuna tarixi bağlılığı olmayan və yalnız böyük güclərin yürütdüyü siyasətin nəticəsi olaraq regiona bir çox halda könüllü, həmçinin, zorla köçürülən yeganə toplum ermənilərdir.

Cənubi Qafqaz regionunu tarixən mürəkkəb və ziddiyyətli edən əsas faktor bir qədər öncə də qeyd etdiyimiz kimi, bu regionun vaxtilə uzun müddət Rusiya, Türkiyə və İran imperiyalarının əhatəsində yerləşməsi olub. İmperalizmin isə yalnız bir marağı var – kolonial siyasət, yeni və daha məhsuldar torpaqların, yaxud həmin ərazilərdə mövcud enerji mənbələrinin ələ keçirilməsi, daxili qarşıdurmalar yaratmaqla azsaylı xalqları zəiflətmək və özündən asılı vəziyyətə salmaq prinsipi. Bir sözlə, parçala hökm et. Bu mənada biz daha çox Rusiyanın bu istiqamətdə "aktiv" fəaliyyətinin, zaman - zaman reallaşdırdığı deportasiya və regionda separtizm meyllərinin qızışdırılması siyasətinin şahidi oluruq. Məhz, ermənilərin Cənubi Qafqazda və daha çox xüsusilə, tarixi Azərbaycan ərazilərində yerləşdirilməsi də bir növ qeyd etdiyimiz siyasətin tərkib hissəsidir. Bu mövzuya yenidən qayıdacağıq. Hələliksə, böyük köç siyasətinin tarixinə qısaca nəzər salaq. Araşdırmalar göstərir ki, proses öz başlanğıcını XVIII əsrin 20-ci illərindən götürüb. Hələ 1724-cü ildə Səfəvilər dövlətinin zəifləməsindən istifadə edən I Pyotr erməni-

lərin Dərbənd, Bakı, Gilan, Mazandaran və Gürgan ərazilərinə, ümumiyyətlə Xəzər dənizinin Azərbaycan hissəsinə köçürülməsi haqqında fərman imzalayır. Məqsəd:

1. Regionun etnik tərkibini dəyişmək, bununla da növbəti yüz illər ərzində Cənubi Qafqazda məhz Rusiyanın maraqlarına xidmət edəcək bir xalq, gələcəkdə isə bir dövlət formalaşdırmaqdır;

2. Tarixin müxtəlif dövrlərində ermənilərin məskunlaşdığı əraziləri faktiki olaraq öz ərazisi hesab edən Çar Rusiyası bununla da Cənubi Qafqazdan İran körfəzinə kimi geniş coğrafiyanı nəzarət altında saxlamaq, daha dəqiq desək işğal etmək niyyəti güdürdü;

3. Erməni toplumu Rusiya üçün hətta həmin illərdə belə imperiya maraqları naminə istənilən çirkin niyyəti həyata keçirmək, başqa sözlə, daxili toqquşmalar, konfliktlər, terror hadisələri reallaşdırmaq üçün hər an istifadəsi mümkün olan "beşinci kolon" rolunu oynacaqdı və s.

Odur ki, I Pyotrun hələ XVIII əsrdə müəyyən etdiyi bu strateji vəzifə, yaxud öz təbəələrinə ünvanladığı məktublarda dediyi fikirlər və miras qoyduğu vəsiyyətnamələr Çar Rusiyası, daha sonra isə Sovet İttifaqı (etiraf edək ki, həm də müasir Rusiya – R.M.) üçün bir növ strateji fəaliyyət proqramı, həlli vacib vəzifə sayılırdı. Məsələn, 1723-cü ilin iyul ayında I Pyotrun Bakı xanlığını işğal edən general – mayor Matyuşkinə "Müsəlmanları ruslar tərəfindən zəbt edilmiş Azərbaycan torpaqlarından köçürüb əvəzində orada rusları, ermənileri, yaxud digər xristian xalqlarından olan adamları yerləşdirin" məzmunda tapşırığı faktiki olaraq həmin vəsiyyətnamələrin də ana xəttini təşkil edirdi.

Bu siyasət sonrakı illərdə də davam etdirildi. Belə ki, 1802-ci ildə çar I Aleksandr general Sisyanova yazdığı məktubda ermənilərə münasibətini bu cür ifadə etmişdi: "Nə olursa-olsun, ermənilər Azərbaycanın bu və ya digər xanlıqlarında məskunlaşdırılmalı və onlardan istifadə olunmalıdır". Yaxud 1828-ci il martın 21-də çar I Nikolayın əmri ilə Naxçıvan və İrəvan xanlıqlarının inzibatı ərazisində müvəqqəti "erməni vilayəti" yaradıldı. Elə həmin ildə İranın Marağa şəhərindən 40 min erməni Dağlıq Qarabağa, 40 min erməni isə İrəvan xanlığının ərazisinə köçürüldü. 1829-cu ildə imzalanan Ədirnə sülh müqaviləsindən sonra isə daha 90 min ermə-niyə Azərbaycanda sığınacaq verilir. Heç şübhəsiz ki, köç prosesinin özü də düşünülmüş ssenari əsasında həyata keçirilir, bu zaman azərbaycanlıların daha sıx yaşadığı və məhsuldar ərazilər, konkret olaraq Qarabağ, Naxçıvan və İrəvan xanlıqları hədəf seçilirdi. Həmin dövrü dəqiq araşdıran amerikalı alim Castin Makkartinin sözlərinə görə, yalnız 1828 – 1920-ci illər arasında Azərbaycana 560 min erməni köçürülüb.

Proses XX əsrdə də davam etdirilib. Təkcə 1904-1905-ci illərdə qonşu ölkələrdən 45 min erməni məhz Cənubi Qafqaza gəti¬ri¬lə¬rək məskunlaşdırıldı. Nəticədə, əgər 1832-ci ildə azərbaycanlılar Qarabağ əhalisinin 64,8 %, ermənilər isə 34,8% təşkil edirdisə, XIX əsrin 80-ci illərində Şuşa qəzasında əhalinin milli tərkibində azərbaycanlılar 41,5%, ermənilər isə 58,2% oldu. Rusiyada əhalinin 1897-ci il siyahıya alınmasına görə isə bu rəqəmlər 45 və 53%, 1917-ci ildə 40,2 və 52,3% olmuşdu. Sonrakı illərdə, xüsusən Şərqdə türk və müsəlman aləminin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin 1920-ci il, aprelin 28-də qırmızı ordu tərəfindən işğalından sonra proses daha sürətlə davam etdirildi. Bunu aşağıdakı qrafik göstəricidə daha aydın şəkildə görmək mümkündür.

Xalq	1926	1959	1970	1979
azərbaycanlı	10.1%	13.8%	18.1%	23%
erməni	89.1%	84.4%	80.5%	75.9%

Qısa haşiyə: *1926-cı ildən sonra azərbaycanlıların sayında müşahidə olunan artım faizi isə indiki Ermənistandan, yəni tarixi Azərbaycan torpaqlarından etnik təmizləmə və deportasiyaya (1948-1952) məruz qalan soydaşlarmızın bir qisminin Dağlıq Qarabağa pənah gətirməsi, eyni zamanda demoqrafik üstünlüklərlə bağlıdır.*

Sonralar, 1978-ci ildə ermənilər köçürülmənin 150 illiyi ilə əlaqədar Tərtər rayonunun Şıxarx kəndində abidə də ucaltdılar. Düzdür, həmin abidə bir neçə ildən sonra elə ermənilərin özləri tərəfindən izi itirmək, gəlmə olduqları faktını inkar etmək üçün dağıdılsa

da, Azərbaycan hökuməti tikilinin bərpasını həyata keçirdi və həmin abidə, eləcə də onun qalıqları tarixi sübut kimi adıçəkilən ərazidə bu gün də saxlanılır.

Bu yerdə xüsusi olaraq qeyd edilməlidir ki, böyük köç prosesində ermənilərin, yaxud onların havadarlarının hədəfi yalnız Qarabağla məhdudlaşmır. Rusiya çarı I Nikolayın xeyir duasını alan haylar Naxçıvan ərazilərinə də ayaq basırlar. Yalnız 1828-1831-ci illər arasında Naxçıvan vilayəti və Ordubad dairəsinə İrandan 2387 ailə, yaxud 11 992 nəfər (6339 kişi, 5653 qadın), Türkiyədən 8 ailə, yaxud 27 nəfər (17 kişi, 10 qadın) köçürülür ki, bununla da Rusiyanın Cənubi Qafqaza yiyələnmək siyasətinin birinci və əsas mərhələsi demək olar ki, başa çatmış sayılır.

Soyqırımı siyasəti...

Cənubi Qafqaz regionunda digər xalqlara qarşı kütləvi soyqırımlarını reallaşdıran və yarandığı gündən müasir dövrümüzə qədər bu siyasəti həyata keçirən ilk və yeganə ölkə Ermənistandır.

Aparılan araşdırmalar onu söyləməyə əsas verir ki, Cənubi Qafqazda həyata keçirilən, xüsusən də XX əsrin əvvəllərini və ortalarını əhatə edən soyqırımı hadisələri məhz, ermənilərin bu regionda tam məskunlaşmasından və artıq bir qüvvə kimi formalaşmasından sonraya təsadüf edir. Rellaşdırılan soyqırımlarının səbəblərini isə əsasən iki istiqamət üzrə qruplaşdırmaq olar:

1. Yerli əhalisi əsasən müsəlmanlar, konkret olaraq azərbaycanlılar olan xalqı məhv etmək və onları digər ərazilərə, xüsusən də Cənubi Qafqazın şərqinə sıxışdırmaq və yeni torpaqlar ələ keçirmək niyyəti;
2. Rusiyanın himayəsi və xeyir duası ilə Cənubi Qafqaza köçürülən ermənilərin göstərilən yaxşılığın əvəzində öz sahiblərinə nə dərəcədə sədaqətli olması faktoru.

Bu yerdə ikinci amil üzərində xüsusi ilə dayanaq. Çünki həmin illər yalnız Cənubi Qafqazda deyil, Osmanlı dövləti ərazisində də sayı məqsədyönlü şəkildə artırılan ermənilər xüsusən XX əsrin əvvəllərində və konkret olaraq Çar Rusiyasının Qafqaz Ordusu Qərargah Komandanlığından çoxsaylı məktublar, müraciətlər alır, haylar təkcə Azərbaycan deyil, bütünlükdə türk xalqına, yaxud Türkiyəyə qarşı mübarizəyə çağırılırdı. Osmanlı ermənilərinə ünvanlanan həmin məktublardan birinin mətninə nəzər salaq:"Ermənilər! Siz uzun müddət dözülməz türk boyunduruğu altında əziyyətlər çəkdiniz; ancaq Tanrının da yardımı ilə qəhrəman rus ordularının zəfər yürüşü, indi sizə əsrlik boyunduruqdan azadlıq gətirəcək.

Yer üzünün həşəmətli lideri Rusiya, erməni xalqına altı erməni vilayəti sərhədləri ilə onun ayrılmaz bir parçası olan Kilikiyanı (Çukurovanı) da içinə alan və Böyük Rusiyanın güclü himayəsi altında Muxtar Ermənistanı qurmağa zəmanət verir"(3, s. 103).

İmperiya bu və buna bənzər yüzlərlə məktub və müraciətlərdə ermənilərə onların Cənubi Qazqazda, həmçinin, Osmanlı ərazisində yaradacağı qarşıdurma, terror və soyqırımları müqabilində muxtariyyət təklif edir və ən əsası həmin muxtariyyət Rusiyanın ərazisi olmayan İrəvan, Qars, Ərzurum, Van, Bitlis, Diyarbəkir, Xarput, Sivas kimi bölgələrdə yaradılmalı idi. Təbii ki, yürüdülən siyasətin məqsədi həm də Osmanlı imperatorluğunu parçalamaq və həmin əraziləri Antanta dövlətləri arasında bölüşdürmək idi. Başqa sözlə, bu illər ərzində ermənilər hətta birinci dünya müharibəsindən qalib ayrılan Antanta dövlətərinin hərtərəfli dəstəyini qazanır, qarşıdurmalara, toqquş-

malara, soyqırımlarına həvəsləndirilir, əvəzində isə onlara Anadolunun şərq hissəsi olan əyalətlərin hədiyyə veriləcəyi vəd olunurdu. Göründüyü kimi, tarixin müxtəlif dönəmlərində ssenari müəllifləri dəyişsə də icraçı dəyişmir. Beləliklə, hay tayfasının psixologiyasını kifayət qədər gözəl bilən və bu tayfanın torpaq iddiasını reallaşdırmaq üçün hər şeyə hazır olduğuna əmin olan imperialist ölkələr məhz bu amili əsas götürərək istər birinci dünya müharibəsi illərində, istərsə də ondan sonrakı dövrlərdə erməni faktorundan öz maraqları naminə yetərincə yararlanıb: həm yeni ərazilərin ələ keçirilməsində, həm də bu ərazilərdə yaşayan xalqlara qarşı soyqırımların təşkilində...

Türk və müsəlman əhalisinin regionda artması, xüsusən də Cənubi Qafqazda müsəlmanların xristianlardan, o cümlədən ermənilərdən çox olması faktı Rusiyanı əlbəttə ki, narahat etməyə bilməzdi. Məhz, bu üzdən müsəlmanların demoqrafik artımının qarşısını almaq və "balans" yaratmaq məqsədilə həyata keçirilən ssenarilərdən biri də soyqırımı siyasəti idi. Odur ki, yeni ssenari cızıldı və müəllif bu dəfə də öz "əsərində" baş rolu hər zaman olduğu kimi yenə ermənilərə həvalə etdi. Səbəb:

1. Ermənilərin soyqırımları reallaşdırmaq üçün kifayət qədər təcrübəli və imperiyanın silahlandırdığı, xüsusi təlim keçdiyi erməni əsgərlərdən ibarət terror təşkilatlarına sahib olması (1915-ci ildə Cənubi Qafqazda gürcülərin və azərbaycanlıların heç bir milli hərbi hissələri olmadığı halda, ermənilərdən ibarət 9 drujina yaradılmışdı);
2. Ermənilərdə əsrlər boyu türk və müsəlman əhalisinə qarşı formalaşan dini və milli nifrət amili;
3. Öz havadarları qarşısında borc amili.

Araşdırmalar və tarixi sənədlər göstərir ki, ermənilər istər qonşu ölkələrin ərazilərini ilhaq edərkən, istərsə də soyqırımı siyasətində XIX əsrin 80-ci illərindən başlayaraq yaratdıqları 10-dan çox terror təşkilarından istifadə edib. Bu təşkilatları isə aşağıdakı kimi sistemləşdirmək olar:

ERMƏNİ TERROR TƏŞKİLATLARI		
№	**Təşkilatın adı**	**Məqsədi**
1.	***"Armenakan" partiyası***	1885-ci ildə yaradılıb. Türkiyənin Van, Muş, Bitlis,Trabzon bölqələrində və İstanbulda silahlı toqquşmalar və terror aktları törədən bu partiya İran və Rusiyada yaşayan ermənilərlə əməkdaşlıqda olub.
2.	***"Hnçak" partiyası***	1887-ci ildə Cenevrədə yaradılıb. Qurumun əsas məqsədi Türkiyənin Anadolu bölgəsini, "Rus" və "İran" Ermənistanları adlandırdıqları əraziləri birləşdirməklə "Böyük Ermənistan" dövləti yaratmaqdır. Partiyanın proqramının 4-cü bəndində göstərilir; "Qarşıya qoyulmuş məqsədə çatmaq üçün təbliğat, təşviqat, terrorizm və dağıdıcı təşkilat yaradılması metodu seçilməlidir".
3.	***"Daşnaksütyun" -erməni ederative inqilab partiyası***	1890-cı ildə Tiflisdə yaradılıb. Əsas qayəsi Azərbaycanın Dağlıq Qarabağ, Naxçıvan və Türkiyənin Anadolu torpaqlarında "Böyük Ermənistan" dövləti qurmaqdır. 1892-ci ildə Tiflisdə ilk qurultayını keçirən "Daşnaksütyun" türklərə qarşı sui-qəsdlərin təşkil olunması barədə qərar çıxarmışdır. Məhz bu qurultaydan sonra "Daşnaksütyun" "türkü, kürdü hər yerdə, hər bir şəraitdə öldür, sözündən dönənləri, erməni xainlərini öldür, intiqam al!" əmrini vermişdir.
4.	***"Erməni gizli azadlıq ordusu" (ASOA)***	1975-ci ildə Beyrutda yaradılıb. Mənzil-qərargahı Dəməşqdə yerləşir. Fələstin bazalarında hazırlıq keçən mindən artıq döyüşçüsü vardır. Təşkilat fəaliyyətinin ilk 6 ilində dünyanın müxtəlif ölkəsində 19 türk diplomatının ölümünə səbəb olan terror aktları keçirib.

ERMƏNİ TERROR TƏŞKİLATLARI		
№	**Təşkilatın adı**	**Məqsədi**
5.	***"Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu" (ASALA)***	1975-ci ildə yaradılan təşkilatın qərargahı Beyrutda, təlim-məşq bazaları isə Suriyada yerləşir. Təşkilatın məqsədi Şərqi Türkiyə, Şimali İran və Azərbaycanın Naxçıvan və Dağlıq Qarabağ əraziləri üzərində "Böyük Ermənistan" qurmaqdır. ASALA əsasən Türkiyə və Azərbaycan vətəndaşlarına qarşı terror aktları həyata keçirir. Təşkilatın "Əbu Nidal", "Qara sentyabr" kimi terror qrupları ilə əməkdaşlıq etməsində əsas fiqurlardan biri ASALA-nın lideri Akop Akopyan olmuşdur. Afinada 1980-ci ildə qətlə yetirilmiş türk səfirinin ölümünə görə məsuliyyəti öz üzərinə götürmüş A.Akopyan 01.08.80-ci ildə "Nyu-York Tayms" qəzetinə verdiyi müsahibədə bildirmişdir: "Bizim düşmənimiz türk rejimi, NATO və bizlə əməkdaşlıq etməyən ermənilərdir".
6.	***"Geqaron"***	2001-ci ilin fevralında ASALA tərəfindən yaradılmışdır. Məqsəd-Cənubi Qafqaz və Orta Asiya ərazilərində türk mənşəli siyasi lider, diplomat və biznesmenlərə qarşı terror aktlarının keçirilməsidir.
7.	***"Erməni azadlıq hərəkatı" (AOD)***	1991-ci ildə Fransada yaradılıb. Terror fəaliyyətini ASALA ilə sıx əlaqədə həyata keçirir.
8.	***"Erməni azadlıq cəbhəsi"***	1979-cu ildə yaradılan bu terrror təşkilatı ASALA-nın tərkib hissəsi sayılır. Türkiyə və Azərbaycan əleyhinə terrorçular hazırlayır.
9.	***"Orli qrupu"***	1981-ci ildə Fransada yaşayan erməni gəncləri tərəfindən yaradılıb. Təşkilat 1987-ci ilədək dünyanın müxtəlif hava limanlarında 10-dan artıq terror aktı həyata keçirib.
10.	***"Erməni soyqırım ədalət komandosları"***	1972-ci ildə Vyanada "Daşnaksütyun" partiyasının qurultayı zamanı yaradılıb. "Erməni soyqırımı ədalət komandosları"nın məqsədi erməni əsilli gənc Livan vətəndaşlarını hərbi birləşmələrdə cəmləşdirmək, türklər və azərbaycanlılara qarşı qanlı terror aksiyaları təşkil etməkdir.
11.	***"Erməni birliyi"***	1988-ci ildə Moskvada yaradılmışdır. "ASALA" ilə sıx əlaqələri vardır, keçmiş sovet məkanında terrorçuların fəaliyyəti üçün onları saxta sənədlərlə təmin edir. Dağlıq Qarabağa silah və muzdluların ötürülməsində iştirak edir.
12.	***"Demokratik cəbhə"***	ABŞ, Kanada və Qərbi Avropada fəaliyyət göstərir. Başlıca məqsədi türk dövlətinin parçalanmasıdır.
13.	***"Apostol"***	2001-ci il aprel ayının 29-da əsasən Ermənistan, Suriya və Livan vətəndaşlarından ibarət olan Ermənistan Müdafiə Birliyi tərəfindən yaradılmışdır. Təşkilatın məqsədi Türkiyə və Azərbaycan ərazilərində terror aktları həyata keçirməkdir.

Mənbə: az.wikipedia.org

Tarixi faktlar sübut edir ki, həmin terror təşkilatlarından daha çox əziyyət çəkən məhz, azərbaycanlılar olub. Yalnız bir fakt, 1918-ci il 30 mart-3 aprel tarixləri arasında Bakı ilə yanaşı, Quba, Xaçmaz, Lənkəran, Şamaxı, Göyçay, Hacıqabul, Səlyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə məhz, daşnakların və konkret olaraq "Daşnaksütyun" partiyasının həyata keçirdiyi soyqırımlar nəticəsində 12 minə yaxın azərbaycanlı qətlə yetirilib, on minlərlə insan itkin düşüb. Maraqlıdır ki, qeyd olunan tarixi dönəmdə ermənilərin azərbaycanlılara və digər müsəlman xalqlarına qarşı yürütdüyü soyqırımı siyasətini, vəhşiliyi, amansızlığı ermənilərin özləri də açıq şəkildə etiraf edirdilər. Məsələn, erməni ictimai-siyasi xadim Aleksandr Myasnikyanın 1921-ci ildə yazdıqlarından: "Milli siyasət müstəvisində daşnakların yeganə məqsədi Ermənistanı başqa millətlərdən təmizləmək idi. Onlar deyirdilər: - Nifrət etdiyiniz türkləri, insana bənzəməyən tatarları qızın, od vurub kəndləri yandırın, var yoxunu çapıb-talayın, əllərindən alın, Ermənistanı başqa millətlərdən təmizləyin". (1, s. 334)

Ərazi iddiaları...

Cənubi Qafqaz regionunda sərhəd ölkələrə qarşı ərazi iddiası ilə çıxış edən yeganə dövlət Ermənistandır.

Ermənilər Cənubi Qafqaz regionunda ərazi iddialarını qondarma tarixi materiallara istinadən əsaslandırmağa çalışsalar da tam əminliklə söyləmək olar ki, bu iddia sadəcə XIX əsrin sonu, XX əsrin əvvəllərində bəzi Avropa dövlətlərinə (keçmiş Antanta İttifaqına daxil olan ölkələr, konkret olaraq Rusiya, Böyük Britaniya və Fransa nəzərdə tutulur – R.M.) xidmətlər müqabilində verilən vədlərə söykənir. Başqa sözlə, deportasiya siyasətinin tərkib hissəsi olmaq, regionda türk və müsəlman əhaliyə qarşı çoxsaylı soyqırımları həyata keçirmək, Osmanlı imperiyasının parçalanması və Antanta tərəfindən işğalının daha da asanlaşdırılması, Cənubi Qafqazda qarışıqlıq və kütləvi narazılıqlar yaratmaqla bölgənin inkişafına hər vəchlə imkan verməmək cəhdləri, Azərbaycan Xalq Cümhuriyyətinin süquta uğramasında göstərilən canfəşanlıq, AXC-nin süqutundan sonra isə yerli əhaliyə divan tutmaq və onları Sovet İttifaqının yaradacağı "xoşbəxt gələcəyə" inandırmaq missiyasının müqabilində ermənilər vəd olunan torpaqları öz himayədarlarından bu gün də tələb edir. Düzdür, həmin tapşırıqların bəziləri reallaşmadı. Məsələn, Osmanlı İmperiyasının torpaqlarının bölüşdürülməsi, azərbaycanlıların müstəqillik arzularının məhv edilməsi və bu xalqı ümumiyyətlə Cənubi Qafqazdan qovmaq, yaxud yer üzündən silmək ideyası fiaskoya uğradı. Lakin ermənilər bunda özlərini deyil, havadarlarını günahlandırır və öz xidmətləri müqabilində onlara düşən payı tələb edirlər. Pay nədən ibarət idi?

1. Azərbaycandan: İrəvan, Qarabağ, Zəngəzur, Cavanşir, Cəbrayıl, Naxçıvan

2. Türkiyədən: Qars, Ərzurum, Van, Bitlis, Diyarbəkir, Xarput, Sivas

3. Gürcüstandan: Borçalı, Axalkalaki, Şulaveri, Tbilisi

Ermənilər zaman – zaman həmin ərazilərin ələ keçirilməsi tələbi ilə çıxış etmiş, bir çox halda böyük qardaşlarının maddi və hərbi – texniki dəstəyi ilə çoxsaylı qırğınlar törətməklə açıq ərazi iddialarına qalxmışlar. Tarixi sənədlər göstərir ki, hələ 1918-ci il dekabrın 9-da ingilislərə arxalanan Ermənistan Gürcüstana müharibə elan edir və erməni cəlladı, Daşnak Ermənistanın "general" rütbəsi verdiyi Dro-Drastamat Kanayanın başçılığı altında dekabrın 14-də Axalkalaki, dekabrın 20-də Şulaveri, dekabrın 25-də isə Tiflis işğal edilir. Yalnız 1918-ci il dekabrın 31-də, maraqlıdır ki, elə inglislərin köməyi ilə də tərəflər arasında barışıq yaranır və Tiflis ermənilərdən xilas olur. Bundan sonra, ermənilərin hansı xislətə malik olduğunu özləri üçün yəqin edən gürcülər erməni əhalisini qısa zamanda Tiflisdən qovur, Gürcüstan Erməni Şurası üzvləri, "Daşnaksütyun" partiyasının liderlərindən ibarət Gürcüstan Parlamentinin üzvləri həbs edilir, bütün erməni milislərinin silahları alınır və işdən azad edilir. Həmçinin, iclaslarda erməni dilində belə çıxış etmək qadağan edilir. İosif Stalin və Lavrenti Beriya da Tiflisin er-

mənilərdən təmizlənməsini gücləndirdilər. 1936-cı ildən Tiflis Tbilisi adlandırılmağa başladı(2).

Analoji siyasət Türkiyədə də həyata keçirildi. Təsadüfi deyil ki, birinci dünya müharibəsində məğlubiyyətdən sonra siyasi, iqtisadi cəhətdən zorla özünə gələn Türkiyə ilk növbədə bütün çətinliklərə baxmayaraq ərazi bütövlyünü qorumaqla yanaşı, daxildə ölkənin məhvini hədəfləyən ermənilər qısa zaman ərzində imperiya hüdudlarından kənarlaşdırmağa nail oldu. On minlərlə erməni ailəsi həmin dövrdə Cənubi Qafqaza, daha dəqiq desək, tarixi Azərbaycan ərazilərinə köçürüldü. Üstəlik, XX əsrin əvvəllərində İran ermənilərinin də müəyyən qisminin bölgəyə deportasiyası reallaşdı. Böyük köç siyasətinin nəticəsi olaraq Cənubi Qafqazda XX əsrin əvvəllərində süni Ermənistan dövləti yaradıldı. Nəyə görə süni? Çünki bu dövlətin yarandığı ilk gündən qarşısına qoyulan əsas məqsəd Azərbaycan Xalq Cümhuriyyəti və Gürcüstan Demokratik Respublikasının birgə fəaliyyətinə, əməkdaşlığına, xüsusən də həmin ölkələrin 1919-cu ildə təşkil edilən Versal Sülh Konfransında iştirakına, dünya dövlətləri tərəfindən müstəqilliyinin tanınmasına mane olmaq idi. Araşdırmalar da göstərir ki, təxminən 2 il davam edən müstəqillik yolunda ermənilər ən müxtəlif yollarla Azərbaycan nümayəndə heyətinin Fransaya səfərinin baş tutmamasına çalışıb, Azərbaycan və Gürcüstanla birbaşa əməkdaşlıqdan boyun qaçırıb və üç ölkənin qarşılıqlı fəaliyyətini nəzərdə tutan sənədlərin imzalanmasından hər vəchlə imtina ediblər.

Tarix təkrarlanır, yaxud nəticə əvəzi...

Bu gün Ermənistan müstəqil dövlət olsa da təxminən iki əsr öncə irəli sürülən iddialar, işğal və terror üzərində qurulan siyasət hələ də davam etdirilir. Azərbaycanın 20 faiz torpağını (yeri gəlmişkən, əsrlər öncə havadarların onlara vəd etdiyi ərazilər – R.M.) işğal edən haylar bir milyondan artıq qaçqın və məcburi köçkünün öz dədə - baba yurdundan didərgin düşməsinə səbəb olublar. İşğal olunan ərazilərdə yerli əhali zorakılıqla, amansızcasına öldürülüb, XX əsrin ən dəhşətli qətliamı - Xocalı soyqırımı törədilib, Azərbaycan xalqına məxsus məscidlər və yerli infrasturuktur tamamilə məhv edilib. Lakin...

1. XIX və XX əsrdə ermənilərin Cənubi Qafqazda türk və müsəlman xalqına qarşı reallaşdırdığı kütləvi qətliamlar, soyqırımı hadisələri dünya birliyi, xüsusən də keçmiş Antanta İttifaqına aid ölkələr tərəfindən nəinki susqunluqla qarşılanır, hətta siyasi və hərbi dəstək bu gün də davam etdirilir. Sadəcə müstəqil və güclü Azərbaycanın mövcud olduğu şəraitdə siyasət ötən əsrlərdə olduğu kimi aşkar deyil, əsasən gizli yollarla həyata keçirilir;

2. Ermənilər bu gün də Azərbaycana qarşı işğal siyasətini davam etdirir, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münqaişəsinin həlli ilə bağlı beynəlxalq təşkilatların qəbul etdiyi çoxsaylı qətnamələrə məhəl qoymur, eyni zamanda Gürcüstan və Türkiyəyə qarşı da açıq ərazi iddiaları ilə çıxış edir, lakin bu iddialar dünya ölkələri tərəfindən susqunluqla qarşılanır;

3. Ermənistan bu gün də həm işğalçı mahiyyəti, həm terrora dövlət səviyyəsində açıq şəkildə dəstək verməsi, həm də ərazisində artıq istismar müddəti başa çatmış Metsamor Atom Elektrik Stansiyası ilə Cənubi Qafqaz bölgəsi, regonda reallaşdırılan qlobal iqtisadi layihələr, yaradılan əməkdaşlıq platformaları və ən əsası mövcud təhlükəsizlik üçün ən böyük təhdiddir. Mataqlıdır ki, dünya siyasətini müəyyən edən super güclər (xüsusən keçmiş "Antanta ailəsi" – R.M.) hay adlı təhlükənin nə qədər ciddi olduğunu gözəl anlasa da, real addımlar atmır.

Nəyə görə? Bütün bunların sadə cavabı var. Cənubi Qafqaz regionu istər yerləşdiyi coğrafiya, istər təbii sərvətləri, xüsusən Azərbaycanın timsalında, istərsə də bölgəni əhatə edən iri dövlətlərə – Rusiya, Türkiyə və İrana, bu supergclərin qlobal miqyasda oynadığı rola, beynəlxalq münasibətlər sistemində sərgilədiyi yanaşmaya bilavasitə təsir etmək baxımından mühüm məkandır. Bu baxımdan, özlüyündə ərazicə 3 kiçik dövləti birləşdirən həmin region mərkəzi Asiyanın ürəyi və ya idarəedici sükanı

da sayıla bilər. Bölgəyə təsir ya regional və qlobal əməkdaşlıq, ya da müharibə, hətta üçüncü dünya müharibəsi ilə nəticələnər. Məhz ona görə də Cənubi Qafqaz zaman – zaman qlobal güclərin maraqlarının toqquşduğu coğrafiya olub, bu gün də belədir. Regionda bu "maraq"ları təmin edəcək ölkə isə Ermənistandır. Çünki yarandığı ilk gündən ikli, üçlü, hətta dördlü siyasət yürüdən bu işğalçı ölkə öz maraqları, yaxud əsassız torpaq iddiaları naminə terroru dəstəkləyən istənilən qüvvə, dövlət, yaxud təşkilatla əməkdaşlığa açıqdır. Odur ki, dəfələrlə qeyd etdiyimiz kimi, Cənubi Qafqaz oyununda ssenari müəllifləri dəyişsə də rejissorların aktyor seçimində maraqları üst – üstə düşür – Ermənistan.

Ədəbiyyat:

1. Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər), III Beynəlxalq Elmi Konfransın materialları, 07-10 aprel 2016, Şamaxı ş. AMEA-nın Tarix İnstitutu, "Turxan" nəşriyyatı, 621 s.
2. Ömərov V., AMEA Qafqazşünaslıq İnstitutunun gürcüstanşünaslıq şöbəsinin müdiri, http://www.xalqqazeti.com/az/news/politics/99319
3. Sertçelik S., "Rus və erməni mənbələri işığında erməni problemi" 1915-1923. Müstəmləkə müharibəsi, "Türkiye Petrolleri"nin dəstəyi ilə nəşr edilmişdir, SRT Yayınları, Ankara, 1. Baskı, şubat 2017, 572 s.
4. www.wikipedia.org

Açar sözlər: *Erməni terroru, regional təhdidlər, soyqırımı siyasəti, Cənubi Qafqaz, beynəlxalq münasibətlər, deportasiya siyasəti*

Rovshan Mammadov
PhD in Philology

SOUTH CAUCASUS REGION: REAL THREATS AND HISTORICAL TRUTH OF ARMENIAN TERRORISM

SUMMARY

The South Caucasus region, where the interests of the great powers collide, is known as the epicenter of numerous clashes, political and military conflicts. This centuries-old trend has moved into a relatively passive phase in a certain period of history, especially during the period of the Soviet Union's existence and when the Soviet Union directly controlled the region. South Caucasus region has always been the center of attention. Studying the objective causes of the processes in the region during the 19th and 20th centuries, it can be said with certainty that a party or parties interested in political and military clashes were located precisely on this geographical territory. Surely, the authors of the script change at certain period of times, but the performers or mediators remain stable. The issue is Armenia, the state which from the first days of its revival, built its policy on the basis of terror, threats, genocide and territorial claims. It is not accidental that certain powers, that is to say, the initiators, are well aware of the features of these nomadic people, in other words, Armenian psychology,

Key words: *Armenian terror, regional threats, policy of genocide, South Caucasus, international relations, policy of deportation*

Ровшан Мамедов
доктор филологических наук

ЮЖНО-КАВКАЗСКИЙ РЕГИОН: РЕАЛЬНЫЕ УГРОЗЫ И ИСТОРИЧЕСКАЯ ПРАВДА АРМЯНСКОГО ТЕРРОРИЗМА

РЕЗЮМЕ

Южно-кавказский регион, где сталкиваются интересы глобальных сил, известен как эпицентр многочисленных столкновений, политических и военных конфликтов. Эта многовековая тенденция в определенные промежутки истории, особенно в период существования Советского Союза, который непосредственно контролировал регион, перешла в относительно пассивную фазу. Этот регион всегда находился в центре внимания. Изучая объективные причины процессов в регионе как в XIX, так и в XX веке, можно с уверенностью сказать, что сторона или стороны, заинтересованные в политических и военных столкновениях, были расположены именно на этой географической территории. Конечно, авторы сценарий в определенные периоды истории меняются, однако исполнители или посредники остаются неизменными. Речь идет об Армении, стране, которая с первых дней своего возникновения строила свою политику на основе террора, угроз, геноцидов и территориальных притязаний, и внесла нищенскую дипломатию в систему международных отношений. Не случайно, что упомянутые особенности этого кочевого племени, иными словами, армянская психология, сформировавшаяся десятилетиями, армянская “хай”ская черта, конкретным силам, то есть заказчикам хорошо известна.

Ключевые слова: *Армянский терроризм, региональные угрозы, политика геноцида, Южный Кавказ, международные отношения, политика депортации*

BEYNƏLXALQ MÜNASİBƏTLƏR
INTERNATIONAL RELATIONS

AYNUR FARMANOVA
The Academy of Public Administration
under the President of the Republic of Azerbaijan,
PhD in Political Science, Assistant Professor

MRS. MEHRIBAN ALIYEVA'S ROLE IN EXPANDING OF INTERNATIONAL-CULTURAL RELATIONS OF AZERBAIJAN

Preservation and development of the rich traditions of Azerbaijani's national and spiritual values in the modern era in facing serious threats to national and moral values are particularly relevant. According to its geo-strategic position Azerbaijan became one of the most tolerant countries in the world for its different outlook and lifestyle, national and cultural values, religious beliefs, national and ethnic composition. Preserving its culture, values, traditions Azerbaijanis show great tolerance of religious diversity striving for modernity and innovation.

In contemporary world, UNESCO serves for strengthening peace and security by expanding cooperation among people in educational, scientific and cultural fields. The relations between Azerbaijan and UNESCO dates back to the times even before Azerbaijan's admission to the United Nations, being part of the Soviet Union. Azerbaijan was involved in the activities of UNESCO in the 1960's while being part of the Soviet Union. Exhibitions dedicated to "Azerbaijani carpets" (1981), "Azerbaijani manuscripts" (1985) held at UNESCO Headquarters in Paris, and "the Architecture of Baku" exhibition held later in London, were consecutively arranged under the auspices of UNESCO. During the Soviet era UNESCO provided financial assistance to Azerbaijan in holding "A Language and a City" (1981) and "the Oriental Carpet Art" (1983) conferences. The national leader of Azerbaijan Heydar Aliyev immensely contributed to the development of relations between Azerbaijan and UNESCO during the Soviet period (27).

In 1983, at the First International Symposium dedicated to the "Art of the Oriental Carpet" in Baku, Heydar Aliyev, member of Political Bureau of the Central Committee of the Communist Party of the Soviet Union met with the Special Adviser to the Director-General of UNESCO Mr. Frederico Mayor. These friendly relations after gaining independence considerably influenced on relations between Azerbaijan and UNESCO, and thus laid the foundation for the success of Azerbaijan within the organization (5, p.30-31).

After gaining its independence on October 18, 1991, The Republic of Azerbaijan became a member of the United Nations specialized agency UNESCO on 3 July 1992 (1, p.57-58). The development of relations between Azerbaijan and UNESCO started in the second half of 1993, after the national leader Heydar Aliyev returned to power. Thus, the most important step in the development of Azerbaijan-UNESCO relations was Heydar Aliyev's first official visit to the Republic of France in December 19-21, 1993, where he meet with the Director-General of UNESCO, Federico Mayor (1, p.58; 7, p.38-40).

Meetings between National Leader Heydar Aliyev and Director-General Federico Mayor were very crucial for the development of relations between Azerbaijan and UNESCO. Educational, scientific and cultural spheres of Azerbaijan were discussed within those

meetings. On November 18, 1996, the National Leader, Heydar Aliyev and UNESCO Director-General, Federico Mayor signed a memorandum on cooperation between the Republic of Azerbaijan and UNESCO (8, p.173). The Memorandum aimed at rendering support to Azerbaijan in scientific, cultural and other relevant spheres. Moreover, assistance in preservation and restoration of cultural monuments of Azerbaijan was also reflected in the document (MFA). In addition, cooperation with UNESCO according to the international convention on the Means of prohibiting the illicit import, export and transfer of ownership of cultural property is extremely essential for restoration and preservation of cultural monuments in the occupied territories of Azerbaijan.

At the same time, signed agreement about Azerbaijan-UNESCO cooperation in educational, scientific, cultural and humanitarian fields was the beginning of a new stage. It is no coincidence that after it in order to reconstruct the higher education in Azerbaijan two projects were realized in accordance with TACIS and TEMPUS programs. The Great Silk Road, TRACECA, year was declared in 2000, by UNESCO (4; 20).

Azerbaijani President Heydar Aliyev on September 3, 1997, in his letter to the Director-General of UNESCO Federico Mayor endorsed the proposal of Declaration on the Right of People for Peace of UNESCO and brought to the attention of the Director General his support for the declaration project. In addition, it was noted in the letter that the Republic of Azerbaijan as the democratic, legal, secular state would continue its policy for maintaining peace (10). In his letter Heydar Aliyev stated peaceful policy of Azerbaijan, the country's political stability, civil solidarity achievement, a peaceful solution to the conflict despite of military aggression of Armenia against Azerbaijan, occupation of 20 percent of our territory, more than 1 million IDP's , the destruction of cultural resources.

The next action for informing the world community about cultural heritage of Azerbaijan was Heydar Aliyev's 20 April, 1997 Decree on celebration of the 1.300th anniversary of the "Book of Dede Gorgud" which were held in Dresden, Moscow, in different cities of Turkey in the framework of UNESCO in 2000. These events ended with a meeting with VI Summit of Heads of Turkic Speaking Countries at the jubilee ceremony (9, p.222; 33).

In 1998, an international conference dedicated to "Great Silk Road" initiated by National Leader Heydar Aliyev, was an important contribution to the regional cooperation, the East-West dialogue, integration of Europe and Asia. An international conference with the participation of 32 countries, heads of 9 states, delegations of 13 international organizations was the strategic goal of globalization, which is located on the historic Silk Road peoples and opening dialogue between different cultures and communication (6, p.495). It is no coincidence that a number of international cultural events, music festivals, symposiums and conferences, the tourist routes hosted by our country based on the Silk Road idea was the integrative mission of Azerbaijan.

The new phase of relations between Azerbaijan and UNESCO

The protection of cultural and natural heritage of Azerbaijan is one of the main directions of cooperation with UNESCO. In this regard, The Walled City complex of Baku city was inscribed on the UNESCO's World Cultural Heritage list in December, 2000. As a result of the earthquake in Azerbaijan, and the damage to a number of architectural monuments to the Walled City complex of Baku at the 27th session of the World Heritage Committee the Walled City complex was inscribed on the List of World Heritage in Danger of UNESCO on July 4, 2003 (21). On June 22- 30, 2009 within the 33rd session of the World Heritage Committee , the Walled City complex removed from the List of World

Məqalə tələbələrin gender tərbiyəsinin bəzi problemlərinə həsr olunub. Müəllif "gender", "gender tərbiyəsi" və başqa anlayışların mənalarını verir, tələbələrin gender tərbiyəsinin bütövlükdə tərbiyənin vacib hissəsi olduğunu, tələbələrin sosiallaşması prosesi kimi rolunu vurğulayır. Burada gender bərabərliyinin problemləri və perspektivləri təhlil edilmişdir. Vurğulanır ki, gender bərabərliyinə əsaslanan cəmiyyət şəxsiyyətin öz potensial imkanlarını əyani dərk edərək, formalaşmasının yeni perspektivlərini açа bilər. Gender tərbiyəsi davamlı inkişafin planlaşdırılması və idarə olunmasında ən vacib amillərdəndir. Bu da ölkədə aparılan sosial siyasətin uğurlu aparılmasının bariz sübutudur.

Açar sözlər: *tərbiyə, gender, cəmiyyət, tələbələr, universitet, biliklər*

Leyli Guliyeva
Azerbaijan State Pedagogical University
Chair of Philosophy Department,
Associate Professor, PhD in Philosophy

GENDER UPBRINGING OF STUDENTS

SUMMARY

This article focuses on some issues of gender upbringing of students. The author elaborates the meaning of "gender", "gender education" and other relevant concepts. The author also emphasizes students' gender upbringing as an integral part of the overall upbringing, while explaining the role of the process of socialization among students. The problems in gender equality and perspectives are analyzed in the article. A gender-based society could open up new perspectives for individuals to realize their own potential capacity and to shape their futures. Gender education is one of the most important factors in planning and managing sustainable development. In this regard, this article provides a clear evidence of the successful conduct of social policy in the country.

Key words: *upbringing, gender, society, students, university, knowledge*

SOSİAL STRUKTUR, SOSİAL İNSTİTUTLAR VƏ PROSESLƏR
SOCIAL STRUCTURE, SOCIAL INSTITUTIONS AND PROCESSES

XALİD NİYAZOV
AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun
İnformasiya hüququ şöbəsinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent

MÜASİR İNFORMASİYA CƏMİYYƏTİNDƏ İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ MƏSƏLƏLƏRİNİN MEDİA KONTENTİ

Giriş

Postindustrial sivilizasiyanın əsas göstəricisi olan informasiya cəmiyyəti müasir həyatın mütəhərrikliyini və statusunu müəyyənləşdirməkdə, dominantlığını möhkəmləndirməkdədir. Müasir dövrdə informasiya ümümbəşəri və qlobal güc amilinə, cəmiyyətin hər bir üzvünün sosial həyatının mühüm komponentinə çevrilmişdir. Müasir dünyanın inkişaf tendensiyaları cəmiyyətin informasiya əsrinə transformasiyasını dərinləşdirmiş, informasiyalaşdırmanın planetar hökmranlığını hüdudsuzlaşdırmışdır. İnformasiya cəmiyyətinin fəlsəfəsi, ideya və məzmunu insanların məlumat və informasiya ehtiyaclarının ödənilməsi, kommunikativ vasitələrlə təmin edilməsi və həmin məlumatların ictimai mühitə təqdim olunmasından ibarətdir.

İnformasiya siyasəti və müasir tendensiyalar

İnformasiyanın zənginliyi, əhatəliliyi azad və plüralist cəmiyyətin inkişafının təkanverici amili qismində çıxış edir. İnformasiya dövlət və cəmiyyət həyatının bütün sahələrinə təsir göstərməklə yanaşı, sosiomədəni həyatın inkişaf indikatoruna, eləcə də insanların əsas əmtəə vasitələrindən birinə çevrilmişdir. İnformasiya demokratik inkişafın atributu olaraq cəmiyyətin demokratikləşməsinə, fikir ayrılığının, ifadə azadlığının təmin olunmasına bilavasitə təsir edir, cəmiyyətdə demokratik harmoniyanın qorunmasında öz sözünü deyir.

İnformasiya resurslarından hər bir şəxsin sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə informasiya əldə etmək hüququnun təmini müxtəlif beynəlxalq konvensiya və sazişlərdə birmənalı təsbit edilmişdir. İnsan Hüquqları Haqqında Ümumdünya Bəyannaməsinin 19-cu maddəsində qeyd olunmuşdur ki, hər kəs fikir və ifadə azadlığı hüququna malikdir, bu hüquqa öz əqidəsində qalmaq azadlığı və hər hansı maneə olmadan istənilən vasitələrlə və sərhədlərdən asılı olmayaraq məlumat və fikirləri axtarmaq, almaq və yaymaq azadlığı daxildir. [1].

Demokrtatik inkişaf yolunu seçmiş Azərbaycanda informasiya əldə etmək üçün geniş məlumat bazası və zəngin informasiya mühiti mövcuddur. Qəbul edilmiş bir çox qanunlarda vətəndaşların söz, fikir və mətbuat azadlıqlarına hüquqi təminat verilmiş, informasiya azadlığı Əsas Qanunla təsbit edilmişdir. 1995-ci il noyabrın 12-də keçirilmiş ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasında hər kəsin fikir və söz azadlığı, qanuni yolla istədiyi məlumatı axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq hüququ təsbit olunmuş, informasiya azadlığına təminat verilmişdir [2].

2005-ci ildə "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi insanların əhatəli və dolğun məlumat almaları üçün hüquqi əsaslardan biri olmaqla informasiya açıqlığını təmin etmişdir. Qanuna əsasən, hər kəsin istədiyi informasiyanı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır. İnformasiya azadlığının həyata keçirilməsi digər insanların hüquqlarının, azadlıqlarının və qanuni maraqlarının pozulmasına səbəb olmamalıdır (Maddə 1. İnformasiya

azadlığı). Vətəndaşların hər bir məlumatı əldə etməsinə dövlət təminat verir, informasiyanın açıqlığı və əldə olunmasının sərbəstliyi, əhatəliliyi və etibarlılığı, vaxtında təqdim olunması təmin edilir. Həmçinin, vətəndaşların informasiya əldə etmək hüquqları qorunur (Maddə 4. İnformasiya azadlığının prinsipləri) [3].

İnformasiya açıqlığı həm də cəmiyyətin demokratiklik göstəricisi, hesabatlılıq və şəffaflıq indeksidir. Amerikalı məşhur sosioloq, Kolumbiya Universitetinin müəllimi Herbert J.Gans "Demokratiya və xəbərlər" adlı əsərində qeyd edir ki, cəmiyyətin demokratikləşməsində informasiya rəngarəngliyinin təmin edilməsi mühüm amildir. İnformasiya əsri istər-istəməz dövlətin xəbər institutlarının fəaliyyətinə geniş meydan verməsinə səbəb olmuşdur [4, 168].

Azərbaycanda 2007-ci ildə qəbul olunmuş "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya"da cəmiyyət üzvlərinin informasiya əldə edilməsinin asanlaşdırılması üçün konkret istiqamətlər müəyyənləşdirilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nda mühüm istiqamətlərdən biri ictimaiyyətin informasiya əldə etmək imkanlarının artırılması və iştirakının genişləndirilməsidir. Beləliklə, respublikamızda informasiyanın əldə olunması üçün güclü hüquqi-siyasi-texniki infrastruktur yaradılmışdır [5].

Qeyd olunanlar belə bir ümumiləşdirməyə əsas verir ki, Azərbaycan dövlətinin informasiya siyasəti və insanların hərtərəfli informasiya təminatı məsələləri barədə mövqeyi tam açıq və konstruktivdir. Dövlət vətəndaşların informasiya əldə etmək və informasiya resurslarına çıxışını təmin etmək üçün mühüm qanunlar və hüquqi aktlar qəbul etmiş, qanunvericiliyi təkmilləşdirmiş, müxtəlif icra mexanizmləri yolu ilə müvafiq tədbirlər həyata keçirmişdir. Hökumət demokratrik dövlət quruculuğunda informasiya resursları ilə təminatın həm də şəffaflığın, hesabatlılığın mühüm göstəricisi kimi xarakterizə olunmasını nəzərə alaraq informasiyanın proaktiv formada ictimaiyyətə təqdim edilməsi ilə bağlı tədbirlər gerçəkləşdirilmişdir.

İnformasiya cəmiyyəti və media

"İnformasiya cəmiyyəti" anlayışı ilk dəfə 1966-cı ildə Yaponiyada meydana gəlmişdir. İnformasiya cəmiyyətində əhalinin əsas hissəsi müasir informasiya texnologiyalarından istifadə etməklə, informasiyanın istehsalı, saxlanması və ötürülməsi ilə məşğul olur. Ötən əsrin 60-70-ci illərindən başlayaraq sənaye cəmiyyəti yeni dövrə – informasiya cəmiyyətinə daxil olmuşdur. Elmi ədəbiyyatda informasiya cəmiyyəti, onun sosioloji, fəlsəfi və futuroloji mahiyyəti barədə müxtəlif fikirlər vardır. İnformasiyanın bəşəriyyətin həyatında həlledici amilə çevriləcəyi məsi barədə konseptual proqnozların müəllifi olan Amerikanın məşhur sosioloq-futuroloqu Elvin Toffler yazır ki, informasiya cəmiyyəti haqqında müxtəlif elmi konsepsiyaların ortaya çıxmasında postindustrial paradiqma əsasdır [6].

E.Toffler özünün "Üçüncü dalğa" əsərində informasiya cəmiyyətini industrial cəmiyyətin əsas sütunu kimi qiymətləndirmişdir. Azərbaycanda informasiya cəmiyyətinin qurulması istiqamətində görülən işlərin təməli ümummilli lider Heydər Əliyevin 2003-cü il 17 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya" ilə qoyulmuşdur. Milli Strategiyada konkret olaraq göstərilmişdir ki, informasiya və kommunikasiya texnologiyalarından geniş istifadə etməklə ölkənin demokratik inkişafına kömək etmək və informasiya cəmiyyətinə keçidi təmin etmək mümkündür [7].

Azərbaycan hökuməti informasiya cəmiyyətinin, yeni texnoloji və innovativ biliklərə əsaslanan iqtisadiyyatın formalaşdırılması üçün bir sıra mühüm qərarlar qəbul etmiş, milli qanunvericilik bazası xeyli təkmilləşdirilmişdir. "Kütləvi informasiya vasitələri haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Məlumat

azadlığı haqqında", "Elektron sənəd və elektron imza haqqında", "İnformasiya əldə etmək haqqında", "Telekommunikasiya haqqında", "Dövlət sirri haqqında" və s. qanunların qəbul edilməsi bunun əyani təsdiqidir. "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı", "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı" və s. mühüm sənədlər də təsdiq olunmuşdur.

"Elektron Azərbaycan – 2005-2008-ci illər" və "Elektron Azərbaycan – 2010-2012-ci illər" dövlət proqramları qəbul olunmuş və icra edilmişdir. "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiyanın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı isə informasiyalaşdırma və informasiya təminatında yeni trendlərin nəzərə alınması üçün yol xəritəsi hesab oluna bilər.

Ümumiyyətlə, informasiya cəmiyyətinin formalaşmasında dövlətin rolunu bu cür səciyyələndirmək mümkündür: qlobal informasiya mühitinin, elmtutumlu informasiya və telekommunikasiya texnologiyaları məhsullarının yaradılması və istehsalı üçün əlverişli şəraitin təkmilləşdirilməsi; vətəndaşların informasiya əldə etməsi üçün bərabər imkanların və onların münasibliyinin təmin olunması; informasiya cəmiyyətinin inkişafına yönəldilmiş fundamental və tətbiqi elmi tədqiqatların genişləndirilməsi; online medianın, sosial şəbəkələrin və digər yeni media vasitələrinin inkişaf etdirilməsi, onlardan səmərəli istifadəyə dair tədbirlərin görülməsi [8].

İnformasiya cəmiyyətinin funksional aparıcı sektorlarından olan media sektoru daha dinamik, qlobal, kütləvi və ictimai-siyasi təsiretmə imkanları, cəmiyyətin məlumatalma və təbliğat funksiyalarına görə strateji instituta çevrilmişdir. Akademik Ramiz Mehdiyev KİV-in dövlət və cəmiyyət sistemindəki roluna toxunaraq yazır ki, kütləvi informasiya vasitələri müasir dövrdə cəmiyyət həyatının bütün sahələrinə güclü təsir göstərən qüdrətli təsisatlardan biridir. İctimai rəyin formalaşmasında, ictimai-siyasi proseslərin inkişaf istiqamətlərinin müəyyənləşməsində onun rolu və əhəmiyyəti son dərəcə böyükdür. Ölkədə və dünyada baş verən bir sıra mühüm siyasi-ictimai və mənəvi proseslərin ictimaiyyət tərəfindən dərk edilib qiymətləndirilməsi əsasən kütləvi informasiya vasitələrinin fəaliyyətinin sayəsində mümkün olur. Media Azərbaycan Prezidentinin həyata keçirdiyi uğurlu siyasəti daha geniş və obyektiv şəkildə işıqlandırmalı, cəmiyyətdə, xüsusilə gənc nəsil arasında Vətənə sevgi hissləri, insanlara mənəvi saflıq aşılamalı, onlarda əsl vətəndaşlıq mövqeyinin formalaşmasına dəyərli töhfəsini verməlidir.

Müasir dövrdə media funksional vahid olaraq həm də idarəetmə vasitəsi kimi çıxış edir. Xüsusilə də ekstremal vəziyyətdə medianın funksionallığı daha da artaraq ictimai-siyasi, sosial-iqtisadi həyatın bütün sferalarını əhatə etməklə onların istiqamətlərinin formalaşmasına ciddi təsir göstərir.

Akademik R.Mehdiyevin fikrincə, "Müasir dövrdə medianın ən mühüm funksiyalarından biri də milli maraqları hər şeydən üstün tutmaq, vətəndaşları, cəmiyyəti vahid məqsəd uğrunda səfərbər etməkdir. Vətənpərvərlik, milli dövlətçiliyə sədaqət, milli maraqlar uğrunda prinsipiallıq KİV-lərin fəaliyyətinin başlıca prinsiplərini təşkil etməlidir. KİV-lər cəmiyyətdə, xüsusilə gənc nəsil arasında Vətənə sevgi hissləri, insanlara mənəvi saflıq aşılamalı, onlarda əsl vətəndaşlıq mövqeyinin formalaşmasına dəyərli töhfəsini verməlidir" [9]. İnformasiya cəmiyyətinin təşəkkül tapması üçün mütləq demokratik mühit olmalıdır. Yalnız demokratik hökumətlər öz vətəndaşları üçün digər istənilən siyasi sistemin verə biləcəyindən daha geniş çərçivədə şəxsi azadlıqları təmin edə bilirlər. Məhz belə bir cəmiyyətdə informasiya almaq, ötürmək və informasiya mübadiləsi aparmaq qeyri-demokratik ölkələrə nisbətən xeyli asandır. Demokratik cəmiyyətin mediası qeyri-demokratik ölkələrin mediasından fərqlənir. Bu, hər şeydən əvvəl mətbuat və söz azadlığında özünü göstərir, həm də vətəndaş cəmiyyəti quruculuğunun başlıca şərtlərin-

dəndir. Bakı Dövlət Universitetinin professoru Cahangir Məmmədli qeyd edir ki, demokratik cəmiyyətdə medianın vəzifələrindən biri də adətən öz işi ilə bağlı informasiyanı gizlətməyə cəhd göstərən hakimiyyəti daim nəzarətdə saxlamaqdır [10].

Rus alimi S.Nikonov "Əvvəllər siyasətçilərin informasiya məkanını formalaşdırdığını, indi isə informasiyanın dünya siyasətini formalaşdırdığını..." bildirir. Müəllifə görə, "neopolitika" (yeni siyasət) deyərkən dövlətin qısamüddətli proqnozlaşdırılmış informasiya strategiyasına əsaslanaraq daxili və xarici siyasətini formalaşdırması və həyata keçirməsi başa düşülür. Neosiyasət – təbliğ edilən mənəvi dəyərlərin və ideyaların tələb olunan imiclərinin yaradılması məqsədi ilə dövlətin və ya dövlətlər qrupunun daxili və xarici siyasətinə kütləvi informasiya vasitələri (KİV) vasitəsilə müsbət, lazım olduqda isə mənfi münasibətin formalaşdırılması üçün informasiya strategiyasıdır [11].

İnformasiya cəmiyyətinin əsas komponenti olan informasiya siyasətində iki əsas aspekt də əks olunmuşdur: bunlardan biri informasiyanın ictimai inkişafın mühüm amil kimi qəbul olunması, ikincisi isə informasiyanın hadisə və proseslərin idarə olunması zərurəti kimi çıxış etməsidir. Rus tədqiqatçısı Filip Kuşnarevin qeyd etdiyi kimi, informasiya cəmiyyətinin təşəkkülü şəraitində informasiya sosial idarəetmənin bütövlükdə ayrılmaz atributu, informasiyanın idarə olunması isə onun bir hissəsini təşkil edir [12].

İnformasiya mühitində KİV-in yeri və rolu

Azərbaycanda demokratiyanın və vətəndaş cəmiyyətinin inkişafında, informasiya təminatında fundamental amil kimi KİV-in mühüm yeri və rolu vardır. Azərbaycan hökiməti informasiya siyasətinin vacib və mühüm elementi olan KİV-ə demokratik davranış nümayiş etdirmiş, onun azad və sərbəst fəaliyyətinə dərin hüquqi baza, güclü arxitektura yaratmışdır.

Media sektorunda özünə möhkəm yer tutmuş və yeni anlayış seqmentindən çıxaraq ümumişlək terminə çevrilmiş "sosial media" cəmiyyət həyatında xüsusi yer tutur. Sosial media insanlar arasında virtual internet alətləri vasitəsilə sosial ünsiyyət yaradılması və məlumatların paylaşılması baxımından elektron KİV ailəsinin fəal üzvünə çevrilmişdir. Sosial media qrupuna xəbər saytları, sosial şəbəkələr ("facebook", "twitter", "google +" və s.), ani ünsiyyət vasitələri ("msn", "skype", "google", "talk" və s.), forumlar və bloqlar daxildir. Sosial şəbəkələrdə, bloqlarda, forumlarda hansısa mövzu müzakirəyə çıxarılır və hər kəs ona öz münasibətini bildirrir. Nəticədə dəqiq müəllifi məlum olmayan kollektiv bir məhsul alınır və hər kəs bu məhsuldan özünə lazım olan hissəni götürür [13].

Bu gün "yeni media" anlayışının müxtəlif izahlarına rast gəlmək mümkündür. Bir qrup ekspert buraya bütün rəqəmsal və elektron informasiya ötürücülərini, elektron qəzetləri, radio və televiziyaları daxil edirsə, digər qrup mütəxəssis yeni medianın bəşəriyyəti bir araya gətirən və onu vahid topluya çevirən sosial şəbəkələrdən ibarət olduğunu söyləyir. "Əgər klassik media "təkin çoxluğa" prinsipi ilə təsir edirsə, yeni media "çoxluğun çoxluğa" təsir vasitəsidir. Burada istənilən informasiyanın qarşılıqlı rəyi və cavab reaksiyası var" [14, 19-21].

Amerikalı jurnalist, internet mediası üzrə tanınmış mütəxəssis Mark Briqs "Jurnalistika 2.0" adlı əsərində qeyd edir ki, yüksək sürətlə inkişaf edən informasiya-kommunikasiya texnologiyaları elektron media ilə ənənəvi mətbuat arasında rəqabəti dərinləşdirmişdir. Elektron KİV-in cəmiyyət həyatında xüsusi yer qazanması interaktiv media üçün yeni strateji yanaşma tələblərini meydana çıxarır. Bu gün informasiya mənbələrindən məlumatlanan oxucu özü müxtəlif sosial media vasitələrinin köməyi ilə xəbərin yayılımasında, müzakirəsində fəal iştirakçıya çevrilir. Oxucu bir növ məlumat ötürücüsü rolunu oynayır. Bu isə internet jurnalistikası üçün yeni ünsiyyət tərzini meydana çıxarır [15].

İsveçin məşhur jurnalistika tədqiqatçısı Erik Fichtelius "Jurnalistikanın on qızıl qay-

dası" klitabında qeyd edir ki, xəbərləri vermək prosesinin əsasını informasiya materialının toplanmasını və yayılmasını təşkil edən redaksiyaların və agentliklərin əlaqəli işi təşkil edir. Bu işin təməlində isə xəbəri tapan, onun mənasını açan və yazan reportyor dayanır. Reportyorun vəzifəsi görmək, eşitmək, duymaq və hadisəni öz auditoriyasına çatdırmaqdır. Söhbətin aparıcısı yoxdursa, xəbər də olmayacaq. Söhbət aparanın özü hadisəyə həvəs və maraq göstərməlidir ki, onun barəsində darıxdırıcı şəkildə yox, şövqlə danışa bilsin. Beləliklə, burada söhbət təkcə reportyorun məlumat vermək vəzifəsindən deyil, həm də danışmaq həvəsindən gedir [16].

"Azərbaycan jurnalistlərinin peşə davranışı qaydaları"nda göstərilir ki, jurnalistikanın ali məqsədi həqiqəti yaymaqdır, obyektivlik isə əsas peşəkarlıq meyarıdır [17].

Azərbaycan dövlətinin yürütdüyü informasiya siyasətinin mühüm komponenti və əsas sütunu olan KİV-lər demokratik cəmiyyətin inkişafında, insanların məlumat almaq tələbatının ödənilməsində, qlobal informasiya məkanında Azərbaycan barədə çeşidli informasiyaların təqdim olunmasında müstəsna hüquq və imkanlara malikdir. Transsərhəd informasiya sektorunda fəal rol oynamaq və qlobal media cəmiyyətinin üzvünə çevrilmək yolunda inam və əzmlə çalışan Azərbaycan mediası öz peşəkarlığını artırmaqda, dünya mediası ilə intensiv əlaqələri artırmaqdadır.

İnformasiya təhlükəsizliyi və müasir trendlər

Qlobal informasiya cəmiyyətinin geniş planetar hüdudlar alması nəticəsində dövlətlərarası ziddiyyət və münaqişələr virtual məkana keçmişdir. Qloballaşan dünyada informasiya texnologiyalarının yaratdığı imkanlardan suiistifadə etməklə cinayətin yeni növləri yaranır, dövlətin ərazi bütövlüyü ilə bağlı məlumatlar təhrif edilir, terrorizm ideologiyasının təbliğ edilməsi və terror aktlarının planlaşdırılması üçün internet şəbəkəsindən fəal şəkildə istifadə olunur. Transmilli cinayətkarlıq, beynəlxalq narkoticarət kimi bəşəriyyət üçün təhlükə mənbəyi hesab olunan proseslərdə informasiya təhlükəsizliyinin təmin edilməsi xüsusi aktuallıq kəsb edir. İnformasiya təhlükəsizliyinin qorunması və etibarlı təhlükəsizlik sisteminin yaradılması bütün dünya ölkələrinin milli təhlükəsislik strategiyasının ana konseptinə çevrilmişdir.

Məşhur ingilis politoloqu Gerald Long qeyd edir ki, təhlükəsizlik bir sıra ölkələrdə müxtəlif qanun və əsasnamələr, eyni zamanda, çoxsaylı korporativ şəxslərin formalaşdırdığı müxtəlif texnologiyalar üzrə qorunsa da, çoxşaxəli informasiya məkanı və virtual meydanın həddindən artıq geniş olması qitələrarası təhlükəsizlik şəbəkələrində meydana çıxan ziddiyyətlərin aradan qaldırılmasında yeni yanaşmalar tələb edir. Qlobal təhlükəsizlik məsələləri ilə məşğul olan təşkilatlar standart informasiya təhlükəsizliyi ölçülərindən tam fərqlənən və faydalılıq əmsalı böyük olan təhlükəsizlik modelinə diqqəti daha çox yönəltməlidirlər [18].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2011-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında dünya ölkələrinin müasir informasiya-kommunikasiya siyasətinin xarakterik xüsusiyyətlərini, transmilli mətbuat-informasiya sistemlərinin beynəlxalq ictimai rəyin formalaşmasındakı mühüm rolunu, dünyada virtual informasiya əlaqələrin bütün milli sərhədləri aşması tendensiyasını və s. məsələləri diqqətə çəkərək milli təhlükəsizliyin vacib komponentlərindən olan informasiya təhlükəsizliyinin rolunu xüsusi qeyd etmişdir: "Biz informasiya əsrində, internet və digər informasiya texnologiyalarının inkişafı dövründə yaşayırıq. Azərbaycanda siyasi plüralizm hökm sürür, azad mətbuat, internet və informasiya orqanları fəaliyyət göstərir, əhalinin 50 faizindən çoxu (2017-ci ildə 80 faizi – X.N.) internetdən istifadə edir. İndi hər bir kəndə, hər bir yaşayış məntəqəsinə geniş-zolaqlı internet şəbəkəsinin çəkilməsi planlaşdırılır. Lakin təəssüf ki, qlobal informasiya məkanında internetdən, informasiya vasitələrindən, transmilli mətbuatdan bəzən insanların informasiya ehtiyacını ödəməklə yanaşı, həm

də xüsusi təxribat vasitəsi kimi istifadə edirlər, ayrı-ayrı xalqlara, dövlətlərə və insanlara qarşı böhtan kampaniyası aparırlar. Bu təxribatlar, məqsədyönlü kampaniyalar bəzi hallarda açıq, bəzi hallarda gizli aparılır. Əlbəttə, belə şəraitdə ölkələrin informasiya təhlükəsizliyi məsələləri çox aktuallaşır" [19].

Ölkənin milli təhlükəsizliyinə təhdidlər şəraitdən asılı olaraq xarici və daxili amillərdən birbaşa asılıdır. Həmin təhdidlər vaxtında aşkar edilib qarşısı alınmasa, müdafiə və digər sahələrdə milli maraqlara ciddi zərbə vurulmasına gətirib çıxara bilər. Son illər dünyada informasiya sahəsində təhdidlərin və təhlükələrin mahiyyəti, keyfiyyəti, xüsusiyyəti kifayət qədər dəyişmişdir. Azərbaycanın tutduğu mövqe, regiondakı problemlər baxımından bu təhdidlər ölkəmiz üçün yeni mahiyyət kəsb etməyə başlamışdır.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər üzrə köməkçisi, prof. Ə.Həsənov qeyd edir ki, son illər yerli və xarici ölkələrin kompüter insidentlərinə qarşı mübarizə mərkəzlərindən, xarici və digər mənbələrdən elektron təhlükələr çoxalmışdır: "Xüsusilə də MDB regionunda informasiya şəbəkələrinə müdaxilə və kiberhücumların geniş xarakter alması müşahidə edilir. İşğalçı Ermənistanın kiberhücumları da bu sıradandır. Bu mənada möhkəm təhlükəsizlik şəbəkəsinin qurulması əsas vəzifələrdəndir. Buna görə, ilk növbədə, e-təhlükələrin qarşısının alınması üçün tətbiq edilən vasitələr haqqında daxil olan məlumatlar toplanmalı və təhlil edilməlidir" [20].

Azərbaycan dövləti informasiya sistemlərinin mühafizəsinin təşkili və informasiya təhlükəsizliyi məsələlərinə xüsusi diqqət yetirir, bu sahədə fəaliyyətin təkmilləşdirilməsi, dövlət orqanlarının informasiya resursları və sistemlərinin mümkün təhdidlərdən qorunması, kibertəhlükəsizlik üzrə ümummilli hazırlığın və maarifləndirmənin yüksəldilməsi məqsədi ilə davamlı tədbirlər həyata keçirir. 1998-ci ildə qüvvəyə minmiş "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanun, 2004-cü ildə qüvvəyə minmiş "Dövlət sirri haqqında" Qanun, sonrakı illərdə Qanuna edilmiş əlavə və dəyişikliklər, 2005-ci il sentyabrın 30-da Azərbaycan Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "İnformasiya əldə etmək haqqında" Qanun, 2014-cü ildə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycanda 2014-2018-ci illərdə dövlət sirrinin qorunması sisteminin inkişafı Dövlət Proqramı" və digər hüquqi sənədlər informasiya sahəsində dövlət sirlərinin və informasiya resurslarının qorunmasını təmin etməkdədir.

Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi və Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzi həmin sahədə dövlət siyasətinin həyata keçirilməsində mühüm rol oynayır. Bu qurumların məqsədi Azərbaycanın informasiya infrastrukturunun, habelə ölkə istifadəçilərinin çoxsaylı mənbələrdən gələn kiberhücumlardan, qanunsuz müdaxilələrdən, təhlükəli proqramlardan qorumaq, İnternet seqmentinin təhlükələrə hazırlıq səviyyəsini artırmaqdır.

Milli informasiya məkanının təhlükəsizliyinin qoruması məqsədilə kibertəhlükələrə qarşı güclü platformanın yaradılması dövlətin fundamental məqsədlərindən biridir. Bu gün informasiya təhlükəsizliyi ilə əlaqəli müasir təhdidlərin aradan qaldırılması probleminə əsaslı strateji yanaşma formalaşmaqdadır. Ölkənin informasiya təhlükəsizliyinin təmin olunması, ilk növbədə, bu istiqamətdə yürüdülən dövlət siyasətinin prioritet istiqamətlərinin dəqiq müəyyənləşdirilməsindən, informasiya təhlükəsizliyi mühitinin dürüst, obyektiv, elmi baxımdan düzgün qiymətləndirilməsindən və bu sahədə səmərəli fəaliyyətin təşkil olunmasından asılıdır. İnformasiya təhlükəsizliyinin təmini məsələlərində cəmiyyətin bütün qüvvələrinin – dövlət, biznes və vətəndaş cəmiyyətinin, xüsusən cəmiyyətin intellektual potensialının səfərbər edilməsi vacibdir.

Ümumiyyətlə, informasiya təhlükəsizliyi problem kimi XXI əsrdə daha qabarıq şəkildə meydana çıxmış, elm və texnologiyaların, İKT-nin inkişafı, xüsusilə də kompüter istifadəçilərinin sayının artması şəraitində dövlətlərin milli təhlükəsizlik kontentində mühüm yer tapmışdır. Professor Əlövsət Məmmədov "İnformasiya təhlükəsizliyi" dərsliyində qeyd edir ki, kompüter şəbəkələrinin inkişafı və elektron xidmətlərə müraciətlərin artması nəticəsində informasiya təhlükəsizliyi mühitində yaranan problemlər ciddi şəkildə kəskinləşmişdir. Yaranmış problemlərin həlli həm ixtiraçılar, həm də informasiya texnologiyaları istifadəçiləri üçün aktual məsələyə çevrilmişdir [21, 292].

Azərbaycan Respublikası Prezidentinin 26 sentyabr 2012-ci il tarixli "İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında" Fərmanı Azərbaycanda informasiya proseslərinin mühafizəsi, sabitliyi və fasiləsizliyi, dövlət orqanlarının informasiya ehtiyatlarının qorunması, bu sahədə təhdidlərin qarşısının alınması, təhlili və qabaqlanması üçün dövlət və qeyridövlət informasiya infrastrukturu subyektlərinin, onların istifadəçilərinin fəaliyyətinin əlaqələndirilməsi, kibertəhlükəsizlik sahəsində risklərin qiymətləndirilməsi və idarə olunması sahəsində yeni tələblər müəyyən etmişdir. Hazırda "Elektron hökumət" quruculuğu ilə bağlı tədbirlərin genişləndirilməsi ən vacib və ən çətin məsələlərdən biri kimi "e-dövlət"in etibarlı informasiya təhlükəsizliyinin təmin edilməsini meydana çıxarmışdır.

İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akad. R.Əliquliyevə görə, "e-dövlət"in informasiya təhlükəsizliyini sosiumun elə bir vəziyyəti kimi müəyyən etmək olar ki, bu zaman şəxsiyyət, cəmiyyət və dövlət təbii və süni meydana çıxan, informasiya və kommunikasiya axınları şəklində çıxış edən, ictimai və fərdi şüurun qəsdən deformasiya olunmasına, şəxsiyyətin, cəmiyyətin və dövlətin varlığı üçün vacib əhəmiyyəti olan infrastrukturun məhv edilməsinə yönəlmiş təhdidlərdən etibarlı və hərtərəfli qorunsun. İnformasiya sahəsində dövlətin maraqlarına ən ciddi təhdid mənbəyi "informasiya silahı"nın nəzarətsiz yaradılması, yayılması və bu sahədə "informasiya müharibəsi"nin aparılması cəhdləridir. İnformasiya sistemləri və şəbəkələri ilə əlaqəli hücum və müdafiə əməliyyatları sürətlə inkişaf edir, informasiya əməliyyatları müasir silahlı qüvvələrin hərbi doktrinalarında artıq özünə yer tapmaqdadır" [22].

"Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz "İnformasiya təhlükəsizliyi milli təhlükəsizlik sisteminin tərkib hissəsidir" adlı məqaləsində qeyd edir ki, informasiyanın təhlükəsizliyinin təminatı ilə bağlı həm dövlət, həm də ictimai sahələrdə kifayət qədər addımlar atılmışdır. Amma bu sahədə təsirli, adekvat və preventiv tədbirlərin görülməsi daim diqqətdə saxlanılmalıdır: "Azərbaycana qarşı maraqların artması, bizi istəməyən qrupların xaricdə fəallaşması, həm də beynəlxalq aləmdə kiber cinayətlərin geniş vüsət alması Azərbaycan informasiya resurslarının hər an bu cür hücumların hədəfinə tuş gəlmə ehtimalını artırır. Hətta bəzi hallarda dövlət və ya özəl sektorlarda informasiya təhlükəsizliyi ilə bağlı elə hadisələr baş verir ki, görülən işlərin yetərli olmadığını düşünürük. Bu mənada informasiya resurslarının qorunması və kibercinayətlərin təhqiqatı və nəhayət, maddi-texniki bazanın yaradılması, infrastrukturun möhkəmləndirilməsi ilə bağlı ciddi addımlar atılmalıdır"[23].

Ümumilikdə, Azərbaycanda informasiya təhlükəsizliyi sahəsində vahid dövlət siyasətinin yürüdülməsi, hüquqi bazanın təkmilləşdirilməsi, kibertəhlükəsizliyin gücləndirilməsi istiqamətində müvafiq texniki və metodiki vasitələrin yaradılması, müxtəlif dövlət və ictimai qurumların birgə əlaqələndirilmiş fəaliyyəti, eyni zamanda, əhalinin, cəmiyyətin bütün üzvlərinin bu sahədə maarifləndirilməsinə xüsusi diqqətin yönəldilməsi respublikamızda etibarlı informasiya təhlükəsizliyinin təmin edildiyini göstərir. İnformasiya təhlükəsizliyi ilə bağlı strategiyanın sistemli və koordinasiyalı şəkildə aparılması, medianın

həmin sahəyə dair təşviqat və təbliğat metodlarından səmərəli şəkildə istifadə etməsi cəmiyyətdə informasiya təhlükəsizliyi mədəniyyətinin formalaşdırılmasına da öz töhfəsini verməkdədir.

İnformasiya təhlükəsizliyi və media

Qloballaşmanın dərin xarakter aldığı, informasiyanın transsərhəd imkanlarının genişləndiyi, informasiya cəmiyyətinin inkişafı şəraitində informasiya təhlükəsizliyinin təmin olunması, milli kontentin genişləndirilməsi aktual məsələlərdən birinə çevrilmişdir. İnformasiya təhlükəsizliyi ilə bağlı xarici təsirlərin artdığı şəraitdə dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunması, informasiya sahəsində milli maraqların müdafiəsinə yönəlmiş kompleks tədbirlərin həyata keçirilməsi məsələləri ön plana keçmişdir. Cəmiyyətin informasiya tələbatının ödənilməsində əsas komminikasiya rolunu oynayan KİV üçün informasiya təhlükəsziliyi xüsusi aktuallıq kəsb edir.

2014-cü il avqust ayının 29-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin yanında dövlət orqanlarının informasiyanın verilməsinə məsul struktur bölmələrinin və kütləvi informasiya vasitələri rəhbərlərinin iştirakı ilə keçirilən müşavirədə qeyd olunmuşdur ki, müasir dövrdə media funksional vahid olaraq həm də idarəetmə vasitəsi kimi çıxış edir. Xüsusən də ekstremal vəziyyətdə medianın funksionallığı daha da artaraq ictimai-siyasi, sosial-iqtisadi həyatın bütün sferalarını əhatə etməklə onların istiqamətlərinin formalaşmasına ciddi təsir göstərir.

Akad. Ramiz Mehdiyev bildirmişdir ki, respublikamızda söz və məlumat azadlığının, kütləvi informasiya vasitələrinin inkişafı istiqamətində uğurlu siyasət həyata keçirilmişdir. Lakin bəzi hallarda media nümayəndələri bu azadlıqlardan sui-istifadə hallarına yol verirlər ki, bu da milli maraqlarımızla uzlaşmır. Müasir dövrdə medianın ən mühüm funksiyalarından biri də milli maraqları hər şeydən üstün tutmaq, vətəndaşları, cəmiyyəti vahid məqsəd uğrunda səfərbər etməkdir.

Akademik qeyd etmişdir ki, bəzi KİV-lərin, xüsusən də sosial medianın fəaliyyətinin funksionallığı bilərəkdən, yaxud bilməyərəkdən milli maraqlara qarşı yönəldilən bir vasitə kimi çıxış edir. Ona görə də xüsusən hərbi-ekstremal vəziyyətdə medianın fəaliyyətinin nizamlanması günün ən aktual məsələlərindən biridir: "Müasir informasiya cəmiyyətində medianın yeri və rolu olduqca böyükdür. Cəmiyyətin informasiya məkanında mövcud olan informasiya mübadiləsi, informasiya istehsalı və istehlakı, əslində, yeni sosiumun fərdləri olan insanların düşüncəsini, həyat tərzini, hadisələrə baxışını, onların davranışlarını müəyyənləşdirir. Bu davranışın hansı formada olması isə məhz informasiya məkanında dövriyyədə olan informasiyanın keyfiyyətindən çox asılıdır. Ona görə də hər bir milli dövlətin informasiya məkanı milli maraqlar baxımından proqnozlaşdırılmalı və məqsədyönlü şəkildə formalaşdırılmalıdır ki, ona nəzarət etmək və yönləndirmək mümkün olsun" [24].

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, prof. Ə.Həsənov hesab edir ki, demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun əsas tələbi kimi söz və məlumat azadlığının təminatı, demokratik və plüralist kütləvi informasiya vasitələrinin (KİV) yaradılması, iqtisadi və siyasi müstəqilliyinin təmin edilməsi, beynəlxalq rəqabətədavamlılığının artırılması, informasiya fəaliyyətinin hüquqi-normativ əsaslarının yenidən qurulması və s. prioritetə çevrilmişdir. Azərbaycan hakimiyyəti bu istiqamətdə bir çox beynəlxalq təşkilatlar və inkişaf etmiş demokratik ölkələrlə əməkdaşlıq edərək respublikada azad informasiya mühiti formalaşdırmış, ölkənin informasiya təhlükəsizliyinin təminatı mexanizmlərini bərqərar etmişdir" [25].

Rusiyalı psixoloq-alim Georgi Qraçev "Şəxsiyyət və cəmiyyət: İnformasiya-psixoloji təhlükəsizlik və psixoloji müdafiə" adlı əsərində bildirir ki, informasiya təhlükəsizliyi məsələsi dövlətin və şəxsiyyətin vacib seqmentlərindən biridir. Məlumatların psixoloji təsirlə-

rinin insan münasibətlərinin formalaşmasında və sosial davranışda rolu getdikcə artır. İnsanların psixoloji təhlükəsizliyinin təmin olunmasının əsas prinsiplərdən biri olmalıdır. Bunun üçün xüsusi vasitələrin tətbiqi tələb olunur [26, 195].

Tədqiqatçı Vaqif Qasımov "İnformasiya təhlükəsizliyinin əsasları" adlı dərslikdə qeyd edir ki, informasiya təhlükəsizliyi strategiyasının uzlaşdırılması üçün 3 mühüm şərt nəzərə alınmalıdır. Bunlar müdafiə, hücum və qabaqlayıcı strategiyalardan ibarətdir. Bu aktorların köməyilə informasiyanın etibarlı qorunmasını, məqsəd, meyar, prinsip və prosedurlarını həll etmək mümkündür [27, 279]. AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunun əməkdaşı R.Mahmudova "Cəmiyyətdə informasiya təhlükəsizliyi mədəniyyətinin formalaşdirilmasi məsələləri haqqinda" elmi araşdırmasında qeyd edir ki, informasiya texnologiyalarının köməyi ilə ictimai rəyin manipulyasiyası hazırda siyasi mübarizədə vasitələrdən biri hesab olunur və müxtəlif ölkələrin media instutlarının böyük bir qisminin heç də məqbul sayılmayan vərdişinə çevrilib. Bu xoşagəlməz tendensiya fərdi olaraq şəxsiyyət üçün deyil, həmçinin cəmiyyət və dövlət üçün təhlükə törədir [28, 34].

Bakı Dövlət Universitetinin professoru Akif Rüstəmov "İnformasiya təhlükəsizliyi sahəsində dövlət siyasəti" adlı məqaləsində bildirir ki, bəzi hallarda respublikamızda nəşr olunan qəzetlər erməni mətbuatının yazdıqlarını öz səhifələrində tirajlayırlar. Halbuki şərhlər vermək, ermənilərin məkrli niyyətlərini faktlarla ifşa etmək lazımdır: "Yaxşı olardı ki, Azərbaycanda çıxan xarici dilli mətbuat orqanları və internet saytları bu işdə fəallıq göstərsin. Odur ki, bir neçə dildə mətbuat orqanlarının çapına və onların elektron variantına nail olmalıyıq. Bu da Azərbaycanın mövqeyinin möhkəmlənməsinə dəstək verər" [29].

İnformasiyaya nəzarət olunması, informasiya ilə davranış prinsiplərinin müəyyən edilməsi və informasiya təhlükəsizliyinin qorunması Azərbaycan mediasının qarşısında duran vacib məsələlərdən biridir. İnstitusional vasitələrdən biri kimi çıxış edən KİV informasiya resurslarından istifadə edərkən öz hüquqi statusunu və məsuliyyətini, mənəvi borcunu nəzərə alaraq olduqca həssas davranmalıdır.

Nəticə

Beləliklə, qeyd edilənlərdən belə bir nəticəyə gəlmək mümkündür ki, qlobal informasiya mühitinin yarandığı müasir dövrdə mətbuatın səyləri nəticəsində informasiya cəmiyyətdə əsas strateji resursa çevrilmiş, onun rolu əhəmiyyətli dərəcədə artmşdır.

Kütləvi informasiya vasitələri dövlət idarəetmə sistemində mühüm vasitə olaraq xarici və daxili siyasətin formalaşmasında, həyata keçirilməsində, hökumətlə xalqın qarşılıqlı əlaqələrində, cəmiyyətin demokratik idarə olunmasında vacib rol oynayırlar.

KİV cəmiyyətin inkişaf dinamikasına təsir etmək və onu dəyişdirmək gücünə malikdir. Bu şəraitdə medianın strateji konseptinə uyğun olaraq dövlətin milli maraqlarının qorunması, milli birliyin və vətəndaşların mənafeyinin qorunması əsas fəaliyyət planını təşkil etməlidir.

Ədəbiyyat:

1. https://az.wikisource.org/wiki/%C4%B0nsan_H%C3%BCquqlar%C4%B1_Haqq%C4%B1nda_B%C9%99yannam%C9%99
2. Azərbaycan Respublikasının Konstitusiyası. Maddə 50. Məlumat azadlığı. https://az.wikisource.org/wiki/
3. "İnformasiya azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu. http://ict.az/az/content/112
4. Herbert J. Gans. "Democracy and the News". Publisher: New York, N.Y. Oxford 2003, pp. 168.
5. http://www.e-qanun.az/alpidata/framework/data/24/f_24193.htm
6. http://www.bibliotekar.ru/istoria-economicheskih-ucheniy-3/48.htm
7. http://www.mys.gov.az/uploaded/legislationorder-pdf/gdgciajbjehedKT_sarancam-azarbaycan-respublikasinda-informasiya-camiyyatinin-inkishafina-dair.pdf
8. Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya. http://president.az/articles/11312
9. Mehdiyev R.Ə. Qloballaşma şəraitində media və milli təhlükəsizlik məsələləri. "Xalq qəzeti". 04.09.2014
10. Məmmədli C."Kaspi" qəzetində informasiya siyasəti. http://artkaspi.az/file/pic/xeber/2016-12/1482913871_kaspi.-uc-esrin-qezeti.pdf
11. Никонов С.Б. Устойчивый феномен глобализации. «Современная наука». Серия «Гуманитарные науки», № 2-2012. http://www.nauteh-journal.ru/index.php/ru/--gn12-02/402-a%20 (10.02.2016
12. Кушнарев Ф.Ю. Информационная политика государственных органов управления как объект политического анализа / Ф. Ю. Кушнарев // Власть, 2004, N 8.
13. "Sosial Media" portalı. Sosial media anlayışı. http://sosialmedia.net/?page_id=7,% 12. 10.2016.
14. Hüseynzadə E. Yeni media vasitələri. Dərs vəsaiti. Bakı: CCC Azərbaycan MMC. 2012.
15. Briqs M. "Jurnalistika 2.0". Necə qurtulmalı və irəli getməli. İnformasiya əsri üçün rəqəmli savadlılıq təlimatı. Multimedia İnformasiya Sistemləri və Texnologiyaları Mərkəzi. Bakı, 2010. http://elibrary.bsu.az/books_rax/N_96.pdf
16. Fichtelius E. "Jurnalistikanın On qızıl qaydası". AJB-nin nəşri. Bakı, 2001. http://www.ajb.az/i/jurnalistikanin_on_qizil_qaydasi.pdf
17. Prinsip 1:Həqiqətə xidmət, dəqiqlik və obyektivlik. http://www.presscouncil.az/az/show.page.php?guid=6b713f93-ba53-11df-b529-0022190362dd
18. Gerald P. Long: Security Policies in a Global Organization. pp 3. https://www.sans.org/reading-room/whitepapers/policyissues/security-policies-global-organization-501
19. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi. http://www.president.az/articles/4098. 16.01.2016
20. http://www.azpress.az/index.php?sectionid=news&id=24604
21. Əlizadə M.N., Bayramov H.M., Məmmədov Ə.S. İnformasiya təhlükəsizliyi (dərslik). Bakı, 2016. Azərbaycan Dövlət İqtisad Universiteti. 384 s.
22. Əliquliyev R.M., İmamverdiyev Y.N. E-dövlətin informasiya təhlükəsizliyi: Aktual tədqitat istiqamətləri. AMEA İnformasiya Texnologiyaları İnstitutu,

Bakı: Azərbaycan. http://jpis.az/storage/files/article/fe936b011462517ea29956fcc889f0c2.pdf
23. Gündüz O. İnformasiya təhlükəsizliyi milli təhlükəsizlik sisteminin tərkib hissəsidir. "Şərq" qəzeti. 21.02.2015
24. https://apa.az/daxili_siyaset/prezident-administrasiyasinin-rehberi-ramiz-mehdiyevin-yaninda-dovlet-qurumlarinin-metbuat-xidmetlerinin-ve-kiv-rehberlerinin-musaviresi-kecirilib-video.html. 18.04.2017
25. Həsənov Ə. Azərbaycan Respublikasında informasiya fəaliyyəti və təhlükəsizliyi siyasəti. "Strategiya.az" saytı. 31.03.2014
26. Грачев Г.В. Личность и общество: информационно-психологическая безопасность и психологическая защита. М.: ПЕР СЭ, 2003, 301с.
27. Qasımov V. İnformasiya təhlükəsizliyinin əsasları. Dərslik / Bakı: MTN Maddi-texniki Təminat Baş İdarəsinin NPM-i, 2009, 340 s.
28. "İnformasiya cəmiyyəti problemləri" jurnalı. №1(7), 2013.
29. Rüstəmov A. İnformasiya təhlükəsizliyi sahəsində dövlət siyasəti. "Azərbaycan" qəzeti, 21.04.2017

Açar sözlər: *informasiya resursları, cəmiyyətin demokratikliyi, informasiya siyasəti, media ehtiyatları, informasiya cəmiyyəti, kibertəhlükəsizlik*

Khalid Niyazov
Head of the Department of Information Law
Institute of Law and Human Rights
of the National Academy of Sciences of Azerbaijan,
PhD in Political Science, Associate Professor

MEDIA CONTENT OF INFORMATION SECURITY PROBLEMS IN MODERN INFORMATION SOCIETY

SUMMARY

The position of the Government of the Republic of Azerbaijan is quite clear and constructive in the field of information Policy as well as ensuring comprehensive information support for people.

The media sector, which is one of the functionally leading sectors of the information society, has become a strategic institution of more dynamic, global, mass and socio-political opportunities for influence, as well as functions for providing and promoting information.

The media of a democratic society differs substantially from the media of non-democratic countries, which, first of all, is manifested in freedom of speech, and is considered one of the basic conditions for building a civil society.

Creating a powerful platform against cyberthreats is one of the fundamental tasks of the state. In order to eliminate modern threats to information security currently strategic approach is being formed.

The systematic and consistent implementation of the information security strategy and the effective use of propaganda and educational methods by the media contributed to the formation of an information security culture in the society.

Information security is a top priority for the media, which plays a key role in maintaining the society's information needs.

Key words: *Information Resources, Democratic Society, Information Policy, Media Resources, Information Society, Cyber Security*

Халид Ниязов
Заведующий отделом информационного права
Института Права и Прав человека
Национальной Академии Наук Азербайджана,
доктор философии по политическим наукам, доцент

МЕДИАКОНТЕНТ ВОПРОСОВ ИНФОРМАЦИОННОЙ БЕЗОПАСНОСТИ В СОВРЕМЕННОМ ИНФОРМАЦИОННОМ ОБЩЕСТВЕ

РЕЗЮМЕ

Информационная политика Азербайджанского государства и его позиция в сфере всестороннего информационного обеспечения людей достаточно ясна и конструктивна.

Медиа-сектор, являющийся одним из функционально ведущих секторов информационного общества, по своим возможностям более динамичного, глобального, массового и общественно-политического влияния, а также функциям предоставления и пропаганды информации, стал стратегическим институтом. Медиа демократического общества существенно отличаются от медиа недемократических стран, что, прежде всего, проявляется в свободе слова, а также является одним из основных условий построения гражданского общества.

Создание мощной платформы против киберугроз с целью обеспечения безопасности национального информационного пространства является одной из фундаментальных задач государства. На сегодняшний день формируется обоснованный стратегический подход к проблеме устранения современных угроз информационной безопасности.

Систематическое и последовательное осуществление стратегии информационной безопасности и эффективное использование со стороны медиа пропагандистских и прос-ве-тительских методов способствуют и формированию культуры информационной безопасности в обществе.

Информационная безопасность представляет особую актуальность для СМИ, выполняющих основную коммуникационную роль в обеспечении информационной потреб-ности общества.

Ключевые слова: *информационные ресурсы, демократичность общества, информационная политика, медиаресурсы, информационное общество, кибербезопасность*

VƏTƏN TARİXİ

NATIONAL HISTORY

VASİF QAFAROV
AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent

1918-Cİ İLİN YAZINDA AZƏRBAYCANDAN OSMANLI DÖVLƏTİNƏ GÖNDƏRİLƏN İLHAQNAMƏLƏR VƏ İLHAQ HEYƏTLƏRİ

1917-ci ilin sonlarından başlayaraq, Cənubi Qafqazda tüğyan edən anarxiyadan istifadə edən daşnak-bolşevik alyansı bölgədə türk-müsəlman əhalisi üzərinə sistemli şəkildə hücuma keçdi. Faktiki olaraq Azərbaycan xalqı təklənmişdi və mövcud olan daşnak-bolşevik təhlükəsi ilə təklikdə mübarizə aparmaq mümkün deyildi. Azərbaycanı təmsil edən, demək olar ki, bütün ictimai-siyasi qüvvələr birmənalı olaraq bu qənaətə gəldilər ki, Osmanlı yardımı olmadan Azərbaycan xalqını genişlənən daşnak-bolşevik təcavüzündən qorumaq mümkün olmayacaqdır [14]. Bütün ictimai-siyasi qüvvələr ölkəyə Osmanlı hərbi yardımını təmin etməyə tərəfdar olsalar da, Türkiyə yardımına münasibətdə milli qüvvələr arasında kəskin fikir ayrılığı var idi. Bir-birinə əks qütbdə dayanan bu cərəyanları istiqlalçılar və ilhaqçılar olmaqla iki qrupa bölmək olar. Azərbaycan milli azadlıq hərəkatının liderlərinin böyük əksəriyyəti istiqlalçı cərəyanı təmsil edirdilər və onlar belə hesab edirdilər ki, Osmanlı türkləri dil və din birliyi ilə bağlı olduqları Azərbaycan xalqına yardım etməklə onu erməni-bolşevik təcavüzündən xilas edəcək və Azərbaycanın öz müstəqilliyini əldə etməsində ona yardımçı olacaqlar. İlhaqçı cərəyanın nümayəndələri isə əksəriyyət etibarilə Azərbaycanın qəzalarında yaradılan müsəlman milli komitələrinin təmsilçiləri idilər, onlar ölkəyə Osmanlı yardımını təmin etməklə yanaşı, Azərbaycanın xilasının yeganə yolunu onun Osmanlı dövlətinə birləşdirilməsində görür və Azərbaycanın Türkiyəyə ilhaq edilməsi istiqamətində iş aparırdılar. Hər iki cərəyanın fəaliyyət istiqaməti və apardığı mübarizə geniş olduğundan, biz bu məqalədə yalnız ilhaqçı cərəyanın fəaliyyəti üzərində dayanıb, onu aydınlaşdırmağa çalışacağıq.

Azərbaycandakı türk-müsəlmanları genişlənən daşnak-bolşevik təcüvüzündən xilas etmək və onların təhlükəsizliyini qorumaq məqsədilə Osmanlı hərbi yardımına üz tutan ictimai-siyasi qüvvələr arasında ilhaqçı cərəyanı təmsil edənlər ölkənin xilasının yeganə yolunu onun Osmanlı dövlətinə birləşdirilməsində görürdülər. Bu cərəyanın nümayəndələri 1917-ci ilin sonlarında hələ təşkilati cəhətdən formalaşmış deyildilər. Bu cərəyanın təşkilati cəhətdən formalaşması prosesi 1918-ci ilin əvvəllərindən etibarən həyata keçirilməyə başladı və bu proses İstanbuldan verilən direktivlərlə birbaşa bağlı idi.

Ənvər paşa Qafqazdan Orta Asiyaya qədər olan əraziləri ələ keçirərək böyük türk birliyi olan "Turan"ı gerçəkləşdirmək istəyirdi. Qafqaz "Turan"a gedən yolda ilk addım olmaq etibarilə xüsusi əhəmiyyət kəsb edirdi. Sarıqamış əməliyyatı ilə bu planın qarşısına sədd çəkilsə də, 1917-ci ilin fevral inqilabından sonra Rusiya daxilində tüğyan edən anarxiya, cəbhələrdə rus ordularının uğursuzluqları və xüsusilə də Oktyabr çevrilişindən sonra Rusiyadakı böhranın dərinləşməsi Osmanlı siyasi dairələrində turançılıq ideyasının gerçəkləşməsi yolunda yeni ümidlər yaratdı.

1917-ci ilin sonlarından etibarən Osmanlı hökumətində, həmçinin İttihad və Tərəqqi partiyasının Mərkəzi Komitəsində gedən müzakirələrin yekununda ilk hədəf kimi Azərbaycan və bütövlükdə Qafqazda Türkiyənin lehinə fəaliyyət göstərəcək bir təşkilatın qurulması

qərara alındı. Bu məqsədlə İttihad və Tərəqqi partiyasının "Qafqaz Şöbəsi" adlı bir təşkilat yaradıldı və Təşkilat-ı Mahsusanın nümayəndəsi Həsən Ruşeni bəy bu təşkilatın başına gətirilərək 1918-ci ilin əvvəllərində gizli yolla Bakıya göndərildi. Ruşeni bəy təkcə Azərbaycanda deyil, Şimali Qafqaz və Türküstanda da Türkiyə lehinə aparılacaq fəaliyyətləri idarə etməli idi [21, s. 511-512; 22, s. 163]. Ruşeni bəy "Türkiyə nümayəndəsi" adı ilə Bakıda dərhal fəaliyyətə başladı və eyni zamanda Mehmed Emin Əfəndini də təşkilat qurmaq üçün Türküstana göndərdi. Ruşeni bəyə verilən təlimatnaməyə görə, onun Azərbaycandakı missiyası burada Türkiyə lehinə təbliğat aparmaq və Azərbaycanın Osmanlı dövlətinə ilhaq edilməsini xahiş etmək üçün ölkənin müxtəlif bölgələrindən heyətlər təşkil edib İstanbula göndərməkdən ibarət idi [5; 21, s. 513]. Buna görə də, Ruşeni bəy öz üzərinə düşən missiyanı yerinə yetirərək, ilk əvvəl 1918-ci il yanvarın 30-da İsa bəy Aşurbəylinin rəhbərliyində "Qafqaz İttihad və Tərəqqi partiyası"nı yaratdı, özü də bu partiyanın baş katibi oldu [13; 21, s. 674-675]. Özünü Türkiyə İttihad və Tərəqqi partiyasının Qafqaz Şöbəsi elan edən [2, f. 1-68] Qafqaz İttihad və Tərəqqi partiyası da, təbii olaraq, yarandığı ilk gündən Türkiyə yardımına münasibətdə Azərbaycanın Osmanlı dövlətinə birləşdirilməsinə tərəfdar çıxdı və öz fəaliyyətini bu istiqamətdə qurdu. Qısa zamanda Qafqaz İttihad və Tərəqqi Partiyasının Azərbaycanın müxtəlif bölgələrində şöbələri yaradıldı. Partiyanın Ağdaş, Göyçay, Şamaxı və Kürdəmir şöbələri bölgə əhalisini demək olar ki, tamamilə özünə tərəf çəkməklə xüsusilə seçilirdilər.

Qeyd edək ki, rus inqilabından sonra Azərbaycanın bir çox bölgələrində bu və ya digər dərəcədə ittihad ideyalarını daşıyan təşkilatlar yaranmağa başlamışdı. Onlardan İrəvan, Göyçay və Şuşadakı "İttihad" cəmiyyətləri, Gəncədəki Axund Molla Məhəmməd Pişnamazzadənin rəhbərlik etdiyi "İttihadi-İslam" cəmiyyəti və 1917-ci ilin yayında Bakıda yaranan "Rusiyada müsəlmanlıq" partiyası əhali arasında müəyyən nüfuza malik idilər [20, s. 38-41]. Bu təşkilatlar siyasi həyatın üzvünə çevrilsələr də, 1918-ci ilin əvvəllərinə qədər onların fəaliyyəti təmsil etdikləri bölgədən kənara çıxmayaraq, sadəcə lokal xarakter daşıyırdı. 1917-ci il noyabrın 26-da Cənubi Qafqazda, o cümlədən Azərbaycanda Ümumrusiya Müəssislər Məclisinə keçirilən seçkilərdə 615.816 səs alaraq 10 yer əldə edən "Müsavat"la müqayisədə "İttihad"ın cəmi 66.504 səs alması və 1 mandat əldə etməsi göstərir ki, "ərazi muxtariyyəti" və istiqlal yolunu tutmuş "Müsavat"la müqayisədə ittihadçılar hələ Azərbaycan cəmiyyətində elə də ciddi dəstəyə malik deyildilər. 1918-ci ilin yanvar ayının sonlarında Bakıda fəaliyyət göstərən "Rusiyada müsəlmanlıq" partiyası ilə Gəncədəki "İttihadi-İslam" cəmiyyəti, "İttihadi-İslam – Rusiyada Müsəlmanlıq" adı altında birləşdikdən sonra ittihadçılar, bir siyasi güc olaraq görünməyə başladılar. Hələ 1917-ci ilin 15-20 aprel tarixlərində keçirilən Qafqaz müsəlmanlarının Bakı qurultayında "ərazi muxtariyyəti" ideyasına qarşı çıxan ittihadçılar, bunu Rusiya müsəlmanlarının parçalanması kimi görür və "mədəni muxtariyyət" ideyasını müdafiə edirdilər. 1918-ci ilin yazında ölkəyə təmin edilməli olan Türkiyə yardımına münasibətdə istiqlalçılarla ilhaqçıların mübarizəsi gedən zaman da ittihadçılar birmənalı olaraq istiqlal ideyasına qarşı çıxır və Azərbaycanın Osmanlı dövlətinə ilhaq edilməsi ideyasını müdafiə edirdilər. Xüsusilə də, partiyanın M.Pişnamazzadənin rəhbərlik etdiyi Gəncə qrupu bu ideyanın qızğın tərəfdarı idi.

Ruşeni bəy Qafqaz İttihad və Tərəqqi partiyası ilə ideya yaxınlığı olan və onunla eyni məsləkə qulluq edən Azərbaycan ittihadçıları ilə fəaliyyət birliyinə girdi və xalq kütlələri arasında təbliğat işini genişləndirdi. Bu təbliğatın təsiri ilə Azərbaycanın qəzalarında yaradılmaqda olan müsəlman milli komitələrinin əksəriyyəti ilhaqçı cərəyanın tərəfdarına çevrildilər və bu cərəyan Azərbaycanın ictimai-siyasi həyatına təsir edə biləcək bir qüvvə halına gəldi.

Qafqaz İttihad və Tərəqqi partiyası 1918-ci il martın 7-də Osmanlı Qafqaz cəbhəsi koman-

danlığına, martın 14-də də İran cəbhəsi komandanlığına məktubla müraciət etdi [2]. Müraciətdə, "çox ağır və təhlükəli günlər yaşayan Qafqazın müsəlman ruhu Qafqaz İttihad və Tərəqqi partiyası adı ilə Türkiyənin müqəddəs bayrağını əlinə alaraq qəti və mətin addımlar atmağa başladığı" vurğulandıqdan sonra qeyd edilirdi ki, "mübarizəmiz qarlı fırtınalara təsadüf etdiyindən, Qafqazın namuslu övladları bizə yetişən fədakar Türkiyə qardaşlarımızla qanlar içində üzmək surətilə belə olsa, məqsədə çatmağa çalışacaqdır. Lakin müvəffəqiyyətin açarı Türkiyə ordularının əlindədir. Əgər Qafqaz cəbhəsindəki ordu sürətlə Batum və Qarsı işğal etdikdən sonra Gəncəyə doğru irəliləyərsə və bir kolordu ilə Azərbaycandan (Cənubi – V.Q.) Qarabağ və Bakıya doğru yönələrsə, bir neçə gün ərzində bütün Qafqaz ana vətənə birləşəcək və böyük Türkiyənin Asiyadakı əbədi səltənəti qurulacaqdır" [2]. Müraciətdə daha sonra, Qafqazın milyardlarla sərvətlərinin gündən-günə bolşevik və erməni qüvvələrinin əlinə keçməsindən, kiçik bir hadisənin Bakının məhvinə səbəb olacağından bəhs edilir, "daşıdığı əvəzsiz sərvətlərlə Türkiyə tacının ən qiymətli almazı olmağa layiq Bakı xəzinəsinin" bu fəlakətdən qurtarılmasının vacib olduğu vurğulanırdı. Sonda da Qafqaza göndəriləcək məmurların birbaşa Türkiyənin bir şöbəsi olan Qafqaz İttihad və Tərəqqi partiyasına müraciət etmələri tövsiyə olunur, Türkiyədən bir alay əsgər göndərilərsə, ikinci alayın burada təşkil ediləcəyi diqqətə çatdırılırdı.

Bu müraciətdən bir qədər sonra, 1918-ci il 28 mart tarixində Qafqaz İttihad və Tərəqqi partiyasının Mərkəzi Ümumisi "Protokol" adlanan, Osmanlı dövlətinə müraciət mahiyyətli bir bəyanatla çıxış etdi [13]. Partiyanın "Böyük Türkiyə və İttihadi İslam, Qafqaz İttihad və Tərəqqi Firqəsi Mərkəzi Ümumi" yazılmış rəsmi blankında qələmə alınan bu "protokol"da Qafqazın təbii və coğrafi şəraiti, iqlimi, gözəllik və zənginlikləri haqqında məlumat verilir, eramızdan əvvəl 720-ci ildən 1878-ci ilə qədər illər üzrə xronoloji ardıcıllıqla Qafqazın tarixi ilə bağlı əhəmiyyətli hadisələr sıralanır və bunların ardınca qeyd edilir ki, "Qafqaz bu qanlı sərgüzəştlərini bitirmək və həqiqi səadətə qovuşmaq üçün öz tarixinə daha bir hadisəni qeyd etməlidir: 1918-ci il – Qafqazın öz həqiqi sahibinə rücuu (qatılması), yəni qiymətli Qafqazın sevgili Türkiyəyə ilhaqı" [13, f. 1-3].

Bəyanatda Qafqaz müsəlmanlarının siyasi tələb və arzuları diqqətə çatdırılaraq bildirilirdi ki, "qeyd şərtsiz bütün Qafqaz (şimalı və cənubu) ana vətənimiz olan Türkiyəyə ilhaq olunmalıdır" [13, f. 1-12]. Qafqazın bütün müsəlmanlarının iradəsini ifadə etdiklərini bildirən bəyanat müəllifləri, öz ilhaqçı fikirlərini bolşevik Rusiyası liderlərinin "hər bir millətin öz müqəddəratını təyin etmək" barəsindəki rəsmi sənədlərinə istinad edərək əsaslandırırdılar. Onlara görə, bolşevik hökuməti rəhbərləri tərəfindən öz müqəddəratını müəyyənləşdirmək zəmanəti alan Qafqazın 6 milyonluq müsəlman əhalisi Türkiyəni Qafqaza çağırır və bütün Qafqazın ana vətənləri olan Türkiyəyə birləşdirilməsini tələb edirdilər. Bəyanatda bildirilirdi ki, indi qalib kürsüsündə oturan Türkiyə tarixin, qüvvənin və siyasətin ona bəxş etdiyi haqlara istinad edərək dərhal Qafqazı almalı və onu çağıran qardaşlarını azad etməlidir [13, f. 1-12, 1-13].

Bəyanatın sonunda Tiflis hökuməti adından gürcü və ermənilərlə birlikdə Trabzona gedən müsəlman nümayəndələrinin millətin ruhu ilə heç əlaqəsinin olmadığı və "düşmənlərimizlə birlikdə bir düşmən kimi öz dövlətimizə gedən bu nümayəndələrə" xalqın qəzəblə baxdığı diqqətə çatdırılaraq, onlara qarşı etimadsızlıq göstərilirdi [13, f. 1-18, 1-19].

Bu bəyanat Qafqaz İttihad və Tərəqqi partiyasının rəisi İsa Aşurbəyli, baş katibi Ruşeni bəy, müfəttiş Cahangir Qayıbzadə, müfəttiş Kalar Mahmudbəyzadə, xəzinədar Sadıq Hüseynzadə, üzvlərdən Ağa Aşurov, Rüstəm xan Xoyski, doktor Məhəmməd Qayıbzadə, Əbdüləli bəy Əmircanov tərəfindən imzalamış və partiyanın möhürü ilə möhürlənmişdi [13, f. 1-19]. Bəyanatdan partiyanın Türkiyə yardımına münasibətdə tutduğu mövqe tam aydın olduğundan əlavə şərhə ehtiyac görmürük.

Qafqaz İttihad və Tərəqqi partiyası Azərbaycan qəzalarında öz şöbələrini yaratmaqla paralel olaraq, bölgələrdəki müsəlman milli komitələrini öz tərəfinə çəkmək işi ilə də məşğul olur, eyni zamanda öz nümayəndələrini Cənubi Qafqazın müxtəlif bölgələrinə göndərərək və ya bu bölgələrdəki milli komitələrə məktubla müraciət edərək, Azərbaycanın Osmanlı dövlətinə ilhaq edilməsini xahiş etmək məqsədilə İstanbula göndəriləcək heyətdə iştirak edəcək nümayəndələrini göndərməyi xahiş edirdi [5].

1918-ci ilin yazında ölkədə qıtlıq, bahalıq, aclıq və hərc-mərcliklə yanaşı, dərinləşməkdə olan anarxiya və daşnak-bolşevik alyansının türk-müsəlman əhaliyə qarşı törətdiyi soyqırım cinayətləri qarşısında aciz olan əhali nümayəndələri yardım üçün müraciət etdikləri Tiflis hökumətindən və Seymdəki müsəlman nümayəndələrindən heç bir kömək görmədikdə, onlardan üz döndərir, asi vəziyyətə düşür və yardım üçün Osmanlı dövlətinə üz tutmalı olurdular. Yaranmış vəziyyətdən Qafqaz İttihad və Tərəqqi partiyası istifadə edərək, bölgələrdəki avam xalq kütlələri arasında "Seymdəki müsəlman nümayəndələrin xalqı düşünmədikləri və sadəcə özlərinə vəzifə tutmaq uğrunda mübarizə apardıqları, xalqın nicatının yeganə yolu isə Osmanlı hakimiyyətini qəbul etməkdə olduğu" istiqamətində təbliğat aparır və müsəlman əhalisini Seymdəki Azərbaycan nümayəndələrinə etimadsızlıq göstərməyə çağırırdı. Dövrün tarixi mənbələri sübut edir ki, əslində Tiflisdəki Azərbaycan nümayəndələri mövcud şərtlər daxilində ölkə üçün mümkün olandan da çox çalışırdılar, fəqət onlar da dərinləşən anarxiyanın və törədilən soyqırımların qarşısını almaq gücündə deyildilər. Lakin təbliğat öz işini görməkdə idi.

Qafqaz İttihad və Tərəqqi partiyası Azərbaycanın Osmanlı dövlətinə ilhaq edilməsini xahiş etmək məqsədilə Türkiyəyə göndəriləcək heyəti formalaşdırmaq üçün 1918-ci ilin aprel-may aylarında Azərbaycan bölgələrində geniş kampaniya apardı. Azərbaycanın demək olar ki, bütün bölgələrini əhatə edən bu kampaniyanın gedişində Ağdaş, Kürdəmir, Şamaxı, Şuşa, Ağdam, Samux, Nuxa, Zaqatala, Gəncə və digər bölgələrdəki milli şura və komitələr adı çəkilən partiyanın siyasi xəttini tamamilə qəbul etdilər və birmənalı olaraq Azərbaycan istiqlalı fikrinin əleyhinə çıxdılar. Hər bir bölgənin müsəlman milli şura və ya komitəsində, bu yoxdursa müsəlman əhalinin ümumi yığıncağında onların Osmanlı dövlətinin təbəəliyini qəbul etdikləri ilə bağlı qərarlar qəbul edildi, bu qərarlarla bağlı Osmanlı sədrəzəminə müraciət ünvanlandı və ilhaqı xahiş etmək üçün nümayəndələr müəyyən edildi.

Hazırda Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivində saxlanılan bu müraciətlərin araşdırılması göstərir ki, bütün bu ilhaqnamələr məlum qüvvələr tərəfindən təşkil edilmişdir. Ağdaşda olduğu kimi, Kürdəmirdən də Osmanlı hökumətinə göndərilən ilhaqnamələrin hamısının mətninin sətirbəsətir eyni olması, burada da müraciətlərin müəyyən qüvvələr, daha doğrusu Qafqaz İttihad və Tərəqqi partiyası tərəfindən hazırlanaraq təşkil edildiyi gerçəyini ortaya qoyur. İlkin dövrlərdə Azərbaycanın Türkiyəyə ilhaq edilməsini xahiş etmək üçün Qafqaz İttihad və Tərəqqi partiyası tərəfindən ayrı-ayrı bölgələrin nümayəndələrindən təşkil edilməkdə olan heyətin İstanbula göndərilməsi planlaşdırılsa da [5], Osmanlı imperiyası ilə Cənubi Qafqaz Respublikası arasında Batumda konfrans keçiriləcəyi haqqında məlumat alınan kimi, heyətin gedəcəyi istiqamət Batuma dəyişdirildi [18, v. 1-2]. Bu cür etimadnamə və şəhadətnamələrin verilməsi, xüsusilə Batum konfransının keçirildiyi may ayında və iyun ayının əvvəllərində geniş vüsət aldı.

Osmanlı arxiv sənədlərindən görünən odur ki, göstərilən bu cür ilhaqnamə, etibarnamə və vəkalətnamələrin verilməsi işi hətta Batum konfransı bitəndən sonrakı günlərdə də davam etmişdir. Bütün bu ilhaqnamə, etibarnamə və vəkalətnamələri əllərinə alan nümayəndələr Azərbaycanın Türkiyəyə ilhaq edilməsini təmin etmək məqsədilə Osmanlı imperiyası ilə Cənubi Qafqaz Respublikası arasında keçiriləcək Batum konfransının (11 may – 4 iyun 1918 ci il) ərəfəsində Tiflisə və Batuma

axışmağa başladılar. Konfransın ərəfəsində və ilkin dövrlərində Tiflis hökuməti müxtəlif yollarla bu şəxslərin Batuma getməsinə mane olmağa çalışdı. Bu mümkün olmadıqda, ayrı-ayrı bölgələrdən gələn heyətlərin birləşdirilməsi yolu ilə bir neçə bölgədən cəmi bir nəfərin Batuma getməsinə icazə verildi. Bu halda ayrı-ayrı heyətlər Batuma buraxılan şəxslərə vəkalətnamə verib öz bölgəsinin də təmsil edilməsini xahiş etdilər [18, v. 1-2].

May ayının ikinci ongünlüyündən etibarən, "ilhaq heyətləri"nin Batuma axını elə bir ciddi şəkil aldı ki, Tiflis hökumətinin onları Batuma buraxmamaq cəhdləri nəticəsiz qaldı. Yaranmış gərgin vəziyyətdən narahatlıq keçirən Seymin müsəlman fraksiyası mayın 13-də Tiflisdə Azərbaycan qəzalarından gələn nümayəndələrlə birgə iclas keçirdi. İclasda göstərildi ki, Seym üzvləri M.Ə.Rəsulzadə və M.H.Hacınski Batumda bütün Azərbaycan xalqının mənafeyini müdafiə etdiyi halda ayrı-ayrı nümayəndələrin Batuma getməsinə ehtiyac yoxdur. Bu iclasda Türkiyənin Azərbaycana hərbi yardımını sürətləndirmək üçün M.Y.Cəfərov, N.Yusifbəyli və X.Xasməmmədovun Batuma və İstanbula ezam olunması haqqında qərar qəbul edilsə [1, v. 39-40] də, bu qərar "ilhaq heyətləri"nin Batuma getməsinin qarşısını ala bilmədi, onlar dəstə-dəstə Batuma yollandılar.

Batuma gələn "ilhaq heyətləri" buradakı Osmanlı nümayəndə heyəti ilə görüşməyə və ilhaqnamələrini təqdim etməyə cəhd edirdilər. Bəhs edilən dövrdə Batumdakı mənzərəni təsvir edən Əhməd Refik Altınay "Qafqaz yollarında" adlı xatirələrində yazır ki, konfransın keçirildiyi günlərdə Batumun küçələrində, parklarında və teatrlarında Qafqazın ən uzaq nöqtələrindən gələn və Osmanlıya birləşməyi tələb edən nümayəndələr dolaşırdılar [19, s. 72, 75-76].

1918-ci il may ayının 14-də Gəncə Milli Şurası vəkili müəllim Cavad Axundzadə, İrəvan vilayəti Milli Məclisi nümayəndəsi müəllim Əli Xeyri Əbdülhəmid, Gəncə vilayəti Milli Məclisi nümayəndəsi doktor Xudadat Rəfibəyli və Cənubi Qafqaz Müsəlman Mərkəzi Komitəsinin üzvü doktor Xosrov Paşa Sultanovun imzaları ilə Tələt paşaya göndərilən teleqramda, Qafqaz cəbhəsindən geri çəkilən rus ordusunun öz silahlarını erməni quldur dəstələrinə verməsi, əli silah tuta bilən bütün ermənilərin silahlanması və bölgədəki türk-müsəlmanlara qarşı soyqırım aktları həyata keçirməsi, təkcə İrəvan vilayətində yüz otuz müsəlman kəndinin əhalisinin bir qisminin öldürülməsi, digər qisminin də qaçqına çevrilməsi, müsəlmanlardan boşaldılan kəndlərdə erməni mühacirlərinin yerləşdirilməsi, İrəvan, Naxçıvan və Qarabağın ermənilərin mühasirəsində olması və bütün bu fəlakətlər qarşısında yardım üçün müraciət edilən Cənubi Qafqaz hökumətinin heç bir tədbir görməməsi kimi məsələlər diqqətə çatdırılır və bütün bu zülm və təcavüzlərə son qoyulması üçün bölgəyə Osmanlı yardımının göndərilməsi xahiş edilirdi [16, v. 77-78].

Bəhs edilən dövrdə Tələt və Ənvər paşalar, eyni zamanda Qafqaz cəbhəsi komandanı Vehib paşa Qafqazın Türkiyəyə ilhaq edilməsini tələb edirdilərsə, regiondakı və beynəlxalq vəziyyəti düzgün qiymətləndirən Xəlil bəy Menteşə bunu uyğun görmürdü. Çünki bu, Brest-Litovsk sülhünün pozulması idi və Rusiya ilə yeni müharibə təhlükəsi yarada bilərdi. Digər tərəfdən Qafqazın ilhaqı məsələsi birmənalı olaraq Almaniya tərəfindən dəstəklənmirdi. Ona görə də Xəlil bəy, təklif edirdi ki, ilk öncə Qafqazın beynəlxalq vəziyyəti aydınlaşdırılmalı, yəni onun Rusiyadan ayrılmasının Rusiya və Almaniya tərəfindən tanınmasına nail olunmalı, bundan sonra ilhaq məsələsinə girişilməlidir [16, v. 88-89]. Çətinliklə də olsa, Xəlil bəy bu mövqeyini Tələt paşaya qəbul etdirə bildi. Cənubi Qafqaz Seyminin parçalanmasından sonra Cənubi Qafqazda gürcü və müsəlman dövlətlərinin, daha sonra həm də erməni dövlətinin yaradılması qərarlaşdırıldı və bu mövqe həyata keçirilməyə başladı. Lakin Ənvər paşa, hələ öz mövqeyindən geri çəkilməmişdi.

Buna görə də Xəlil bəy Batuma toplaşan "ilhaq heyətləri"nə hazırki vəziyyətdə ilhaqın mümkün olmadığını bəyan etdi və tövsiyə etdi

ki, evlərinə qayıdıb qurulacaq istiqlaliyyəti müdafiə etsinlər: "Biz süngümüz ilə Qafqaza daxil olduq. Siz bizə ilhaq olmaq istəməsəydiniz də biz sizi süngü ilə ilhaq edərdik. Ancaq buna imkan yoxdur. Bizim birləşməyimizi nə düşmən, nə də dost dövlətlər qəbul edər. Biz sizə yardım edirik və edəcəyik. İstiqlalı əldə edib müstəqil yaşamanız üçün nə qədər lazım olsa əsgər göndərəcəyik, hərtərəfli kömək edəcəyik. Öz vətənimiz kimi sizin vətəninizi də qoruyacağıq. Evlərinizə qayıdın və qurulacaq istiqlaliyyəti müdafiə edin" [23, s. 80].

Xəlil bəyin bu sərt mövqeyi qarşısında Azərbaycanın Osmanlı dövlətinə ilhaq edilməsi məsələsinin gerçəkləşməsinə Seymin müsəlman fraksiyasının mane olduğu və imkan vermədiyi qənaətinə gələn "ilhaq heyətləri" təcili qatarlara minib Gəncəyə, Nuru paşa ilə görüşməyə yollandılar.

Bununla da, 1917-ci ilin sonlarından etibarən Osmanlı yardımına münasibətdə Azərbaycan cəmiyyətində iki cərəyan – ilhaqçılar və istiqlalçılar arasında gedən mübarizənin birinci mərhələsi sonuncuların qələbəsi ilə başa çatdı.

Beləliklə, bütün bunları ümumiləşdirərək qeyd edə bilərik ki, Azərbaycanı təmsil edən bütün ictimai-siyasi qüvvələr ölkəyə Osmanlı hərbi yardımını təmin etməyə çalışsalar da, Türkiyə yardımının xarakterinə münasibətdə milli qüvvələr arasında kəskin fikir ayrılığı var idi. Nəinki ictimai-siyasi qüvvələr, hətta xalq kütlələrinin böyük əksəriyyəti istiqlalçılar və ilhaqçılar olaraq iki qütbə bölünmüşdülər. İstiqlalçı cərəyanın nümayəndələri ölkəyə Osmanlı dövlətinin hərbi yardımını təmin etməklə türk-müsəlmanları erməni-bolşevik təcavüzündən xilas etmək və Azərbaycanın müstəqilliyinin əldə olunmasına nail olmaq istəyirdilər. İlhaqçılar da, genişlənən erməni-bolşevik təcavüzündən türk-müsəlmanları xilas etmək üçün ölkəyə Osmanlı yardımının təmin edilməsinə çalışırdılar, lakin onlar bu yardım müqabilində Azərbaycanın Osmanlı dövlətinə birləşdirilməsini istəyir və xalqın xilasının yeganə yolunu bunda görürdülər. İstiqlalçı cərəyanın başında əsasən Azərbaycan milli hərəkatının liderləri durduqları halda, ilhaqçı cərəyanın başında Türkiyə İttihad və Tərəqqi partiyasının Azərbaycandakı şöbəsi olan Qafqaz İttihad və Tərəqqi partiyası dayanırdı. Azərbaycanın müxtəlif bölgələrindən ölkənin Osmanlı dövlətinə ilhaq edilməsi ilə bağlı yazılan ilhaqnamələr və Türkiyəyə göndərilən "ilhaq heyətləri" Qafqaz İttihad və Tərəqqi partiyasının Ənvər paşanın direktivləri ilə Azərbaycanda apardığı missiyasının, daha dəqiq desək, Osmanlı hökumətinin öz "turançı" siyasətinin nəticəsi idi.

İlhaqçı cərəyanın nümayəndələri Batum konfransı dövründə Seymin müsəlman fraksiyasına, daha sonra Milli Şuraya qarşı göstərdiyi etimadsızlığa baxmayaraq, beynəlxalq şərait Azərbaycanın Osmanlı dövlətinə ilhaq edilməsi üçün əlverişli olmadığından İstanbul hökuməti Azərbaycanda müstəqil bir cümhuriyyətin təşkil edilməsi, ilhaqın isə sonraya saxlanılmasına qərar verdi. Bu qərar Azərbaycanın taleyi məsələsində ilhaqçılarla istiqlalçılar arasında gedən mübarizədə sonuncuların qələbəsi olsa da, bu qələbə ilhaqçıların hələ tam neytrallaşdığı demək deyildi. Azərbaycanın müstəqilliyinin elan edilməsindən az sonra, 1918-ci il iyunun 8-də M.Pişnamazzadə ətrafına topladığı ilhaqçı milli komitələrin nümayəndələri ilə birgə Osmanlı hərbi komandanlığına bəyanatla müraciət edərək, Azərbaycanın Türkiyəyə ilhaqından başqa heç bir idarə şəklini tanımayacağını və bu məsələdə bütün mövcudiyyətiylə hər şeyini fəda etməyə hazır olduğunu bildirərək, istiqlaliyyətə və cümhuriyyət hökumətinə etimadsızlıq nümayiş etdirdi [16, v. 67]. Buna görə də, müstəqilliyin elan edilməsi ilhaqçılarla istiqlalçılar arasında gedən mübarizənin sadəcə birinci mərhələsinin başa çatması demək idi. İstiqlalın elanından sonra bu cərəyanlar arasında mübarizənin ikinci mərhələsi başlamış oldu ki, bu da 1918-ci ilin "İyun böhranı"na gətirib çıxartdı.

Ədəbiyyat:

1. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f. 970, siy. 1, iş 1.
2. Türkiye Cumhuriyeti Genelkurmay Askeri Tarih ve Stratejik Etüd Dairesi Başkanlığı Arşivi (ATASE), BDH, K. 1854, D. 120, F. 1-68, 1-69.
3. ATASE, BDH, K. 1854, D. 120, F. 1-73, 1-74.
4. ATASE, BDH, K. 2918, D. 496, F. 1-11.
5. ATASE, BDH, K. 2923, D. 521, F. 1.
6. ATASE, BDH, K. 2923, D. 521, F. 2, 2a.
7. ATASE, BDH, K. 2923, D. 521, F. 2-3, 2-3a.
8. ATASE, BDH, K. 2923, D. 521, F. 2-4, 2-4a.
9. ATASE, BDH, K. 2923, D. 521, F. 7-10, 7-10a.
10. ATASE, BDH, K. 2923, D. 521, F. 7-11, 7-11a.
11. ATASE, BDH, K. 2923, D. 521, F. 7-12, 7-12a.
12. ATASE, BDH, K. 2923, D. 521, F. 7-19, 7-19a, 7-20, 7-20a, 7-21, 7-21a.
13. ATASE, BDH, K. 3818, D. 2, F. 1:1-19.
14. ATASE, BDH, K. 3823, D. 22, F. 7.
15. ATASE, BDH, K. 3824, D. 26, F. 3.
16. Türkiye Cumhuriyeti Başbakanlık Osmanlı Arşivi (BOA), HR.SYS, no. 2371/6.
17. BOA, HR.SYS, no. 2373/1.
18. BOA, HR.SYS, no. 2398/4.
19. Altınay A.R. Kafkas Yollarında: Hatıralar ve Tahassüsler. İstanbul, Matbaa-ı Orhaniye, 1919.
20. Göyüşov A. Azərbaycanda ittihadçılıq. Bakı, Azərbaycan EA mətbəəsi, 1997.
21. Kurat A.N. Türkiye ve Rusya. Ankara, Kültür Bakanlığı Yayınları, 1990.
22. Swietochowski T. Müslüman Cemaat'ten Ulusal Kimliğe Rus Azerbaycanı 1905-1920. Türkcesi: Nuray Mert. İstanbul, Bağlam Yayınları, 1988.
23. Şeyxzamanlı N. Azərbaycan istiqlal mücadiləsi xatirələri. Bakı, Azərbaycan, 1997.

Açar sözlər: *İlhaqnamələr, ilhaq heyətləri, İttihad və Tərəqqi partiyasının Qafqaz Şöbəsi, Qafqaz İttihad və Tərəqqi partiyası, Batum konfransı, Ruşeni bəy*

Vasif Gafarov
Research Fellow at the Institute of History
named after A.A. Bakykhanov of the National Academy
of Sciences of Azerbaijan, PhD in History

ANNEXATION DOCUMENTS AND DELEGATION TRANSFERRED TO OTTOMAN EMPIRE BY AZERBAIJAN IN 1918, SPRING PERIOD

SUMMARY

The article examines the activities of the annexation direction of national forces with the aim of saving the Turkish-Muslim population from the attack of the Bolshevik-Dashnak alliance in late 1917-spring 1918, when political chaos prevailed in the South Caucasus.

It has been proven by the fact that the annexation documents and delegation sent to the Ottoman Empire by Azerbaijan were organized by the Turks, the source of this activity was the policy of "Turanism" of the Ottoman Empire. Archival documents involved in research on this issue were presented for the first time to the scientific field.

Key words: *Annexation Documents and Delegation, The Caucasus Department of Ittihad and Taraggi Party, Caucasus Ittihad and Taraggi Party, Batumi Conference, Sir Rusheni*

Васиф Гафаров
Ведущий научный сотрудник Института Истории имени А.А.Бакиханова
Национальной Академии Наук Азербайджана,
доктор философии по истории, доцент

ДОКУМЕНТЫ АННЕКСИИ, ПОСЛАННЫЕ АЗЕРБАЙДЖАНОМ ОСМАНСКОМУ ГОСУДАРСТВУ ВЕСНОЙ 1918 ГОДА, И АННЕКСИОНИСТСКИЕ ДЕЛЕГАЦИИ

РЕЗЮМЕ

В статье исследуется деятельность аннексионистского направления национальных сил с целью спасения тюрко-мусульманского населения от нападения большевистско-дашнакского альянса в конце 1917-весной 1918 гг., когда в Закавказье царил политический хаос. Документальными фактами доказывается, что документы аннексии, посланные Азербайджаном Османской империи, и аннексионистские делегации были организованы самими турками и источником этой деятельности являлась политика "Туранизма" Османской империи. Архивные документы, привлеченные к исследованию по этому вопросу, впервые введены в научный оборот.

Ключевые слова: *аннексии, аннексионистские делегации, Кавказское Отделение партии Иттихад и Терегги, Кавказская партия Иттихад и Терегги, Батумская конференция, Рушени бек*

VƏTƏN TARİXİ
NATIONAL HISTORY

KAMRAN İSMAYILOV
Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnistitutunun
aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ VƏ AZƏRBAYCANÇILIQ MƏFKURƏSİ

Əsas komponentləri etnik-dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların birliyini, tolerantlıq və multikulturalizm olan "Azərbaycançılıq" ideologiyasının istinad nöqtəsi heç şübhəsiz, güclü, müstəqil, dayanıqlı dövlət ideyasıdır. "Azərbaycançılıq" ideologiyasının təşəkkül tapmasında, milli dövlətçiliyin inkişafında 1918-1920-ci illər mühüm mərhələ təşkil edir. Məhz bu illərdə Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik milli dövləti yenidən bərpa edilmiş, islam dünyasında ilk respublika - Azərbaycan Xalq Cümhuriyyəti mövcud olmuşdur. 1918-ci ilin mayında Azərbaycan Cümhuriyyətinin yaranması bir çox cəhətlərinə görə dünyada, Rusiya imperiyasında və Cənubi Qafqaz regionunda cərəyan edən siyasi və hərbi proseslərin tərkib hissəsi və nəticəsi olduğundan, beynəlxalq əhəmiyyətli hadisə idi. Bununla yanaşı, İslam dünyasında ilk demokratik cümhuriyyətin məhz Azərbaycanda yaranması XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda baş vermiş mütərəqqi ictimai-siyasi, sosial-iqtisadi və mədəni-mənəvi dəyişikliklərin, xalqımızın görkəmli şəxsiyyətlərinin, mütəfəkkir ziyalılarının millətin oyanışı və dirçəlişi uğrunda apardıqları inadlı mücadilənin məntiqi nəticəsi olmuşdur. Əslində Azərbaycan Xalq Cümhuriyyətinə gedən yolun ilk cığırları məhz həmin dövrlərdən başlayır. "Azərbaycançılıq" ideyasının formalaşmasının ilkin mərhələsi elə Azərbaycanın çar Rusiyası tərəfindən işğalı ilə başlamış və bütün XIX əsri əhatə etmişdir. XIX əsrin əvvəllərində Azərbaycan torpaqlarının Rusiya ilə İran arasında bölüşdürülməsi xalqımızın siyasi və mənəvi birliyinin pozulması ilə nəticələnsə də, xüsusən ölkənin şimalında mədəniyyətdə, ictimai fikirdə mütərəqqi dəyişikliklərə də səbəb oldu, "bizonlar" antitezasının daha da aşkar şəkildə təzahür etməsinə, milli kimliyimizin müəyyənləşməsinə şərait yaratdı. Azərbaycanın çarizm tərəfindən işğal olunmuş hissəsində yaşayan əhali Rusiya imperiyasında yaşayan digər xalqlarından fərqli olduğunu anladıqca, etnomədəni cəhətdən həm də farslardan fərqliliyini də dərk etməyə, bununla da İranın etnik-mədəni təsirindən azad olmağa başlayırdı. M.Ə.Rəsulzadə bununla bağlı göstərirdi ki, rus istilasının xeyri bu oldu ki, azərbaycanlılar özlərini ictimai bir vücud, xüsusi mədəniyyət toxumlarını daşıyan bir cəmiyyət, yəni ruslardan ayrı bir millət olduqlarını hiss etməyə başladılar. Rus süzgəcindən keçsə də, özlərinə keçən Avropa elm və texnikasının təsiriylə Azərbaycan Şərqin qorxu və dedi-qodularından silkinərək yaxşı bir həyat tərzi göstərir, doğru yolu tapır, böyüyüb inkişaf edirdi (24, s.34).

XIX əsrin əvvəllərində Çar Rusiyası Şimali Azərbaycanı işğal etdikdən sonra onun zəngin dövlətçilik ənənələrini də unutdurmağa, Azərbaycan xalqının bütövlüyünü məhv etməyə çalışırdı. İşğalla barışmayan Azərbaycan xalqının müqavimət hərəkatı amansızcasına yatırıldı, xalqın şüurundan müstəqillik duyğularını

itirmək üçün onun daşıyıcılarının sistemli şəkildə məhvinə başlandı. Bununla yanaşı, çarizm regionda mövqelərini möhkəmlətmək üçün özünə etibarlı sosial dayaq - məmur zümrəsi yaratmağa can atırdı. Müstəmləkəçilik və ruslaşdırma siyasətini həyata keçirmək məqsədilə Azərbaycanda müasir tipli məktəblər və mədəni-maarif müəssisələri sistemi yaradılırdı. Məhz bu dövrdə Azərbaycanda ana dilində ilk qəzet nəşr edilmiş, ilk milli teatr yaradılmışdı. Kolonial mahiyyətinə baxmayaraq həmin dövrdə maarif və mədəniyyət sahəsində həyata keçirilən tədbirlər son nəticədə Azərbaycan xalqının maariflənməsinə, təhsilin, elmin və mədəniyyətin müasir nailiyyətlərinə yiyələnməsinə imkan verirdi. Xalqın mədəni-mənəvi həyatında baş verən mütərəqqi dəyişikliklər onda milli hisslərin oyanmasında, milli şüurun inkişafında və bütün bunların məntiqi nəticəsi olaraq milli hərəkatın yaranmasında mühüm rol oynadı. Məhz bu dövrdə Şimali Azərbaycanda millətləşmə prosesi sürətlənərək milli hərəkatın tədricən ümmətçilikdən milliyyətçilik mərhələsinə keçməsinə şərait yaratdı. Əsasını A.A.Bakıxanov, M.F.Axundov, H.B.Zərdabi kimi ziyalıların qoyduğu maarifçilik hərəkatı XX əsrin sonlarında, XX əsrin əvvəllərində Ə.b.Hüseynzadə, Ə.b.Ağayev, M.Ə.Rəsulzadə, Ə.b.Topçubaşov, N.Nərimanov və baqşa ziyalılarımız tərəfindən daha da inkişaf etdirildi.

XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda milliləşmənin ən mühüm təzahürlərindən biri mövcud rejimin bütün qadağalarına rəğmən ictimai fikirdə, mətbuat səhifələrində Azərbaycan millətinin və ərazisinin həqiqi adının getdikcə daha çöx işlədilməsi oldu. Getdikcə daha çox ziyalımız Azərbaycan türklərinə münasibətdə işlədilən, bir çox hallarda hətta təhqiramiz, aşağılayıcı məqsədlərlə edilən "tatar", "müsəlman" (rusca "татарин", "татары", "мусульманин", "бусурман") və s. etnonimlər əvəzinə "Azərbaycan türkləri", "azərbaycanlılar" terminini işlətməyə başlamışdılar. Eləcə də, mücərrəd "Şərqi Zaqafqaziya" coğrafi termini əvəzinə "Azərbaycan" terminindən daha tez-tez istifadə edilməyə başlanıldı. Ünsizadə qardaşları tərəfindən «Azərbaycan» adlı qəzetin nəşrinə cəhd göstərildi. Qafqazın cənub-şərq hissəsinin «Azərbaycan», Qafqaz müsəlmanlarının «azərbaycanlı-türk», dilinin «Azərbaycan-türk dili» adlanması təklif edildi (M.Şahtaxtlı). F.Köçərli tərəfindən «Azərbaycan türklərinin ədəbiyyatı» adlı ilk kitab nəşr olundu. İctimai müzakirələrə, ədəbiyyata və publisistikaya «türk milləti», «azərbaycanlı» («Kəşkül» qəzetində), «Azərbaycan türkləri» (Ə.Hüseynzadə), «Azərbaycan sadə türkcəsilə» (Ü.Hacıbəyli), «Azərbaycan (türk) arvadları» (Y.V.Çəmənzəminli), «türk Azərbaycan qəzeti», «azərbaycanlı-türk», «Azərbaycan türkləri», «azərbaycanlılar», «Cənubi Azərbaycan», (M.Ə.Rəsulzadə) kimi istilahlar gətirildi.

Xalqın milli mənlik şüurunun inkişafında XX əsrin əvvəllərində Rusiyada sosial-siyasi hərəkatlar nəticəsində yaranmış qısa müddətli liberal mühitin məhsulu olan müxtəlif milli təşkilatlar, xeyriyyə cəmiyyətləri də mühüm rol oynadılar.

XX əsrin əvvəllərində Ə.B.Hüseynzadə, Ə.B.Ağayev, M.Ə.Rəsulzadə və digər ziyalılarımızın geniş nəzəri və əməli fəaliyyəti sayəsində Azərbaycan türk millətinin varlığının elmi cəhətdən əsaslandırıldığı milli istiqlal məfkurəsi formalaşdırıldı. Azərbaycanda türk milli şüurunun ideya istiqaməti kimi meydana çıxması, milli kimliyi müəyyən edən başlıca baxışlar sisteminə çevrilməsi isə, heç şübhəsiz ki, "Açıq söz" qəzeti ilə bağlı idi. Bu qəzet Bakıda Azərbaycan türkcəsində nəşr olunan digər qəzetlər kimi İran Azərbaycanında yayılaraq orada ictimai rəyin formalaşmasına öz təsirini göstərirdi.

1917-ci il Fevral inqilabından sonra Azərbaycan istiqlal məfkurəsi Azərbaycanın muxtariyyəti şüarı altında, konkret siyasi proqram şəklində meydana atıldı. 1917- 1918-ci illərdə Şimali Azərbaycanda genişlənən milli hərəkat, bu hərəkatı boğmaq üçün erməni-daşnak və rus-bolşevik qüvvələrin həyata keçirdikləri soyqırımlar Cənubi Azərbaycanda da əks-səda doğurmuşdu. Məhz Şimalda baş verən proseslərin təsiri altında Cənubi Azərbaycanda

demokratik və milli hərəkat yenidən baş qaldırdı. Bütün bunlar Cənubi Azərbaycanda milli etnik şüurun dirçəldilməsinə, türkçülük ideyalarının kök salmasına, azərbaycanlılar arasında paniranizm ideologiyasının zəifləməsinə öz təsirini göstərirdi.

Bu baxımdan 1918-ci ildə demokratiya meydanına çıxmış Cümhuriyyət quruluşu Azərbaycanda XIX əsrin ikinci yarısından maarifçilik hərəkatı kimi başlayaraq XX əsrin əvvəllərində milli hərəkatın ideoloji mahiyyətinə çevrilmiş "Azərbaycançılıq" ideologiyasının həyatiliyinin məntiqi nəticəsi idi. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması Azərbaycançılıq uğrunda aparılan çoxillik mücadilənin, milli dövlət idealının özünütəsdiqi idi.

Cümhuriyyətin elan edilməsi ilə Azərbaycan xalqı öz tarixində ilk dəfə olaraq dövlət millətinə çevrildi. Son dövlətçiliyi xanlıqlar formasında olan Azərbaycan xalqı 1918-ci ilin mayında demokratik respublika formasında müasir müstəqil dövlət yaratmaqla suveren xalqlar cərgəsinə qoşuldu. M.Ə.Rəsulzadə bu barədə yazırdı: "28 mayis 1918 Bəyannaməsini nəşr etməklə Azərbaycan Şurayi - Millisi, sözün siyasi mənası ilə, bir Azərbaycan millətinin varlığını təsbit etmişdir. Beyləki, Azərbaycan kəlməsi sadə coğrafi, etnoqrafi və linqvistik bir kəlmə olmaqdan çıxaraq siyasi bir aləm olmuşdur" (13).

Bu hadisənin nəinki tarixi, həmçinin hüquqi, siyasi baxımdan çox böyük əhəmiyyət kəsb etməsi şübhəsizdir. Əvvəla, "Azərbaycan" sözü müasir siyasi-hüquqi məzmununu, rəsmi dövlət adı statusunu məhz Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə aldı. Azərbaycan dövlətçiliyinin ilkin əsaslarının formalaşdırılması, o cümlədən Azərbaycan xalqının milli ruhunun dirçəldilməsi baxımından cümhuriyyət dövründə qəbul edilmiş qərarlar mühüm rol oynadı.

Cümhuriyyətin yaradılması və fəaliyyəti miqyasına görə daha geniş əhəmiyyət kəsb edərək ümumdünya mahiyyət daşıyırdı. Azərbaycan xalqı özünün qədim dövlətçilik ənənələrini yenidən dirçəldərək müstəqil yaşamağa layiq və qadir olan xalq olduğunu sübuta yetirdi. Azərbaycanlılar ilk dəfə olaraq bütün islam dünyasına cümhuriyyətçilik məfkurəsini gətirərək bununla müstəmləkə zülmü altında yaşayan dindaş millətlərə də modern dövlət yaratmaq nümunəsi, azadlıq və demokratiya dərsi verdilər. İslam dünyasında tarixdə mövcud olmuş bütün dövlətlər, əsasən, dini və ya sülalə zəminində qurulduğu halda, Azərbaycan Xalq Cümhuriyyəti İslam coğrafiyasında dünyəvi təməl üzərində qurulan ilk milli dövlət idi. Bununla bağlı M.Ə.Rəsulzadə yazırdı: «Azərbaycan müsəlman aləmində ilk respublika və türk aləmində ilk dövlətdir. Mənim ilk baxışda qəribə görünən bəyanatımın ikinci hissəsi ola bilsin, sizi təəccübləndirir. Lakin əslində elə də var. Türk mənşəli bütün digər dövlətlər başlıca olaraq dini təməl üzərində qərar tutduqları halda Azərbaycan Respublikası müasir millimədəni müstəqillik təməlinə, türk millidemokratik dövlət qurumu zəmininə əsaslanır və bu baxımdan bizim respublikamız ilk türk dövlətidir» (10, s.77).

Tarixi Azərbaycan ərazisində cümhuriyyət quruluşlu müstəqil dövlətin yaradılması və ona Azərbaycan adının verilməsi dünyada və regionda heç də birmənalı qarşılanmadı. Xüsusən Ermənistan, İran və Rusiyada müxtəlif dairələrdə Azərbaycan türklərinin müstəqil dövlət şəklində öz müqəddəratlarını təyin etmələri ciddi həyəcan yaratmışdı. İranın rəsmi dairələri bu ada etiraz edərək diplomatik yazışmalarında Azərbaycan hökumətini "Qafqaz Azərbaycanı" kimi adlandırmağa çalışırdı (25, p.71; 9, s.84). Azərbaycan Cümhuriyyətinin adına «Qafqaz» sözünü artırmaqda məqsəd həm də cənublu-şimallı Azərbaycanın birliyinə kölgə salmaq idi. 1920-ci il martın 20-də AXC ilə İran Şahənşah hökuməti arasında bağlanmış Dostluq müqaviləsinin I maddəsində İranın (Qafqaz) Azərbaycan Respublikasının istiqlaliyyətinin tanıması müddəası öz əksini tapmışdır (50, s.181-182). Birinci Dünya Müharibəsinin sonunda Azərbaycanı işğal etmiş ingilis qoşunlarının komandanı general Tomson belə ümumiyyətlə, Azərbaycan adlı dövlətin mövcudluğunu inkar etmiş, onu türk komandanlığının intriqası ilə təşəkkül

tapmış bir məhəlli hökumət adlandırımışdı (26, s.99). General Tomsonun belə mövqe tutmasına Bakıdan onunla görüşə gəlmiş erməni və rus milli şuralarının nümayəndələrinin də rolu az olmamışdı (9, s.158). V.Tomson özü Bakıdakı ilk bəyanat və çıxışlarında "Azərbaycan" ifadəsini belə işlətməyi lazım bilməmişdi. Lakin vəziyyətlə bilavasitə tanış olduqdan sonra azərbaycanlılar barədə ona verilən məlumatların qərəzli olduğunu anlamışdı. Bununla əlaqədar olaraq, Üzeyir Hacıbəyli yazırdı: "Bizi vəhşi bilənlər və bizdən yalnız qan içməkligi gözləyənlər ilə və bizim vücudimizi aləmi-mədəniyyət üçün təhlükəli ədd edənlər ilə bir balaca təmas lazım imiş ki, bu fikrin və bu nəzərin sırf yalan və yanlış olduğu meydana çıxsın. İngilislər bizim içərimizə girərkən, özlərini vəhşi bir heyvan qarşısına çıxmış bir avçı vəziyyətində saxlamaq ehtiyatına heç bir lüzum olmadığını bir-iki gündən sonra kəmalitəəccüblə anladılar..." (3). Rusiyanın şovinist dairələrinin də Azərbaycan Cümhuriyyətinə, onun adına eyni münasibəti var idi. Bunun ən bariz nümunəsini biz Denikinin xatirələrində görürük. Azərbaycana nifrətini gizlətməyən bu irticaçı general özünün "Rus qiyamının oçerkləri"ində iddia edirdi ki, Azərbaycan respublikasında İranın bir əyalətindən götürülmüş adındandən tutmuş ərazisinə, dövlətçiliyinə, hökumətinə qədər hər şey süni idi, gerçək deyildi (39).

Belə şəraitdə dünya ictimaiyyətini Azərbaycan türklərinin yaratdıqları dövlətin və onun ərazisinin həqiqətən Azərbaycan olduğuna inandırmaq olduqca vacib idi. Bu iş geniş nəzəri hazırlıqla yanaşı gərgin siyasi və diplomatik fəaliyyət tələb edirdi. Mürəkkəb şəraitdə Azərbaycan hökuməti bütün mümkün vasitələrdən istifadə edərək dövlətin suverenliyini təmin etməyə nail oldu. Az müddətdən sonra V.Tomson və Antantanın digər nümayəndələrinin Azərbaycan hökumətinin tanımaları və onunla əməkdaşlıq etməyə hazır olduqlarını bəyan etmələri Azərbaycan dövlətçiliyini tanımaqdan imtina edənlərə böyük zərbə oldu. Cümhuriyyət hökuməti Azərbaycanın müstəqilliyini beynəlxalq birlik tərəfindən tanınmasına nail olmaq üçün gərgin iş aparırdı. Bu baxımdan Ə.M.Topçubaşovun başçılığı altında Azərbaycan nümayəndə heyətinin Paris sülh konfransında fəaliyyəti xüsusi qeyd edilməlidir. 1919-cu il yanvarında onunla görüşərkən İranın xarici işlər naziri Ə.Ənsari Arazdan şimalda yaranmış dövlətin "Azərbaycan" adı ilə adlandırılmasına etiraz etmiş, hətta onun torpaqlarına iddialar irəli sürmüşdü (37, c.253-254).

İranın və Ermənistanın Azərbaycan ərazilərinə iddialarının təkzib edilməsi baxımından Azərbaycan nümayəndə heyətinin hazırladığı "Qafqaz Azərbaycanı respublikasının nümayəndəliyinin Paris Sülh konfransına Memorandumu" mühüm əhəmiyyət kəsb edirdi. "Qafqaz Azərbaycanı Nümayəndə heyətinin Paris Sülh konfransından Tələbləri" kitabı dünya ictimaiyyətində Azərbaycan xalqının tarixi, etnogenezi, dini, mədəniyyəti, dövlətçilik ənənələri, ölkənin siyasi sistemi, iqtisadiyyatı, eləcə də ərazi iddiaları haqqında ümumi təsəvvür yaratmaq məqsədi güdürdü. Bəzi çatışmazlıqlara və səhvlərə (o cümlədən "Azərbaycan" termininin guya qədim fars sözü olan "Azərpataqan" sözü ilə əlaqəli olması haqqında fikir – K.İ.) baxmayaraq "Tələblər" Azərbaycanı dünyada tanıtmaq baxımından mühüm mənbə idi. Orada Azərbaycan dövlətinin sərhədlərinin ilk dəfə dəqiq və təfərrüatlı şəkildə öz əksini tapmışdı. Azərbaycan nümayəndəliyi sərhədlərlə bağlı məsələyə yanaşarkən Azərbaycan etnosunun tarixən bu torpaqlarda yaşadığını, onların üzərində xalqımızla bağlı çoxsaylı maddi-mədəniyyət abidələrinin mövcudluğunu, nəhayət böyük əksəriyyətini azərbaycanlılar təşkil edən yerli sakinlərin Azərbaycan dövlətinin tərkibində yaşamaq istəklərini əsas tutmuşdu (15, s.20-21). On dörd bölmədən ibarət olan "Qafqaz Azərbaycanı respublikasının nümayəndəliyinin Paris Sülh konfransına memorandumu"nda qeyd olunurdu ki, Qafqazın, daha dəqiq, Transqafqazın cənub-şərq bölgəsində ən qədim zamanlardan etibarən əsasən türk, qismən də tatar tayfalarından ibarət xalqlar yaşamışlar. Bu tayfalar, habelə bir sıra İran ünsürləri zaman

keçdikcə daha çoxsaylı, daha güclü və daha enerjili olan türklərlə qaynayıb-qovuşmuşlar. Həmin qaynayıb-qarışma nəticəsində Qafqazın bu hissəsində yaşayan yerli əhali ölkələrinin adı ilə Azərbaycan türkləri, yaxud daha çox azərbaycanlılar adlandırılmışlar (15, s.25). Kitabda yeni yaranmış dövlətin Azərbaycan adlandırılması ilə tutarlı faktlar gətirilir və göstərilirdi ki, Azərbaycan Qafqaz dağlarından Xəzər dənizinə və Xəzər dənizi arxasında Urmiya gölünə qədər geniş bir ərazini əhatə edir. Ölkəyə öz adını vermiş mərkəz (dövlət) onun Xəzər dənizi sahilindəki hissəsidir... Azərbaycan torpaqları Makedoniyalı İskəndərdən tutmuş Teymurləngə qədər bir çox məşhur fatehlər görmüş, onun sakinləri ərəblər, farslar, Osmanlı türkləri və başqaları ilə üz-üzə gəlmişdilər. Bu çağırılmamış qonaqlar təbii ki, Azərbaycanın ərazi və etnik tərkibinin əsaslı surətdə dəyişilməsinə təsir göstər-mişdilər. Ölkənin bir hissəsi hərbi güc tətbiq edilməklə İrana birləşdirilmiş, digər hissəsi isə Qafqazın coğrafi sərhədləri daxilində qalmışdır. Məhz bu şərait Azərbaycan xalqının taleyində mühüm rol oynamışdır. Qafqazdakı Azərbaycanın uzun müddət özünün tam siyasi müstəqilliyini qoruyub saxladığını və XVII əsrdə müstəqil xanlıqlardan ibarət olduğunu vurğulayan sənəd müəllifləri göstərirdilər ki, Şimali Azərbaycanın ruslar tərəfindən işğalı nəticəsində xanlıqların öz müstəqilliklərini itirməsindən, rus hakimiyyət dairələrinin işğal olunmuş ərazilərdə apardıqları ruslaşdırma siyasəti böyük vüsət aldıqdan sonra xanlıqları "Odlar yurdu"nun başqa hissələri ilə bağlayan tellər qırılmağa başladı. Həmin dövrdən etibarən artıq Rusiya nəzarətindəki Azərbaycan torpaqları deyil, mərkəzi Təbriz olmaqla İrandakı ərazilərimiz Azərbaycan adlandırılmağa başladı. Rus dövləti işğal etdiyi xanlıqların əhalisinin adını dəyişdirməkdən də çəkinmirdi. Etnoqrafiyanı, xalqın dilini və ədəbiyyatını nəzərə almadan Azərbaycan əhalisinə Qafqaz tatarları, Qafqaz müsəlmanları, yaxud sadəcə olaraq müsəlman adı qoyulmuşdu (15, s.26).

"Tələblər"də göstərilirdi ki, əhalisi indiyə qədər türk mənşəli olan Azərbaycan millətinin etnik təşəkkülü və quruluşu haqqında Rusiya imperiyasının uydurduğu yalanlar rəsmi nöqteyi-nəzər kimi qəbul edilmişdir. Qədim türk-müsəlman xanlıqlarının əhalisi əsl mənşələri nəzərə alınmadan Qafqaz tatarları adlandırılmışlar və indinin özündə də Qafqaz tatarları kimi tanınırlar. Əsl həqiqətdə köklərinin eyniliyi ilə bir sırada azərbaycanlıların və tatarların dilləri, adətləri, ənənələri, inamları arasında da müəyyən yaxınlıq vardır. Azərbaycanın istər İrana aid hissəsində, istərsə də Qafqaz, yaxud Transqafqaz hissəsində əhali Azərbaycan dilində danışan türklərdən ibarətdir. Onların öz ədəbiyyatı, milli poeziyası, ənənələri və mifləri mövcuddur. İslamın iki təriqəti (şiəlik və sünnilik) Azərbaycanda geniş yayılmışdır. İntellektual mədəniyyət baxımından Azərbaycan, xüsusən də onun İran hissəsi qədim İran ədəbiyyatından əsaslı şəkildə təsirlənmişdir. Bu ədəbiyyatın əsas nümayəndələri olan Firdovsi, Hafız və Sədi azərbaycanlılar arasında da indi də kifayət qədər məşhurdurlar, onların əsərlərinə tez-tez istinad edilir. Bir tərəfdən İranın qüdrətinin azalması və onun sosial mədəniyyətinin tənəzzülə uğraması, o biri tərəfdən isə Rusiya mədəniyyətinin daha geniş ərazidə yayılması və ümumilikdə milli şüurun yüksəlişi nəticəsində Azərbaycanı İranla bağlayan tellərin qırılmaqda olduğu aşkara çıxdı (15, s.27).

Beləliklə, tarixi proseslər nəticəsində iki hissəyə parçalanmış Azərbaycanın mövcudluğunu təkzibolunmaz dəlillərlə sübut edən "Memorandum" müəllifləri eyni zamanda siyasi gerçəklikləri (Cənubi Azərbaycanın İranın tərkibində qalmasını –E.M.) nəzərə alaraq yalnız Azərbaycanın "Qafqaz Azərbaycanı" adlandırılan hissəsi haqqında məlumat verməyi məqsədəuyğun hesab etmiş və xüsusi olaraq vurğulamışlar ki, "biz İran Azərbaycanına toxunmaq niyyətində deyilik. Biz qafqazlılar onun sakinlərinə ən yaxşı istəklərimizi yetirir, qüdrətli və mədəni İran dövlətinin himayəsi altında siyasi və fərdi azadlığa çatmalarını, böyük inkişafa, sosial və siyasi tərəqqiyə qovuşmalarını arzu edirik" (15, s.27).

Azərbaycanın dünyaya tanıdılması istiqamətində atılmış mühüm addım 1919-cu ildə Parisdə Ceyhun Hacıbəyli tərəfindən "İlk müsəlman respublikası Azərbaycan" kitabının nəşri idi. Tarixin ədalətsizliyi ucbatından azərbaycanlıların bölünmüş xalq olduğunu Avropa oxucularının diqqətinə çatdıran müəllif yazırdı: "türk əhalisindən ibarət iki Azərbaycan vardır: İran mədəniyyəti və islamın şiə təriqətinə etiqad edən, İranda yerləşən Təbriz Azərbaycanı və Cənubi Qafqazda yerləşən Bakı Azərbaycanı" (9, s.342). Kitabın əvvəlində Azərbaycanın sərhədlərinin əks olunduğu xəritə də verilmişdi. Nümayəndə heyətinin üzvü Ə.Şeyxülislamovun Azərbaycan əhalisinin etnik tərkibi haqqında fransız dilində çıxan kitabçası da burada böyük marağa səbəb olmuşdu. Kitabça sülh konfransının bütün nümayəndələri arasında yayılmış və hətta Amerikaya da göndərilmişdi. Kitabçada Cənubi Qafqazın milli-etnik və dini tərkibi haqqında ətraflı məlumatlar verilmişdi (9, s.342).

Azərbaycan hökuməti Azərbaycan Cümhuriyyətinin xaricdə tanınması məqsədilə Xarici İşlər Nazirliyi xətti ilə də böyük işlər aparırdı. Bu məqsədlə 1919-cu ilin ortalarında Azərbaycan Xarici İşlər Nazirliyi nəzdində Cənubi Qafqazda rus siyasətinə dair materiallar toplayan xüsusi komissiya yaradılmış, komissiya həmin materiallardan ibarət rus dilində sənədlər toplusu nəşr etdirmişdi. Adil xan Ziyadxanın 1919-cu ildə Bakıda nəşr edilmiş "Azərbaycan: tarixi, ədəbi və siyasi vəziyyəti" adlı kitabı bir sıra ölkələrə göndərilmişdi. Kitabın üç min nüsxəsi Azərbaycan konsulluğu vasitəsi ilə İranda yayılmışdı (28, c.499).

Azərbaycançılıq məfkurəsinin nəzəri cəhətdən inkişaf etdirilməsi, Azərbaycanın adına, dövlətçilik tarixinə, ərazilərinə münasibətdə irəli sürülən iddiaların əsassızlığının elmi şəkildə sübut edilməsi istiqamətində Azərbaycanın ziyalıları da mübarizə aparırdılar. Bu mübarizənin önündə M.Ə.Rəsulzadə gedirdi. Onun müxtəlif mətbu orqanlarda "Azərbaycan" yaranması, Azərbaycanın tarixi, etnoqrafiyası ilə bağlı yazıları bu baxımdan mühüm əhəmiyyət kəsb edirdi. M.Ə.Rəsulzadənin "Azərbaycan paytaxtı", "İran və biz", "Biz və İran", xüsusən "Azərbaycan Cümhuriyyəti" adlı məqalələri, digər publisistik yazıları Azərbaycanşünaslığın inkişafına böyük təsir göstərmişdir.

Azərbaycan adının qədimliyinə diqqəti cəlb edən M.Ə.Rəsulzadə qeyd edirdi ki, bu məna ilə o Rusiya inqilabının millətlərə milli istiqlal verdiyindən sonra deyil, daha əvvəl mövcud idi. O qeyd edirdi ki, bundan otuz il əvvəl Petroqrad darülfünunlarında təhsil edən Bakı, Gəncə və İrəvan vilayətlərindən gedən müsəlmanlar tələbələr milliyyət əsası ilə təşkil etdikləri cəmiyyətlərə "Azərbaycan cəmiyyətləri" demişlər, "Azərbaycan gecələri" müsamirələri keçirmişlər. M.Ə.Rəsulzadə göstəriirdi ki, məsələ təkcə adda deyildir, hətta başqa bir ad olsa idi belə, yenə də qorxulur ki, həmin adın müsəmmasına da hüsni-təvəccöh bəslənilməsin. Ola bilər düşünülsün ki, başqa bir isimlə məxsus bir qövm olmaq əsası və xüsusiyyəti üzərinə təsis ediləcək cümhuriyyət İranın şimalında o əsas və xüsusiyyətə uya bilər bir kütlə olduğu üçün mətlub deyildir. Belə bir düşüncənin isə beş para qiyməti olamaz. Çünki o zaman cümhuriyyətimizi təşkil edən qövmin qövmiyyətini inkar etmək, ona kəndi müqəddəratını təyin həqqını verməmək icab edər. Böylə vəziyyətə ruslar, ingilislər, firəng və sair xristian millətlər durmadığı halda dindaş bir dövlətin duracağını qətiyyən təsəvvür etməyiz. Böylə olunsa Azərbaycanın nə ismi, nə də cismi iranlı qardaşlarımızda şəkk və şübhə hissi oyatmamalı, yəni başlarında bir Ermənistan, bir Gürcütan hökuməti təşəkkül etdiyibir zamanda, bir də həmkeş və əqraba bir Azərbaycan cümhuriyyətinin təşəkkül edib kəsbi-qüvvət etməsini səmimanə bir surətdə arzu etməlidirlər (23, s.298-299).

Bu fikirlərin yer aldığı "İran və biz" məqaləsi məqaləsi İranda geniş əks-səda doğurmuş, M.Ə.Rəsulzdənin qeyd etdiyi kimi, "Tehran qəzetləri həmin məqalədə bəhs edilən mövzunu təcdid edərək "Azərbaycan"ın özündən deyil, ismindən uzun-uzadıyla bəhs etməyə başlamışlar". Başda "İran" qəzeti olmaqla Teh-

ran qəzetləri "Yeni doğulmuş islam hökumətinin" (Azərbaycan Cümhuriyyəti nəzərdə tutulur - K.İ.) adından "delgir olduqlarını" qeyd edərək iki qardaş millət arasına soyuqluq düşməməsi üçün cümhuriyyəti yaradanlardan "Azərbaycan" adından imtina etməyi tələb edirdilər. İran qəzetlərinin fikrincə Qafqazın bir qismindən ibarət olan ölkəyə Azərbaycan adını verməyə Azərbaycan hökumətinin haqqı yoxdur. Bu, İranın qədim vilayəti kimi tanınan Azərbaycan əyalətinin haqqıdır. M.Ə.Rəsulzadə bu fikirlərə cavab olaraq yazırdı ki, biz istərdik ki, İran mətbuatı burasına diqqət etsin ki, Qafqasiyadakı azərbaycanlılar Azərbaycan kəlməsini coğrafi mənasından ziyadə qövmi mənasında işlədirlər. Dünyada yalnız bir Azərbaycan qitəsi, bir də Azərbaycan cəmaəti vardır. Bu camaat özünə məxsus bir şivədə danışır. Türk əqvamındn bir millətdir ki, "İran" rəfiqimiz bunlara "ətraki-müsəlmani-Qafqaz" (Qafqaz türk-müsəlmanları – K.İ.) deyir. Bu xalqın ədəbiyyatı Azərbaycan ədəbiyyatı adlanır, şairləri o dildə, Azərbaycan dilində yazarlar. Məktəblərində o dili tədris edərlər, mətbuatı o dildə yazılır. Teatrları, operaları o şivədə tərtib edilir. "Ətraki-müsəlmani-Qafqaz" ilə azərbaycanlı təbiri eyni mənanı ifadə etdiyini, coğrafi nöqteyi-nəzərindən sərh eləmək mümkün olsa da qövmiyyət nöqteyi-nəzərindən bunu inkar etmək mümkün deyildir. İrəvan, Gəncə və Bakı quberniyalarındakı "ətrak" (türklər) ilə Ərdəbil, Marağa, Xalxal, Təbriz və Qaracadağ mahallarındakı "ətrak"ın bir-birindən nə ilə ayrıldıqlarını mən yaxşı fərq edə bilmirəm. Eyni dil, eyni adət, eyni məzhəb, eyni ənənə burada da, orada da hökmfərma, ortada yalnız yüz illik digər bir siyasi həyat yaşamanın əsəri mövcuddur. "Ətraki-müsəlmani-Qafqaz"ın "ətraki-müsəlmani-İran" kimi daha məruf bir ismi vardır – Azərbaycan türkü" (23, s.307-308).

Daha sonra o yazırdı: "böyük müharibənin və misilsiz inqilabın nəticəsində yeni yaranmış hökumətlərin istinad etdikləri ən qüvvətli və ən sağlam bir məbnaları vardır – qövmiyyət binası. Tarix, coğrafiya, strategiya kimi mülahizələr ikinci, üçüncü dərəcəlidirlər. Yeni bir hökumətin təsisi üçün ən əvvəlcə yekvücud bir milliyyət təşkil edən qövmin kəndisini tanımasıdır. Azərbaycan Cümhuriyyəti Tehran qəzetlərinin düşünsüyü kimi bir takım "xəyalpərvər" cavanların uydurub "mülahizəsiz" qocalara qəbul etdirdikləri bir ism deyildir. Azərbaycan Cümhuriyyəti müstəqil bir milli həyat ilə yaşama istəyən və milliyyətlərini dərk etmiş Azərbaycan türk millətinin təsis etdiyi bir hökumətdir (2; 23, s.308). Bununla Rəsulzadə bu məsələdə məhz xalqın, millətin əsas rol oynadığını, başlıca amil olduğunu diqqətə çatdırırdı.

İranda müəyyən qüvvələr, mətbu orqanları (bu xüsusda "İran" və "Gülşən" qəzetləri daha çox canfaşanlıq göstərirdilər – K.İ.) Azərbaycan Cümhuriyyətin İranın eyni adlı ərazisinə iddia edəcəyindən ehtiyat edərək ondan adını dəyişdirməyi tələb edir, yalnız bundan sonra İranın ona qardaş münasibəti bəsləyəcəyəni bildirirdilər. Bununla bağlı M.Ə.Rəsulzadə göstərirdi ki, Cümhuriyyətimizin, Cümhuriyyətdən əvvəl Azərbaycan müxtariyyəti uğrunda davamızın qətiyyən Araz çayının cənubuna aid olmadığını dəfələrlə söyləmişik... Bilmirik təkəddür yalnız İranın bir vilayəti ilə iltibas edən ismimizdədir, yoxsa İran Azərbaycanındakı xəlqin mənəviyyatına təmas edən bir müsəmmamızdanmı iləri gəliyor... Məsələ yalnız adda olsaydı, o qədər əhəmiyyəti olmazdı. Bizə elə gəlir ki, Araz çayının şimalında olan azərbaycanlıların təşkil etdikləri müstəqil bir islam hökumətinin paydar olması İranın mənafeyindəndir. Bizdən ötrü kəlmənin coğrafi mənasından çox qövmi mənası vardır (2; 23, s.310-312). Bununla yanaşı o coğrafi cəhətdən də Azərbaycanın ancaq Təbriz və həvalisindən ibarət olması haqqında fikirlərinn doğru olmadığını qeyd edərək, tarixi məzxəzlərə, o cümlədən Şəmsəddin Sami bəyin "Qamusi-il-aləmin" əsərinə istinad edərək yazırdı ki, Qafqaz adı ümumi ad olub müxtəlif vilayətlərə şamil olduğu kimi, Azərbaycan adı da Qaradağ, Xalxal, Marağa, Muğan, Bərdə, İrəvan, Naxçıvan, Bakı və sair kimi idari, tarixi və coğrafi adları ehtiva edə bilər (2; 23 s.311-312). M.Ə.Rəsulzadə Azərbaycan dövlətinin

adına etiraz edənlərə məsləhət görürdü ki, onlar tamamilə milli və demokrat bir əsas üzərində təşəkkül edən Azərbaycan dövlətinə münasibətlərini təyin edərkən dövlətin adının onların qulaqlarına xoş gəlmirsə müsəmmasına (mahiyyətinə, məramına) baxsınlar. "Müsəmmamızın məqbul və kəndi nöqteyi-nəzərlərindən mətlub gördükdən sonra ismin o qədər əhəmiyyətə malik olmadığını kəndiləri də təqdir edərlər" (2; 23, s.313).

Azərbaycançılığın nəzəri əsaslarının işlənib hazırlanmasında M.Ə.Rəsulzadənin Cümhuriyyətin bir illiyi münasibəti ilə "İstiqlal" məcmuəsinin 28 may 1919-cu il tarixli nömrəsində dərc etdirdiyi "Azərbaycan Cümhuriyyəti" adlı məqaləsi də mühüm rol oynadı. Məqalədə Azərbaycanın milli dövlətinin yaranmasının qısa tarixi şərh edilməklə yanaşı İran və Ermənistanın Cümhuriyyətin adı ilə bağlı iddialarına da geniş yer verilir və bu iddiaların yalan olduğu bir daha sübut olunurdu. Məqalədə qeyd olunurdu ki, coğrafiya etibarilə Azərbaycan adının təkcə Təbriz və ətrafına aid edilməyərək, Azəri türklərinin məskun olduqları yerlərə şamil bir ad olduğuna dair dəlil və sübutlar vardr. Bu barədə səhifələr yazmaq mümkün olsa da, cümhuriyyətə verilmiş adın təkcə coğrafi məna deyil, həm də qovmi məna daşıdığını nəzərə alaraq buna ehtiyac olmadığını vurğulayan müəllif göstərir ki, əgər bir millətin amallarını müştərək dil, yazı, ədəbiyyat, adət, ənənə və tarix təşkil edirsə, onda heç şübhəsiz, Araz çayının iki tərəfində məskunlaşmış, cənubda Təbriz, şimalda Bakı məntəqələrində toplaşmış xalqın əksərinin bir vahid millət olduğu bilinər. Və bir millət olmuş bu xəlqin məruf bir adı vardır: Azərbaycan türkü və yaxud Azəri türkləri. Özünə məxsus şivəsi ilə danışan Azərbaycan türkü müxtəlif şivələrə malik və olduğu yerlərə nisbətlə müxtəlif ismlər daşıyan böyük türk millətinin bir qismidir. Azəri türklərinin halhazırda oturduqları yerlər min-əl-qədim türk xalqı ilə məskun olmuşdur. Gərək Bakı, Gəncə, İrəvan ilə Təbriz, Marağa, Ərdəbil, Xalxal və sair kibi vilayətlər və gərək Muğan, Aran, Qarabağ, Qaradağ kimi məmləkətlər daima türk xalqının oturduğu və türk xanlarının ovlağı olub; bu yerlər kəndilərində bir çox türk sülalələrinin irili-xırdalı hökumətlər qurduqlarını, illərlə səltənət sürdüklərini görmüşlərdir (13; 23, s.321). M.Ə.Rəsulzadənin bu fikirləri təsdiq edir ki, o azərbaycanlıların milli identiklik məsələsinə iki aspektdən - etnik və coğrafi aspektdən yanaşaraq azərbaycanlıların bir millət kimi formalaşmasında hər iki amilin eyni dərəcədə mühüm rol olduğunu vurğulayırdı. Mütəfəkkirin qeyd etdiyi kimi, Azərbaycan türkləri böyük türk qövminin bir hissəsi olduqlarından onlar etnik cəhətdən türk, məskun olduqları əraziyə mənsub olmaları baxımından azərbaycanlıdırlar.

M.Ə.Rəsulzadə azərbaycanlıların mənəvi həyatında Novruz bayramının əhəmiyyətinə diqqət yetirmiş bəlkə də ilk yazarlardandır. Onun "İstiqlal" qəzetinin 20 mart 1919-cu il tarixli 6 №-li sayında Novruz bayramına həsr edilmiş "Təfəüli-Novruz" adlı məqaləsi bu baxımdan süsusi maraq kəsb edir. Azərbaycanlıların milii bayramı olan Novruzu yalnız farslara bağlayan yanaşmalara nəzərən o bu bayramı İranın və Turanın birgə bayramı adlandırır və göstərir ki, "İran ilə Turan hər nə qədər böyük Firdovsinin layəmut Şahnaməsində rəna boyalarla birər düşməni-əbədi kibi təsvir olunuyorsa da, hər iki irqin əsrlərlə uzanan vuruşmalarına rəğmən, bir-birilə qədim ixtilatda bulunan əksər millətlərdə olduğu kibi pək çox şərikli ənənələri vardır. Siyavuş kəndi İranından qaçar, Turana sığınır.. Rüstəm turanlı bir pəhləvanı öldürür, fəqət kəndi oğlunu öldürdügünü görür.. İran Turanla hərb edər, fəqət əksərən şan və namla yad indiki sülalələri Turan cinsindən olur. Əski midiyalıların (azərbaycanlıların – M.Ə.R.) xalis İran deyil, başqa bir cinsdən olduğu, əxirən Turanülcins bir qövmə mənsub olduqları sezilməkdədir. Türk üsuli-təqvimi – illərin birər heyvan adilə adlandırılması –İranda hala baqidir. Məlum olduğu kimi, illərə heyvan adının verilməsi Türk münəccimlərinin, Turan kahinlərinin adı ilə bağlıdır. Və indi də İran münəccimləri bundan istifadə edirlər. Deməli çox şeylər bağlayır" (23, s.280-281).

Bir ildən sonra, 1920-ci il martın 19-da Novruz bayramı ərəfəsində M.Ə.Rəsulzadə "Azərbaycan" qəzetində Novruzun mahiyyəti ilə bağlı yeni bir məqalə ilə çıxış etdi. M.Ə.Rəsulzadə əski türklərin bu günü qurtuluş günü kimi bayram etdiklərini, İranın təsiri ilə bu bayramın adının Novruz kimi bizə keçdiyini qeyd edərək göstərirdi ki, əski bir türk əfsanəsi "Ərgənəkon"da məhsur qalan türklər məhz bu gün qurtulmuşdular. Bunun üçün də onlar bu günü "rəhbər"ləri olan qurd başını daima bir qurtuluş (nicat) rəmzi kimi tələqqi edərdilər. M.Ə.Rəsulzadə qeyd edir ki, əslində İran bayramı kimi tanınan Novruz Türküstanda İrandan az tutulmaz. Volqoboyu ilə Türkiyə novruzu təntənəli bir surətdə də deyilsə yad edərlər. Bu gün təbiət bayramı olmaqla bütün dünyanın bayramıdır. Müəllif göstərirdi ki, Novruz bayramı bir vaxtlar ərəblərin istilasından sonra İranda tamamilə tərk edilmiş və ya etdirilmişdi. Yalnız 8 əsr əvvəl türk hökmdarlarından Cəlaləddin Məlikşah Səlcuqi tərəfindən bu bayram dirçəldilmiş və buna görə də bu bayramın adını Novruz Sultanı qoymuşdular (23, s. 456-45). M.Ə.Rəsulzadənin bu fikirləri Novruz bayramının mənşəyinin yalnız iranlılarla bağlamaq istəyən iddiaları tamamilə alt-üst etfiyindən bu gün də öz aktuallığını itirməmişdir.

Azərbaycanın digər görkəmli ziyalısı -Yusif Vəzir Çəmənzəminli Cümhuriyyətin Azərbaycan adı ilə adlandırılmasıın əleyhidarlarına daha kəskin münasibət bildirərək yazırdı: "Dövlətimizin "Azərbaycan" adlandığı suitəfəhhümlərə səbəb oldu. Halbuki Təbriz əyalətinin, yəni İran Azərbaycanının İranın olub-olmaması barədə ortaqlıqda heç bir məsələ yoxdur. İranın haqqına təcavüz etmək fikrində deyilik, olmamışıq və olmayacağıq, bizim tərəqqi və istirahətimizi təmin edən yalnız qonşularımız ilə dostluğumuz olacaqdır (5).

Maraqlıdır ki, "İran" qəzetində İranın rəsmi mövqeyi ilə uyğun gəlməyən yazılar da işıq üzü görürdü. Hətta 1919 cu ildə "İran" qəzetinin 439 və 440-cı nömrələrində M.Ə.Rəsulzadənin Azərbaycan haqqında yazdığı bir məqalə də dərc edilmişdi (4). Həmin qəzetin 454-cü nömrəsində İsmayıl Əfşar Tarəmi-Azərbaycani imzalı bir müəllifin "Qəzavat tarixi" sərlövhəli bir məqaləsi dərc edilmişdi(54). Məqalə M.Ə.Rəsulzadənin tərcüməsi və qısa müqəddiməsi ilə "Azərbaycan" qəzetinin 26 haziran (iyun) 1919-cu il tarixli nömrəsində də təkrar dərc edilmişdi (11). Müəllif məqalənin lap əvvəlində İranla Azərbaycan arasında siyasi məsələlərə toxunmadan məsələyə yalnız tarixi həqiqətin üzə çıxarılması nöqteyi-nəzərindən baxacağını göstərmişdi. Məqalədə Azərbaycanın coğrafi sərhədlərinə toxunan müəllif qeyd edirdi ki, Şərq və Qərb müvərrixləri ilə coğrafiyaçılarının rəylərinə görə Azərbaycan Zaqafqaziyanın qismi-şərqisindən, İrəvan, Naxçıvan və bütün İran Azərbaycanı, bütün Xəmsə vilayətləri, Tarəm, Talış, Gilanhəvalisindən bir qismi ilə Həmədanvə Qəzvindən ibarət olmuşdur. O, Rzaqulu xan Lələbaşının "Rövzeyi-Lisfan"ın 10-cu cildindən sitat gətirərək yazır ki, Azərbaycan keçmiş zamanlarda Bakı bəndərindən Xalxala qədər tul (uzunluğu) 95 fərsinin və Macirvan qəsəbəsindən Cəbəli-Sinayə qədər ərza(eni) 55 fərsinin bir məsafədə vaqe olmuşdur. Başqa əsərlərdə də eyni məzmunlu təfsilatların olduğunu bildirən müəllif sonra yazır ki,"bu tarixi həqiqət üzə çıxarılarsa "İran" qəzetinin vətənlərinin namu-müqəddəsini ehya etmələri üçün azərbaycanlıları haqlı görcəyini ümid edirəm". Əxlaq, adət və dil məsələlərinə də toxunan müəllif yazır ki, zira Qəzvindən birisi qalxıb da Qubaya səfər eləsə yalnız əxlaq, adət və dil birliyində deyil, şivə və ləhcənin də eyni olduğunu görər.. Bu gün bir tehranlı ilə bir şimranlı ləhcələri arasında fərq vardır, mazandaranlı ilə dəmavəndlinın şivələrindəki fərq isə daha bəllidir. Bu böylə ikən aya, azərbaycanlıların bir cinsdən və bir irqdən olmadıqlarını iddia etmək qabildirmi? Məqalədə müəllif professor Nikela Qrabilsdən sitat gətirir. Sonuncu yazır ki, bu bir həqiqətdir ki, İranın ətrafı türklərlə mühat olub qədim iranilərin (arini-qədim) ilk müharibəsi Azərbaycan türkləri ilə vaqe olmuşdur. Nikela Qrabils, türklərin iranilərdən daha əvvəl Azərbaycanda

sakin olduqları adla və bir ayin ilə sübutdur. "Professor Nikela Qrabilsin təlif etdiyi "Məsəlei-şərqiyyə" adlı kitabında (61-64-cü səhifələr) arinlərin Azərbaycandakı ərzi (yerli) və ati (köklü, qədim) olduğu həqqində bir çox sübut və dəlillər vardır və Azərbaycan həmişə türklərin olmuşdur. Bunu tarix asanlıqla sübut edə bilər". İsmayıl Əfşar Tarəmi- Azərbaycani belə bir maraqlı fikir söyləyir ki, Turan millətləri mütəməddin (mədəniyyətə malik) idilər, Babil mədəniyyəti isə Turan mədəniyyətinin bir surəti-mütəkamili (inkişaf etmiş forması) idi. Ona görə də məqalə müəllifi "İran" qəzetinin türkləri təhqiramiz şəkildə moğol adlandırmasını qəbul edilməz hesab edərək yazırdı ki, görünür, qəzet bu xüsusda Mətin-ül-səltənəyə nəzirə yapmışdır. Mərhum Mətin-ül-səltənə qeyrətinin şiddətindən xuddarlıq etməyib vəhşi türklər islamı məhv və nabud etdilər- deyə yazmışdır. Müəllif türk millətinin islama xidmətlərinin heç zaman unudulmayacağını, məhz onların səliblərə qarşı müdafə etdiklərini, Təbristanı islavlardan (ruslardan - E.M.) təmizlədiklərini, İslamın sərhədlərinin Kiyev, Varşu (Varşava), Krakov, hətta Vyana divarlarına qədər çatdırdıqlarını, 8 milyon hindlini müsəlman etdiyini, Oğuz, Tümən, Atilla, Çingiz, Teymur, Fatih-Səlim, Süleyman, Nadir, Ağa Məhəmməd xan kimi sərdarların, Çingizin yasası, Teymurun tüzükü kimi qanunların, səlimlər qanununun əsərinin unudulmasının mümkün olmadığını yazırdı. İslam tarixində türklərin rolunu geniş işıqlandıran müəllif, ərəblərdən tutmuş ruslara qədər Azərbaycan tarixinə nəzər yetirərək yazır ki, azərbaycanlılar Səfəvilər, Əfşarlar və onlardan sonra zamanında öz ədəbi və siyasi təşkilatlarını qururdular. Bu zamanda rus militarizmi həmlə edərək Azərbaycanın bir qitəsini digərindən ayırdı, möhtərəm şəhid Cavad xan ilə İbrahimxəlil xan, Mirhəsən xan və sair bu kibi qəhrəmanların rəşadət və müqaviməti istilanı qurtara bilmədi. Azərbaycanın qismi-şimalı yüz ildən artıq rus əsarətində qaldı, o vaxta ki, hürriyət sədası üfiqi-aləmdə tərənnümsaz olub Rusiya militarizminin iflasını elan etdi. Bunun üzərinə Azərbaycan məmləkəti təkrar qəddini düzəldərək bütün aləmə öz istiqlalını bəyan etdi. Bu üçüncü dövrədir ki, azəri türkləri öz azadlıqlarının binasını qurmaq üçün və Azərbaycanın düşmənlərinin dəfi üçün mübarizə edirlər. Əlbəttə ki, edəcəklər və öz cavanlarının fədakarlığı sayəsində Azərbaycan istiqlalını paydar etməklə müzəffər olacaqlar (4; 23, s.388-395).

Azərbaycançılığın nəzəri əsasları M.M.Rəsulzadənin sonrakı yaradıcılığında, xüsusən onun "Azərbaycan Cümhuriyyəti" və "Əsrimizin Siyavuşu" əsərlərində daha da dərindən və hərtərəfli şəkildə əsaslandırılmışdır. O Cümhuriyyətin süqutundan az sonra qələmə aldığı "Azərbaycan Cümhuriyyəti" əsərində Azərbaycan məfkurəsinin əsaslarını daha da inkişaf etdirərək göstərirdi ki, azərbaycanlılar milliyyət etibarilə türk, din etibarilə İslam, mədəniyyəti-əsasiyyə etibarilə şərqlidirlər. Azəri türklərinin hal-hazırda oturduqları yerlər min əl-qədim türk xalqı ilə məskun idi. Gərək Bakı, Gəncə, Şamaxı, İrəvan ilə Təbriz, Marağa, Ərdəbil və sairə kibi vilayətlər və gərək Muğan, Arran, Qarabağ və Qaradağ kibi məmləkətlər daima türk elinin oturağı və türk xanlarının ovlağı olmuşdur. Bu yerlər kəndilərində bir çox türk sülalərinin irili-ufaqlı hökumətlər qurduqlarını və illərlə səltənət sürdüklərini görmüşlərdir. Azərbaycan ərazisində müxtəlif tarixi dövrlərdə mövcud olan sülalələr əksəriyyətinin türk olduqlarını xatırladan M.Ə.Rəsulzadə Rusiya çarizmi tərəfindən mövcudiyyətlərinə son qoyulmuş Dərbənd, Quba, Lənkəran, Şəki, Şirvan, Bakı, Qarabağ, Gəncə, İrəvan və Naxçıvan xanlarının da azərbaycanlı türk hökmdarları olduğunu xatırladaraq, "bu türklərin Azərbaycanı ikiyə bölən Araz nəhrinin iki tərəfində sakin olduqlarını. qismən İrana bağlı nimmüstəqil olsalar da məhkum bir millət deyil, hakim olaraq yaşadıqlarını" qeyd edirdi (22, s.12-14).

Yeri gəlmişkən, Azərbaycanın adı, ərazisi, tarixi ilə bağlı yalan müddəalar təkcə o dövrün deyil, indinin özündə də həm İran mətbuatında, həm də rəsmi sənədlərdə yer almaqdadır. Uzun illərdir ki, bədxahlarımız bu məsələdən bizə qarşı istifadə etməyə çalışır, "Azərbay-

can" istilahının yalnız İranın şimal əyalətlərinə alid olduğunu, Araz çayından şimaldakı ərazinin heç zaman Azərbaycan adlanmadığını, yalnız 1918-ci ildə burada Cümhuriyyət yarandıqdan sonra ortaya atıldığını, indiki Azərbaycan Respublikasının ərazisinin tarix boyu əsasən Arran, Muğan və Şirvan kimi coğrafi adlar daşıdığını, hətta daha uzağa gedərək "Azərbaycanlı" adlı millətin mövcud olmadığını iddia edirlər. Bununla da onlar azərbaycanlıların dövlətçilik ənənələrinin olmadığını sübut etməyə çalışırlar. Məsələn bu nəzəriyyənin banilərindən biri olmuş Ə. Kəsrəvi hələ 1928-ci ildə çap etdirdiyi «Şəhriyarane qomnam» adlı əsərində yazır ki, Arrana indi Azərbaycan adı vermişlər. Baxmayaraq ki, Azərbaycan və ya Azərbayeqan Arranın yanında yerləşmiş digər ərazinin adıdır. Ən qədimdən əldə məlumat vardır ki, bu iki ərazi həmişə bir-birindən ayrı olmuş və heç vaxt Arran, Azərbaycan adlanmamışdır...» (48, s 246, 265). İranın tanınmış tarixçilərindən biri olan İnayətullah Rza da bu mövqeni müdafiə edərək 1981-ci ildə nəşr olunmuş «Azərbaycan və Arran (Albaniya-ye-Qəfqaz)» əsərində Azərbaycanın tarixi coğrafiyasını saxtalaşdırmağa cəhd edir (51). 2000-ci ildə Tehranda İran Xarici İşlər Nazirliyinin Sənədlər və Diplo¬matiya tarixi Mərkəzinin arxiv materialları əsasında Rza Azəri Şəhrizayinin nəşr etdirdiyi «Heyəte Fövqəl'adeye Qəfqaziyye» («Qafqaz fövqəladə heyəti») adlı sənədlər toplusunda da bu qeyri-elmi yanaşma özünü göstərir (50; 18). Toplunun elə girişində qeyd olunur ki, «Azərbaycan Cümhuriyyəti» adlandırılan bu məntəqə əvvəllər Qafqaz Albaniyası, sonrakı mərhələlərdə Arran, lap sonralar isə xanneşini (xanlıqlar - Gəncə, Şəki, Şirvan, Bakı) adları ilə adlanmışdır... və Arazın o tayı heç zaman Azərbaycan adlanmamışdır». Müqəddimə müəllifi həmin İ.Rzaya əsaslanaraq iddia edir ki, Müsavat partiyası Osmanlı türklərinin tabeliyində idi və onların türklərin istəyi ilə Qafqazın Arran və Şirvan əyalətlərinə Azərbaycan adını qoydular (53, s. 53).

«Azərbaycan» terminin indiki Azərbaycan Respublikası ərazisinə (Şimali Azərbaycana) şamil edilmədiyi barədə qeyri-elmi yanaşma Ermənistanda, İranda, Rusiyada Cümhuriyyətinin süqutundan sonra da geniş yayılmış, bu gün də davam etməkdədir. Ermənistanda və İranda rəsmi tarixşünaslıq Azərbaycan termininin yalnız İran ərazisinə aid olduğunu, bu terminin yalnız 1918-ci ildə Cənubi Qafqazda yaranmış dövlətə qoyulması ilə yarandığını və bunun da türklərin (Osmanlı türklərinin) təzyiqi altında baş verdiyini iddia edirlər. Məsələn İranda nəşr edilmiş yuxarıda adı çəkilmiş sənəddə iddia edilir ki, bu gün Qafqaz Azərbaycanı adlanan respublikanın bir çox şəhərləri İrana aid olub, onlarda indiyədək İran əhvali-ruhiyyəsi vardır... Rus dövlətinin zəifləməsi və inqilabların başlanmasından sonra da Osmanlı əsgəri dəstələri mövqeiyyətdən istifadə edib Azərbaycan və Qafqaz ərazisinə daxil oldu. Türk təbliğatçıları zahiri etnik və dil birliyindən istifadə edərək Qafqazda sakin əhalini aldadıb, o qədər hiylə işlətdilər ki, Qafqaz Azərbaycanı Respublikası o ərazilərdə sakin müsəlman əhalisinin İranla münasibətlərini pisləşdirdi və imkan vermədilər ki, yeni respublikanı təsis edənlər İran dövlətindən, yəni qədim həmvətənləri və gələcək qonşusu olan İran dövlətinin maddi və mənəvi köməkliklərindən istifadə edə bilsin. Belə ki, hətta həmin təbliğatçıların hiylə, əlaltından işləməsi nəticəsində İranın şimal əyalətlərini öz ərazilərinə birləşdirib, qədim qonşu olan İran dövlətinin mənafeyi əleyhinə və nəzakətdən uzaq olaraq İranın böyük əyalətlərindən birinin adını özlərinə ələm edib, yeni hökuməti «Azərbaycan Respublikası» adlandırdılar (50, sənəd 9, s.56). İ.Rza yazır ki, 1918-ci ilin iyun ayında Müsavat partiyası rəhbərləri Qafqazda bir dövlət yaratdılar və məzkur ərazinin bir hissəsinə hökmranlıq edib, həmin ərazini Azərbaycan Respublikası adlandırdılar. Halbuki bu ərazi heç vaxt Azərbaycan adlanmamışdır. Bolşeviklər Qafqazı ələ keçirdikdən sonra da bu ərazinin adı Azərbaycan olaraq qaldı. Qafqazın bir hissəsinə «Azərbaycan» adı verməklə belə bir fikir ortaya atıldı ki, guya Azərbaycan iki yerə bölünmüş ərazidir ki, onun bir hissəsi Araz çayının şimalında, digər hissəsi Araz

çayının cənubunda yerləşmişdir. Nəticədə «Şimali Azərbaycan», «Cənubi Azərbaycan» kimi terminlər yarandı (52). Bu sərsəm fikirləri müasir İran tarixçiləri, o cümlədən T.Atabəki, B.Ə.Əhmədiyan və başqaları d təkrar edir (49, s.28-30). T.Atabəkiyə görə, Azərbaycan Respublikasının ərazisi tarix boyu Azərbaycan deyil, Arran adlanmışdır, yalnız 1918-ci ildə siyasi məqsədlər üçün Azərbaycan adlandırılmış və bu zaman əsas məqsəd də hər iki Azərbaycanı bir dövlətdə birləşdirmək olub(55).

Bu iddiaları Ermənistan və İran tarixçiləri və ideoloqları indi də müdafiə etməkdə davam edirlər. Bunu son illərdə bu ölkələrdə (eləcə də Rusiyada) Azərbaycanın, Cənubi Qafqazın tarixinə, etnik vəziyyətinə həsr edilmiş əsərlər, internet materialları da təsdiq edir. Məsələn M.Meltyuxov və A.Ter-Sarkisyan soyadlı müəlliflər yazırlar: "Tatix elminə ancaq bir Azərbaycan məlumdur– qədim İran əyaləti olan və irandilli və digər xalqlarla məskunlaşmış Azərbaycan. XI əsrdən başlayaraq bu əyalət türk tayfalarının hücumlarına məruz qalmış, onraların bir hissəsi sonralar burada qalmış və müəyyən dərəcədə yerli irandilli əhalini assimiliyasya etmişdir ki, onların böyük hissəsi indi türk dialektlərində danışsalar da, milli İran köklərini və İran özşüurunu saxlamışlar. XIX əsrə qədər hər hansı dildə olursa olsun heç bir tarixi mənbədə Zaqafqaziya hüdudları daxilində (Arazdan şimalda) Azərbaycanın mövcudluğundan bəhs edilmir... 1920-ci ildə Azərbaycan SSR-ə daxil edilmiş ərazilərə münasibətdə "Azərbaycan" sözü yalnız XX əsrin əvvəllərində, daha dəqiq I Dünya müharibəsinin son ilində bu ərazilərdə Türkiyə işğal rejiminin qurulmasından və sözdə "Azərbaycan Demokratik Respublikası"nın elan edilməsindən sonra işlədilməyə başlanmışdır" (43). Digər erməni müəllif - Tamara Vardanyan Moskvada nəşr etdirdiyi kitabında daha da uzağa gedərək guya "Azərbaycanın və bəzi xarici müəlliflərin alternativsiz olaraq istifadə etdikləri" "Azərbaycan etnosu", "etnik azərbaycanlı", "azərbaycanlıların etnik ərazisi" kimi tarixi-etnoloji terminləri "təhlil edir". Azərbaycan millətini "başa çatdırılmamış etnik layihə" adlandıran müəllifin nəzərincə, "Azərbaycan etnosu" və ya "azərbaycanlıların etnik ərazisi" kimi terminlər ideologemlər olub etnomilli mifə xidmət edirlər, ona görə də akademik və publisistik mətnlərdə bu terminlərin XX əsrə aid edilməsi qeyri-peşəkarlıqdır və elmi cəhətdən əsassızdır (34, c.65). Maraqlıdır ki, Azərbaycan müəlliflərini "Azərbaycan" terminindən qeyri-autentik şəkildə istifadə etməkdə günahlandıran, 1918-ci ilə qədər "Azərbaycan", "Azərbaycan türkləri", "azərbaycanlılar", "Azərbaycan türkcəsi", "Azərbaycan dili" kimi məfhumların mövcud olmadığını iddia edən T.Vardanyan elə kitabının 28-ci səhifəsində III Dövlət Dumasının deputatı N.L.Markovun 1909-cu ildəki çıxışından sitat gətirməklə özü özünü təkzib edir: "Müsəlmanlar arasında maarifin yayılması cəmiyyəti Qafqaz dağlılarının müxtəlif tayfalarını - çeçenləri, ləzgiləri, yanlış olaraq tatar adlandırılan Azərbaycan türklərini və digər başqa tayfaları birləşdirir, onları birləşdirən türk dilidir, çünki Azərbayacan dili türk dilinin dialektidir" (38, c.899; 34, c.28). Adı çəkilən müəlliflərin, eləcə də bu kitaba ön söz yazmış V.Zaxarovun, həmçinin Azərbaycana nifrətini gizlətməyən digər müəlliflərin (S.Tarasov, V.Stupişin, A.Şahnazarov və başqaları) qeyri-elmi yanaşmaları əslində Ermənistanın və bəzi İran və Rusiya ideoloqlarının Azərbaycan xalqının mənşəyinə, dövlətçilik tarixinə dair konsepsiyaları üçün tipikdir. Antitürk və antiazərbaycan mahiyyət daşıyan bu konsepsiya guya tarixi Albaniya, Arran və Şirvan vilayətlərini Şimali Azərbaycan, həqiqi Azərbaycan olan İran Azərbaycanını isə Cənubi Azərbaycan adlandırılmasına qarşı çıxaraq azərbaycanlıların ari mənşəli olduqlarını, sonradan türkləşdiklərini iddia edir, bununla da şimallı-cənublu Azərbaycan xalqının vahidliyini inkar etmək məqsədi güdür. Lakin tarixi mənbələr Azərbaycan məfhumunun qədimliyini və hər iki əraziyə aid edildiyini tamamilə təsdiq edir. Hələ sovet dövründə Azərbaycan tarixçiləri bu saxtalaşdırmalara tutarlı elmi dəlillərlə cavab vermişlər. 1978-ci ildə işıq üzü görmüş "Azərbaycanın tarix və mədəniy-

yətinin burjua saxtalaşdırıcılarına qarşı" adlı məqalələr toplusunda (8) Azərbaycanın tanınmış tarixçiləri Ş.Tağıyeva, O.Əfəndiyev, T.Musəvi, M.Azərli, H.Dəlili, M.Əliyev, A.Fazili, İran tarixşünaslığının Azərbaycanın etnik tarixi və tarixi coğrafiyası ilə bağlı qərəzli fikirlərini faktlarla və elmi dəlillərlə təkzib etmişlər. Müasir Azərbaycan tarixçiləri də bir sıra erməni, Rusiya və İran tarixçilərinin Azərbaycanın tarixi coğrafiyası, etnik və siyasi tarixi haqqında qərəzli fikirlərini ifşa edən bir çox əsərlər ortaya qoymuşlar (14; 16; 17; 30; 31; 32; 33; 44; 19 və s.). Onlar yüzlərlə tarixi mənbələrə istinad edərək ən qədim dövrlərdən Araz çayının şimalındakı ərazinin də Azərbaycan adlandırıldığını sübut etmişlər. Azərbaycan alimləri "Albaniya", "Aran", "Şirvan", "Cənubi Azərbaycan", "Şimali Azərbaycan" və digər tarixi-coğrafi adların mövcudluğunu heç zaman inkar etməmişlər. XIX əsrin əvvəllərində tarixi Azərbaycan Çar Rusiyası və Qacarlar İranı arasında parçalandıqdann sonra iki hissəyə bölünmüş və nəticədə "Cənubi Azərbaycan" və "Şimali Azərbaycan" kimi istilahlar yaranmışdır. İki hissəyə parçalanması nəticəsində şimallı və cənublu azərbaycanlılar arasında həyat tərzlərində, dünyagörüşlərində, siyasi, iqtisadi, mədəni inkişaflarında, təhsil səviyyələrində müəyyən fərqlərin yaranmasına baxmayaraq onlar arasında əlaqələr tam itməmiş, Azərbaycan xalqı öz etnik-milli vahidliyini qoruyub saxlamışdır. Yalnız XX əsrin 20-ci illərində Sovet və Pəhləvi rejimlərinin hər iki tərəfdən sərhədləri bağlamaları ilə Azərbaycanın şimalı ilə cənubu arasında əlaqələr məhdudlaşmış, bu da hər iki ərazidə yaşayan əhalinin təmaslarına öz mənfi təsir göstərmişdir.

İranlı tarixçilər indiki Azərbaycan Respublikasının ərazisinin İranın, ermənilər isə Ermənistanın tarixi əraziləri olduğunu bildirsələr də, Şimali Azərbaycanın heç zaman Azərbaycan adlanmaması ilə bağlı onlar arasında heyra-tamiz yekdillik mövcuddur. Təəsüf ki, bəzi Rusiya tarixçiləri bu yalan müddəanı müdafiə etməkdən usanmırlar.

Qeyd edildiyi kimi, Cümhuriyyət dövründə İranın hakimiyyət dairələri, rəsmi mətbuat orqanları Şimali Azərbaycanda yaranmış müstəqil dövlətin yaranmasına qısqanc münasibət bəsləyərək, xüsusən bu dövlətin Azərbaycan adlandırılmasına qarşı çıxır, bu zaman o yanlış mövqedən çıxış edirdilər ki, Azərbaycan istilahı yalnız Arazın cənubundakı tarixi İran ərazisinə şamil edilə bilər, Arazdan şimaldakı torpaqlar isə heç vaxt Azərbaycan adlandırılmayıb. Eyni zamanda yaranmış mürəkkəb şəraitdən istifadə edən İran şovinistləri müstəqil Azərbaycan dövlətinə qarşı ərazi iddiaları ilə çıxış etmişdilər. Bu baxımdan, onların mövqeyi Daşnak partiyasının, Ararat Respublikasının mövqeyi ilə tam üst-üstə düşürdü. Lakin Azərbaycan hökumətinin qətiyyətli, ardıcıl siyasəti, M.Ə.Rəsulzadə başda olmaqla Azərbaycanın fikir adamlarının mətbuat səhifələrində İranın Azərbaycanla bağlı qeyri-obyektiv mövqeyini ifşa edən çıxışları və ən nəhayət Ə.M.Topçubaşov rəhbərliyi ilə Azərbaycan nümayəndə heyətinin əvvəlcə İstanbulda, sonra da Parisdə göstərdiyi məhsuldar fəaliyyət, o cümlədən İran nümayəndələri ilə keçirdikləri görüşlər İranın Şimali Azərbaycan dövlətinə münasibətinin dəyişməsinə gətirib çıxardı.

Cümhuriyyət dövrünün azərbaycanlıların tarixi yaddaşında mühüm yer tutduğunu qeyd edən M.Ə.Rəsulzadə yazırdı ki, Azərbaycan dövri-istiqlalına bolşeviklər "Müsavat dövrü" deyirlər. Fəqət, xalq bu dövrə AZƏRBAYCAN dövrü deyir. Xalqın düşüncəsində AZƏRBAYCAN məfhumu coğrafi bir mənadan ziyadə fikir və əməl şəklində təcəssüm ediyor. İstiqlal xaricində onun üçün bir AZƏRBAYCAN yoxdur (22, s.62).

Cümhuriyyət dövründə "Azərbaycançılq" məfkurəsinin əməli cəhətdən gerçəkləşdirilməsi sahəsində də ciddi addımlar atılmışdı. Əgər Cümhuriyyətin yaradılmasına qədər Müsavat partiyası başda olmaqla Azərbaycan milli hərəkatının başlıca vəzifəsi "Azərbaycan fikrini yalnız xaricdə deyil, daxildə də isbat etmək"dən ibarət idisə, Cümhuriyyətin yaradılması ilə artıq xalqın zehnində Azərbaycan istiqlalı fikri möhkəm yer tutmuşdu. İndi əsas vəzifə "felən mövcud olan Azərbaycan istiqlalının hüquqca

möhkəmləşməsi, xaricdə müdafiəsi, daxildə təşkili üçün çalışmaqdan" (M.Ə.Rəsulzadə) ibarət idi (6, s.51-52).

Bu baxımdan Cümhuriyyət dövründə həyata keçirilmiş milli siyasətin təhlili mühüm əhəmiyyət kəsb edir. Azərbaycan dünyanın nadir ölkələrindəndir ki, burada heç zaman dini fanatizm, ksenofobiya, antisemitizm olmamışdır. Bu torpaqda illərlə müxtəlif xalqların və dinlərin nümayəndələri mehriban qonşuluq şəraitində yaşamış, ölkəmizdə yaşayan etnik qrupların və millətlərin dillərinin, mədəniyyətlərinin, adət-ənənələriini qorunub saxlanılması sahəsində zəngin təcrübə toplanmışdır. Bu baxımdan Azərbaycan Xalq Cümhuriyyətinin milli və dini problemlərin həlledilməsi sahəsində əldə etdiyi qısa, lakin unikal təcrübə geniş öyrənilməli və yayılmalıdır.

Cümhuriyyət dövründə Azərbaycanda millətlərarası və dinlərarası dialoqun həyata keçirilməsi sahəsində atılmış mütərəqqi addımlar əslində hansısa xarici təzyiq və diktələrin, beynəlxalq və geosiyasi şəraitin təsiri altında deyil, məhz Azərbaycan dövlətinin iradəsinin nəticəsi idi. Nəzərə almaq lazımdır ki, bu siyasət elə bir dövrdə həyata keçirilirdi ki, həmin dövrdə insan hüquq və azadlıqlarını, milli və dini azlıqların hüquqlarını müdafiə edən nə nüfuzlu beynəlxalq təşkilatlar, nə də təsirli dövlətüstü hüquq normaları və sənədlər mövcud deyildi. Buna baxmayaraq Azərbaycan Cümhuriyyəti milli-dini məsələləri özündə ehtiva edən özünəməxsus normalar sistemi formalaşdırmağa nail olmuşdu. Cümhuriyyətin siyasi və mədəni elitası xalqın tarixi-mənəvi dəyərlərinə söykənərək, eyni zamanda onun gələcək taleyini düşünərək vahid dövlət çərçivəsində polietnik və çoxkonfessiyalı cəmiyyət yaratmağa nail olmuşdular. Demək olar ki, bütün ölkələrdə, o cümlədən, keçmiş Rusiya imperiyasının xarabalıqları üzərində bərqərar olmuş ölkələrdə sosial, siyasi, milli, dini ziddiyyətlərin və çəkişmələrin tüğyan etdiyi bir dövrdə AXC millətlərarası və dinlərarası sülhün və dialoqun məhsuldar oazisi idi. Ksenofobiya, etnik-milli dözümsüzlük və onların doğurduğu milli münaqişələr, qırğınlar, deportasiyalar, qaçqınlıq və digər sosial təlatümlər təkcə müstəqillik əldə etmiş dövlətlərdə deyil, elə Avropanın oturuşmuş ölkələrində belə adi hala çevrilmişdi. Elə qonşu Ermənistanda hazırda mövcud olan monoetnik, ksenofob cəmiyyətin yaradılması istiqamətində ilk addımlar elə məhz 1918-ci ildə Ararat Respublikasının yaradılması ilə və hətta ondan əvvəl atılmış, yüz minlərlə qeyri-erməni öldürülmüş və deportasiya edilmiş, bununla da Daşnaksütyun partiyasının və digər erməni siyasi qüvvələrinin əsrlərlə işləyib hazırladıqları "Türksüz Ermənistan" layihəsinin əməli gerçəkləşdirilməsinə başlanılmışdı. Halbuki, Ararat Respublikasının yaranmasına qədər bu dövlətin təşkil olunduğu İrəvan quberniyasının və 1921-ci ildə Sovet Rusiyasının Ermənistana "peşkəş etdiyi" Zəngəzur qəzasının əhalisinin əksəriyyətini Azərbaycan türkləri təşkil edirdilər. Bunu dövrün statistik məlumatları da təsdiq edir (Bu haqda ətraflı bax: 9; 12; 20; 21; 36; 40; 41; 42; 45; 46). Əslində 1918-ci ildə Bakıda və Azərbaycanın digər bölgələrində törədilmiş türk-müsəlman soyqırımları da elə bu layihənin tərkib hissəsi idi.

Cümhuriyyət hakimiyyəti ölkədə mövcud olan dini-etnik sabitliyi qoruyub saxlamaqla yanaşı, multikultural birgəyaşayışın modern normalarını da yaradırdı. Əslində həmin dövrdə Azərbaycan hökumətinin və parlamentinin qəbul etdiyi bütün normativ hüquqi aktlar, qanun və qərarlar bu vəzifələrin həyata keçirilməsinə hesablanırdı. Nəticədə hüquq və azadlıqların təmin edilmə səviyyəsinə görə AXC mübaliğəsiz olaraq dövrün demokratiya siyahısında ön sıralarda adı çəkilən bir çox dövlətlərdən daha öndə idi. Ermənistandan fərqli olaraq Azərbaycan hökuməti ermənilər də daxil olmaqla digər millətlərə qarşı hər hansı ayrı-seçkilik hərəkətlərinin baş verməsinə imkan verməmiş, əksinə milliyyətindən, dinindən, sosial, siyasi mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlarına bərabər hüquqlar vermişdir. Bunu Azərbaycan parlamentində, icra hakimiyyətində, yerli hakimiyyət strukturlarında, məhkəmə və ədliyyə orqanlarında, bütün digər sahələrdə milli və dini

azlıqların nümayəndələrinin təmsilçiliyi də təsdiq edir. Azərbaycan hökumətinin multikultural dəyərlərə, milli dialoqa sadiqliyinin bariz nümunəsi kimi, parlamentin yaradılması ilə bağlı Azərbaycan Milli Şurasının 1918-cu il noyabrın 29-da bütün Azərbaycan əhalisinə Müraciətnaməsini göstərmək olar. Milliyyətindən, dini mənsubiyyətindən, ölkədə yaşadığı müddətdən asılı olmayaraq bütün vətəndaşları yeni dövlətin qurulması prosesində iştirak etməyə dəvət edən Müraciətnamədə vurğulanırdı: "bizə fəlakət və səfalətdən başqa bir şey verməyən ədavət və ixtilafı tərk edəlim, müqəddətad tarixiyyə hamımız bir yerdə yaşamaq məcburiyyətində bulundurur. Yeni başlayan həyatın təbii məşəqqətlərini asanlıqla çəkmək və müşkül mənzillərinə rahatlıqla köçmək və yeni həyata ləyaqət qazanmaq üçün yaşayışımızı məqul və insani əsaslar üzərində quralım, yekdigərimizi sevəlim, bir-birimizə ehtiam edəlim". Bütün Azərbaycan vətəndaşlarının "bilafərq millət və məzhəb" bir vətənin övladları olduğunu qeyd edən Milli Şura "ümumi vətəndə müştərəq həyatlarını qurmaq və bərabərlikdə öz səadətlərini hazırlamaq" üçün onları bir-birlərinə əl uzatmağa və yardım etməyə çağırır, milli azlıqların və məmləkətin vilayətlərinin vəkillərini (nümayəndələrini) tezliklə açılacaq Məclisi-məbusanın (parlamentin) işində iştirak etməyə dəvət edirdi. M.Ə.Rəsulzadənin rəhbərlik etdiyi Milli Şura bu xüsusda ən böyük məsuliyyətin və ən ağır vəzifənin bu torpaq üzərində yaşayanların ən böyük əksəriyyətini təşkil edən Azərbaycan türklərinə, müsəlman camaatına düşdüyünü bildirərək onlardan "daha ziyadə fədakar və daha ziyadə mütəhəmmül bulunmalarını" arzu edirdi (29, c.80-81).

Azərbaycan hökuməti ölkədə yaşayan milli azlıqların mili-mədəni ehtiyaclarının təmin edilməsi üçün zəruri şəraitin yaradılmasna çalışırdı. Cümhuriyyət dövründə ölkədə onlarla milli-etnik cəmiyyətlər, icmalar, komitələr, şuralar fəaliyyət göstərirdi. Onların arasında erməni, rus, yəhudi, alman, ukrayna, gürcü və s. millətləri təmsil edən təşkilatlar da var idi.

Milli azlıqların ehtiyacları üçün vəsait ayrılması ilə bağlı hökumət bir neçə dəfə qərar qəbul etmişdi. Azərbaycanda olan tolerantlığın nəticəsi idi ki, digər xalqların nümayəndələri, o cümlədən yəhudilər respublikanın ictimai-siyasi, mədəni həyatında yaxından iştirak edirdilər. Azərbaycan parlamentində ermənilərin və rusların xüsusi fraksiyaları, digər milli azlıqlar olan yəhudilərin, almanların, polyakların, uk-raynalıların nümayəndələri var idi. Azərbaycanda yaşayan ermənilərlə milli barışığa nail olmaq üçün onlara bir növ imtiyazlı şərait yaradılmışdı. Ermənilər Azərbaycan parlamentində iki fraksiya və 21 deputatla təmsil olunmuşdular, onların məktəbləri, mədəni-maarif, dini təşkilatları, xeyriyyə cəmiyyətləri üçün dövlət vəsaitləri ayrılırdı. Qarabağ ermənilərə ilə bağlanmış sazişə uyğun olaraq 1919-cu il oktyabrın 1-dən Qarabağın erməni xalq məktəbləri üçün xüsusi təftiş bölməsi yaradılmış, müfəttiş vəzifəsinə isə erməni R.N.Şahnazarov təyin edilmişdi. Elə həmin ayda Qarabağ ermənilərinin mədəni müqəddəratı haqqında əsasnamə hazırlanması haqqında Maarif nazirliyinə Nazirlər Kabinetinin sədrinin xüsusi sərəncamı daxil olmuşdu (27, c.226). Azərbaycanda fəaliyyət göstərən müxtəlif millətlərin və etnik qrupların təşkil etdikləri xalq məktəbləri Maarif nazirliyi tərəfindən subsidiyalar alırdılar. Maarif nazirliyinin, Himayədarlıq nazirliyinin, milli cəmiyyətlərin müraciəti əsasında müxtəlif icmalara məxsus məktəblərə və xeyriyyə cəmiyyətlərinə vəsaitin ayrılması haqqında Azərbaycan parlamenti qanunlar, hökumət isə qərarlar qəbul etmişdi. Bu zaman milliyyətindən asılı olmayaraq bütün cəmiyyətlərə yardım eyni əsaslarla göstərilirdi (27, c.225-226). Hökumət qəzeti olan "Azərbaycan" qəzetində, digər mətbuat orqanlarında Azərbaycanda yaşayan milli azlıqların mədəni həyatı geniş işıqlandırılır, etnik cəmiyyətlərin keçirdikləri mədəni-maarif tədbirləri haqqında hər nömrədə məlumatlar, elan və bildirişlər yerləşdirilirdi.

Azərbaycan hökuməti insan ləyaqətini alçaldan bütün milli və dini məhdudiyyətləri ləğv edilməsinə nail olmuşdu. Bu baxımdan Azərbaycan vətəndaşlığı haqqında qanun bü-

tün vətəndaşlar üçün bərabər hüquq və azadlıqları təmin edirdi. Milli və dini azlıqların nümayəndələrinin hüquq və azadlıqlarının pozulması dövlət əleyhinə cinayətə bərabər tutulurdu.

Cümhuriyyət hökumətinin milli inkişafın təmin edilməsi sahəsində atdığı mühüm addımlardan biri tədris müəssisələrinin milliləşdirilməsinin həyata keçirilməsi oldu. 1918-ci il avqustun 28-də Azərbaycan hökuməti məktəblərin milliləşdirilməsi haqqında tarixi qərar qəbul etməklə Azərbaycan övladlarına öz doğma dillərində təhsil almaq, öz tarixini, ədəbiyyatını, mədəniyyətini öyrənmək imkanını yaratdı. Sonrakı dövrdə bəzi istisnalarla bütün orta tədris müəssisələri milliləşdirilmişdi. Tədrisin rus dilində olduğu məktəb və sinif-lərdə, həftədə 3-4 saat olmaqla türk (Azərbaycan) dilinin tədrisi icbari hesab edilirdi. Milliləşdirmənin uğurla keçirilməsini təmin etmək üçün ən mühüm amil olan dərslik məsələsi də diqqət mərkəzində saxlanılırdı. Maarif nazirliyinin nəzdində nazir Şahsuvarovun sədrliyi ilə türk dilində dərsliklərin hazırlanması və nəşri üzrə xüsusi komissiya yaradılmışdı (27, c.228). Bundan əlavə dərsliklərin Azərbaycan dilinə tərcüməsi məsələləri ilə məşğul olan xüsusi komissiya təşkil olundu. Cümhuriyyət dövründə mütərəqqi təşəbbüslərdən biri də əlifba islahatı məsələsinin ictimai müzakirələrə çıxarılması oldu. Yeni əlifbanın zəruriliyi haqqında dövri mətbuatda Azərbaycanın görkəmli ziyalılarının məqalələri dərc olunurdu. 1919-cu ildə Azərbaycan Cümhuriyyəti hökuməti xalqın kütləvi təhsilə cəlb olunması və maarifləndirilməsi işində mürəkkəb ərəb əlifbasının çətinliyini başa düşərək onun latın qrafikalı əlifba ilə əvəz edilməsini nəzrdə tutan əlifba islahatını həyata keçirilməsini planlaşdırmış, bu məqsədlə xüsusi komissiya təşkil edilmişdi. Xudadat bəy Məlikaslanovun sədrliyi altında fəaliyyət göstərən komissiya latın əlifbasına keçirilməsini zəruri hesab etmişdi. Abdulla bəy Əfəndiyev Maarif Nazirliyinə latın şrifti ilə yeni türk əlifbasını təqdim etmişdi.

Dövlət idarəçiliyini milliləşdirmək (azərbaycanlaşdırmaq) kimi mühüm tarixi vəzifə də cümhuriyyətçilərin taleyinə yazıldı. Məhz həmin dövrdə milli kadrların məsul vəzifələrə gətirilməsi ənənəsi yarandı. Azərbaycan Xalq Cümhuriyyəti rəhbərlərinin apardığı məqsədyönlü siyasət nəticəsində dövlət idarələri tədricən milli dil praktikasına yiyələnməyə başlamışdı.

Əlbəttə, maarif və idarəetmə sahəsində sahəsində milliləşdirməni həyata keçirərəkən, təhsilin inkişafı istiqamətində təsirli addımlar atarkən Azərbaycan hökuməti respublikanın milli-etnik şəraitini və çarizm dövründə formalaşmış təhsil sisteminin yaratdığı reallıqları da nəzərə alır, bu sahədə hər hansı disbalansın yaranmasına, milli əlamətlərə görə insanların təhsil almaq hüququnun tapdalanmasına yol vermirdi. Bütün məktəblərdə qeyri-müsəlman şagirdlər üçün ilahiyyat dərsləri keçilirdi. Əgər qeyri-millətlərdən olan şagirdlərin sayı 10 nəfərdən yuxarı idisə, onlara ana dili dərsləri keçilirdi. Özü də bu məktəblərdə ilahiyyat və ana dili dərslərinin xərcini dövlət öz xəzinəsindən ödəyirdi. Xristian dininə etiqad edən müəllim və şagirdlər üçün istirahət günü cümə günü əvəzinə bazar günü idi. Dini bayramların da keçirilməsinə icazə verilirdi.

Kütləvi şüurda "Azərbaycançılıq" məfkurəsinin möhkəmləndirilməsi baxımından yeni dövlət atributlarının qəbulu, tarixi günlərin qeyd edilməsi mühüm əhəmiyyət kəsb edirdi. Mətbuatda üçrəngli milli bayrağın təbliği ilə bağlı yazılar dərc edilir, şairlər ona həsr edilmiş şerlər yazırdılar. AXC-nin dövlət bayrağı ilə bağlı Ü.Hacıbəyli "Bayrağımız saralmaz" məqaləsində yazırdı: "Bayrağımız haqq bayrağıdır. O, bir millətin bəşəri hüquqlarının parçasıdır. Bir millətin ki, onun insan kimi yaşamağa haqqı vardır. Bir millətinki, daha əsir olmaq istəmir (3). C.Cabbarlının, Ə.Cavadın Azərbaycan bayrağı haqqında şeirləri xeyli şöhrət qazanmışdı. 1919-cu ilin martında Azərbaycan Cümhuriyyətinin Dövlət gerbinin və möhürünün layihələrini tərtib etmək üçün müsabiqə elan olunmuşdu. 1920-ci il yanvarın 30-u tarixli qərarla hərbi orden layihələrinin, milli himnin, dövlət gerbi və möhürünün layihələrinin müsabiqəsini keçirmək müvafiq nazirliklərə tapşırılmışdı.

Azərbaycan Cümhuriyyəti milli və dini tolerantlıq baxımından dövrünün bütün demokratiyalarını üstələyirdi, onun siyasi həyatında, parlamentində mövcud olan pluralism isə bir çox məziyyətlərinə görə hətta parlament ənənələrinin yüz illərlə ölçüldüyü əksər Qərb ölkələri üçün bir model idi. Cümhuriyyət dini dözümlülük baxımdan da bütün digər dövlətlərə nümunə rolunu oynayırdı.

Çox ağır beynəlxalq şəraitdə yaşamasına, mürəkkəb daxili və xarici vəziyyətinə baxmayaraq AXC iqtidarı o dövr üçün ən müasir, mütərəqqi idarəçilik formalarını tətbiq etməklə, xalqımızın demokratik cəmiyyətdə yaşamaq və yaratmaq əzmini və bacarığını bütün dünyaya nümayiş etdirdi. Azərbaycanın ilk milli dövləti olan Xalq Cümhuriyyəti müstəqil, demokratik dövlətə xas olan bütün atributlara və strukturlara - parlamentə, icra hakimiyyəti orqanlarına, orduya, möhkəm və maliyyə sisteminə, milli idarəçilik aparatına malik idi. Dövlət quruculuğu hüquqi əsaslarla aparılırdı.

Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır. Ən əsası odur ki, Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirmiş oldu.

AXC xalq hakimiyyətinin respublika formasını, ümumbəşəri tərəqqinin həm Qərb, həm də Şərq meyllərini özündə birləşdirirdi. Bununla bağlı M.Ə.Rəsulzadə "Əsrimizin Siyavuşu" əsərində yazırdı: "Azərbaycan Cümhuriyyətinin əsas idarəsi bütün vətəndaşlarının bərabər hüquqla yaşaması üzərində qurulmuşdu. Burada hər bir insanın möhtərəm şəxs Azərbaycan vətəndaşı olduğu üçün hüququ saxlanılırdı. Burada bir sinif digər sinfə hakim deyildi. İnsan nə varına görə haqlı, nə də yoxsulluğuna görə haqsız görünürdü" (24, s.6).

Azərbaycan Xalq Cümhuriyyətinin beşiyində duran insanlarımız mükəmməl təhsil almış, öz dövrünün mütərəqqi dəyərlərinə yiyələnmiş dövlət xadimləri idilər. Onların bir çoxu nəinki Azərbaycanda, ümumən türk dünyasında və bütün Şərqdə tanınmış fikir adamları, ideoloqlar idilər. Cümhuriyyət qurucularının əksəriyyəti sözün əsil mənasında fenomenal şəxsiyyətlər idilər. Onların bir çoxu öz peşələrində mütəxəssis olmaqla bərabər millətin taleyüklü məsələlərinə dair qabaqcıl ideyalarla, nəzəriyyələrlə çıxış edən fikir adamları idilər. M.Ə.Rəsulzadə, Ə.M.Topçubaşov, Ü.b.Hacıbəyli və başqaları millətin ümdə problemlərini ictimai müstəviyə çıxararaq nicat yolları göstərən, ictimai şüurun inkişafına güclü təkan verən mütəfəkkir və siyasi xadimlər idilər.

Azərbaycan Xalq Cümhuriyyəti təkcə suveren dövlət anlayışını islam coğrafiyasında siyasi praktikaya gətirməklə kifayətlənməyərək, milli dövlətçiliyin əxlaq və mənəviyyat dəyərlərini də ortaya qoymağı bacardı. Bunun ən bariz nümunəsi cümhuriyyət xadimlərinin bizə bu gün də örnək ola biləcək sadə həyat tərzləri, milli maraqları şəxsi maraqlarından üstün tutmaq bacarıqları idi.

Azərbaycan xalqının tarixi sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, milli dirçəliş prosesinin məntiqi nəticəsi kimi meydana çıxmış Azərbaycan Xalq Cümhuriyyəti eyni zamanda xalqımızın müstəqillik əzminin, siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının göstəricisi olmaqla, Avropanın demokratik dəyərləri ilə Şərq mənəvi-etik xüsusiyyətlərini özündə birləşdirən yeni dövlət və cəmiyyət nümunəsi idi.

Cümhuriyyətin qısa mövcudluğu müddətində həyata keçirilmiş tədbirlər müstəqil dövlətçiliyin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyətə malik olmuşdur. Demokratik hüquq və azadlıqların bərqərar olması, etnik, dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquq-

larının tanınması, qadınlara seçki hüququnun verilməsi, türk dilinin dövlət dili elan edilməsi, təhsil və mədəniyyətin inkişafına xüsusi diqqət göstərilməsi, milli silahlı qüvvələrin, təhlükəsizlik orqanlarının yaradılması və digər məsələlərin öz müsbət həllini tapması Xalq Cümhuriyyəti hökumətinin həyata keçirdiyi strateji kursun miqyası və mahiyyəti haqqında aydın təsəvvür yaradır.

Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə qısa zaman kəsiyində fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır. Ən əsası odur ki, Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirmiş oldu.

Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın ruhunda milli dövlətçilik məfkurəsinin formalaşmasında və inkişafında aparıcı amilə çevrildi. Sovet rejimi milli tarix yaddaşımızdan Cümhuriyyət dövrünü silib atmağa nə qədər çalışsa da buna nail ola bilmədi. Milli dövlət süqut etsə də, xalqın şüurundan milli məfkurəni, milli dövlətçilik ideyalarını çıxarmaq mümkün olmadı.

Cümhuriyyət dövründə bütün dünyada özünü siyasi-hüquqi cəhətdən təsdiq etməsi, beynəlxalq hüququn subyektinə çevrilməsi sayəsində Azərbaycan 1920-ci ildən sonra da öz ərazisinə və dövlətçilik atributlarına malik dövlət kimi mövcudluğunu davam etdirməyə imkan verdi, onun dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı. Azərbaycan mürəkkəb, ziddiyyətli hadisələrlə zəngin 70 illik sovet dövründə də böyük məhrumiyyət və itkilərə, repressiyalara və soyqırıma məruz qalmasına baxmayaraq, yaşayıb-yaratdı, inkişaf etdi, böyük nailiyyətlər qazandı, iqtisadi, elmi və mədəni yüksəlişə nail oldu.

Xalq Cümhuriyyəti hökumətinin həyata keçirdiyi tədbirlər Azərbaycançılıq məfkurəsinin şüarda deyil, əməli şəkildə gerçəkləşdirilməsinə xidmət göstərirdi. Məhz əsası Xalq Cümhuriyyəti tərəfindən qoyulmuş dövlətçilik ənənələrinin, milli-mənəvi identlik əsaslarının mövcudluğu Azərbaycan xalqına öz varlığını, mədəniyyətini, milli mənliyini qorumağa, SSRİ-nin süqutundan sonra isə yenidən dirçəlib Azərbaycan Respublikası kimi tarix səhnəsinə çıxmağa imkan verdi.


Corporate Social Responsibilities writing that incorporates models describing the notion from diverse viewpoints. As recommended by Mele and Garriga (2004), CSR concepts can be categorized into four core classifications: Political, Instrumental, Ethical and Integrative. The ethical classification includes four methods that clarify the stream of Corporate Social Responsibility notion. The common privileges method concentrates on the responsibility of CSR in applying anthropological justifications. The mutual suitability method suggests that companies as an essential portion of every community has a duty to be an optimistic performer for happiness of a community. The theory of normative stakeholder suggests communally accountable business that ought to hire consideration to the lawful welfares of completely suitable participants, plus reach equilibrium of the value of those welfares. Lastly, the justifiable growth method analyses Corporate Social Responsibility as an instrument that analyses and drives improvement (Mele and Garriga, 2004).

Sustainable maturity increased drive following the Brundtland report, which described it as the face of handling the requirements of current times. This notion assumes both impartiality and fairness concerning future generations in the long-term objectives for human lives (Hauff, 2007). Sustainable development increased acceptance as it includes not only self-contained economic welfares, but also corresponding environmental concerns and people's desires that could be accomplished by accepting the triple bottom line (Ulrich, 2009). Therefore each act performed by companies today ought to be studied to guarantee the rights and opportunities of future generations. CSR strategies involve companies replacing guidelines towards the welfare of the entire community by deliberating on the consequences of their business activities at every stage. Consequently, companies change from responsive to active CSR by replacing their conservative outcome with a treble base line aimed at " planet, profit and people", therefore fitting a justifiable initiative that adds to justifiable growth (Milstein and Hart, 2003).

According to Hopkins (2006) there are three categories of business proposals that are indicative of growth, the categorization varies on the greatness of the influence of those advantages on community, affecting from the minimum to the supremely powerful correspondingly.

- The first type is the advancement of altruism whereby a company contributes to the care of a positive good source in an emerging country. Contemporarily, this form of business action has enlarged intensely. Nevertheless it seems to be a feeble method of growth as it experiences major difficulties such as deficiency of sustainability, shortage of control and immorality, eventually leading to its disappointment in satisfying its future commitments. An additional disadvantage is that in some cases some contributions are only viewed as a performance of advertising or to suppress the actual damage of companies to community.
- The second method is to advance businesses' by-product activities where businesses generate innovative goods for emerging markets or make investments in emerging markets to yield gain of human or environmental assets. While numerous goods in this type are to enrich the lifestyles of societies, the unseen purpose of business is to yield gain of environmental reserves or inexpensive workforce.
- The third sort is which stimulates sustainable growth actions and anti-poverty advantages. This kind is the finest method of business participation as it helps in a twofold way by donating to the growth practice and serving companies in a variety of methods by improving their status and diminishing hazards, particularly for those functioning in emerging markets. Furthermore, Hopkins stated (2006) there is a growing tendency to

stimulate Corporate Social Development (CSD) that defines communal activities independent from the business, which focuses all participants on the target of developing the welfare of individuals in emerging states.

Conclusion

Over studying the notion, which is Corporate Social Responsibility focuses on the altering link and function of economic performers in society. CSR is a universal notion that clarifies the relationship concerning society and business. This directs towards an answer for impartiality versus proficiency problem by accepting the responsibility of society and business. Inspecting Corporate Social Responsibility, as goodwill remains deceptive by way of it involves a split of day-to-day business actions and business philanthropy that is not the purpose of Corporate Social Responsibility. Moreover, this understanding does not reproduce the complete series of accountabilities and duties of firms concerning society; it correspondingly controls the influence of CSR in creating confident justifiable modification. While CSR is quite an arguable topic, the pro opinions of CSR discussion prove predictability by incorporating CSR in contemporary corporate framework. Dissimilarly, values and universal guidelines have arisen in order to advise companies on how to support their social accountabilities and accomplish the treble base line.

Sustainably motivated CSR strategies suggest that companies are acting regarding the accomplishment of the prolonged interpretation of corporate social responsibility. It emphasizes the relationship between sustainable growth and CSR and underlines the changes of corporations' objectives from yield growth towards chasing the triple bottom line. There is an enormous prospect for states, particularly emerging's, to profit from Corporate Social Responsibility advantages by ever-changing the attention of consideration of companies from business goodwill to communally accountable actions that are straightforwardly related to people's desires and requests. The development of Corporate Social Responsibility to Corporate Social Development, as a concept that reproduces a supplementary ethical development method and in which the purpose of companies is firstly growth, permits appropriate positioning and the usage of many resources, such as humans, to be engaged in by companies in their CSR exercises for growth-related topics.

References:

1. Aguilera, R. V. (2007). Putting The S Back in Corporate Social Responsibility: A Multilevel Theory of Social Change in Organizations. Academy of Management Review. 32 (3). p. 836–863.
2. Anderson Jr., J.W. (1989) Corporate Social Responsibility: Guidelines for Top Management. Westport, Connecticut: Quorum Books.
3. Arthus-Bertrand, Y., Reese, T., Fischer, G. (2014) The Road from Rio 20: Towards Sustainable Development Goals. United Nations.
4. Barroso, J. (2010). Europe 2020: A Strategy For Smart, Sustainable and Inclusive Growth. European Commission.
5. Baumann, H., Ruggles, R. and M. Sadtler, T. (2006). Disruptive Innovation for Social Change [Online] Harvard Business Review: Available at: https://hbr.org/2006/12/disruptive-innovation-for-social-change
6. Bentham, J. (2000). "An Introduction To The Principles of Morals and Legislation" Kitchener, Ontario: Batoche Books.
7. Bowie, N. E. (1999) Business Ethics and

Normative Theories: A Kantian Approach to Business Ethics. Oxford: Blackwell Publishers: (1): 1-16
8. Carroll, A.B. (1991) The Pyramid of Corporate Social Responsibility: Toward the Moral Management of Organizational Stakeholders. Business Horizons, 34 (4) (July- August).p.225-235.
9. Carroll, A.B. and Shabana, K. M. (2010), The Business Case for Corporate Social Responsibility: A Review of Concepts, Research and Practice. International Journal of Management Reviews. p. 85-105.
10. Collins, D. (1987). Aristotle and Business. [Online] Available at: http://dcollins.faculty.edgewood.edu/pdfdocuments/Aristotle.pdf
11. Crane, A. (2008). The Oxford Handbook of Corporate Social Responsibility, Oxford: Oxford University Press.
12. Crane, Andrew and Palazzo, Guido and Spence, Laura J. and Matten, Dirk. (2013) Contesting the Value of the Shared Value Concept, California Management Review, 56(2): 130-153
13. Ferrell, O.C., Fraedrich, J., and Ferrell, L. (2011) Business Ethics: Ethical Decision Making and Cases (8th edition). USA: South-Western, Cengage Learning.
14. Friedman, M. (1970) The Social Responsibility of Business is to increase its Profits. The New York Times Magazine.
15. Garriga, E. and Mele, D. (2004) Corporate Social Responsibility Theories: Mapping the Territory, Journal of Business Ethics. 53. p. 51-71.
16. Haigh, M. and Jones, M.T. (2007) A Critical Review of Relations between Corporate Social Responsibility Research and Practice. Electronic Journal of Business Ethics and Organization Studies.12 (1). p. 16-28.
17. Hart, S. L. and Milstein M. B. (2003). Creating sustainable value. Academy of Management Executive.17 (2). P. 56-69.
18. Hauff, V. (2007). Brundtland Report: A 20 Years Update. Keynote Speech presented at the European Sustainability: Linking Policies, Implementation, and Civil Society Action conference. Berlin 07. June 3rd -5th.
19. Heslin, P.A. and Ochoa, J.D. (2008) Understanding and Developing Strategic Corporate Social Responsibility, Organizational Dynamics.37 (2). p. 125-144.
20. Holliday, C. (2001). Sustainable Growth, The DuPont, Harvard Business Review
21. Holme, R. and Watts, P. (2000). Corporate social responsibility: Making Good Business Sense. Conches-Geneva, Switzerland: World Business Council for Sustainable Development.
22. Hopkins, M. (2006) Corporate Social Responsibility and International Development: Is Business the Solution?. London: GBR: Earth Scan Publications Ltd.
23. Lunheim, R. (2005) Corporate Responsibility – in Good Company?. In NTNU Conference Navigating Globalization: Stability, Fluidity, and Friction, Trondheim, Norway, 4- 6 August 2005. p. 1-12.
24. Maon, F., Lindgreen, A. and Swaen, V. (2010) Organizational Stages and Cultural Phases: A Critical Review and a Consolidative Model of Corporate Social Responsibility Development, International Journal of Management Reviews, 12 (1) p. 20-38.
25. Nestle, (2013). Nestle In Society: Creating Shared Value and Meeting Our Commitments. [Online] Available at: http://www.nestle.com/asset-library/documents/library/documents/corporate_social_responsibility/nestle-csv-summary- report-2013-en.pdf
26. Nidumolu, R., Billman, E., Ellison, J. and Whalen, J. (2014). "The Collaboration Imperative" Harvard Business Review
27. OECD (2011). OECD Guidelines for Multinational Enterprises, OECD

Publishing. Thomas, G. and Nowak, M. (2005) Corporate Social Responsibility: A definition. GSB Working Paper Series. 62.
28. Osborne, M. (2002). Nash Equilibrium: Theory. [Online] UToronto. Available at: http://www.economics.utoronto.ca/osborne/igt/nash.pdf
29. Prahalad, C.K., Stuart L. Hart (2002) The Fortune at the Bottom of the Pyramid, Strategy and Business, Allen Hamilton Inc. 26(1): 1-14
30. Soubbotina, T. (2004). "Beyond Economic Growth 2nd Edition, Washington, D.C.: World
31. Strange, T., Bayley, A. (2008) "Sustainable Development" Paris: OECD.
32. Strauss, Delphine (2010), 'New Assertiveness on the World Stage', Financial Times
33. Ulrich, P. (2009). Civilizing the Market Economy: The Approach of Integrative Economic Ethics to Sustainable Development. Discussion Papers of the Institute for Business Ethics. 114.
34. Ulrich, P. (2009).Civilizing the Market Economy: The Approach of Integrative Economic Ethics to Sustainable Development. Discussion Papers of the Institute for Business Ethics. 114.
35. Zadek, S. (2004) The Path to Corporate Responsibility. In Harvard Business Review On Point Collection (2007). Harvard Business School Publishing Corporation, p. 36-44.

Key words: *CSR, Business, Sustainable Development, Society, Ethics, Economic Advantage*

Cavid Hüseynli
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının doktorantı

CSR (KORPORATİV SOSİAL MƏSULİYYƏT) DAVAMLI İNKİŞAFIN TƏRKİB HİSSƏSİ KİMİ

XÜLASƏ

Məqalənin məqsədi biznes və cəmiyyət arasında bu gün xeyli dəyişikliklərə məruz qalmış əlaqələrin izah edilməsindən ibarətdir. Qloballaşma, ekoloji situasiya, nüfuzlu siyasət, cəmiyyətdə bir-birinə artan hörmət və etik istehlak şüuru ilə əlaqədar olaraq kompaniyalar izlərinin cəmiyyətdə məsuliyyətlərini yenidən qiymətləndirmək məcburiyyətindədirlər. CSR (korporativ sosial məsuliyyət) biznes və cəmiyyət arasındakı bu mürəkkəb əlaqəni təsvir edən anlayışlardan biridir. Məqalədə CSV (ümumi dəyərlərin yaradılması) konsepsiyası və biznes və cəmiyyət arasında tarazlığı çoxaldan maraqlı tərəflər nəzəriyyəsi təsvir olunur, bu əlaqələrin davamlı artıma təsiri göstərir. Korporativ sosial məsuliyyətin müzakirəsində ziddiyyətli rəylər nəzərdən keçirilir və kompaniyaların özlərinin sosial vəzifələrinin yerinə yetirilməsi zamanı qəbul etdikləri alətlər müəyyən olunur. İzah edilir nə üçün kompaniyalar davamlı inkişafı etik nöqteyi-nəzərdən qəbul etməlidirlər və bundan çıxış edərək CSR kompaniyalara mənəvi nəzarətçi kimi kömək edir. Bu zaman KSM-nin öyrənilməsinə onun nəzarət dəyərlərini, habelə onun davamlı artımla əlaqəsini müəyyən edən nəzərdən keçirilir. Kommunal tələblərin CSR paketlərinə daxil edilməsi üsullarına aid olan əlavə vasitəsilə CSR artımı dəstəkləyən və istiqamətləndirən alət kimi təsir edə biləcək üsulun rasional şəkildə əsaslandırılmasından ibarətdir. Nəhayət, məqalə KSM və davamlı artım arasındakı əlaqənin öyrənilməsi ilə çatdırılır. İqtisadi mübadilə aləmində biznes və cəmiyyət davamlılığa nail olunması konsepsiyasını eyni qəbul etməlidirlər.

Açar sözlər: *CSR, biznes, davamlı inkişafı, cəmiyyət, etika, iqtisadi üstünlük*

Джавид Гусейнли
Докторант Академии Государственного Управления
при Президенте Азербайджанской Республики

CSR (КОРПОРАТИВНАЯ СОЦИАЛЬНАЯ ОТВЕТСТВЕННОСТЬ) КАК ЧАСТЬ УСТОЙЧИВОГО РАЗВИТИЯ

РЕЗЮМЕ

Цель статьи – объяснить связь между бизнесом и обществом, которая в наши дни претерпевает значительные изменения. В связи с глобализацией, экологической ситуацией, строгой авторитетной политикой, растущим уважением друг к другу в обществе и этическим потребительским сознанием, компании вынуждены провести переоценку своей ответственности в обществе. CSR (корпоративная социальная ответственность) является одним из понятий, описывающих эту сложную связь между бизнесом и обществом. В статье описываются концепция CSV (создание общих ценностей) и теория заинтересованных сторон, которая увеличивает равновесие между бизнесом и обществом. Развивая связь между бизнесом и обществом, показывается её влияние на устойчивый рост. Рассматриваются противоречивые мнения об обсуждении КСО и определяются инструменты, принятые компаниями при выполнении их социальных обязанностей. Объясняется почему компании должны принимать устойчивое развитие с этической точки зрения. CSR помогает компаниям в качестве морального контролера. Исходя из этого в мире экономического обмена бизнес и общество должны одинаково разделять концепцию достижения устойчивости. Наконец, статья завершается изучением связи между КСО и устойчивым ростом. При этом рассматриваются вопросы этического отношения к изучению КСО, определяющие его контрольные ценности; более того, его связь с устойчивым ростом. Дополнительным требованием, которое касается способов включения коммунальных требований в пакеты CSR, является обязанность рационально обосновывать способ, с помощью которого CSR может содействовать в качестве инструмента, который помогает и направляет рост.

Ключевые слова: *CSR, бизнес, устойчивое развитие, общество, этика, экономическое преимущество*

GƏNC TƏDQİQATÇILAR
YOUNG RESEARCHERS

SİYASİ NƏZƏRİYYƏ
POLITICAL THEORY

BƏHRUZ NƏZƏROV
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının doktorantı

DİNC ETİRAZ AKSİYALARI VƏ "RƏNGLİ" İNQİLABLAR İDARƏOLUNAN XAOSUN FORMA VƏ VASİTƏLƏRİ KİMİ

Giriş

Müasir dünya hazırda dərin transformasiya mərhələsindən keçir. Elmi-texnoloji tərəqqinin gətirdiyi yeniliklər həyatın bütün sferalarına öz təsirini göstərməkdədir. Bu yeni tendensiyalar bəzən ziddiyyətləri, xüsusiyyətləri ilə səciyyələnir, bəzi hallarda tamamilə gözlənilməz formalarda, xaotik hadisələrin fonunda özünü büruzə verir. Baş verən dəyişiklikləri siyasət barədə də söyləyə bilərik. Artıq heç kimə sirr deyildir ki, siyasətin intellektuallaşması, informasiyalaşması və texnologiyalaşması kimi fenomenlər günbəgün öz əhəmiyyətini artırır. Bu texnologiyalar beynəlxalq və siyasi prosesləri sürətləndirir, siyasi qərarların qəbul edilməsi prosesində mütəxəssislərin və elmi araşdırmaların əhəmiyyətini nəzərə çarpacaq dərəcədə artırır, böyük informasiya axınlarının idarə edilməsi üçün yeni imkanlar yaradır. Eyni zamanda hərbi güc də müəyyən transformasiyalara uğrayır, bütün bunlar isə beynəlxalq siyasətdə öz təsirini göstərir. İnternetin inkişafı da yeni siyasi reallığın formalaşmasında əhəmiyyətli rola malikdir.

Dövlətlər arasında qlobal miqyasda qarşılıqlı əlaqələrin yaranması əməkdaşlıq və birgə inkişaf üçün imkanlar yaratdığı kimi, beynəlxalq-siyasi rəqabət, mədəni və sivilizasiyalar arası ziddiyyətlər də meydana çıxır. Böyük dövlətlərin öz hegemonluqlarını qoruyub saxlamaq əzmi onları daha da aqressiv olmağa sövq edir, beləliklə də dünyada sülhün və təhlükəsizliyin qorunub saxlanılması ilə əlaqədar böhran situasiyası daha da dərinləşir. Belə bir dövrdə dövlətlər təkcə hərbi gücdən istifadə etməklə problemləri həll etməyin mümkün olmadığını daha yaxşı anlayır. Beynəlxalq münasibətlər sistemində artıq yeni anlayışlar meydana gəlmişdir. Buna misal olaraq "yumşaq güc" (ingilis dilində "soft power) adını almış anlamı göstərə bilərik. XIX əsrin yeni reallığına çevrilmiş "yumşaq güc" siyasi strategiyasının mahiyyəti, böyük dövlətlərin öz təsir dairələrini genişlətmək və məqsədlərinə nail olmaq olmaq üçün proseslərin xaotik hal almasından istifadə üsullarını, həmçinin milli dövlətlərə qarşı yönəldilmiş bu siyasətin tətbiqini və nəticələrini araşdırmağa çalışacağıq.

Əsas mətn

Dinc etiraz aksiyaları, "rəngli" inqilablar qeyri-zorakı üsullarla müqavimət anlayışı son dövrlərdə getdikcə populyarlıq qazanmaqdadır. Xüsusən də politoloqlar arasında bu terminin işləklik qazanması, sosial və siyasi hadisələrin təsvirində adının hallanması müasir dünyanın yeni trendlərindən hesab edilər bilər. Belə bir halın bir çox səbəblərinin olduğunu göstərmək mümkündür. İlk növbədə nəzərə almalıyıq ki, dünyada getdikcə artmaqda olan zorakılıq meylləri, bir çox regionlarda baş verən kütləvi qırğınlar ilə yanaşı, həm də tanınmış mütəfəkkir və filosofların fikirləri, eləcə də insan xarakterinin zorakılığa yad olması bu terminin geniş yayılmasına öz təsirini göstərir.

XX əsrdə Qərb siyasi texnoloq, sosioloq və psixoloqlarının işləyib-hazırladıqları dinc etiraz aksiyaları daha çox "yumşaq güc" tətbiqi-

nə, müstəqil dövlətlərdə "rəngli" inqilabların həyata keçirilməsinə öynəldilmiş təhlükəli silaha çevrilmişdir. Dinc etiraz aksiyalarının daxilində gizlənmiş dağıdıcı gücü öyrənən böyük dövlətlər, bu gücdən özlərinə sərf etməyən rejimlərin dəyişməsində istədikləri kimi istifadə etməyə çalışırlar [2, s. 34].

Bu zaman ortaya konkret sual çıxır: dinc mübarizə zamanı hansı metodları tətbiq etmək mümkündür? İlk baxışdan elə görünə bilər ki, dinc etiraz aksiyaları zamanı güc tətbiqindən söhbət gedə bilməz (axı qeyri-zorakı üsullarla müqavimət göstərilir), lakin dinc etiraz aksiyalarının həyata keçirilməsində gücdən də istifadə edilməsini qeyd etməliyik. Dinc etiraz aksiyaları ideyası demokratik cəmiyyətin özünüifadə pərdəsi altında həyata keçirilməyinə, vətəndaşların xoşməramlı olmasına, öz hüquqlarına qorumasına çağırışlara baxmayaraq, bir çox halarda zorakılıqla sona çatır, eyni zamanda hakim rejimi zorakı cavab tədbirləri görməyə vadar edir.

Qərb dövlətləri tərəfindən hazırlanan dinc etiraz aksiyalarının həyata keçirilməsi sahəsində "ixtisaslaşmış" xüsusi təşkilatların olduğunu söyləsək, heç də mübaliğə etmiş olmarıq. Belə təşkilatlar uzun müddət ərzində qeyri-zorakı inqilabların strateji planlarını hazırlayırlar. Bütün dünyada məşhurlaşmış belə təşkilatlardan biri serb gənclərinin "Otpor" təşkilatı olmuşdur. 2000-ci ilin payızında Miloşeviç rejiminin süqutunda aparıcı qüvvə rolunu oynamaq da məhz bu təşkilata tapşırılmışdı. Həmin vaxt yüz minlərlə gənc özünü bu təşkilatın tərəfdarı hesab edir, onun tədbirlərində həvəslə iştirak edirdilər. Lakin Serbiyada öz işini başa çatdırdıqdan sonra təşkilat dağılmadı, əksinə, onun qarşısına yeni vəzifələr qoyuldu. Hazırda "Otpor" gənclər hərəkatı "rəngli" inqilablar üzrə təlimatçıların qərargahı funksiyasını yerinə yetirməklə məşğuldur. Bu təşkilatda işlənib hazırlanmış metodlar sayəsində zorakılıqdan çəkinərək dinc etiraz üsullarıyla hakim rejimə qarşı mübarizə aparmaq digər dövlətlərin vətəndaşlarına tədris olunur. Onların nəzəri məsləhətlərindən Zimbabve, Maldiv adaları, Gürcüstan, Ukrayna, Moldova, Belorus, Venesuela, Livan kimi ölkələrin vətəndaşlarının istifadə etməsi, belə təşkilatların əsl mahiyyətini açıb ortaya qoyur. Onlara Qərb dövlətləri tərəfindən ən yüksək səviyyədə maliyyə və təşkilati dəstək verilməsi, media dəstəyi göstərilməsi artıq heç kim sirrə deyildir. Serbiyanın "Otpor" hərəkatının liderlərindən biri olan Srca Popoviç nüfuzlu Amerika jurnalı "Forin Polisi" tərəfindən dünyanın 100 ən görkəmli mütəfəkkiri sırasına salınmışdır. Görünür, "ərəb baharı" zamanı bu təşkilatın metodlarının özünü parlaq şəkildə göstərməsinin müqabilində ona belə yüksək mükafat verilmişdir.

"Otpor" təşkilatının fəaliyyəti keçmiş SSRİ respublikaları, xüsusən də Cənubi Qafqaz ölkələri üçün xüsusi maraq doğurur. Təsadüfi deyildir ki, bu ölkələr böyük dövlətlərin maraq dairəsindədirlər və Cənubi Qafqaz uğrunda mübarizə, "rəngli" inqilab ssenarilərindən istifadənin Gürcüstan nümunəsi hamının yaxşı yadındadır. Soros Fondu, Beynəlxalq Respublikaçılar İnstitutu, Milli Demokratiya İnstitutu, Freedom House, Amerika Beynəlxalq İnkişaf Agentliyi kimi fondlar tərəfindən maliyyələşdirilən "Otpor" təşkilatı öz fəaliyyətini Şərqi Avropa ölkələrində xüsusilə aktiv şəkildə həyata keçirir.

Qeyd etmək lazımdır ki, Qandi fəlsəfəsi əsasında yaradıldığı deyilən dinc aksiyaların artıq Qandi təlimi ilə heç bir əlaqəsi qalmamışdır. Amerika xüsusi xidmət orqanlarının gizli laboratoriyalarında hazırlanan dinc müqavimət metodları ölümcül silah kimi milli dövlətlərin başının üstünü kəsdirməkdədir. Artıq dinc aksiyalarda fəlsəfə çoxdan arxa plana keçmişdir, yumor və medianın diqqətini dərhal cəlb edən digər vasitələr əsas ideyaya çevrilmiş, bir sözlə, qeyri-normal hesab edilən tendensiyalar norma kimi qəbul edilmişdir.

XX əsr ərzində dinc müqavimət üsulları sınaqdan keçərək daha da təkmil vəziyyətə gətirilmişdir. Belə işlənib hazırlanmış metodlar çox qısa müddət ərzində lazımi effektin əldə edilməsinə imkan verir. Düzdür, müəyyən obyektiv və subyektiv faktorların təsiri ilə dinc aksiyaların effekt verməsi üçün tələb edilən müddət müxtəlif ölkələrə görə fərqlənə bilər. Əgər Polşada bunun üçün 10 il (1980-1990) tələb olunurdusa, Qərbi Almaniyada bir neçə həftə (1989), Salvador və Qvatemalada iki

həftə (1944) çəkdi. Iranda güclü hərbiləşdirilmiş rejim qurmuş şaha qalib gəlmək üçün bir neçə ay vaxt lazım olduğu halda, Filippin diktatoru Markosu 1986-ci ildə bir neçə həftəyə devirmək mümkün oldu.

Yuxarıda adları çəkilən L.Tolstoy, Mahatma Qandi kimi filosolarla yanaşı, Lex Valensa, Nelson Mandela kimi ictimai xadimlər və siyasətçilər də dinc aksiyaların görkəmli simaları kimi tarixə düşmüşdür. Lakin dinc aksiyaların metodlarından danışarkən, ilk növbədə "Diktaturadan demokratiyaya" kitabında hakim rejimə qarşı 180 dinc etiraz aksiyasının metodunu təqdim etmiş nəzəriyyəçi alim Cin Şarpı yada salmaq lazımdır. Marketinq epoxasında narazılıq ifadə edən aksiyaların planlaşdırılmasında artıq yeni tələblərin meydana çıxdığını görən C. Şarp vəhdət naminə brendlərin və simvolların hazırlanmasının aktuallığı ideyasını irəli sürürdü [3, s. 81].

Dinc etiraz aksiyalarının əsas məqsədi qeyri-zorakı yollarla mövcud rejimin devrilməsi və demokratik sistemin qurulması olaraq göstərilir. Dinc etiraz aksiyalarının nail olmağa çalışdığı məqsədləri aşağıdakı qaydada təsnif edə bilərik:

- Konstitusion əsasların, cəmiyyətin demokratik dəyərlərinin, vətəndaş hüquq və azadlıqlarının müdafiəsi;
- Avtoritar-polis və totalitar vektora malik hakimiyyətə qarşı dinc xarakterli geniş vətəndaş müqavimətinin təşkili;
- Siyasi rəqabətin müasir mexanizmlərinin formalaşdırılması;

Dinc etiraz aksiyaları zamanı təşkilatçılar aşağıdakı istiqamətlərdə fəaliyyət göstərirlər:

- Hakimiyyətin anti-demokratik təşəbbüslərinə qarşı etiraz aksiyalarının təşkili;
- Vətəndaşlara obyektiv və yaxud da saxtalaşdırılmış, lakin obyektivlik pərdəsi altında gizlədilən informasiyaların çatdırılması;
- Vətəndaş cəmiyyəti ilə əməkdaşlıq, beləliklə də siyasi və ictimai həyata daha çox vətəndaşların cəlb olunması;
- Gənclərin vətəndaş aktivliyinin artırılmasına yönəldilmiş mədəni və maarifləndirici tədbirlərin həyata keçirilməsi;
- Cəmiyyətdə effektiv hakimiyyətin bölüşdürülməsi.

C. Şarp "Diktaturadan demokratiyaya" adlı broşürası ilə yanaşı, "Dinc aksiyaların siyasəti" adlı üçcildlik əsərin də müəllifidir. Onun yazdığı əsərlər əsas etibarilə avtoritar rejimlərin devrilməsi üçün dərslik rolunu oynayır. Xüsusilə "rəngli" inqilablar zamanı bu metodlar böyük uğurla tətbiq edilir və müəyyən dairələr tərəfindən nəzarət altında saxlanılır. Qeyd etmək lazımdır ki, M. Qandi tərəfindən yaradılmış dinc müqavimət ideyaları üzərində işləyən Şarp və onun ardıcılları, ilk növbədə istefada olan amerikalı polkovnik R.L.Helvi bu ideyaların universallaşdırılması və instrumentləşdirilməsi üzərində işləyiblər. Əslində, mahiyyət etibarilə bu ideyalar fəlsəfi baxışlardan çıxaraq texnologiya səviyyəsinə qaldırılmışdır. Onların əsərlərində siyasi (öz sözləri ilə ifadə etsək, avtoritar) rejimlərin dəyişdirilməsi üçün istifadə edilə biləcək ən müxtəlif metodlar öz əksini tapıb. Şarpın fikrincə, "dinc mübarizə" dedikdə dini və ya əxlaqi "müqavimət göstərməmək" və yaxud da pasifizmin, qeyri-zorakı yollarla mübarizədən fərqləndirilməsi nəzərdə tutulur [3, s.11]. Burada söhbət hakimiyyətə qarşı çıxmaqdan, tabe olmaqdan imtinadan gedir. Ona görə də bu texnologiya siyasi sferada tətbiq edilir və onun hədəfi siyasi hakimiyyət olaraq göstərilir. Bu üsulla aparılan mübarizənin əsas məqsədi dövlət institutları üzərində nəzarətin diktaturadan alınması olaraq göstərilə bilər. Amerikalı texnoloqların fikrincə, siyasi protest zamanı təşəbbüskarlıq və hücum taktikası zəruridir, lakin bu zaman siyasi dialoqa getmək və rejimə güzəşt meylləri yolverilməz hesab edilir. Şarp tərəfindən 198 müxtəlif qeyri-zorakılıq metodu işlənilmişdir, o, bu metodları 5 əsas hissəyə ayırır:

- Dinc etiraz aksiyaları və protest metodları;
- İctimai əməkdaşlıqdan imtina metodları;
- Siyasi əməkdaşlıqdan imtina metodları;
- İqtisadi əməkdaşlıqdan imtina metodları;
- Dinc müdaxilə metodları [3, s. 71].

Bu 5 hissədən hər birində 30-a qədər müxtəlif metod sadalanır. Şarp hesab edir ki, siyasi müvəffəqiyyət qazanmaq üçün bu çoxsaylı mübarizə metodlarından birinin seçilməsi kifayət deyildir, müxtəlif metodların kombinasiya edilmiş çevik vəhdətindən istifadə etmək zəruridir. Dinc etiraz aksiyalarının aparıcı

elementi siyasi rejimi polis, xüsusi xidmət orqanları, ordu və idarəetmə aparatından təcrid etmək hesab edilir. "Qeyri-demokratik" rejimə olan inamın sarsıdılması hakimiyyət dəyişikliyi üçün əsas vasitə sayılır. R.Helvinin fikrincə, repressiyaların effektivliyini azaltmaq üçün, dinc etiraz aksiyalarına rəhbərlik edən şəxslər güc strukturlarının nümayəndələrini və digər vəzifəli şəxsləri öz tərəflərinə çəkməlidirlər, onlarda elə bir rəy yaratmalıdırlar ki, müxalifət, müqavimət hərəkatına kömək edəcəkləri təqdirdə qanun keşikçilərini düşmən hesab etmir. Bu barədə R. Helvi yazır: "Hərbi qələbə düşmənin potensialının sarsıdılması və ya onun döyüş əzminin pozulması ilə əldə edilir. Belə olduqda, dinc mübarizə hərbi münaqişədən yalnız onunla fərqlənir ki, bu zaman sadəcə olaraq tamam başqa tipli silahlardan istifadə edilir. Makiavelli zamanından sonra artilleriya müharibələrin xarakterini kökündən dəyişdiyi kimi, texnologiya da bizə dinc münaqişələrin aparılması üsullarını dəyişmək imkanı vermişdir. Kompüterlər, internetə çıxış, mobil və peyk telefonları, şifrələmə proqramları, televiziya və radio dinc mübarizənin başlıca silahlarıdır"[5, s. 19]

Maraqlıdır ki, C. Şarp öz strategiyasını "siyasi cui-citsu" adlandırır, bu zaman rəqibin gücündən onun özünə qarşı istifadə edildiyini qabardırdı. Çünki burada söhbət xüsusi bir prosesdən gedir, "bu proses dinc mübarizə əsnasında həyata keçirilir, qüvvələr balansı dəyişir. Dinc şəkildə müqavimət göstərən insanlara qarşı zorakı repressiyalar neqativ reaksiyalar yaradaraq rəqibin özünə tərəf yönəlir, onların hakimiyyətdəki mövqelərini zəiflədir və dinc müqaviməti daha da gücləndirir. Bu yalnız o təqdirdə baş verə bilər ki, zorakılıq, zorakılıq və ya mübarizədən imtina ilə deyil, dinc müqavimətlə üzləşsin." [3, s. 11]

Lakin Şarp qeyd edir ki, bəzi hallarda diktaturaya qarşı məhdud miqyaslı zorakılıq da labüd olur. Rejimə qarşı yönəlmiş qəzəb və nifrət əhali arasında partlayışa gətirib çıxara bilər. Bundan əlavə, bəzi qruplar dinc aksiyaların və dinc müqavimətin mühüm rolunu başa düşsələr də, zorakı fəaliyyəti dayandırmaqla razılaşmaya bilərlər. Belə hallarda siyasi itaətsizlikdən imtina etmək lazım deyil.

Şarpın və onun ardıcıllarının hazırladıqları dinc müqavimət metodologiyası olduqca effektiv olduğunu artıq dəfələrlə göstərmişdir. Bu uğurun sirri ilə bağlı bir çox fikirlər irəli sürülməkdədir. Bəzi mütəxəssislərin fikrincə, Şarpın yaratdığı texnologiyanın uğurlu olmasının səbəbi, bu strategiyanın bir tərəfdən "yumşaq gücün" tipik nümunəsi olmasında, digər tərəfdən isə, müəyyən şərtlər altında "yumşaq gücü" ənənəvi "sərt güc" mexanizmləri ilə birlikdə istifadə etməyə imkan verməsində, necə deyərlər, "ağıllı gücə" çevrilə bilməsindədir [6, s. 83]. Dinc etiraz aksiyaları və qeyri-zorakı müqavimət prinsipləri əsasında yaradılmış bu nəzəri fundament əsasında ABŞ hələ 1970-ci illərdə bir çox xarici ölkələrdə dövlət çevrilişlərini həyata keçirə bilmişdir. XXI əsrin əvvəllərində isə bu nəzəriyyə modernizasiya və modifikasiya olunaraq zamanın tələblərinə uyğunlaşdırıldı, Şərqi Avropa və Yaxın Şərq ölkələrində həyata keçirilən "rəngli inqilab" ssenarilərinin mühüm tərkib hissəsinə çevrildi. Məhz bu səbəbdən də dinc etiraz aksiyalarının "rəngli" inqilab texnologiyaları kontekstində öyrənilməsi daha məqsədəuyğun hesab edilir.

"Rəngli" inqilablar və "rəngli inqilab" texnologiyalarının tətbiqi

"Rəngli" inqilabların müasir dövrün fenomenlərindən birinə çevrilməsi artıq göz qabağındadır. Bir sıra dövlətlər baş verən "rəngli" inqilablar keyfiyyət etibarilə tamamilə yeni geopolitik reallıq yaratmışdır. Bu tipli inqilabların aş verməsi üçün şərait adətən elə tipli ölkələrdə yaranır ki, orada demokratik institutların fəaliyyət göstərməsi üçün şərait yaradılsa da, seçki prosesi ilə geniş miqyasda manipulyasiya etmək imkanları mövcud olur və müxalifətin qələbəsinə imkan verilmir, bir sözlə, avtoritar və ya nisbətən avtoritar ölkələr nəzərdə tutulur. Belə ölkələrə misal olaraq MDB məkanından Ukraynanı, Gürcüstanı, Qırğızıstanı göstərə bilərik. "Rəngli" inqilabların baş verdiyi ölkələrdə şərait, bu inqilablara gətirib çıxaran faktorlar, xarici qüvvələrin təsirləri, eləcə də inqilabdan sonrakı vəziyyətin analizi kifayət qədər maraq doğurur, belə ki, "rəngli" inqilabların baş verdiyi ölkələrdə yaranan

siyasi, sosial və iqtisadi qeyri-sabitlik bəzən illərlə davam edə bilər [15; 17].

Qeyd etmək lazımdır ki, yaxın keçmişə qədər "rəngli" inqilablara "məxməri" inqilablar da deyirdilər. Bu termin XX əsrin məhsulu hesab edilir. Yeni tipli belə inqilablar adətən dinc formada, nəhəng sosial qüvvələrin toqquşması olmadan, müasir texnologiyalardan istifadə edilməsiylə həyata keçirilməsi xüsusiyyətilə səciyyələnir. Dövlətin, əgər həssas nöqtələr tapılıbsa, mədəni və mənəvi sferada hücumlar qarşısında necə müdafiəsiz qalmasını da belə inqilabların əsasında görmək mümkündür.

Bəzən cəmiyyətdə və tədqiqatçılar arasında belə yanlış fikir dolaşır ki, "rəngli" inqilablar yalnız xüsusi xidmət orqanlarının fəaliyyətinin nəticəsidir. Lakin xüsusi xidmət orqanları yalnız siyasi sifarişin icraçısı olaraq, tapşırığı yerinə yetirirlər. Həmçinin "məxməri" inqilab strategiyası yalnız dövlətin "mədəni nüvəsini" ələ keçirməklə məhdudlaşmır. Bu mühüm vəzifə olsa da, belə inqilablar həm də kompleks şəkildə diplomatik, kəşfiyyat, mədəni və iqtisadi tədbirlərin görülməsi ilə həyata keçirilir. Belə tədbirlər dövlət strukturundakı mövcud zəif nöqtələrin tapılması ilə dinc yollarla mövcud rejimin dəyişdirilməsinə hesablanmışdır.

"Rəngli" inqilab texnologiyaları üzərində iş ötən əsrin 80-ci illərində başa çatdırıldı. ABŞ və müttəfiqləri tərəfindən hazırlanan bu texnologiya müxtəlif ölkələrdə dinc yollarla rejimin sarsıdılmasını və hakimiyyət dəyişikliyini həyata keçirməyə imkan verməli idi. Son 10-15 il ərzində bu texnologiya son dərəcə dəqiq və etibarlı şəkildə təkmilləşdirildi, Şərqi Avropa, keçmiş SSRİ və ərəb ölkələrində uğurla tətbiq olundu.

"Rəngli" inqilablaırn xüsusi tipi olan "Narıncı" inqilablar postsovet məkanında baş verən hakimiyyət dəyişikliklərinin xüsusi növü olmaqla diqqəti cəlb edir. "Narıncı" inqilablar yalnız dövlətin hakim elitasının və onun geopolitik istiqamətinin dəyişdirilməsi ilə yekunlaşmır, ümumiyyətlə, ölkənin dövlətçiliyinin legitimliyinin əsaslarını prinsipial olaraq dəyişdirir. Hətta legitimlik mənbəyinin yeri də dəyişdirilir, beləliklə, bu legitimlik mənbəyi ölkənin xaricindəki sponsor ölkəyə, daha doğrusu aqressor ölkəyə, dünya kapitalizm sisteminin nüvəsi olan məkana transfer edilir. Dövlətçiliyini belə dərindən dəyişdirilməsi sivilizasiya baxımından dəyişikliklərə gətirib çıxarır [7; 8].

Burada bir mühüm məqama toxunmaq zəruridir. "Rəngli" inqilablar ona görə inqilab hesab edilmir ki, ölkədə hər hansı bir ictimai-iqtisadi formasiya dəyişikliyi baş verməmişdir. Insanların beynində formalaşmış klassik inqilab anlayışı ilə məxməri inqilabları bir-birindən ayırmaq lazımdır. Son dövrlərdə yaxın ölkələrdə baş verən dəyişikliklər göstərdi ki, bu sadəcə olaraq elitaların dəyişməsindən başqa bir şey deyildir.

İnqilabların başlaması adətən müxalifət tərəfindən dinc şəkildə həyata keçirilir, beləliklə, dövlətin təhlükəni görmək imkanları məhdudlaşdırılır. Adi vəziyyətdə kifayət qədər ciddi tədbirlərin görülməsinə gətirib çıxara biləcək siqnallara dövlət reaksiya vermir. Məsələn, silahlıq qiyamlar zamanı müxalifətin xaricdən maliyyə yardımı almasının qarşısı qətiyyətlə kəsilirsə, dinc aksiyalar zamanı hakimiyyət buna sadəcə olaraq reaksiya verə bilmir, beləliklə, müxalifətin maliyyələşdirilməsi asanlıqla həyata keçirilir.

Bunun da səbəbi aydındır. Adətən "rəngli" inqilabların həyata keçirildiyi ölkələr öz suverenlikləri üzərində tam hüquqa malik olmurlar. Onlar üçün hegemon xarici dövlətlərin rəyi və məsələyə münasibət bildirməsi mühüm əhəmiyyət kəsb edir. Məhz bu baxımdan da milli dövlətlərin rəhbərliyi bəzən tərəddüd edir, Qərb dövlətləri ilə əlaqələri qoruyub saxlamaq naminə müxalifətin hərəkətlərinə lazımi reaksiyanı göstərmir. Amma həqiqi suverenliyə malik dövlətlər "rəngli" inqilab texnologiyalarına qarşı, bir növ immunitetə malik olurlar. Qanunsuz mitinqləri polisin dağıtdığı və "dünya ictimaiyyətinin" necə reaksiya verəcəyini nəzərə almadığı ölkələrdə, bir qayda olaraq, rəngli inqilabların baş verməsi ehtimalı olduqca aşağıdır. Dövlət "dinc aksiyaya" cavab vermək və sinə gərmək qabiliyyətinə malikdir, belə olduğu təqdirdə, artıq inqilab cəhdinin uğursuzluqla sona çatdığını əminliklə söyləyə bilərik [8, s. 101].

Silahsız kütləyə qarşı davranış bacarığının olmaması dövlət qulluqçularının fəaliyyətini iflic edir. Müxalifətlə necə rəftar etmək kimi ikinci dərəcəli məsələlər onlar üçün dövlət qarşısında öz borclarını yerinə yetirmək vəzifəsindən daha mühüm görünür. Kütlə dövlət binalarını ələ keçirən zaman, hakimiyyət buna reaksiya verə bilmir, çünki hesab edilir ki, kütləyə qarşı zor tətbiq etmək demokratiya prinsiplərinə ziddir. Dövlət könüllü olaraq nəinki legitim varislikdən imtina edir, hətta elementar təhlükəsizlik qaydalarını və sabitliyi qoruyub saxlamaq vəzifəsini də yerinə yetirmir.

Müxalifətin dinc xarakterləri tədbirləri nəinki dövləti gücdən salır, eyni zamanda cəmiyyəti də parçalayır. Hakimiyyət zorakı yollarla reaksiya verdikdə, cəmiyyətin çox hissəsi müxalifətə rəğbət bəsləməyə başlayır, ona görə də dövlət üçün təhlükəli olan prosesin qarşısını almaq mümkün olmur [15; 18].

Son dövrlərdə postsovet məkanı ölkələrində baş verən hadisələr əsasında rəngli inqilabların aşağıdakı texnoloji sxemini müəyyən edə bilərik. Əgər söhbət hakimiyyətin ələ keçirilməsindən, mövcud rejimin dəyişdirilməsindən gedirsə, onda hazırlığın ilkin mərhələsi olaraq yeni rəhbərin namizədliyi araşdırılır. Bunun da səbəbləri məlumdur, çünki hər hansı bir şəxsin imicinin yaradılması siyasi partiyanın imicinin yaradılmasından daha ucuz və rahatdır. Elə bu səbəbdən də Qərb ona tabe olan dövlətlərdə parlament idarəetmə formasından prezident idarəetmə formasına keçirilməsini təkidlə tələb edir. Bundan sonra insan şüurunu manipulyasiya etmək texnologiyaları işə salınır. Bu texnologiyalar olduqca effektiv olduğuna görə, bir neçə ay ərzində heç kimin tanımadığı bir insandan gələcək prezidentin cazibədar obrazını yaratmaq mümkündür. Lakin adətən tamamilə yad adamları yox, kifayət qədər tanınmış adamları seçir və onlardan birini bu obrazda hazırlamağa başlayırlar. Tədqiqatçı R. Şayxutdinov yazır ki; "Əvvəlcə düşüncə tərzinə görə amerikalılara yaxın və hakimiyyətə daxilən yad olan müxalifət lideri seçilir. Belə insan "demokratik dəyərlərə və azadlıq ideallarına bağlı" olmalıdır. Lakin bunun yalnız seçkiqabağı fənd kimi görünməməsi üçün, bu şəxsin maddi baxımdan da qərb dəyərlərinə bağlı olması lazımdır, məsələn, amerikalı qadınla evlənməli (Belə siyasətçilərə misal olaraq Koştunitsanı, Saakaşvilini, Yuşşenkonu göstərə bilərik) və yaxud uzun müddət ABŞ və ya Avropada təhsil almalıdır (Saakaşvili). "Sivilizasiya əlamətləri" onda özünə elə yer etməlidir ki, bu elementlərdən ayrılması mümkün olmasın" [9, s. 112].

Bu texnologiyaların ikinci elementi ölkə daxilidə elə bir ərazinin yaradılmasıdır ki, həmin ərazidə müxalifət namizədi sözsüz dəstək əldə edə bilsin. Ukraynada belə ərazilər Qərb bölgəsi və Kiyev, Gürcüstanda isə ilk növbədə Tbilisi oldu. Burada seçilmiş prezidentin hakimiyyəti əvvəlcədən tanınmır.

Üçüncü məsələ mütləq həqiqət kimi görünən bir neçə sadə stereotipin insanların şüuruna yeridilməsidir. Bunlara misal olaraq, "vətənpərvərlər aristokratlara qarşı" (Fransa, 1793), "dindarlar amerikalı şeytanlara qarşı" (İran, 1979), "xalq cinayətkar hakimiyyətə qarşı" (Ukrayna, 2004) göstərilə bilər. Burada manipulyasiyanın yaxşı öyrənilmiş qanunauyğunluğu öz sözünü deyir: hər hansı formulun dəfələrlə təkrar edilməsi onu insan beyninə yeridir. Bundan sonra şüurun hansı istiqamətə insanı aparmasından asılı olmayaraq, insanın davranışına bu stereotiplər öz təsirini göstərəcəkdir. Insan beyni bu formulu rədd etsə də, şüuraltı artıq şüurun işinin qarşısını alır [15].

"Rəngli" inqilablara gətirib çıxaran elementlər. Bu tipli inqilablar adətən bir gecədə, gözlənilmədən baş vermir. Bunun üçün qeyrisabitliyin sistematik xarakter daşıması zəruridir, sosial və milli münasibətlərin böhranı, həyat təminatı, təhlükəsizlik və mədəniyyət sistemlərinin deqredasiyası, kütləvi düşüncənin sürətli dəyişməsi lazımdır. Bütün bu böhran hallarının yetişməsi və onların yeni keyfiyyət dəyişikliyinə keçməsi halı strateji siyasi seçimin nəticəsidir.

Xüsusilə müasir teatrlaşdırılmış cəmiyyətdə seçkilər mühüm ritual hesab edilir. Hakimiyyət uğrunda mübarizə və tamaşaya çevrilmiş seçkilər kütləni oyadır, onda qorxu, dramatizmə meyl hisslərini gücləndirir. Məhz seçkilər əsasında hakimiyyəti dəyişikliyi olması dövləti zəiflədir, bu da postmodern inqilablar üçün zəmin yaradır (Serbiya, Gürcüstan,

Ukrayna və Qırğızıstanda baş verənlər buna bariz sübutdur). Mənəvi və ya birbaşa zorakılıq bu seçkilərin vacib hissəsinə çevrilmişdir. Keçmiş müstəmləkə ölkələri, eləcə də postsovet ölkələrinin simasında buna şahid ola bilərik. Ona görə də belə inqilabların baş verməsi ilə təkcə hakimiyyət dəyişdirilmir, həm də qısa müddətlik də olsa, tamamilə yeni xalq yaradılır. Meydana çıxan kütlənin şüurunda sanki öz cəmiyyətlərinə məxsus və tarixən formalaşmış mədəni dəyərlər silinir, başqa cəmiyyətdən alınmış yeni dəyərlər onlara transfer edilir [10, s. 34].

"Rəngli" inqilab texnologiyalarının əsas postulatlarından biri "yeni xalqın" yaradılmasıdır. Məsələn, SSRİ dağılan zaman kütləvi şüura "yeni ruslar" deyilən anlayış-simvol daxil edildi. Eləcə də bir çox inqilabi situasiyaların yaradılmasında əsas rolu aqressiv millətçiliyin qızışdırılması tutur.

"Rəngli" inqilabların taktiki cəhətləri və texnologiyaları

"Rəngli" inqilablar mürəkkəb proses olduğuna görə, onların aparılması da müxtəlif fazalara və hissələrə ayrılır. Burada belə taktiki hazırlıqlara qısa nəzər salacağıq:

1. İlkin mərhələ. Bu mərhələ ərzində daxili müxalifətin hazırlanması prosesi baş tutur. Ziyalılar, fəhlələr, kəndlilər və digər əhali qrupları müəyyən dərnəklər formasında birləşdirilir. Burada əsas məqsəd siyasi partiyaların və hücum dəstələrinin özəyinin yaradılmasıdır. Eləcə də, daxili zəif nöqtələr tapılaraq dövlət hakimiyyəti gözdən salınır və laxladılır [13; 14; 17, s. 89].

Müxalif hərəkatların yaradılması zamanı dövlət quruluşunun milli və siyasi xüsusiyyətləri diqqətlə öyrənilir. Əgər ölkədə hərbi diktatura mövcuddursa, ilkin mərhələdə müxalifət partiyası siyasi istiqamət daşımır. Onlar ekoloji, dini, idman və ya tarixi istiqamətlər üzrə formalaşdırıla bilərlər. Məsələn, Çində insanları idman və ya tarixi şüarlarla birləşdirmək daha asandır. Bundan sonra müxtəlif təbəqələrdən olan insanların cəlb edilməsi prosesi başlanır. KİV, hərbi qulluqçular, polis işçiləri, siyasi və işgüzar dairələrə məxsus şəxslər müxalif fəaliyyətə cəlb edilirlər. Əgər dövlət totalitardırsa, güclü xüsusi xidmət orqanları və etibarlı orduya malikdirsə, onda siyasi mübarizə ilkin mərhələdə tamamilə istisna edilir, çünki hələ möhkəmlənməmiş siyasi strukturlar məhv edilə bilər. Xüsusən tələbələrin prosesə cəlb edilməsi, tələbə təşkilatlarının yaradılması prosesi gedir, onların güclü siyasi qüvvəyə çevrilməsi istiqamətində iş aparılır [15].

2. İkinci mərhələ. İkinci mərhələyə aşağıdakılar daxildir:

-Müxalifətin leqallaşdırılması;

-Müxalif siyasi qüvvələrin birləşdirilməsi;

-Vahid mərkəzin — müxalifətin rəhbərliyinin yaradılması;

-Ölkənin gələcəyi ilə bağlı vahid siyasi və iqtisadi baxışların işlənib-hazırlanması;

-Aparıcı siyasi qrupların dəstəyinin əldə edilməsi;

-Yerli KİV rəhbərlərinin əksəriyyətinin satın alınması, beləliklə də rejimin sərt tənqidi üçün kampaniyanın təşkil edilməsi.

İkinci mərhələdə bütün müxalif təşkilatların vahid Mərkəzin rəhbərliyi altında birləşdirilməsi vacibdir, bu Mərkəz müxalifətin Lideri tərəfindən idarə edilməlidir. Çünki inqilabın aktiv fazasında bütün fəaliyyət və tədbirləri koordinasiya etmək zərurəti meydana çıxır.

Bu mərhələdə KİV olduqca mühüm rol oynayır. Mixail Saakaşvilini hakimiyyətə gətirən inqilabda başlıca rolu "Rustavi-2" telekanalının oynadığını demək kifayətdir. Dövlət çevrilişinə bir neçə gün qalmış bu telekanalda Slobodan Miloşeviç rejiminin devrilməsi barədə saat yarımlıq sənədli film nümayiş etdirildi. Müxalifətin parlaq çıxışı, mitinqlər, etiraz aksiyaları, bayraqlar, ağ fonda sıxılmış yumruq əhaliyə böyük təsir göstərdi—artıq səhəri gün meydanda narıncı fonda sıxılmış yumruq şəkli olan bayraqlar var idi [14, s. 99].

3.Aktiv çevriliş mərhələsi. Bu mərhələdə qarşıya qoyulmuş hədəfləri aşağıdakı qaydada göstərə bilərik:

-Ölkədə xaos və qeyri-sabitlik yaradılması, ölkə rəhbərliyinin çaşdırılması, silahlı qüvvələrin və xüsusi xidmət orqanlarının ruhdan salınması;

-Böhranın aradan qaldırılması üçün görülmüş bütün tədbirlərin sabotaj edilməsi, belə-

liklə də mövcud rejimin devrilməsi üçün münbir şəraitin yaradılması;

-Demokratik seçkilər və yaxud da "məxməri" inqilab vasitəsi ilə hakimiyyət dəyişikliyinin təşkil edilməsi.

Məhz bu mərhələdə bütün ölkəni mitinqlər və nümyişlər bürüyür, dinc aksiyalar başlanır və tədricən bu tədbirlərin miqyası artır. Çoxlu sayda siyasi partiya və təşkilatların rəhbərləri prosesə qoşulur, kifayət qədər çoxsaylı siyasi liderlərin meydana çıxması ilə xaos ab-havası yaranır, cəmiyyətdə olan güclərin nisbətini qiymətləndirmək çətinləşir. Bu hakimiyyəti müxalifət hərəkatı ilə dialoqa girməyə məcbur edən vacib faktor kimi çıxış edir.

Bundan sonra hadisələr iki ssenari üzrə cərəyan edə bilər. Birinci ssenariyə əsasən, hakimiyyət dinc yolla, parlament və prezident seçkiləri əsasında müxalifətin əlinə keçir. Polşada baş verən inqilab bu formada məntiqi yekununu tapmışdı. Digər ssenaridə isə hakimiyyət dövlətin idarəetməsindən əl çəkmək istəmir. Belə olduğu təqdirdə, müxalifət liderləri tərəfindən idarə edilən kütlə dövlət hakimiyyəti üçün strateji vacib olan obyektləri ələ keçirir, beləliklə paralel mövcud olan hakimiyyət strukturları yaranır və son nəticədə dövlətin idarəetmə rıçaqları müxalifətin əlinə keçir. Bu tipli hakimiyyət dəyişikliyinə misal olaraq keçmiş Yuqoslaviyanı göstərə bilərik [11, s. 23].

Adətən "məxməri" inqilabların keçirilməsi üçün əhalinin iqtisadi faktorlara görə hakimiyyətdən narazı olduğu zaman seçilir.

Azərbaycanda sosial – siyasi sabitlik və Cənubi Qafqaz münaqişələri

Ölkəmizin 20 faizini işğal edən Ermənistan da müasir dövrdə xaosun və qarmaqarşıqlığın içindədir. Qonşu ölkələrə qarşı, o cümlədən də Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürən Ermənistanda siyasi gərginlik pik vəziyyətinə çatıb. İnkişaf və çiçəklənmə mərhələsinə qədəm qoyan ölkəmizdən fərqli olaraq Ermənistan əhalisi işsizlik, aclıq və yoxsulluqda əziyyət çəkir və bu səbəblər üzündən də ölkəni tərk edirlər. Ölkəmizin gözəl və dilbər guşəsi, ayrılmaz bir parçası olan Dağlıq Qarabağ Muxtar Vilayətini və 7 ətraf rayonu işğal etməklə beynəlxalq hüquqları pozan Ermənistan heç bir beynəlxalq qaydalara riayət etmir, fitnəkar və qərəzli iddialarından da əl çəkmir.

Cənubi Qafqazda uzun müddətdir ki, davam edən bu Dağlıq Qarabağ münaqişəsinin yeganə həll yolu işğalçı Ermənistanın okkupasiya etdiyi 11 Azərbaycan rayonundan öz silahlı qüvvələrini geri çəkməsidir. Lakin Ermənistan işğal etdiyi bölgələri öz nəzarətində saxlaması nəticəsində blokada vəziyyətinə düşmüşdür və işğalçı ölkə iqtisadi tənəzzülün astanasındadır. Bu isə işğalçı Ermənistan üçün heç də yaxşı nəticələr vermir. "Ermənistanda güclü müxalifət olmadığı halda, etirazların uzun müddət davam etməsinin və bəzi hallarda 15 minədək insanın iştirak etməsinin əsasında ciddi sosial, iqtisadi və mənəvi faktorlar dayanır. Ölkə əhalisinin üçdəbiri yoxsulluq həddindən aşağı səviyyədə yaşayır. İşsizlik, monopoliya, korrupsiya azmış kimi, əsas kommunal xidmətlərin, xüsusən də qaz və elektrik enerjisinin qiymətlərinin ilbəil artırılması əhalinin çətin güzəranını dözülməz edir. Bu səbəbdən də təsadüfi deyil ki, Ermənistanda partlayışa hər an hazır olan böyük sosial narazılıq formalaşıb.

5. Бакинский процесс в течение 5 лет. - http://www.anspress.com/medeniyyet/18-12-2013/bakinskiy-process-v-techenie-5-let
6. Степин В. Цивилизация и культура. Санкт-Петербург: «СПбГУП», 2011. - 407с.
7. История Ассоциации культуры Азербайджана «Симург». 1990-2015. Баку: «OL»nptk., 2015. - 388 с.

8. Конституция Азербайджанской Республики. Баку, 1996. - 50 с.
9. Мамедов Ф. Культурология, культура, цивилизация. Баку: «OL»nptk., 2015. - 300 с.
10. Современные глобальные вызовы и национальные интересы. XV Международные Лихачевские научные чтения 14-15 мая 20115 г. Санкт-Петербург: СПбГУП, 2015, с. 339-342.
11. Уайт Л. Избранное: Наука о культуре. — М.: «РОССПЭН», 2004. - 960 с.
12. Указ Президента Азербайджанской Республики о создании Бакинского международного центра мультикультурализма. - http://ru.president.az/articles/11740
13. Мамедов Ф. Культура управления. Опыт зарубежных стран. Баку: «Апостроф», 2013. - 775 с.
14. Хантингтон С. Столкновение цивилизаций. Москва: «АСТ», 2003. - 603 с.

Ключевые слова: *мультикультурализм, культурный человек, идентичность, гражданская культура*

Elçin Zeynalov
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının dissertantı

AZƏRBAYCAN RESPUBLİKASINDA MULTİKULTURALİZMİN İNKİŞAFI HAQQINDA MƏSƏLƏYƏ DAİR

XÜLASƏ

Məqalədə multikulturalizmin, mədəniyyətlərin və sivilizasiyaların tarixi-nəzəri məsələləri, həmçinin multikulturalizmin Azərbaycan modelinin xüsusiyyətləri nəzərdən keçirilir.

Multikulturalizmin identiklik və mentalitetlə bağlı aktual problemlərini təhlil edərək, müəllif terrorizmin aradan qaldırılması və beynəlxalq mədəni dialoqun effektivliyinin yüksəldilməsi, həmçinin insan kapitalının inkişafı ilə bağlı olan problemlərin universal kulturoloji həlli formulunu oxucuların diqqətinə çatdırır. Onun əsasında müəllif müxtəlif etnoslar və dinlərin insanlarının mədəni identikliyinin formalaşdırılması mexanizmi kimi, milli və beynəlxalq səviyyələrdə "Homo culturalis" tipli mədəni insanın hazırlanması proqramlarının işlənilməsi və həyata keçirilməsini məqsədəuyğun hesab edir.

Açar sözlər: *multikulturalizm, mədəni insan, identiklik, vətəndaş mədəniyyəti*

Elchin Zeynalov
Postgraduate, the Academy of Public Administration under the President of the Republic of Azerbaijan

ON THE QUESTION OF THE DEVELOPMENT OF MULTICULTURALISM IN THE REPUBLIC OF AZERBAIJAN

SUMMARY

The article examines the historical and theoretical issues of multiculturalism, dialogue of cultures and civilizations, as well as special features of the Azerbaijani model of multiculturalism.

By analyzing the current problems of multiculturalism associated with identity and mentality, the author offers to his readers a universal cultural formula of solving problems related to overcoming terrorism and increasing the effectiveness of intercultural dialogue, as well as the development of human capital.

Based on it, as the mechanism of formation of the cultural identity of people of different ethnic groups and religions, the author suggests the development and implementation of training programs and preparation of the new type of cultural man, «Homo culturalis» at the national as well as international levels.

Key words: *Multiculturalism, Civil Person, Identity, Civil culture*

GƏNC TƏDQİQATÇILAR
YOUNG RESEARCHERS

MÜƏSSİSƏLƏRİN TƏŞKİLİ VƏ İDARƏ OLUNMASI
CONSTITUTION AND ADMINISTRATION OF THE INSTITUTION

COŞQUN MƏMMƏDOV
Xəzər Universitetinin doktorantı

ALTERNATİV VƏ BƏRPA OLUNAN ENERJİ MƏNBƏLƏRİNİN İNKİŞAFINDA ELMİ TƏDQİQATLARIN ROLU

Giriş

Müasir dövrdə bəşəriyyətin üzləşdiyi qlobal problemlərdən biri də enerjiyə olan tələbatın durmadan artmasıdır. Ənənəvi enerji mənbələri olan karbohidrogen ehtiyatlarının tükənən olması isə bu problemi daha da artırır. Həmçinin, dünya əhalisinin sürətli artımı, xüsusilə də sənaye istehsalının daim genişlənməsi enerjiyə olan tələbatın da artmasına səbəb olur. Bu problemlərin həlli yollarından biri isə mövcud enerji mənbələrinin səmərəli və qənaətli istifadəsi ilə yanaşı ekoloji cəhətdən daha təmiz və bərpa olunabilən alternativ enerji mənbələrindən geniş istifadənin təmin edilməsidir. Bu isə müasir dünyanı bürüyən mövcud energetika böhranının həlli üçün olduqca əhəmiyyətlidir.

Ölkəmiz zəngin yeraltı təbii sərvətlərlə yanaşı, yerüstü təbii sərvətlərə də malik nadir ölkələrdən biridir. Bu isə onun əlverişli təbii iqlim şəraitinə malik olması ilə əlaqədardır. Belə ki, ölkə ərazisinə düşən günəş enerjisinin miqdarının yüksək olması, Abşeron yarımadasında ən əlverişli külək şəraitinin mövcudluğu, bəzi bölgələrdə yeraltı termal suların olması, həmçinin ölkəmizin zəngin florası hesabına bioyanacaqdan səmərəli istifadə edilməsi alternativ və bərpa olunan enerjinin istehsalı və inkişafı üçün kifayət qədər əlverişli şərait yaratmış olur. Beləliklə, yerləşdiyi əlverişli coğrafi mövqe və iqlim şəraiti bu proseslərin uğurla həyata keçirilməsinə imkan yaratmışdır.

Bu səbəbdən, enerjiyə olan tələbatı tam ödəmək, mövcud problemlərin həlli yollarının tapılaraq onları aradan qaldırmaq üçün elmi tədqiqat işlərini həyata keçirmək olduqca əhəmiyyətlidir.

Elmi tədqiqatlara dəstək

Bu gün dünyada xüsusilə də inkişaf etmiş ölkələrdə bu sahənin inkişafına nail olmaq məqsədilə mütərəqqi yeniliklər tətbiq edilir. Belə ki, tədricən alternativ və bərpa olunan enerji mənbələrindən istifadəyə keçidi təmin etmək və bu sahənin inkişafına nail olmaq üçün geniş elmi-tədqiqat işlərinin aparılması həyata keçirilir.

Ölkəmizdə də bu proseslər uğurla həyata keçirilir. Xüsusilə də Azərbaycan Respublikasında mövcud alternativ və bərpa olunan enerji mənbələri hesabına yeni enerji güclərinin yaradılmasını təmin etmək məqsədilə Prezident İlham Əliyevin 2004-cü il 21 oktyabr tarixli 462 nömrəli sərəncamı ilə "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"mın təsdiq edilməsi bu sahənin inkişafına böyük təkan vermişdir.

Beləliklə, ölkəmizdə alternativ enerji mənbələrinin potensialının müəyyənləşdirilməsi, onlardan istifadənin səmərəliliyinin yüksəl-

dilməsi, yeni enerji istehsalı sahələrinin yaradılması hesabına əlavə iş yerlərinin açılmasının təmin edilməsi, alternativ və bərpa olunan enerji mənbələrinin hesabına enerji gücünün artırılması və bununla da ölkənin enerji təhlükəsizliyi ilə təminatının yüksəldilməsinə nail olunması məqsədilə əsaslı elmi-tədqiqat işlərinin həyata keçirilməsi istiqamətində xeyli uğurlu nəticələr əldə edilmişdir [1].

Belə ki, Dövlət Proqramında nəzərdə tutulan alternativ və bərpa olunan enerji mənbələrindən istifadə edilməsi üzrə görülməsi nəzərdə tutulan tədbirlər aşağıdakılardan ibarətdir:

- Ölkədə alternativ enerji mənbələrinin potensialının müəyyənləşdirilməsi istiqamətində elmi-tədqiqat işlərinin aparılması;
- Naxçıvan Muxtar Respublikasının elektrik enerjisi təchizatında külək enerjisi potensialının öyrənilməsi və ondan istifadənin təmin edilməsi;
- Yerli elmi-texniki potensialdan və xammaldan istifadə etməklə günəş enerjisi istehsalında istifadə olunan fotoelementlərin faydalı iş əmsalının artırılması və onların istehsalına başlanması;
- Dəniz-dalğa enerji potensialının elektrik enerjisinə çevrilməsi istiqamətində elmi-tədqiqat işlərinin aparılması;
- Alternativ və bərpa olunan enerji mənbələrindən səmərəli istifadə məqsədilə vahid əlaqələndirmə elmi metodik mərkəzin və məlumat bazasının yaradılması və s.

Beləliklə, Dövlət Proqramının icrası ilə əlaqədar ölkəmizin bərpa olunan enerji ehtiyatlarının qiymətləndirilməsi həyata keçirilmiş, alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin səmərəliliyi əsaslı tədqiq edilmiş və bu istiqamətdə mütəmadi olaraq praktiki işlər həyata keçirilməkdədir [1].

Həyata keçirilmiş tədqiqatlara əsasən müəyyən edilmişdir ki, Respublikamızda ən əlverişli külək şəraiti Abşeron yarımadasında, Xəzər dənizi sahili zolağında və akvatoriyanın şimal-qərb hissəsində olan adalardadır. Bu zonada uzunmüddətli küləyin orta sürəti 6 m/san-dan artıqdır ki, bu da külək enerjisi üçün əlverişli texniki-iqtisadi potensialın olmasını göstərir. "Şimal" DRES qəsəbəsində yerləşdiyi ərazidən toplanılmış külək enerjisi üzrə statistik məlumatlar bir daha təqdim olunan göstəriciləri təsdiq etmişdir. Aparılmış bu tədqiqatlar zamanı Qobustan rayonu ərazisi üçün təqdim olunmuş göstəricilər külək enerjisi potensialının 4-cü sinfinə aid edilir ki, bu da yüksək potensial hesab olunur. Azərbaycanın qərbində Gəncə-Daşkəsən zonasında və Naxçıvan Muxtar Respublikasının Şərur-Culfa ərazisində küləyin orta illik sürəti 3-5 m/san. olduğu üçün bu regionlarda orta güclü külək elektrik qurğularından istifadə etmək olar.

Həmçinin, Günəş enerjisindən istifadənin inkişafı Azərbaycanın bir çox rayonlarında enerji problemini qismən həll edə bilər. Belə ki, ölkəmizdə günəşli saatların miqdarı il ərzində 2400-3200 saat, bir il ərzində 1m^2 yer səthinə düşən günəş enerjisinin miqdarı isə 1500-2000 kVt.s-dır ki, bu da günəş enerjisindən istifadənin tətbiqinə sərmayələrin cəlb edilməsinin səmərəlilik meyarlarından biri kimi qiymətləndirilə bilər.

Respublikamızın ümumi enerji sistemində su elektrik stansiyalarının istehsal gücü xüsusi çəkiyə malikdir. Lakin, ölkəmizdə indiyə qədər istifadə edilməmiş hidroenergetika ehtiyatlarının mənimsənilməsi üçün də geniş imkanlar vardır. Belə ki, bu istiqamətdə aparılmış elmi-tədqiqat işləri nəticəsində müəyyən edilmişdir ki, Azərbaycan Respublikasındakı çayların tam hidroenerji potensialı 40 mlrd. kVt.s, texniki cəhətdən əlverişli potensial isə 16 mlrd. kVt.s-dır ki, bunun da 5 mlrd kVt.s kiçik su elektrik stansiyalarının payına düşür.

Tədqiqatlara əsasən Respublikamızın ərazisi termal sularla da zəngindir. Bunlar Böyük və Kiçik Qafqaz dağları, Abşeron yarımadası, Talış dağ-yamac zonası, Kür çökəkliyi və Xəzəryanı-Quba ərazisi kimi geniş sahələri əhatə edir. Göstərilən ərazilərdə olan termal suları istifadəyə cəlb etməklə məişətdə və digər sahələrdə istilik enerjisinə olan tələbatın bir hissəsi ödənilmiş ola bilər.

Aparılmış tədqiqatlar göstərir ki, iqtisadiyyatın bütün sahələrində istehsal tullantıla-

rının tərkibinin çox hissəsini biokütlə maddələri təşkil edir. Həmin biokütlə maddələrindən elektrik enerjisinin istehsalında istifadə olunan bioqaz, biomaye və bərk biokütlənin alınması mümkündür. Belə ki. Respublikamızda hər il tullantıların zərərsizləşdirilməsi poliqonlarına 2 milyon tondan çox bərk məişət və istehsalat tullantıları atılır. Bu məqsədlə, Abşeron yarımadasının Balaxanı ərazisində ildə 500 min ton məişət tullantısının yandırılması ilə 231,5 mln. kVt.s elektrik enerjisi istehsal edə bilən Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodu inşa edilmişdir [3, s.14]. Beləliklə, bərk məişət və istehsalat tullantılarının utilizasiya olunması (emal edilməsi) bu sahədə müəyyən problemlərin qismən aradan qaldırılmasını təmin etmiş olur.

Hal-hazırda alternativ və bərpa olunan enerji mənbələrindən səmərəli istifadə olunması istiqamətində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutu, Radiasiya Problemləri İnstitutu, Geologiya İnstitutu, Polimer Materialları İnstitutu həmçinin Coğrafiya İnstitutu ilə birgə alternativ və bərpa olunan enerji mənbələrinin tədqiqi istiqamətində aşağıdakı məqsədyönlü və davamlı elmi araşdırmalar aparılmışdır [2]:

- Azərbaycan ərazisində külək enerjisi potensialından istifadə imkanlarına uyğun olaraq külək elektrik stansiyalarının geniş tətbiqi məqsədilə Azərbaycan Milli Elmlər Akade-miyasının Radiasiya Problemləri İnstitutunun "Bərpa olunan enerji növlərinin çevrilməsi" laboratoriyasında "2 kVt külək mühərriki və 6 ədəd səthi kollektordan birgə istifadə etməklə fasiləsiz, tükənməyən stabil elektrik enerjisi alınmasının tədqiqi" elmi-tədqiqat işi yerinə yetirilmişdir. Avtonom, tükənməyən və fasiləsiz elektrik enerjisinin alınması üçün külək mühərriki ilə alman sıxılmış hava günəş kollektorunda qızdırıldıqdan sonra onun faydalı iş əmsalınm artırılması üsulları tədqiq edilib. Günəş səthi kollektorunda sıxılmış havanın istilik dərəcəsini artırmaq üçün onun konstruksiyası dəyişdirilmiş, hər üç kollektor, arasında 5-7 sm məsafə olmaqla, iki qatlı şüşə ilə əvəz edilmişdir. Bu da kollektorların səthində istilik itkisini azaltmışdır. İstilik itkisi azaldıqda kollektorlarda sıxılmış havanın istiliyi artmışdır. Tədqiqatlardan belə nəticəyə gəlmək olur ki, 3 ədəd Günəş səthi kollektorunda bir qatlı şüşəyə nisbətən iki qatlı şüşə kollektoru daha sərfəlidir. Belə ki, onun istilik dərəcəsi təqribən 600 S artıq olur. Beləliklə, 2013-cü ildə 2 kVt-lıq külək mühərriki və 6 ədəd səthi kollektordan istifadə etməklə təcrübi nümunə hazırlanmışdır. Həmçinin, külək və günəş enerjisinin birgə istifadəsi əsasında kənd (bağ) evlərinin isti su təchizatının optimal sisteminin yaradılması üçün günəş radiasiyası ilə səmərəli işləməyə imkan verən, minimal istilik itkili "İstilik tələli" günəş kollektorunun və külək enerjisi aqreqatının prinsipial konstruksiyası işlənib hazırlanmışdır.

- Azərbaycan Milli Elmlər Akademiyasının Geologiya İnstitutunda alternativ enerji mənbələri kimi yanar şistlərin (BMT Baş Assambleyasının 33/148 nömrəli Qətnaməsində yanar şistlər xüsusi əhəmiyyət kəsb edən perspektivli alternativ enerji mənbələri sırasına daxil edilmişdir) geoloji və geokimyəvi potensialı araşdırılmış və neftəmələgətirmə perspektivliyi qiymətləndirilmişdir. "Azərbaycanın təbii bitum və yanar şistlərinin tədqiqi" adlı qrant layihəsi çərçivəsində aparılmış kompleks elmi tədqiqatlar nəticəsində alternativ yanacaq-enerji resursları kimi yanar şist təzahürlərinin yeni perspektivli sahələri ayrılmış, onların bir qismi faydalı qazıntı yatağı kimi qiymətləndirilmişdir. Aşkar olunmuş yeni yanar şist yataqlarının dəqiq ehtiyatlarını hesablamaq məqsədilə müvafiq istehsalat təşkilatlarına geoloji-axtarış və kəşfiyyat işlərinin aparılması tövsiyə olunmuşdur. Müxtəlif yaşlı və fassiyalara aid olunan yataqların iqtisadiyyatın bu və ya digər sahəsində istifadə olunması üçün yanar şistlərin təsnifatı ilkin şəkildə verilmişdir. Baltikyanı ölkələrin təcrübəsindən istifadə edərək kiçik həcmli avtonom istilik-elektrik mərkəzlərinin inşası təklif kimi irəli sürülmüşdür. Eyni zamanda digər tədqiqat obyekti kimi təbii bitumlardan maye yanacaq alınmasında istifadə etmək perspektivləri

araşdırılmışdır. Piroliz prosesinin təhlili ilə müəyyən edilmişdir ki, 1 ton neftli süxurdan karbohidrogenin alınma ehtimalı 7-12% təşkil edir ki, bu da iqtisadı cəhətdən səmərəli hesab olunur.

Hazırda Geologiya İnstitutu "Termal suların miqrasiya yollarının və formalaşdığı mənbələrin dərinlik quruluşunun tədqiqi (Böyük Qafqazın şimali-şərq hissəsi timsalında)" mövzusunda elmi-tədqiqat işi Rusiya Elmlər Akademiyasının Geologiya İnstitutu ilə birgə yerinə yetirilir.

Həmçinin, Geologiya İnstitutunda alternativ və bərpa olunan enerji mənbələrindən istifadə üzrə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi üzrə dünyanın bir sıra ölkələrində tətbiq edilən layihələrdən biri olan istilik nasosları haqqında məlumat bazası yaradılmış və bunların Azərbaycanda tətbiqinin perspektivləri araşdırılmışdır.

Geologiya İnstitutunda Azərbaycan Respublikasının Milli Atlası üçün 1:1500000 miqyaslı Azərbaycanın təbii bitum və yanar şist yataq və təzahürləri xəritəsi də tərtib olunaraq və Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə təqdim olunmuşdur. İnstitutda həmçinin, "Azərbaycanın istilik sahəsi və geotermal enerji resursları: GİS texnologiyaları əsasında Geotermal Atlasın və Geotermal Resursların Kadastrının tərtibi" elmi-tədqiqat layihəsi hazırlanmışdır.

- Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutunda alternativ və bərpa olunan enerji mənbələri sahəsində əsasən, xammala qənaət və tullantısız texnologiyalar nöqteyinəzərindən əlverişli olan nazik və ultra-nazik təbəqəli günəş elementlərində istifadə olunan komponentlərin alınması və tədqiqinə həsr olunmuş elmi-tədqiqat işləri həyata keçirilir. Bu işlərə hal-hazırda yüksək kommersiya effektivli günəş modullarının sənayenin inkişafında öz geniş tətbiqini tapmış CdTe və $CuInGaSe_2$ əsaslı günəş elementləri daxildir. Belə elementlərin maya dəyərinin aşağı salınması və effektivliyinin artırılması onları təşkil edən komponentlərin (CdS, CİGS, ZnO və s.) xassələrinin optimallaşdırılması ilə sıx bağlıdır. Bu məqsədlə, müxtəlif oksigen parsial təzyiqlərində maqnetron tozlandırma üsulu ilə nanostrukturlu CdS:O təbəqələri alınıb tədqiq olunmuşdur. Göstərilmişdir ki, bu təbəqələr təmiz CdS təbəqələrinə nisbətən daha yüksək şəffaflığı alman günəş elementlərinin effektivliyini nəzərə çarpacaq dərəcədə artıra bilər. Maqnetron tozlandırma üsulu ilə dənələrinin ölçüsü 45 nm və səth nahamarlığı 3.5 nm olan ZnO nazik təbəqələri alınmışdır. Müxtəlif ionlarla aşkarlanmış, qadağan zolağının eni 3.3 eV olan ZnO öz yüksək şəffaflığına, optimal elektrik və optik xassələrinə görə na-zik və ultra-nazik təbəqəli günəş elementlə-rində kontakt elektrodu kimi istifadə olunur. Göstərilmişdir ki, optimal aşılama texnologiyası tətbiq etməklə CIGSe nazik təbəqələrinin səth nahamarlığım sıfıra endirmək mümkündür.

Fizika İnstitutunda həmçinin mikrovat energetikası üçün maqnetron tozlandırma üsulu ilə elastik polimid altlıq üzərində CdTe əsaslı günəş modullarının laboratoriya nümunələri də yaradılmışdır. SnO_2 keçirici örtüklü şüşə altlıq üzərində CdS/CdTe nazik təbəqəli günəş elementləri yaradılmışdır, onların həssaslıq sahəsini 3.0 eV-a qədər genişləndirmək məqsədi ilə nanostrukturlu CdS:0 optik pəncərə rolunu oynayan nazik təbəqələr alınmışdır. Nazik təbəqəli ölçüsü və səth morfologiyası təqribən eyni olan CdS/CdTe yüksək effektivliyə malik olan (14%-dan yuxarı) günəş elementləri hazırlanmışdır. Silisium günəş elementin səthində nanoquruluşlu məsaməli təbəqənin yaradılması, fotohəssaslıq sahəsinin genişlənməsinə və nəticədə silisium günəş elementinin fotoelektrik parametrlərinin artmasına gətirir. Nanoməsaməli silisium əsasında Sotkitipli elementlərinin müxtəlif hidrogen tərkibli mü-hitlərdə elektrik parametrləri araşdırılmış, bu tip hidrogen elementlərinin alternativ elektrik enerjisi mənbəyi kimi (gücü 30 W/m^2-dək 80-mM-lug hidrogen sulfidi üçün) istifadəsinin mümkünlüyü göstərilmişdir. Ucuz başa gələn materiallardan və sadə (bahalı avadanlıq tələb etməyən) texnologiyadan istifadə etməklə nazik təbəqəli (az material tələb olunan) günəş elementləri hazırlanıb. Günəş elementinin hazırlanmasının texnologiyası təkmilləşdirilib.

Yüksək effektivlikli, ucuz başa gələn günəş elementləri əsasında mobil mini günəş elektrik stansiyalarının yaradılması nəzərdə tutulub.

– Geotermal suların istilik enerjisindən səmərəli istifadə etmək məqsədilə aşağı istilik keçiriciliyinə malik olan plastik boruların tətbiqi məqsədilə Azərbyacan Milli Elmlər Akademiyasının Polimer Materialları İnstitutunda aparılan araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, polimer materialların çoxsaylı faydalı xassələri nəzərə alınmaqla onların əsasında bir sıra məmulatların, o cümlədən, plastik boruların hazırlanması mümkündür və bunların Azərbaycanda tətbiqi perspektivləri araşdırılmışdır. Plastik boruların hazırlanması zamanı aşağıdakılar nəzərə alınmalıdır: fizioloji nöqteyi-nəzərdən boruların zərərsiz olmaları, mexaniki möhkəmliyi, zərbəyə, temperatura və isti suya qarşı davamlı olmaları, suda həll olmaması, həmçinin, atmosfer təsirinə dözümlü olmasıdır.

Başqa sözlə, istifadə olunacaq materialların tərkibi onların kimyəvi və fiziki-mexaniki göstəriciləri qoyulan tələblərə cavab verməlidir.

Plastik borulardan istifadə olunması bilavasitə konkret istismar şəraitindən, suyun təzyiqi və temperaturundan asılı olduğundan onların istehsalı zamanı bunlar nəzərə alınmalıdır. Bundan əlavə geotermal sulardan alternativ enerji mənbəyi kimi istifadə olunduğu zaman avadanlıqların, o cümlədən, plastik boruların istilik keçirmələri çox aşağı olmalıdır.

Aşağı (və ya orta) təzyiq polietilenləri və polipropilen əsasında hazırlanan plastik borular aşağı istilik keçirmə əmsalına malik olmaqla yanaşı metal borulara nisbətən yüngüldür, ucuzdur, uzunmüddətlidir, suya, üzvü həlledicilərə, duz, turşu və qələvi məhsullarına qarşı davamlıdır və asan emal olunur. Aşağı sürtünmə əmsalına malik olduqlarına görə plastik borularda mayenin hərəkətinə olan müqavimət kiçik olur və itki 1,5 dəfə az olur.

Onu da qeyd etmək lazımdır ki, maye və qaz halında olan maddələrin nəql edilməsi üçün yararlı olan metal boruların xidmət müddəti 25 il olduğu halda, plastik borular üçün bu müddət 40-50 ildir, qiymətləri isə 2,5-3 dəfə ucuzdur. Ona görə də yuxarıda qeyd olunan məqsəd üçün istifadə olunan plastik boruların aşağı (və ya orta) təzyiq polietilenindən və propilendən hazırlanması daha məqsədəuyğundur. Bu borular üçün çatışmaz cəhət yalnız onların ultrabənövşəyi şüalara qarşı dözümlülüyünün aşağı olmasıdır.

Müxtəlif növ metal konstruksiyaları, o cümlədən magistral neft-qaz boru kəmərlərini elektrokimyəvi korroziyadan qorumaq üçün ayrılıqda fotoelektrik cərəyan mənbəyindən (FCM) və eyni vaxtda həm FCM; həm də KEM-dən qidalanan katod antikorroziya sistemləri işlənmiş və model qurğu üzərində müxtəlif variantlarda iş rejimləri (qeyri-stasionar iş rejimləri) tətbiq edilməklə təcrübələr aparılmışdır. Bəlli olmuşdur ki, alternativ cərəyan mənbələrindən, xüsusən də FCM va KEM-dən istifadə edərkən qidalanma rejimi qeyri-stasionar olduğundan, zamandan asılı olaraq polyarizasiya dərəcəsi daha aşağı olur ki, bu da eyni çıxış gücünə malik ənənəvi cərəyan mənbələri ilə müqayisədə eyni kənar şərtlər daxilində (borunun eyni olduğu hal) daha böyük uzunluqlu boru kəmərini elektrokimyəvi korroziyadan qoruya bilir ki, bu da alternativ enerji mənbələrinin bu məqsədlə istifadəsinin yüksək dərəcədə səmərəli olduğunu göstərir.

- Payız-qış mövsümlərində kənd təsərrüfatı məhsullarının istehsalı üzrə istixanaların qızdırılmasında geotermal su mənbələrindən səmərəli istifadə edilməsi məqsədilə aşağı istilik keçiriciliyinə malik olan plastik boruların tətbiqi, payız-qış mövsümündə kənd təsərrüfatı məhsullarının istehsalı üzrə istixanaların qızdırılmasında geotermal su mənbələrindən istifadə edilməsi istiqamətində Azərbaycan Milli Elmlər Akademiyasının Geologiya İnsti-tutu uzun illər ərzində respublikanın termal sularının formalaşma şəraiti, onların miqdarı və keyfiyyət parametrlərinin tədqiqatı ilə məşğul olmuşdur.

Aparılmış hidrogeoloji tədqiqatların nəticəsinə əsasən respublika ərazisində mövcud olan temperaturları 50-90°C olan termal su mənbələrindən kənd təsərrüfatı məhsullarının

yetişdirilməsi üçün istixanalarda istifadə edilə bilməsi mümkünlüyü qənaətinə gəlinmişdir. Hazırda İnstitut əsas mənbələr üzrə tədqiqatların məlumat bazasına malikdir.

- Abşeron yarımadası, Mil-Muğan düzənliyində və Naxçıvan Muxtar Respublikasının ərazilərində binaların qızdırılması və isti su təchizatı üçün günəş kollektorlarının tətbiqi məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının Radiasiya Problemləri İnstitutunun "Bərpa olunan enerji növlərinin çevrilməsi laboratoriyasının elmi-tədqiqat planına uyğun olaraq günəş və külək enerjisindən ayrı-ayrılıqda və kombinə olunmuş şəkildə istifadə etməklə aparılan müxtəlif növ texnoloji proseslərin optimallaşdırılması, həmçinin də qaynar su istehsalının maya dəyərinin aşağı salınması məqsədi ilə iki müxtəlif modifikasiyada yastı günəş kollektorları işlənmişdir:

1) istilik uducu reagent kimi yüksək istilik udma, keçirmə və ötürmə qabiliyyətinə, həmçinin ideal dielektrik xüsusiyyətinə malik olan hidrogendən istifadə etməklə istilik talalı, vakkumlaşdırılmış günəş kollektoru;

2) içərisində istilik akkumulyasiya qabiliyyətinə malik neft tullantılarından, o cümlədən də bitum və qırdan istifadə edilən günəş kollektoru.

Binaları isti su ilə təchiz etmək üçün AMEA-nın Radiasiya Problemləri institutunda günəş radiasiya intensivliyinin sxolastik paylanması rejimində işləyən xüsusi sistem işlənmiş və tərkibində külək elektrik qurğusu və günəş su qızdırıcısı olan birləşdirilmiş sistem quraşdırılmışdır. Aparılan davamlı təcrübi tədqiqatlar qurğunun məhsuldarlığının və faydalı iş əmsalı 49-52% olduğu müəyyənləşdirilmişdir. Qurğuya düşən günəş radiasiyasının və temperatur paylanmasının hesabatı aparılmış, sistemin istilik-energetik balansı təyin edilmişdir.

4 və 12 nəfərlik kəndli ailəsinin isti su ilə təchizatında Külək və Günəş enerjisindən birgə istifadə etməklə işləyən su qızdırıcı qurğularının hesabatları aparılmışdır. Obyektin su təminatı - 250-1000 litrdir. Bununla əlaqədar olaraq isti su təchizatı prosesinin müxtəlif gücdə (1-4 kVt) Külək enerjisi qurğularının əlavə hesabatları aparılmışdır.

12-16 kVt KEQ su qızdırıcısı 4-6 ailəni isti su ilə təmin edə bilər. 12 kVt KEQ-də hasil olunan enerji ilə 1 t suyun 30°C-dak (t=20°^50°C) qızdırdıqda enerji sərfi 1.4 dəfəni keçdiyi halda 16 kVt KEQ-də bu göstərici 20-yə bərabərdir.

16 kVt KEQ-dan isti su təminatı sistemində istifadə etdikdə 1 kVt saat enerji hasilatı üçün qiymət ~ 0.08 manat hesablanmışdır. Bu göstərici praktiki olaraq dövlət tərəfindən elektrik enerjisinə qoyulan qiymətdən (0.06 manat) bir qədər çoxdur. Beləliklə nəzərə alsaq ki, qış mövsümündə küləyin sürəti ~ 15%-ə qədər yüksək olur, bu göstərici (0.08 manat) 0.06 manata yaxın olur.

Abşeron yarımadasında, xüsusən Bakı şəhərində yastı günəş kollektorlarına əsaslanan günəş-energetik qurğusunun ilin müxtəlif aylarında olmaqla gün və ay ərzindəki işıqlı saatlarının və 1m^2 üfüqi səthə düşən günəş şüalarının enerjisinin orta aylıq miqdarı müəyyən edilmişdir.

İnstitutun "Bərpa olunan enerji növlərinin çevrilməsi" laboratoriyasında "İsti tələli" Günəş Kollektorunun işlənməsi, qurulması və onda təbii şəraitdə günəş radiasiyası intensivliyinin (600-900 Vt/m^2) və temperaturun (300-450) geniş intervalında istilik proseslərinin eksperimental tədqiqi sahəsində də elmi-tədqiqat işləri yerinə yetirilmişdir:

1. Günəş radiasiyası ilə səmərəli işləməyə imkan verən, minimal istilik itkili "İstilik tələli" günəş kollektorunun prinsipial konstruksiyası işlənib hazırlanmışdır.

2. Aparılan eksperimental tədqiqatlar göstərir ki, günəş radiasiyasının 500+700 Vt/m^2 intensivliyində və ətraf mühitin 240°C temperaturunda qızdırılan suyun orta temperaturu 50-600°C təşkil edir. Bu da işlənmiş sistemin effektivliyini və səmərəliliyini göstərir.

3. Eksperimental tədqiqatların nəticəsinə görə, praktiki olaraq günəş kollektoru, günəş su qızdırıcılarında, istilik təchizat sistemində istifadə oluna bilər.

- Neft-Kimya Prosesləri İnstitutunda neft və neft məhsulları üzrə yüksək sorbsiya tutumu (18-19 kq/kq), yüksək üzmə qabiliyyəti (100 saatdan çox), yüksək hidrofobluğu (nəmliyin udulması 0.0001%-dən az) olan və dəfələrlə istifadə oluna bilən, (ən azı 10 dəfə) regenerasiyadan sonra öz sorbsiya xassələrini yüksək səviyyədə saxlayan köpüklənmiş polietilen əsasında sorbentlər laboratoriya şəraitində işlənib hazırlanmışdır. Sorbentlər mineral Xammalın Kompleksli Emalı üzrə Təcrübə İstehsalat Xüsusi Konstruktor Texnoloji Bürosunda sınaqdan keçirilmişdir. Sınağın nəticələri göstərmişdir ki, köpüklənmiş polimer sorbentlərin sorbsiya tutumu neft, sənaye yağ və dizel yanacağı üzrə müvafiq olaraq 22.0, 16.6 və 16.4 kq/kq təşkil edir. Alınmış sorbentlər qapalı dəlikli quruluşa malikdirlər və qəza zamanı suyun üzərinə dağılmış neft və neft məhsullarının yığılması üçün tövsiyə edilir. Sorbentlər ətraf mühitə zərərli təsir göstərmir və ənənəvi üsullarla utilizasiya olunurlar.

- Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutunda "Maqnetron tozlandırma üsulu ilə alınmış amorf silisium incə təbəqələrinin elektrofiziki xassələrinin tədqiqi" mövzusu üzrə aparılır. İnstitutda effektiv günəş elementlərinin hazırlanması məqsədi ilə, nazik CdTe təbəqələrinin alınması üçün yeni foto sublimasiya texnologiyası işlənmişdir. Bu texnologiya ilə hazırlanmış CdTe əsaslı günəş elementlərinin fotovoltatik parametrləri adi üsulla əldə edilmiş elementlərin parametrlərindən təxminən 1.5 dəfə yüksəkdir. Vakuum tozlandırılması üsulu ilə alınmış CdTe nazik təbəqələrinin morfologiyası, strukturu, optik və elektrik xassələrinə altlıq temperaturunun və çökdürmədən sonrakı tablamanın təsiri öyrənilmişdir. Struktur tədqiqatlarında Scan electron mikroskopu və X-şüa difraksiya texnikalarından istifadə olunmuşdur. Müəyyən olunmuşdur ki, aşağı temperaturlu (altlıq temperaturu 220K) vakkum tozlandırılması üsulu ilə alınan CdTe və CdS təbəqələrinin danə ölçüləri və səth morfologiyası tamamilə üst-üstə düşür ki, bu da öz növbəsində yüksək effektivli günəş elementlərinin yaradılmasının mühüm parametrlərindən biridir. Bu yeni prosesdən istifadə edərək effektiv nazik təbəqəli günəş elementləri alınmışdır. Hazırda günəş çeviricilərinin əsas hissəsi -56% polikristallik silisium, -35% monokristallik silisium, qalan isə digər materiallardır. Azərbaycan Milli Elmlər Akademiyasının məlumatına əsasən günəş energetikası üçün yararlı yüksək təmizlikli polikristallik silisium texnoloji kompleksinin yaradılması üçün Fizika İnstitutunda lazımı istehsal sahəsi və elmi-texniki potensial mövcuddur.

- Yerli elmi-texniki potensialdan və xammaldan istifadə etməklə günəş enerjisi istehsalında istifadə olunan fotoelementlərin faydalı iş əmsalının artırılması və onların istehsalına başlanması məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutu tərəfindən "Nazik təbəqəli günəş elementlərinin alınması" layihəsi işlənib hazırlanmış və Nazirlər Kabinetinə təqdim olunmuşdur. ABŞ-ın Milli Laboratoriyasının rəhbərliyi ilə Fizika İnstitutunun nəzdində günəş çeviricilərinin yaradılması sahəsində Azərbaycan Respublikası və ABŞ-nin birgə laboratoriyasının açılması haqqında razılıq əldə olunmuş və bu sahədə onlar laboratoriyaya texniki kömək göstərməyə razılıq vermişlər. İnstitutun əməkdaşları tərəfindən yüksək effektivlikli nazik təbəqəli CdS\CdTe günəş elementlərinin yaradılmasının yeni üsuluna baxılmışdır.

- Azərbaycan Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutunda Azərbaycanın dağətəyi rayonlarında Günəş enerjisindən səmərəli istifadə edilməsinin nəzəri əsasları işlənmişdir:

1. Atmosferin müxtəlif optik şəraitlərində (təmiz, buludlu, tozlu, dumanlı və s.) günəşdən gələn birbaşa, diffuz və toplam radiasiyanın hesablanması üçün riyazi model işlənmişdir. Bu model astronomiya formulları əsasında zamanın hər bir anı üçün relyefin yaratdığı kölgələnmə effektini də nəzərə alaraq düşən günəş radiasiyasının miqdarını təyin edir. Bu modellə müəyyən edilmişdir ki, horizontal müstəviyə düşən toplam günəş radiasiyasının miqdarı relyefin yaratdığı kölgə nəticəsində

önəmli dərəcədə azalır. Məsələn, bucaq yüksəkliyi 200 olan dağ bu enerjini 6% azaldır.

2. Günəş batareyalarının yerinin və yönünün optimal seçilməsi metodu işlənmiş və bunun əsasında hesablamalar aparılması üçün proqram paketi tərtib edilmişdir. Günəş batareyalarının yönünün relyefin yaratdığı kölgə effekti nəzərə alınaraq optimal seçilməsi zəruridir. Belə ki, bu effekt nəzərə alınmadıqda enerji itkisi kölgələnmənin dərəcəsindən asılı olaraq dağ vadilərindəki məntəqələrdə 15 % - ə qədər ola bilər.

- İstilik enerjisinin alınması məqsədilə emal zavodlarında neftin emalı tullantılarından koks briketlərinin və digər məhsulların alınması texnologiyasının işlənməsi məqsədilə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin H.Əliyev adına Neft Emalı Zavodunda neftin emalından alınan neft koksunun məişətdə istifadəsi ilə bağlı ARDNŞ tərəfindən Azərbaycan Respublikası Nazirlər Kabinetinə 13-913 nömrəli 09.12.2009-cu il tarixli məktubla müraciət edilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabineti məsələ ilə bağlı rəy və təkliflərin alınması üçün ARDNŞ-ın məktubunu Fövqəladə Hallar Nazirliyinə, Səhiyyə Nazirliyinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, Sənaye və Energetika Nazirliyinə, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinə, Milli Elmlər Akademiyasına və "Azərisitiliktəchizat" ASC-yə 17/5247-12/09/21 nömrəli 11.12.2009-cu il tarixli dərkənarı ilə ünvanlamışdır. Sonradan Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17/17/5247-12/09 nömrəli 14.01.2010-cu il tarixli dərkənarı ilə ARDNŞ-a yuxarıda göstərilən nazirliklərdən və dövlət təşkilatlarından alınmış müvafiq rəy və təkliflərin surətləri təqdim olunmuşdur. Təqdim olunan rəylər şərti olaraq 2 qrupa bölünmüşdür.

Birinci qrupa aid olan Sənaye və Energetika Nazirliyi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və Milli Elmlər Akademiyasının rəyləri neft koksunun məişətdə istifadə etmə perspektivini prinsip etibarı ilə istisna etməmişdirlər. Bununla yanaşı bu koksun məişətdə istifadə edilməsi nəticəsində atmosferə atılan qazların ətraf mühitə və insan sağlamlığına təsirin öyrənilməsi üzrə müvafiq təcrübi sınaq işlərin aparılmasının zəruriliyini vurğulamışdırlar.

İkinci qrupa aid Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Səhiyyə Nazirliyi və "Azərisitiliktəchizat" ASC-nin rəylərində isə koksun məişətdə istifadə edilməsi istisna edilmişdir.

Araşdırmalar zamanı o da müəyyən olunmuşdur ki, neftin emalı tullantılarından koks briketlərinin və digər məhsulların alınması zamanı atmosferə çoxlu miqdarda istilik effekti yaradan karbon qazı atılır ki, bu da ekoloji cəhətdən səmərəli hesab edilə bilməz.

Lakin, ARDNŞ bu məsələ ilə bağlı əsas məqsəd kimi təbii qazla hələlik təchiz olunmayan ucqar rayon kənd və qəsəbələrdə neft koksunun məişətdə istifadə etməklə oradakı meşələrin odun kimi istifadəsinin qarşısının alınmasına və koksun rayonlarda istifadə olunan daş kömüründən daha faydalı olduğunu nəzərə alaraq neft koksunun məişətdə istifadəsinin hərtərəfli araşdırılması və müvafiq ekspert rəyini tərtib edilməsini təmin etmək məqsədi ilə tədqiqatların aparılmasını Azərbaycan Milli Elmlər Akademiyasının Neft-Kimya Prosesləri İnstitutuna tapşırılmasına və bu işdə adı çəkilən Nazirliklər və Dövlət təşkilatların mütəxəssislərinin cəlb edilməsinə dair təklifi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinə 11-117 nömrəli 03.02.2010-cu il tarixli məktubla müraciət etmişdir.

Bununla yanaşı, ARDNŞ-da aparılmış tədqiqat işləri və araşdırmalar əsasında neft və qaz istehsal olunan sahələrdə, dəniz və quruda küləyin yüksək energetik xüsusiyyətləri aşkar olunmuşdur. Külək turbo-enerji qurğuları əsasında gələcəkdə ayrı-ayrı özüllərin enerji ilə təchizatı, quruda yerləşən neft və qazın istehsal sahələrində dünyanın qabaqcıl külək texnologiyalarından istifadə etməklə "Dəniz Külək Parkı" adlı sistemin yaradılmasına dair məlumatlar toplanılmışdır.

Məlumatlara əsasən "Neft Daşları"nda, Çilov adasında. Dübəndi, Dəşgil, Abşeron-Sumqayıt neft-yığma məntəqəsi, qaz emalı zavodu və digər istehsal sahələrində külək

turbo-enerji qurğularından istifadə etməklə 10-12% enerjiyə qənaət etmək mümkündür.

Bundan əlavə, külək qurğuları parkının yaradılması üçün texniki və texnoloji tədqiqatlar aparılmış və bu məqsədlə Puta sahəsində "Aerodinamik boru" effekti yarada bilən külək zolağı seçilmişdir ki, bu da "Ə.Əmirov adma" və "Bibiheybətneft" NQÇİ-ləri, Qaz emalı zavodu və H.Əliyev adma Bakı Dərin Özüllər zavodu üçün küləkdən alman elektrik enerjisinin ötürülməsinə imkan yaratmış ola bilər.

2004-2009-cu illərdə ARDNŞ-nin neftçıxarma istehsal sahələrində yüksək texnologiyalar silsiləsindən yeni enerji mənbəyi olan Nanotexnologiyaların elmi əsasları işlənmiş, real şəraitdə mədən-sınaq işləri aparılmış, tətbiq sahələri genişləndirilmişdir. Belə ki, bu texnologiyaların neftçıxarmada, quyularm qazılmasında və nəqldə tətbiqinin sinergetik effektə malik olması müəyyən edilmişdir. Nəticədə, köhnə sulaşmış yataqlarda adı çəkilən texnologiyaların tətbiqi nəticəsində əlavə neft hasil olunmasına, neft hasilatında istifadə olunan enerjiyə qənaət olunmuş və nəhayət, ətraf mühitin qorunmasında mühüm rol oynayan lay sularının yer səthinə çıxarılıb çirkab gölməçələr yaranmasının qarşısının alınmasına xidmət edən mühüm tədbirlər həyata keçirilmişdir.

- Dəniz-dalğa enerji potensialının elektrik enerjisinə çevrilməsi istiqamətində elmi-tədqiqat işlərinin aparılması Azərbaycan Milli Elmlər Akademiyasının Elmi Tədqiqat İnstitutunun iş planına daxil edilmişdir. Belə ki, bu istiqamətdə dünya təcrübəsinin öyrənilməsi, zəruri məlumatların toplanması, analitik təhlil və icmalların hazırlanması istiqamətində işlər aparılır. Hesab edilir ki. bu sahədə respublikamızda potensial mövcuddur.

Yuxarıda qeyd edilmiş bütün elmi-tədqiqatların aparılmasında əsas məqsəd yerli elmi-texniki potensialdan və xammaldan istifadə etməklə alternativ və bərpa olunan enerji mənbələrindən əldə edilən enerjinin ümumi enerjidə xüsusi çəkisinin artımına nail olmaqdır.

Azərbaycanda alternativ və bərpa olunan enerji mənbələrindən geniş və səmərəli istifadə edilməsi məqsədilə respublikamız aparılan elmi tədqiqatların dünya standartları səviyyəsinə uyğunlaşdırılması, enerji istehsalında innovasiyaların və müasir texnologiyaların tətbiq edilməsi üçün bir çox beynəlxalq təşkilatlarla və şirkətlərlə, o cümlədən BMT-nin İnkişaf Proqramı, Avropa İttifaqı, İRENA, Dünya Bankı, Asiya İnkişaf Bankı, Almaniyanın KfW bankı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi (JICA), Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOICA), Avropaya Dövlətlərarası Neft və Qaz nəqliyyatı proqramı (INOGATE), GUAM Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat, Yunanıstanın Bərpa Olunan Enerji Mənbələri Mərkəzi və digər nüfuzlu xarici şirkətlərlə sıx elmi-texniki əməkdaşlıq edir [4].

Bunlara misal olaraq aşağıdakıları göstərmək olar [2]:

- Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutu yüksək effektivli nazik və ultranazik təbəqəli günəş elementlərinin yaradılması və tədqiqi sahəsində Fransanın İRDEP-CNRS (Paris) və Yaponiyanın Çiba Texnoloji İnstitutları ilə birgə sıx elmi-texniki əməkdaşlıq edir. Həmçinin, gənc mütəxəssislərin təcrübə mübadiləsi və birgə elmi işlərin aparılması istiqamətində də uğurlu işlər həyata keçirilir;

- Quba rayonunun Xınalıq kəndində alternativ enerji mənbələrindən istifadə etmək üçün Beynəlxalq Ekoenergetika Akademiyası ilə birgə avadanlıqların quraşdırılması və müvafiq ərazilərin seçilməsi məqsədilə Azərbaycan Respublikasının Energetika Nazirliyində elmi-tədqiqat işləri aparılmışdır. Azərbaycan Mühəndislik Akademiyası və Beynəlxalq Ekoenergetika Akademiyası tərəfindən "Azərbaycan Respublikası Quba rayonu Xınalıq kəndinin elektrik enerjisi və qaz təchizatı üçün alternativ enerji mənbələrindən istifadə etməklə Hibrid sistemin yaradılması" layihəsi hazırlanmışdır. Layihədə yerli alternativ enerji mənbələrinin potensialı açıqlanmış və texniki istifadə məqsədilə ayrı-ayrı mənbələr üzrə araşdırmalar aparılmışdır;

- Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Danimarkanın Ətraf Mühit Nazirliyi birgə Sumqayıt və Gəncə şəhərlərinin məişət tullantılarından bioqaz alınaraq kiçik elektrik stansiyanın qurulması sahəsində tədqiqat və axtarış işləri aparmış və bunun nəticəsi olaraq Təmiz İnkişaf Mexanizmi layihələri hazırlanmışdır;

- Azərbaycan Diplomatik Akademiyasının istilik və isti su ilə təchizatının istilik nasosları sayəsində təmin olunmasına dair pilot layihə üzərində elmi-tədqiqat və geoloji kəşfiyyat işləri aparılmış, qrunt geotermik sınaqlardan keçirilmişdir. 3 quyudan ibarət stansiya qurulmuşdur. İstilik təchizatı sisteminin quraşdırılması metodologiyasının yaradılmasi üçün fəsillər üzrə Statistik məlumatlar toplanılır. Bu istiqamətdə işlərin aparılması üçün Almaniyanın və Ukraynanın müvafiq sahədə ixtisaslaşmış layihə-axtarış şirkətləri də cəlb edilmişdir.

Nəticə

Dünya miqyasında hər bir dövlətin inkişafının təməlini elmi-texniki tərəqqi təşkil edir. Belə ki, aparılmış elmi tədqiqat işlərinin sayəsində dövlətin gələcək strateji inkişaf istiqamətləri müəyyən edilməklə onun inkişafı təmin edilmiş olur.

Müasir dövrdə baş verən qlobal enerji böhranı dövlətləri öz enerji təhlükəsizliyinin təmin olunması ilə bağlı müvafiq tədbirlərin həyata keçirilməsinə vadar edir. Enerji təhlükəsizlyinin təmin olunması ilə bağlı görüləcək tədbirlərdən biri də mütərəqqi yeniliklərlə zəngin, elmi-texniki tərəqqiyə əsaslanan alternativ və bərpa olunan enerjidən istifadənin inkişafına nail olmaqdır.

Lakin, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə sahəsində aparılan elmi-tədqiqat işlərinin müasir dövrün inkişaf səviyyəsindən bir qədər geri qalması, müasir texnologiyanın əsasən xaricdən itxal olunması, innovativ texnoloji istehsal sahələrinin yaradılmasındakı çətinliklər, elmi-tədqiqat müəssisələrinin maddi-texniki bazasının ən müasir tələblərə cavab verən şəkildə təhciz olunmasındakı çatışmazlıqlar və s. bu kimi problemlər bu sahənin inkişafına maneələr yaratmış olur.

Bu səbəbdən, Azərbaycanda alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin inkişafına nail olunması məqsədilə elmi-tədqiqatların mütəmadi və ardıcıl həyata keçirilməsi üçün bu sahəyə dövlət tərəfindən maliyyə dəstəyinin artırılması olduqca zəruridir.

Belə ki, ayrılan büdcə vəsaiti eksperimental xarakterli alternativ və bərpa olunan enerji mənbələrindən istifadə sahəsi üzrə yeni laboratoriyaların və tədqiqat institutlarının yaradılmasına, onların maddi-texniki bazasının genişləndirilməsinə və beləliklə müasir tələblərə cavab verəcək şəkildə sürətli inkişafına sərf edilə bilər.

Həmçinin, alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi və müasir tələblər səviyyəsində inkişaf etdirilməsinə nail olmaq üçün düşünülmüş, məqsədyönlü şəkildə əsaslı struktur islahatlarına da ehtiyac vardır.

Belə ki, eksperimental və praktiki tətbiq istiqaməti olmayan müəssisələrin geniş şəbəkəyə malik olan müvafiq müəssisələrlə komplektləşdirilməli, həmçinin ən yeni strateji əhəmiyyətli tədqiqat sahələri yaradılmalıdır.

Beləliklə, bu tədbirlərin həyata keçirilməsi nəticə etibarı ilə ölkəmizdə alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin müasir dövrün tələbləri səviyyəsində inkişaf etdirilməsinə, elektron idarəetmə və texnoloji avadanlıqların yaradılmasına, elmi istehsalat və cihazqayırma sahələrinin genişləndirilməsinə, mövcud və ya yarana biləcək hər hansı problemlərin innovativ texnologiya əsasında vaxtında həllinə, beynəlxalq elmi əlaqələrin inkişaf etdirilməsinə və nəticədə ölkəmizdə elmi-texniki tərəqqinin dövrün tələbatına uyğun şəkildə sürətli inkişaf etdirilməsinə şərait yaradacaqdır.

Ədəbiyyat:

1. Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı (24 oktyabr 2004)
2. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 21 oktyabr tarixli 462 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nın 01.01.2014-cü il tarixə icrası barədə məlumat.
3. Proqramlar, qanunvericilik və infrastruktur-turun inkişafı (2008-2012-ci illər). Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi. Bakı 2013
4. www.area.gov.az - Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin rəsmi internet ünvanı

Açar sözlər: *alternativ və bərpa olunan enerji mənbələri, günəş enerji, külək enerjisi, elmi-tədqiqat işləri, laboratoriya*

Joshgun Mammadov
PhD student of Khazar University

THE ROLE OF SCIENTIFIC RESEARCH IN THE DEVELOPMENT OFALTERNATIVE AND RENEWABLE ENERGY RESOURCES

SUMMARY

In order to expand the use of alternative and renewable energy sources and to develop them at modern world requirements in our country, scientific-research works have been widely explored in this article.

As a result, the government stressed the need to increase financial support and fundamental structural reforms to solve the existing problems that hamper the rapid development of scientific research in this field.

Key words: *Alternative and Renewable Energy Sources, Solar Energy, Wind Eenergy, Scientific Research, Laboratory*

Джошгун Мамедов
Докторант Университета Хазар

РОЛЬ НАУЧНЫХ ИССЛЕДОВАНИЙ В РАЗВИТИИ АЛЬТЕРНАТИВНЫХ И ВОЗОБНОВЛЯЕМЫХ ИСТОЧНИКОВ ЭНЕРГИИ

РЕЗЮМЕ

В статье рассмотрены научно-исследовательские работы, проведенные с целью расширения использования альтернативных и возобновляемых источников энергии, и развития данной отрасли в нашей стране на уровне современных требований.

В результате была подчеркнута необходимость увеличения финансовой поддержки государством и осуществления фундаментальных структурных реформ для устранения существующих проблем, которые препятствуют ускоренному развитию научных исследований в этой области.

Ключевые слова: *альтернативные и возобновляемые источники энергии, солнечная энергия, энергия ветра, научные исследования, лаборатория*

GƏNC TƏDQİQATÇILAR
YOUNG RESEARCHERS

BEYNƏLXALQ MÜNASİBƏTLƏR
INTERNATIONAL RELATIONS

ЛАЛА ТАЛЫБОВА
Докторант Академии Государственного Управления при Президенте Азербайджанской Республики

БОРЬБА МИРОВЫХ ДЕРЖАВ ЗА ТРУБОПРОВОДЫ НА ЮЖНОМ КАВКАЗЕ

Растущее значение энергоресурсов сегодня является одним из важнейших факторов, определяющих политику государств, регионов и мировых держав в целом.

После распада СССР и потери монополии России по распоряжению богатыми ресурсами государств Южного Кавказа и Центральной Азии, на повестке дня появился вопрос о транспортировке углеводородов на мировой рынок.

Азербайджан является единственным государством на Южном Кавказе, обладающим богатыми нефтяными месторождениями на Каспийском шельфе Азери-Чырag-Гюнешли, и газовыми- Шахдениз. Потеря влияния России над стратегически важным Южным Кавказом и появление здесь независимых государств после распада СССР открыло новые возможности для США в регионе. В период спроса на энергоресурсы и нестабильности Ближнего Востока, США стремились разработать несколько новых альтернативных маршрутов транспортировки нефти и газа в Европу посредством Южного Кавказа.

Весьма интересна точка зрения российского эксперта В. Разуваева, который, обосновывая позицию МИДа РФ, прямо заявил: «Россию может устроить только одно решение – преобладание на Каспии. У нее есть для этого права и возможности. Альтернатива приведет к утрате политического влияния Москвы в регионе. Если Россия не будет пользоваться на Каспии преобладающим влиянием, здесь уже через 10-15 лет будут добывать нефть в основном не российские, а западные компании» [2]. Вся постсоветская история свидетельствует о том, что ведущие страны Запада, прежде всего США, стремятся вытеснить Россию из региона. Но ввиду недостаточности материальных возможностей в первые годы независимости, Россия была не в состоянии вкладывать в освоение каспийского дна достаточно средств.

Идея США относительно транспортировки нефти и газа по новому маршруту в обход России имела под собой, в первую очередь, политические мотивы. Ввиду более лояльной политики прикаспийских государств по отношению к Западу, нежели стран Персидского залива, Азербайджан, в частности, оказался в центре геополитического противостояния США и России. Азербайджан, поощряемый Турцией и США отклонил предложение России о прокладке единого нефтепровода к российскому порту на Черном море, выторговав при этом вариант с двойным решением, предусматривающий прокладку второго трубопровода – в Турцию через территорию Грузии. От строительства трубопровода через Иран, финансировать которое должна была американская компания,

вынуждены были отказаться, учитывая финансовое эмбарго США на все сделки с Ираном [4].

Сразу после обретения независимости Азербайджан стремился к добыче своих углеводородных ресурсов и их транспортировке к европейским потребителям. Трубопроводы, проходящие по северному маршруту через Российскую сторону были ближе расположены к выходу на мировой рынок. Россия не хотела допустить выбора альтернативных маршрутов в обход своей страны, ввиду потери политического влияния на Южный Кавказ и материальной прибыли. А США стремились минимизировать контроль России над прикаспийскими странами. Выбор маршрута являлся больше политическим вопросом, который, приоритизировал бы государство, доминирующее над всем регионом.

Трубопроводы стали острейшей внешнеполитической проблемой для России и одновременно одним из главных инструментов в борьбе за сохранение доминирующего положения в регионе, прежде всего со стороны США, которые, как отмечали российские эксперты, пытались ускорить процесс политического и экономи-b ческого обособления бывших советских республик от России [7].

Как отмечал З.Бжезинский, «если Европа и США совместно не сделают того, что требуется, чтобы добиться большей диверсификации доступа к энергии, Европа может стать политически уязвимой. Вот почему для Запада важно получить доступ к энергетическим ресурсам Каспийского моря, а также в Центральной Азии» [5].

Проблема транспортировки каспийской нефти имела ряд технических и политических аспектов. Так, существующая в начале 1990-х годов XX века российская система нефтепроводов была не в состоянии транспортировать на европейские рынки тот объем нефти (около 100 млн т), который планировалось добывать на Каспии в XXI веке. Кроме того, в России осталось только два портовых терминала на побережье Черного моря, в районе Новороссийска и Туапсе, общей мощностью около 40 млн т нефти в год [10].

Окончательный выбор будущих маршрутов трубопроводов зависел от следующих факторов: финансирования; безопасности маршрута; конкуренции между нефтеперерабатывающими странами; геополитических интересов стран. При этом каждый из перечисленных факторов на определенном отрезке времени играл ведущую роль. Достаточно сказать о нестабильности на Северном Кавказе для российского маршрута, проблеме средиземноморских проливов для российского и кавказского маршрутов, проблеме курдов для турецкого маршрута. В этой связи выбор и реализация окончательных вариантов представляли собой компромиссный вариант политического «торга» с учетом позиций всех заинтересованных сторон как в экономической, так и в геополитической и военно-стратегической плоскостях [6].

Тариф за транзит нефти по маршруту Баку–Новороссийск был дорогим, но, кроме этого Азербайджану нужно было доплачивать за перевозку нефти в Средиземное море. Отдельным пунктом можно отметить недовольство Азербайджана тем, чтоб наша нефть марки Brent смешивалась с более низкой по качеству нефтью идущей по линии Тенгиз-Новороссийск и теряла свое качество и цену. Пропускная способность Баку-Новороссийска также была низка и не могла удовлетворить растущий дефицит Европы в нефти. В отношении вопроса обеспечения безопасности нефтепровода, который проходил через зону боевых действий, также были большие сомнения. Даже сама Россия не могла гарантировать безопасность трубопровода.

Во время Российско-Чеченской войны транспортировка нефти стала невозможной, ввиду повреждений, разрушений части трубопровода, пролегающего через зону военных действий и российские власти не

могли гарантировать безопасность прокачки до заключения мира.

В те годы проект маршрута Баку-Тбилиси-Джейхан превратился в важнейший элемент политики США на Южном Кавказе. США поддерживали свои компании здесь и тратили миллионы долларов на разработку нефти.

20 сентября 1994 года в Баку было заключено соглашение, которое ввиду его колоссальной значимости получило название «Контракт века». В «Контракте века» приняли участие 13 компаний из 8 стран (Азербайджан, США, Великобритания, Россия, Турция, Норвегия, Япония, Саудовская Аравия). Контракт предусматривал совместную эксплуатацию месторождений «Азери», «Чыраг», «Гюнешли». Соглашение открыло путь к подписанию еще 26 соглашений с 41 нефтяной компанией из 19 стран [13]. Согласно контракту, передовые компании таких государств, как США, Великобритания, Норвегия, Россия, Турция, Франция вкладывали в нефтяную промышленность Азербайджана 10 млрд. долларов США и, тем самым, обязались в течение последующих 30 лет добыть 511 миллион баррелей нефти общей стоимостью 50 млрд. долларов [1].

Контракт века стабилизировал экономическое положение страны и показал всему миру, что в экономике и политической жизни Азербайджана установлена стабильность. Западные страны и их нефтяные компании, которых давно привлекали энергетические ресурсы Азербайджана, получили поддержку в лице Президента Азербайджана Гейдара Алиева. Весь Прикаспийский регион, в том числе Азербайджан и Грузия, превратился в зону жизненно важных интересов США.

Следует отметить договор, подписанный между Россией и Азербайджаном в 1997 году о возобновлении эксплуатации нефтепровода Баку-Новороссийск. Несмотря на то, что Российская сторона в договоре запрашивала, чтобы Азербайджан в течение следующих 15 лет обеспечивал прокачку части нефти по установленным Россией тарифам, в итоге стороны договорились на долгосрочную эксплуатацию нефтепровода объемом до 5 млн тонн. Этот шаг можно было назвать расплатой за независимую политику Азербайджана. Таким образом, первая нефть, полученная Азербайджаном в рамках «Контракта Века» потекла по российскому северному маршруту.

Соединенные Штаты взяли очень жесткую и последовательную линию в отношении альтернативной маршрутизации и предприняли много конструктивных шагов, чтобы реализовать проект.

События августа 2008 года выявили существующие риски для энергетического коридора, который проходит через Южный Кавказ. Этот факт еще раз продемонстрировал важность обеспечения безопасности трубопровода протяженностью более тысячи километров, особенно, если у региональных игроков есть такие конфликтующие стратегические интересы, как на Южном Кавказе. Принимая во внимание, что у каждой из сторон свои интересы, решением этой проблемы может быть многостороннее сотрудничество между странами-производителями и странами-потребителями нефти.

Гонка трубопроводов между США и Россией, а также между региональными игроками выявили проблемы, такие как отсутствие нужной технологии и инфраструктуры у прикаспийских государств, недостаточность средств для реализации и строительства новых маршрутов. Но за годы независимости, прикаспийские государства при финансовой помощи Запада успешно создали и продолжают политику строительства новых экспортных трубопроводных маршрутов в обход России.

С 1990-х годов Россия выступала против решения Азербайджана пригласить западные компании в зону Каспийского шельфа для изучения запасов нефти и газа, а также разработать новые способы их транспортировки на Запад. Россия постоянно

пыталась убедить энергопотребляющие страны, что регион Южного Кавказа нестабилен и не способен обеспечить безопасную транспортировку газа и нефти за пределами региона в течение длительного периода времени.

В результате возникших проблем по прокачке нефти и нежелания полагаться на Россию, в 1996 году президенты Азербайджана, Турции и Грузии подписали соглашение о создании нового экспортного нефтепровода Баку-Супса, по которому доставлялась азербайджанская нефть с месторождения Чираг. Трубопровод, протяженностью в 850 км стал функционировать с 1999 года. Но и часть этого трубопровода после конфликта перешла под управление южноосетинских сепаратистов.

Главной целью политики США на Южном Кавказе было не столько приобретения экономической выгоды, сколько обладание возможностью управлять регионом и как результат, недопущение прохождения новых энергопроводов через территорию России. Это явилось толчком к подписанию межправительственного соглашения на Стамбульском саммите ОБСЕ в 1999. В ходе состоявшегося Саммита глав государств - членов ОБСЕ президент Азербайджанской Республики Гейдар Алиев, президент Грузии Эд Шеварднадзе и президент Турецкой Республики Сулейман Демирель подписали 18 ноября 1999 года Соглашение «О транспортировке сырой нефти по основному экспортному трубопроводу Баку-Тбилиси-Джейхан через территории Азербайджанской Республики, Грузии и Турецкой Республики». Таким образом, Гейдаром Алиевым был предпринят очередной шаг на обеспечение долгосрочных политических, экономических интересов Азербайджана, осуществление широкомасштабного международного сотрудничества, утверждения в регионе мира, стабильности и безопасности. Спонсорская группа проекта Баку-Джейхан подписала соглашение с правительствами Азербайджана, Грузии и Турции. В нее вошли ГНКАР (50% долевого участия) и «БП-АМОКО», американская «Юнокал», норвежская «Статойл», турецкая «ТПАО», японская «Иточу», британская «Рамко», американо-арабская «Дельта/Хесс» [8]. Этот проект очень положительно сказался на экономике Грузии, создал имидж надежного партнера и спас экономику страны от кризиса. Ввиду политической важности вопроса в Стамбул прибыл и президент США. Как указывал З.Бжезинский, «Клинтон заслуживает признания за инициативу, которая в последующем стала препятствием для возрождения российского империализма. Таким препятствием является спонсируемый Соединенными Штатами нефтепровод Баку – Джейхан. Смысл этого нефтепровода в том, чтобы дать Западу прямой доступ к каспийской и среднеазиатской нефти»[12].

В 2006 году этот грандиозный проект пропускной способностью в 50млн тонн был сдан в эксплуатацию. В 2007 году Казахстан также присоединился к нефтепроводу.

Одним из самых перспективных и выгодных рассматриваемых маршрутов был транскаспийский трубопровод, который планировалось протянуть с казахстанского, туркменского месторождений в Азербайджан. Далее нефтепровод присоединялся бы к Баку-Тбилиси-Джейхан. США всячески поддерживали реализацию этого нефтепровода, который позволил бы Европе покончить с нефтяной зависимостью от России. Ввиду нерешенности юридического статуса Каспия и нерешительной позиции Туркменистана, строительство проекта все еще остается идеей.

Для достижения своих целей Россия, например, стала действовать, применяя силу или угрозу силы на Южном Кавказе. В случае Грузии это проявилось в виде аннексии территорий Абхазии и Южной Осетии в 2008 году, которые Россия начала еще в 1990-х годах. Часто случались

случаи, когда Россия ограничивала поставки энергии грузинскому населению, усложняя торговые отношения.

Отказ Армении от региональных инфраструктурных проектов еще раз подтверждает неконструктивную роль России в вопросе Южного Кавказа, функционирующем в качестве транзитного маршрута. Армения не стала частью Южнокавказской транзитной инфраструктуры, укрепляющей связи между Востоком и Западом. Главной причиной этого является усиливание Россией напряженности между двумя государствами вокруг нерешенного Нагорно-Карабахского конфликта. Армения также не имеет дипломатических отношений с Турцией и, следовательно, из-за ее сложных отношений с двумя из ключевых игроков в транзитном коридоре она не может участвовать в процессе транспортировки каспийских энергоресурсов.

Стратегически важная для обоих держав Грузия расположена в регионе, известном своей конфликтностью из-за существующей этнической, политической и военной напряженности после распада Советского Союза. Значение Грузии сложно недооценить из-за ее важности в качестве транзитного маршрута для энергоносителей из региона Каспийского моря. Помимо трубопроводов Восток-Запад, в Грузии также есть транзитные маршруты, идущие с севера на юг. Газопровод Северный Кавказ-Закавказье транспортирует газ из России в Армению через Грузию, еще с советских времен. Грузия получает 10% этого газа себе. Существующая инфраструктура усиливает роль и интерес России к региональным энергетическим проектам на Южном Кавказе. Ныне, большая часть нужд Грузии в газе покрывается поставками из Азербайджана.

Грузия стала важной частью транзитной архитектуры Каспийского моря, через ее территорию проходят два магистральных трубопровода: Баку-Тбилиси-Джейхан (БТД) и Баку-Тбилиси-Эрзурум. Южный маршрут подрывал амбициозные цели России в энергетическом секторе по монополизации углеводородных маршрутов с Востока на Запад. Доходы от нефти и газа составляют почти половину российского бюджета. Вот почему Россия атаковала энергетическую инфраструктуру, которая не соотвествовала ее интересам. Но после украинского газового кризиса в 2006 году и войны 2008 года Запад был вынужден искать пути диверсификации своих энергетических ресурсов и снижения зависимости от российского газа. Грузия извлекает выгоду как тран-зитная страна, но низкие цены на нефть также негативно отразились на экономике страны. К причинам снижения цен на нефть можно отнести увеличение добычи нефти Соединенными Штатами. Отмена санкций против Ирана и возвращение Исламской Республики на международный нефтяной рынок также способствовала снижению потребности в российских энергоресурсах.

Таким образом, начиная с 1990-х годов, маршруты транспортировки нефти из Каспийского бассейна подвергались вызовам со стороны России. Стало очевидным, что Грузия и Азербайджан смогут обеспечить развитие и безопасность их транзитной инфраструктуры посредством поддержки и сотрудничества с Западом.

Не менее, а может и более важное значение, с точки зрения реализации инвестиционных проектов для нашей страны в XXI веке, приобретает «газовый фактор» и необходимость обеспечения экспортных поставок природного газа на международные рынки до конечного потребителя. В этом аспекте, решение собственных задач и проблем не может рассматриваться в отрыве и без учета оценки ресурсов всего Каспийского региона, их роли в обеспечении энергетической безопасности основных потребителей энергоресурсов и, в первую очередь, европейских стран [3].

Вопрос транспортировки, пожалуй, можно назвать одним из самых сложных в решении каспийской проблемы после

определения статуса Каспия. Бесспорно и то, что в качестве потенциального наполнителя энергетических магистралей выступает Азербайджан. В этом процессе роль Азербайджана очень важна как страны, обладающей газовыми запасами Шахдениз-ского месторождения. Следует отметить, что в коридор Баку-Тбилиси-Джейхан, транспортирующий нефть с месторождений Чираг и Гюнешли в Средиземноморский порт Джейхан, входит газопровод Баку-Тбилиси-Эрзурум, который с 2006 года транспортирует газ из Шах-Денизского месторождения в Турцию. Этот газопровод открыл путь для определения дальнейших маршрутов перевозки каспийского газа в Европу. Без Азербайджана реализация упомянутых энергетических проектов невозможна, поскольку самые быстродоступные ресурсы газа расположены в Азербайджане, самая развитая трубопроводная инфраструктура между Каспием и Европой также расположена в Азербайджане.

Созданный консорциум по проекту эксплуатации месторождений Шахдениз принял решение о выборе маршрута по доставке газа в Европу, и Транс-Адриатический трубопровод оказался лучшим вариантом. Возможности беспрепятственной доставки природного газа по намеченному маршруту и укрепление дружественных отношений со странами партнерами предоставили большие возможности развития не только для Азербайджана, но и всего региона Южного Кавказа, в частности, Грузии, через которую проходят нефте-газопроводы. После начала обработки мес-торождения «Шахдениз-2», TANAP фактически стал составной частью Южного газового коридора. В реализации проекта участвуют энергетические компании Турции, Азербайджана и Великобритании – «Боташ», ГНКАР и British Petroleum. 13 марта 2015 года они подписали партнерское соглашение по TANAP. 17 декабря 2013 года в Баку состоялась торжественная церемония подписания итогового инвестиционного решения по «Шахдениз-2», общей стоимостью в 45 миллиардов долларов, который служит расширению Южно-Кавказского трубопровода вдоль территорий Азербайджана и Грузии, придает импульс реализации планов по строительству Транс-Анатолийского и Транс-Адриатического газопроводов, откроет новый газовый коридор в Европу. Газ, который будет транспортироваться на расстояние 3500 километров, обеспечит миллионы потребителей в Грузии, Турции, Греции, Болгарии, Италии и других странах. Первый газ планируется поставить в Европу в 2019 году [9]. Контракт по Шахденизскому месторождению, можно считать одним из самых грандиозных и дорогостоящих энергетических проектов. В 2014 году состоялось торжественная церемония закладки нефтепровода.

На данный момент происходит строительство так называемого Южного Газового коридора. Составной частью этого коридора являются уже реализованный газопровод Баку–Тбилиси–Эрзурум который должен объединиться с новыми проектами: Трансанатолийским газопроводом (TANAP) и Трансадриатическим газопроводом (TAP). Строительство Трансанатолийского газопровода (TANAP) и Трансадриатического (TAP) должно быть завершено к 2019 году. Отправной точкой должно стать месторождение «Шах-Дениз», газ с которого в объеме 16 млрд. м. кв. должен пройти через территорию Грузии, Турции, Албании и далее на юг Италии. Планируется, что поставки газа в Турцию составят 6 млрд. м. кв. и 10 млрд. м. кв. – в европейские страны [11].

Принимая во внимание существующий региональный контекст, транзитный потенциал Южного Кавказа может играть важную роль в привлечении энергетических ресурсов Каспия на мировой рынок. Необходимо будет решать вопросы, имеющие жизненно важное значение для его стабильности и будущего развития, что предполагает серьезные реформы.

Для достижения этих целей государствам, участвующим в различных энергетических проектах следует укреплять свое сотрудничество с другими странами, участвующими в транспортном коридоре, разделять общие европейские нормы и стандарты энергетического рынка, тем самым повышая уровень доверия и сотрудничества между сторонами и защищая их национальные интересы от монопольных устремлений другого могущественного игрока, который остается активным в этой области.

Однако нельзя утверждать, что цель политики США ограничивается доступом к энергоресурсам. Во-первых, каждая из трех стран Кавказа должна рассматриваться индивидуально. Во-вторых, Соединенные Штаты должны продолжать развивать стратегические отношения с теми странами, с которыми она может успешно работать. В-третьих, Соединенные Штаты не могут и не должны игнорировать Россию. Соединенные Штаты никогда не смогут исключить Россию из региона. Но также не может быть места американской политике, согласно которой все трубопроводы проходили бы через Россию. Ни одна страна не должна обладать эффективной монополией на ресурсы Каспия и потенциально ограничивать суверенитет новых государств в регионе. Логичным решением для России является поощрение своих компаний к сотрудничеству с компаниями из других стран для разработки альтернативных маршрутов. Вместо того, чтобы, например, противостоять маршрутам газопровода в Европу, которые не проходят через территорию России, Россия должна поощрять свои компании к участию и извлечению выгод из новых маршрутов. Крайне важно также, чтобы Россия уважала независимость новых государств в регионе, а не использовала энергию как рычаг. Наконец, США должны использовать энергетические ресурсы региона для содействия региональному экономическому сотрудничеству и разрешения региональных конфликтов. Как, например, может осуществляться реальное региональное сотрудничество, если Нагорно-Карабахский конфликт не будет разрешен и если Армения не сможет извлечь выгоду из развития региона? Цели, которые были основой американской энергетической политики в отношении Каспия в 1990-х годах, оказались правильными и сегодня столь же актуальны, как и тогда. Каспийский регион по-прежнему имеет важное значение для интересов Соединенных Штатов, и Соединенные Штаты должны продолжать преследовать эти цели.

Литература:

1. Həsənov Ə. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın geoiqtisadiyyatı: Azərbaycanın enerji siyasəti s.141
2. Алиев И. Каспийская нефть Азербайджана. М., 2003, с. 5/143
3. Алиев Н. Нефть и нефтяной фактор в экономике Азербайджана в XXI веке, Баку 2010 стр. 154
4. Бжезинский З. Великая Шахматная доска, Москва, Международные отношения, 1998. стр 38
5. Бжезинский З. Разговор со Збигневом Бжезинским // Foreign Policy, 25 октября 2007 г.
6. Валесян А. Л. Нефть и геополитика: альтернативные маршруты транспортировки каспийской нефти на мировом рынке // Сборник рефератов международной конференции «Каспийский регион: экономика, экология, минеральные ресурсы». М., 1995. С. 87.
7. Войтоловский Г., Косолапов Н. Особенности геополитической ситуации в Каспийском регионе // Европа и Россия: проблема южного направления. Средиземноморье – Черноморье – Каспий. М., 1999. С. 307–323.
8. Восстановление и сохранение государственной независимости Управление делами Президента Азербайджанской Республики стр. 11 http://files.preslib.az/projects/republic/ru/azr2_1.pdf
9. В Баку состоялась церемония подписания итогового инвестиционного решения по «Шахдениз-2» https://azertag.az/ru/xeber/V_Baku_sostoyalas_ceremoniya_podpisaniya_itogovogo_investicionnogo_resheniya_po_SHahdeniz_2V_ceremonii_prinyal_uchastie_Prezident_Azerbaidzhana_Ilham_Aliev_VIDEO-112197
10. Жильцов С.С. Каспийский регион: основные направления трубопроводов стр. 7 и Российские вести. 1992. 10 сентября.
11. Жильцов С.С. Трубопроводы. стр. 122
12. Зонн И.С., Жильцов С.С. Каспийский регион: география, экономика, политика, сотрудничество. М.: Эдель-М. 2004
13. "Контракт Века" Азербайджан http://president.az/browse.php?sec_id=57

Ключевые слова: *Южный Кавказ, нефть, газ, интересы, приоритеты, трубопроводы*

Lalə Talıbova
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının doktorantı

CƏNUBİ QAFQAZDA BORU KƏMƏRLƏRİ UĞRUNDA BÖYÜK GÜC DÖVLƏTLƏRİNİN MÜBARİZƏSİ

XÜLASƏ

Məqalədə Cənubi Qafqazda ABŞ-Rusiya münasibətlərində mühüm strateji rol oynaması, həmçinin neftin xaricə səmərəli boru kəmərləri ilə ixracı haqqında bəhs olunur. Region ölkələrində baş verən proseslərə ABŞ və Rusiyanın daim artan təsiri və yeni boru kəmərlərinin perspektivləri əks etdirilir. Qeyd olunur ki, qlobal və regional oyunçuların maraqlarının toqquşması Cənubi Qafqaz regionunun siyasi və iqtisadi inkişafına təkan verə, digər tərəfdən isə, bu rəqabət regionun münaqişə potensialının artmasına gətirib çıxara bilər.

Müstəqilliyin ilk illərində neft və qaz hasilatı ölkənin problemlərinin həllində mühüm yer tuturdu. Belə vəziyyətdə, məhdud maliyyə vəsaitlərinin mövcud olduğu zaman Azərbaycana xarici investorların cəlb edilməsi strateji baxımdan vacib rol oynayırdı.

Azərbaycanın neft strategiyası regionda yeni iqtisadi modelin formalaşdırılmasına gətirib çıxardı. Bununla belə, alternativ neft marşrutları ölkənin hər hansı bir dövlətdən asılılığına son qoymasına və ölkənin milli maraqlarına cavab verirdi.

Açar sözlər: *Cənubi Qafqaz, neft, qaz, maraqlar, prioritetlər, boru kəmərləri*

Lala Talibova
PhD student, the Academy of Public Administration
under the President of the Republic of Azerbaijan

STRUGGLE OF GLOBAL POWERS FOR PIPELINES IN THE SOUTH CAUCASUS

SUMMARY

The article deals with the role of the South Caucasus as an important strategic role in US-Russia relations, as well as the export of oil through efficient pipelines. Increasing influence of the United States and Russia over the processes in the region and prospects for new pipelines are also reflected in the article. It should be noted that the conflict between the interests of global and regional players can give impetus to the political and economic development of the South Caucasus region, on the other hand this competition can lead to the escalation of potential conflict in the region.

In the early years of independence, oil and gas production played an important role for solving the problems of the country. In this situation, during limited financial resources the attraction of foreign investors to Azerbaijan played a strategic role.

Azerbaijan's oil strategy has led to the formation of new economic model in the region. Nevertheless, alternative oil routes meet the national interests of the country which also ceased the country's dependence on any state

Key words: *South Caucasus, Oil, Gas, Interests, Priorities, Pipelines*

GƏNC TƏDQİQATÇILAR
YOUNG RESEARCHERS

BEYNƏLXALQ MÜNASİBƏTLƏR
INTERNATIONAL RELATIONS

NİSƏ PAŞAYEVA
Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin aparıcı məsləhətçisi, Bakı Slavyan Universitetinin doktorantı

GƏNCLƏR SİYASƏTİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ İŞTİRAK EDƏN DÖVLƏT VƏ QEYRİ-DÖVLƏT QURUMLARININ YERİ VƏ ROLU

Dövlət müstəqilliyimizin ilk dövrləri ölkədəki qeyri-stabil siyasi vəziyyət, iqtisadi, sosial və digər sahələrdə hökm sürən böhran, Dağlıq Qarabağ ərazisində gedən Ermənistan-Azərbaycan müharibəsi və başqa destruktiv faktorlar ilə müşayiət olunurdu. Lakin Azərbaycan xalqının təkidi ilə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ictimai-siyasi sabitliyin bərpasını, demokratik inkişaf üçün quruculuq işlərinin aparılmasını, siyasi və iqtisadi islahatların həyata keçirilməsini mümkün etdi. Təbii ki, bütün bu proseslər başqa sahələrdə olduğu kimi, gənclər ilə bağlı iş sahəsində də ciddi dəyişikliklərə və dövlətin gənclər siyasətinin həyata keçirilməsi istiqamətində əhəmiyyətli və mühüm işlərin görülməsinə təsir etdi.

Ölkə rəhbəri tərəfindən cəmiyyətin inkişafında gənclərin fəal sosial təbəqə kimi qiymətləndirilməsi onların hərtərəfli inkişafını, ölkənin ictimai-siyasi həyatında fəal iştirakının təmin edilməsini, sosial-iqtisadi problemlərinin həllini və hüquqlarının müdafiəsini dövlətin diqqət mərkəzinə çevirdi. Gənc nəslə olan xüsusi qayğı və diqqət gənclərin ölkə daxilində fəal iştirakçılığı ilə bərabər, onların beynəlxalq tədbirlərdə (konfrans, forum, bilik yarışları və yaradıcılıq festivallarında) iştirakına və Azərbaycanı layiqincə təmsil etmələrinə şərait yaratdı.

Təhlil nəticəsində gənclər siyasətinin ilkin inkişaf dövrü qısaca və şərti olaraq aşağıdakı mərhələlər üzrə qruplaşdırıla bilər:

- 1993-cü ildən etibarən dövlət səviyyəsində gənclər siyasətinin sistemli şəkildə idarə edilməsi dövlətin prioritet istiqamətlərindən birinə çevrildi. Bu inkişaf yolu özündə dövlətin bütün strukturlarının gənclərlə bağlı fəaliyyətlərini əhatə edən prosesi nəzərdə tuturdu;
- 1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılması gənclərlə iş sahəsində ən önəmli hadisələrdən birinə çevrildi. Belə ki, gənclər siyasətini həyata keçirən əsas mərkəzi icra orqanı rolu Nazirliyə həvalə edildi;
- Dövlət gənclər siyasətinin tarixində yeni bir inkişaf mərhələsinin başlanğıcı, 1996-cı ildə Respublika gənclərinin 1-ci Forumunun keçirilməsi oldu. Forum gənclərə öz fikirlərini bildirməsi və təkliflərini irəli sürməsi üçün bir platforma rolunu oynadı. Ulu öndər Heydər Əliyevin Forumdakı çıxışı bütün dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının uzunmüddətli fəaliyyət proqramının əsasına çevrildi. İlk Forumun keçirildiyi gün - 2 fevral, tarixə "Gənclər günü" kimi daxil oldu;
- Növbəti addım gənclər sahəsində beynəlxalq əlaqələrin qurulması, inkişaf etdirilməsi və genişləndirilməsi istiqamətində görülən işlər oldu. Qeyd edək ki, bu sahədə ilk təşəbbüslərdən biri 1998-ci ildə BMT Könülülləri

Proqramı, BMT İnkişaf Proqramı və Azərbaycan hökuməti tərəfindən həyata keçirilən 2 illik layihə olmuşdur. Bu fəaliyyətdə iştirak etmək üçün seçilmiş 200 gənc uşaqlara, yaşlılara, əlil və digər həssas qruplara, həmçinin ekoloji və ətraf mühit məsələləri ilə bağlı məqsədlərə xidmət göstərən 30-dan çox mini-layihənin həyata keçirilməsinə töhvəsini vermişdir;

- Forumdan sonrakı mərhələ həmçinin, gənclərlə bağlı normativ-hüquqi bazanın təkmilləşdirilməsi ilə əlamətdər oldu.

Normativ-hüquqi sənədlər dövlət gənclər siyasətinin həyata keçirilməsində vacib amillərdən biridir. Çünki hüquqi səviyyədə təsbit olunmuş qaydalar və vəzifələr gənclər ilə bağlı dövlətin müvafiq qurumlarının (nazirlik, idarə və onların müvafiq strukturlarının) səlahiyyətini müəyyən etməklə gənclərin problemlərinin həllində onların iştirakını vacib və məsul edir. Belə ki, 1999-cu ildə Prezident Heydər Əliyevin imzladığı "Dövlət gənclər siyasəti haqqında" fərman, 2002-ci ildə "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının qanunu və bu qanunun tətbiqi barədə fərman gənclər siyasətinin istiqamətlərini və gənclərin problemlərinin həlli üzrə konkret vəzifələri müəyyən edərək müvafiq dövlət orqanlarının səlahiyyət çərçivələrini təsdiq etmişdir. Bununla da təhsil, əmək, məşğulluq, sağlamlıq, istirahət, asudə vaxt, ailə və digər məsələlər ilə bağlı gənclərin problemlərinin həll edilməsi aidiyyəti üzrə mərkəzi icra hakimiyyəti orqanları olan (Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Səhiyyə Nazirliyi, Əmək və Əhalinin sosial Müdafiəsi Nazirliyi, Daxili İşlər Nazirliyi, Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti və müvafiq yerli rayon (şəhər) icra hakimiyyəti orqanları və s.) dövlət qurumlarının üzərinə qoyulmuşdur [6, s. 4-7].

Qeyd etmək lazımdır ki, dövlətin müvafiq mərkəzi icra orqanları ilə yanaşı gənclər siyasətinin həyata keçirilməsində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu, Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Gənclər Siyasəti və İdman məsələləri Şöbəsi, Azərbaycan Respublikasının Milli Məclisinin Gənclər və İdman Komitəsi də müvafiq işlərin icrasında və nəzarətin həyata keçirilməsində öz səlahiyyətləri çərçivəsində iştirak edirlər.

Həmçinin, gənclərlə iş sahəsində cəmiyyətdə mühüm rol oynayan və dövlətin qüvvədə olan qanunları əsasında fəaliyyət göstərən gənclərin yaratdıqları qeyri-hökumət təşkilatları və birlikləri gənclər siyasətinin həyata keçirilməsində özünəməxsus rola malikdirlər. Belə ki, bu qurumlara münasibətdə dövlətin əsas məqsədi cəmiyyətin və ölkənin inkişafı istiqamətində aparılan işlərdə gənclərin fəal iştirakçılığını təmin etmək üçün gənclərin yaratdıqları ictimai birliklərin fəaliyyətinə kömək etmək, həyata keçirdikləri layihə və tədbirlərə dəstək göstərməkdir.

Azərbaycan gənclərinin inkişafı naminə həyata keçirilən sistemli və davamlı işlər Respublikamızın hər yerində və bütün səviyyələrdə (yerli, regional və beynəlxalq miqyasda) hökumət və qeyri-hökumət subyektləri vasitəsilə gənclərlə işin aktuallaşmasına səbəb olmuşdur. Artıq bu gün dövlətimiz tərəfindən həyata keçirilən humanitar, sosial, iqtisadi və digər siyasət sahələri ilə bir sırada gənclər siyasəti də dövlətin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Çünki, məhz gənclər müəyyən zamandan sonra dövlətin daxili inkişafını və xarici siyasət vektorunu müəyyən edəcək gələcək elitanın əsas hissəsinə çevriləcək potensialdır. Bu səbəbdən dövlətimiz tərəfindən gənclərə olan diqqət günbəgün artmaqdadır.

Dünya təcrübəsinə nəzər salsaq müşahidə edə bilərik ki, inkişaf etmiş dövlətlərin inkişaf strategiyasında gənclərə (gənc mütəxəssislərə - jurnalist, həkim, iqtisadçı, alim, diplomatlara və s.) olduqca geniş imkanlar yaradılır. Gənclərin formal və qeyri-formal təhsilinə, vətənpərvər ruhda tərbiyə almasına, dünyaya çıxışına, bütün sahələrdə fəal iştirakçılığına şərait yaradan qanunlar, dövlət proqramları və tədbirlər planları hazırlanır. Qürurverici haldır ki, Azərbaycan da məhz bu ölkələr sırasındadır və Azərbaycanın da özünəməxsus uğurlu

gənclər siyasəti dünyada qabaqcıl təcrübə nümunəsi kimi çıxış edə bilər.

Dövlət gənclər siyasətinin müxtəlif dövrləri əhatə edən inkişaf mərhələlərində Azərbaycan gəncləri forumlarının keçirilməsi, gənclər gününün təsis edilməsi, gənclərlə bağlı normativ–hüquqi bazanın təkmilləşdirilməsi, dövlət gənclər proqramlarının hazırlanması, gənclərin inkişafına yönəlmiş infrastrukturun (gənclər evləri və mərkəzlərinin tikilməsi) qurulması və gənclər işinə məsul olan müvafiq dövlət qurumlarının və qeyri-hökumət təşkilatlarının yaradılması gənclər ilə iş sahəsində görülən önəmli işlərdir.

Birmənalı olaraq demək olar ki, ölkə əhalisinin 2,6 milyonunu, yəni 26,3 faizini təşkil edən gənclərə göstərilən qayğı və diqqət Azərbaycan Respublikasının dövlət siyasətinin ən vacib məsələlərindən biridir [1, s. 3].

Gənclər siyasətinin həyata keçirilməsində iştirak edən dövlət və qeyri-dövlət qurumlarının müvafiq əsasnamə və nizamnamə sənədlərini, fəaliyyət proqramlarını, xarici ölkələr ilə gənclər sahəsində imzalanmış ikitərəfli sazişləri təhlil edərək gənclər siyasətinin həyata keçirilməsində həmin qurumların rolu və fəaliyyət istiqamətləri üzrə qruplaşdırma aparılmışdır:

İlkin olaraq bu sahədə əsas rol oynayan Gənclər və İdman Nazirliyinin fəaliyyətini nəzərdən keçirək. Nazirlik ölkədə gənclər və idman sahələrində dövlət siyasətini və bu siyasətlərin tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi yaradılmışdır.

Gənclər siyasətinin həyata keçirilməsində aparıcı rola malik bu dövlət qurumu öz fəaliyyətini aşağıdakı istiqamətlərə uyğun olaraq həyata keçirir:

Normativ-hüquqi sənədlər, dövlət proqramları, tədbirlər planı və digər sənədlər ilə bağlı nazirlik gənclər sahəsinə aid olan qanunvericilik aktlarının, normativ sənədlərin layihəsini hazırlayır və ya onların birgə hazırlanmasında iştirak edir, qanunvericiliklə müəyyən edilmiş hallarda normativ tənzimləməni həyata keçirir, dövlət gənclər siyasətinin əsas istiqamətlərinə dair təkliflər verir, gənclərlə bağlı dövlət proqramlarının və inkişaf konsepsiyalarının həyata keçirilməsini təmin edir, gənclərin dövlət quruculuğu prosesində və ölkənin ictimai-siyasi həyatında iştirakına, onların yaradıcılıq potensialının üzə çıxarılmasına dair aidiyyəti icra hakimiyyəti orqanları ilə birgə müvafiq proqramlar hazırlayır və həyata keçirir, yerlərdə gənclər sahəsinin inkişafı ilə bağlı aidiyyəti icra hakimiyyəti orqanları tərəfindən perspektiv planların işlənib hazırlanmasında iştirak edir, fəaliyyət istiqamətlərinə uyğun rəy və təkliflər verir, təhlillər və ümumiləşdirmələr aparır, analitik materiallar hazırlayır, tədqiqatlar aparır.

Gənclər sahəsində fəaliyyətin əlaqələndirilməsi, birgə iş və tədbirlərdə iştirak ilə bağlı nazirlik icra hakimiyyəti orqanlarının və qeyri-hökumət təşkilatlarının gənclər ilə əlaqəli müvafiq fəaliyyətini əlaqələndirir, gənclərin hüquqlarının qorunması və sosial müdafiəsi sahəsində aidiyyəti icra hakimiyyəti orqanları və qeyri-hökumət təşkilatları ilə birgə iş aparır, aidiyyəti icra hakimiyyəti orqanları və qeyri-hökumət təşkilatları tərəfindən keçirilən tədbirlərdə iştirak edir, müasir idarəetmənin, bazar iqtisadiyyatının əsaslarının və digər sahələrin gənclər tərəfindən öyrənilməsini, istehsalın səmərəli təşkilini, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün müvafiq icra hakimiyyəti orqanları ilə birlikdə metodik məsləhətlərin verilməsi işini təşkil edir.

Nazirlik beynəlxalq əməkdaşlıq və təcrübə ilə bağlı gənclər sahəsi üzrə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə təşəbbüs ilə çıxış edir, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini öz səlahiyyətləri (gənclər sahəsi ilə bağlı) daxilində təmin edir, qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq edir, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənir, müvafiq sahə üzrə beynəlxalq miqyaslı tədbirlərin keçirilməsinə dair təkliflər verir, həmçinin,

qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, gənclər sahəsində elmi-texniki nailiyyətlərin həyata keçirilməsini, elmi-tədqiqat işlərinin aparılmasını və nəticələrin təcrübədə tətbiq edilməsini təmin edir.

Gənclər işi ilə bağlı məlumatlılıq səviyyəsinin artırılması məqsədilə nazirlik öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını təmin edir, gənclər sahəsini işıqlandıran televiziya və radio verilişlərinin layihələrini hazırlayır, öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daimi yeniləşdirilməsini təmin edir, gənclər sahəsi üzrə vahid informasiya sistemini yaradır, müvafiq sahə üzrə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu verir və onlardan belə məlumatları (sənədləri) alır.

Gənclərin təhsil, əmək, sosial, iqtisadi məsələləri və sağlam həyat tərzi ilə bağlı gənclərin təhsil və sosial problemlərinin həllinə öz səlahiyyətləri çərçivəsində yardım edir, gənclər üçün yaradıcı mühitin formalaşdırılması məqsədilə sərgilər, festivallar, müsabiqələr və s. təşkil edir, gənclərin işlə təmin olunmasına şərait yaradır, gənc ailələrin sosial, məişət problemlərinin aradan qaldırılmasına dair aidiyyəti icra hakimiyyəti orqanları qarşısında məsələ qaldırır, gəncləri narkomaniya, cinayətkarlıq və digər zərərli vərdişlərdən uzaqlaşdıraraq sağlam həyat tərzinə uyğun yetişdirmək üçün öz səlahiyyətləri daxilində profilaktik zəruri tədbirlər görür, gənclərin əməyə, vətəni müdafiəyə hazırlanması, onların sağlamlığının möhkəmləndirilməsi, asudə vaxtlarının səmərəli təşkil edilməsi sahəsində bədən tərbiyəsinin və idmanın rolunun artırılmasına dair tədbirlər görür, ölkədə uşaq-gənclər idman və ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər idman məktəbləri şəbəkəsini yaradır və fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirir.

Nazirliyin ölkə üzrə regional səviyyədə fəaliyyətinin həyata keçirilməsi səlahiyyəti rayon və şəhər gənclər və idman idarələri orqanlarına məxsusdur.

Yerlərdə gənclərin müxtəlif maraq və ehtiyaclarının ödənilməsi üçün gündəlik işin təşkili, nazirlik tərəfindən tərtib edilən iş planlarının icrası Gənclər və İdman idarələrinin başlıca vəzifəsidir. Qeyd etmək lazımdır ki, "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət proqramının icrası ilə əlaqədar yekunlara əsasən şəhər və rayon gənclər və idman idarələri tərəfindən 12 mindən artıq tədbir və layihə həyata keçirilmişdir [6, s. 189-203, 2].

Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönəlmiş fəaliyyətlərin stimullaşdırılmasını təmin etmək məqsədilə yaradılan qurum kimi fəaliyyət göstərir.

Qurum fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, qanunları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və öz Nizamnaməsini rəhbər tutaraq fəaliyyətini dövlət və yerli özünüidarəetmə orqanları, kütləvi informasiya vasitələri, qeyri-hökumət təşkilatları və beynəlxalq qurumlar ilə əlaqəli şəkildə həyata keçirir.

Fond gənclərin, gənclər təşkilatlarının və yerlərdə gənclər siyasətini həyata keçirən dövlət və yerli özünüidarəetmə qurumlarının elmi-tətbiqi, sosial əhəmiyyətli və idarəetmə sahəsindəki innovativ ideyalarını dəstəkləyir, dövlətin və cəmiyyətin inkişafında gənc nəslin təşəbbüskarlığını və iştirakını artırır, ideyaların yaradılması və idarə edilməsində gənclərin bacarığını stimullaşdırır. Bu məqsədlərə nail olmaq üçün Fond gənclər siyasəti sahəsində dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən layihə və proqramların həyata keçirilməsini təşkil edir. Beynəlxalq əməkdaşlığın genişləndirilməsi vasitəsi ilə ölkənin beynəlxalq səviyyədə mövqeyinin möhkəmləndirilməsində iştirak etmək üçün beynəlxalq səviyyədə

həyata keçirilən layihə və proqramları qrant şəklində maliyyələşdirir, gənc xarici vətəndaşların Azərbaycan tarixinə və mədəniyyətinə dair tədqiqat işlərini dəstəkləyir, həmin sahədə konfrans, seminar, festival, olimpiada və digər tədbirlərin təşkili üzrə layihələri dəstəkləyir [3].

2014-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin tərkibində gənclər təşkilatları ilə iş sektoru yaradılmış, 2017-ci ildə isə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Administrasiyanın strukturunda edilən dəyişikliklərə əsasən Administrasiyanın tərkibində ayrıca olaraq Gənclər siyasəti və İdman məsələləri Şöbəsi yaradılmışdır. Şöbə gənclər və idman sahələrinin inkişaf etdirilməsi, həmçinin onlarla iş aparan dövlət orqanlarının və digər müvafiq qurumların fəaliyyətinin əlaqələndirilməsi funksiyasını həyata keçirir. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının strukturunda Gənclər siyasəti və idman məsələləri şöbəsinin yaradılması cənab Prezidentin müəyyən etdiyi islahatlar kursunu uğurla reallaşdırmaq və qarşıya qoyulan vəzifələri daha effektiv şəkildə icra etmək məqsədi daşıyır [4].

Azərbaycan Respublikasının Milli Məclisinin Gənclər və İdman Komitəsi gənclər və idman sahəsində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair qanun və qərar layihələri üzrə aparıcı komitədir. Gənclər və idman komitəsi gənclərin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsi, Azərbaycan gənclərinin beynəlxalq tədbirlərdə iştirakına, dünya gəncləri ilə, o cümlədən xarici ölkələrdə yaşayan gənc həmvətənlərlə qarşılıqlı əlaqələrinin inkişafına imkan və şəraitin yaradılması, təhsil, sosial və məişət problemləri, gənclərin asudə vaxtının təşkili gənclər evləri və mərkəzləri, gənclər və idman təşkilatları, idmanın təşviqi və təbliği ilə bağlı qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir. Milli Məclisdə Gənclər və İdman Komitəsinin yaradılması gənclərin və idmanın yeni inkişaf imkanlarının və perspektivlərinin axtarılmasına, tətbiqinə və bu sahədə milli qanunvericiliyin təkmilləşdirilməsinə töhfə vermək məqsədi daşıyır [5].

Gənclər siyasətinin həyata keçirilməsində iştirak edən əsas subyektlərdən biri də gənclərin yaratdıqları qeyri-hökumət təşkilatlarıdır. Gənclərin qeyri-kökumət təşkilatları vətəndaş cəmiyyətinin inkişafında gənclərin fəal iştirakçılığına imkan və şəraitin yaradılmasını təmin edən, gənclərin problemlərinin həlli, hüquqlarının müdafiəsi, mənəvi tələbatlarının ödənilməsi və s. məqsədi ilə qanunvericilikdə müəyyən olunmuş qaydada yaradılan qeyri-dövlət qurumlarıdır. Azərbaycanda gənclər təşkilatlarının fəaliyyəti demək olar ki, bütün sahələri əhatə edir. Geniş spektorlu fəaliyyət ilə məşğul olan təşkilatlar təhsilin keyfiyyətinin artırılması, beynəlxalq təcrübəyə əsaslanan ən yaxşı qeyri-formal təhsil metodlarının tətbiqi sahəsindən başlayaraq, işsizlik problemi, gənc mütəxəssislərin rəqabət qabiliyyətinin artırılması, həssas qruplara dəstək, könüllülüyün təşviqi, ekoloji problemlərin həlli, əhalinin müxtəlif qrupları arasında sosial sorğulara qədər təşkil edir və gənc nəslə müsbət təsir göstərən ictimai fəaliyyətlər həyata keçirir. Gənclər təşkilatları dünyanın və Avropanın beynəlxalq gənclər təşkilatlarında təmsil olunur, beynəlxalq təşkilatların gənclər proqramlarında (məsələn; Erasmus + çərçivəsində həyata keçirilən mübadilə proqramlarında Avropa Könüllülük Xidməti, müxtəlif layihələrdə, təlimlərdə və s.) iştirak edir və Azərbaycanla bağlı reallıqları yüksək səviyyəli tribunalar vasitəsilə dünya ictimaiyyətinin diqqətinə çatdırırlar. Həmçinin, gənclərin qeyri-hökumət təşkilatlarının fəalları beynəlxalq gənclər platformalarının yaradılması istiqamətində yeni təşəbbüslər ilə çıxış edirlər [7, s. 410, 8].

Azərbaycanda müasir qeyri-hökumət təşkilatı (QHT) sektorunun yaradılması 1980-cı illərin sonlarına təsadüf etsə də, əslində müasir tələblərə cavab verən və fəaliyyət göstərən QHT-lər yalnız Azərbaycanın müstəqillik qazanmasından sonra, əsasən 1995-ci ildə Konstitusiyanın qəbulundan sonra yaradılmışdır [9].

Hazırda dövlət tərəfindən göstərilən xüsusi diqqət sayəsində gənclərin qeyri-hökumət təşkilatlarının təşəbbüs, ideya və layihələrinin dəstəklənməsi vasitəsilə gənclərin peşəkar idarəetmə, liderlik bacarıqları və biliklərinin artırılması, onların fəal vətəndaş kimi cəmiyyətin həyatında iştiraka cəlb edilməsi və sosial problemlərinin həllinə yönəlmiş təşəbbüslərinin dəstəklənməsi üçün yaradılan imkanlar getdikcə artır.

Aparılmış araşdırmalardan nəticəyə gəlinir ki, gəncliyin bugünkü inkişafı dövlətin (daxili siyasətinin, beynəlxalq əlaqələrinin) və cəmiyyətin gələcəyinin inkişafına, ziyalı və kadr potensialının formalaşmasına hədəfləndiyi üçün gənclərlə bağlı siyasətin həyata keçirilməsi və gənclərin inkişafı naminə davamlı işlərin görülməsi Azərbaycan hökuməti tərəfindən mühüm vəzifə kimi qarşıya qoyulmuşdur. Bundan irəli gələrək dövlət tərəfindən gənclər siyasətinin istiqamətləri və gənclərin problemlərinin həlli üzrə konkret vəzifələr müəyyən edilərək müvafiq dövlət qurumlarının səlahiyyət çərçivələrinə daxil edilmişdir. Bir çox ölkələrdə gənclər ilə iş sahəsində fəaliyyət göstərən konkret dövlət qurumları olmadığı halda, Azərbaycanda bu sahə daha çox irəli gedərək sistemli şəkildə inkişaf etmiş, müvafiq dövlət qurumları və strukturları təsis olunmuşdur. Gənclər ilə bağlı müxtəlif fəaliyyətlər həyata keçirən "Gənclər evi" sosial xidmət müəssisələri və vətəndaş cəmiyyətinin əsas aktorları olan gənclərin qeyri-hökumət təşkilatları yaradılmışdır.

Bundan sonra da dövlətin və qeyri-hökumət qurumlarının strateji fəaliyyət planlarında gənclərin inkişafı aktual və prioritet məsələlər sırasında olmalıdır. Çünki müasir qlobal çağırışlara cavab verən düşüncəli və fəal gənclərin inkişafını təmin etmədən parlaq gələcəyi qurmaq mümkün deyildir. Bundan irəli gələrək, dövlətin iqtisadi qüdrətinin, siyasi gücünün daha da artması üçün gəncliyin rəqabətə davamlı inkişaf və təhsil alətlərinin müasir tələblərə uyğunlaşdırılması və təkmilləşməsi daim ən vacib amil kimi gələcəkdə də prioritet kimi saxlanılmalıdır.

Ədəbiyyat:

1. "Azərbaycan gəncləri 2017" / Statistik məcmuə, Bakı: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi nəşri, 2017, 176 s.
2. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi / http://www.mys.gov.az/nazirlik
3. Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun nizamnaməsi / https://youthfoundation.az/regulation
4. Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının strukturu / http://www.president.az/administration/structure
5. Azərbaycan Respublikasının Milli Məclisinin Gənclər və İdman Komitəsi haqqında ümumi məlumat / http://www.meclis.gov.az/?/az/content/322
6. Gənclər siyasəti ilə bağlı normativ hüquqi sənədlər toplusu. Bakı: Hüquq ədəbiyyatı, 2009, 373 s.
7. "Gənclər Siyasəti" Haqqında Azərbaycan Respublikasının Qanunu, "Gələcək gənclərindir", Bakı: "Azərbaycan" nəşriyyatı, 2004, 461 s.
8. Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında Azərbaycan Respublikasının Qanunu / http://e-qanun.az/framework/511
9. Lətifov A.M. Qeyri-hökumət təşkilatları vətəndaş cəmiyyəti institutları kimi. 525-ci qəzet, Bakı, 2014, 4 mart. S.6.

Açar sözlər: *Azərbaycan Respublikası, gənclər siyasəti, dövlət qurumları, gənclərin qeyri-hökumət təşkilatları, beynəlxalq aspektlər*

Nisa Pashayeva
Leading Adviser of the Ministry of Youth and Sport of the Republic of Azerbaijan, PhD student, Baku Slavic University

THE ROLE OF GOVERNMENTAL AND NON-GOVERNMENTAL ORGANIZATIONS IN THE IMPLEMENTATION OF YOUTH POLICY

SUMMARY

This article examines the stages of development of youth policy in the Republic of Azerbaijan with the aim of solving socio-economic problems of youth, creation of conditions for their comprehensive development and to support active participation of youth in the development of civil society, providing the necessary opportunities for them to participate in international events and study abroad, completion of a number of works in the field of youth work, as well as role of governmental and non-governmental organizations (including relevant state agencies) that implement the very policy.

The author analyzes the reasons for foundation, the scope of competence and directions of activity of government agencies and relevant organizations which are responsible for the sphere of work with youth: the Ministry of Youth and Sport of the Republic of Azerbaijan, the Youth Foundation under the President of the Republic of Azerbaijan, the Department of Youth Policy and Sport Issues of the Administration of the President of the Republic of Azerbaijan, Committee on Youth and Sports of the National Assembly of the Republic of Azerbaijan, as well as non-governmental youth organizations acting on the basis of existing laws of the state and play a special role in the field of youth work.

The author also studies the international experience of government and non-governmental organizations of Azerbaijan in ensuring of youth participation in strengthening the international status of the country through expanding international relations and cooperation, as well as the participation of young people in developing relationships with young compatriots living abroad.

Key words: *Republic of Azerbaijan, Youth Policy, Public Institutions, Non-governmental Youth Organizations, International Aspects*

Ниса Пашаева
Ведущий консультант Министерства Молодежи и Спорта Азербайджанской Республики,
Докторант Бакинского Славянского Университета

МЕСТО И РОЛЬ ГОСУДАРСТВЕННЫХ И НЕГОСУДАРСТВЕННЫХ СТРУКТУР В ОСУЩЕСТВЛЕНИИ МОЛОДЕЖНОЙ ПОЛИТИКИ

РЕЗЮМЕ

В статье рассматриваются этапы развития молодежной политики, осуществляемой в Азербайджанской Республике с целью решения социально-экономических проблем молодежи, создания условий для их всестороннего развития, поддержки активного участия молодежи в развитии гражданского общества, обеспечения необходимых возможностей для их участия на международных мероприятиях и обучения за рубежом, выполнения ряда работ в сфере работы с молодежью, а также место и роль государственных и негосударственных структур (в том числе соответствующих государственных), реализующих данную политику.

Автор анализирует причины создания, сферу компетенций и направления деятельности государственных органов и соответствующих структур, ответственных за сферу работы с молодежью – Министерства Молодежи и Спорта Азербайджанской Республики, Фонда Молодежи при Президенте Азербайджанской Республики, Отдела по Вопросам Молодежной Политики и Спорта Администрации Президента Азербайджанской Республики, Комитета Молодежи и Спорта Милли Меджлиса Азербайджанской Республики, а также неправительственных молодежных организаций, действующих на основе существующего законодательства государства и играющих особую роль в области молодежной работы с молодежью. Также освещается международный опыт государственных и неправительственных организаций Азербайджана в обеспечении участия молодежи в укреплении позиций на международном уровне путем расширения международных связей и сотрудничества, в том числе участия молодежи в развитии взаимоотношений с молодыми соотечественниками, проживающими за рубежом, рассматриваются направления деятельности этих структур в данной сфере.

Ключевые слова: *Азербайджанская Республика, молодежная политика, государственные учреждения, негосударственные молодежные организации, международные аспекты*

DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASINDA

DİA-da seminar: "Heydər Əliyev və Azərbaycan Respublikasının müasir gömrük siyasəti"

Aprelin 5-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) nəzdində fəaliyyət göstərən "Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbi"ndə "Heydər Əliyev və Azərbaycan Respublikasının müasir gömrük siyasəti" mövzusunda seminar-məşğələ keçirilib.

Tədbirdə DİA-nın rektoru, akademik Urxan Ələkbərov Heydər Əliyev siyasətinin uğurlu nəticələrindən danışıb, Ulu Öndərin ideyalarının Prezident İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirildiyini bildirib.

Rektor Azərbaycanın iqtisadiyyatının sürətlə inkişaf etdiyini konkret faktlarla diqqətə çatdırıb. Qeyd olunub ki, dahi rəhbər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident İlham Əliyevin uğurla inkişaf etdirdiyi innovativ idarəetmə texnologiyalarının nəzəri əsaslarının işlənilməsi, onların təcrübədə tətbiqi nəticəsində bir sıra iqtisadi və sosial göstəricilərinə görə müasir Azərbaycan Res-publikası hazırda yüzillik tarixi olan və dünya liderləri sayılan ölkələrlə rəqabət aparmaq durumundadır. Dövlətimizin başçısının tətbiq etdiyi və dünya miqyasında ilk dəfə işlənilmiş sinergetik, kompensator idarəçilik texnologiyaları sayəsində 2018-ci ilin yanvarında keçirilən Davos forumunun hesabatında Azərbaycanın inklüziv inkişaf indeksi Latviya, Polşa, Rumıniya, Bolqarıstan, Xorvatiya, İtaliya, İspaniya, Portuqaliya, Yunanıstan kimi Avropa İttifaqına üzv olan dövlətlərin göstəricilərindən yüksəkdir.

Akademik U.Ələkbərov ölkənin beynəlxalq iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsində müstəsna əhəmiyyətə malik gömrük sisteminin Azərbaycanın müasir tərəqqisində mühüm rolunu vurğulayıb.

Dövlət Gömrük Komitəsinin (DGK) sədri, Beynəlxalq Gömrük Universitetləri Şəbəkəsinin (İNCU) fəxri üzvü, gömrük xidməti general-polkovniki Aydın Əliyev Azərbaycan Respublikasının gömrük sisteminin ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən siyasətə uyğun formalaşdığını, Prezident İlham Əliyevin dəstəyi və qayğısı sayəsində inkişaf edərək dövlət müstəqilliyinin əsas atributlarından biri olan çoxfunksiyalı kompleksə çevrildiyini bildirib.

Ölkəmizdə gömrük xidmətinin inkişaf mərhələləri, gömrük siyasəti, gömrük orqanlarının fəaliyyət mexanizmi barədə məlumat verən A.Əliyev diqqətə çatdırıb ki, həyata keçirilən islahatlar nəticəsində Azərbaycan gömrüyü keyfiyyətcə yeni inkişaf mərhələsinə daxil olub və dövlət büdcəsinin formalaşmasında DGK-nın rolu artıb.

Komitə sədri ölkədə gömrük sisteminin təkmilləşdirilməsi istiqamətində dövlət başçısının rəhbərliyi altında reallaşdırılan tədbirlərin əhəmiyyətindən bəhs edib. A.Əliyev vurğulayıb ki, Azərbaycanda gömrük sistemi uğurla fəaliyyət göstərir və bu gün Heydər Əliyev siyasi xəttini əzmlə davam etdirən Prezident İlham Əliyev Azərbaycan gömrüyünün daha da təkmilləşdirilməsinə xüsusi önəm verir.

Sonda tələbələrin sualları cavablandırılıb.

"Erməniçilik müasir dövrün böyük problemi kimi" kitabının təqdimatı

Aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında professor Aygün Əttarın "Erməniçilik müasir dövrün böyük problemi kimi" kitabının təqdimatı olub.

Tədbirdə Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov kitabın Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması baxımından əhəmiyyətini vurğulayıb. O, A.Əttarın Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında rolunu yüksək dəyərləndirib, onun fəaliyyətinin müxtəlif ölkələrdə yaşayan soydaşlarımıza örnək olduğunu deyib.



Kitab haqqında ətraflı məlumat verən Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru Elçin Əhmədov bildirib ki, Türkiyədə yenicə çapdan çıxmış nəşrin "Giriş" bölməsində müəllif erməni məsələsinin tarixinə geniş nəzər salıb. Əsərin 1630-1750-ci illərdə kapitalistləşən ermənçilik, 1750-1890-cı illərdə siyasiləşən ermənçilik, 1890-1918-ci illərdə terroristləşən ermənçilik, 1918-1990-cı illərdə dövlətləşən və qloballaşan ermənçilik bölmələrində bu məsələlər sistemli və kompleks şəkildə, eləcə də mənbələrə əsasən təhlil edilir. Əsərdə qeyd olunur ki, erməni millətçiləri XIX əsrin sonlarında - 1885-ci ildə Marseldə "Armenakan", 1887-ci ildə Cenevrədə "Qnçaq", 1890-cı ildə isə Tiflisdə "Daşnaksütyun" partiyalarını yaradıblar. Xüsusilə elmi əsərdə XX əsrin əvvəllərində Anadolu bölgəsində erməni silahlı dəstələrinin törətdikləri ağır cinayətlər, onların Azərbaycanda və Türkiyədə həyata keçirdikləri soyqırımları, azərbaycanlıların dəfələrlə deportasiya edilmələri, hazırda ölkəmizə qarşı davam etdirilən işğalçılıq siyasəti geniş tədqiq olunur. Əsərdə göstərilir ki, 1918-ci ilin əvvəllərində, yəni, mart qırğını ərəfəsində bilavasitə Stepan Şaumyanın rəhbərliyi ilə erməni-bolşevik birləşmələri Bakı şəhərini gəmilərdən yaylım atəşinə tutublar. Bunun ardınca isə silahlı daşnaklar azərbaycanlıların evlərinə hücum edərək amansız qətllər törədiblər. Martın 31-də və aprelin ilk günlərində qırğınlar kütləvi xarakter alıb. Minlərlə dinc azərbaycanlı yalnız milli mənsubiyyətinə görə məhv edilib. Həmin günlərdə erməni-bolşevik birləşmələri Bakıda 12 min dinc azərbaycanlını qətlə yetiriblər. Bu qanlı hadisələr zamanı insanlar evlərində diri-diri yandırılıb, eləcə də xüsusi işgəncələrlə və amansızlıqla öldürülüblər.

Hər bir vətəndaşımızın kitabla tanış olmasının önəmini vurğulayan "Kaspi" Mətbuat və Təhsil Mərkəzinin rəhbəri, "Kaspi" qəzetinin təsisçisi Sona Vəliyeva diqqətə çatdırıb ki, nəşr xüsusilə gənclərimizin milli yaddaşının oyanmasına kömək edəcək. O deyib ki, əsərin "İthaf" bölməsində 2017-ci il iyunun 4-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndini atəşə tutması nəticəsində mülki şəxslərin - Sahibə Allahverdiyeva və onun 2 yaşlı nəvəsi Zəhra Quliyevanın qətlə yetirilməsi, Sərvinaz Quliyevanın isə yaralanması faktları vurğulanıb. Nəşrdə, həmçinin Zəngəzurun Ermənistana birləşdirilməsi, erməni daşnaklarının 1918-ci ildə Azərbaycanda törətdikləri mart soyqırımı, habelə 1990-cı ilin 20 Yanvar faciəsi və Xocalı soyqırımının səbəb və nəticələri bir-birinə bağlı hadisələr kimi təhlil olunub. Müəllif saxta "böyük Ermənistan" iddiasının ortaya çıxardığı "ermənçilik" missiyasının sülhsevər dünya üçün böyük təhlükə olduğunu tarixi faktlar və məntiqi mülahizələrlə əsaslandırıb.

Milli Məclisin deputatı, DİA-nın Siyasi Araşdırmalar İnstitutunun müdiri, professor Elman Nəsirov, Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin kafedra müdiri, professor Cahangir Məmmədli, deputatlar Tahir Mirkişili, Mahir Abbaszadə, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun sektor müdiri Hacı Abdulla diqqətə çatdırıblar ki, əsər elmi ictimaiyyət və geniş oxucu kütləsi üçün dəyərli siyasi-tarixi mənbədir. Nəşr, həmçinin saxta "erməni məsə-

ləsi”nin Türkiyə üçün yaratdığı böyük təhlükələr mövzusunda məqalə və məlumatların hazırlanması, erməni din xadimləri və millətçi dairələrindən qaynaqlanaraq ortaya atılan əsassız iddialara qarşı verilməsi baxımından dəyərli elmi vəsaitdir.

Qeyd edilib ki, müəllif erməni tədqiqatçıya istinadla 1918-1920-ci illərdə indiki Ermənistan ərazisində yaşamış 575 min azərbaycanlının 565 mininin öldürüldüyünü və doğma torpağından didərgin salındığını vurğulayıb. Erməni müəllif Z.Korkodyan özünün “Sovet Ermənistanının əhalisi 1831-1931” kitabında bu rəqəmi təsdiq edərək yazır ki, “1920-ci ildə sovet hökumətində daşnaklardan cəmi 10 min nəfərdən bir qədər artıq türk (azərbaycanlı) əhali qalıb. Bundan əlavə, əsərdə göstərilir ki, Cənubi Qafqazın sovetləşməsindən öz məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-ə daxil etməyə nail oldular. Bununla da, Naxçıvan Azərbaycandan ayrıldı və quru əlaqələri kəsildi. Sonrakı dövrlərdə isə ermənilər Ermənistana verilmiş Zəngəzurda və digər ərazilərdə də tarixən yaşamış azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirdilər.

Müəllif sənədlərə əsasən qeyd edir ki, sovet dövründə, 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Sovetinin “Ermənistan SSR-dən kolxozçu və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında” qərarına əsasən 1948-1953-cü illərdə azərbaycanlıların tarixi torpaqlarından, xüsusilə də İrəvan və onun ətraf rayonlarından kütləvi şəkildə deportasiya olunması nəticəsində 150 minə yaxın soydaşımız zorakılıqla Azərbaycanın aran rayonlarına köçürülüb.

Sonda çıxış edən Aygün Əttar ermənilərin azərbaycanlılara qarşı törətdikləri cinayətlərin geniş ictimaiyyətə çatdırılmasına bu kitabın töhfə verəcəyinə ümidvar olduğunu bildirib, nəşrin təqdimatının təşkilinə görə minnətdarlığını ifadə edib.

Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbində DİA-ya yeni qəbul olunmuş doktorant və dissertanların ilk məşğələsi keçirilmişdir

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Elmi təşkilat və beynəlxalq əlaqələr şöbəsi" tərəfindən məşğələ təşkil edilmişdir. Məşğələdə Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov "Davamlı və inklüziv inkişaf naminə yeni idarəetmə texnologiyaları: Azərbaycanın təcrübəsi" mövzusunda məruzə ilə çıxış etdi.

Rektor ilk öncə DİA-a yeni qəbul olunmuş doktorant və dissertantları təbrik etdi və onlara elmi fəaliyyətlərində uğurlar arzuladı. Davamlı inkişafın XXI əsr və Üçüncü Minilliyin başlıca prioriteti olmasını vurğulayan akademik, ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin inkişaf etdirdiyi uğurlu iqtisadi və sosial siyasət sayəsində "Davamlı İnkişaf Məqsədləri"ndə yer almış və 2030-cu ilə kimi dünyada həlli planlaşdırılan bir çox məsələlərin müəyyən dərəcədə bizim ölkəmizdə artıq yerinə yetirildiyini qeyd etdi. Məruzədə həmçinin qeyd edildi ki, beynəlxalq statistikaya əsasən, Azərbaycan Respublikasının uzunmüddətli tərəqqinin əsas şərti olan davamlı inkişafı hədəfləyən nailiyyətləri bugün "Böyük yeddilik" (G 7) və "Böyük iyirmilik" (G 20) dövlətləri ilə müqayisə olunacaq səviyyədədir, bəzi hallarda isə onların göstəricilərindən üstündür.

U.Ələkbərov 2018-ci ilin yanvar ayında Davosda keçirilən İqtisadi Foruma diqqəti çəkərək, 12 indikator üzrə hesablanan inklüziv inkişaf indeksinə görə ölkəmizin inkişaf edən ölkələr arasında 3-cü yerə çıxmasını böyük uğur kimi qiymətləndirdi. Məlumat üçün bildirildi ki, inklüziv inkişaf indeksi, əsasən, dünyanın ayrı-ayrı ölkələrində ÜDM-in çeşidli mənbələr hesabına artırılması, təbii və maliyyə resurslarının səmərəli idarə edilməsi, əhali arasında sosial bərabərliyin gücləndirilməsi və s. mühüm amillər nəzərə alınaraq müəyyən olunur.

Daha sonra öz çıxışında Azərbaycan Respublikasında davamlı inklüziv inkişaf sahəsində dövlət siyasətinin yüksək səmərəliliklə planlaşdırılmasının və idarə edilməsinin innovativ idarəetmə texnologiyaları kompleksinin tətbiqi ilə bağlı olduğunu qeyd edən akademik, onlar arasında idarəçilik sahəsi üçün mühüm olan sinergetik, komplimentar və kompensasion texnologiların xüsusi yer tutduğunu vurğuladı. Natiq ölkənin innovativ tərəqqisinin əsası kimi insan potensialının formalaşdırılması konsepsiyasının reallaşdırılmasında Heydər Əliyev Fondunun rolu məruzədə xüsusi vurğulandı. Fondun gerçəkləşdirdiyi

proqramlar, qurumun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın milli və beynəlxalq səviyyələrdə fəaliyyəti ölkənin innovativ tərəqqisinə və Azərbaycan Respublikasının layiqli imicinin formalaşdırılmasına qiymətsiz töhfə olduğu diqqətə çatdırıldı.

Məşğələnin sonunda doktorant və dissertantları maraqlandıran suallar cavablandırıldı.

Dövlət Idarəçilik Akademiyasının komandası Enactus-2018 milli yarışının qalibi oldu

2018-ci il 19 aprel tarixində ADA Universitetində Enactus 2018 Azərbaycan Milli Yarışmasının final mərhələsi keçirilmişdir. Yarışın əsas məqsədi Azərbaycanda iqtisadi potensialın gücləndirilməsində gənclərin rolunu artırmaq, gənclərin sahibkarlıq fəaliyyətini stimullaşdırmaq, azad sahibkarlıq və sosial biznes ideyalarını tələbələr arasında təbliğ etməkdir. Yarışda iştirak üçün 12 universitetin komandası müraciət etmişdir.

Finalın mərhələsində üç ali məktəbin – Dövlət İqtisad Universiteti, Sumqayıt Dövlət Universiteti və Dövlət İdarəçilik Akademiyası (DİA) Enactus komandaları iştirak etmişdirlər. DİA Enactus komandası üç layihə ilə müxtəlif dövlət qurumları, təşkilatlar və şirkət nümayəndələrindən təşkil olunmuş münsiflər heyəti qarşısında çıxış etmişdir. Bu layihələr ailə təsərrüfatlarında ev quşlarının baş sayının artırılması yolu ilə gəlirliliyin artırılması, İT innovasiyanın tətbiqi vasitəsilə fiziki məhdudiyyətli şəxslərin cəmiyyətə inteqrasiyası, odun alternativini yaradaraq ağacların kəsilməsinin qarşısının alınmasını əhatə etmişdir. Münsiflər heyətinin qiymətləndirməsinə əsasən Prezident yanında Dövlət İdarəçilik Akademiyasının komandası 1-ci yerə layiq görülərək Enactus-2018 Azərbaycan Milli Kubokunu qazanmışdır. Bu DİA tələbələrinə cari ilin 9-11 oktyabr tarixlərində ABŞ-ın Kaliforniya ştatının San-Xose şəhərində (Silikon Vadisində) keçiriləcək Enactus 2018 Dünya Kuboku Yarı-

şında ölkəmizi təmsil etmək hüququ qazanmışdır.

Komanda müxtəlif ixtisas və kurslarında təhsil alan yaradıcı, təşəbbüskar tələbələrindən ibarət olmaqla, müəllim və məsləhətçilərin köməyi ilə reallaşdırdığı sosial-biznes layihələri ilə icmalarda insanların gəlirlərini artırmağın yollarını öyrətməklə onların maddi rifah halının yaxşılaşdırılması, məşğulluqlarının təmin olunması və biznes vasitəsilə həyatlarını müsbətə doğru dəyişdirməyə çalışırlar.

Qeyd edək ki, Enactus Proqramı (ENtrepreneurial ACTion US - Bizim Sahibkarlıq Fəaliyyətimiz) 1975-ci ildə ABŞ-da əsası qoyulan, 2012-ci ilə qədər SIFE (Students In Free Enterprise) adı ilə tanınan sahibkarlıq fəaliyyəti vasitəsi ilə əldə olunan imkanlar hesabına dünyada inkişafa nail olmaq üçün ən yaxşı ali məktəblərin tələbələrini, fakültə məsləhətçilərini, akademik liderlərini və biznes mütəxəssislərini bir araya gətirən beynəlxalq platformadır. Bu qlobal təşəbbüsə indiyədək 36 ölkədən olan 72000 tələbə və 1730 komanda qatılmışdır.

Azərbaycan Enactus proqramına 2005-ci ildən etibarən qoşulmuşdur. Bu müddət ərzində ölkəmizin müxtəlif ali məktəblərinin komandaları bu yarışmada iştirak etmişlər. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilk dəfə 2016-cı ildə ölkə çempionu olaraq Kanadanın Toronto şəhərində keçirilən dünya birinciliyində 17 nəfərlik heyətlə iştirak etmişdir.

DİA-da tələbələrin yeni "Ekosivil Dünya" klubu fəaliyyətə başlamışdır

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Davamlı inkişafın planlaşdırılması və idarə edilməsi" kafedrası tərəfindən "Ekosivil Dünya" klubunun açılış tədbiri qeyd edilmişdir. "Uğurlu gələcəyin təməli-davamlı İnkişaf" şüarı ilə başlayan klubun ilk tədbirində akademiyanın rektoru akademik Urxan Ələkbərov iştirak etmişdir. Akademik Urxan Ələkbərov öncəliklə bütün tədbir iştirakçılarını salamlamış, gənclərin ölkə ictimaiyyətində daha fəal iştirakını təmin edəcək yeni klubun fəaliyyətini yüksək qiymətləndirmişdir. Natiq, Respublikamızın parlaq gələcəyi naminə davamlı inkişafın hədəflərinə nail olmağın aktuallığını qeyd etmiş və yeni "Ekosivil Dünya" klubuna gələcək fəaliyyətində uğurlar arzu etmişdir. Daha sonra klubun məsləhətçisi, "Davamlı İnkişafın Planlaşdırılması və İdarə Edilməsi" kafedrasının dosenti Elşan Əhmədov klubun sədri Nəzrin Əhmədzadəni və klubun üzvlərini tədbir iştirakçılarına təqdim etmiş, yeni klubun Respublika təhsil müəssisələri sırasında "Davamlı İnkişaf" ixtisası istiqamətində açılan ilk klub olduğunu vurğulayaraq bu cür resursun gələcək davamlı inkişaf naminə böyük töhfə verəcəyini qeyd etmişdir. O, tələbələrə göstərilən daim qayğı və diqqət üçün Akademiya rəhbərliyinə öz təşəkkürünü bildirdi. Daha sonra söz klubun sədri Nəzrin Əhmədzadəyə verildi. Klubun sədri hamını salamlayaraq öncəliklə klubun açılışında əməyi olan hər kəsə öz minnətdarlığını bildirdi və klubun gələcək fəaliyyəti haqqında tədbir iştirakçılarına geniş məlumat verdi.

Tədbirdə akademik Urxan Ələkbərov məruzə ilə çıxış etmişdir. Öz çıxışında Azərbaycan Respublikasında davamlı inklüziv inkişaf sahəsində dövlət siyasətinin yüksək səmərəliliklə planlaşdırılmasının və idarə edilməsinin innovativ idarəetmə texnologiyaları kompleksinin tətbiqi ilə bağlı olduğunu qeyd edən akademik, onlar arasında idarəçilik sahəsi üçün mühüm olan sinergetik, komplimentar və kompensasion texnologiyaların xüsusi yer tutduğunu vurğuladı. Natiq ölkənin innovativ tərəqqisinin əsası kimi insan potensialının formalaşdırılması konsepsiyasının reallaşdırılmasında Heydər Əliyev Fondunun rolu məruzədə xüsusi vurğulandı. Fondun gerçəkləşdirdiyi proqramlar, qurumun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın milli və beynəlxalq səviyyələrdə fəaliyyəti ölkənin innovativ tərəqqisinə və Azərbaycan Respublikasının layiqli imicinin formalaşdırılmasına qiymətsiz töhfə olduğu diqqətə çatdırıldı. Məruzə, günümüzdə

getdikcə aktual məsələyə çevrilən "davamlı inkişaf"ın mahiyyəti, davamlı inkişafa nail olmaq üçün dünya ölkələrində, eləcə də, Azərbaycanda görülən işlər, davamlı inkişafa nail olunması üçün cəmiyyətin bu sahə ilə bağlı maarifləndirilməsi kimi mövzuları əhatə etmişdir. Məruzədən sonra tələbələri maraqlandıran suallar cavablandırıldı.

DİA-da "Heydər Əliyev: hakimiyyət və şəxsiyyət" mövzusunda telekonfrans keçirilib

Aprelin 25-də Azərbaycanın Qırğızıstandakı səfirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA) və Qırğızıstan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr edilmiş online "dəyirmi masa" keçirilib.

Rektor, akademik Urxan Ələkbərov bu ali məktəbin nəzdində fəaliyyət göstərən "Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbi"ndən telekörpü vasitəsilə Qırğızıstan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Aka-demiyasında "Heydər Əliyev: hakimiyyət və şəxsiyyət" mövzusunda keçirilən "dəyirmi masa"nın işinə qatılıb. "Dəyirmi masa"da Azərbaycanın Qırğızıstandakı səfiri Hidayət Orucov, Qırğızıstanın Dövlət İdarəçilik Akademiyasının rektoru Almaz Nasırov, Qırğızıstanda fəaliyyət göstərən ali təhsil müəssisələrinin rəhbərləri, Qırğızıstanda akkreditə olunmuş xarici ölkələrin səfirləri, tanınmış ziyalılar, görkəmli elm xadimləri, ictimaiyyətin nümayəndələri, diplomatlar iştirak ediblər.

Tədbirdə çıxış edən akademik U.Ələkbərov ümummilli liderin xalqımız qarşısındakı xidmətlərindən danışıb. Ulu Öndərin müstəsna xidmətlərinin hələ uzun illər tədqiqatçıların diqqət mərkəzində olacağını qeyd edən rektor müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsinin Azərbaycan yaşadıqca daim xalqımızın yaddaşında, ürəyində yaşayacağını vurğulayıb. U.Ələkbərov Ümummilli Liderin ölkəmizin davamlı inkişafı sahəsində başladığı nəhəng işlərin, möhtəşəm layihələrin bu gün onun layiqli varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. Akademik vurğulayıb ki, Azərbaycanın bugünkü inkişaf yolunun əsas istiqamətlərindən danışarkən bu inkişafın, ilk növbədə, xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi, sosial prioritetləri zamanında düzgün müəyyənləşdirməsinin, həmçinin onun siyasi xəttinin ardıcıl davam etdirilməsinin nəticəsi olduğunu birmənalı qeyd etmək lazımdır. Rektor davamlı inkişaf və insan potensialının inkişafının bəşəriyyətin XXI əsrdə əsas prioriteti olduğunu və vaxtilə elə bu gerçəkliklərə dayanan ulu öndərin insan inkişafı konsepsiyasını müəyyənləşdirdiyini diqqətə çatdırıb. Bildirilib ki, Ulu Öndər tərəfindən təsdiq edilmiş təhsil strategiyasına görə, Azərbaycan Respublikasında davamlı insan inkişafı fənninin orta ümumtəhsil məktəblərinin proqramlarına daxil edilməsi prosesinə 2001-ci ildə, qlobal miqyasda isə bu prosesə dörd il sonra - 2005-ci il martın 1-də BMT-nin baş katibi Kofi Annan və UNESCO-nun baş direktoru Koişiro Matsuura arasında imzalanan sənədlə təkan verilib. U.Ələkbərov məhz müdrik siyasətçi Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və Prezident İlham Əliyevin yaradıcılıqla reallaşdırdığı innovativ inkişaf strategiyası sayəsində 2015-2030-cu illər üçün BMT tərəfindən qlobal prioritet kimi planlaşdırılan hədəflərə ölkəmizin yüksək səviyyədə hazırlıqlı olduğunu vurğulayıb. Akademik U.Ələkbərov qeyd edib ki, davamlı inkişaf proseslərinin planlaşdırılması və idarə edilməsi sahəsində qazanılan yüksək uğurlar dövlət idarəçiliyində innovativ texnologiyaların geniş istifadəsinin nəticəsidir. Rektorun sözlərinə görə, Prezident İlham Əliyevin 2003-cü ildə Dünya Sammitindəki və 2016-cı ildə Bakı Beynəlxalq Humanitar Forumundakı çıxışlarında innovativ inkişaf strategiyasının əsas məqamları işıqlandırılıb.

U.Ələkbərov ölkəmizin innovativ tərəqqisi ilə bağlı BMT, Dünya Bankı və digər nüfuzlu

beynəlxalq qurumların qiymətləndirmələrinə əsaslanan təhlilləri də iştirakçıların diqqətinə çatdırıb. Rektor vurğulayıb ki, ölkənin qısa müddətdə iqtisadi və sosial sahədə qazandığı yüksək nailiyyətləri, XXI əsrin çağırışlarının həllinə yönəlmiş dünya əhəmiyyətli təşəbbüsləri, ildən-ilə artan beynəlxalq nüfuzu Azərbaycanı bir çox istiqamətlərdə regional və qlobal liderə çevirib. Qeyd edilib ki, son 15 ildə ölkəmizdə davamlı inkişaf üçün iqtisadi baza yaradılıb. Eyni zamanda, məlumat verilib ki, Azərbaycan son illərdə bir çox davamlı inkişaf göstəriciləri və sosial indikatorlara görə, "Böyük İyirmilik" və "Böyük Yeddilik" ölkələrinin əksəriyyətini üstələyir. U.Ələkbərov vurğulayıb ki, bu uğurların kökündə yalnız yaxşı idarəçilik, Prezident İlham Əliyevin tətbiq etdiyi orijinal idarəetmə texnologiyaları və dövlət institutlarının, vətəndaş cəmiyyətinin, özəl sektorun fəaliyyətinin kombinasiyası dayanır. Bildirilib ki, dövlət başçısının tətbiq etdiyi idarəçilik texnologiyaları sayəsində 2018-ci ilin yanvarında keçirilən Davos forumunun hesabatında inklüziv inkişaf indeksinə görə, Azərbaycan dünyada üçüncü yerdə qərarlaşaraq iqtisadi göstəriciləri daha yüksək olan ölkələri belə, geridə qoyub. Həmin ölkələr sırasında inkişaf etmiş Avropa İttifaqı dövlətləri də var. U.Ələkbərov bu və bənzər təqdirəlayiq nəticələrin ölkənin səmərəli idarə olunması və iqtisadi imkanlardan maksimum istifadə edilməsindən xəbər verdiyini xüsusi vurğulayıb.

"Dövlət idarəçiliyində müasir informasiya texnologiyalarının yeni perspektivləri" mövzusunda elmi-praktik konfrans keçirilib

Azərbaycan Respublikasinin Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət idarəçiliyində informasiya texnologiyalari" kafedrasının təşkilatçılığı ilə "Dövlət idarəçiliyində müasir informasiya texnologiyalarının yeni perspektivləri" mövzusunda elmi-praktik konfrans keçirilib. Konfransda Dövlət İdarəçilik Akademiyasının, professor-müəllim heyəti, magistrantlar, tələbələr həmçinin digər təşkilatların təmsilçiləri iştirak etmişdir. Elmi-praktik konfransı giriş sözü ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov giriş sözü ilə açıb. Daha sonra Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tədris işləri üzrə prorektoru, professor Əlikram Abdullayev çıxış edərək, idarəçilikdə müasir informasiya texnologiyalarının tətbiqi məsələlərinə toxunublar.

Konfransda Anna Elyaşina "Sosial müavinətlərin idarəolunmasında İKT-nin tətbiqi", Həsən Nəsirli "Smart sayt konsepsiyası. texnoparklar, şəhərlərin müasir inkişaf prinsipi", Hilalə Cəfərova "İdarəetmədə qərar qəbuluna dəstək verən innovasiyalar. Microsoft Power BI", Aytən Əliyeva "Süni intellektin dövlət idarəçiliyində tətbiqi", Kənan Kərimov "Dövlət idarəçiliyində mobil texnologiyalardan istifadə" mövzusunda məruzələrlə çıxış ediblər.

Tədbirin sonunda "Dövlət idarəçiliyində E-sənəd dövriyyəsi" kitabının təqdimatı oldu.

Dövlət İdarəçilik Akademiyasında Türkiyənin yüksək vəzifəli dövlət qulluqçuları üçün növbəti təlim-seminar

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) bu ali məktəb ilə Türkiyə və Orta Şərq Dövlət İdarəetmə İnstitutu arasında imzalanmış Anlaşma Protokolu çərçivəsində birgə yaradılmış "Qafqaz Dövlət İdarəçiliyi Araşdırma və Tədris Mərkəzi"ndə Türkiyənin yüksək vəzifəli dövlət qulluqçuları üçün növbəti təlim-seminar keçirilib.

Türkiyənin Nazirlər Kabineti, Müdafiə, Ədliyyə, Daxili İşlər, Təhsil, Əmək və Sosial Müdafiə, Mədəniyyət və Turizm, Kənd Təsərrüfatı, Ətraf Mühit və Şəhərsalma, Rabitə və Nəqliyyat nazirliklərinin, Miqrasiya İdarəsi və

digər mərkəzi qurumlarının yüksək vəzifəli dövlət qulluqçularının iştirak etdikləri tədbirdə DİA-nın rektoru, akademik Urxan Ələkbərovun "Davamlı və inklüziv inkişaf üçün səmərəli idarəetmə: Azərbaycan təcrübəsi" mövzusunda məruzəsi dinlənilib.

Ümummilli lider Heydər Əliyevin misilsiz tarixi xidmətlərindən, zəngin dövlət idarəçilik təcrübəsinin əhəmiyyətindən danışan akademik U.Ələkbərov Ulu Öndərin ideyalarının Prezident İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirildiyini bildirib. Rektor bu gün əldə edilmiş nailiyyətlərin əsasında Prezident İlham Əliyevin həyata keçirdiyi innovativ inkişaf strategiyasının dayandığını diqqətə çatdırıb. Azərbaycanın bir çox istiqamətlərdə regional və qlobal liderə çevrildiyini qeyd edən akademik U.Ələkbərov son 15 ildə ölkəmizdə davamlı inkişaf üçün iqtisadi baza yaradıldığını vurğulayıb. Qeyd olunub ki, Azərbaycan son illərdə bir çox davamlı inkişaf göstəriciləri və sosial indikatorlara görə "Böyük İyirmilik" və "Böyük Yeddilik" ölkələrinin əksəriyyətini üstələyir. Akademik U.Ələkbərov ölkəmizin inkişaf göstəricilərinin bir çox beynəlxalq təşkilatlar, o cümlədən BMT, Dünya Bankı və digər nüfuzlu qurumların rəsmi sənədlərində, müstəqil ekspertlər tərəfindən hazırlanmış hesabatlarda təsdiqini tapdığını da xüsusi vurğulayıb.

Rektor bildirib ki, qazanılan uğurların kökündə yalnız yaxşı idarəçilik, Prezident İlham Əliyevin tətbiq etdiyi innovativ idarəetmə texnologiyaları və dövlət institutlarının, vətəndaş cəmiyyətinin və özəl sektorun birgə fəaliyyətinin kombinasiyası dayanır. Qeyd edilib ki, 2018-ci ilin yanvarında keçirilən Davos forumunun hesabatında inklüziv inkişaf indeksinə görə Azərbaycan keçid iqtisadiyyatına malik ölkələr arasında üçüncü yerdə qərarlaşaraq, iqtisadi göstəriciləri daha yüksək olan Avropa İttifaqı ölkələrini belə, geridə qoyub. Akademik U.Ələkbərov innovativ inkişaf strategiyasının reallaşdırılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Meh riban xanım Əliyevanın xüsusi rolunu qeyd

edib və bu sahədə dövlət qurumları ilə yanaşı, vətəndaş cəmiyyətinin, xüsusilə Heydər Əliyev Fondunun önəmli fəaliyyətini diqqətə çatdırıb.

Təlim-seminarda DİA-nın Siyasi Araşdırmalar İnstitutunun direktoru, Milli Məclisin deputatı, professor Elman Nəsirov "Azərbaycan-Türkiyə münasibətləri", Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası İcra Katibliyinin siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Aydın Mirzəzadə "Xalq diplomatiyası" mövzularında məruzə ilə çıxış ediblər.

Məruzəçilər Azərbaycan və Türkiyənin regionun güc mərkəzləri olmaqla yanaşı, eyni zamanda, elm, bilik mərkəzi kimi formalaşması baxımından əhəmiyyətini qeyd edib, hər iki ölkənin dövlət qulluqçularının təcrübə mübadiləsi aparmalarının, kadr potensialının təkmilləşdirilməsi sahəsində həyata keçirilən təşəbbüslərin önəmliliyini diqqətə çatdırıblar.

Sonra suallar cavablandırılıb.

"Azərbaycançılıq və multikulturalizm" mövzusunda respublika elmi konfrans keçirilib

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Azərbaycançılıq və multikulturalizm" mövzusunda Respublika elmi konfrans keçirilmişdir.

Konfransı giriş sözü ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov açıb. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsininin müdiri, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Fəlsəfə və sosial psixologiya kafedrasının müdiri professor Etibar Nəcəfov "Azərbaycançılıq milli ideyasının inkişaf mərhələləri", Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktor əvəzi Rəvan Həsənov "Azərbaycan multikulturalizminin siyasi və hüquqi əsasları", Azərbaycan Dillər Universitetinin Multikulturalizm Elmi-Tədqiqat laboratoriyasının müdiri, dosent İrina Kunina "Multikulturalizm və interkulturalizm", AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun Beynəlxalq münasibətlər və insan hüquqları şöbəsinin müdiri, dosent Elşad Mirbəşiroğlu "Ümummilli lider Heydər Əliyev və Azərbaycanda multikulturalizm siyasətinin formalaşması", DİA-nın Fəlsəfə və Sosial Psixologiya kafedrasının dosenti Sakit Əliyev "Multikulturalizm Azərbaycançılıq ideologiyasının tərkib hissəsi kimi", AMEA-nın Fəlsəfə İnstitutunun Multikulturalizm və tolerantlıq fəlsəfəsi şöbəsinin böyük elmi işçisi fəlsəfə üzrə fəlsəfə doktoru Radif Mustafayev "Azərbaycan Xalq Cümhuriyyətində millət anlayışının müasir dövr azərbaycançılıq ideologiyasında davamı" və DİA-nın Fəlsəfə və sosial psixologiya kafedrasının dosent əvəzi Cahangir Cahangirli "Azərbaycanda dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsində multikulturalizm siyasətinin əhəmiyyəti" mövzusunda məruzə ilə çıxış ediblər.

Dövlət İdarəçilik Akademiyasında "Heydər Əliyev və Azərbaycanın milli inkişaf strategiyası" mövzusunda elmi-praktik konfrans keçirilib

Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında doktorant və dissertantların Ümummilli Lider Heydər Əliyevin 95-cü ildönümünə həsr edilmiş "Heydər Əliyev və Azərbaycanın milli inkişaf strategiyası" mövzusunda elmi-praktik konfrans keçirilib. DİA-nın "Elmi təşkilat və beynəlxalq əlaqələr" şöbəsinin təşkilatçılığı ilə keçirilən elmi-praktik konfransı giriş sözü ilə açan Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov ümummilli lider Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısındakı müstəsna xidmətlərindən, ulu öndərin zəngin

siyasi irsinin, idarəçilik təcrübəsinin əhəmiyyətindən danışıb. Rektor qeyd edib ki, ölkəmizin müasir inkişaf tarixi Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev ideyalarının və siyasi irsinin layiqli davamçısı Prezident İlham Əliyevin düşünülmüş siyasəti nəticəsində Azərbaycan dünyada inkişaf etmiş ölkələr sırasında layiqli yerini tutmuşdur. Daha sonra DİA-nın doktorant və dissertantlarının 20 məruzəsi dinlənilmişdir.

Mingəçevirdə "Azərbaycanın innovativ inkişafı" mövzusunda seminar keçirilib

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Mingəçevir Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində "Azərbaycanın innovativ inkişafı" mövzusunda seminar keçirilib.

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri düzüblər.

Seminarda Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov çıxış edərək tədbirin əhəmiyyətindən danışıb. Bildirib ki, icra hakimiyyəti ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası arasında əlavə təhsilin təşkili, eləcə də ayrı-ayrı dövrlərdə keçirilən kurslarla bağlı sıx əməkdaşlıq mövcuddur. "Bu günə qədər Akademiyada icra hakimiyyətinin əməkdaşlarından 8 nəfər əlavə təhsil, 63 nəfər dövlət qulluğunun təşkili, təşkilati əsasları, dövlətin kadr siyasəti, elektron hökumət və digər müxtəlif mövzulu kurslarda iştirak edib. Əlbəttə ki, əlavə təhsil və kurslarda iştirak edən hər bir dövlət qulluqçusu bilik və bacarıqlarını daha da artırıb. Nəticədə dövlət qulluqçuları öz fəaliyyətləri üçün vacib olan səmərəli idarəetmə metodlarını öyrəniblər", – deyə Niyazi Bayramov qeyd edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov "Davamlı və inküliziv inkişaf naminə səmərəli idarəetmə: Azərbaycan təcrübəsi", Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası İcra Katibliyinin siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Aydın Mirzəzadə "Gənc nəslin formalaşmasında milli mənəvi dəyərlərin və müasir innovasiya prinsiplərinin vəhdəti", Akademiyanın Elmi təşkilat və beynəlxalq əlaqələr şöbəsinin müdiri Rəcəb Rəhimli "Dövlət qulluqçularının xidməti fəaliyyətinin

qiymətləndirilməsində innovativ metodların tətbiqi" mövzularında məruzə ediblər.

Vurğulanıb ki, ölkəmizdə müəyyənləşdirilən dövlət idarəetmə strategiyası ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyət Heydər Əliyevin siyasi fəaliyyətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün ölkəmiz dünyanın inkişaf etmiş dövlətləri tərəfindən regionun lideri kimi qəbul olunur. Bildirilib ki, bu inkişafı ölkəmizin hər bir regionunda, eləcə də Mingəçevir şəhərində görmək mümkündür. Bu siyasətin nəticəsidir ki, Mingəçevirdə bütün sahələr üzrə yüksək uğurlara nail olunub. Mingəçevirdə aparılan islahatlar, idarəetmənin düzgün qurulması nəticə etibarilə şəhərin dinamik inkişafına səbəb olub. Diqqətə çatdırılıb ki, şəhər icra hakimiyyəti ilə Akademiya arasındakı işgüzar əlaqələr, əməkdaşlıq bundan sonra da inkişaf edəcək. "Azərbaycanın innovativ inkişafı" mövzusunda keçirilən bugünkü seminar dövlət qulluqçularının bilik və bacarıqlarının təkmilləşməsində mühüm rolu olacaq.

Qeyd edək ki, 2013-cü il yanvarın 31-də Dövlət İdarəçilik Akademiyası ilə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi arasında əməkdaşlıq memorandumu imzalanıb. Bu günə kimi memorandum sayəsində "İnnovativ idarəetmə görüşü", "İ-club", müxtəlif layihə və tədbirlər həyata keçirilib. "Azərbaycanın innovativ inkişafı" mövzusunda keçirilən seminar isə bu əməkdaşlığın daha da genişləndirilməsi məqsədi daşıyır.

DİA-da "Heydər Əliyev və Azərbaycanın milli inkişaf strategiyası: proses və nəticə" mövzusunda elmi konfrans keçirilib

Mayın 8-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr edilmiş "Heydər Əliyev və Azərbaycanın milli inkişaf strategiyası: proses və nəticə" mövzusunda elmi konfrans keçirilib.

Əvvəlcə tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin bu ali məktəbdəki büstü önünə güllər düzüb, əziz xatirəsini ehtiramla anıblar.

Tədbirdə DİA-nın rektoru, akademik Urxan Ələkbərov müasir müstəqil dövlətimizin qurucusu və memarı, ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərini vurğulayıb.

Heydər Əliyev siyasətinin uğurlu nəticələrindən danışan rektor dahi rəhbərin ideyalarının Prezident İlham Əliyev tərəfindən əzmlə həyata keçirildiyini, Azərbaycanın çox sürətlə inkişaf etdiyini bildirib.

DİA-nın dövlət qulluğu və kadr siyasəti kafedrasının dosenti, Milli Məclisin deputatı Aydın Mirzəzadə, professor Əli Nuriyev, Dövlət Təhlükəsizlik Xidmətinin əməkdaşı Azər Səlimov, DİA-nın siyasi idarəetmə fakültəsinin dekanı, professor Elçin Əhmədov mövzuya dair məruzələrlə çıxış ediblər. Məruzəçilər ümummilli lider Heydər Əliyevin şəxsiyyətinin böyüklüyündən, ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu islahatlardan bəhs edib, Ulu Öndərin Azərbaycanın dövlətçilik maraqlarını həmişə üstün tutduğunu vurğulayıblar.

Dövlət İdarəçilik Akademiyasında elmi konfrans keçirilmişdir

11 may 2018-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında DİA Tələbə Elmi Cəmiyyətinin Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev və müstəqil Azərbaycanda səmərəli dövlət idarəçiliyi modelinin formalaşması" mövzusunda elmi-praktik konfransı keçirilmişdir.

Tədbiri Akademiyanın rektoru, akademik Urxan Ələkbərov açaraq öz dühası və fədakar fəaliyyəti ilə Azərbaycana sülh, əmin-amanlıq, firavanlıq gətirmiş böyük xilaskar Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın tarixində

və müstəqil milli dövlət quruculuğunda və səmərəli dövlət idarəçiliyinin möhkəm təməllərinin yaradılmasında müstəsna rolundan ətraflı söhbət açmış, onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yeni keyfiyyət səviyyəsində həyata keçirdiyi düşünülmüş və ardıcıl siyasət nəticəsində Azərbaycanda səmərəli dövlət idarəçiliyi modelinin formalaşması və reallaşması istiqamətində nüfuzlu beynəlxalq təşkilatların məlumatlarına istinad edərək konkret faktlar əsasında böyük nailiyyətlərin əldə olunduğunu göstərmişdir.

Rektor Ulu Öndərimizin həyat və fəaliyyətinin geniş araşdırılmasının əhəmiyyətini və bu sahədə Akademiyamızda görülən işləri diqqətə çatdırmış, DİA Tələbə Elmi Cəmiyyətinin magistr və tələbələrimizin geniş iştirakı ilə Heydər Əliyev irsinin və çoxillik dövlətçilik təcrübəsinin öyrənilməsinə həsr olunmuş tədbirlərin təşkil olunmasının təqdirəlayiq olduğunu qeyd etmiş və elmi konfransın işinə uğurlar arzulamışdır.

Plenar iclasda "Elmi təşkilat və beynəlxalq əlaqələr" şöbəsinin müdiri, dosent Rəcəb Rəhimli çıxış etmiş, sonra DİA Tələbə Elmi Cəmiyyətinin sədri, dosent Sevil Məmmədova müzakirəyə çıxarılan mövzu ilə bağlı məruzə edərək, dünyada tanınmış siyasətçi və dövlət xadimi, müstəqil Azərbaycan dövlətinin banisi Ulu Öndər Heydər Əliyevin xalqımızın tarixində, müstəqil dövlət quruculuğunda əvəzsiz xidmətlərindən, müasir mərhələdə onun qoyduğu möhkəm təməl üzərində ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan ardıcıl siyasət nəticəsində formalaşmış səmərəli dövlət idarəçiliyi modelinin reallaşması mexanizmi barədə ətraflı söhbət açmışdır.

Plenar iclasdan sonra konfrans öz işini professor Namiq Axundov, dosent Yusif Zeynalovun və dosent Araz Qədiməliyevin rəhbərliyi ilə üç bölmədə davam etdirmişdir. Bölmə iclaslarında konfrans iştirakçıları tərəfindən "Heydər Əliyev müstəqil Azərbay-can dövlətinin banisidir", "Heydər Əliyev Azərbaycan Respublikası Konstitusiyasının yaradıcısıdır", Heydər Əliyevin milli inkişaf strategiyası", "Ulu öndər Heydər Əliyevin islahatlar siyasəti", "Heydər Əliyevin neft strategiyası", "Heydər Əliyevin balanslı xarici siyasət strategiyası ", " Heydər Əliyev və Azərbaycan diasporu ", "Prezident İlham Əliyevin Azərbaycanın sürətli inkişaf strategiyası", "İlham Əliyevin qeyri-neft sektorunun inkişafı siyasəti", "Müasir mərhələdə Azərbaycanın davamlı inkişaf təcrübəsi", "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesi", "Müasir mərhələdə Azərbaycan diplomatiyasının uğurları", "Azərbaycan Respublikasının gənclər siyasəti" və digər mövzularda maraqlı çıxışlar dinlənilmiş və geniş fikir mübadiləsi aparılmışdır.

Yüksək fəallıq şəraitində keçən elmi konfrans iştirakçıları bundan sonra qarşılarında Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik irsini bütün sahələr üzrə dərindən tədqiq etmək kimi vacib vəzifənin durduğunu vurğulamış, bu istiqamətdə fəallıq göstərəcəklərinə əminlik ifadə etmişlər.

DIA-da "Dövlətin sosial siyasəti: mahiyyət, prioritetlər və həyata keçirilmə mexanizmləri" istiqaməti üzrə qısamüddətli ixtisasartırma kursu keçirilib

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Dövlətin sosial siyasəti: mahiyyət, prioritetlər və həyata keçirilmə mexanizmləri" istiqaməti üzrə qısamüddətli ixtisasartırma kursu keçirilib. Kursa dövlət orqanlarında çalışan müvafiq dövlət qulluqçuları cəlb olunub.

Bu istiqamətdə kursun əsas məqsədi Azərbaycan Respublikasında sosial siyasətin əsas istiqamətləri, İnklüziv inkişaf-uğurlu iqtisadi və sosial siyasətin nəticəsi: Azərbaycanın təcrübəsi, Dövlət qulluqçusunun peşə fəaliyyətinin mənəvi-əxlaqi əsasları, Müasir Azərbaycanda sosial siyasətin formalaşması və bu sahədə dövlət siyasətinin aktual məsələləri və s. problemlərlə bağlı biliklərin dinləyicilərə çatdırılması və onlarla fikir mübadiləsinin aparılması olub.

Kurs ərzində "Dövlətin sosial siyasəti: mahiyyət, prioritetlər və həyata keçirilmə mexanizmləri" istiqaməti üzrə - Azərbaycan Respublikası Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədri Hadi Rəcəbli, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini İlqar Rəhimov, Nazirliyin Əmək siyasəti şöbəsinin müdir müavini Əbülfət Məhərrəmov, Məşğulluq siyasəti və demoqrafiya şöbəsinin əmək miqrasiyası sektorunun müdiri Fuad Cabbarov, Məşğulluq siyasəti və demoqrafiya şöbəsinin müdir müavini Rəna Abdullayeva, Sosial sığorta pensiya siyasəti şöbəsinin müdiri Çingiz Əliyev, Nazirlik yanında Dövlət əmək müfəttişliyi xidmətinin rəisi Fuad Əlizadə, Azərbaycan Respublikasının Təhsil nazirliyinin Aparat rəhbərinin müavini Fərzəli Qədirov, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin baş məsləhətçisi Elvin Balacanov, DİA-nın dosenti Bayram Haqverdiyev müxtəlif mövzularda mühazirələrlə çıxış etmişlər.

Kursun sonunda Akademiyanın rektoru akademik Urxan Ələkbərov və Akademiyanın tədris işləri üzrə I prorektoru professor Əlik-ram Abdullayev dinləyicilər qarşısında çıxış etmiş və onlara kursu müvəffəqiyyətlə bitir-diklərinə görə sertifikatlar təqdim edərək gələcək fəaliyyətlərində uğurlar arzu etmişlər.

"Azərbaycan Xalq Cümhuriyyəti-100: tarixi irs və müasirlik" istiqaməti üzrə qısamüddətli ixtisasartırma kursu keçirilmişdir

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Azərbaycan Xalq Cümhuriyyəti-100: tarixi irs və müasirlik" istiqaməti üzrə qısamüddətli ixtisasartırma kursu keçirilmişdir. Kursa şəhər və rayon İcra Hakimiyyəti başçılarının müavinləri, ictimai-siyasi və humanitar məsələlər üzrə şöbələrin müdirləri vəzifəsində çalışan müvafiq dövlət qulluqçuları cəlb olunmuşlar.

Bu istiqamətdə kursun əsas məqsədi Müasir Azərbaycanın innovativ idarəetmə modeli: ölkənin nailiyyətləri beynəlxalq təşkilatların hesabatlarında, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində və dövründə regionda ictimai-siyasi vəziyyət, Azərbaycanın Xalq Cümhuriyyətinin xarici siyasəti, Cümhuriyyətin milli-mədəni quruculuq fəaliyyəti və s. problemlərlə bağlı biliklərin dinləyicilərə çatdırılması və onlar ilə fikir mübadiləsinin aparılması idi.

Kurs ərzində "Azərbaycan Xalq Cümhuriyyəti-100: tarixi irs və müasirlik" istiqaməti üzrə - Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov, Milli Məclisin Elm və Təhsil Komitəsinin üzvü Musa Qasımlı, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Azərbaycan Asiya ədəbi əlaqələri şöbəsinin müdiri, professor, Bədirxan Əhmədov, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Hərbi Akademiyasının dosenti Mehman Süleymanov, DİA-nın dosenti Tarix kafedrasının müdiri Firdovsiyyə Əhmədova və Hüquq-1 kafedrasının dosenti Rahib Əkbərov müxtəlif mövzularda mühazirələrlə çıxış etmişlər.

Kursun sonunda Akademiyanın rektoru akademik Urxan Ələkbərov və Akademiyanın tədris işləri üzrə I prorektoru professor Əlikram Abdullayev dinləyicilər qarşısında çıxış etmiş və onlara kursu müvəffəqiyyətlə bitirdiklərinə görə sertifikatlar təqdim edərək gələcək işlərində uğurlar arzu etmişlər.

Azərbaycan Xalq Cümhuriyyəti dünya tarixinin ən demokratik dövlət qurumlarından biridir

Mayın 24-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA) və Səbail Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş "Azərbaycan Xalq Cümhuriyyəti-100: tarixi irs və müasirlik" mövzusunda respublika elmi konfransı keçirilib.

Konfransın açılışında çıxış edən DİA-nın rektoru, akademik Urxan Ələkbərov Azərbaycan Xalq Cümhuriyyətinin dünya tarixinin ən demokratik dövlət qurumlarından biri olduğunu söyləyib. Cümhuriyyətin XX əsrin əvvəllərində olduqca mürəkkəb beynəlxalq şəraitdə yarandığını deyən U.Ələkbərov müsəlman Şərqində ilk demokratik respublikanın məhz Azərbaycanda yaradılmasının əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, tarixin ən çətin, ən mürəkkəb dövründə yaranan Azərbaycan Xalq Cümhuriyyəti demokratik ənənələrə malik idi. Cümhuriyyətin yaranması tarixi bir hadisə idi. Azərbaycan Xalq Cümhuriyyəti dünya tarixində öz demokratikliyi ilə seçilirdi. Rektor vurğulayıb ki, ümummilli lider Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə, ölkəmizlə bağlı həqiqətlərin üzə çıxarılmasına və dünyaya çatdırılmasına hər zaman böyük diqqət yetirib. Prezident İlham Əliyevin Sərəncamı ilə 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsini xalqımızın həyatında mühüm hadisə kimi dəyərləndirən rektor vurğulayıb ki, bu, müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriy-yətinə verilən tarixi qiymətdir.

Konfransda çıxış edən Səbail Rayon İcra Hakimiyyətinin başçısı Eldar Əzizov 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tariximizdə silinməz izlər qoyduğunu söyləyib. Diqqətə çatdırılıb ki, Cümhuriyyət xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə ölkəmizin gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlayıb, müsəlman xalqlarına müstəmləkəçilikdən xilas olmağın yolunu göstərib. Qısa müddətdə tarixi bir missiyanı yerinə yetirən Azərbaycan Xalq Cümhuriyyəti geniş-miqyaslı demokratik islahatlar həyata keçirib. Avropanın bir çox ölkələrindən xeyli əvvəl qadınlara seçib-seçilmək hüququ verən Cümhuriyyət bununla bütün dünya demokratiyasına böyük töhfə verib. Azərbaycan Xalq Cümhuriyyəti dövründə xalqımızın taleyinə ciddi təsir edə biləcək qanun və qərarların qəbul olunduğu vurğulanıb.

Akademiyanın kafedra müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Firdovsiyyə Əhmədova isə Cümhuriyyətin irqi, milli, dini və sinfi bərabərsizliyi ləğv edərək, bütün vətəndaşların hüquq bərabərliyini təmin etdiyini bildirib: "Cümhuriyyətimiz dünyaya göstərdi ki, biz keçmişlə yaşamırıq, gələcəklə yaşayırıq, humanist dövlətik. Sovet dövründə Azərbaycan Xalq Cümhuriyyətinin adı belə çəkilmirdi, indi isə həmin dövrün həqiqi tarixi dərindən öyrənilir və təqdim olunur".

Konfrans işini bölmə iclaslarında davam etdirib. İclaslarda Cümhuriyyətin cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, həyata keçirdiyi tədbirlərin müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından böyük əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Dövlət İdarəçilik Akademiyasında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı elmi konfrans keçirilib

Mayın 25-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş tədbirlər çərçivəsində "İnnovativ inkişafda dövlət və özəl sektorların qarşılıqlı münasibətlərinin idarə olunması" mövzusunda respublika elmi konfransı keçirilib.

Konfransda çıxış edən Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov müsəlman Şərqində ilk demokratik respublikanın məhz Azərbaycanda yaradılmasının əhəmiyyətini vurğulayıb. Bildirib ki, ümummilli lider Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə, ölkəmizlə bağlı həqiqətlərin üzə çıxarılmasına və dünyaya çatdırılmasına hər zaman böyük diqqət yetirib.

Prezident İlham Əliyevin Sərəncamı ilə 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsini xalqımızın həyatında mühüm hadisə kimi dəyərləndirən rektor vurğulayıb ki, bu, müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinə verilən tarixi qiymətdir. O, ölkəmizdə unikal idarəçilik texnologiyalarının tətbiqi, çevik dövlət idarəetmə sisteminin formalaşması, elmə əsaslanan innovativ inkişaf strategiyasının reallaşdırılması, dövlət quruculuğu və dövlət qulluğunun inkişafı proseslərində ümummilli lider Heydər Əliyevin, onun layiqli davamçısı Prezident İlham Əliyevin misilsiz xidmətlərini qeyd edib. Diq-qətə çatdırıb ki, ölkənin qısa müddətdə iqtisadi və sosial sahədə qazandığı yüksək nailiyyətlər, XXI əsrin çağırışlarının həllinə yönəlmiş dünya əhəmiyyətli təşəbbüsləri, ildən-ilə artan beynəlxalq nüfuzu Azərbaycanı bir çox istiqamətlərdə regional və qlobal liderə çevirib. Beynəlxalq təşkilatların rəsmi məlumatlarına əsasən, Azərbaycan son illərdə bir çox davamlı inkişaf göstəricilərinə və sosial indikatorlara görə, dünya liderləri olan "Böyük İyirmilik" və "Böyük Yeddilik" ölkələrinin əksəriyyətini üstələyir. 2018-ci ilin yanvarında keçirilən Davos Forumunun hesabatında inklüziv inkişaf indeksinə görə, Azərbaycan keçid iqtisadiyyatına malik ölkələr arasında üçüncü yerdə qərarlaşaraq, iqtisadi göstəriciləri daha yüksək olan bir sıra Avropa İttifaqı ölkələrini geridə qoyub. Akademik U.Ələkbərov bu uğurların kökündə yalnız mükəmməl idarəçilik və dövlət institutlarının, vətəndaş cəmiyyətinin və özəl sektorun birgə fəaliyyətinin dayandığını bildirib. O qeyd edib ki, bu istiqamətdə və ümumiyyətlə, innovativ inkişaf strategiyasının formalaşdırılmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın fəaliyyəti olduqca əhəmiyyətlidir.

Sonra məruzə ilə çıxış edən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı rəhbərlik etdiyi qurumun fəaliyyəti haqqında məlumat verib. Diqqətə çatdırıb ki, Cümhuriyyət xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə ölkəmizin gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlayıb. Qısa müddətdə tarixi bir missiyanı yerinə yetirən Azərbaycan Xalq Cümhuriyyəti genişmiqyaslı islahatlar həyata keçirib.

İcraçı direktor müasir müstəqil Azərbaycanın uğurları haqqında danışaraq qeyd edib ki, dünya bazarında neftin qiymətinin dəyişməsindən sonra Azərbaycanda yeni ciddi islahatlar start götürüb. İndiki halda əsas hədəf əldə edilmiş makroiqtisadi nailiyyətlərin real sektorun orta və uzunmüddətli davamlı inkişafa transformasiya edilməsidir. Xüsusilə maliyyə-bank sektorunun sağlamlaşdırılması, biznes mühitinin təkmilləşdirilməsi üzrə Tədbirlər Planının icrası və investisiya qoyuluşunun artması ölkə iqtisadiyyatının inkişaf tempinin davam edəcəyini göstərir. Vüsal Qasımlı İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin dövlət-özəl sektor dialoqu üçün bir platforma olaraq islahatların inklüzivliyi, effektivliyi və kommunikasiyası istiqamətində bütün maraqlı tərəflərlə əməkdaşlığa hazır olduğunu da dilə gətirib.

Dövlət İdarəçilik Akademiyasının dekanı, professor Xatirə Hüseynova hazırda dünyada gedən siyasi və iqtisadi proseslərin ölkə iqtisadiyyatının rəqabət qabiliyyətini artırmaq,

qeyri-neft sektorunun əsaslı inkişafını təmin etmək, insan kapitalından səmərəli istifadə kimi prioritet istiqamətlərin ön planda olması zərurətini yaratdığını bildirib. O qeyd edib ki, qloballaşan dünyada yeni iqtisadi çağırışlar davamlı rəqabət üstünlüyü üçün bütün aspektlərdə innovasiya fəallığını, iqtisadi və təşkilati-idarəetmə yeniliklərini zəruri edir. X.Hüseynova, həmçinin biznes qurumlarının yeni auditoriya əldə etmək yollarının öyrənilməsi baxımından dövlət dəstəyinin vacib olmasına diqqət çəkib.

Sonra konfrans bölmə iclaslarında işini davam etdirib. Konfransın işində 30-dan çox dövlət qurumunun və özəl təşkilatın təmsilçiləri iştirak ediblər.

Dövlət İdarəçilik Akademiyasında "Multikulturalizm-Azərbaycan Respublikasının dövlət siyasəti kimi" istiqaməti üzrə qısamüddətli ixtisasartırma kursu keçirilib

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Multikulturalizm-Azərbaycan Respublikasının dövlət siyasəti kimi" istiqaməti üzrə qısamüddətli ixtisasartırma kursu keçirilmişdir. Kursa dövlət orqanlarında çalışan müvafiq dövlət qulluqçuları cəlb olunmuşlar.

Bu istiqamətdə kursun əsas məqsədi Etnik-mədəni müxtəlifliyin tənzimlənməsində assimilyasiya, izolyasiya və multikulturalizm siyasətlərinin müqayisəli təhlili, Azərbaycanın müasir iqtisadi-sosial inkişafı və multikulturalizm, Azərbaycanda islami dəyərlər: tarixilik, varislik və müasirlik, Azərbaycandakı dini müxtəliflik multikulturalizm kontekstində və s. problemlərlə bağlı biliklərin dinləyicilərə çatdırılması və onlar ilə fikir mübadiləsinin aparılması idi.

Kurs ərzində "Multikulturalizm-Azərbaycan Respublikasının dövlət siyasəti kimi" istiqaməti üzrə – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Millətlərarası Münasibətlər, Multikulturalizm və Dini Məsələlər şöbəsinin müdiri, professor Etibar Nəcəfov, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov, Azərbaycan Respublikasının Dini Qurumlarla İş

üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Millətlərarası Münasibətlər, Multikulturalizm və Dini Məsələlər şöbəsinin böyük məsləhətçisi, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov və baş məsləhətçisi Müzəffər Talıblı, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivinin baş məsləhətçisi – elmi katib Həcər Verdiyeva, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktor əvəzi Rəvan Həsənov, AMEA Fəlsəfə Hüquq İnstitutunun direktoru, professor İlham Məmmədzadə, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Vasif Eyvazzadə, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici Əlaqələr şöbəsinin müdiri Nicat Məmmədli, DİA-nın dosenti Tarix kafedrasının müdiri Firdovsiyyə Əhmədova müxtəlif mövzularda mühazirələrlə çıxış etmişlər.

Kursun sonunda Akademiyanın rektoru akademik Urxan Ələkbərov və Akademiyanın tədris işləri üzrə I prorektoru professor Əlikram Abdullayev dinləyicilər qarşısında çıxış etmiş və onlara kursu müvəffəqiyyətlə bitirdiklərinə görə sertifikatlar təqdim edərək gələcək işlərində uğurlar arzu etmişlər.

Dövlət İdarəçilik Akademiyasında Tələbə Elmi Cəmiyyəti dəyirmi masa keçirmişdir

29 may 2018-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Tələbə Elmi Cəmiyyəti Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə "Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində ilk demokratik dövlət nümunəsi kimi" mövzusunda Dəyirmi masa keçirmişdir.

Tədbirdə giriş sözü ilə DİA-nın rektoru, akademik Urxan Ələkbərov çıxış edərək yüz il bundan əvvəl – 28 may 1918-ci il tarixində Müsəlman Şərqində ilk demokratik respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının xalqımızın dövlətçilik tarixində şanlı bir səhifə olduğunu vurğulayaraq, AXC-nin qurulmasının 100 illik yubileyi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı 2017-ci il 16 may tarixli Sərəncamı və 2018-ci ilin Azərbaycanda «Azərbaycan Xalq Cümhuriyyəti ili» elan edilməsinin mühüm əhəmiyyət kəsb etdiyini bildirmiş, cəmi 23 ay yaşamış AXC-nin qısa zamanda əldə etdiyi nailiyyətlər və uğurlardan söz açmışdır. Natiq Xalq Cümhuriyyəti dövründə əsası qoyulan müstəqillik, dövlətçilik ənənələrinin Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində davam etdirildiyini, müasir dövrdə Cumhuriyyətin layiqli varisi müstəqil Azərbaycanın təməli Ulu öndərimiz tərəfindən qoyulmuş və Prezident İlham Əliyevin yeni keyfiyyət səviyyəsində davam etdirdiyi daxili və xarici siyasət nəticəsində demokratiya quruculuğu yolu ilə uğurla irəlilədiyini və dünyada özünün xüsusi çəkisi və yeri olan bir dövlətə çevrildiyini qeyd etmişdir. Rektor çıxışının sonunda tələbə və magistrantların Azərbaycan Xalq Cümhuriyyətinin tarixi və fəaliyyətinin öyrənilməsinə göstərdikləri diqqəti olduqca təqdirəlayiq hesab etdiyini xüsusi vurğulamış və Dəyirmi masa iştirakçılarına uğurlar arzulamışdır.

Sonra DİA Tələbə Elmi Cəmiyyətinin sədri, dosent Sevil Məmmədovanın aparıcılığı ilə öz işini davam edən Dəyirmi masada "AXC dövründə demokratik islahatlar" (Mehdi Mehdiyev), "AXC dövründə dövlət idarəçilik orqanlarının formalaşması" (Rövşən Teymurzadə), "AXC-nin parlamentində siyasi qüvvələr nisbətinin mənzərəsi" (Şahnaz Əmirova), "Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi islahatları" (Həbib İsmayilov), "AXC-nin xarici iqtisadi əlaqələrinin qurulması" (Səmayə Paşayeva), "AXC dövründə erməni separatizminə qarşı mübarizə" (Elburus Edilov), "AXC-nin neft siyasəti" (Cəfər Cəfərov), "AXC dövründə regionda geosiyasi vəziyyət" (Elvin Hacıyev), "Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti" (Fidan Həsənova),

"AXC Azərbaycanın gələcək müstəqilliyi üçün zəmin kimi" (Şəbnəm Ağazadə), "Müasir Azərbaycanın sürətli və davamlı inkişafı" (Reyhanə Məmmədtağıyeva) və s. mövzularda tələbə və magistrantların çıxışları dinlənilmiş, geniş fikir mübadiləsi aparılmış, bundan sonra Azərbaycan Xalq Cümhuriyyətinin müstəqil dövlətçilik fəaliyyətinin daha dərindən araşdırılması bir vəzifə olaraq Tələbə Elmi Cəmiyyəti üzvlərinin qarşısına qoyulmuşdur.

"Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər" mövzusunda distant təlim keçirilib

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi birgə "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirləri" mövzusunda distant təlim keçirilib.

Distant təlimin əsas məqsədi ölkənin inkluziv inkişafı, elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı hədəflərin yeni istiqamətləri, strateji yol xəritələrinin icrasında yerli icra hakimiyyətlərinin rolu, strateji yol xəritələrinin monitorinqi və qiymətləndirilməsi: 2017-ci ildəki monitorinq və qiymətləndirmənin təhlili və s. kimi mövzular ilə bağlı biliklərin dinləyicilərə çatdırılması və onlar ilə fikir mübadiləsinin aparılmasıdır.

Əsasən yerli icra hakimiyyətlərinin əməkdaşları üçün nəzərdə tutulan təlimdə, DİA-nın rektoru, akademik Urxan Ələkbərov, İİTKM-in icraçı direktoru Vüsal Qasımlı acılış nitqi ilə çıxış ediblər.

DİA-nın rektoru, akademik Urxan Ələkbərov Heydər Əliyev siyasətinin uğurlu nəticələrindən danışıb, Ulu Öndərin ideyalarının Prezident İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirildiyini bildirib. Rektor Azərbaycanın iqtisadiyyatının sürətlə inkişaf etdiyini konkret faktlarla diqqətə çatdırıb. Qeyd olunub ki, dahi rəhbər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident İlham Əliyevin uğurla inkişaf etdirdiyi innovativ idarəetmə texnologiyalarının nəzəri əsaslarının işlənilməsi, onların təcrübədə tətbiqi nəticəsində bir sıra iqtisadi və sosial göstəricilərinə görə müasir Azərbaycan Respublikası hazırda yüzillik tarixi olan və dünya liderləri sayılan ölkələrlə rəqabət aparmaq durumundadır. Dövlətimizin başçısının tətbiq etdiyi və dünya miqyasında ilk dəfə işlənilmiş sinergetik, kompensator idarəçilik texnologiyaları sayəsində 2018-ci ilin yanvarında keçirilən Davos forumunun hesabatında Azərbaycanın inklüziv inkişaf indeksi bir çox Avropa İttifaqına üzv olan dövlətlərin göstəricilərindən yüksəkdir.

Akademik U.Ələkbərov ölkənin beynəlxalq iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsində müstəsna əhəmiyyətə malik elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı qərarların Azərbaycanın müasir tərəqqisində mühüm rolunu vurğulayıb. U.Ələkbərov Azərbaycanın uğurlu inkişafınında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xüsusi rolu olduğunu qeyd edib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı diqqətə çatdırıb ki, Azərbaycan iqtisadiyyatında aparılan davamlı iqtisadi islahatlar bəhrəsini verməkdədir. Ölkədə Prezident İlham Əliyevin rəhbərliyi ilə elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçidlə bağlı, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, xidmətlərin elektron qaydada göstərilməsi sahəsində bu günədək bir sıra normativ aktlar qəbul edilib, hüquqi baza formalaşdırılıb.

Vüsal Qasımlı vurğulayıb ki, məhz strateji ol xəritələrindən biri də Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına həsr edilib. Burada göstərildiyi kimi elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçiddə əsas məqsəd, xidmətlərin göstərilməsi zamanı vətən-

daşlarla birbaşa təmasını aradan qaldırmaqla şəffaflığı təmin etmək həmçinin, xidmətlərin daha əlçatan olmasıdır.

İcraçı direktor deyib ki, Azərbaycanın "Doing Business" hesabatında ən islahatçı ölkə statusunu saxlaması da təsadüfi deyil. Çünki, 2018-ci ildə açıqlanacaq "Doing Business-2019" hesabatında Azərbaycanın mövqeyinin gücləndirilməsini təmin edəcək – biznesə başlama, tikinti üçün icazələrin alınması, elektrik təchizatı şəbəkələrinə qoşulma, əmlakın qeydiyyatı, kreditlərin alınması, kiçik investorların maraqlarının qorunması, vergilərin ödənilməsi, xarici ticarətin aparılması, müqavilələrin icrasının təmin edilməsi və müəssisənin bağlanması - islahat istiqamətləri üzrə ciddi iqtisadi islahatlar aparılıb.

Vüsal Qasımlı əlavə edib ki, İİTKM tərəfindən gerçəkləşdirilən Azexport portalı, Rəqəmsal Ticarət Qovşağı, vahid online ixrac ərizəsi, EnterpriseAzerbaijan.com saytı kimi layihələr də rəqəmsal iqtisadiyyat quruculuğuna töhfədir.

Daha sonra İqtisadi İslahatların Təhlili və Kommunikasiya mərkəzinin Strateji planlaşdırma və inkişaf departamentinin rəhbəri Ramil Hüseyn "Strateji yol xəritəsinin icrasında yerli icra hakimiyyətlərinin rolu", mərkəzin makroiqtisadçısı Faiq Qasımlı "Strateji yol xəritəsinin monitorinqi və qiymətləndirilməsi" mövzularında mühazirələrlə çıxış ediblər.

Qeyd edək ki, distant təlim Prezident İlham Əliyevin "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı" Fərmanına əsasən keçirilib.

Dövlət İdarəçilik Akademiyasında Milli Qurtuluş Günü qeyd edilib

İyunun 14-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında 15 iyun-Milli Qurtuluş Gününə həsr olunmuş elmi-praktik konfrans keçirilib.

Əvvəlcə tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin bu ali məktəbdəki büstü önünə güllər düzüb, əziz xatirəsini ehtiramla anıblar. Sonra konfrans DİA-nın nəzdində fəaliyyət göstərən "Heydər Əliyev Dövlət İdarəçilik Məktəbi"ndə davam etdirilib.

Tədbirdə DİA-nın rektoru, akademik Urxan Ələkbərov müasir müstəqil dövlətimizin qurucusu və memarı, ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərini vurğulayıb. Heydər Əliyev siyasətinin uğurlu nəticələrindən danışan rektor dahi rəhbərin ideyalarının Prezident İlham Əliyev tərəfindən əzmlə həyata keçirildiyini, Azərbaycanın çox sürətlə inkişaf etdiyini bildirib.

Rektor müstəqil Azərbaycanın memarı və qurucusu, Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışını müstəqillik tarixinə "Milli Qurtuluş Günü" kimi daxil olmasından, 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə yenidən gələn Ulu Öndərin Azərbaycanı parçalanmaqdan, məhv olma təhlükəsindən və vətəndaş müharibəsindən xilas etdiyini xatırlatmışdır.

Rektor qeyd edib ki, bu gün dahi rəhbər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident İlham Əliyevin uğurla inkişaf etdirdiyi innovativ idarəetmə texnologiyalarının nəzəri əsaslarının işlənilməsi, onların təcrübədə tətbiqi nəticəsində bir sıra iqtisadi və sosial göstəricilərinə görə müasir Azərbaycan Respublikası hazırda yüzillik tarixi olan və dünya liderləri sayılan ölkələrlə rəqabət aparmaq durumundadır. Dövlətimizin başçısının tətbiq etdiyi və dünya miqyasında ilk dəfə işlənilmiş sinergetik, kompensator idarəçilik texnologiyaları sayəsində 2018-ci ilin yanvarında keçirilən Davos forumunun hesabatında Azərbaycanın inklüziv inkişaf indeksi Latviya, Polşa, Rumıniya, Bolqarıstan, Xorvatiya, İtaliya, İspaniya, Portuqaliya, Yunanıstan kimi Avropa İttifaqına üzv olan dövlətlərin göstəricilərindən yüksəkdir. U.Ələkbərov müstəqil Azərbaycanın uğurlu inkişafınında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xüsusi rolu olduğunu qeyd edib.

Elmi-praktik konfransda çıxış edən Milli Məclisin deputatı, DİA-nın "Siyasi araşdırmalar institutu"nun direktoru, professor Elman Nəsirov, Milli Məclisin deputatı, DİA-nın "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının dosenti Aydın Mirzəzadə, Siyasi idarəetmə fakültəsinin dekanı, professor, Qarabağ araşdırmalar mərkəzinin rəhbəri Elçin Əhmədov, Hüquq-1 kafedrasının müdiri, dosent Fəxrəddin Nağıyev və digər məruzəçilər ümummilli lider Heydər Əliyevin şəxsiyyətinin böyük-lüyündən, ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu islahatlardan bəhs edib, Ulu Öndərin Azərbaycanın dövlətçilik maraqlarını həmişə üstün tutduğunu vurğulayıblar. Məruzələrdə qeyd edilib ki, Ümummilli lider Heydər Əliyev xalqın təkidli dəvətini qəbul edib Bakıya gəldi. Xilaskarlıq missiyasını öz üzərinə götürən dahi şəxsiyyət həyatını təhlükə altında qoyaraq Gəncəyə getdi. Hadisələrin daha faciəli nəticələrə gətirib çıxarmaması üçün öz müdrik, ağsaqqal sözünü dedi, vətəndaş qarşıdurmasının qarşısını aldı. Heydər Əliyevin xilaskarlıq missiyası tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Ulu Öndər Heydər Əliyevin respublika rəhbərliyinə vaxtında və yenidən qayıdışı ölkəmizi məhv olmaqdan qurtarmış, onun qətiyyəti xalqa ruh yüksəkliyi gətirmiş, ölkədə sabitlik və əmin-amanlıq yaratmışdır.

Qafqaz İslam Ordusu Azərbaycan-Türkiyə əməkdaşlığının şanlı səhifəsidir

İyunun 21-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) "Qafqaz İslam Ordusu - Azərbaycan-Türkiyə əməkdaşlığının şanlı səhifəsi" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

Tədbirdə çıxış edən DİA-nın rektoru, akademik Urxan Ələkbərov konfransın qardaş ölkənin Türkiyə və Orta Şərq Dövlət İdarəçiliyi İnstitutu ilə birgə təşkil olunduğunu söyləyib. Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaranmasının 100 illiyinin ölkəmizdə dövlət səviyyəsində qeyd olunduğunu deyən rektor bugünkü konfransın Qafqaz İslam Ordusunun xalqımızın tarixindəki yeri və roluna həsr edildiyini bildirib.

Qeyd edilib ki, XX əsrin əvvəlində - çox mürəkkəb tarixi şəraitdə Türkiyənin Azərbaycana hərbi yardımı Nuru Paşanın komandanlıq etdiyi Qafqaz İslam Ordusunun timsalında həyata keçirilib. Bakının və ətraf qəzaların erməni-bolşevik işğalından xilas olmasında Qafqaz İslam

Ordusu mühüm xidmətlər göstərib. Qafqaz İslam Ordusu bu şanlı tariximizin bir hissəsidir. Həmin ənənələr üzərində qurulan Azərbaycan bu gün dünyanın aparıcı ölkəsinə çevrilib. Müasir dövrdə ölkəmiz bütün sahələrdə sürətlə inkişaf edir və statistik göstəricilərinə görə dünyada 23-cü yerdədir.

Türkiyə və Orta Şərq Dövlət İdarəçiliyi İnstitutunun baş direktoru, professor Onur Ender Aslan ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərindən söz açıb, DİA ilə müxtəlif sahələrdə yüksək səviyyədə əməkdaşlıq etdiklərini söyləyib. Bu münasibətlərin 25 ildən coxdur ki, davam etdiyini bildirən qonaq əməkdaşlıq çərçivəsində hər iki ali məktəb tərəfindən təhsil, elmi tədqiqat, müxtəlif proqramlar və digər sahələrdə əlaqələrin qurulduğunu, birgə konfrans və tədbirlərin təşkil olunduğunu söyləyib. Qafqaz İslam Ordusunun 1918-ci ildə Bakının daşnak-bolşevik işğalından azad olunmasında göstərdiyi xilaskarlıq missiyasının Azərbaycanda və Türkiyədə hər zaman təqdirlə qarşılandığını deyən baş direktor Çanaqqala döyüşlərində azərbaycanlıların da könüllü olaraq iştirak etdiklərini xatırladıb, bu dəyərlərin gələcək nəsillərə çatdırılmasında konfransın əhəmiyyətini qeyd edib. O, ölkələrimizin hər zaman bir-birinin yanında olduğunu və bu qardaşlıq münasibətlərinin qədim tarixi köklərə bağlılığını diqqətə çatdırıb.

DİA-nın dosenti, tarix üzrə fəlsəfə doktoru Firdovsiyyə Əhmədovanın "Qafqaz İslam Ordusu: missiyası və əhəmiyyəti", türkiyəli professor Səlma Velin "100 ilində Azərbaycan Xalq Cümhuriyyətinin quruluşu və Böyük İslam Ordusunun köməyi", tarix elmləri doktoru Mehman Süleymanovun "Qafqaz İslam Ordusunun yaranması və Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizəsi", Miyasə Koyuncu Kayanın "1918-ci ildə Qafqaz (Azərbaycan) məsələlərinin Osmanlı mətbuatında əks olunması", tarix üzrə fəlsəfə doktoru Akif Aşırlının "Azərbaycan Cümhuriyyəti mətbuatında Qafqaz İslam Ordusu" mövzularında məruzələri dinlənilib. Məruzələrdə Qafqaz İslam Ordusunun yaranmasından, 1918-ci ildə Bakının daşnak-bolşevik işğalından azad olunmasında Nuru Paşanın rəhbərliyi ilə ordunun və Azərbaycan Korpusunun göstərdiyi xilaskarlıq missiyasından bəhs edilib.

Dövlət İdarəçilik Akademiyasında məzun günü qeyd edilib

İyunun 28-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) 2017-2018-ci tədris ilinin məzunları üçün "Məzun Günü" keçirilib.

Tədbirdə DİA-nın I prorektoru, prof Əlikram Abdullayev ali məktəbin fəaliyyəti, qazanılan nailiyyətlərdən danışıb. Natiq məzunları təbrik edərək, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

DİA-nın inzibati idarəetmə fakültəsinin dekanı, professor Xatirə Hüseynova və digər çıxış edənlər də məzunları təbrik edib, onlara xoş arzularını bildiriblər.

MÜNDƏRİCAT

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətinin qısa xronikası.....7

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qəbulları.....15

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səfərləri.....35

Türkiyə Respublikasına rəsmi səfər 35
Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına səfər.....40
Xaçmaz rayonuna səfər 41
Xızı rayonuna səfər.....44
Naxçıvan Muxtar Respublikasına səfər 47
Goranboy rayonuna səfər.....53
Türkiyə Respublikasına səfər 61
Rusiya Federasiyasına işgüzar səfər 63

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları və müsahibələri 65

Qoşulmama Hərəkatının nazirlər konfransının açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin nitqi.....65

Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi 67

Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Azərbaycan Prezidenti İlham Əliyevin yekun nitqi.....71

İlham Əliyevin andiçmə mərasimində nitqi.....77

Ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Prezidenti İlham Əliyevin nitqi.....83

"Qobu Park" yaşayış kompleksinin açılışında Azərbaycan Prezidenti İlham Əliyevin nitqi 88

ADA Universitetində keçirilən məzun günündə Azərbaycan Prezidenti İlham Əliyevin nitqi 90

Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə təşkil olunan rəsmi qəbulda Azərbaycan Prezidenti İlham Əliyevin nitqi.....92

Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin nitqi ...96

Müqəddəs Ramazan ayı münasibətilə keçirilən iftar mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin nitqi.....100

SİYASİ NƏZƏRİYYƏ

Али Гасанов. Гейдар Алиев и учение о национальной государственности — Азербайджанство 103

REGİONLAR

Musa Şəkiliyev. Uğurlu siyasətin nəticəsi: Qax rayonu inkişaf yolunda 113

DÖVLƏT İDARƏÇİLİYİ

Qafar Əliyev. Müasir Azərbaycan dövlətinin memarı, xilaskarı və qurucusu – Heydər Əliyev 125

ARXEOLOGİYA

Əsədulla Cəfərov. Qarabağ və onun tarixini saxtalaşdırmaq cəhdləri.....139

BEYNƏLXALQ MÜNASİBƏTLƏR

Rövşən Məmmədov. Cənubi Qafqaz regionu: erməni terrorunun doğurduğu real təhdidlər və tarixi həqiqətlər 151

Aynur Farmanova. Mrs. Mehriban Aliyeva's Role in Expanding of International-Cultural Relations of Azerbaijan.....161

DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ

Elshan Ahmadov. Sustainable Water Resources Management through Adaptive Governance, Polycentricity and Collective Good Theory.....171

SOSİAL PEDAQOGİKA

Лейли Гулиева. Гендерное воспитание студентов 185

SOSİAL STRUKTUR, SOSİAL İNSTİTUTLAR VƏ PROSESLƏR

Xalid Niyazov. Müasir informasiya cəmiyyətində informasiya təhlükəsizliyi məsələlərinin media kontenti.....193

VƏTƏN TARİXİ

Vasif Qafarov. 1918-ci ilin yazında Azərbaycandan Osmanlı dövlətinə göndərilən ilhaqnamələr və ilhaq heyətləri 205

Kamran İsmayilov. Azərbaycan Xalq Cümhuriyyəti və Azərbaycançılıq məfkurəsi 213

GƏNC TƏDQİQATÇILAR

HÜQUQ

Aygün Mehdiyeva. Ayrı-seçkiliyin anlayışı və hüquqi məzmunu, ona qarşı mübarizə 235

DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ

Javid Huseynli. CSR (Corporate Social Responsibility) as a Part of the Sustainable Development 241

SİYASİ NƏZƏRİYYƏ

Bəhruz Nəzərov. Dinc etiraz aksiyaları və "rəngli" inqilablar idarəolunan xaosun forma və vasitələri kimi 253

Эльчин Зейналов. К вопросу о развитии мультикультурализма в Азербайджанской Республике 265

MÜƏSSİSƏLƏRİN TƏŞKİLİ VƏ İDARƏ OLUNMASI

Coşqun Məmmədov. Alternativ və bərpa olunan enerji mənbələrinin inkişafında elmi tədqiqatların rolu.....277

BEYNƏLXALQ MÜNASİBƏTLƏR

Лала Талыбова. Борьба мировых держав за трубопроводы на Южном Кавказе 289

Nisə Paşayeva. Gənclər siyasətinin həyata keçirilməsində iştirak edən dövlət və qeyri-dövlət qurumlarının yeri və rolu 299

Dövlət İdarəçilik Akademiyasında 307

Dövlət idarəçiliyi:
nəzəriyyə və təcrübə

Elmi-nəzəri jurnal

2018, №2(62)

Azərbaycan Respublikasının Prezidentinin fəaliyyətini
əks etdirən bölməni *siyasi elmlər doktoru, professor E.Nəsirov,*
siyasi elmlər doktoru, professor E.Əhmədov,
psixologiya üzrə fəlsəfə doktoru, dosent B.Haqverdiyev
və müəllim *F.Şammədov*
AzərTAc-ın materialları əsasında hazırlamışlar.

Məqalələrin xülasəsini ingilis dilinə *Şəbnəm Həsənova* tərcümə etmişdir.

Redaktoru ***Günay Maqsudova***
Kompüter dizayneri ***İradə Təhməzova***
Korrektoru ***İradə Təhməzova***

Lisenziya: AB № 022732,
Qeydiyyat № b 532, 08.04.2003-cü il.
Redaksiyanın ünvanı:
Bakı, Az-1001, Lermontov küç., 74
(Dövlət İdarəçilik Akademiyası).
E-mail: publishing@dia.org.az
Telefonlar: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86
Fax: (012) 492-65-15

«Təhsil Nəşriyyat-Poliqrafiya» müəssisəsinin
mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.
Sifariş 120. Tiraj 1000.

Journal of Public Administration:
Theory and Practice

Scientific and theoretical journal

2018, №2(62)

The section covering activities the President of the Republic of Azerbaijan is prepared on the basis of AzərTAC materials and is compiled by
E.Nasirov, Dr. of political sciences, professor;
E.Ahmadov, Dr. of political sciences, professor;
Dr. B. Hagverdiyev, Ph.D. in Psychology, assistant professor
and *F.Shammedov,* lecturer, all from Academy of Public Administration.

Summary of the articles were translated into English by *Shabnam Hasanova*.

Editor ***Günay Maqsudova***
Computer designer ***Irada Tahmazova***
Corrector ***Irada Tahmazova***

License: AB No. 022732
Registration No. b 532, 08.04.2003
Address of Publisher:
Baku, Az-1001, Lermontov st., 74
(Academy of Public Administration)
E-mail: publishing@dia.org.az
Phone: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86
Fax: (012) 492-65-15

Printed from the ready-made diapositives in the printing-house
of «Tahsil Publishing-Polygraphy»
Order 120. Number of copies printed 1000.

«Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə» jurnalına məqalələrin təqdimolunma qaydası

1. Məqalə Azərbaycan, İngilis və Rus dillərində qəbul edilir.
2. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifələri, ad və soyadları, çalışdıqları qurum və elektron poçt (e-posta) ünvanları yuxarıda sağ tərəfdə göstərilir.
3. Məqalənin həcmi 8 səhifədən az olmamalı (Microsoft Word formatında), 1,5 (bir tam onda beş) intervalla, Times New Roman 12 şriftilə yazılmalı, A4 formatında və elektron daşıyıcıda təqdim olunmalıdır.
4. Məqalədə xülasə (Azərbaycan, İngilis və Rus dillərində), açar söz (Azərbaycan, İngilis və Rus dillərində, ən çox 6 söz) qeyd olunmalıdır.
5. Məqalənin xülasəsi məqalənin məzmununa uyğun olmalı, 150-200 sözdən çox olmamalı, tədqiqatın məqsədini, əhəmiyyətini və elmi dövriyyədəki yerini, istifadə edilən metodları, tətbiq dairəsini göstərməlidir.
6. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. aydın şəkildə qeyd olunmalıdır.
7. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir. Məqalədə istinad olunmuş mənbələr ədəbiyyat siyahısında əlifba sırası ilə yazılmalı və nömrələnməlidir. İstinad olunmuş mənbənin ədəbiyyat siyahısındakı nömrəsi və səhifə nömrəsi mətndəki istinaddan sonra kvadrat və ya adi mötərizədə göstərilir. Məsələn (39, s.127-128), [27, s.237] və s.
8. Məqalələr orijinal olmalı və əvvəllər başqa yerli və ya beynəlxalq jurnallara, konfranslara təqdim edilməməlidir.
9. Məqalələr gizli rəyçilərin rəyindən sonra redaksiya heyətinin qərarı ilə çapa tövsiyə edilir.

Procedure for Submitting Articles to the Journal «Public Administration: Theory and Practice»

1. The article is accepted in Azerbaijani, English and Russian languages.
2. The title of the article, the author (s), author's (s') academic affiliation, titles, names and surnames, workplace and electronic mail address (e-mail) addresses should be displayed above on the right side.
3. The content of the article should be no less than 8 pages (in Microsoft Word format), 1,5 space, Times New Roman 12 fonts and must be submitted electronically in A4 format.
4. The article should contain summary, (English, Russian and Azerbaijani languages), keyword (English, Russian and Azerbaijani languages, no more than six words)
5. The summary of the article must be in line with the content of the article, should not exceed 150-200 words, must indicate the purpose and importance of the research, the methods that used as well as the scope of the study.

6. At the end of the scientific article, the scientific originality and the importance of the emprisicm should be clearly stated in accordance with the character of the scientific field and article.
7. The article should contain references to scientific sources. The scientific articles, monographs and etc.that have been written for the last 5-10 years should be preferred. The sources referred in the article must be listed in an alphabetical order in the reference list. The number and page number of the referred article in the reference list should be displayed in parantheses or brackets after the reference in the text. For instance, (39, p.127-128), [27, s.237] and etc.
8. The articles should be original and should not be previously submitted to other local or international journals and conferences.
9. The articles are recommended to publication by the decision of journal's editorial board after the opinion of peer reviewers.

Правила предоставления статей для публикации
в журнале «Государственное управление: теория и практика»

1. Статья принимается на азербайджанском, английском и русском языках.
2. Название статьи, автор(ы), ученая степень автора(ов), занимаемая должность, имя и фамилия автора(ов), организация, где они работают, адрес электронной почты указываются в верхнем правом углу.
3. Объем статьи не должен быть менее 8 страниц (в формате Microsoft Word), с междустрочным интервалом - 1,5 (полуторный), размером шрифта – 12 пт в формате А4 и должен предоставляться на электронном носителе.
4. В статье должны быть указаны резюме (азербайджанском, английском и русском языках), ключевые слова (на азербайджанском, английском и русском языках, не более 6-ти слов).
5. Резюме статьи должно соответствовать содержанию статьи, и не превышать 150-200 слов, должны быть указаны цель, значимость и место в научном обороте исследования, используемые методы, сфера применения.
6. В конце научной статьи в соответствии с областью науки и характером статьи должны быть чётко сформулированы научная новизна работы, значимость её внедрения и др.
7. В статье должны быть ссылки на научные источники, преимущественно на научные статьи, монографии и др. за последние 5-10 лет. Источники, на которых были ссылки в статье, должны быть пронумерованы и включены в список литературы в алфавитном порядке. Номер источника и страницу, на которую была сделана ссылка, в тексте следует указать в квадратных или обычных скобках. Например, (39, s.127-128), [27, s.237] и т.д.
8. Статья должна быть оригинальной и ранее непредставленной в местные или международные журналы, конференции.
9. Статья рекомендуется к публикации по решению редколлегии после получения отзыва от тайных (неразглашаемых) рецензентов.